MƏCİD ƏFƏNDİYEV

POLİTOLOGİYA

(Ali məktəblər üçün dərslik)

Azərbaycan Respublikası Təhsil Nazirinin 14.06.2011-ci il tarixli 1115 saylı əmri ilə (protokol № 07) dərslik kimi təsdiq olunmuşdur.

BAKI – "ELM" – 2013

Elmi redaktor: **Həmid İmanov**
Fəlsəfə elmləri doktoru,
professor, əməkdar elm xadimi

Rəyçilər: **Nurqələm Mikayılov**
Fəlsəfə elmləri doktoru, professor

1
∂ 34

Əlikram Tağıyev
Fəlsəfə elmləri doktoru, professor

Arif Rüstəmov
Fəlsəfə elmləri namizədi, dosent

Nazim İbadov
Fəlsəfə elmləri namizədi, dosent

M.Ə.Əfəndiyev. Politologiya. Dərslik. Bakı, 2013, 492 səh

İSBN 978-9952-453-34-8

Dərslik siyasət haqqında elm olan politologiyanın anlayışları və kateqoriyaları sisteminin, onun başlıca problemlərinin təhlilinə həsr edilmişdir. Belə təhlilin köməyilə siyasət aləmi, siyasi həyatın qanunauyğunluqları açıqlanır və dərk edilir, siyasətin inkişaf qanunları üzə çıxarılır, insanların həyatında onun yeri və rolu müəyyənləşdirilir. Bununla bağlı müasir politologiyaya aid ədəbiyyatda əksini tapan ən əhəmiyyətli, spesifik nəzəriyyələr və konsepsiyalar əhatəli araşdırılır. Dərslik ali məktəblərin tələbələri və politologiya elminin problemləri ilə maraqlanan şəxslər üçün nəzərdə tutulmuşdur.

İndiyə kimi müəllifin 12 kitabı və monoqrafiyası, 150-dən artıq məqaləsi çap edilmişdir.

M 0301000000
655(07) – 2011

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

©. Məcid Əfəndiyev – 2013

MÜNDƏRİCAT

Ön söz 7

I BÖLMƏ
Siyasət aləmi: nəzəri əsası, təzahürü və təşəkkülünün qanunauyğunluqları

I FƏSİL. Politologiya siyasət haqqında elmdir 11
1. Politologiyanın təşəkkül xüsusiyyətləri, inkişaf qanunauyğunluqları və predmeti 11
2. Politologiyanın kateqoriyaları, funksiyaları və metodları 22
3. Politologiya sosial-humanitar elmlər sistemində 35

II FƏSİL. Siyasət cəmiyyətin tənzimləyici-nəzarətedici yarımsistemidir 40
1. Siyasətin mahiyyəti və başlıca cəhətləri 40
2. Siyasi münasibətlərin məzmunu və xarakteri 49
3. Siyasət siyasi mənafelər sferasıdır 55
4. Siyasi inkişaf və siyasi proses 63

III FƏSİL. Siyasi elita 71
1. Siyasi elitanın mahiyyəti və siyasətdə rolu 71
2. Siyasi elita: formalaşma prosesi və mexanizmi 78
3. Siyasi elitanın təsnifatı və funksiyaları 86

II BÖLMƏ
Siyasi təsisatlar sistemi

I FƏSİL. Siyasi hakimiyyət 94
1. Hakimiyyətin məzmunu və təzahür xüsusiyyətləri 94
2. Hakimiyyətin tipləri və onun legitimliyi problemi 104
3. Siyasi liderlik 113

II FƏSİL. Dövlət başlıca siyasi təsisatdır 122
1. Dövlətin mənşəyi, mahiyyəti və səciyyəvi xüsusiyyətləri 122

2. Dövlətin formaları. Dövlət hakimiyyətinin fəaliyyət mexanizmi 130
3. Müasir dövlətin inkişafında yeni meyllər 138
III FƏSİL. Siyasi partiyalar siyasi təsisatlar sistemində 144
1. Siyasi partiya anlayışı 144
2. Siyasi partiyaların təsnifatı və funksiyaları 151
3. Partiya sistemləri: tipləri, inkişaf meylləri 160

III BÖLMƏ
Demokratiya və demokratik təsisatlar

I FƏSİL. Demokratiya spesifik siyasi fenomendir 170
1. Demokratiya haqqında başlıca nəzəriyyələr 170
2. Siyasi demokratiyanın mahiyyəti və universal xarakteri 180
3. Siyasi demokratiya: formalaşma mexanizmi və ziddiyyətləri 187
II FƏSİL. Parlament başlıca demokratik təsisatdır 193
1. Parlament anlayışı: mahiyyəti, səlahiyyətləri və funksiyaları 193
2. Parlamentin strukturu 202
III FƏSİL. Seçki sistemləri 209
1. Seçkilər siyasi sistemin yeniləşməsi texnologiyasıdır .. 209
2. Seçkinin prinsipləri və funksiyaları 214
3. Seçki sisteminin tipləri 220
4. Seçki kampaniyasının strategiyası və taktikası 228

IV BÖLMƏ
Cəmiyyətin siyasi xarakteristikası

I FƏSİL. Siyasi sistem: fəaliyyət mexanizmi və inkişaf qanunauyğunluğu 234
1. Siyasi sistemin məzmunu, struktur elementləri və funksiyaları 234
2. Siyasi sistemin təsnifatı və dinamikası 244
3. Siyasi sistemlərin müqayisəli təhlili 252

II FƏSİL. Siyasi rejimlər 259
1. Siyasi rejimin mahiyyəti və təsnifatı 259
2. Demokratik siyasi rejim 265
3. Totalitar və avtoritar siyasi rejimlərin təzahür xüsusiyyətləri 275
III FƏSİL. Siyasi şüur və siyasi ideologiya 282
1. Siyasi şüur anlayışı 282
2. Siyasi şüurun strukturu və funksiyaları 288
3. Siyasi şüurun ideoloji komponenti 293
4. Müasir siyasi ideologiyalar 299
IV FƏSİL. Siyasi mədəniyyət 307
1. Siyasi mədəniyyətin mahiyyəti, məzmunu, strukturu 307
2. Siyasi mədəniyyətin funksiyaları və tipləri 314
3. Siyasi sosiallaşma 321
V FƏSİL. Vətəndaş cəmiyyəti 326
1. Vətəndaş cəmiyyətinə konseptual yanaşma 326
2. Vətəndaş cəmiyyətinin təşəkkülü və fəaliyyəti 333
3. Vətəndaş cəmiyyətinin strukturu və inkişaf istiqamətləri 338
4. Vətəndaş cəmiyyəti və dövlət 344

V BÖLMƏ
Qlobal siyasi məkanın politologiyası

I FƏSİL. Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər 348
1. Dünya siyasəti nəzəriyyəsinin problemləri 348
2. Dünya siyasəti: mahiyyəti, xüsusiyyətləri 353
3. Müasir dünya siyasətinin inkişaf meylləri və spesifikliyi 359
4. Beynəlxalq siyasi münasibətlərin komponentləri və problemləri 366
5. Müasir dünyada siyasi qaydaları müəyyənləşdirən amillər 372
6. Xarici siyasətin mahiyyəti, məqsədi və vəzifələri 377

II FƏSİL. Demokratik tranzit 384
1. Demokratik tranzit haqqında elmin təşəkkülü və inkişafı 384
2. Demokratik tranzitin nəzəri modeli 388
3. Tranzit cəmiyətdə sabitliyin vacib şərtidir 395
III FƏSİL. Modernləşmə konsepsiyası siyasi inkişafın nəzəri modeli kimi 402
1. Modernləşmə nəzəriyyəsi 402
2. Müasir modernləşmənin başlıca istiqamətləri 408
3. Modernləşmənin modelləri 414

VI BÖLMƏ
Siyasi fəaliyyət
empirik-tətbiqi siyasi biliklər kontekstində

I FƏSİL. Siyasi texnologiyalar 421
1. Siyasi texnologiya anlayışı: mahiyyəti, fərqləndirici cəhətləri, strukturu 421
2. Siyasi texnologiyalar: tipləri, istifadə edilməsi xüsusiyyətləri 428
3. Siyasi idarəetmə texnologiyası 435
II FƏSİL. Siyasi tədqiqatlar və siyasi təhlil 441
1. Siyasi tədqiqatların mahiyyəti və metodologiyası 441
2. Siyasi tədqiqatların metodologiyası siyasi təhlilin əsasıdır 446
3. Siyasi təhlil: mahiyyəti, xüsusiyyətləri, strukturu 452
4. Siyasi təhlil və siyasi məsləhətləşmə 459
III FƏSİL. Siyasi qərarların qəbulu 467
1. Siyasi qərarların mahiyyəti və hazırlanması texnologiyası 467
2. Siyasi qərarların reallaşması üsulları 474
3. Qərarın qəbulu mərhələləri 478

Ədəbiyyat 486

ÖN SÖZ

İctimai inkişafın müasir mərhələsi siyasətin rolunun artması ilə səciyyələnir. O, bu gün cəmiyyət həyatının bütün sferalarını əhatə edir. Siyasətin rolunun artması özünə xas olan konkret səbəblərdən irəli gəlir. Lakin həmin prosesi səciyyələndirən ümumi səbəblər də mövcuddur. Bu, onunla əlaqədardır ki, cəmiyyətin iqtisadi, sosial və mənəvi problemləri hazırda qlobal xarakter daşıyır, onlar bir tərəfdən daha da qarşılıqlı əlaqə, digər tərəfdən isə qarşılıqlı asılılıq kəsb edir. Həmin problemlər nəinki bütün cəmiyyət miqyasında və eləcə də beynəlxalq aləmdə həll oluna bilər və həll edilməlidir də. Siyasət ictimai həyatın elə sahəsi hesab olunur ki, ən mühüm ictimai problemlər burada təmərküzləşir və mənalandırılır, onların mexanizmi və həlli yolları yalnız siyasət sferasında işlənib hazırlanır. Politologiya öz vasitə və metodları ilə siyasətin və hakimiyyətin sirlərinə nüfuz etməyə, siyasi elitanın, liderlərin, partiyaların və kütlələrin siyasi fəaliyyətinin əsil mahiyyətini açıqlamağa imkan yaradır. Müasir politologiyanın ən əhəmiyyətli aspekti ilk öncə, siyasi fəaliyyətin səbəblərini, sonra isə məqsədlərini üzə çıxarmaqdan ibarətdir.

Bəşəriyyət tarixində heç bir fikir hakimiyyət, siyasət və dövlət haqqındakı mülahizələr qədər ziddiyyətli mahiyyət kəsb etməmişdir. Siyasət haqqında elm olan politologiyanın ən köklü problemləri məhz siyasət, siyasi hakimiyyət və dövlətdir. Bu üç problem haqqında dərin, əhatəli biliklərə yiyələnmədən politologiyanın (siyasi elmin) digər məsələləri, anlayışları və kateqoriyaları sistemi barədə düzgün təsəvvürə malik olmaq çətindir. Siyasət insan birliklərinin sivil formasını səciyyələndirir, "ümumi rifah" tarazlığını və fərdi mənafeləri təmin etməyə istiqamətlənir.

Siyasətin "sirrini" açıqlamaq, onun məntiqini, insanın mənafeyi naminə imkanlarından istifadə etməyin mümkünlüyünü başa düşmək cəhdləri XIX əsrin ikinci yarısında ABŞ-da, sonralar isə Avropada akademik fənn kimi siyasi

elmin təzahürünə səbəb oldu. Politoloji axtarışlar ilk əvvəllər konkret hadisələr, hərəkətlər, funksiyalar, təsisatlar arasındakı əlaqələrin müşahidə olunması ilə səciyyələnirdi. Sonralar bihevioriz m (politoloji cərəyan) fəaliyyətdə və qərarlarda obyektivləşən siyasi davranışın məqsəd və motivlərini diqqət mərkəzinə yönəltdi.

Müasir dövrdə müxtəlif ölkələrdə siyasi sosiologiya və ya **politologiya** adlanan **siyasi elm** (yunan dilində iki söz birləşməsindən əmələ gəlib: "polity" – siyasi qayda, vətəndaşlıq hüququ, "loqos" – bilik) siyasəti, hakimiyyətlə fərdlərin və cəmiyyətin qarşılıqlı əlaqəsini öyrənir.

Siyasət insanların həyatı ilə sıx bağlıdır. O, cəmiyyət üzvlərinin həyat fəaliyyətinin bütün tərəflərinə spesifik təsir göstərir. Siyasət insanın təbiəti ilə şərtlənir. Mürəkkəb və universal hadisə olmaq etibarilə, siyasət insanlar arasındakı qarşılıqlı əlaqə və münasibətlərin tənzimləyicisi və təkrar istehsalı prosesi kimi çıxış edir.

Bu və ya digər fərdin siyasət haqqında biliklər sistemi nə, təsəvvürə geniş və əhatəli yiyələnməsi nəinki onun, eləcə də cəmiyyətin inkişafı qanunauyğunluğundan irəli gəlir. Siyasi yetkinliyi ilə fərqlənən hər bir vətəndaş cəmiyyətin demokratikləşməsi prosesində, humanist prinsiplərin qərarlaşmasında əhəmiyyətli rol oynayır, siyasi təsisatların, xüsusilə siyasi partiyaların fəaliyyətinə özünəməxsus rasional təsir göstərir. Bu nöqteyi-nəzərdən cəmiyyət üzvlərində siyasi şüurun formalaşdırılması həyati zərurətə çevrilir. Siyasi şüur isə siyasi mədəniyyətin formalaşmasının başlıca meyarı kimi səciyyələnir. Hazırda demokratik təfəkkürün təşəkkülü zərurəti vətəndaşların siyasi şüurluluğunun, siyasi mədəniyyətinin yüksəldilməsi ilə bilavasitə bağlılıq kəsb edir.

Hazırki zamanda ictimai həyatın spesifik meyli onun xeyli mürəkkəbləşməsi və ziddiyyətli xarakterə malik olmasıdır. Həmin meyl siyasi həyatın təşkili səviyyəsinin daha da yüksəlməsi, sosial proseslərin müxtəlifliyi və ciddi dəyişikliyə məruz qalması, kollektiv məqsədlərin getdikcə ön plana keçməsi ilə nəzərə çarpır. Belə şəraitdə siyasətin əhəmiyyəti

həmişəkindən daha çox dərəcədə artır. Heydər Əliyevin qeyd etdiyi kimi, "Respublikamızda hüquqi dövlət qurulması, demokratik sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlıqlarının təmin olunması... bizim əvvəlcədən qəbul etdiyimiz prinsiplərdir".[1]

Siyasətin məzmununun nəzəri planda araşdırılması, sadəcə olaraq siyasi həyatın, siyasət aləminin müəyyənləşdirilməsi ilə məhdudlaşmır, həmçinin bu, sosial fenomenlərin əhatəli dərk olunmasını təmin etməyə istiqamətlənir. Müəllif bu cəhətin təhlilinə xüsusi diqqət yetirir. Politologiya siyasət haqqında elm olmaq etibarilə, siyasəti insanların fəaliyyət sferalarından biri, sosial fəaliyyət növü kimi də başa düşməyə kömək edir. Bu cəhət təsadüfi deyil, çünki siyasəti yaradanlar, "onun istehsalçıları" məhz dərin siyasi təfəkkür tərzinə, analitik siyasi qabiliyyətə malik olan insanlardır. Bir sözlə, siyasət adlanan sosial fenomen insanın şüurlu, məqsədyönlü fəaliyyətinin elə tərəfini ifadə edir ki, bu, siyasi subyektlərin dəyərli davranışının reallaşmasına və həmin subyektlər arasında sosial mahiyyətli faydalı münasibətlərin təmin edilməsinə yönəlir.

Politoloji ədəbiyyat siyasətin yalnız nəzəri planda öyrənilməsi ilə kifayətlənmir, eləcə də siyasi həyatın müxtəlif tərəflərinin, hadisə və proseslərinin daha əhatəli və mükəmməl səviyyədə tədqiqinə diqqət yetirir. Siyasət fərdlərin, sosial qrupların, təbəqələrin mənafe və tələbatının ifadəsi olmaqla, həm də anların təmin olunması üsullarını, vasitələrini müəyyənləşdirməlidir. Siyasətin politoloji təhlilinin ən vacib vəzifələrindən biri, siyasi fəaliyyətin müxtəlif sosial subyektlərinin real mənafelərini üzə çıxarmaqdan ibarətdir.

Cəmiyyət üzvlərinin siyasi həyatda iştirakı kortəbii deyil, şüurlu prosesdir. Siyasi fəaliyyətə şüurlu cəlb olunmaq ilk öncə, siyasət aləminə aid olan biliklərə və siyasi təcrübəyə yiyələnməklə müəyyən olunur. Belə bilik və təcrübəyə yiyələnməkdə bu kitab dəyərli rol oynaya bilər.

---

[1] Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. B., 1997, s. 8.

Siyasət haqqında elm olan politologiyanı dərindən mənimsəmək cəhdi ölkədə həyata keçirilən siyasi və iqtisadi islahatların uğurlu həllində cəmiyyət üzvlərinin fəallığına ciddi təsir göstərir. Cəmiyyətin müxtəlif sferalarında baş verən dəyişikliklər xeyli dərəcədə insanların siyasi yetkinliyi ilə bağlıdır. Belə yetkinliyi respublikamızda transformasiya şəraitində formalaşan yeni iqtisadi-siyasi sistemin qanunauyğunluğu həyati zərurətə çevirir və bununla bağlı, təbii olaraq ölkəmizdə çox az nəzərə çarpan politoloji tədqiqatların çoxalmasını və keyfiyyətcə daha da yüksəldilməsini tələb edir.

Zənnimizcə, bu kitab politologiyanın ən əhəmiyyətli və aktual problemləri ilə maraqlananların siyasi təfəkkür tərzinin, siyasi şüurunun və siyasi mədəniyyətinin zənginləşməsinə müəyyən təsir göstərəcəkdir, tələbə və müəllimlərin tələbatını təmin edəcəkdir.

Dərs vəsaiti 6 bölmə və 20 fəsli əhatə edir.

I BÖLMƏ
Siyasət aləmi: nəzəri əsası və təzahürü, təşəkkülünün qanunauyğunluqları

I FƏSİL
Politologiya siyasət haqqında elmdir

1. Politologiyanın təşəkkül xüsusiyyətləri, inkişaf qanunauyğunluqları və predmeti

Politologiyanın təşəkkülü və inkişafı mürəkkəb və çoxaspektli problemdir. "Politologiya" termini (yunanca politika – dövlət işi və ya ictimai iş, loqos – bilik, təlim deməkdir), hərfi mənada siyasət, siyasi həyat haqqında bilikləri ifadə edir. Siyasi elm nə qədər qədim tarixə malik olsa da, bir o qədər müasirdir. Hələ Qədim Yunanıstanda Aristotel "monarxiya", "oliqarxiya", "aristokratiya", "demokratiya" kimi anlayışları işlətmək zəminində siyasi rejimləri müəyyənləşdirmişdir. Həmin zamandan etibarən, siyasət bütün cəmiyyətlərin mənəvi həyatının vacib atributuna çevrilir. Politologiyanın formalaşması, sosial və humanitar elmlərin ümumi sistemindən ayrılması prosesi XIX əsrin sonu – XX əsrin əvvəllərində bir neçə onilliklər davam etmişdir. Onun bu və ya digər ölkədə hər hansı konkret zamanda yarandığını iddia etmək şərti xarakter daşıyır. Lakin bütövlükdə politologiyanın vətəni ABŞ hesab edilir. Bu elmin həmin ölkədə təşəkkülü 1880-ci ilə təsadüf edir. Kolumbiya kollecinin (sonralar Kolumbiya universiteti adlandırıldı) idarə heyəti tanınmış alim Berdcessin təşəbbüsü ilə politoloji siyasi elm məktəbinin yaradılması barədə qərar qəbul etdi. Elə həmin vaxtdan etibarən, dissertasiyalar yazılması və müdafiəsi əsasında elmi kadrların hazırlanması sistemi həyata keçirildi. Kolumbiya universitetinin gəşəbbüsü ilə C.Qopkins universitetinin və ABŞ-ın digər böyük ali məktəblərinin alimləri bu istiqamətdə ciddi fəaliyyət göstərdilər.

Qeyd etmək lazımdır ki, XX əsrin ilk onilliklərinə qə-

dər politologiya "yeni" elm kimi başa düşülürdü, hətta onun mövcudluğu hüququnun "qanuniliyi" ilə bağlı diskusiyalar hələ davam etməkdə idi. Aydındır ki, həmin mübahisə və diskusiyalar hər bir ölkədə özündə milli-mədəni və ideya-siyasi ənənələri əks etdirirdi. Bundan əlavə, eyni məna kəsb edən müxtəlif terminlər - "siyasi elm", "siyasət haqqında elm", "politologiya" kimi terminlər işlədilirdi. XX əsrin ikinci yarısından etibarən Rusiyada "politologiya" termini digər iki termini sıxışdırıb aradan qaldırdı və indiyə qədər siyasət haqqında elm həmin ölkədə politologiya adlanır. Azərbaycanda isə haqqında mülahizə yürütdüyümüz elm XX əsrin 90-cı illərinin birinci və ikinci yarısından etibarən, həm "politologiya" və eləcə də "siyasi elm" adlandırılır[1], ali məktəblərdə isə politologiya adı altında tədris edilir.

Politoloji elmin inkişafında yeni mərhələ XX əsrin 40-cı illərinin ikinci yarısından etibarən başlanır. Bu istiqamətdə 1948-ci ildə Parisdə YUNESKO-nun təşəbbüsü ilə təşkil edilən beynəlxalq kollokvium əhəmiyyətli rol oynadı. Həmin kollokviumda qəbul olunan xüsusi sənəddə siyasi elmin başlıca elementlərinin sistemləşdirilməsinə cəhd edildi. 1949-cü ildə YUNESKO çərçivəsində bu günə qədər fəaliyyət göstərən Beynəlxalq siyasi elm assosiasiyası yaradıldı. Onun vəzifəsi bütün dünyada politoloji tədqiqatları əlaqələndirməkdən ibarətdir.

Hazırda politologiya industrial cəhətdən inkişaf etmiş ölkələrdə ictimai elmlər arasında mühüm yer tutur. Bunu təsdiqləyən əvvəla, həmin ölkələrdə daim artan ədəbiyyat axını və xüsusi politoloji jurnalların çoxluğudur; ikincisi isə müxtəlif ümummilli və regional politoloji assosiasiyaların mövcudluğudur. Onlardan ən məşhuru Amerika siyasi elm assosiasiyası, İngiltərə siyasi tədqiqatlar assosiasiyası, Fransız siyasi elm assosiasiyası və digərləri hesab olunur. Qeyd

[1] "Siyasi elm" adı altında Məcid Əfəndiyevin tədqiqat işlərində nəzərə çarpır: Siyasi elmin problemləri. Bakı, 1999; Siyasi elmin əsasları. Bakı, 2004, Siyasi elm. Bakı, 2010.

edək ki, respublikamızda politologiya elm kimi, rəsmi cəhətdən qəbul olunmuş və vətəndaşlıq əldə etmişdir. 1991-ci ildən Azərbaycanın ali məktəblərində politologiya sosial elmlərə aid olan fənn kimi tədris olunur. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında siyasi elmə aid ekspert şurası, eləcə də Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasında siyasi elm üzrə fəlsəfə doktoru elmi dərəcəsi verən müdafiə şurası fəaliyyət göstərir.

Politologiya bir sıra ictimai elmlərlə müqayisədə nisbətən gənc elm və yeni tədris fənnidir. Siyasi elm kafedrası ilk dəfə 1857-ci ildə ABŞ-da Kolumbiya kollecinin bazasında yaradılmışdır. Həmin vaxtdan politologiya dünyanın xeyli ölkəsində öyrənilir.

Politologiya elm kimi, cəmiyyətin siyasi sferası haqqında nizama salınmış, kompleks biliklərin əldə edilməsinə istiqamətlənir, onun qanunlarını dərk etməyə yönəlir. O, təbii olaraq siyasət haqqında elm kimi çıxış edir. Bu mənada politologiya həyat fəaliyyətinin müəyyən sferası haqqında nəzəri təsəvvürlər kompleksini mənimsəyən inteqral elmə aid edilə bilər.

Politologiyanın predmetini şəxsiyyətin, siyasi təsisatların və təşkilatların, sosial qrupların, siniflərin, millətlərin və dövlətin fəaliyyətində təzahür edən cəmiyyətin siyasi sferasının fəaliyyəti və inkişaf qanunauyğunluğu təşkil edir.

Elmin predmetinin doğru, düzgün müəyyənləşdirilməsi onun spesifikliyini və təxmini həddini ayırd etməyə kömək edir, ona aid olan məsələlər dairəsini kifayət qədər dəqiq aydınlaşdırmağa imkan yaradır. Buna görə, bu yeni elmlə ciddi tanış olmaq üçün ilk öncə, onun predmetinin izahına cəhd edilməlidir. Siyasət haqqında elm obyektiv gerçəkliyin təhlili baxımdan müxtəlif səviyyələrə malikdir. Şərti olaraq politoloji biliklərin nisbi müstəqillik kəsb edən üç səviyyəsi haqqında mülahizə yürütmək olar: **siyasi fəlsəfə**, konkret-nəzəri təhlil səviyyəsi – **siyasət nəzəriyyəsi** və empirik təhlil səviyyəsi – **tətbiqi politologiya**.

Siyasi fəlsəfənin spesifikliyi bundan ibarətdir ki, siyasətin mənalandırılması onu dünyagörüşü nöqteyi-nəzərdən qiymətləndirməklə şərtlənir, eləcə də bu fenomeni cəmiyyət həyatının digər sferaları ilə qarşılıqlı əlaqədə nəzərdən keçirməklə bağlıdır. İnsan və siyasət siyasi-fəlsəfi təhlilin məğzidir. Siyasətin belə nöqteyi-nəzərdən şərhində onun qnoseoloji, antropoloji və tarixi (tarix fəlsəfəsi) aspektləri ön plana keçir. Politoloji biliyin səviyyəsini **siyasətin təhlilinin meta-səviyyəsi** kimi müəyyənləşdirmək olar.

Əgər siyasi fəlsəfə siyasətdə əsasən keçmişi mənalandırırsa, siyasət nəzəriyyəsi onun haqqında indiki, müasir bilikdir. İdrakın bu cür spesifikliyi ondan ibarətdir ki, siyasəti bütöv hadisə olmaqla, onun daha ümumi və sabit xüsusiyyətlərinin, qanunauyğunluğunun və fundamental problemlərinin təhlilinin köməyilə – **təhlilin makro səviyyəsi** ilə nəzərdən keçirir.

Empirik təhlil səviyyəsində siyasətin sosial məzmunu, onun konkret "texnologiyası", siyasətin həyata keçirilməsinin praktiki üsulları, formaları və metodları – **təhlilin mikro-səviyyəsi** nəzərdən keçirilir.

Elmi obyektini onun öyrəndiyi məsələlər təşkil edir. Reallığın hissəsi, sferası: hər hansı hadisə və proses bu və ya digər elmin obyekti kimi çıxış edir. Elmin predmeti isə reallığı (obyekti) öyrənən anlayışların məcmuudur. Politologiyanın predmetini müəyyənləşdirmək üçün ən əvvəl, siyasi fəaliyyət aləmi ilə insanların həyat fəaliyyətinin digər sferaları arasındakı həddin təxmini dəqiqləşdirilməsi zəruridir. Bütövlük kəsb edən sistem olmaqla, müasir cəmiyyətin qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olan aşağıdakı yarımsistemləri (hissələri) fərqləndirilir: istehsal və ya iqtisadi-təsərrüfat; sosial; mədəni; mənəvi və siyasi. Onlardan hər biri yalnız özünə xas olan strukturu, funksiyaları, dəyərləri, normaları, məqsədləri və s. ilə səciyyələnir.

Real həyatda bütün yarımsistemlər qarşılıqlı əlaqədədir, lakin onların elmi təhlil çərçivəsində məhdudlaşdırılması şərti xarakterə malikdir, eləcə də müstəqil fenomen olmaq

etibarilə, onların təfərrüatına qədər öyrənilməsinin asanlaşdırılması zərurətindən irəli gəlir.

Politoloqlar arasında politologiyanın predmetinin məzmununa dair vahid rəyin mövcud olmamasına baxmayaraq, əksər hallarda politologiya siyasi münasibətləri və onunla müşahidə olunan bütün amilləri öyrənən elm kimi mənalandırılır. Politologiyanın belə başa düşülməsinə müvafiq olaraq, onun məzmununa qarşılıqlı siyasi fəaliyyət sferası ilə bilavasitə münasibətdə olan bütün problemlər dairəsi aid edilir. Bu elm aşağıdakıları öyrənir:

- cəmiyyətin siyasi yarımsisteminin fəaliyyət prinsiplərini;
- cəmiyyətin başlıca komponentlərinin – dövlətin, siyasi partiyaların, ictimai təşkilatların rolunu və nisbətini;
- dövlətin siyasətinin həyata keçirilməsi üsullarını;
- ictimai-siyasi münasibətlərin tənzimlənməsi mexanizmini;
- hakimiyyətdə qarşılıqlı fəaliyyətə aid olan problemlər kompleksini.

Bəzən belə bir sual meydana çıxır: siyasi gerçəkliyin elmi cəhətdən öyrənilməsi mümkündürmü? Qeyd edilir ki, digər elmlərdən (fənlərdən) fərqli olaraq politologiyada elə elmi status yoxdur ki, son nəticədə onda "siyasi rəylərdən" başqa heç nə olmasın. Həmin suala cavab vermək üçün elmin başlıca tərkib elementlərini qısaca nəzərdən keçirmək vacibdir.

Bir qayda olaraq elmdə aşağıdakı tərkib elementlər nəzərə çatdırılır:

* elmin işlənib hazırlanması, təlimi və tətbiqi ilə məşğul olan cəmiyyətlər, şəxslər;
* elmin tematik sferası və ya onun öyrəndiyi predmet;
* bu predmetlərin təbiətini aydınlaşdıran bir və ya bir neçə nəzəriyyə və onun ciddi sınaqdan keçirilməsi;
* elmi biliklərin əldə olunmasına və genişlənməsinə kömək edən metodoloji vasitələr sistemi.

Digər elmlər kimi, politologiya da yuxarıda sadalanan

bütün elementləri özündə əks etdirir. Siyasi fəaliyyət spesifik sfera kimi səciyyələnməklə, siyasi tədqiqatların obyekti kimi çıxış edir. Politologiyanın məqsədləri təsadüfi deyil, məhz müəyyən metodoloji vasitələr sistemi əsasında əldə olunur.

Politologiyanın başlıca məqsədi cəmiyyətin siyasi sisteminin strukturunu və fəaliyyətini tədqiq etməkdən ibarətdir. Buradan çıxış edərək demək olar ki, politologiyanın predmetini həm də sistemin, siyasi münasibətlərin təşkilini və fəaliyyətini müəyyənləşdirən qanunları öyrənmək təşkil edir. O, dövlətin müasir inkişaf mərhələsinin və bütün dünya birliyinin qarşıya qoyduğu xeyli siyasi məsələlərə cavab verir. Politologiya siyasət, siyasi proseslərin "texnologiyası" haqqında elm kimi mənalanır. Siyasi həyat sferasını öyrənməklə, o, bizi siyasi hakimiyyətin, siyasi münasibətlərin və siyasi fəaliyyətin təşəkkülü və fəaliyyəti qanunauyğunluğu haqqında biliklərlə silahlandırır, siyasi həyatda bərabərhüquqlu iştirak etmək qabiliyyətinin və bacarığının formalaşmasına kömək edir.

Bu və ya digər elmin predmetinin muxtar xarakteri haqqında məsələ adətən müxtəlif bilik sahələrinin yenicə təşəkkülü və təsisatlaşması dövründə təzahür edir. Buna görə bir qayda olaraq həmin problem praktiki cəhətdən hər bir elmdə, bu və ya digər ölkədə yaranır (hər hansı ölkənin milli akademik məktəbi çərçivəsində). Deməli, əksəriyyət hallarda politologiyanın predmeti barədə elmi mübahisələr onun özünütəsdiqi və müstəqil elm kimi təsisatlaşması ilə bağlıdır.

Politologiyanın predmeti haqqında məsələnin öyrənilməsində və onun akademik elm kimi beynəlmiləlləşməsində siyasi elmin məzmunu və strukturuna dair məşhur Beynəlxalq kollokvium (Paris, 1948-ci il) əhəmiyyətli rol oynadı (YUNESKO-nun təşəbbüsü ilə çağırılmışdı).

Müxtəlif ölkələrin politoloqları politologiyanın beynəlxalq standartlara cavab verən obyektinin, predmetinin müəyyənləşdirilməsində razılığa gəldilər və bu elmin başlıca komponentlərinin (problemlərinin) aşağıdakılardan ibarət olduğunu təklif və təsdiq etdilər:

1) siyasi nəzəriyyə (siyasət nəzəriyyəsi və siyasi ideyalar tarixi);

2) dövlət təsisatları (mərkəzi, regional və yerli; qanunverici, icraedici və məhkəmə); onların strukturu və fəaliyyəti;

3) siyasi iştirakçılıq və vətəndaş təzyiqi (partiyalar, qrup birlikləri, ictimai rəy);

4) beynəlxalq münasibətlər (beynəlxalq təşkilatlar və dünya siyasəti).

Politologiyanın predmeti sözün "geniş" və "dar" mənasında başa düşülsə də, bu iki dərketmə səviyyəsi bir-birinə zidd deyildir. **Geniş mənada politologiya (siyasi elm kimi) siyasəti öyrənən fənnlər (elmlər) kompleksi** baxımdan səciyyələnməklə, özündə bütün siyasi bilikləri **birləşdirir**, sözün daha ciddi mənasında **politologiya (və ya siyasətin ümumi nəzəriyyəsi)** məhz sosial subyektlərin hakimiyyətə münasibətdə **spesifik qanunauyğunluqlar qrupu** ilə **bağlılıq kəsb edir**, hakimiyyətdə olanlarla hakimiyyətə tabe olanlar, idarə edənlərlə idarə olunanlar arasındakı münasibətlər mexanizminin xüsusi tipini tədqiq edir.

Politologiyanın təşəkkül tapdığı XIX əsrin ortalarından etibarən, onun predmetinin dəqiqləşdirilməsinə daim cəhd edilir, metodları isə təkmilləşdirilir. Məsələn, Amerika politoloqu **D.İston** XX əsrin ortalarında politologiyanın predmetini belə müəyyənləşdirmişdir: "O, cəmiyyətə aid olanlar haqqında necə qərarlar çıxarılması və bu qərarların əksər hallarda nəyə görə insanların böyük əksəriyyəti üçün məcburi sayılması haqqında elmdir"[1]. Lakin XX əsrin sonunda Qərbdə politoloqların əksəriyyəti belə nöqteyi-nəzərdən çıxış etdilər ki, "siyasi hadisələri fərdlər və qruplar səviyyəsində öyrənilən davranış nəticələrinin məcmuu kimi başa düşmək daha düzgündür".

Lakin belə bir fakt aydın nəzərə çarpır ki, siyasi reallığın genişlənməsi, siyasətin cəmiyyətin digər sferalarına nü-

[1] Muxayev R.T. Теория политики. M., 2005, səh. 5

Azərbaycan Dövlət Universiteti
ELMİ KİTABXANA

fuzu ilə əlaqədar olaraq siyasət haqqında biliklərin differensiasiyası və ixtisaslaşması kimi obyektiv proses baş verir, siyasi aləm haqqında yeni biliklər kompleksi təzahür edir. Təkcə bunu demək kifayətdir ki, hazırda ABŞ-da politologiyaya aid 30-a yaxın ixtisaslaşmış bilik sahələri mövcuddur. Bununla əlaqədar olaraq belə bir sual getdikcə aktuallaşır: "Siyasət aləminin mürəkkəb və çoxölçülü dairəsinin mənalandırılmasının ən yaxşı üsulu nədir?" Bu suala cavab vermək politologiyanı siyasət haqqında digər elmlərdən fərqləndirməyə imkan yaradır. Politologiyanın tədqiq etdiyi siyasi nəzəriyyə mürəkkəb və çoxölçülü siyasət aləmini mənalandırmağın üsullarından biridir. "Nəzəriyyə" yunan dilində "theori" sözündən götürülüb "nəzərdən keçirmək, tədqiq etmək" mənasını ifadə edir. Siyasi nəzəriyyə dedikdə, siyasi hadisələrin şərhinə, izahına istiqamətlənən görüşlər, ideyalar, konsepsiyalar kompleksi başa düşülür ki, bu da siyasi reallıq, onun atributiv xüsusiyyətləri haqqında bütöv təsəvvür yaradır. Belə təsəvvür inkişafın ümumi siyasi xəttini, dövlət – siyasi modelini formalaşdırmağa istiqamətlənir. Siyasi nəzəriyyənin, bütövlükdə siyasi elmin məzmunu ayrı-ayrı ölkələrdə müxtəlif cür səciyyələndirilir. Bu, bir sıra amillərlə şərtlənir.

1. Siyasi fikrin milli inkişaf xüsusiyyətləri, elmi ənənə və məktəblərin təşəkkülünün spesifikliyi, tədqiqatın akademik dairəsi və üstünlük təşkil edən konseptual mövqelər haqqında təsəvvürlər biliklərin siyasi formasının müxtəlif cür başa düşülməsini müəyyən etdi. Məsələn, ABŞ-da "siyasi nəzəriyyə" termini siyasi fəlsəfənin hissələrindən birini ifadə edir. Fransala bu termin bəzən siyasətin sosioloji nəzəriyyəsinin (siyasi sosiologiyanın) sinonimi kimi işlədilir. Siyasi nəzəriyyənin belə başa düşülməsi onun siyasət sahəsində empirik sosioloji tədqiqatlara qarşı qoyulması kimi mənalanır, müəyyən hallarda isə "siyasi fəlsəfə" termininin özünü əvəz etməyə cəhd baxımdan nəzərə çarpır. Ümumiyyətlə, fransız siyasi elmi çərçivəsində siyasi nəzəriyyənin predmet dairəsi müxtəlif səviyyədə şərh edilmişdir. Belə ki, fransa

politoloqu **M.Dyuverje** iddia edirdi ki, "siyasi elm onun daha geniş başa düşülməsi baxımından biliyin üç başlıca sahəsini təcəssüm etdirməlidir: siyasətin sosioloji təhlilinə girişi, böyük siyasi sistemlərin təsviri və nəhayət, təşkilatların (partiya və təzyiq qrupları) öyrənilməsi".[1] Əksinə, **M.Fuko** siyasi elmi (politologiyanı) son dərəcə "ağalıq etmənin mikrofizikası" kimi müəyyənləşdirdi.

2. XX əsrin 70-ci illərinə qədər siyasi gerçəkliyin bilavasitə müşahidə olunan faktlarının təhlili zərurəti tətbiqi politologiyanın üstünlük təşkil etməsini və siyasi hadisələrin konseptual mənalandırılmasına marağın azalmasını şərtləndirdi. Siyasətin öyrənilməsində pozitivizmin və onun empirik metodunun hakim mövqe tutması politologiyanı **siyasi davranış** haqqında elmə çevirdi. Pozitivizm siyasi nəzəriyyənin biliklərin legitim formasının statusuna malik olmadığını iddia etdi. Pozitivistlərin təsəvvürünə görə, bütün biliklər empirik müşahidələr nəticəsində əldə edilir (təbii elmlərin məntiqi fundamenti əsasında). Pozitivist irsin məğzini bihevioriz təşkil etdi.

XX əsrin 80-90-cı illərində kommunizmin dağılması və yeni dünya qaydalarının təzahürü ilə əlaqədar olaraq baş verən qlobal dəyişikliklər XXI əsrin başlanğıcında siyasi amillər və onların funksiyaları haqqında yeni prinsipial çağırışlara və cəhdlərə gətirib çıxartdı. XXI əsrin qlobal çağırışlarını tətbiqi politologiya elminin terminlərində mənalandırmaq və ifadə etmək mümkün olmadı. Siyasi elmin konseptuallaşmasına akademik və ictimai tələbat yarandı. Bütün bu amillər siyasi nəzəriyyədə, siyasi biliklərin strukturunda onun xüsusi çəkisinin artmasına imkan yaratdı.

Lakin müasir politologiyanın məzmununa dair fikirlər birmənalı deyildir, bu isə onun plüralist şərhini şərtləndirir. Bir qrup müəllif onun predmet dairəsinin spesifikliyini nəzərə alaraq təkid edir ki, siyasi elmin iki müstəqil qolu vardır – tamamilə üst-üstə düşməyən normativ və empirik.

---

[1] Duverjer M. Reqimes de la seience politique. Paris, 1973, p. 5

O.Berq-Şlosser yazır: Siyasi sosiologiya siyasi əhəmiyyət kəsb edən bütün ictimai fenomenləri öyrənir. Obyektiv sahədə bu hər şeydən əvvəl, cəmiyyətin strukturu və bütün formaları və amilləri ilə həmin struktura təsir göstərənlərdir. Subyektiv sahədə o, siyasi cəhətdən əhəmiyyətli sosial nəzəriyyəni və davranış nümunələrini tədqiq edir. Sözün dar mənasında siyasi sosiologiyanın obyekti siyasi cəhətdən konkret əhəmiyyətli qrupların və proseslərin tədqiqidir.[1]

Digər müəlliflər, məsələn, **O.Ştammer** hesab edir ki, politologiya vahid elmdir, lakin o predmetdaxili dörd komponentdən ibarətdir:

1) normativ ideyadan (proqramlar, bəyannamələr, təlimatlar, hüquqi və digər normalar);

2) hakimiyyət münasibətləri və siyasi hökmranlıq;

3) subyektiv məqsədlər;

4) təsisatlar.

Bununla belə, ABŞ, Almaniya, Böyük Britaniya və Fransada siyasətə münasibət çərçivəsində iki akademik elm nəzərdə tutulur:

1) **Siyasi fəlsəfə** (normativ siyasi nəzəriyyə) – siyasəti bütövlük kəsb edən elm kimi öyrənir, onun insan və cəmiyyət üçün əhəmiyyəti kontekstində daha ümumi əsaslarını və imkanlarını nəzərdən keçirir, ümumi rifah, ədalət, azadlıq, insan ləyaqətinə hörmət nöqteyi-nəzərindən siyasi hadisələrin qiymətləndirilməsi meyarını işləyib hazırlayır.

2) **Siyasi elm** (empirik siyasi elm) – real surətdə mövcud olan hakimiyyət və hökmranlıq münasibətlərini, siyasi təsisatları, siyasi aktorların (subyektlərin) davranışını, səbəb-nəticə əlaqələrini üzə çıxarmaq məqsədilə onların siyasi niyyətlərini, inkişafın mümkün olan meyllərinin formalaşmasını təhlil edir.

Müasir politoloji ədəbiyyatda politologiyanın əhatə etdiyi problemlər dörd böyük qrupa ayrılır:

1) siyasətin fəlsəfi və ideya nəzəri əsasları, siyasi yarım-

[1] Politische soziologie. Heidelberq, 1980, s. 66

sistemin sistem əmələ gətirən əlamətləri və ən mühüm sosiyyəvi cəhətləri, siyasi proseslərin, tarixin bu və ya digər konkret dövrlərinə aid olan siyasi fenomenlər;

2) siyasi sistemlər və siyasi mədəniyyət, müxtəlif siyasi sistemlərin müqayisəli təhlili (üstünlükləri, çatışmazlığı, fərqli cəhətləri və oxşarlığı);

3) siyasi təsisatlar, siyasi proses, siyasi davranış, siyasi inkişaf;

4) beynəlxalq münasibətlərin politologiyası, siyasət və uzaqgörənlik[1].

Siyasi elmin problemlərinə dair belə bölgünü şübhəsiz, şərti hesab etmək olar. Çünki siyasi gerçəkliyin şərtləndirdiyi yeni konkret siyasi hadisələr, xüsusiyyətlər daim təzahür edir və tədqiqat obyektinə çevrilir. Yadda saxlamaq lazımdır ki, politologiyanın predmetini təşkil edən və dövlətlə sıx daxili əlaqəyə malik olan siyasətin ideya-nəzəri əsasını konkret siyasi sistemdən ayrılıqda dərk etmək qeyri-mümkündür.

Politologiyanın əsas tədqiqat obyektini üç fundamental problem – siyasət, dövlət və hakimiyyət təşkil edir. Bu üç fenomen bir-birilə daxili bağlılıq kəsb edir. Dövlətin hakimiyyətlə, siyasətin isə hakimiyyətlə əlaqələndirilməsi politologiyanın predmetinin spesifik məqamlarındandır. Çünki siyasət hakimiyyət, hakimiyyət isə dövlət vasitəsilə həyata keçirilir. Politologiya dövləti və hakimiyyət münasibətlərini cəmiyyətin başlıca siyasi təsisatları kimi nəzərdən keçirir.

Müasir politoloji ədəbiyyatda dövlət nəinki siyasətin subyekti və hakimiyyətin daşıyıcısı kimi, eləcə də beynəlxalq aləmdə dövlətin suverenliyinin daşıyıcısı baxımdan tədqiq edilir. Politologiyanın öyrəndiyi problemlər sistemində digər siyasi təsisatlar da (siyasi partiyalar, siyasi hərəkatlar, siyasi təşkilatlar) əhəmiyyətli yer tutur. Parlament mexanizmi, parlament demokratiyası, seçki sistemi, kütləvi informasiya vasitələrinin siyasi funksiyaları və s. bir qayda olaraq poli-

[1] Ətraflı bax: Məcid Əfəndiyev. Siyasi elmin əsasları. B., 2008, s. 19-20

toloqların diqqətindən yayınmır. Son zamanlar beynəlxalq münasibətlərin politologiyasının öyrənilməsinə maraq daha da artır, siyasi mədəniyyət, siyasət və uzaqgörənlik kimi xüsusi əhəmiyyət daşıyan məsələlərin tədqiqinə daha geniş səviyyədə diqqət yetirilir.

Bir sözlə, politologiyanın predmeti və tədqiqat obyekti ilə bağlı mövcud politoloji ədəbiyyatda birmənalı mövqe nəzərə çarpmır və rəy müxtəlifliyi təzahür edir. Lakin tədqiqatçılar tərəfindən politologiya müstəqil elm kimi qiymətləndirilir və cəmiyyət həyatının bütün sferalarında onun rolu birmənalı təsdiqlənir.

2. Politologiyanın kateqoriyaları, funksiyaları və metodları

Politologiyanın spesifikliyi ondan ibarətdir ki, onun başlıca predmetini yalnız siyasətə xas olan daxili, spesifik qanunauyğunluqlar təşkil edir. Bu qanunauyğunluqları təzahür dərəcəsindən asılı olaraq dörd qrupa ayırmaq olar.

Birinci qrupa bunlar daxildir: siyasi prosesin fəaliyyəti və inkişafı qanunauyğunluğu – qanunun cəmiyyətin bütün üzvləri üçün aliliyi, hakimiyyətin bölünməsi; siyasətin subyektlərinin – dövlətin, partiyaların, ictimai təşkilatların fəaliyyətində aşkarlıq; siyasi plüralizm, müxalifətə hörmətli münasibət; siyasətdə ümumbəşəriliyin sinfilik və partiyalılıq üzərində üstünlüyü və s. Qanunauyğunluğun bu qrupunun fəaliyyətinin vəzifəsi siyasi həyatın subyektlərinin sosial-siyasi fəallığının inkişafından, şəxsiyyətin siyasi sosiallaşması və özünü reallaşdırması üçün, həyatın mənasının yalnız özünə deyil, həm də digər insanlara, bəşəriyyətin mütərəqqi inkişafına xidmət etməkdən ibarət olduğunu dərk etmək məqsədilə daha optimal şərait yaratmaqdan ibarətdir.

İkinci qrup cəmiyyətin iqtisadi bazisi ilə siyasi hakimiyyət arasındakı nisbəti əks etdirən siyasi-iqtisadi qanunauyğunluqdan ibarətdir. "Siyasi hakimiyyəti məhz iqtisadi hakimiyyət doğurur". Unutmaq olmaz ki, siyasi hakimiyyətin başlıca resursu iqtisadi resursdur. Bu ideya müasir

cəmiyyətin təhlili baxımdan da düzgündür. Böhranlı vəziyyətə məruz qalan hər bir cəmiyyətin həyatı təsdiqləyir ki, iqtisadi mənafe siyasi fəaliyyətin sosial səbəbi kimi (qiymətlərin liberallaşdırılması, özəlləşmə) çıxış edir. Bununla belə, siyasi hakimiyyət iqtisadi proseslərə təsir göstərmək üçün imkanlar açmağa qadir olan müəyyən müstəqilliyə malikdir. Lakin siyasi hakimiyyətin müstəqilliyini mütləqləşdirmək olmaz. İnzibati məcburetmənin köməyilə iqtisadi qanunlardan "yan keçmək" qarşıya qoyulan məqsədlərdən uzaqlaşmağa, vətəndaşların həyat fəaliyyətinə neqativ təsirə səbəb olur.

Politologiyanın qanunauyğunluğunun üçüncü qrupu siyasi-sosial qanunauyğunluqlardır. Onlar siyasi hakimiyyəti öz məntiqi və strukturu ilə birlikdə xüsusi sistem kimi səciyyələndirir. Siyasi hakimiyyət sisteminin başlıca qanunauyğunluğu sabitliyin idarə olunmasıdır. Bu qanunauyğunluq siyasi hakimiyyətin ayrı-ayrı sistemlərində müxtəlif səviyyələrdə reallaşır. Məsələn, avtoritar sistem hakimiyyətin, zorakılığın maksimum təmərküzləşməsini nəzərdə tutur, demokratik sistem isə hakimiyyətin bölünməsini (qanunverici, icraedici, məhkəmə hakimiyyətini) həyata keçirir.

Dördüncü qrupa siyasi-psixoloji qanunauyğunluqlar aiddir. Onlar şəxsiyyətlə hakimiyyət arasındakı qarşılıqlı münasibətləri əks etdirir. Bu qrupa xas olan daha əhəmiyyətli qanunauyğunluq siyasi liderin hakimiyəti əldə etməsi və saxlamasıdır ki, bu da hakimiyyətin həyata keçirilməsinin başlıca dəyəridir.

Anlayışlara və kateqoriyalara malik hər cür elm mövcud olmaq hüququ ilə səciyyələnir. Kateqoriyalar elmin predmetinin əhəmiyyətli tərəflərini əks etdirən başlıca anlayışlardır. Anlayış və kateqoriya elmin elə dilidir ki, onu bilmədən konkret elmi problem çərçivəsində effektli ünsiyyət mümkün deyildir. Kateqoriyalar elmi idrakın inkişafı gedişində və ictimai praktika əsasında formalaşır. Onlar təfəkkürün sosial gerçəkliyin mahiyyətinə nüfuz etməsini mənalandırır.

Hər bir müstəqil elm kimi, politologiya da öz xüsusi **anlayışlar-kateqoriyalar** sisteminə malikdir. Bu sistemə yiyələnmək müəyyən elmi biliklər məcmuunu mənimsəməyin ən mühüm zəminini təşkil edir.

Politologiyanın bu və ya digər kateqoriyalarından istifadə edilməsində yaranan çətinlik ona digər elmi biliklər sahəsindən (o cümlədən, təbiət elmlərindən) keçən anlayışların çoxmənalı olmasındadır.

Politologiyanın mərkəzi kateqoriyası "siyasi" anlayışıdır. Kateqoriyalar elmin son dərəcə ümumi anlayışlarıdır. Buna görə elmin **çıxış nöqtəsini təşkil edən kateqoriyaların** müəyyən edilməsi çox vacibdir. Çünki hər hansı elmin fundamenti məhz onların vasitəsilə möhkəmlənir.

Politologiyanın başlıca kateqoriyaları, **doğma anlayışları** (başqa elmlərdən əldə edilməyən) bunlardır: siyasət, siyasi, siyasi həyat, siyasi sfera, siyasət aləmi, cəmiyyətin siyasi sistemi, siyasi hakimiyyət, hökmranlıq, tabeçilik, qayda və s. Onların köməyilə, öyrənilən məkanın ümumi həcmi, onda təcəssüm olunan spesifik hadisələrin məcmuu, elmin obyekti və predmeti müəyyənləşir.

Kateqoriyaların digər qrupunun – hakim kateqoriyaların köməyilə başlıca siyasi qüvvələr və siyasətin təsisatlı komponentləri: siyasətin subyektləri, siyasi elita, liderlər, dövlət, siyasi partiyalar, ictimai təşkilatlar, təzyiq qrupları və s. tədqiq edilir.

Politologiyanın mükəmməl məzmunu elə anlayışlarla şərtlənir ki, bunların vasitəsilə siyasi həyatın inkişafını təmin edən onun dinamik tərəfləri: siyasi proses, siyasi fəaliyyət, siyasi mənafe, tələbat, tələb, kommunikasiya, siyasi davranış, inqilab, təkamül, islahatlar, siyasi situasiya, idarəetmə və digərləri təsvir olunur. Bu qrupu instrumental kateqoriyalar (hərəkət, inkişaf kateqoriyaları) kimi müəyyənləşdirmək olar.

Politologiyanın siyasi şüuru əhatə edən özünəməxsus anlayışlar və kateqoriyalar dairəsini aşağıdakılar təşkil edir: siyasi bilik, siyasi mədəniyyət, siyasi mühit, siyasi sosiallaş-

ma və s. Bu anlayış və kateqoriyalar son zamanlar mütəxəssislərin xüsusi diqqətini cəlb edir, çünki hər şeydən əvvəl, siyasətin subyektiv, insani, mənəvi tərəfini səciyyələndirirlər. Onları şərti olaraq **humanitar kateqoriyalar** kimi müəyyənləşdirmək olar.

Politologiyanın son dərəcə əhəmiyyətli kateqoriyalar qrupu kimi müəyyənləşdiriləni **dolğun-məzmunlu** kateqoriiyalardır. Onlar politologiyanın elmi binasının daxili məkanını tamamlayırlar. Həmin kateqoriyalar bunlardır: demokratiya, totalitarizm, siyasi hüquq, siyasi azadlıq, ədalət, siyasi razılıq, həmrəylik, siyasi sabitlik, legitimlik, siyasi nüfuz və s.

Xarici siyasi qaydalara aid hadisələri əks etdirən xüsusi kateqoriyalar qrupu da mövcuddur: geosiyasi, dünya siyasəti, beynəlxalq münasibətlər, qüvvələr mərkəzi, hərbi-siyasi strategiya, milli müstəqillik, dövlət suverenliyi, siyasətin beynəlxalq subyektləri və s.

Politologiyanın sosial-iqtisadi və humanitar elmlərdən istifadə etdiyi kateqoriyalar da vardır: sivilizasiya, cəmiyyət, əhali, xalq, azadlıq, mədəniyyət, tərəqqi və s.

Politologiya ilə sosiologiyanın və hüquqşünaslığın qovuşuğunda yerləşən kateqoriyalar da diqqəti cəlb edir: hüquqi dövlət, vətəndaş cəmiyyəti, ictimai rəy, sosial qruplar və təbəqələr, sosial təsisatlar və s.

Anlayışlar aparatının formalaşması mürəkkəb proses olmaqla, elmi anlayışların və kateqoriyaların dəqiqləşdirilməsi, onların rasionallaşdırılması, müəyyən konkret tarixi və sosial-mədəni siyasi materiallara, elmin tam müəyyən predmetinə uyğunlaşdırılmaşı ilə bağlıdır.

Politologiyanın sosial əhəmiyyəti, müasir cəmiyyətə təsiri onun funksiyalarında təzahür edir. Funksiya latın dilində həyata keçirmə, yerinə yetirmə kimi mənalanır. Başqa sözlə, digər hadisələrdən asılı olan və həmin hadisənin dəyişikliyə məruz qalması nəticəsində dəyişən hadisə kimi səciyyələnir.

Sistemin sabitliyi onun struktur elementlərinin zəruri funksiyaları və rolları yerinə yetirməsindən asılıdır. Fun-

ksiya strukturu və prosesi əlaqələndirməklə, onların sistem üçün əhəmiyyətini təmin edir. Funksiya anlayışı politologiyada iki başlıca əhəmiyyət kəsb edir:

1) funksiya müəyyən sosial təsisatın bütövlük kəsb edənə münasibətini reallaşdırır (məsələn, cəmiyyətə münasibətdə dövlətin, ailənin və digər təsisatların funksiyaları);

2) funksiya vahid sosial prosesin müxtəlif komponentləri arasında müşahidə olunan asılılığı ifadə edir.

Politologiya cəmiyyətdə sosial əhəmiyyət kəsb edən bir sıra **funksiyalar** yerinə yetirir. Bu funksiyaların effektli reallaşması cəmiyyətin müəyyən ölçüdə sabit inkişafına imkan yaradır. Politologiya aşağıdakı başlıca funksiyaları yerinə yetirir:

1) konseptual-təsviri;
2) izahedici;
3) idraki;
4) proqnozlaşdırıcı;
5) metodoloji-qiymətləndirici;
6) inteqrasiyaedici;
7) idarəedici;
8) tərbiyə;
9) tətbiqi;
10) humanitar.

Konseptual-təsviri funksiya alimlərə müəyyən ehtiyat-anlayışları və kateqoriyaları bəxş edir və belə bir suala cavab verir: "Nə və necə edilir?"

İzahedici funksiya cəmiyyətdə baş verən siyasi hadisə və prosesləri şərh edir və eləcə də siyasi qərarların qəbul olunması və həyata keçirilməsi səbəblərini aydınlaşdırır. Bu funksiya müəyyən edilmiş qanunauyğunluqlar və amillər əsasında hadisə və proseslərin müəyyən qədər izahını nəzərdə tutur.

İdraki funksiyanın mənası bundan ibarətdir ki, hakimiyyət münasibətlərinin, dövlətin təbiətini, siyasi hadisə və proseslər haqqında toplanan bilikləri, cəmiyyətin inkişafının effektli formalarının əsaslandırılmasını üzə çıxarır. İd-

raki funksiya siyasi həyat hadisələrinin, siyasət haqqında toplanan sistemli biliklərin həm ümumiyyətlə və eləcə də onun spesifik təzahür formalarında, qanunauyğunluqlarında və inkişaf meyllərində mənalandırılmasında üzə çıxır. Bu cür biliklərə yiyələnmək siyasi gerçəkliyi bütün çoxcəhətliliyi və ziddiyyətliliyi ilə dərk etməyə imkan yaradır, eləcə də siyasətlə peşəkar surətdə məşğul olanlar üçün prinsipial əhəmiyyətə malikdir.

Proqnozlaşdırıcı funksiya nəzəri biliklərə əsaslanaraq siyasi inkişafın gedişini və istiqamətini qabaqcadan görməkdə fiadə olunur. Siyasi prosesləri, eləcə də siyasətin subyektlərinin fəaliyyətini və davranışını proqnozlaşdırmaq təşəkkül tapmaqda olan ictimai şəraitə düzgün oriyentasiya götürməyə, müxtəlif meylləri öz zamanında duymağa, siyasət sferasında vaxtında və effektli qərarlar qəbul etməyə imkan yaradır.

Metodoloji-qiymətləndirici funksiya metodlar sxeminin və tədqiqatçılıq proseduralarının (qaydalarının) təklif edilməsini, eləcə də bu tədqiqatların idraki nəticələrinin faydalı olmasına dair qiymətləndirmənin formalaşmasını nəzərdə tutur.

İnteqrasiyaedici funksiya digər elmlərin siyasi elm və ictimai elmlər haqqında əldə etdiyi nailiyyətlərdən və faktlardan-məlumatlardan inteqrativ istifadə etməsini səciyyələndirir.

İdarəedici funksiya onda ifadə olunur ki, politologiya cəmiyyətin müxtəlif sferaları üçün mühüm idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə elmi tövsiyələr işləyib hazırlayır.

Tərbiyə funksiyası şəxsiyyətin siyasi mədəniyyətinin formalaşması prosesində təzahür edir. Yüksək siyasi mədəniyyət siyasi yaradıcılıq qabiliyyəti, siyasi hadisələri müstəqil qiymətləndirmək bacarığı, başqa cür düşünənlərə dözümlük, siyasi konsensus (razılıq) axtarışı, demokratiklik, əsası olmayan qarşıdurmadan imtina etmək, vətənpərvərlik, inam, müəyyən xüsusi mövqe kimi keyfiyyətlərin mövcud-

luğu ilə müəyyən olunur. Hər bir vətəndaş beynəlxalq siyasi inkişaf şəraitini, milli-dövlət dəyərlərini, öz tələbatını və mənafeyini aydın başa düşməlidir, vətəninin həyati əhəmiyyət kəsb edən vacib mənafeyini ardıcıl və daim müdafiə etməlidir.

Tətbiqi funksiya qəbul edilən qərarların zəruriliyini əsaslandırmaqdan ibarətdir.

Nəhayət, politologiya spesifik əhəmiyyət kəsb edən **humanitar** funksiyanı yerinə yetirir. Bu funksiya fərdləri siyasi fenomenlərin, hakimiyyətin formalaşması texnologiyasının, dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin şərhinin metod və usulları haqqında siyasi biliklərlə silahlandırmaqla, politologiyanı siyasətin mürəkkəb aləminə istiqamətləndirir, onun dəyişilməsi məntiqini başa düşməyə, siyasi dəyişikliklər prosesində şüurlu iştirak etmək üçün rasional və effektli yollar tapmağa imkan yaradır.

Politologiyanın yuxarıda araşdırdığımız funksiyaları politologiyanın cəmiyyət həyatı ilə birbaşa əlaqəsini əks etdirir. Beləliklə, politologiya praktiki əhəmiyyətə malik olan son dərəcə aktual biliklərin məcmuu, fəal fəaliyyət göstərən elm kimi çıxış edir.

Politologiya ilk öncə, dürüst biliklər əldə etməyə, siyasi proseslər barədə obyektiv məlumat verməyə yönəlməli və onlardan sosial tərəqqi naminə istifadə etməlidir. Humanist, sivil biliklərin formalaşdırılması və inkişafının reallaşdırılması bu elmin başlıca məqsədlərindəndir. Politologiyanın belə əhəmiyyətli rolu məhz onun funksiyaları vasitəsilə həyata keçirilir.

Politologiyanın öyrənilməsinə cəhd edərkən onun **metodları** barədə aydın təsəvvürə malik olmaq vacibdir. Çünki siyasi hadisə və proseslər müxtəlif metodların köməyilə dərk edilir (metod yunan dilində methodos sözündən götürülüb-tədqiqat üsulu deməkdir). Metod dedikdə tədqiqat predmetinin məzmununun açıqlanmasına imkan yaradan məntiqi üsul və vasitələrin məcmuu başa düşülür. Qeyd etmək lazımdır ki, politologiyada siyasət aləmini dərk və təsvir edən

hər hansı xüsusi metodlar müəyyənləşdirilməmişdir. O, özünə yaxın olan bilik sahələrinin, xüsusilə siyasətin təbiətinə dərindən nüfuz edə bilən fəlsəfə, psixologiya, hüquqşünaslıq, tarix, təbiətşünaslıq və digər elmlərin metod və üsullarından istifadə etmişdir. Daha ümumi, fundamental politoloji metodlar tez-tez tədqiqatçılıq yanaşması kimi qiymətləndirilir. Onlardan ən mühümü normativ, sosioloji, antropoloji, təsisatlı, bihevioryçu, psixoloji, sosial-psixoloji, sistemli, struktur-funksional və müqayisəli metodlar hesab olunur. Bu metodlar içərisində siyasətin tədqiqinin keyfiyyətcə yeni səviyyəsinin – tətbiqi politologiyanın təzahürünə geniş imkan yaradan bihevioryçu metod xüsusi yer tutur. Məqsədlərindən asılı olaraq politologiyanın metodlarını bir neçə qrupa ayırmaq olar:

1) **ümummənтiqi** metodlar (təhlil, sintez, induksiya, deduksiya, modelləşdirmə və s.). Bu metodlar idraki prosesin qayda və proseduralarını müəyyənləşdirir;

2) obyekt haqqında ilk informasiyanın əldə olunmasına istiqamətlənən **empirik tədqiqatlar** metodları (müşahidə, kontent-təhlil, yəni müəyyən informasiyanı, sorğunu, eksperimenti və s. ifadə edən müxtəlif sənədlərin öyrənilməsi);

3) siyasi reallığı, siyasi hadisələrin müəyyən qədər başa düşülməsini və şərhini əks etdirən **ümumi, fundamental** metodlar. Bu səbəbdən onları tez-tez yanaşma və ya paradiqma (paradiqma yunan dilində paradeiqma sözündən götürülüb nümunə deməkdir), başqa sözlə siyasi reallığın nəzəri şərhi modeli adlandırırlar. Paradiqma ciddi anlayılar sistemində təcəssüm olunan elmi nəzəriyyə olmaqla, gerçəkliyin hər hansı aspektinin əhəmiyyətli cəhətlərini əks etdirir. Bu anlayışın elmə gətirilməsi Amerika alimi T.Kunun (1922-1996) adı ilə bağlıdır. **Siyasi nəzəriyyədə ümumi metodlar üstünlük təşkil edir. Bu metodlar bilavasitə obyektin öyrənilməsinə istiqamətlənməsi ilə fərqlənir.** Politologiya daha çox **normativ** və ya **normativ-qiymətləndirmə** metoduna əsaslanır. O, siyasi hadisələrin cəmiyyət və şəxsiyyət üçün əhəmiyyətini, bu iki fenomenin ümumi rifah, ədalət, azadlıq

və digər insani, bəşəri dəyərlər nöqteyi-nəzərdən izah olunmasını ifadə edir. Həmin metod (yanaşma) siyasi quruluşun idealının işlənib hazırlanmasına və onun praktiki təcəssümü yollarının müəyyənləşdirilməsinə istiqamətlənir.

Siyasi reallığın təhlilinə aid ilk metodlardan biri məhz normativ-qiymətləndirmə metodudur. Bu metoda görə siyasi hadisələr onlara uyğun gələn əxlaqi normalar, ədalət prinsipi və ümumi rifah nöqteyi-nəzərdən qiymətləndirilir. Məsələn, hələ Platon siyasəti ədalət və xoşbəxtlik kimi əxlaqi terminlərlə əlaqədar izah edirdi, ictimainin şəxsi üzərində üstünlüyü kontekstində qiymətləndirirdi. Bu səbəbdən dövlətin məqsədi ayrıca vətəndaşların deyil, hamının xoşbəxtliyini təmin etməkdən ibarətdir. Normativ-qiymətləndirmə metodu ideal siyasi qaydaların işlənib hazırlanmasını nəzərdə tutur. O, qərb cəmiyyətinin inkişafına, demokratik quruluş idealının formalaşmasına müəyyən təsir göstərmişdir. Lakin həmin metodun çatışmazlığı onun mövcud olan reallıqdan ayrı düşməsidir. Bu isə elə utopik ideyaların, nəzəriyyənin reallaşmasını doğurmuşdur ki, nəticə etibarilə çoxsaylı insanların qurban getməsinə səbəb olmuşdur.

Normativ-qiymətləndirmə metodunun çatışmazlığının aradan qaldırılması siyasi elmə **sosioloji metodun** nüfuz etməsi ilə bağlıdır. Onun təzahürü XIX əsrdə sosiologiyanın müstəqil elm kimi təşəkkülü ilə şərtlənmişdir. Sosioloji yanaşma siyasətlə digər həyat sferalarının qarşılıqlı əlaqəsini üzə çıxarmağa, dövlətin, hakimiyyətin, hüququn sosial təbiətinin açıqlanmasına, dövlətin qəbul etdiyi qərarların sosial istiqamətinin müəyyənləşdirilməsinə imkan yaratmışdır. Siyasətin sosial münasibətlərdən asılılığını hələ antik dövrdə Aristotel bildirmişdir. Lakin sosioloji yanaşmanın təşəkkülü **A.Tokvilin, K.Marksın, H.Spenserin, E.Dürkheymin, M.Veberin** xidmətidir. Belə ki, **A.Tokvilin** "Amerikada demokratiya" kitabında siyasətin sosial-iqtisadi, ideoloji, mədəni və digər münasibətlərlə şərtlənməsi mövqeyindən şərhi sosioloji metodun üstünlüyünün nümayiş etdirilməsidir. Siyasətin sosial amillərin təsiri ilə şərtlənməsi nəinki onun ictimai təbiə-

tinin üzə çıxarılmasına kömək edir və eləcə də siyasi dəyişikliklərin mənbəyinin və zəmininin dərindən başa düşülməsinə imkan yaradır.

Antropoloji metod isə siyasəti başqa cür təhlil edir, o siyasətə sosial amillərin (həyat səviyyəsi, mülkiyyət formaları, mədəniyyət tipi və s.) təsirinin müəyyənləşdirilməsi ilə məhdudlaşmamağı tələb edir və məhz siyasətdə instinktin, intellektin sabit cəhətlərinin, psixikanın, milli xarakterin, başqa sözlə bioloji varlıq olmaqla insanın keyfiyyətlərinin rolunu nəzərdə tutur. Həmin göstəricilər ayrı-ayrı xalqlarda siyasi qaydaların müxtəlif normativ, prosedur və təsisatlı əsasını şərtləndirir, onların konfiqurasiyası (şəklini dəyişməsi), təfəkkür tipi, mentallıq, milli xarakterin xüsusiyyətləri ilə müəyyən olunur. Bu bəzi xalqların digər xalqlardan götürdüyü siyasi təsisatların və prosedurların həddini, onların başqa sosialmədəni mühitə uyğunlaşmasını müəyyənləşdirir. Antropoloji metod insanın təbiəti ilə şərtlənən irrasional, instinktiv, bioloji və digər motivlərin üzə çıxarılmasını tələb edir.

Hüquq elmindən götürülən **təsisatlı metod** siyasi həyatı hüquq, dövlət, partiyalar, birliklər, təzyiq qrupları və digər təsisatların fəaliyyəti prizmasından nəzərə çarpdığı kimi təhlil edir. Bu xeyli dərəcədə politologiyanın uzun müddət hüquqşünaslıq və tarix elmi çərçivəsində inkişafı ilə şərtlənmiş və təbii olaraq həmin elmlərin metodlarından istifadə etməsindən irəli gəlir. Hüquq üzrə dünya siyasi elmində təsisatlar nəzəriyyəsinin yaradıcısı **Mişel Oriu** hesab olunur[1]. O, həmin nəzəriyyəni ilk dəfə 1906-cı ildə irəli sürmüş, 1925-ci ildə yazdığı "Təsisat nəzəriyyəsi və onun əsası. Sosial vitalizmin oçerkləri" (Vitalizm – həyati olan, həyat hadisələrinə aid mənasını ifadə edir)" adlanan dissertasiyasında isə hərtərəfli əsaslandırmışdır. **M.Oriunun** fikrincə, təsisat konkret sosial mühitdə həyata keçirilən müəyyən ideyadır.

Təsisat nəzəriyyəsinin müasir nümayəndələri təsisatı

[1] Bax: Məcid Əfəndiyev. Siyasi və hüquqi təlimlər tarixi. B., 2006, səh. 540-543

(dövlət, partiya, bazar, ailə, bürokratiya) insan fəaliyyətinin məntiqi ardıcıl nümunələri kimi səciyyələndirirlər. Beləliklə, sosial təsisat siyasi və ya iqtisadi məzmunundan asılı olmayaraq əlaqə və sosial normaların mütəşəkkil sistemidir, cəmiyyətin başlıca tələbatını təmin edəçn əhəmiyyətli ictimai dəyərləri və proseduraları birləşdirir. Hər bir ictimai təsisat məhdud çərçivədə nisbi daimiliyə malik olmaqla həmişə insanlar, təşkilatlar, dövlətlər arasında qarşılıqlı münasibətləri qaydaya salır, həmin qarşılıqlı münasibətlər üçün sosialmədəni kontekst (bitginlik) yaradır.

XX əsrin 20-30-cu illərində təşəkkül tapan **biheviorçu metod** siyasi elmdə əsil inqilabı başa çatdırdı. Hüquqi (formal-hüquqi) metoda alternativ kimi yaranan bu metod çərçivəsində siyasət dövlət-hüquq təsisatlarını və siyasi təsisatları, onların formal strukturunu, fəaliyyət qaydalarını öyrənmək yolu ilə təhlil edilmişdir. Hüquqi metodun əksinə olaraq, biheviorçu metod (ingilis dilində behavior – davranış deməkdir) şəxsiyyətin və ya qrupun siyasi davranışını öyrənməyə imkan yaratmışdır. Bu metodun mahiyyəti ondan ibarətdir ki, siyasət ayrıca şəxslərin və qrupların çoxcəhətli davranışının konkret tədqiqi vasitəsilə öyrənilir: "Biheviorizm" termini psixologiyada insanın davranışına dair xüsusi nəzəriyyə kimi izah olunur və **C.B.Uotsonun** (1878-1958) əsərlərində irəli sürülmüşdür. Siyasi elmdə biheviorizm **bihevioralizm** kimi də işlədilir.

Biheviorçu metodla **psixoloji metod** və onun bir növü olan psixi təhlil üzvi surətdə bağlıdır. Psixoloji metoddan siyasətin təhlilində ilk dəfə istifadə edənlərdən biri **N.Makiavelli** olmuşdur. O "Hökmdar" əsərində siyasi davranışın subyektiv mexanizmlərinin fərdin arzusu, istəyi, ehtirası və qüsurunun təhlili vasitəsilə gözəl nümunəsini vermişdir.

Psixi təhlil metodunun banisi Avstriya həkimi-psixatiri **Z.Freyd** (1856-1939 bildirirdi ki, digər davranışlar kimi, fərdin siyasi davranışı da insan psixikasının xüsusi qeyri-şüuri məqsədinə tabedir, bu onun baza tələbatının təmin edilməməsinin nəticəsidir. **Freyd** qeyd edirdi ki, həmin tələ-

batlardan ən başlıcası cinsi şövqdür.

Psixoloji metod siyasi tədqiqatlarda insandan çıxış etməyi məsləhət bilir, o ümumiyyətlə insandan yox, məhz konkret fərddən çıxış edir, insanın cinsi keyfiyyətlərini, sosial əhatəsini və fərdi inkişafın xüsusiyyətlərini nəzərdə tutur. Bu metod siyasi davranışın subyektiv mexanizmlərini, fərdi keyfiyyətləri, xarakterin xüsusiyyətlərini, qeyri-şüuri psixi prosesləri, eləcə də psixoloji motivləşmənin tipik mexanizmlərini öyrənməyə istiqamətlənir.

Psixoloji yanaşmanın spesifik inkişafı **sosial-psixoloji metoddan** ibarətdir. Bu metod insanların siyasi davranışının onların sosial qruplara cəlb edilməsindən asılılığını öyrənməyə, həmçinin qrupun (millət, sinif, kiçik qruplar, kütlə və s.) psixoloji xarakteristikasını tədqiq etməyə yönəlir.

Bihevioryçu metod siyasət aləmini bütövlük kəsb edən fenomen kimi təsəvvür etməyə imkan vermədi, onun müxtəlif ünsürlərinin qarşılıqlı əlaqəsini üzə çıxarmağa qadir olmadı. Buna görə XX əsrin 50-60-cı illərində siyasətə **sistemli yanaşmağa** (sistemli metoda) tələbat yarandı. Sistemli yanaşma siyasətin tərkib hissələrinin sabit daxili əlaqələrinin açıqlanmasına və beləliklə, sistemin dəyişən xarici mühit şəraitinə uyğunlaşması imkanlarını müəyyənləşdirməyə imkan yaradır. Siyasətə sistemli yanaşma mövqeyi onu bütöv müstəqil fenomen kimi nəzərdən keçirməyi ifadə edir. Sistemli yanaşmanın köməyilə siyasətin cəmiyyətin inkişafında yerini, onun ən mühüm funksiyalarını dəqiq müəyyənləşdirmək mümkündür.

Sistemli metod siyasəti bütöv, mürəkkəb təşkil olunan, özünütənzimləyən mexanizm, "giriş" və "çıxış" sistemləri vasitəsilə xarici mühitlə fasiləsiz qarşılıqlı fəaliyyətdə olan fenomen kimi nəzərdən keçirir. Lakin sistemli təhlil siyasətdə fərdi davranışın (məsələn, liderin rolunun) təhlilində az effektlidir.

Həmin çatışmazlığı sistemli yanaşmanın növü olmaq etibarilə **struktur-funksional metod** aradan qaldırır. Bu metod siyasətə sistemli yanaşmanın prinsiplərindən biridir.

Struktur-funksional təhlilin banisi Amerika sosioloqu **Tolkott Parsons** (1902-1979) hesab olunur. "Müasir cəmiyyətlərin sistemi" əsərində o, cəmiyyəti "fəaliyətdə olan subyektlərin qarşılıqlı sosial fəaliyyətinin vəziyyəti və prosesinin əmələ gətirdiyi sistem kimi" nəzərdən keçirir[1]. **T.Parsonsun** başlıca tezisi bundan ibarətdir ki, insan hərəkətində həmişə sistemin cəhətlərinə yiyələnir, ona ayrıca hərəkətlərin məcmuu və daha geniş bütövlüyün tərkib hissəsi kimi baxmaq olar. Buna görə fəaliyyət sistemi başlıca olaraq subyektlə situasiya arasında qarşılıqlı fəaliyyətin təşkilinə aid edilir, daxili inteqrasiya və strukturun saxlanması vasitəsilə baş verir, bu, insanların qarşılıqlı fəaliyyəti sisteminin xarici mühit şəraitinə uyğunlaşması prosesini müəyyənləşdirir və həmin prosesi tənzimləyir.

Sistemin sabitliyi onun struktur elementlərinin zəruri funksiya və rollar vasitəsilə yerinə yetirilməsindən asılıdır. İctimai münasibətlərin bütün sisteminin çıxış meyarı "sosial fəaliyyət" anlayışıdır. Struktur-sosial fəaliyyət üç başlıca elementdən ibarətdir:

1) fəaliyyət subyekti (və ya fəaliyyətdə olan şəxs);

2) fəaliyyət situasiyası və fəaliyyət subyektinin situasiyaya münasibəti;

3) onun oriyentasiyası. Beləliklə, təsdiqlənir ki, subyekt sosial fəaliyyətdə "bütöv mahiyyət" kimi yox, məhz oynadığı hansısa rol baxımdan iştirak edir.

Struktur funksionalizmin mühüm metodoloji prinsipi hər bir sosial sistemin dörd başlıca funksiyaları haqqında müddəadan ibarətdir:

1) cəmiyyətin iqtisadi yarımsistemini təmin edən adaptasiya funksiyası;

2) məqsədlərin əldə olunması funksiyası (məqsədəçatma) – siyasi yarımsistem sayəsində reallaşır;

3) hüquqi yarımsistem tərəfindən həyata keçirilən inteqrasiya funksiyası;

---

[1] Парсонс Т. Система современных обществ. М., 1998, с. 18

4) sistemin təkraristehsalı funksiyası.

Müasir politologiyada **müqayisəli metod** geniş yayılmışdır. Bu metod eyni tipli siyasi hadisələrin (məsələn, siyasi sistem, partiya və s.) müqayisəsini, siyasi funksiyaların müxtəlif üsullarla reallaşdırılmasını, siyasi təşkilin daha effektli formalarını və həll edilən vəzifələrin optimal yollarının tapılmasını nəzərdə tutur.

Müqayisəli öyrənmə metoduna tarixi təsvir, konkret təhlil, müqayisəli dövrləşdirmə, xronoloji və proqnozlaşdırma xarakterli tədqiqat üsulları daxildir. Bu metod tarixi inkişaf proşesində dəfələrlə təkrarlanan hadisələrin təhlili üçün çox əhəmiyyətlidir. Siyasətin müqayisəli təhlili metodu oxşar və fərqli prinsiplərə, siyasi təsisatların deduktiv nəzəri modelinə və onların dürüstləşdirilməsinin induktiv metoduna əsaslanır. Müqayisəli metod ABŞ politoloqları tərəfindən geniş istifadə edilir. İndiyə qədər beynəlxalq aləmdə müqayisəli siyasətə aid ən əhəmiyyətli tədqiqat Amerika politoloqu **R.Makridisin** redaktəsi altında çap edilən çoxnüsxəli dərslikdir. Həmin dərslikdə müqayisəli metodun başlıca prinsipləri öz əksini tapmışdır.

3. Politologiya sosial-humanitar elmlər sistemində

Politologiyanın predmetini öyrənərkən onun sosial-iqtisadi və humanitar biliklər sistemində yerini müəyyənləşdirmək lazımdır. Bu hər şeydən əvvəl, ona görə zəruridir ki, politologiya cəmiyyətin və ictimai münasibətlərin mürəkkəb sisteminin öyrənilməsinə istiqamətlənən elmlərdən biridir. Məlum olduğu kimi, şəxsiyyət və cəmiyyət haqqında əhəmiyyətli təsəvvürü məhz **fəlsəfə elmi** təcəssüm etdirir. İnsan cəmiyyəti haqqında fəlsəfi biliklərin spesifikliyi bundan ibarətdir ki, o, cəmiyyəti dünyagörüşü nöqteyi-nəzərdən daxili ziddiyyətləri və meylləri ilə birlikdə vahid, bütöv halda, onun ən ümumi inkişaf qanunlarını aydınlaşdırmaq vasitəsilə nəzərdən keçirir. Politologiya ilə fəlsəfənin münasibətləri özünəməxsus, ziddiyyətli, birmənalı olmayan səviyyədə

təşəkkül tapır. "Siyasətin fəlsəfəsi", eləcə də "siyasi fəlsəfə" terminlərindən istifadə edilməsi geniş yayılmışdır. Politoloji problemlərin fəlsəfi cəhətdən mənalandırılması zəruri metodoloji prinsipdir, siyasi elmin komponentidir.

Politologiya fəlsəfədən fərqli olaraq orta səviyyədə ümumiləşdirmələr aparır, real gerçəkliyin fəlsəfi təhlilinin nəticələrinə əsaslanır, xüsusi siyasi problemlərin təhlili üçün onun ümumnəzəri müddəalarından və nəticələrindən istifadə edir. Politologiya həmçinin, cəmiyyətin siyasi sferasına aid hadisə və proseslərin mahiyyətinin öyrənilməsinə nüfuz etmək məqsədilə, fəlsəfi biliklərin işləyib hazırladığı metodoloji əsasları mənimsəyir.

Politologiya **iqtisadiyyatla** sıx əlaqə kəsb edir. Son nəticədə nə qədərki bazis münasibətləri siyasətə təsir göstərir, həmin əlaqə xarakterinə görə mürəkkəblik kəsb edir. Bu təsir çox və ya az ola bilər, eləcə də müvafiq ölkənin konkret-tarixi şəraitinin özünəməxsusluğundan asılıdır. Siyasət də öz növbəsində iqtisadi inkişafa təsir göstərməyə qadirdir (həmin inkişafı ləngidə də bilər). Siyasətlə iqtisadiyyatın sıx əlaqəsi insanların fəaliyyətinin bu müvafiq sferalarını öyrənən elmlərdə (siyasi iqtisad və politologiya) öz əksini tapır. Bu gün iqtisadiyyatı bilmədən siyasi münasibətləri başa düşmək qeyri-mümkündür. Eyni zamanda, cəmiyyətdə hakimiyyətin bölünməsi cəmiyyətdə hakim olan istehsal üsulundan və mülkiyyət münasibətlərindən asılıdır.

Politologiya həm keçmişdə və eləcə də hazırda cəmiyyətdə təşəkkül tapan siyasi münasibətləri başa düşməyə imkan yaradan **tarix elmi** ilə də əlaqəyə malikdir. Tarix insanların həm pozitiv, eləcə də neqativ xarakter daşıya bilən siyasi fəaliyyətini öyrənir. Tarix tədqiqatçını keçmişə və bu günə aid olan qiymətli materialla silahlandırır. Tarix elminin nəzəri nəticələri xeyli siyasi hadisələri və prosesləri aydınlaşdırmaq üçün əhəmiyyətli mənbədir. Tarix keçmişin siyasətidirsə, siyasət bu günün tarixidir (**Frend**).

Politologiya **sosioloji biliklərlə** xüsusi əlaqə kəsb edir. Cəmiyyəti bütövlükdə və eləcə də ayrıca sosial təbəqə və

qrupların inkişaf qanunauyğunluqlarını, sosial siyasəti öyrəndiyi üçün, sosiologiya ilk növbədə politologiya ilə sıx bağlıdır. Bunu təkcə belə bir fakt təsdiqləyir ki, sosiologiya çərçivəsində biliklərin siyasətin sosiologiyası kimi sahəsi yaranmışdır və onun obyektini bilavasitə siyasi proseslərin və hadisələrin öyrənilməsi təşkil edir.

Politologiya ilə sosiologiyanın yüksək qohumluq dərəcəsi onların predmetinin həddini dürüst müəyyənləşdirməyi tələb edir. Ən ümumi formada siyasi elmlə (politologiya ilə) sosiologiya arasındakı fərq ondan ibarətdir ki, cəmiyyətin öyrənilməsində sosioloji təhlil başlıca olaraq həyatın maddi, peşə, demoqrafik və etnik amillərlə bağlı olan formalarına diqqət yetirir, lakin politoloji təhlilin mərkəzində hakimiyyət, hakimiyyət münasibətləri, siyasi təsisatlar, siyasi fəaliyyət və digər problemlər durur.

Siyasətin sosiologiyası siyasi fenomenləri öyrənərkən sosial hadisələrin tədqiqindən uzaqlaşır, politologiya isə əksinə, hakimiyyət münasibətləri problemindən çıxış edərək sosial birliklərin və qrupların öyrənilməsinə istiqamətlənir.

"Politologiya" termini ilə yanaşı "siyasi sosiologiya" termini geniş yayılmışdır. Sonuncuya münasibət birmənalı deyildir. Bir qrup müəllif həmin terminləri məzmununa görə eyniləşdirir, digərləri isə fərqləndirir. Lakin politologiya ilə siyasi sosiologiya arasında kəskin fərqlər mövcud deyildir. Politologiya siyasi problemləri iki səviyyədə tədqiq edir: ümumnəzəri (sosioloji) və konkret-sosioloji.

Siyasi sosiologiya cəmiyyətin sosial strukturunun təhlilinə, fərdlərin şüuruna, marağı və davranış motivinin, sosial qrupların mənafe və məqsədlərinin tədqiqinə xüsusi diqqət yetirir.

Politologiyaya ən yaxın elmlərdən biri **hüquqdur**. Bu iki elmin bilavasitə yaxınlığı tamamilə təbiidir. İstər-istəməz hüquqi və siyasi münasibətlər bir-birilə çarpazlaşır. Politologiya ilə hüquq elminin predmeti bəzi aspektlərdə üst-üstə düşür, lakin müxtəlif nöqteyi-nəzərdən araşdırılır.

Hüquqla politologiyanın sıx əlaqəsi sosial normaların

reallaşmasında siyasi hakimiyyətin rolu ilə müəyyən olunur. Hüquq elmi siyasi qərarların işlənib hazırlanması və reallaşması mexanizmini öyrədir. Siyasi hakimiyyət hüquqla tənzimlənməsə, normal fəaliyyətdən məhrum olar. Hüquq elmi dövlətin və hüququn inkişafının başlıca qanunauyğunluqlarını tədqiq edir, onların sosial əhəmiyətini və əsas funksiyalarını üzə çıxarır. Politologiya isə hakimiyyətin təşəkkülü, fəaliyyəti və inkişafı qanunauyğunluqlarını, eləcə də müəyyən sosial birliklərin hakimiyyətə və dövlətə münasibətinin mahiyyətini açıqlayır.

Politologiya **sosial-psixologiya** ilə də birbaşa əlaqəyə malikdir. O, sosial-psixoloji prosesləri politoloji problemlər nöqteyi-nəzərdən açıqlayır. Sosial psixologiya məsələləri siyasi hadisələrin öyrənilməsində böyük yer tutur, çünki o siniflərin, partiyaların, sosial qrupların, təbəqələrin, siyasi prosesin iştirakçılarının, siyasi liderlərin və s. konkret fəaliyyətinin tədqiqi ilə bağlılıq kəsb edir.

İctimai, xüsusilə **siyasi psixologiya** siyasi davranışın subyektiv mexanizmini öyrənərkən, siyasi elmin işləyib hazırladığı başlıca elmi kateqoriyalara əsaslanmaya bilməz. Onlar xüsusilə siyasi sosiallaşma, siyasi münaqişə, siyasi liderlik kimi problemlərin öyrənilməsində geniş istifadə olunur.

Politologiya ilə əlaqə kəsb edən elmlərdən digəri **siyasi coğrafiyadır**. Onun siyasi coğrafiya ilə yaxınlığı siyasi proseslərin məkan vəziyyəti ilə qarşılıqlı əlaqəsində üzə çıxır. Siyasi coğrafiya politologiya çərçivəsində tədqiq olunan, geosiyasi təhlillə sıx bağlı olan siyasi problemləri öyrənir. O, siyasi prosesləri iqtisadi-coğrafi, ərazi, iqlim və digər amillərlə qarşılıqlı əlaqədə tədqiq edir. Siyasi hadisə və proseslərin okeanlara, güclü dövlətlərə yaxın yerdə baş verməsi və digər belə məsələlər siyasi coğrafiya tərəfindən tədqiq olunur.

Politologiya **siyasi antropologiya, siyasi astrologiya** və digər elmlərlə özünəməxsus əlaqəyə malikdir.

Politologiyanın spesifikliyi ondan ibarətdir ki, problemin sosioloji planda nəzəri tədqiqi ilə yanaşı, həm də ha-

kimiyyət münasibətlərinin, onların konkret ölkələrdə, regionlarda, siyasi sistemlərdə fəaliyyəti xüsusiyyətlərinin metodoloji və praqmatik aspektdə öyrənilməsinə böyük diqqət yetirir.

Qeyd etmək vacibdir ki, politologiya siyasi yarımsistemlərin strukturunun xüsusiyyətlərini və funksiyalarını izah edən nəzəriyyə formalaşdırır. Buna görə politologiyanı müəyyən dünyagörüşü ifadə edən, fəaliyyət proqramını nəzərdə tutan **siyasi ideologiya və doktrinalarla** qarışdırmaq olmaz. Bununla bağlı politologiya ilə ideologiyanın nisbəti problemi xüsusi aktuallıq kəsb edir. Bu məsələ hələ diskussiyalı xarakter daşısa da, düzgün mövqedən açıqlanır və qeyd edilir ki, politologiya politoloji biliklər sistemi olmaq etibarilə, müəyyən dərəcədə ideologiyadan kənar olmalıdır. Bununla əlaqədar yadda saxlamaq lazımdır ki, bizim bəlalarımızın mənbələrindən biri məhz bütün ictimai münasibətlərin, bütün ictimai elmlərin totalitar ideologiyalaşdırılması olmuşdur. Yalnız ideologiyasızlaşma, plüralizm şəraitində politologiya bir elm kimi siyasi həyatın və bütün cəmiyyətin yeniləşməsində əməli rol oynaya bilər. Siyasi gerçəklik haqqında elmi biliklərlə (politologiya ilə) siyasi fəaliyyəti dəqiq müəyyənləşdirmək zəruridir.

Beləliklə, politologiyanın elmi xarakteri siyasi fəaliyyətlə əlaqədə nəzərdən keçirilməlidir. Qeyd etmək lazımdır ki, politologiya siyasi fəaliyyətin subyektinə (ayrıca insanlara və təşkilatlara) özünün işləyib hazırladığı nəzəriyyə vasitəsilə siyasi hadisələrin ümumi mahiyyətini necə başa düşməyə kömək edir. O, siyasi gerçəklik haqqında sistemli, əsaslandırılmış və obyektiv biliklər sistemi işləyib hazırlamaqla siyasi fəaliyyətin səmərəli olmasını təmin edir.

Bir sözlə, politologiyanın nəzəri şüurla və praktika ilə qarşılıqlı əlaqəsinin mürəkkəbliyi təsdiqləyir ki, o fəaliyyət proqramı hazırlamır, lakin onun səmərəliliyinə o dərəcədə imkan yaradır ki, siyasi sistemlər haqqında bir o qədər obyektiv əhəmiyyətə malik olan biliklərin təzahürünü təmin edir.

II FƏSİL
SİYASƏT CƏMİYYƏTİN TƏNZİMLƏYİCİ, TƏŞKİLEDİCİ VƏ NƏZARƏTEDİCİ YARIMSİSTEMİDİR

1. Siyasətin mahiyyəti və başlıca cəhətləri

Siyasi nəzəriyyənin başlıca dəyişməz vəzifələrindən biri siyasətə aid universal konsepsiyanın işlənib hazırlanmasından ibarətdir. Lakin siyasət anlayışı dəyişməz qalmamışdır, cəmiyyətin təkamülü ilə yanaşı, o da dəyişikliyə uğramışdır. Siyasətin "ümumi rifahın" və "xoşbəxt həyatın" əldə olunmasına xidmət edən sivil birlik forması kimi başa düşülməsi **Aristotelin** adı ilə bağlıdır. Lakin **M.Dyuverjenin** qeyd etdiyi kimi, siyasət haqqında nəzəri şərhlər nisbi əhəmiyyətə malikdir, müxtəlif cür siyasət mövcud olsa da, siyasətə aid universal konsepsiya mövcud deyildir.

Siyasət həmişə mövcud olmayıb. Onun təzahürü insan tələbatının daim inkişafı və ictimai əmək bölgüsü ilə şərtlənən sosial həyatın mürəkkəbləşməsi prosesini əks etdirir. Siyasət ibtidai icma cəmiyyətinin dağılması və sosial cəhətdən qeyri-yekcins cəmiyyətin təşəkkülü ilə təzahür edir.

Qeyri-siyasi tənzimləmənin üstünlük təşkil etdiyi primitiv cəmiyyətlərdə insanların davranışının tənzimlənməsi, təbii ki, yetkin səviyyədə ola bilməzdi. İstehsalın inkişafı, əmək bölgüsünün dərinləşməsi, sosial münaqişələrin kəskinləşməsi, insanların qarşılıqlı fəaliyyət formalarının mürəkkəbləşməsi, sosial nəzarətin köhnə ənənəvi formalarının zəifləməsi nəticə etibarilə, xüsusi təsisat və fəaliyyət növü kimi siyasətin yaranmasına gətirib çıxartdı.

Siyasətin mahiyyəti və məzmunu, bu ictimai hadisənin tədqiqi üsulları və cəmiyyətin siyasi həyatı barədə ən yeni biliklər əldə edilməsi ilə bağlı politoloji ədəbiyyatda xeyli müxtəlif təsəvvürlər mövcuddur. Hazırda siyasət haqqında bu və ya digər elmi biliklər sosial reallığın öyrənilməsi əsasında və onun tətbiqi sferasında təşəkkül tapır. Çünki siyasət, siyasət aləmi məhz sosial reallığın xüsusi növü kimi

səciyyələnir. Siyasətin tədqiqinə belə mövqedən yanaşma keçən əsrin ikinci yarısından etibarən xüsusi aktuallıq və əhəmiyyət kəsb etməyə başlayır. Qeyd etmək lazımdır ki, siyasətin öyrənilməsi sahəsində bu və ya digər nəzəriyyəyə aid əsas fikir ayrılığı onun təbiətinə münasibətdə və siyasət aləminə dair biliklərin xarakteristikasında nəzərə çarpır.

Siyasət insanların fəaliyyətinin ən əhəmiyyətli sferasıdır. O, ictimai həyatın daha aydın müşahidə etdiyimiz tərəfidir, lakin həmin görüntü aldadıcıdır, çünki istər-istəməz cəmiyyətin digər yarımsistemlərinə aid xeyli az nəzərə çarpan prosesləri gizli saxlayır. Məsələn, ilk öncə elmi, milli, etnik, dini və sair amillər və hadisələr məhz bu qəbildəndir.

Siyasət anlayışı mənşə etibarilə, qədim yunan dilində şəhər-dövlət mənasını əks etdirən polis sözündən və bu sözdən əmələ gələn politika (konstitusiya), politikos (vətəndaş, dövlət xadimi) məvhumlarından götürülmüşdür.

Siyasətin mahiyyəti insanların münasibətlərilə, dövlətlə, hakimiyyət təsisatları ilə əlaqə kəsb edən həyat fəaliyyətinin xüsusi forması kimi səciyyələnir. Siyasi təfəkkürün mərkəzi problemi dövlət, hakimiyyət və hakimiyyət münasibətləridir. Bu baxımdan, dövlət və hakimiyyət politologiyanın köklü kateqoriyaları sayılır. Siyasətin mövcud olduğu hər yerdə dövlətin mövcudluğu zərurətdir, təbiidir. Bununla belə siyasət dövlətdən kənarda da təzahür edir.

Siyasət cəmiyyət üzvləri arasında qarşılıqlı münasibətin elə bir formasıdır ki, o, əsasən, hakimiyyətin fəaliyyətinə və idarəetmə məsələsinə aid edilir. Siyasətin cəmiyyətdə fəaliyyəti və mövcudluğu nəinki dövlətlə və hakimiyyətlə, həmçinin siyasətin öz mahiyyəti, onun tarixən qərarlaşan universal, mürəkkəb və dəyişməz xüsusiyyətləri ilə şərtlənir. Siyasətin təbiəti və məzmunu iki yolla müəyyənləşir. Birinci, bu sosial fenomen ictimai-tarixi inkişaf prosesində qərarlaşan ümumi cəhətlərlə, ikinci isə zamanın konkret şəraiti, ictimai həyatın özü və xüsusiyyətləri ilə müəyyən olunur.

Siyasətin bütün cəmiyyətlərdə təzahürü onu təşkil edən cəhətlərin məcmuu, universal və ziddiyyətli başlanğıca ma-

lik olması ilə bağlıdır. Hər bir yeni qərarlaşan cəmiyyət və onun üzvləri siyasətə yeni ictimai hadisə kimi baxır, siyasətin mahiyyətini anlamağa, siyasi həyatda iştirak etməyə səy göstərir. Siyasət bütün çoxcəhətliliyi və mürəkkəbliliyi ilə sosial reallıqdır. Lakin unutmaq olmaz ki, ictimai həyatın reallıq kimi səciyyələnən digər sferaları ilə müqayisədə siyasət spesifiklik kəsb edir.

Politoloji ədəbiyyatda siyasət əsasən, subyektlərin hakimiyyətə münasibəti kimi mənalandırılır. Bu mövqedən çıxış edənlər hər şeydən əvvəl, hakimiyyətin reallaşmasında zorakı metodların nəzərə alınmasını məqsədəuyğun hesab edirlər. Bəzi tədqiqatçılar siyasətin mahiyyətini onun funksiyaları ilə əlaqələndirirlər. Belə yanaşmanın mənası ondan ibarətdir ki, siyasət idarəetmə, qayda-qanun yaratmaq vasitəsi kimi səciyyələnir. Bir sözlə, bu ictimai hadisə ilə bağlı tədqiqatçıların ümumi fikri bundan ibarətdir ki, siyasət aləmi siyasi nəzəriyyənin əsas obyektidir.

Siyasət anlayışının mahiyyəti bütün hallarda cəmiyyət üzvlərinin hakimiyyətə və dövlətə münasibətlərilə, digər siyasi təsisatlarla bağlı olan həyat fəaliyyətinin spesifik sferası kimi səciyyələnir. Xüsusi ictimai hadisə olmaq etibarilə, siyasət həm hakimiyyətə, idarəetməyə, qərarların qəbul edilməsinə aid praktikadır və eləcə də siyasi qərarların müəyyənləşdirilməsi prosesinə real təsir göstərən subyektiv təsəvvürlər, mülahizələr və mühakimələr aləmidir. Siyasət insanların həyat fəaliyyətinin bütün sahələrinə və formalarına xas olan ictimai hadisə kimi təzahür edir. Məhz bu baxımdan o, cəmiyyətin bütün sferalarına toxunur. Siyasət elə təsisatları, prinsipləri, normaları əks etdirir ki, bunlar insanların bu və ya digər birliklərinin həyat fəaliyyətini təmin edir, onların ümumi iradəsini, mənafelərini və tələbatlarını reallaşdırır.[1]

Siyasət ictimai hadisə kimi, müasir sivilizasiyanın dərin qatları ilə möhkəm bağlılıq kəsb edir. Gündəlik həyatda

---

[1] Nəbiyev F. Siyasi təfəkkür. B., 2003, s. 102-103

öz fəaliyyətində siyasətlə əlaqəsi olmayan insan təsəvvür etmək çətindir. O, fərdlərin, sosial qrupların tələbatı kimi nəzərə çarpır. Xüsusi sosial fenomen kimi səciyyələnən siyasət gündəlik həyatda özünü ictimai işlərin idarə olunmasında və ona rəhbərlikdə dövlətlə siyasi təşkilatlar, partiyalar, hakimiyyətə təsir göstərən müxtəlif qruplar arasındakı münasibətlərdə məqsədyönlü fəaliyyət kimi təzahür etdirir".[1]

Siyasət aləminin mahiyyətini və məzmununu şərtləndirən başlıca amilləri anlamaq məqsədilə, bəzi tədqiqatçıların tədqiqat metodlarının açıqlanması vacibdir. Bu baxımdan, **İ.Y.Daniyelin** metodoloji dəyərə malik olan elmi mövqeyi diqqəti cəlb edir. O, iddia edir ki, siyasətin mahiyyətinə təsir göstərən sosial amilləri dəqiqləşdirmək məqsədilə, həmin amillərin məcmuu təhlil edilməlidir. Daha doğrusu, iqtisadi, sosial və mənəvi amillər də nəzərə alınmaqla, siyasət aləmini şərtləndirən amillər ümumi mədəni-sivil kontekstdə götürülməlidir.

Siyasət cəmiyyətin bütün sferalarına ciddi təsir göstərir, onun bütövlüyünü təmin edir, insanların birgə yaşayışını şərtləndirir. **Platonun** təbirincə desək, siyasət birlikdə yaşamaq bacarığıdır. Siyasət sosial rifahın və ədalətin təmin olunmasına istiqamətlənir.

Siyasət əməli həyatda ictimai münasibətlərin növü, insanların həyat fəaliyyətinin spesifik sferası, davranışın xüsusi tipi, dövlətlərarası, millətlərarası münasibət kimi təzahür edir. Eləcə də siyasət müəyyən məqsədlərin əldə edilməsinə yönələn, siyasi xəttin həyata keçirilməsinə istiqamətlənən xüsusi ictimai hadisədir.

Cəmiyyətin yarımsistemlərindən biri kimi təzahür edən siyasət bütövlüyə malik sistem kimi səciyyələnir. O, ancaq sabit təsisatlar kimi yox, eləcə də dinamik proses kimi mənalanır. Siyasət təbii olaraq qaydalar sistemi kimi də çıxış edir. Həmin sosial fenomen həm də dəyərlər, rəylər, fərdlərin və sosial qrupların məqsədləri sistemidir. Bu cəhət siya-

[1] Макеев А.В. Политология. М., 2000, с. 42

sətin ideoloji təbiətini təcəssüm etdirir.

Siyasət həmçinin insanların, sosial subyektlərin spesifik fəaliyyət növüdür. Siyasətin bu cəhəti onunla şərtlənir ki, həmin ictimai hadisə məhz insanların fəaliyyəti sayəsində yaranır və onu tənzimləyən qanunlara tabe olur. Be fenomenin qanunlarının əsasında insanın təbiəti və ona aid olan qanunlar dayanır. Siyasətin qanunu insanın öz təbiətinə xas olan qanunların spesifik davamı kimi çıxış edir. Nəticə etibarilə bu qanunlar fərdlərin, sosial qrupların və cəmiyyətin özünün səmərəli və məqsədyönlü reallaşdırılmasına istiqamətlənir. Siyasət nəzəriyyəsinin görkəmli nümayəndəsi **R.T.Muxayevin** fikrincə, digər sosial təsisatlardan (məsələn, əxlaq, iqtisadiyyat) fərqli olaraq siyasət şəxsi tələbatın ödənilməsinə deyil, məhz ictimai, qrup halında mənafelərə xidmət edir, bunların reallaşması isə dövlət hakimiyyətinin müdaxiləsi olmadan mümkün deyildir. Qrupların, birliklərin qarşılıqlı fəaliyyəti o zaman siyasi mahiyyət kəsb edir ki, dövlətin müdaxiləsi olmadan onların iddialarının reallaşmasının qeyri-mümkünlüyü aydın şəkildə nəzərə çarpır.

Siyasət aləminin spesifikliyinin mənalandırılması, onun inkişaf meylinin başa düşülməsi ideyaların, mülahizələrin, mühakimələrin həlledici rolunun etirafı əsasında həyata keçirilməlidir. Həmin ideyalar, fikirlər siyasi davranışın motivlərinin əsasını təşkil edir. Siyasi qaydaların təkrar istehsalı və saxlanması üçün fərdlər sözdə, fikirdə, simvollarda ifadə olunan zəruri subyektiv biliklərə yiyələnməlidir. Siyasi aləmin obyektini yaradan insanların fəaliyyətinin əsasında hansısa aktual problemi həll etmək arzusu ilə bağlı olan məqsəd dayanır.

Siyasətin mahiyyətini obyektiv siyasi obyektlərin (təsisatların, təşkilatların, status və rolların), siyasi hakimiyyətə yiyələnmək və ondan istifadə etmək məqsədilə təşəkkül tapan siyasi əlaqə və konkret münasibətlərin (rəqabət, əməkdaşlıq, münaqişə) məcmuu təşkil edir.

İctimai həyat sosial, iqtisadi, siyasi və mənəvi-ideoloji yarımsistemlərdən ibarət olan ən ümumi və mürəkkəb di-

namik sistemdir. Siyasət bu yarımsistemlərin hamısında nəzərə çarpır. Siyasi sferada siyasət ilk növbədə dövlət hakimiyyətinə münasibətdə cəmiyyət üzvləri ilə sosial birliklər arasındakı münasibətlərin təkraristehsalına və tənzimlənməsinə istiqamətlənir. Dövlət sosial qruplara, təbəqələrə və birliklərə münasibətdə xüsusi əhəmiyyətə malik olan siyasi xətti müəyyənləşdirir. Siyasət sabit ictimai qaydalar şəraitində rasional fəaliyyət göstərmək qabiliyyətinə qadirdir. Bu cür şəraitin özü də birmənalı olaraq dövlət hakimiyyəti tərəfindən yaradılır.

Mürəkkəb, universal və ziddiyyətli ictimai hadisə olmaqla, siyasət cəmiyyətin bütün sferalarına nüfuz və əhəmiyyətli təsir edir. Siyasətdə bütün sosial birliklərin, sosial subyektlərin və siyasi təsisatların ümumi (iqtisadi, sosial, mənəvi-ideoloji) mənafeləri öz təcəssümünü tapır. Belə bir ədalətli fikrə haqq qazandırmaq olar ki, rasional, demokratik siyasət həmin mənafelərə təzyiq göstərməyi deyil, onların harmoniyalı əlaqələndirilməsini, uzlaşdırılmasını və inteqrasiyasını nəzərdə tutur (ictimai razılıq əsasında).[1]

Siyasətin mahiyyətini düzgün başa düşmək üçün onun strukturunun aydınlaşdırılması da zəruridir. Siyasətin strukturu nəinki onun predmeti, eləcə də digər ictimai hadisələr sistemində yeri və rolu ilə şərtlənir. Siyasətin strukturunu əmələ gətirən cəhətlər ictimai həyatın sosial, iqtisadi, milli, mədəni-mənəvi və digər amilləri ilə müəyyən olunur. Həmin amillər nisbi sabitliyi, yaşamaq qabiliyyəti və daimiliyi ilə fərqlənir.

Siyasət çoxcəhətli mürəkkəb ictimai hadisə olduğu üçün onun strukturuna ilk öncə, uzun müddət ərzində bu və ya digər cəmiyyətdə formalaşan çoxlu nəsillərin siyasi ənənələri, siyasi praktikanın fəaliyyətdə olan normaları, müxtəlif sosial-siyasi təsisatların qarşılıqlı münasibətləri haqqında ideyalar, konsepsiyalar, inamlar, həmçinin əhatəli elmi ümumiləşdirmələr və nəticələr daxildir. Siyasətin strukturu

[1] Бродел Ф. Политическая наука. Политология вчера и сегодня. М., 1990, с. 148

onun subyektlərinin siyasi fəaliyəti və davranışının təşəkkülünün texnologiyasını, səmərəli üsullarını ifadə edir. Ümumiyyətlə, politoloji ədəbiyyatda siyasətin məzmunu kimi, strukturu məsələsi də fərqli nöqteyi-nəzərdən izah olunur. Qeyd etmək lazımdır ki, bu sosial fenomenin strukturunun hansı səviyyədə, hərtərəfli, məhdud və digər baxımdan araşdırılmasından asılı olmayaraq, onu siyasi hadisə və proseslərin açıqlanmasına əsaslanan siyasətə aid nəzəriyyələrsiz təsəvvür etmək çətindir.

Siyasi hadisələri müəyyənləşdirmək cəhdi fərdlərin müxtəlif məzmunlu siyasi hadisə və proseslərə nüfuz və müdaxilə etmək qabiliyyətini, onları obyektiv elmi mövqedən araşdırmaq, təhlil edib ümumiləşdirmək və qiymətləndirmək bacarığını səciyyələndirir. Daha doğrusu, bir tərəfdən siyasətin təsisatlı subyektlərinin – dövlətin, siyasi partiyaların, hərəkatların, digər tərəfdən isə siyasətin sosial subyektlərinin – şəxsiyyətin, siniflərin, qrupların, xalqın və millətin cəmiyyətdə baş verən siyasi dəyişikliklərə, siyasi həyatın inkişaf meyllərinə münasibət səviyyəsi açıqlanır[1].

Siyasətin mahiyyəti və məzmununu ifadə edən mühüm ünsürlərdən digəri müxtəlif siyasi biliklərin məcmuu və eləcə də siyasi inamla müəyyənləşən siyasi təfəkkürdür. Siyasi təfəkkür tərzi nəzəri informasiya zəminində və mənimsənilən gündəlik əməli biliklər sayəsində təşəkkül tapır və inkişaf edir. Siyasi təfəkkür siyasi həyatda, siyasət aləmində baş verən hadisə və prosesləri, qanunauyğunluqları dərk edib qiymətləndirmək qabiliyyətidir, ictimai-syiasi dəyərləri düzgün mənalandırmaq, siyasi praktikanın fəal, şüurlu subyekti kimi çıxış etmək bacarığıdır. Siyasi həyatın məzmununu təşkil edən fəaliyyət və siyasi davranış məhz siyasi təfəkkür tərzinin təsiri nəticəsində təşəkkül tapır, formalaşır, təkmilləşir və inkişaf edir.

Siyasətin mahiyyəti və əsas cəhətləri ilə bağlı mülahizə-

---

[1] Bax: Введение в социологию международных отношений. Под ред. П.А.Цыганкова. М., 1992, с. 249-250

lər siyasi həyat haqqında təsəvvürlərlə sıx bağlıdır. İnsanların siyasi həyatı ancaq ümumi əhəmiyyətə malik olan konkret vəzifələrdən irəli gəlmir, eləcə də onların mənafe və məqsədləri ilə şərtlənir. Hər bir fərd iradəsindən asılı olaraq düşüncəli surətdə peşəkar siyasətçilərin, partiya fəallarının və s. sıralarına qoşula bilər. Lakin belə meyletmə ancaq ayrıca fərdlərin deyil, həmçinin bütövlükdə cəmiyyətin siyasi sferasının mahiyyətini ifadə edir. Əlbəttə, cəmiyyətin və fərdlərin real siyasi həyatı nəticə etibarilə, mövcud cəmiyyətin siyasi quruluşu və dövlət tipi ilə müəyyən olunur. Qeyd etmək lazımdır ki, insanların siyasi səyləri onların mənəvi-əxlaqi keyfiyyətləri ilə müəyyən bağlılıq kəsb edir. Lakin **Makiavellinin** qeyd etdiyi kimi, hansı keyfiyyətlərə yiyələnməsindən asılı olmayaraq xalq siyasi həyatdan kənarda qala bilməz[1]. İnsanlar arasındakı qarşılıqlı münasibətlərdə ədalət, düzgünlük, doğruçuluq siyasət vasitəsilə reallaşır, qərarlaşır və son nəticədə ictimai həyatda hamının rifahı təmin edilir. Unutmaq olmaz ki, siyasətin məzmunu və mahiyyəti onun məqsədlərində, dəyərlərində, həll edəcəyi məsələlərdə, siyasi qərarların qəbul olunması mexanizmində öz təcəssümünü tapır.

Siyasi həyatın əsas məzmununu **siyasi fəaliyyət** təşkil edir. Subyektin fəallığının xüsusi forması kimi səciyyələnən siyasi fəaliyyət fərdlərin həyat fəaliyyəti sistemində spesifik yer tutur. Siyasi fəaliyyətin məzmununun müəyyənləşdirilməsi siyasətin mahiyyətini açıqlamağa istiqamətlənir.

Siyasi fəaliyyətin konkret məzmununu aşağıdakılar təşkil edir: dövlət işlərində iştirak, dövlətin fəaliyyətinin formalarını, vəzifələrini və istiqamətini müəyyənləşdirmək, hakimiyyətin bölünməsi, onun fəaliyyətinə nəzarət və həmçinin siyasi təsisatlara təsir göstərmək[2].

Siyasi fəaliyyətin bilavasitə obyektinə siyasi dəyərlər, təsisatlar, bütövlükdə cəmiyyətin siyasi sistemi və ona aid

[1] Макиавелли. Государь. М., 1990, с. 50

[2] Ətraflı bax: Зеркин Д.П. Основы политологии. Ростов на-Дону, 1997, с. 308-314

olan sosial qruplar, partiyalar, elitalar və liderlər daxildir. Siyasi fəaliyyətin konkret subyektləri müxtəlifdir. Siyasi fəaliyyətin mütəşəkkil qüvvə kimi çıxış edən subyektləri iki növdən idarətdir: qrup halında və fərdi. Siyasi fəaliyyətdə qrup halında fəaliyyətin subyekti kimi siniflər, millət, ərazi (regional) və elitar subyektlər çıxış edirlər.

Siyasi baxımdan qrupla birgə fəaliyyət göstərən hər bir fərd – şəxsiyyət isə siyasi fəaliyyətin fərdi subyekti kimi səciyyələnir. Qeyd edək ki, siyasi şəxsiyyətin yüksək tipi siyasi lider sayılır.

Fərdlərin sosial fəaliyyətinin siyasi mahiyyəti onların ictimai münasibətlər sisteminə cəlb olunma dərəcəsi ilə bağlıdır. Fərdlər əməli siyasi fəaliyyətdə cəmiyyətin, sinfin, sosial təbəqə və qrupun bir hissəsi kimi çıxış edir.

Siyasi fəaliyyətin əhəmiyyətli cəhətlərindən biri onun rasionallığıdır. Belə rasionallıq siyasi mənafelərin, tələbatın, məqsədlərin, dəyərli-şüurlu dərk edilməsinə istiqamətlənir. Siyasi həyatın məzmununu səviyyələndirən siyasi fəaliyyətin səmərəliliyi bu fəaliyyətin subyektinin hakimiyyətə münasibətini ifadə edir. Bu cür münasibət təbii olaraq siyasi fəaliyyət subyektinin mənafe və məqsədi ilə şərtlənir.

Politoloji ədəbiyyatda siyasi fəaliyyəti adətən, üç əsas qrupa ayırırlar: siyasi sistem çərçivəsində fəaliyyət; siyasi sistemin ictimai mühitə münasibəti ilə əlaqədar olan fəaliyyət; siyasi hakimiyət təsisatlarını əhatə edən sosial mühitin doğurduğu fəaliyyət. Həmin fəaliyyət qruplarının mahiyyətindən çıxış edərək tədqiqatçılar siyasi fəaliyyətin iki növünün – praktiki və nəzəri siyasi fəaliyyətin mövcudluğunu göstərirlər. İnsanların siyasi fəaliyyətinin hər iki növü onların siyasi davranışı ilə sıx bağlılıq kəsb edir. Siyasi fəaliyyət kimi, siyasi davranışın da mahiyyəti siyasi sferada nə dərəcədə fəallıq təzahür etdirməsindən ibarətdir. Siyasi davranış siyasi fəaliyyət subyektlərinin bilavasitə qarşılıqlı təsirini səciyyələndirir. Davranış üç səviyyədə təzahür edir: fərdi, qrup halında və kütləvi. O, fəaliyyət prosesində subyektin vəziyyətini əks etdirir və bütün siyasi hərəkətlərdə nəzərə

çarpır. Bir sözlə, siyasi fəaliyyətdən kənarda siyasi davranış yoxdur. Siyasi davranışda vətəndaşların cəmiyyətin siyasi sisteminə və hakimiyyət təsisatlarına münasibətinin mahiyyəti üzə çıxır. Siyasi fəaliyyətin hər cür növü və onların qarşılıqlı münasibəti siyasi proseslərin təzahürünə gətirib çıxarır.

2. Siyasi münasibətlərin məzmunu və xarakteri

Cəmiyyətin siyasi həyatı konkret surətdə ilk öncə, siyasi münasibətlərdə təzahür edir. Buna görə siyasi həyatın mürəkkəbliyi və bütün çoxcəhətliyi barədə təsəvvürə malik olmaq üçün, siyasi münasibətlərin məzmununu və xarakterini aydınlaşdırmaq vacibdir.

Siyasi münasibətlər ictimai qruplar arasında və ya bu qruplar daxilində qarşılıqlı münasibətləri əks etdirməklə, funksional-kommunikativ rol oynaması ilə səciyyələnir. Onlar sosial təbəqə və qrupların mənafelərinin, iddialarının və məqsədlərinin siyasi fəaliyyət sayəsində təmin olunması nəticəsində təşəkkül tapır (ümumi hakimiyyətə yiyələnmək və ondan istifadə etməklə). Hakimiyyətdə olanların fəaliyyəti ilə birbaşa və ya dolayısı ilə əlaqə, hakimiyət uğrunda mübarizə və ya hakimiyyətin bölünməsi siyasi münasibətləri digər bütün münasibətlərdən fərqləndirir. Bu baxımdan onların başlıca xüsusiyyəti ondan ibarətdir ki, **hakimiyyətə dair münasibəti səciyyələndirir**. Siyasi münasibətlər siyasi fəaliyyət prosesində təşəkkül tapmaqla, siyasi şüurla ifadə olunur və özünün qanuniləşməsi prosesində obyektiv zərurət kimi qərarlaşır, başqa sözlə, obyektiv olaraq təşəkkül tapır. Siyasi ideyalar, proqramlar, konsepsiyalar ictimai münasibətlərin məzmununa daxil olmaqla, onların formalaşması və inkişafı prosesində məqsədyönlü rol oynayır.

Hər bir siyasi münasibət özündə iştirak edən subyektlərin rolunu müəyyən edir və davranışın sabit stereotipinə uyğun gələ bilər. Sosial münasibətlərin subyektlərinin sosial-siyasi rolunun, təsirinin əhəmiyyəti müxtəlifdir, buna

görə demək olar ki, siyasi münasibətlər çərçivəsində hər bir rol müəyyən siyasi çəkiyə uyğun gəlir. Rollardan birinin böyük siyasi çəkiyə malik olması onun üstünlüyünü ifadə edir. İcraedici hakimiyyətlə nümayəndəli hakimiyyət arasında rolların bölüşdürülməsi onlardan birinin hakim mövqeyə malik olmasından asılı olaraq müxtəliflik kəsb edə bilər. Hakimiyyətin qollarından birinin daha böyük rol oynaması məhz konkret siyasi münasibətlərlə şərtlənir.

Siyasi münasibətlərin hər bir konkret növü öz əsasına malikdir. Siyasi münasibət aşağıdakılarla bağlı təşkil olunur və həyata keçirilir:

- **hakimiyyətə yiyələnmək və ondan istifadə;**
- **hökmranlıq etməyin təşkili vasitələri** (hakimiyyət orqanları, resurslar, şərait, siyasi dəyərlər və normalar);
- **təsisatlı təşkil** (dövlət, partiya təşkilatları, bütövlükdə siyasi sistem) və **siyasi informasiya istehsalı;**
- **siyasi münasibətlərin özü**.

Siyasi münasibətlərin formalaşmasının əsasında insanların mənafeyi dayanır. Onların reallaşması üçün vətəndaşlar birləşirlər, müxtəlif assosiasiyalar yaradırlar, siyasi fəaliyyətin müəyyən qaydalarını işləyib hazırlayırlar. Beləliklə, siyasi mənafe dərk olunmuş tələbatı ifadə etməklə, siyasi münasibətlərin fəaliyyətinin fundamental amili kimi çıxış edir. İnsanların kütləvi mənafelərinin xarakteri siyasi münasibətlərin vəziyyətinin mühüm göstəricisidir. Məhz buna görə, real siyasi münasibətlərin konkret təhlili üçün əsas ictimai qrupların həyati mənafeyini, onların dəyişməsi xarakterini, ehtimal edilən inkişaf meylini dəqiq bilmək zəruridir.

Siyasi münasibətlər siyasətin bütün sferalarında nəzərə çarpır. Bu münasibətlər ilk öncə, dövlət hakimiyyəti ilə şərtlənir. Siyasi münasibətlər digər ictimai münasibətlərdən fərqlənir. Bu fərq onun müəyyənedici mahiyyətindən irəli gəlir, başqa sözlə siyasi münasibətlərin obyekti kimi təzahür edən siyasi hakimiyyətlə, xüsusilə dövlət hakimiyyəti təsisatları ilə müəyyən olunur. Siyasi münasibətlər ictimai münasibətlərin tipini, istismar, hökmranlıq və tabelik və ya əmək-

daşlıq, qarşılıqlı fəaliyyət və siyasi birlik münasibətlərini səciyyələndirir. İctimai münasibətlər ictimai prosesin forması kimi çıxış edir. "İctimai münasibətlər" anlayışını əhatəli və düzgün başa düşmək bütövlükdə siyasi münasibətləri dəqiq müəyyənləşdirməyə kömək edir. Fərdlər ictimai münasibətlər sistemində müxtəlif sosial birliklərin və qrupların üzvləri kimi çıxış edirlər.

İctimai münasibətlər bazis xarakterli və ideoloji, üstqurum mahiyyətli tərəflərə malikdir. İctimai münasibətlərin ən başlıcası istehsal münasibətləridir. Həmin münasibətlər ictimai inkişafın müəyyənedici amilidir. İctimai həyatın mürəkkəbləşməsi və differensasiyası nəticəsində cəmiyyət üzvlərinin fəaliyyətinin daha spesifik növlərilə bağlı olan ictimai münasibətlər kompleksi təşəkkül tapır. Bir sözlə, ictimai münasibətlər sosial qruplar, siniflər və millətlər arasında, eləcə də iqtisadi, sosial, siyasi, mədəni həyatları və fəaliyyətləri prosesində onların daxilində yaranan çoxcəhətli əlaqələri əks etdirir.[1]

İctimai münasibətlərin spesifik, mürəkkəb növü kimi səciyyələnən **siyasi münasibətlər insanlar arasında ümumi mənafe ilə şərtlənən əlaqə və qarşılıqlı münasibətdir, qarşılıqlı fəaliyyətdir. O, siyasi əlaqələrin sadə təzahür formasıdır. Cəmiyyətin siyasi həyatı məhz siyasi münasibətlərdə təzahür edir**. Siyasi münasibətlərin məzmunu və xarakteri dövlət və cəmiyyət, hakmiyyət və xalq, siniflər, sosial təbəqə və qruplar arasındakı münasibətlərlə müəyyənləşir, eləcə də ictimai inkişaf prosesinin demokratikləşməsi, cəmiyyətin siyasi mədəniyyəti ilə şərtlənir. Siyasi münasibətlər sosial subyektlərin və fərdlərin siyasi həyatda statusunu və rolunu müəyyən edir. Siyasi münasibətlərin mənbəyi mənafedir, eləcə də bu münasibətlər mənafe formasında formalaşır. Cəmiyyətdə siyasi münasibətlərin vəziyyəti öz əksini siyasi təsisatlarda və normalarda tapır. Qeyd etmək lazımdır ki, siyasi təsisatlar və normalar mövcud münasibətlərin siyasi sferada ifadəsi

[1] Ətraflı bax: Məcid Əfəndiyev. Sosiologiya. B., 2009, səh.149-156

forması kimi səciyyələnir. Siyasi fəaliyyətin müxtəlif növlərinin tənzimlənməsi tələbatı təşkilati-idarəetmə münasibətini doğurur. Siyasi təsisatlar siyasi fəaliyyətin təşkili və tənzimlənməsi formalarıdır, bunlardan kənarda siyasi münasibətlər yoxdur. Eyni zamanda, onların özü bu münasibətləri təkrar istehsal edir və onlara uyğun gəlir[1].

Siyasi normalar və prinsiplər eləcə də cəmiyyətdə siyasi münasibətlərin çoxcəhətliliyini möhkəmləndirir və müəyyən edir. Onlar hüquqi normalarla yanaşı, siyasi həyatın ümumi istiqamətini, "siyasi oyun" qaydalarını tənzimləyir, siyasi münasibətləri mütəşəkkil səviyyədə istiqamətləndirir. Siyasi münasibətlər çərçivəsində tənzimləmə funksiyasını həmçinin, siyasi ənənələr və hakim əxlaq normaları yerinə yetirir. Siyasi münasibətlərin məzmunu və xarakteri onda ifadə olunur ki, onlar hakimiyyət vasitəsilə təşəkkül tapır, onları bütövlükdə hakimiyyət münasibətləri kimi müəyyənləşdirmək olar. Siyasi münasibətlər əsasən, fərdlərin fəaliyyəti üzərində yüksələn kollektiv fəaliyyəti əks etdirir. Axı, siyasət ayrıca insanların fəaliyyət sferası deyil, məhz kollektiv səylər sahəsidir. Siyasi münasibət subyektləri qarşılıqlı siyasi fəaliyyət nəticəsində formalaşır, onların məhsuludur. Siyasi subyektlərin qarşılıqlı fəaliyyəti iki başlıca formada həyata keçirilir:

- rəqabət, mübarizə, qarşıdurma;
- əməkdaşlıq, qarşılıqlı yardım, kooperasiya.

Siyasi münasibətlər probleminin ən əhəmiyyətli aspektlərindən biri də onun strukturu məsələsidir. Bu strukturu müəyyənləşdirmək üçün aşağıdakıların aydınlaşdırılması mühüm əhəmiyyətə malikdir:

1) siyasi münasibətlərin daşıyıcıları, subyektləri;

2) siyasi fəaliyyətin məzmunu;

3) siyasi həyatın iştirakçılarının hakimiyyət səlahiyyətlərinin həcmi. Siyasi münasibətlərin növlərinin spesifikliyi

---

[1] Политология. Под ред. Б.И.Кремова, М., 2002, с. 101

ondan ibarətdir ki, siyasi subyektlər arasındakı qarşılıqlı əlaqəni hakimiyyətə münasibət vasitəsilə ifadə edirlər.

Siyasi münasibətlər müxtəlif səviyyəli subyektlər və siyasi həyatın yarımsistemləri arasında təşəkkül tapır, formalaşır və inkişaf edir. Siyasi münasibətlər makrosəviyyədə (ümumdövlət, ümumpartiya), həmçinin, regional və yerli aspektdə təzahür edə bilər.

Siyasi münasibətlər məzmununa və xarakterinə görə demokratik, avtoritar, qarşıdurma, konsepsus səviyyəli mahiyyətdə üzə çıxır. Bu münasibətlər reallaşması metodu və üsulları baxımından zorakı və qeyri-zorakı, qarşılıqlı fəaliyyət obyekti olmaq etibarilə, əhəmiyyətinə görə liberal, sosialist, millətçi və digər formalarda nəzərə çarpa bilər. Bir sözlə, siyasi münasibətlərin məzmunu və xarakteri müxtəlif məkanda reallaşan siyasi fəaliyyət və siyasi davranış çərçivəsində açıqlanmalıdır.

Siyasi münasibətlər ehtimal olunan elə çərçivə ilə məhdudlaşır ki, belə halda tərəflər arasında ziddiyyətli, hətta münaqişəli münasibətlər yaranır və tərəflərdən hər birinə ziyan dəyir. Siyasi münasibətlərin qanunauyğunluqlarından digəri bundan ibarətdir ki, tərəflər arasındakı münasibətlər bir yönümdə deyil, ikitərəfli istiqamətdə, qarşılıqlı asılılıqda təzahür edir. İkitərəfli münasibətlər nəticə etibarilə, yalnız münasibətlər sistemi ilə deyil, eləcə də ona yaxın olan bu və ya digər sfera ilə şərtlənir.

"Siyasi münasibətlər ikitərəfli münasibətləri nəinki yaxınlaşdırır, həmçinin differensasiyaya sövq edir. Buna görə idarə edən qüvvələr və müxalifət, siyasi qüvvələrin məcmuu və ya siyasətin subyektləri münasibətlərin tərəflərinə çevrilir və sağlara, sollara, mərkəzçilərə ayrılırlar".[1]

Siyasi münasibətlər bütövlükdə məqsədyönlü xarakter daşıyır. Belə ki, tərəflər arasında təzahür edən ziddiyyətlərin silinməsinə, dövlətlə cəmiyyət arasında konsensusun təşkilinə yönəlir. Münaqişəli tərəflər arasında münasibətləri əda-

[1] Ətraflı bax: Məcid Əfəndiyev. Siyasi elmin əsasları. B., 2008, s.117-118

lətli, obyektiv qaydaya salmağın başlıca amili hər iki tərəfin bərabərliyinin təmin olunması prinsipinə ciddi əməl olunmasıdır. Cəmiyyətin demokratik xarakteri münaqişəli tərəflər arasında sabit birliyin, razılığın əldə olunmasına istiqamətlənir.

Siyasi münasibətlərin başlıca komponenti mənafedir. Siyasi mənafelərin məzmunu ilk növbədə, sosial qrupların tələbatının müəyyən siyasətdə ümumiləşmiş ifadəsindən ibarətdir. Həmin mənafelər eləcə də müəyyən siyasət vasitəsilə həyata keçirilir. Mənafe sosial qrupların siyasi münasibətlər sferasında davranışının müəyyən sabit yönümünü ifadə edir.

Siyasət-dövlət, hakimiyyət münasibətləri öz ifadəsini eləcə də dini şüur və fəaliyyətdə, dini münasibətlərdə tapır. Siyasi münasibətlərin dində ifadəsi ilk öncə, siyasi münasibətlərin hakimiyyət xarakteri ilə, məcburetmə mexanizmilə bağlıdır. Siyasət-dövlət fenomeni dini münasibətlərdə təkrar istehsal olunur. Dini münasibətlər hər şeydən əvvəl, ictimai həyatın mənəvi sferasına xas olan münasibətlər növünü səciyyələndirir.

Dini şüur həqiqi münasibətləri onların sürəti və oxşarlığı baxımından əks etdirməklə, dini münasibətlərin sxemini yaradır. Dini münasibətlərin sxemi hökmranlıq – tabeçilik münasibətlərinin, dövlət-hüquqi strukturun, ailə münasibətlərinin modelini işləyib hazırlayır.

Siyasi münasibətlər dini təsisatların strukturunda ifadə olunur. Etnosun, təbəqənin, sinfin və vətəndaşların bir qismi müxtəlif tarixi şəraitdə dinin daşıyıcısı kimi çıxış edə bilər, sosial dini qrupları, dini fərdləri də bu cür səciyyələndirmək olar.

Siyasi münasibətlərin dində ifadəsi baxımından siyasi mədəniyyətin dini aspektinin izah olunması da əhəmiyyət kəsb edir. Çünki siyasi mədəniyyət özündə nəinki şüurun və mədəniyyətin əlamətlərini, həmçinin siyasətin xüsusiyyətlərini təcəssüm etdirir. Dinlə bağlı olan xeyli ideyalar, dəyərlər, məqsədlər bu və ya digər millətin, xalqın, ölkənin siyasi mədəniyyətinə qovuşur. Din bütövlükdə həyat tərzinin bir

hissəsi olan mədəni sərvətlərlə sıx əlaqə kəsb edir. O, həmişə ənənəvi dəyərlərin mənbəyinə xidmət etmişdir. Bu mənada əhalinin müxtəlif kateqoriiyalarının müəyyən şəraitdə qanun-qaydaların, intizamın, konsensusun, vətənpərvərliyin və digər dəyərlərin zəifləməsinə, məhdudlaşmasına təəssüflü münasibətinin müşahidə edilməsi tamamilə təbiidir.

Bütün ictimai sistemin, onun ayrı-ayrı sferalarının, eləcə də siyasətin özünün təsirinə məruz qalan din onların hamısına əks təsir göstərməklə, bir sıra funksiyalar yerinə yetirir. Dini normaların, hüququn, əxlaqın köməyilə adətlərin, ənənələrin, təsisatların tədqiq olunması üçün fərdin, qrupun, cəmiyyətin fəaliyyətinin, şüurunun və davranışının idarə edilməsi həyata keçirilir. Din müəyyən münasibətlərdə fərdləri, qrupları, təsisatları birləşdirə, digər münasibətlərdə isə ayıra bilər. Dini münasibətlərin xarakterindən asılı olaraq din siyasi proseslərə, münasibətlərə, təsisatlara müxtəlif təsir göstərməyə qadirdir.

Dinin siyasətə təsirini araşdırarkən onun dövlətlə qarşılıqlı münasibətinin təhlili də əhəmiyyət kəsb edir. Din dövlət-hüquq münasibətlərinə və təsisatlarına mühüm təsir göstərir. Bir sözlə, siyasi münasibətlər nəinki siyasətin bütün ünsürlərində, ölçüsündə və formalarında, eləcə də mənəvi həyatın bu və ya digər sferalarında (yarımsistemlərində) təzahür edir.

3. Siyasət siyasi mənafelər sferasıdır

Siyasətin məzmunu, siyasi münasibətlər müəyyən komponentlərə malik olması ilə səciyyələnir. Həmin komponentlərdən xüsusi əhəmiyyət kəsb edəni mənafedir. Ümumiyyətlə, mənafeyin təşəkkülü insanın ictimai cəhətdən faydalı fəaliyyətə tələbatından doğur. Sosial mənafelərin həyata keçirilməsinin forması siyasi münasibətlərdir. Mənafe ictimai sistemin nisbi müstəqillik kəsb edən sferası kimi mənalanır. Siyasi mənafe mövcud cəmiyyətin sosial strukturunu təşkil edən fərdlərin, sosial təbəqə və qrupların müxtəlif

səviyyədə, bu və ya digər dərəcədə dərk edilmiş mənafeyidir. Hər cür məsələnin həllinə siyasi mövqedən yanaşmanın mahiyyəti ondan ibarətdir ki, hadisələrin təhlili ictimai həyatın, sosial qrupların və fərdlərin mənafeyi nöqteyi-nəzərdən reallaşdırılmalıdır. Deməli, siyasət mahiyyət etibarilə, mənafelərin ifadəsi kimi çıxış etməklə, onların təmin edilməsi yollarının müəyyənləşdirilməsidir. Mənafe sosial qrupların siyasi münasibətlər sferasında fəaliyyətinin müəyyən sabit istiqamətini ifadə edir. Təsadüfi deyil ki, politoloji ədəbiyyatda siyasi mənafe daim fəaliyyətdə olan başlıca və ümumi mənafe kimi dəyərləndirilir.[1]

Sözün geniş mənasında siyasi mənafe böyük sosial qrupların öz köklü mənafelərinin siyasi hakimiyyət vasitəsilə reallaşdırılmasının obyektiv imkanlarını dərk etməsidir. Siyasi mənafe bütün hallarda ümumi xarakter kəsb edir, yəni başlıca olaraq siyasi sferada böyük sosial qrupların vəziyyətini əks etdirir. Bununla belə, siyasi sferada ümumi fərdi mənafe və ya qrup mənafeləri də mövcuddur. Bütövlükdə siyasi münasibətlər kimi, siyasi mənafelərin özü də çoxcəhətli siyasi dəyərlərə nüfuz etmək qabiliyyətinə malikdir.

Mənafe daim hər cür davranışın, insanların həyat fəaliyyətinin bütün sferalarının əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.

Mənafe çoxcəhətli mahiyyət daşıyır. Mənafelərin hamısı heç də siyasi xarakter kəsb etmir, başqa sözlə siyasət sferasına aid deyildir. Bununla belə fərdlərin və sosial qrupların fəaliyyətinin əsasını təşkil edən mənafelər çox zaman siyasi mənafe kimi çıxış edir. Mənafe öz-özlüyündə siyasi hadisələrə deyil, digər hadisələrə yönəlirsə, belə halda onların həyata keçirilməsi üçün siyasi hakimiyyətdən istifadə etmək tələb olunur.[2]

Mövcud sosial münasibətlərdə bir qayda olaraq apa-

---

[1] Шпенглер О. Закат Европы. Т.2. М., 1998, с. 136

[2] Баталов Э. Политическая культура современного американского общества. М., 1992, с. 64

rıcı sosial qrupların mənafeləri ifadə olunur. Siyasət sferası cəmiyyət üzvlərinin qarşılıqlı münasibəti və fəaliyyətinin sosial məkanıdır. Bu cür fəaliyyətin reallaşdırılmasının özünəməxsus forması ilk öncə, siyasi təsisatlardır. Cəmiyyətin siyasi sisteminin fəaliyyətini təmin edən başlıca siyasi təsisat dövlət və onun orqanlarıdır.

Əhəmiyyətli siyasi təsisat olmaq etibarilə, siyasi partiyalar, siyasi hərəkatlar və s. də cəmiyyətin siyasi sisteminin komponentləri kimi səciyyələnir. Digər təsisatlardan fərqli olaraq, siyasi təsisatlar məhz siyasi münasibətlər sferasında fəaliyyət göstərir, cəmiyyətdə hakimiyyətin həyata keçirilməsini reallaşdırır, müxtəlif mənafelərin uzlaşdırılmasına, təzahür edən siyasi münaqişələrin yox edilməsinə səy göstərir. Nəticə etibarilə siyasi cəmiyyət siyasi sistem kimi təşkil edilir və fəaliyyət göstərir.

Siyasi mənafelər şəxsi, ictimai, peşə və digər mənafelərdən fərqli olaraq, müəyyən spesifik cəhətləri ifadə edir. Belə ki, siyasi münasibətlər ilk öncə, iqtisadi münasibətlər sferasında təşəkkül tapır, eyni zamanda, maddi sferaya münasibətdə fəal rol oynayır. Çünki müxtəlif tarixi məkanlarda maddi-iqtisadi bazisdə bir neçə inkişaf meyli təzahür edir. Siyasi mənafe məhz siyasi fəaliyyət və davranışın məqsədyönlü, şüurlu seçilən yönümünü əks etdirir.

Siyasi mənafeyi səciyyələndirən digər cəhət bundan ibarətdir ki, o, hakimiyyət münasibətlərinin üzə çıxarılmasıdır. Əgər ictimai siniflər mövcud olmasaydı, siyasi mənafeyi şərtləndirən şərait də təşəkkül tapmazdı. Siyasi mənafeyi fərqləndirən xüsusiyyətlərdən biri də onun ziddiyyətli, mürəkkəb təbiətə malik olmasıdır. Digər spesifik cəhət odur ki, siyasi mənafeyin məzmunu sosial siniflərin siyasi fəallığı nəticəsində, onların mənafelərinin qarşılıqlı fəaliyyəti sayəsində formalaşır. Nəhayət, sosial qrupların, təbəqələrin siyasi mənafeləri dövlətin siyasi mənafeyi ilə üst-üstə düşməyə bilər. Lakin çoxmillətli cəmiyyətdə millət bir qayda olaraq siyasətin subyekti kimi çıxış etdiyi üçün, siyasi mənafe daim milli xüsusiyyətlər kəsb edir. Bu nöqteyi-nəzərdən çoxmillət-

li cəmiyyətdə neqativ hadisələr müxtəlif siniflərin, sosial qrupların və təbəqələrin siyasi mənafelərinin ifadəsi kimi səciyyələnir.

Məlum olduğu kimi, siyasi münasibətlər cəmiyyət üzvləri arasında ümumi mənafe ilə şərtlənən qarşılıqlı fəaliyyətdir. Sosial-siyasi rolların əhəmiyyəti, onları icra edən subyektlərin təsiri müxtəlifdir. Bu mənada, siyasi münasibətlər çərçivəsində hər bir rol müəyyən siyasi nüfuza uyğun gəlir. Real siyasi münasibətlərin formalaşması və inkişafında siyasi həyatın iştirakçıları müxtəlif rol oynayırlar.

Siyasi münasibətlərin və eləcə də siyasi əlaqələrin formalaşmasının əsasında insanların mənafeyi durur. Bu mənafeyin reallaşması üçün birləşən vətəndaşlar müxtəlif assosiasiyalar yaradır, siyasi fəaliyyətin müəyyən qaydalarını işləyib hazırlayırlar. Beləliklə, siyasi mənafelər dərk edilmiş tələbatın ifadəsi olmaq etibarilə, siyasi münasibətlərin fəaliyyətinin köklü amili kimi çıxış edirlər.

İnsanların kütləvi mənafelərinin xarakteri siyasi münasibətlərin vəziyyətinin çox mühüm göstəricisidir. Buna görə də, real siyasi münasibətlərin konkret təhlili üçün başlıca ictimai qrupların həyati mənafelərini, bu və ya digər məqamda onların dəyişilməsi xarakterini, inkişafının ehtimal olunan meyllərini dəqiq bilmək zəruridir.

Müxtəlif tarixi zamanlarda cəmiyyət üzvlərinin bu və ya digər mənafeləri əhəmiyyətli dərəcədə fərqlənir. Öz siyasi rəğbətinə və sərvət yönümünə görə onlar müxtəlif siyasi təşkilatlara, siyasi təsisatlara və siyasi hərəkatlara cəlb olunurlar. Demokratik siyasi rejimlərdə siyasi plüralizmin mövcudluğunu nəzərə alaraq, həmin rejimlərdə ayrı-ayrı insan birliklərinin geniş mənzərəsini müşahidə etmək mümkündür. Həmin birliklərin hər birinə digərlərindən fərqli siyasi mənafelər və bu mənafelərlə şərtlənən rəğbət və oriyentasiya xasdır.

Sosial qrupların və təbəqələrin çoxistiqamətli mürəkkəb fəaliyyət prosesini səciyyələndirən mühüm amillərdən biri ayrı-ayrı mənafeləri ümumiləşdirməkdən və bu zə-

mində elə fəaliyyət xətti işləyib hazırlamaqdan ibarətdir ki, bütün mənafe subyektlərini qane etsin. Siyasi mənafe siyasətin subyektlərinin təbii xüsusiyyəti olmaqla, sosial gerçəkliyə fəal dəyişdirici münasibətin əhəmiyyətli təcəssümü kimi mənalanır. Siyasi münasibətlər subyektlərin qarşılıqlı siyasi fəaliyyəti nəticəsində formalaşır, onların məhsulu kimi səciyyələnir.

Böyük alman filosofu **Hegel** ictimai həyatın bütün sferalarında mənafeyin əhəmiyyətini sərrast ifadə edərək yazırdı: "Tarixin yaxından nəzərdən keçirilməsi bizi inandırır ki, insanların fəaliyyəti onların tələbatlarından, cəhdlərindən, onların mənafelərindən irəli gəlir". Əlbəttə, belə bir reallığı diqqətdən yayındırmaq olmaz ki, insanların öz fəaliyyətini dəyərləndirməsi prosesində təbii olaraq onların tələbatları təşəkkül tapır. Tələbat isə, öz növbəsində müxtəlif mənafelərin təzahürünü şərtləndirir. Mənafe insanların həyatının xarakterini və istiqamətini müəyyən edən təhrikedici qüvvə kimi çıxış edir və öz təbiətinə görə obyektiv xarakterə malikdir. Tələbat davranışın daxili amilidir. Fərdlərin öz siyasi mənafeyinə və tələbatına uyğun olaraq cəlb edildikləri siyasi təsisatlar və siyasi hərəkat birbaşa təşəkkül tapır. Əlbəttə, bu cəhət hər şeydən əvvəl, vətəndaşların təmsil edildiyi sosial qrupların (böyük və ya kiçik) obyektiv statusu (vəziyyəti) ilə əlaqədardır. Mövcud mənafe və tələbatın təşəkkülü və formalaşması prosesi çox mürəkkəb və ziddiyyətlidir. Onların təşəkkülü ancaq bu və ya digər obyektiv amilin təsiri ilə şərtlənmir, eləcə də müəyyən sosial-psixoloji səbəblərlə bağlıdır.

Siyasi praktika təsdiqləyir ki, fərdlərin, sosial təbəqə və qrupların siyasi mənafelərinin reallaşması ona bilavasitə xas olan bir-birinə zidd, lakin biri digərini şərtləndirən iki başlıca meylin həyata keçirilməsini nəzərdə tutur: konkret mənafeyin daşıyıcısının özünəxas olan siyasi tələbatını təmin etməyə yönələn siyasi cəhətdən özünütəsdiqi meyli və siyasi mənafeyin subyektinin müxtəlif obyektiv imkanları reallaşdıran seçim oriyentasiyasını əks etdirən tarixi yara-

dıcılıq meyli. Buradan belə qənaətə gəlmək olar ki, siyasi mənafeyin təmin edilməsi onun subyektinin siyasi fəallığı təzahür etmədən qeyri-mümkündür.

Cəmiyyət üzvləri arasında siyasi münasibətlər birbaşa onların siyasi mənafelərinin təsiri sayəsində təşəkkül tapır və inkişaf edir. Ancaq formalaşmaqda olan siyasi münasibətlər subyektin bu və ya digər mənafeyini doğurur. Həmin mənafeyin konkret məzmunu real surətdə təzahür edən siyasi münasibətlərin məzmunu ilə bilavasitə şərtlənir.

İnsanların siyasi mənafeyinin təşəkkülü və inkişafına siyasi həyatın başlaca məzmununu təşkil edən siyasi fəaliyyət xüsusi təsir göstərir. Siyasi fəaliyyət siyasətin subyektinin müxtəlif mənafelərinin inteqrasiyasına istiqamətlənir, insanların həyat fəaliyyəti sisteminə çox əhəmiyyətli təsiri ilə səciyyələnir. Siyasi fəaliyyətin obyektinə siyasi dəyərlər, siyasi təsisatlar, cəmiyyətin siyasi sisteminin komponentləri və s. daxildir. Siyasi fəaliyyətin subyekti isə fəal, yetkin ictimai qüvvə kimi çıxış edir. Cəmiyyət üzvlərinin siyasi fəaliyyətə meyl etməsi tamamilə təbii və qanunauyğun haldır. Belə meyl, müəyyən amillərdən, xüsusilə mənafe və tələbatdan doğur. ABŞ politoloqu **H.Lassuell** şəxsiyyətin siyasi fəaliyyətini müəyyənləşdirən aşağıdakı səbəblərin mövcudluğunu iddia edir:

1. Praqmatik səbəb. 2. Tarixi proseslərə cəlb olunmaq arzusunu şərtləndirən səbəb. 3. Təmənnasız səbəb. 4. Qrup mənafelərindən irəli gələn səbəb. 5. Təmənnalı səbəb.

Siyasi mübarizə siyasətin subyektlərinin bir-birinə qarşı ikitərəfli münaqişəsini səciyyələndirir. Siyasi mübarizə siyasətin ən əhəmiyyətli hərəkətverici qüvvəsi olmaqla, siyasi hadisələrin gedişini və siyasi həyatın inkişafını bilavasitə müəyyən edir.

Siyasi əməkdaşlıq siyasətin bəzi subyektlərinin digərlərinə qarşı mübarizədə qarşılıqlı yardımı və bir-birini müdafiə etməsi kimi çıxış edir. O, ümumi məqsədlərə malik olan və öz qüvvələrini onun əldə edilməsi naminə birləşdirməyə çalışan subyektlərin qarşıdurma üzərində üstünlüyünü təmin

edir. Siyasi subyektlərin qarşılıqlı fəaliyyətinin belə növü sayəsində onların nəticəli fəaliyyətə və qarşılıqlı təhlükəsizliyə istiqamətlənən qabiliyyəti yüksəlir.

Cəmiyyətin bütün siyasi həyatı əməkdaşlıq münasibətlərindən və müxtəlif sosial qüvvələrin mübarizəsindən qidalanır. Sosiumun təkamül inkişafının əsasını əməkdaşlıq münasibətlərinin rəqabət və mübarizə münasibətləri üzərində üstünlüyü təşkil edir. İctimai sarsıntılar dövründə siyasi münasibətlər münaqişəli qarşılıqlı münasibətlərin fövqündə durur, öz üstünlüyünü təzahür etdirir. Siyasi həyatın normasını siyasi münasibətlərin elə vəziyyəti təşkil edir ki, belə halda konsensus (razılıq) əsasında qarşılıqlı fəaliyyət müəyyənedici amil kimi çıxış edir və münaqişəli tərəflərin mənafelərinin uzlaşmasına istiqamətlənir.

Siyasi mənafe və tələbatın məzmununun təhlili baxımından siyasi münasibətlərin strukturunun açıqlanması da vacibdir. Siyasi münasibətlərin strukturunun müəyyənləşdirilməsi üçün aşağıdakıların aydınlaşdırılması mühüm əhəmiyyət kəsb edir:

a) siyasi münasibətlərin daşıyıcısı, subyektlər; b) siyasi fəaliyyətin məzmunu; c) siyasi həyatın iştirakçılarının hakimiyyət səlahiyyətlərinin həcmi.

Subyektlərin xüsusiyyətlərindən çıxış edərək siyasi münasibətləri ictimai qruplar və təbəqələr arasındakı münasibətlərə, şəxsiyyətlərarası münasibətlərə və eləcə də siyasi təsisatlar arasındakı münasibətlərə ayırmaq olar. Siyasi təsisatlar arasındakı münasibətlərdə dövlətlərarası (xarici siyasi) münasibətlər, dövlət orqanları arasında, partiyalar arasında, həmçinin partiyalarla ictimai təşkilatlar, dövlət və partiyalar arasındakı və s. münasibətlər xüsusi əhəmiyyət kəsb edir.

Fəaliyyətin məzmununa görə aşağıdakı siyasi münasibətlər fərqləndirilir: rəhbərlik-tabeçilik münasibətləri (bu bəzən məqsədə yönələn münasibət kimi müəyyənləşdirilir), hökmranlıq – tabeçilik (müəyyənedici münasibətlər), idarəetmə münasibətləri (koordinasiya, subordinasiya), eləcə də

loyal, dəstəkləyici və digər münasibətlər. Real praktikada siyasi həyatın iştirakçılarının çoxcəhətli fəaliyyəti nəticəsində təşəkkül tapan, siyasi münasibətlərin mürəkkəb kombinasiyaya malik struktur formalarına rast gəlinir.

Hakimiyyət səlahiyyətlərinin həcmindən çıxış edərək münasibətləri horizontal, başqa sözlə təsisastlar və təşkilatlar arasındakı münasibətlərə və həmçinin, vertikal - rəhbərlik edən və tabelikdə olan orqanlar arasındakı münasibətlərə ayırmaq olar. Sonuncu halda siyasi münasibətlər özünəməxsus hakimiyyət "pilləkanı" təsiri bağışlayan iyerarxiyalı xarakter daşıyır.

Politoloji ədəbiyyatda siyasi münasibətlərin spesifik növlərinin müəyyənləşdirilməsinin digər meyarlarına da rast gəlmək olur. Məsələn, siyasi həyat sahəsi üzrə (ideoloji, sosial-psixoloji, informasiya xarakterli), mükəmməl üsul və qaydalar əsasında (formal, rəsmi qeyd olunan və qeyri formal) və s. baxımdan müəyyənləşdirilən siyasi münasibətlər növləri də mövcuddur. Nəzərdən keçirdiyimiz siyasi münasibətlərin bütün növlərinin spesifikliyi bundan ibarətdir ki, onlar siyasi subyektlər arasındakı qarşılıqlı əlaqəni hakimiyyət münasibətləri vasitəsilə ifadə edirlər.

Yadda saxlamaq lazımdır ki, siyasi münasibətlərin subyektlərinin inkişafı, yetkinliyi, yüksək siyasi mədəniyyəti yalnız siyasi tələbatda deyil və həmçinin, bu tələbatın reallaşmasına yönələn siyasi fəaliyyətdə üzə çıxır və bir qayda olaraq yeni siyasi tələbat və mənafeyin təzahürünə istiqamətlənir. Yürütdüyümüz mülahizələrdən birmənalı belə qənaətə gəlmək olar ki, **siyasət sferası bütövlükdə siyasi mənafelər aləmi kimi səciyyələnir.**

Qeyd etmək lazımdır ki, vətəndaşların siyasi mənafeyi onların həyat fəaliyyətinin şəraiti və mövcud sosial münasibətlər sistemində vəziyyəti, yeri və rolu ilə şərtlənir, siyasi mənafe siyasi subyektlərin obyektiv təzahürü kimi səciyyələnməklə obyektiv təbiətə malikdir, belə təbiətə malik olan siyasi mənafe və siyasi tələbatın özü sosial qrupların və təbəqələrin, milli birliyin və s. mövcud münasibətlərdə, xüsusi-

lə hakimiyyət münasibətlərində öz vəziyyətini qəti şəkildə reallaşdırmaq üçün çox zəruridir. Subyektin bu və ya digər siyasi mənafeyinin məzmununu təşkil edən siyasi dəyər həmin subyektin şüurunun məhsulu deyildir, yalnız onun real siyasi gerçəkliyə obyektiv münasibətinin məqamıdır.

Cəmiyyətimizin indiki keçid dövründə sosial subyektlərin öz siyasi mənafelərini dərk etmələri problemi ictimai inkişafımızın ən zəruri tələblərindəndir. Çünki iqtisadi, sosial və mənəvi sferaların təkmilləşdirilməsi, ahəngdar inkişafı demokratik prinsiplərlə bilavasitə əlaqəlidir. Demokratiyanın bərqərar olması isə bütün cəmiyyət üzvlərinin köklü siyasi mənafelərinin təzahürü kimi çıxış edir.

4. Siyasi inkişaf və siyasi proses

Siyasi dəyişikliklərin səbəbi, məzmunu və üsulları kimi məsələləri özündə əks etdirən siyasi inkişafın və siyasi proseslərin öyrənilməsi siyasi həyatı dinamik vəziyyətdə nəzərdən keçirməyə imkan yaradır. Belə səciyyəli təhlil ictimai-siyasi dəyişikliklərin başlıca meyllərini, mümkün ola bilən alternativini və perspektivini daha tam qiymətləndirmək imkanı verir. Müasir politoloji ədəbiyyatda siyasi inkişaf məsələsi başlıca olaraq liberal (azadlıq və demokratiya vasitəsilə) və marksist (inqilabi sıçrayış vasitəsilə) ənənələr əsasında araşdırılır. Bununla yanaşı, son zamanlar inkişaf haqqında qərb konsepsiyalarının özünəməxsus məhsulu kimi, siyasi müasirləşdirmə (modernləşdirmə) nəzəriyyəsi də nəzərə çarpır.

Siyasi inkişaf cəmiyyətin siyasi sferasında elə dəyişiklikləri səciyyələndirir ki, o, siyasi sistemin yeniləşməsini, onun daxili strukturu və funksiyasının mühüm transformasiyasını ifadə edir. Həmin dəyişiklik siyasi həyatın yeni keyfiyyətinin (məsələn, totalitarizmdən demokratiyaya keçid, siyasi rejimlərin dəyişməsi, siyasi elitaların əvəz olunması) təzahürü ilə bağlıdır.

Siyasi inkişaf problemini araşdırarkən onun başlıca

səbəblərini (determinantlarını), siyasi sferaya daxili iqtisadi, sosial, mənəvi-ideoloji, eləcə də beynəlxalq proseslərin təsirini nəzərə almaq lazımdır. Həmçinin, inkişafın xüsusi siyasi nəbzinin aydınlaşdırılmasına ciddi diqqət yetirilməlidir. Siyasi dəyişikliklərin mənbəyi çox vaxt cəmiyyətin siyasi sferasının özünə əsaslanır (siyasi sistemin ünsürləri arasındakı ziddiyyətlərin təzahürünə). Bəzi tədqiqatçılar hesab edir ki, siyasi inkişafın ən əhəmiyyətli səbəbi və mənbəyi siyasi dəyərlərlə siyasi təsisatlar arasında, eləcə də təsisatlarla siyasi proseslər arasında təzahür edən "uyğunsuzluqdur", bu uyğunsuzluq "qüvvələr dəyişikliyinin" çoxalmasına gətirib çıxarır. Belə fikri daha çox **P.Şaran** əsaslandırmağa cəhd edir.

Tarixi təcrübə təsdiqləyir ki, **siyasi inkişafın başlıca tipi** təkamül və inqilabdır. Onlar islahatlar, əksinqilablar və bərpa edilmə ilə yanaşı, siyasi dəyişikliklərin üsulları kimi çıxış edirlər.

Siyasi təkamül əvvəlki inkişafın (formalar, əlaqələr, ənənələr və s.) bütün pozitiv potensialını saxlamağa və ondan istifadə etməyə imkan yaradan, siyasi sferadakı dəyişiklikləri səciyyələndirən siyasi inkişaf tipidir. Siyasi təkamülün belə üsulunun fərqləndirici cəhəti tədricilikdir.

Siyasi inqilab siyasi hakimiyyət sistemində və bütövlükdə siyasi münasibətlərdə radikal dəyişikliklərlə və köklü çevrilişlərlə səciyyələnən siyasi inkişaf tipidir. İnkişaf üsulu olmaq etibarilə, inqilaba radikallıq, zorakılıq, qeyri-legitimlik xasdır. İnqilab inkişafda həmişə sıçrayışı ifadə edir, o siyasətdə aşağıların fəal iştirakı ilə müşahidə olunur, ideoloji motivlərin xüsusi rolu, harizmalı liderin təzahürü ilə fərqlənir.

Siyasi islahat dəyişikliklərin, siyasi həyatın yenidən təşkilinin elə üsuludur ki, siyasi həyatın əsasları onun sayəsində dağılmağa məruz qalmır.

L.S.Sanestebanın fikrincə, islahat sosial sistemin dəyilməsi ilə bağlıdır, lakin onun dərin strukturlarına toxunmur, o, hakim təbəqə və qrupların ictimai tələbata ehtiyatlı və qoruyucu cavabı kimi təzahür edir. Sözün dar mənasında

islahat yenilik kimi başa düşülür. Siyasi inkişafın üsulu olmaq etibarilə, islahatın xüsusiyyəti ondan ibarətdir ki, həyatın siyasi formasının varisliyi saxlanılır, dəyişikliklər tədrici və legitim xarakter daşıyır, "yuxarıdan" həyata keçirilir ("aşağıdan" mümkün olan yardımla).

Əksinqilab isə əksinə, həmişə siyasi situasiyanı inqilabi cəhdlə köklü surətdə dəyişdirməklə bağlıdır. Buna görə o, hakim (və ya devrilmiş) siniflərin inqilabi cəhdlərə özünəməxsus siyasi reaksiyası (cavabı) kimi çıxış edir. Əksinqilabın spesifikliyi ondan ibarətdir ki, inqilabın doğurduğu hadisə olmaq ətibarilə, köhnə siyasi qaydaların qaytarılmasına və ya saxlanılmasına cəhddir. Əksinqilabın formaları bunlardır: hərbi diktatura, çevriliş, vətəndaş müharibəsi, suiqəsd, qiyam, sabotaj (qəsdən işləməmək) tədbirləri və s.

Siyasi inkişafla bağlı XX əsrin 50-ci illərindən etibarilə, **siyasi müasirləşdirmə nəzəriyyəsi** geniş yayılmağa başladı. Qərb siyasi elmində təzahür edən bu nəzəriyyənin başlıca nümayəndələri **Q.Almond, D.Apter, S.Verter, L.Pay** və başqaları hesab olunur. Siyasi müasirləşdirmənin (modernləşdirmənin) başlıca cəhətlərinə aşağıdakılar aid edilir:

- rəqabətdə olan siyasi təşkilatların yaranması və inkişafı;
- müxtəlif mənafe qruplarının köməyilə, ictimai mənafelərin uyğunlaşdırılmasında siyasi sistemin qabiliyyətinin yüksəlməsi;
- tələbatların effektli toplanmasının siyasi mexanizminin formalaşması;
- seçki hüququ vasitəsilə, müxalifətdə olan partiyaların və azad mətbuatın köməyilə müxtəlif təbəqə və qrupların siyasi iştirakçılığının yüksəlməsi sayəsində sosial periferiyanın səfərbər olunması;
- rasional siyasi bürokratiyanın yaradılması və effektli fəaliyyəti;
- hökumətin funksiyalarının, qanunverici sistemin, münaqişələrin həllinin hüquqi texnologiyasının və idarəedici tənzimlənmənin rolunun artması.

Siyasi müasirləşdirmə nəzəriyyəsində başlıca diqqət siyasi inkişafın sosial şəraitinə və ilk növbədə sosial səfərbərlik probleminə yetirilir.

Siyasi inkişaf cəmiyyətin siyasi sferasında müəyyən dəyişikliklər prosesi kimi səciyyələnir. Siyasi prosesin gedişində siyasi sistemin bu və ya digər elementi təkrar oluna bilər, aradan qalxar və yarana bilər. Buna görə siyasi inkişafın xarakteristikası siyasi prosesin mahiyyətini və xüsusiyyətlərini, belə səciyyəli dəyişikliklərin "texnologiyasını" nəzərdən keçirmədən mümkün deyildir.

Siyasi proses ictimai həyatın bütün sferalarına sızan mürəkkəb ictimai hadisələrin tərkib hissəsi kimi çıxış edir. Cəmiyyətdəki dəyişiklik qarşılıqlı əlaqəyə və qarşılıqlı şərtləndirməyə malikdir. Onlarda mütləq "durğunluq" yoxdur, lakin bu dəyişikliklərin çoxu müəyyən müddət ərzində latent (gizli) xarakter kəsb edir.

Siyasi proses siyasi subyektlərin fəaliyyəti ilə bağlı olan, cəmiyyətin siyasi sferasındakı hərəkəti, dəyişikliyi ifadə edir, bu subyektlər müəyyən məqsədlərin əldə olunmasına, öz mənafelərinin ifadəsinə və reallaşmasına cəhd edirlər. Bir sözlə, subyektlərin siyasi fəaliyyətinin müxtəlif növləri və onların qarşılıqlı münasibətləri siyasi prosesləri əmələ gətirir. Ümumi formada **siyasi prosesi müəyyən istiqamət kəsb edən ardıcıl dəyişiklik, hərəkət, siyasi həyatın inkişafı kimi müəyyənləşdirmək olar**. Bu prosesi siyasi subyektlərin orada iştirakından kənarda təsəvvür etmək qeyri-mümkündür. Siyasi prosesdə baş verən dəyişikliklər siyasi həyat hadisələrində öz ifadəsini tapır. Müxtəlif hadisələr nəticəsində hakimiyyət münasibətlərində, siyasi subyektlərin qarşılıqlı münasibətlərində, onların faktiki vəziyyətində, siyasi fəaliyyətin üsul və metodlarında, vətəndaşların sərvət yönümü sistemində dəyişikliklər baş verir.

Siyasi proses haqqında bir neçə mənada mülahizə yürütmək olar. Birincisi, siyasi proses cəmiyyətin siyasi sisteminin mövcudluq (fəaliyyət) formasıdır, onun təkamülüdür (məsələn, müasir ictimai proses). İkincisi, siyasi proses hüqu-

qi, iqtisadi, ideoloji və digər proseslərdən fərqlənən ictimai prosesdir (məsələn, yenidənqurma siyasi prosesdir). Üçüncüsü, siyasi sistem dedikdə, müəyyən miqyasa malik olan prosesin son nəticəsi başa düşülür (məsələn, hər hansı partiiyanın və ya hərəkatın formalaşması, prezident, parlamentə deputat seçkilərinin keçirilməsi).

Siyasi proses sosial-tarixi proseslərin xüsusi növüdür. Onun spesifik cəhəti bundan ibarətdir ki, siyasi subyektlərin ümumi məqsədləri hakimiyyət münasibətlərinin və müvafiq normaların köməyilə əldə olunur. Siyasi prosesin mexanizmini ictimai təsisatların və sosial qrupların qarşılıqlı fəaliyyəti təşkil edir.

Siyasi fəaliyyətin iştirakçılarının subyektiv cəhdləri onların real mənafeləri ilə əlaqədardır və son nəticədə siyasi hakimiyyətin ələ keçirilməsinə və saxlanmasına, siyasi sistemin tərkibinin müəyyənləşdirilməsinə, fəaliyyətinə və dəyişilməsinə, ictimai münasibətlərin bütün məcmuunun möhkəmləndirilməsinə və yenidən təşkilinə istiqamətlənir. Siyasi proses obyektiv amillərlə müəyyən olunur, öz qanunauyğunluğu ilə səciyyələnir. Siyasi proses sosial mühitdə xeyli obyektiv və subyektiv xarakterli hadisələrin: iqtisadi, sosial-sinfi, ideoloji, mədəni, psixoloji və sairənin təsiri altında baş verir. Bütün bunlar şüurlu təşkil olunma və idarəetmə fəaliyəti və münasibətləri dairəsini məhdudlaşdırır. Siyasi prosesin mahiyyətini və istiqamətlənməsini başa düşmək üçün onu reallığa yönəldən dərin səbəblərin aydınlaşdırılması mühüm əhəmiyyətə malikdir.

Ayrı-ayrı ölkələr daxilində siyasi proseslərin inkişaf səbəbləri çoxcəhətlidir: xarici qaydaların (geosiyasi dəyişiklik, müharibələr, ideoloji, maliyyə və ya digər xarakterli hadisələr) sayəsində iqtisadiyyatda, sosial strukturda, mənəvi sərvətlər sistemində baş verən dəyişiklik, eləcə də cəmiyyətin siyasi sferasının özünün təkamülü nəticəsində yaranan ziddiyyətlər. Son nəticədə siyasi prosesin inkişafının mənbəyi, onun iştirakçıları olan sosial-siyasi qüvvələrin qarşılıqlı fəaliyyətidir. Onların öz mənafelərini reallaşdır-

maq uğrunda mübarizəsi siyasi prosesin gedişini dəyişdirir.

Elmi ədəbiyyatda siyasi prosesin strukturu müxtəlif cür müəyyənləşdirilir. Məsələn, siyasi proses çərçivəsində onun aşağıdakı elementləri nəzərə çatdırılır:

- siyasi hökmranlıq prosesi (idarəetmə prosesi) və siyasi iştirakçılıq prosesi;
- baza prosesləri (əhaliin geniş təbəqəsinin dövlətlə qarşılıqlı münasibəti) və periferiya prosesi (hakimiyyətin fəaliyyətinin müəyyənedici formalarına prinsipial təsir göstərməyən);
- siyasi prosesin subyekti və obyekti və s.

Siyasi prosesin müxtəlif struktur komponentlərinə malik olması onun mürəkkəbliyini ifadə edir. Həm qlobal və eləcə də xüsusi siyasi proseslər mahiyyət etibarilə, hakimiyyətin idarəetmə və cəmiyyətə rəhbərlik prosesi kimi mənalanır.

Politoloji ədəbiyyatda xüsusi siyasi proseslərin mövcudluğu da nəzərə çatdırılır: 1) müxtəlif sosial subyektlərin öz tələbatını, mənafelərini və cəhdlərini təzahür etdirməsi; 2) siyasi və idarəetmə qərarlarını qəbul edən təsisatların qrupların siyasi mənafelərini nəzərə alması; 3) qərarların qəbulu və siyasi iradənin ifadəsi; 4) siyasi iradənin idarəetmə fəaliyyəti vasitəsilə reallaşması. Bəzi müəlliflər siyasi prosesə subyektlərin elə fəaliyyətini aid edirlər ki, o, hakimiyyət resurslarının bölüşdürülməsinə və yenidən bölüşdürülməsinə istiqamətlənir.

Subyektlərin siyasi davranışının müxtəlif formaları son nəticədə dövlət hakimiyyətinin qəbul etdiyi siyasi qərara təsir etmək tələbatını ifadə edir. Buna görə siyasi prosesin mərkəzi problemi vətəndaşların müxtəlif mənafelərinin inteqrasiyasına istiqamətlənən siyasi qərarların qəbuludur.

Dövlət hakimiyyəti təsisatları qrup tələbatının nəzərə alınmasının və siyasi inkişafın ümumkollektiv məqsədlərinin işlənib hazırlanmasının ən mühüm vasitəsidir. Buna görə müxtəlif əhəmiyyət kəsb edən siyasi proseslərin bütün iştirakçıları öz mənafe və tələbatlarının dövlət hakimiyyəti

təsisatlarının idarəetmə qərarlarında nəzərə alınmasına təsir etməyə çalışırlar.

Hər bir cəmiyyətin siyasi sistemi özünəməxsus siyasi proseslərə malikdir. Zaman keçdikcə, onlardan bəziləri keçmişdə qalır. Elə siyasi proseslər də mövcuddur ki, praktiki olaraq daim siyasi sistemlərə nüfuz edir.

Siyasi prosesdə **iki başlıca aspekt** fərqləndirilir: subyektiv və obyektiv. **Subyektiv** və ya **motivləşdirici** aspekt insanların səylərini, onların siyasi həyatda şüurlu və məqsədyönlü iştirakını əks etdirir. İnsanlar tarixi öz təsəvvürlərinə uyğun yaradırlar, öz fəaliyyətlərində müəyyən mənafeləri, dəyərləri, məqsədləri əsas götürürlər. Bu fəaliyyət tamamilə konkret motivlərlə bağlıdır və siyasi proseslərin subyektiv tərəfi kimi çıxış edir. **Obyektiv** aspekt subyektin siyasi fəaliyyətinin ümumi nəticəsini ifadə edir. Buna görə, siyasi prosesin qeyd etdiyimiz iki tərəfi çox vaxt bir-birinə uyğun gəlmir, istər-istəməz əvvəla, siyasi fəaliyyətin son nəticələri subyektiv səylərə daim uyğun gəlir və ikincisi, siyasətin subyektinin praktiki fəaliyyətinin nəticələri dəfələrlə arzu olunmaz vəziyyətə gətirib çıxarır.

Siyasi proses fasiləsizliyi ilə fərqlənir və müəyyən mərhələlərdən ibarətdir. Politoloji ədəbiyyatda ümumi planda siyasi prosesin aşağıdakı mərhələləri göstərilir:

1) konkret siyasi sistemin təsisatlaşması, tərkibinin müəyyənləşdirilməsi, təşəkkülü;

2) mövcud siyasi sistemin fəaliyyəti;

3) inkişafı (modernləşməsi, sistemin dəyişdirilməsi);

4) tənəzzül mərhələsi, siyasi sistemin zəifləməsi, dağılması.

Siyasi sistemin təsisatlaşması və tərkibinin müəyyənləşdirilməsi mərhələsi siyasi prosesin inkişafında ən mühüm mərhələlərdən biridir. Hər bir siyasi sistemin yaranması yeni, özünəməxsus olan siyasi təsisat və normaları özündə birləşdirir, bəzi köhnə təsisatları müasirləşdirir və onların yeni sistemə inteqrasiyasını təmin edir, formalaşmaqda olan sistemi qanuniləşdirir. Bu mərhələ cəmiyyətin siyasi həyatının məzmunu, adətən, konstitusiyaya yenidən baxmaqla səciy-

yələnir. Dövlətin konstitusiyasının özü isə siyasi hakimiyyətin, onun bütün təsisatlarının legitimliyinin leqal və demokratik üsulu kimi çıxış edir.

Siyasi sistemin fəaliyyəti mərhələsi hakim sosial qrupların digər sosial-siyasi qüvvələr arasında möhkəm mövqeyə malik olduğu zaman ictimai inkişafın sabit dövrü ilə uyğunluq kəsb edir. Siyasi prosesin bu mərhələsində dövlətin müəyyənləşdirilən orqanlarının, siyasi partiyaların, ictimai təşkilatların fəaliyyətinin təkrar istehsalı, saxlanması ilə bağlı qaydalar həyata keçirilir. Mahiyyət etibarilə, həmin qaydalara müxtəlif seçkilər, hakimiyyətin nümayəndəli orqanlarının iclasları, siyasi partiyaların qurultayları və konfransları və s. aiddir. Siyasi sistemin fəaliyyəti mərhələsi kimi, onun özünün iştirakçıları, müəyyən görüşlərin və inamların daşıyıcıları təkrar istehsal olunur. Bu mərhələdə siyasi prosesi təhlil edərkən nəzərə almaq lazımdır ki, siyasi sistem öz-özünə təşkil olunmur, onu daim məhz cəmiyyətdə mövcud olan sosial-siyasi qüvvələr təkrar istehsal edir. Siyasi sistemin təkrar istehsalı ictimai istehsalın bütöv prosesinin bir hissəsidir.

Siyasi sistemin inkişafı mərhələsində dövlət orqanları sistemində, siyasi partiyaların və ictimai təşkilatların fəaliyyətinin dəyişməsində cüzi yeniliklər baş verir. Hakimiyyətin strukturlarında və mexanizmlərində həyata keçirilən dəyişikliklər idarə edən qrupların siyasətini yeni səviyyəyə istiqamətləndirir. Belə siyasət zamanın çağırışına müvafiq cavab verməyə imkan yaradır. Siyasi prosesin bu mərhələsində idarə edən dairələr sosial strukturda baş verən dəyişikliklərə uyğun gələn idarəetmə formaları və metodları axtarırlar, həmçinin, müxtəlif cərəyan və meyllərin qarşıdurması müşahidə edilir. Nəhayət, qlobal siyasi prosesin dördüncü mərhələsi **siyasi sistemin tənəzzülü, zəifləməsi və dağılması** ilə səciyyələnir. Bu mərhələ siyasi həyatı və bütövlükdə cəmiyyəti yeni formada təşkil etməyi elan edən sosial qüvvələrin artması ilə üst-üstə düşür. Eləcə də dağıdıcı meyllər konstruktiv, yaradıcı meyllər üzərində üstünlük təşkil edir, ida-

rəetmə rejiminin dağılması dönməz xarakter daşıyır. Nəticədə idarə edən qrupun qəbul etdiyi qərar idarəetmə qabiliyyətini, qrupun özü isə legitimliyini itirir. Siyasi sistemin tənəzzülü mərhələsinin səciyyəvi nümunəsinə XX əsrin 80-90-cı illərində Şərqi Avropa ölkələrinin (keçmiş sosialist ölkələrinin) inkişafı misal ola bilər, belə ki, idarə edən dairələr zamanın sosial-iqtisadi və mənəvi tələbinə cavab verməyə uğursuz cəhd etdilər.

III FƏSİL
SİYASİ ELİTA

1. Siyasi elitanın mahiyyəti və siyasətdə rolu

Siyasətin subyektlərinin nəzəri təhlili təsdiqləyir ki, vətəndaşların və müxtəlif ictimai qrupların siyasi həyatda iştirakı və yeri eyni səviyyə kəsb etmir. Eləcə də siyasi sferada xüsusi rol oynayan sabit qruplar cəmiyyətdə özünü qabarıq şəkildə təzahür etdirir. Politoloqlar belə qrupları siyasi elita kimi müəyyənləşdirirlər.

Siyasi elita nəzəriyyəsi politoloji ədəbiyyatda möhkəm ənənəyə malikdir. O, öz başlanğıcını qədim yunan mütəfəkkirlərinin əsərlərindən götürür, lakin klassik formada ilk dəfə XIX əsrin sonu – XX əsrin əvvəllərində İtaliya sosioloqlarının əsərlərində irəli sürülmüşdür. Hər bir cəmiyyət ictimai vəziyyətinə və siyasi roluna görə bərabər olmayan iki qrupa (və ya sinfə) bölünür – "idarə edən siniflərə və idarə olunan siniflərə" **(Q.Pareto)** və ya "cəmiyyətin yuxarı təbəqələrinə və bütün qalan hissəsinə" **(V.Pareto)**. İdarə edən azlıq cəmiyyətin siyasi idarə olunmasını həyata keçirir. Elitanın bu rolu onun yüksək mütəşəkkilliyi, xüsusi yüksək keyfiyyətlərə malik olması ilə bağlıdır. Bu keyfiyyətləri **Q.Moska** "universal əxlaqi prinsip", eləcə də ətrafdakılar üzərində" intellektual üstünlük" kimi müəyyənləşdirir. **V.Pareto** isə siyasi elitanın aşağıdakı xüsusiyyətlərini göstərir: fəaliyyətin səmərəliliyi, hər bir sferada yüksək göstəricilər,

"kütlələrə manipulyasiya meyli təzahür etdirmək".

İtaliya alimləri tərəfindən yaradılan elita nəzəriyyəsi sonrakı tədqiqatlar prosesində demokratik mənada əhəmiyyətli dəyişikliklərə məruz qaldı (özünün başlıca prinsiplərini saxlamaq şərtilə).

Siyasi elitanın təbiətinə müasir baxış belə bir cəhətlə səciyyələnir ki, o, bürokratik aparatı və onun yuxarı təbəqəsini ("oliqarxiyanın dəmir qanununu" – **R.Mixels**) doğuran siyasi təsisatların təşkilinin nəticəsidir. Müəyyən qrupların, təbəqələrin əsas istehsal vasitələri və bölgüsü üzərində nəzarəti belə söyləməyə imkan yaradır ki, elita mülkiyyətçi yox, idarə edəndir (**C.Bernheym**). Hökmranlıq edən elita ictimai təsisatlarda komanda mövqeyinə malik olan qrupdur (**Ç.Mills**) və nüfuz, maddi rifah və təhlükəsizlik kimi dəyərlərə malik olandır (**Q.Lassuell**). Məşhur müəlliflərin bütün bu mülahizələri siyasi elitanın qiymətləndirilməsini ifadə etməklə, onun mahiyyətini müxtəlif mövqelərdən aydınlaşdırmağa imkan yaradır.

Son nəticədə tədqiqatçıların əksəriyyəti belə qənaətə gəlirlər ki, siyasi elitada aşağıdakı bir sıra əlamətlər mövcuddur:

- digər ictimai qruplarla müqayisədə elita cəmiyyətdə hakimiyyətə daha çox malik olması ilə fərqlənir. Hakimiyyətə sahib olmaq siyasi elitanın birinci və başlıca əlamətidir;
- siyasi elita hakimiyyətə sahib olmaqla, idarəetmə və yüksək siyasi rəhbərlik funksiyasını həyata keçirir. O, qərar qəbul etmək, ictimai proseslərin gedişinə təsir göstərmək və bütün sosial qrupların mənafeyinə toxunmaq imkanına malik olan hakim təbəqə kimi çıxış edir;
- siyasi elitanın nümayəndələri öz siyasi vəziyyətindən irəli gələn müəyyən üstünlüyə malikdir. Bu üstünlük hər şeydən əvvəl, dövlətin fəaliyyəti və onun strukturu ilə bağlıdır;
- siyasi elita nisbi say azlığı və qapalılığı ilə səciyyələnir. Bu xüsusi ictimai qrupa mənsub olmaq kifayət qədər bir sıra sərt meyarlar seçimi nəticəsində mümkündür, lakin onun tamamlanması xeyli dərəcədə məhduddur;

- bir sıra hallarda siyasi elita nümayəndələrinin fəal həyati ünsiyyət sferası faktiki olaraq ona mənsub olan şəxslər dairəsi ilə məhdudlaşır. Bunun nəticəsində siyasi elita çərçivəsində güclü daxili əlaqələr təşəkkül tapır.

Yuxarıda yürüdülən mülahizələrdən çıxış edərək haqqında təsəvvür yaratmağa çalışdığımız fenomenə belə tərif vermək olar: siyasi elita **hakimiyyətə spesifik tərzdə nüfuz etməkdə üstünlüyə malik olan və siyasi qərarların qəbulu prosesinə daim nüfuzlu təsir göstərən mütəşəkkil ictimai qrupdur**. Hind politoloqu **P.Şaranın** fikrincə, siyasi elita geniş mənada müəyyən dövr, bəzən bütöv nəslin həyatı ərzində ölkənin siyasi kursunun formalaşmasına və reallaşmasına təsir göstərənləri özündə birləşdirir.

Siyasi elita problemini nəzərdən keçirərək hökmən belə bir cəhətə diqqət yetirmək lazımdır ki, elitar qruplar insanların ictimai həyatının bütün sferalarında təşəkkül tapır və fəaliyyət göstərir. Sözün hərfi mənasında **"elitar" ("elit")** sözü "seçilmiş" mənasını ifadə edir, buna görə elita hər şeydən əvvəl, fəaliyyətin müxtəlif sahələrində (mənəvi-yaradıcı, elmi, hərbi, sənaye-iqtisadi, maliyyə, idman və s.), müvafiq həyat fəaliyyəti sferalarında yüksək nailiyyətlər əldə edən şəxslərdən təşəkkül tapır. Bu baxımdan, siyasi elita məsələsini öyrənərkən onun siyasət sferası, hakimiyyət və idarəetmə ilə əlaqəsini aydınlaşdırmaq lazımdır.

Siyasi elita ilə hakimiyyət elitası arasındakı fərq mühüm əhəmiyyət kəsb edir. Bu fərq ilk öncə, ondan ibarətdir ki, siyasi elita praktiki olaraq bütün subyektiv siniflərdə, ictimai qruplarda yaranır. Siyasi elitanı məhz icraedici hakimiyyətin nümayəndələri, qanunverici və nümayəndəli orqanların deputatları, ümummilli təsirə malik olan siyasi partiyaların, nüfuzlu və təsirli ictimai hərəkatların və təşkilatların liderləri, eləcə də siyasi müxalifətin nüfuzlu nümayəndələri, bir sözlə siyasi proseslərin gedişinə fəal təsir göstərən şəxslər təmsil edirlər. Hakimiyyət elitası ümumdövlət qərarlarını qəbul edən, real hakimiyyət özəklərini öz əllərində saxlayan, üstünlük təşkil edən yuxarı təbəqələrin nüma-

yəndələrindən ibarətdir. Buna görə o, cəmiyyətin son dərəcə hakim təbəqəsi kimi səciyyələnir. Beləliklə, demək olar ki, **hakimiyyət elitası siyasi elitanın özünəməxsus özəyidir.**

Mövcud ədəbiyyatda verilən hakimiyyət elitasının (idarə edən elitanın) təsnifatına görə, o, siyasi elitanın yüksək təbəqəsi kimi çıxış edir. İdarə edən elita ölkə əhalisinin ümumi kütləsinin (və ya tərkibinin) 1/20000 hissəsini (0,005 faizini) təşkil edir. **Elitanın orta təbəqəsinə** böyük siyasi birliklərin rəhbərləri və funksionerləri, eləcə də hakimiyyət orqanlarının regional səviyyədə nümayəndələri daxildir. Öz sayına görə əhalinin tərkibinin 5%-ni təşkil edən orta elita insanların kifayət qədər əhəmiyyətli qrupunu təşkil edir. **Siyasi elitanın aşağı təbəqəsinə** qulluqçular – idarə edənlər, mərkəzi və regional səviyyədə dövlət məmurları aiddir. Mahiyyət etibarilə o, inzibati-bürokratik aparatın çoxsaylı nümayəndələrini əhatə edir. Cəmiyyətin idarə edənlərə və idarə olunanlara bölünməsi müəyyən obyektiv və subyektiv xarakterli səbəblərlə müəyyən olunur:

- ictimai əmək bölgüsünün uzun müddətli təkamülü prosesində peşəkar fəaliyyətin xüsusi hazırlıq, səriştəlilik, qabiliyyət və bacarıq tələb edən xüsusi növünün, yəni idarəetmə əməyinin təşəkkülü.

- cəmiyyətin idarə edilməsinə yaranan zərurət baxımından, onun rəhbərlik edənlərə və icraçılara, idarə edənlərə və idarə olunanlara bölünməsi.

- siyasi elitanın təşkilinə cəmiyyətin siyasi təşkili strukturunun özü ilə bağlı və ictimai proseslərin idarə olunması ilə əlaqədar olan xüsusi aparatın təşəkkülü.

- siyasi elitanın formalaşmasını idarəetmə fəaliyyətinin hər cür statusunun müxtəlif maddi və mənəvi imtiyazlar, şöhrət əldə etmək imkanları ilə birləşdirilməsi stimulu şərtləndirir.

- eyni zamanda vətəndaşların əksəriyyətinin insanların təbii qeyri-bərabərliyi ilə bağlı hakimiyyətdən və siyasətdən uzaqlaşması.

Elitanın mahiyyəti, strukturu və xüsusilə siyasətdə ro-

luna dair **Moska, Pareto və Mixelsin** fikirləri daha çox maraq doğurur. Həmin görkəmli tədqiqatçılar "elita" anlayışının məzmunu ilə bağlı aşağıdakıları nəzərə çatdırırlar:

1. Elitarlıq hər bir cəmiyyətə xasdır. Bunun əsasını insanları fərqləndirən müəyyən cəhətlər (psixoloji, zehni, əxlaqi və s.) şərtləndirir.

2. Elita xüsusi, spesifik və təşkilatçılıq xüsusiyyətləri ilə seçilən təbəqədir.

3. Kütlələr elitanın hakimiyyət səlahiyyətlərinə malik olması hüququnu, başqa sözlə, legitimliyini etiraf edir.

4. Hakimiyyətdə olan qüvvələr hakimiyyətdən könüllü əl çəkmədiyi üçün, onun uğrunda mübarizə gedişində elita bir-birini əvəz edir.

Elitaya aid klassik makiavelliçilik məktəbinin və İtaliya mütəfəkkirlərinin nəzəriyyələri ilə yanaşı, müasir (neoelita) konsepsiyaları da əhəmiyyət kəsb edir.

Müasir elita konsepsiyaları və nəzəriyyələri bir sıra istiqamətləri ilə diqqəti cəlb edir. Bunlara aşağıdakılar aiddir: demokratik elitizm nəzəriyyəsi; sərvət nəzəriyyəsi; elita plüralizmi konsepsiyası; sol liberal elita nəzəriyyəsi.

Demokratik elita nəzəriyyəsinin başlıca nümayəndələri **R.Dal, S.Lipset** hesab olunur. Onların fikrincə, seçki kompaniyası dövründə hakimiyyətə rəhbərlik uğrunda rəqabət mübarizəsi demokratik xarakter kəsb edir. Siyasi elitanın əldə etdiyi yeni üsul (seçkilərdə xalq tərəfindən müdafiə olunması uğrunda mübarizə) və elitanın taleyinin sıravi vətəndaşlardan asılılığı aydın nəzərə çarpır. Demokratik elita nəzəriyyəsində elita liberal-demokratik sərvətlərin (azadlığın, bərabərliyin, əmək hüququnun, sosial təminatın və s.) müdafiəçisi kimi nəzərdən keçirilir. Həmin nəzəriyyəyə görə elita ağalıq etmir, kütlələrin razılığı əsasında azad seçkilər vasitəsilə onlara rəhbərliyi həyata keçirir.

V.Ropke, Orteqa-i-Qasset və başqalarının sərvət nəzəriyyəsinin mahiyyəti bundan ibarətdir ki, elita cəmiyyəti idarə etmək üçün yüksək qabiliyyətə malik olan təbəqədir. Həmin nəzəriyyədə yüksək təbəqə olmaq etibarilə, elitanın

vəziyyətinə haqq qazandırılır, çünki istər-istəməz bütövlükdə o, cəmiyyətin mənafeyinə cavab verir.

Elita cəmiyyəti idarə etmək üçün xeyli dərəcədə yüksək keyfiyyətlərə və xüsusi qabiliyyətə malik olan seçilmiş şəxslərin məhsuludur. Elitanın formalaşması demokratiyanın prinsiplərinə zidd deyildir.

Keller,Ştammler, Rismen və digərlərinin konsepsiyasına görə, cəmiyyətdə xeyli elita vardır. Elitaya daxil olan heç bir qrup eyni vaxtda cəmiyyətin bütün sahələrinə müəyyənedici təsir göstərmək qabiliyyətinə malik deyildir. Demokratik siyasi rejim mühitində hakimiyyət elitanın ayrı-ayrı qrupları arasında bölüşdürülür. Həmin qruplar öz mənafeyi baxımından qərarların qəbul edilməsinə təsir göstərirlər. Elitanın kütlələrə təsir vasitələri müxtəlifdir. Bu mənada seçkilər, referendum, sorğu, kütləvi informasiya vasitələri, təzyiq qrupları xüsusi əhəmiyyətə malikdir.

Sol-liberal elitizmin nümayəndələri, xüsusilə **R.Mills** qətiyyətlə bildirir ki, cəmiyyət yalnız vahid ağalıq edən tərəfindən idarə edilir. Həmin konsepsiyada əksini tapan müddəalar bunlardır:

- Praktiki olaraq elita hakimiyyətin yüksək səviyyəsində qərarlaşır və idarə olunanların siyasətdə iştirakının qarşısını alır. Bu cür vəziyyətdə demokratik təsisatların heç biri real əhəmiyyət daşımır.

- İdarə edən elita dövlətdə ən əsas vəzifələrə yiyələnir və bu zəmində hakimiyyəti, var-dövləti və şöhrəti özünə təmin etmiş olur.

- Elita ilə kütlələr arasında təzahür edən fərqlər o dərəcədə nəzərə çarpır ki, real həyatda onları aradan qaldırmaq qeyri-mümkündür.

Politoloji fikirdə neoelitizm konsepsiyası da nüfuzlu nəzəri istiqamətlərdən biri kimi qiymətləndirilir. Bu konsepsiyanın başlıca nümayəndələri **X.Lassuell, C.Sartori, T.Day, X.Zeyqler** və digərləri hesab olunur.

Neoelitizmin tərəfdarları bildirirlər ki, həqiqi demokratiya, xalqın idarəetməsi, xalqın müstəqilliyi və s. əslində

utopiyadır və əməli surətdə reallaşması mümkün deyildir. Neoelitaçılar göstərirlər ki, insan "kütləsi" ağıla zidd fikirləşir və hərəkət edirlər. Kütlələr aşağı bilik səviyyəsinə malik olduqları və siyasətdən baş çıxarmadıqları üçün, azadlığı və tərəqqini təmin etməyə yalnız elita qadirdir. **Lassuellin** fikrincə, demokratiya "xalqın idarəetməsi deyil, məhz xalqın bəyəndiyi idarəetmədir". Görkəmli poltoloq **Sartorinin** gəldiyi qənaət bundan ibarətdir ki, "demokratiya elə siyasi sistemdir ki, burada hakimiyyət fəal insanların əlindədir. Fəal insanlar sayca aydın şəkildə azlıq təşkil edirlər. Lakin bu, bizi narahat etməməlidir. Çünki idarə edən azlığın qapısı bütün qabiliyyətli insanların üzünə açıqdır. Bu isə əsas prinsipdir. Demokratiyanı başqa cür də başa düşmək olar. Başqa sözlə, demokratiya fəal demokratik azlığın hakimiyyətidir". Neoelitaçılar nəzərə çatdırırlar ki, "tarixdə başlıca məsələ inqilab deyil, məhz elita tərəfindən gündəlik əhəmiyyətli məsələlərin həyata keçirilməsidir, lakin ən vacibi isə idarə edən qrupun tərkibində əhəmiyyətli dəyişikliklərin baş verməsidir". Elita anlaşının mahiyyəti ilə bağlı görkəmli rus filosofu **N.A.Berdyayevin** belə bir düzgün fikri ilə razılaşmaq olar ki, "dünya yaranandan bir qayda olaraq həmişə çoxluq deyil, azlıq idarə etmiş və edəcəkdir. Bu, idarəetmənin bütün forma və tiplərinə, monarxiyaya və respublikaya, irtica dövrünə və inqilabi dövrlərə aiddir. Azlığın idarəçiliyindən çıxış yoxdur. Bir azlıq digər azlıqla əvəz olunur. Harada dövlət varsa, siyasi elita da vardır". Bu həqiqəti inkar etmək tarixi təcrübəni və müasir həyatın faktlarını təhrif etmək deməkdir.

Siyasi hakimiyət öz-özlüyündə qeyri-bərabərlik fenomenidir. Həmin hakimiyyətin subyekti və obyektinin vəziyyətindən və imkanlarından çıxış edərək belə bir qənaətə gəlmək olar: bir qrup idarə etmək hüququna malikdirsə, digərləri tabeçilikdə olmağa məhkumdur. Bu qeyri-bərabərlik müxtəlif vasitələr sistemi ilə müdafiə olunur və nəticə etibarilə, siyasi hakimiyyət həyata keçirilir.

Tarixi təcrübə təsdiqləyir ki, insanların razılaşdırılmış

fəaliyyətinə zərurət yarandıqda, onların fəaliyyəti müəyyən məqsədlərin əldə edilməsinə tabe olur. Eləcə də idarə edənlə idarə olunan, hakimiyyətdə olanla hakimiyyətdən məhrum edilən, ağalıq səlahiyyətinə yiyələnənlə asılı vəziyyətə düşən müəyyənləşdirilir. Tabelik motivləri müxtəlif formada nəzərə çarpır. Həmin motivlər qarşıya qoyulan məqsədlərin əldə olunması marağına, göstərişlərin reallaşdırılması zərurətindən irəli gələn inama, tabelikdə saxlayanların nüfuzuna və son nəticədə tabeçilikdən imtina etdikdə arzuolunmaz hallardan ehtiyatlanmaq hissinə əsaslana bilər.

Tarixi faktlar inandırıcı surətdə təsdiqləyir ki, harada siyasi hakimiyyət mövcuddursa, orada onun uğrunda mübarizə labüddür. Belə mübarizə müxtəlif formalarda – sivil, demokratik, ən sərt və qeyri-insani səviyyədə aparıla bilər. Hakimiyyət uğrunda mübarizədə hakim elita bilavasitə olmasa da, dolayısı ilə iştirak edir.

2. Siyasi elita: formalaşma prosesi və mexanizmi

Siyasi elitanın formalaşması prosesini araşdırmadan onun tam səciyyələndirilməsi qeyri-mümkündür. Bu siyasi fenomenin mahiyyətini başa düşmək üçün, onun formalaşması və əvəz olunması probleminin aydınlaşdırılması mühüm əhəmiyyət daşıyır. Siyasi elitaya seçilmə sisteminin əsasını bir neçə amil şərtləndirir. Onlardan başlıcası bunlardır: sosial bazanın genişliyi, elitaya seçilmə meyarını və qaydalarını həyata keçirən şəxslər dairəsi. Mövcud amillərin konkret məzmunu ölkədən-ölkəyə dəyişir və hakim siyasi rejimdən çox asılıdır. Göstərilən amillərin məzmunu və siyasi rejim siyasi elitanın formalaşmasında iki meyl doğurur. Həmin meylləri müqayisə edək.

Birinci meyl üçün siyasi elitanın formalaşması mexanizminin qapalı olması səciyyəvidir. Müasir politoloji ədəbiyyatda bu **"gildiya sistemi"** də adlandırılır. Həmin meyl aşağıdakıları ifadə edir:

- elitanın formalaşmasının sosial bazasının çox məhdudluğu;

- sosial bazaya axının cəmiyyətin hakim sosial bazasını təşkil edənlərin hesabına baş verməsi;

- seçimi həyata keçirən şəxslər dairəsinin (selektoratın) məhdudluğu.

Elitanın formalaşmasını əks etdirən birinci meyl avtoritar və totalitar siyasi rejimlər üçün səciyyəvidir. İctimai mənafe ilə bağlı mülahizə baxımdan bu meyl durğunluğa, böhran halının artmasına gətirib çıxarır. Siyasi elita nə qədər qapalı olarsa, cəmiyyəti effektli idarə etmək imkanını itirir, bununla belə öz hökmranlığını saxlamağa qadir olur.

Siyasi elitanın formalaşmasının **ikinci meyli** və təkrar istehsalı birinci meylə birbaşa ziddir. Bu meyl mövcud ədəbiyyatda açıq və ya **"antreprener"** sistem adlandırılır. İkinci meylin fəaliyyəti demokratik siyasi rejimə malik dövlətlər üçün səciyyəvidir. Söhbət elə dövlətlərdən gedir ki, orada siyasi elitanın böyük hissəsi təyin olunma yolu ilə deyil, məhz ümumi seçkilər nəticəsində formalaşır. Belə şəraitdə siyasi elitanın formalaşması prosesinin ikinci meyli aşağıdakılarla səciyyələnir:

- selektoratın (bütün seçicilərin) geniş dairəsi;

- seçki prosesinin açıq olması;

- cəmiyyətin hər bir sosial qrupunun nümayəndələrinin siyasi strukturdakı vəzifələrdə təmsil olunmaq iddiası;

- seçilmənin rəqabət xarakteri;

- rəhbər vəzifələrə iddialı olanların şəxsi keyfiyyətlərinə və qabiliyyətinə yüksək tələbkarlıq.

Siyasi elitanın formalaşması prosesinin bu sistemi onun ən yuxarı təbəqəsinə qabiliyyətli, iradəli, peşə savadına malik, hakimiyyətin mexanizmi ilə "kənardan" deyil, "daxildən" tanış olan insanların düşməsinə imkan yaradır.

Siyasi elitanın formalaşması prosesini və mexanizmini başa düşmək üçün müasir siyasi fikirdə əksini tapan bəzi nöqteyi-nəzərlərlə tanışlıq vacibdir. Bu baxımdan məşhur Amerika sosioloqu **P.A.Sorokinin vertikal mobillik nəzəriyyəsi** mühüm əhəmiyyət kəsb edir.

Sosial mobilliyin ümumi nəzəriyyəsindən çıxış edərək

P.Sorokin vertikal mobilliyin üç növünü (iqtisadi, peşə və siyasi) təhlil edərək nəzərə çatdırır ki, kollektiv və fərdi vertikal mobilliyin intensivliyi və ümumiliyi daim zəifləmə və ya güclənmə meylinə malik olmadan, məkan və zaman etibarilə, dəyişilməyə məruz qalır. Onun fikrincə, demokratik cəmiyyətdə vertikal mobillik avtokratiya ilə müqayisədə çox vaxt yüksək səviyyədə təzahür edir. **Sorokinə** görə, siyasi elitanın yeniləşməsinə aparan vertikal dövretmənin daha effektli kanalı ordu, kilsə, təhlil təsisatları, iqtisadi xarakterli və həmkarlar təşkilatları, ailə və kəbin təsisatı və sairə hesab olunur. Lakin siyasi vertikal mobillik prosesində cəmiyyətin ən əhəmiyyətli təsisatları olan siyasi partiyalar və təşkilatlar xüsusi rol oynayırlar.

Siyasi elitaların bir-birini əvəz etməsi (təkraristehsalı) iki üsulla baş verir: o, siyasi elita ilə onun əleyhinə olan qüvvələr arasında fəal və həlledici mübarizə və ya ləng və məhdud dəyişikliklər formasında ifadə oluna bilər. Hələ vaxtilə **Q.Moska** qeyd edirdi ki, siyasi elitanın təkamülü "aristokratik" və "demokratik" meyl kəsb edə bilər. **Moskaya** görə, həmin meyllərdən birincisinin üstünlüyü elitar təbəqənin "qapalılığını və kristallaşmasını", elitanın durğunluğunu ifadə edir və onun özünü təkraristehsalı vasitəsilə cırlaşması onunla yeni ictimai qüvvələr arasında mübarizəyə gətirib çıxarır. İkinci meylin hökmranlığı elitanın aşağı təbəqələr içərisindən çıxan qabiliyyətli şəxslər hesabına yeniləşməsi imkanları ilə bağlıdır. Bu isə siyasi elitanın effektli rəhbərlik etmək qabiliyyətini artırır.

V.Pareto ilk dəfə **əkselita konsepsiyasını** irəli sürməklə, elitanın dövri olaraq bir-birini əvəz etməsini – "dövretməsini" əsaslandırmışdır. O, əkselitanı siyasi elitanın elə hissəsinə aid edir ki, öz sosial vəziyyəti və ya digər maneələr üzündən rəhbərlik etmək funksiyalarına yiyələnə bilmir. Sosioloqun fikrincə, elitanın dövretməsinin (bir-birini əvəz etməsinin) səbəbi bundan ibarətdir ki, əkselitanın qapalılığı və kəmiyyətcə artması nəticəsində siyasi elita keyfiyyət etibarilə qanunauyğun surətdə pisləşir.

Hazırda qərb siyasi elmində əkselita hər şeydən əvvəl, demokratik cəmiyyətin hakim elitasının siyasi qrupu ilə rəqabətdə olan təbəqə kimi nəzərdən keçirilir, elitanın əvəz olunması isə təbii rəqabət mübarizəsinin nəticəsi kimi araşdırılır. Belə nöqteyi-nəzər **demokratik elitizm konsepsiyasında (R.Dal)** öz ifadəsini tapmışdır. Elitanın sərvət nəzəriyyəsinin tərəfdarları onun əkselita ilə əvəz olunması problemini cəmiyyətin sərvət yönümündəki dəyişikliklərin nəticəsi kimi əsəaslandırmağa çalışırlar. **Marksist nəzəriyyə** rəhbərlik edən təbəqənin əvəz olunmasını sinfi mübarizənin ifadəsi, köhnə hakim siniflərin devrilməsinin və onun yeni, inqilabi, daha qabaqcıl siniflə əvəz edilməsinin nəticəsi kimi nəzərdən keçirir.

Beləliklə, müasir politologiyada köhnə idarə edən azlığı əvəz etməyə hazır olan siyasi qüvvələrin (əkselitaların) mövcudluğu iddia edilir. Bir sıra müəlliflər, məsələn, **Qabriel Lassuell** elita və əkselita arasındakı mübarizəni elitanın sosial tərkibini köklü surətdə dəyişdirən siyasi inqilab hesab edir.

Siyasi elitanın formalaşması prosesi və bir-birini əvəz etməsi idarə edən təbəqələrin keyfiyyət xarakteristikası məsələsi ilə bağlıdır. Əgər idarə edən elitanın əksəriyyəti peşə cəhətdən hazırlıqlı, zəruri idarəetmə keyfiyyətlərinə yiyələnən şəxslərdən ibarətdirsə, onu yüksək işgüzar və əxlaqi keyfiyyətlər fərqləndirirsə, onun özü isə daim cəmiyyətin müxtəlif təbəqələrinin daha istedadlı nümayəndələri ilə tamamlanırsa, belə siyasi elita mürəkkəb siyasi prosesləri cəmiyyətin əksəriyyətinin mənafeyi naminə effektli idarə etmək vəziyyətindədir. Elitanın fəaliyyətinin sabitliyi və nəticə etibarilə səmərəliliyinin mühüm şərti həmçinin, idarə edən təbəqənin öz xarici və daxili siyasətində milli mənafeyi aydın başa düşməsidir, müxtəlif ictimai təbəqə və qruplarla əlaqə yaratmasının zəruriliyini anlamasıdır.

Siyasi elitanın səbatsızlığı, zəifliyi və fəaliyyətinin effektli olmaması çox vaxt onun qeyri-peşəkarlığı, əxlaqi-etik göstəricilərinin zəifliyi, həddən artıq qapalılığı, cəmiyyətin

digər hissəsindən ayrılmağa cəhdi, milli-dövlət mənafeyini başa düşməməsi və ya təhrif etməsi ilə bağlıdır. **İdarə edən (hakim) elitanın milli zəmindən məhrum olmasının bir əsası vardır – hakimiyyət və var-dövlət.** Belə elita tez və ya gec öz yerini daha yüksək keyfiyyətlər nümayiş etdirən əkselitaya verməyə məcbur olacaqdır.

Elita təsisatı hər bir sivil cəmiyyətin ayrılmaz tərkib ünsürüdür. Mürəkkəb mütəşəkkil sosial sistemdə daim qrupların, fərdlərin, sistem daxilində insan fəaliyyətinin formalarının çoxcəhətli qarşılıqlı fəaliyyətlə səciyyələnən vəziyyəti nəzərə çarpır. Bu, insanların peşəkar surətdə idarə edənlərə ayrılmasını şərtləndirir. Onlar ən mühüm siyasi qərarları qəbul etməklə, əhalinin müxtəlif qruplarının mənafelərinin uzlaşdırılmasını, kütlələrin sosial dəyişikliklərdə iştirakı formalarını müəyyənləşdirir. Deməli, elitarlıq gələcəkdə də saxlanılacaq. Bundan əlavə cəmiyyətin elitarlığına qarşı mübarizə, obyektiv olaraq tərəqqiyə istiqamətlənən cəmiyyətin özünə ziyan vurur.

Elitarlığın inkarı hər bir cəmiyyətdə real mövcud olan siyasi qeyri-bərabərliyin ört-basdır edilməsidir və bununla belə elita üzərində demokratik nəzarət imkanlarını məhdudlaşdırır. Eləcə də bütün vətəndaşların bərabər səviyyədə hakimiyyətdə təmsil olunması illüziyası (xülyası) cəmiyyətin elitaya keyfiyyətcə əsil ləyaqətli və səriştəli insanların seçilməsi məsələsinə diqqətini zəiflədir və hakimiyyətə fırıldaqçıların gəlməsinə imkan yaradır və cəmiyyətin istibdad elitasına tabeçiliyi təhlükəsini yaradır. Bu vəziyyət elita ilə mübarizənin deyil, elitaya seçim sisteminin təkmilləşdirilməsinin zəruriliyini sübut edir.

Əvvəldə qeyd etdiyimiz kimi, dünya praktikası elitaya seçimin iki sistemini – gildiya və antreprener sistemləri fərqləndirir. Bu və ya digər sistemin süzgəcdən keçirilməsi bir sıra amillərlə şərtlənir: cəmiyyətdə partiya sistemlərinin rolu, siyasi ənənələr, mədəniyyətin yekcinsliyinin dərəcəsi, sosial qeyri-bərabərliyin səviyyəsi və s.

Gildiya sistemi bir sıra fərqləndirici cəhətlərlə səciyyələnir. Ehtimal edilən namizədlərin seçilməsi üçün əsas diqqət onların siyasi üstünlüyünə, sinfin, təşkilatın qayda və göstərişlərinin gözlənilməsinə vurğulanır. Bunun nəticəsində gildiya sistemi üçün siyasi dəyişiklikləri yüksək səviyyədə qabaqcadan başa düşmək, siyasi kursda varislik, siyasi münaqişələrə dair kiçik ehtimal səciyyəvidir. Belə vəziyyət onun sayəsində mümkün olur ki, potensial namizədlərin irəli çəkilməsi prosesi partiyaların köməyinə əsaslanır. Namizədlərin liderlik mövqeyinin diqqətlə seçilməsi formal tələblərin say çoxluğu ilə (məsələn, təhsil, iş stajı, yaş, xarakteristika, əvvəlki vəzifə, partiyalılıq və s. nəzərə alınır) təmin edilir. Seçilmə gizli və selektoratın (başqa sözlə, kim seçirsə) məhdud dairəsi vasitəsilə həyata keçirilir.

Gildiya sisteminin konkret-tarixi variantı nomenklatura sistemidir, qrup halında birliyin yüksək səviyyəsidir. Belə sistem totalitar rejimlərdə və xüsusilə SSRİ-də yayılmışdı.

Antreprener sistemin seçilməsi digər prinsiplərlə şərtlənir. O, namizədin yaradıcı potensialı, inandırmaq qabiliyyəti, seçicilərin xoşuna gəlmək bacarığı kimi keyfiyyətlərə əsaslanır. Bu sistem cəmiyyətin müxtəlif sosial qruplarının hakimiyyətə gəlməsinə (formal da olsa) yol açır, namizədləri məhdud sayda tələblərlə üzləşdirir. Məsələn, ABŞ-da prezidentlik mövqeyinə irəli sürülən namizədlər 35 yaşdan aşağı olmamalıdır və ölkədə azı 14 il yaşamalıdır. Prezidentliyə seçilmə prosesinin özü namizədlərin kəskin qarşıdurması ilə səciyyələnir. Belə sistem daha demokratik xarakter daşıyır, elitaya zamanın tələblərinə uyğun gələn daha istedadlı insanların gəlişini nəzərdə tutur.

Elitanın sosial səmərəliliyinə seçmə sistemi ilə yanaşı, digər bəzi amillər də mühüm təsir göstərir.

(1) Elitar mövqeyə seçilmə sosial-sinfi mənsubiyyətlə, cəmiyyətdə malik olduğun vəziyyətlə və potensial namizədin cinsi ilə sıx bağlıdır. Məsələn, **S.Eldersveldin** 1989-cu ildə apardığı tədqiqatın nəticələrinə görə, İsveçi, İtaliyanı, Al-

maniyanı, İngiltərəni, ABŞ-ı və Fransanı təmsil edən elitanın tərkibində fəhlə sinfi içərisindən çıxan vəzifəli şəxslər 7%, parlament üzvləri isə 20% təşkil etmişdir. Adətən, elita üzvləri siyasətlə bağlı olan ailələrdən çıxır, hökumətdə təmsil edilənlərin 60%-i isə qohumluq əlaqəsinə malik olanlardır. Fəhlə sinfi içərisindən elitaya daxil olanlar, əsasən "sol" partiyalar vasitəsilə seçilənlərdir. Həmin partiyaların sıraları məhz fəhlələr hesabına tamamlanır. Belə ki, Almaniyada, İtaliyada, İngiltərədə, Hollandiyada sol qanadı təmsil edən deputatların 46 faizdən 63 faizə qədəri fəhlə ailələrindən çıxanlardır, mühafizəkar partiyaların deputatlarının mütləq əksəriyyəti isə orta sinifləri və ya orta siniflərin yüksək təbəqəsini təmsil edənlərdir. Beləliklə, sosial mənşə elitaya maddi cəhətdən varlı insanların seçilməsinə imkan yaradır. Belə insanlar cəmiyyətdə müəyyən statusa yiyələnməklə, siyasətlə məşğul olmaq üçün maliyyə əsaslarına malik olanlardır.

(2) Elitanın seçilməsinə və nəticə etibarilə səmərəliliyinə təhsil nəzərə çarpacaq dərəcədə təsir göstərir. Siyasətlə məşğul olmaq təbii olaraq biliklərə geniş yiyələnməyi tələb edir. **Eldersverdin** yuxarıda qeyd etdiyimiz tədqiqatının nəticələrinə görə, parlament üzvlərinin 80%-i və dövlət vəzifələrində çalışan şəxslərin 96%-i universitet təhsilinə malikdir. Tədqiqat aparılan həmin ölkələrdə əhalinin yalnız 8%-i universitet diplomuna malikdir. Bir sıra ölkələrdə elitada təmsil olunmaq məhz müəyyən universitetlərin diplomlarına yiyələnməklə şərtlənir. Məsələn, İngiltərədə yalnız Oksford və Kembric universitetlərinin diplomlarına sahib olanlar elitada təmsil oluna bilərlər. Yeri gəlmişkən qeyd edək ki, Oksford universiteti 1167-ci ildə, Kembric universiteti isə 1209-cu ildə yaradılmışdır. **Təhsilin növü** elitanın effektivliyinə və siyasi tərzinə xeyli təsir göstərir. Belə ki, Böyük Britaniyanın dövlət məmurlarının 40%-i, Almaniyada 2%-i, ABŞ-da 6%-i humanitar təhsilə malikdir, müqayisə üçün qeyd edək ki, Hollandiyada bir nəfər də məmur humanitar təhsilli deyildir. Böyük Britaniyada dövlət məmurlarının çox az hissəsi – 3% hüquqi təhsilə malikdir. Əksinə, Almaniyada həmin rəqəm

66%, İtaliyada 54%, Hollandiyada 39%, ABŞ-da isə 20% təşkil edir.

(3) Hakimiyyət mövqelərində kişi və qadınların təmsil olunmasında **gender uyğunsuzluğu** əhəmiyyətli dərəcədə saxlanılır. Siyasət hələlik "kişi" peşəsi kimi mövcuddur. Həmin ölkələrdə qadınlar elitada yalnız 7% təşkil edirlər. Əgər Hollandiyada qadınlar elitada 14% təşkil edirsə, Britaniya elitasında bu göstərici 4%-dir.

(4) Siyasi elitanın effektivliyi və səmərəliliyi xeyli dərəcədə onun öz rolunu başa düşməsindən, mövqeyi və inamından asılıdır. Tədqiqatlar göstərir ki, elita cəmiyyətin siyasi həyatında öz rolunu dərindən dərk edir, lakin milli elitaların ideoloji və sərvət yönümü nəzərə çarpacaq dərəcədə fərqlənir. Bu, elitanın yaşadığı ölkənin sosial-mədəni xüsusiyyətləri ilə şərtlənir. Müxtəlif elitaların nümayəndələrinin təsəvvüründə gələcəyin arzu edilən modeli onlar üçün müəyyənedici, əhəmiyyətli olan bu və ya digər amillərlə fərqlənir. Məsələn, amerikalılar **S.Eldersveldin** apardığı sorğunun nəticələrinə görə sosial ədalətə, cəmiyyətin geniş təbəqələrinin təhsilinə və maddi rifahına daha çox diqqət yetirirlərsə, hollandiyalılar sosial bərabərliyə və cəmiyyətin həmrəyliyinə, ingilislər isə iqtisadi cəhətdən möhkəmliyə və firavan həyata üstünlük verirlər.

Lakin milli elitalar daxilində sərvətlərə münasibətdə tam yaxınlıq mövcud deyildir. ABŞ-ın yüksək dövlət məmurları içərisində 25% sosial ədalətə, 27% təhsilin zəruriliyinə, biliklərə geniş yiyələnməyə və mədəni tərəqqiyə, 28% maddi güzarana, təhlükəsizliyə xüsusi əhəmiyyət verdikləri halda, ingilis parlamenti üzvlərinin 22%-i sosial ədalətə, 12%-i siyasi islahata, 35%-i maddi rifah halına üstünlük verirlər. Sərvətlər məcmuu olmaq etibarilə, mədəni mühit elitaya, onun təfəkküründə və davranışına təsir göstərir, buna görə siyasi elitanın fəaliyyətinin səmərəli nəticələri, xüsusiyyətləri sosiallaşma prosesi ilə şərtlənir, başqa sözlə, biliklərin, vərdişlərin mənimsənilməsi prosesi elitanın sosial rolunu və funksiyasını yerinə yetirməyə imkan yaradır. Elita-

nın formalaşması prosesi müxtəlif amillərin və sosial təsisatların təsirinə məruz qalır.

(5) Namizədin partiya mənsubiyyəti də az əhəmiyyət kəsb etmir, cəmiyyətdə fəal siyasi fəaliyyət göstərən partiyanın rolu da danılmazdır.

Həmin sosiallaşdırıcı amillər bu və ya digər sərvətlər sistemi kontekstində cəmiyyətdə müxtəlif rol oynayırlar. İqtisadi, siyasi, mədəni sistemlər tamamilə müəyyən elitar mədəniyyətləri təkrar istehsal edir, konkret sərvət yönümünə malik olan elitaları doğururlar. Məsələn, Britaniya və Amerika elitaları oxşar sərvətlərə malik olsalar da, həmin ölkələrdə sosiallaşmada, təhsil sistemlərində, partiya sistemlərinin fəaliyyət şəraitində mövcud olan fərqlər onların elitar mədəniyyətlərində fərqləri şərtləndirir.

3. Siyasi elitanın təsnifatı və funksiyaları

Elitanın mövcudluğunu şərtləndirən amillər cəmiyyətin elitarlığını zərurətə çevirir. Siyasi elitanın özü yekcins deyildir, daxili differensasiyalılıq kəsb edir və müxtəlif tarixi mərhələlərdə, ayrı-ayrı ölkələrdə əhəmiyyətli dərəcədə fərqlənirlər. Bu və eləcə də tədqiqatçılıq metodlarının spesifikliyi siyasi elitanın təsnifatını mürəkkəbləşdirir.

Təsir mənbələrindən asılı olaraq elita müxtəlif **tiplərə** ayrılır: 1) **irsi**, məsələn, aristokratiya; 2) **sərvət cəhətdən** – yüksək nüfuza malik və nüfuzlu ictimai və dövlət mövqeyində təmsil edilən şəxslər; 3) **səlahiyyəti olan** – hakimiyyətə bilavasitə sahib olanlar; 4) **funksional** – peşəkarlar – idarə edənlər (rəhbər vəzifələr tutmaq üçün zəruri ixtisasa yiyələnən şəxslər).

Həmçinin, bilavasitə dövlət hakimiyyətinə yiyələnən – **idarə edən** və **müxalifətçi** (əkselita), **açıq** elita, eləcə də xüsusi təbəqədən təkrar istehsal olunan **qapalı** elita fərqləndirilir.

Elitanın özü **yüksək və orta** elitaya ayrılır. Yüksək elita bütün dövlət üçün əhəmiyyətli olan qərarların qəbul olunmasına bilavasitə təsir göstərir. Ona mənsub olmaq nüfuzla şərtlənə bilər. Məsələn, prezidentin qeyri-rəsmi məsləhətçisi,

onun "mətbəx kabineti" ilə və ya hakimiyyət strukturlarındakı vəziyyətlə müəyyənləşə bilər. Qərb demokratiyalarında sakinlərin hər milyon nəfərinə yüksək elitanın 50 nümayəndəsi düşür. Ən yüksək elitanın məğzini təşkil edənlərin sayı təxminən 200-400 nəfərdən ibarətdir.

Orta elitaya əhalinin təxminən 5 faizi daxildir. Bu elitanı təmsil edənlər üç əlamətlə – gəlir, peşə statusu və təhsilə görə fərqlənirlər. Belə meyar əsasında bir və ya iki yüksək göstəriciyə malik olanlar **marginal elitaya** aiddirlər. **Karl Doyç** qeyd edir ki, "bütövlükdə gəlirə nisbətən təhsil səviyyəsi daha yüksək olanlar mövcud münasibətlərə bir qayda olaraq çox tənqidi yanaşırlar, öz siyasi inamı baxımından mərkəzçiliyə və ya sol radikalizmə meyl edirlər. Beləliklə, gəlirin, peşə statusunun və təhsil səviyyəsinin nisbəti ilə müəyyən olunan və cəmiyyətin elitasını təşkil edən ölkə əhalisinin 5 faizinin görüşləri mövcud ölkə üçün siyasi baxımdan nəyin məqbul və nəyin qeyri-məqbul olmasına çox təsir edə bilər".[1]

Xeyli politoloq orta elitanın xüsusilə, onun "**subelita**" adlanan yeni təbəqəsinin rolunun artması meylini qeyd edirlər. Bu təbəqəyə siyasi qərarların hazırlanmasında, qəbulunda və reallaşmasında iştirak edən yüksək mövqeyə malik qulluqçular, menecerlər, alimlər, mühəndislər və intellektlər daxildir. "Subelita" adətən informasiyalılıqda, mütəşəkkillikdə və yeganə fəaliyyət qabiliyyətinə malik olmaqda yüksək elitanı üstələyir.

Siyasi qərarların qəbul olunması prosesində bilavasitə iştirak edən siyasi elitaya icraedici fəaliyyət üçün müəyyənləşdirilən **inzibati elita** da qoşulur, o əməli işdə siyasətə böyük təsir göstərməyə qadirdir.

Demokratik cəmiyyətdə siyasi elitanın məzmunlu təsnifatında elitanın inkişaf dərəcəsindən, vertikal (sosial nümayəndəlik) və horizontal (qrupdaxili birlik) əlaqələrdən asılı olaraq onun dörd başlıca tipi ayırd edilir: **sabit demo-**

[1] Сравнительная политология / Пер. с. англ. Ч. 2. М., 1992, с. 92

kratik elita – yüksək nümayəndəlik və qrup halında yüksək inteqrasiya; **plüralist** – yüksək nümayəndəlik və qrup halında zəif inteqrasiya; **səlahiyyətli** – zəif nümayəndəlik və qrup halında yüksək inteqrasiya; **dezinteqral** – hər iki göstərici üzrə zəif olan.

Cəmiyyət üçün sabit demokratik elita daha səmərəlidir, çünki o, xalqla qrup halında olan kooperasiyanı yüksək dərəcədə sıx əlaqələndirir.

Müasir cəmiyyətin elitarlığı kifayət qədər sübut olunmuş faktdır. Onun aradan qaldırılması ilə bağlı bütün cəhdlər və siyasi tarazlıq yalnız səmərəli olmayan elitanın, despotun hökmranlığına gətirib çıxara bilər ki, bu da son nəticədə bütün xalqa ziyan vura bilər. Siyasi elitarlığın aradan qaldırılması məhz ictimai özünüidarə hesabına mümkündür. Lakin bəşər sivilizasiyasının indiki inkişaf mərhələsində xalqın özünüidarəsi reallığa nisbətən daha çox cəlbedici idealdır. Demokratik dövlətdə elita ilə mübarizə yox, məhz cəmiyyət üçün daha səmərəli, faydalı elitanın formalaşması birinci dərəcəli əhəmiyyətə malikdir. Onu sosial nümayəndəliklə təmin etmək, öz vaxtında keyfiyyətcə yeniləşdirmək, oliqarxiyalaşma meylini aradan qaldırmaq olduqca vacibdir. Elitanın cəmiyyətə rəhbərlik funksiyasının yerinə yetirilməsinin effektivliyini səciyyələndirən sosial səmərəliliyi xeyli göstəricilərdən təşəkkül tapır. Onlardan ən əhəmiyyətlisi horizontal və vertikal inteqrasiyanın optimal əlaqələndirilməsidir. Bu göstərici yüksək peşəkarlıq səriştəliliyini və rəhbər kadrlar üçün zəruri sərvət yönümünü: düzgünlüyü, qanuna və insan hüquqlarına hörmət edilməsini, ümumi rifaha qayğını və sairəni təmin edir.

Horizontal inteqrasiya elitanın müxtəlif nümayəndələrinin kooperasiyasıdır (birgə əməyidir, əməkdaşlığıdır), onun qrup halında birliyidir (həmrəyliyidir). O, müəyyən çərçivədə kollektiv qərarların qəbul edilməsinin, cəmiyyəti siyasi qütbləşmədən və radikallaşmadan qorumağın, rəhbərlərin kompromis qərarlar qəbul etməsinin və konsensus əldə etməyin, münaqişələri aradan qaldırmağın və həll etməyin

zəruri şərti kimi çıxış edir. Lakin qrupdaxili inteqrasiya elitanın sosial səmərəliliyinə o zaman imkan yaradır ki, bu proses elitanın **sosial nümayəndəliyinin** zəifləməsi hesabuna baş verir. **Hoffmann-Lanqenin** qeyd etdiyi kimi, müasir "elita öz xüsus bazisindən azad olmaq meylini onun azad surətdə qərar qəbul etməsinin məhdudlaşması tələbi kimi dərk edir".

Elitanın xalqın tələbatını və rəyini ifadə etməsi xeyli səbəbdən asılıdır. Bu səbəblərdən biri onun nümayəndələrinin sosial mənşəyidir. O, siyasi oriyentasiyaya əhəmiyyətli dərəcədə təsir göstərir. Aydındır ki, kəndlilər, fəhlələr, müəyyən etnik və digər qruplar içərisindən çıxan elita nümayəndələri həmin təbəqələrin spesifik tələblərini asanlıqla başa düşür və onlarla ümumi dil tapa bilir. Əlbəttə, bu o demək deyildir ki, fəhlələrin mənafeyini hökmən fəhlələr, fermerlərinkini fermerlər və s. müdafiə etməlidir. Bunu çox vaxt cəmiyyətin digər qrupları içərisindən çıxan siyasətçilər-peşəkarlar daha yaxşı reallaşdıra bilərlər.

Müasir dövlətlərdə əhalinin elitada təmsil olunması uyğunsuzluğu kifayət qədər böyükdür. Məsələn, Qərb ölkələrinin elitaları arasında universitet məzunları da qruplarla müqayisədə daha geniş təmsil olunurlar. Bu isə öz növbəsində adətən, valideynlərin kifayət qədər yüksək sosial statusu ilə bağlıdır. Bütövlükdə isə müxtəlif təbəqələrin nümayəndələrinin siyasi elitada təmsil olunması uyğunsuzluğu, bir qayda olaraq, əldə edilən vəzifə statusunun yüksəlməsi hesabına artır. Siyasi-idarəetmə aparatının birinci pilləsində əhalinin aşağı təbəqələri yuxarı təbəqələrlə müqayisədə xeyli azlıq təşkil edir. Siyasi elitanın və bütün əhalinin sosial göstəricilərinin qeyri-mütənasibliyi heç də rəhbərlərin bilavasitə siyasi oriyentasiyasını ifadə etmir. Elitanın sosial strukturunun formal ifadəsi ilə müqayisədə, elitanın sosial nümayəndəliyinin təminatçısı kimi onun **təşkilati** (partiyalar, həmkarlar ittifaqları və s.) **mənsubiyyəti** çıxış edir. O, birbaşa sərvət yönümü ilə bağlıdır. Bundan əlavə partiyalar və digər təşkilatlar öz üzvlərinə lazımi istiqamətdə təsir göstərmək

imkanlarına malikdirlər.

Müasir demokratik cəmiyyətdə partiya mexanizmi nəzarəti dövlət təsisatları və ictimai təsisatlarla tamamlanır. Belə təsisatlara seçkilər, referendum, KİV, ictimai rəy, təzyiq qrupları və s. daxildir.

Elitanın sosial nümayəndəliyinə, keyfiyyətcə tərkibinə, peşə səriştəliliyinə və səmərəliliyinə bütövlükdə onun seçilməsi böyük təsir göstərir. Belə sistemlər seçimin necə və kimin tərəfindən həyata keçirildiyini, onun qayda və meyarlarını, selektorat dairəsini (seçimi həyata keçirən şəxsləri), fəaliyyətinin təhrikedici motivlərini müəyyənləşdirir.

Siyasi elitanın məzmunu onun fəaliyyətində, yerinə yetirdiyi funksiyalarda üzə çıxır. Həmin funksiyalar çoxcəhətli və mürəkkəb xarakter daşıyır. Əlbəttə, siyasi elitanın həyata keçirdiyi müxtəlif və başlıca funksiyalar bilavasitə cəmiyyətin taleyi ilə bağlı olduğu üçün çox məsuliyyətli mahiyyət kəsb edir. Heç də təsadüfi deyil ki, bu funksiyaların məzmunu və həddi məhz bu və ya digər ölkənin konstitusiyası ilə müəyyən olunur. Şübhəsiz, bu cəhət legitim siyasi elitaların mövcud olduğu ölkələrə aiddir. Belə ölkələrdə siyasi situasiya sabitliyi ilə diqqəti cəlb edir.

Siyasi elitaların yerinə yetirdiyi funksiyaların məzmununa obyektiv və subyektiv xarakterli bir sıra amillər təsir göstərir. Bu mənada mövcud ölkənin siyasi rejimi daha böyük təsir gücünə malikdir.

Politoloji ədəbiyyatda siyasi elitanın aşağıdakı başlıca funksiyalarının təhlilinə səy göstərilir: strateji, kommunikativ, təşkilati və inteqrativ. Həmin funksiyaların müqayisəli təhlilinə keçək.

Siyasi elitanın funksiyaları içərisində **strateji funksiya** birinci dərəcəli əhəmiyyət kəsb edir. Bu funksiyanın başlıca məzmunu onunla səciyyələnir ki, cəmiyyətin inkişaf strategiyasının və taktikasının işlənib hazırlanmasını, siyasi fəaliyyət proqramının müəyyənləşdirilməsini nəzərdə tutur.

Strateji funksiya ictimai tələbatları köklü dəyişikliklərdə əks etdirən yeni ideyaların əsaslandırılmasında, ictimai

inkişafın strateji istiqamətinin müəyyənləşdirilməsində, vaxtı çatmış islahatlar konsepsiyasının işlənib hazırlanmasında təzahür edir. Siyasi elitanın strateji funksiyası onun yüksək səviyyəsində – parlament deputatları, nazirlər kabinetinin üzvləri, prezidentin ekspertləri, müşavirləri, köməkçiləri vasitəsilə tamamilə reallaşa bilər. Əlbəttə, elmi-tədqiqat institutlarının, analitik mərkəzlərin mütəxəssislərindən, ən görkəmli alimlərdən istifadə etməklə.

Siyasi elitanın strateji funksiyasını uğurla reallaşdırmaq sırf "beyin komanlasının" keyfiyyətli tərkibi ilə müəyyən olunmur, eləcə də ölkədə spesifik demokratik təsisat kimi səciyyələnən ictimai rəyin vəziyyətindən (obyektivliyi, fəallığı, elitaya təsir göstərmək qabiliyyəti və s.) və onun qəbul edilən siyasi qərarda ifadəsi səviyyəsindən asılıdır.

Kommunikativ funksiya siyasi proqramlarda əhalinin müxtəlif sosial qrupları və təbəqələrinin mənafe və tələbatının ifadəsini və onların əməli fəaliyyətdə həyata keçirilməsini səciyyələndirir. Həmin funksiya özündə bu və ya digər sosial birliyin əhval-ruhiyyəsinin səciyyəvi cəhətlərini görməyi, çox mühüm müxtəlif məsələlərə aid ictimai rəydə təzahür edən dəyişikliklərə çevik və düzgün münasibəti mənalandırır. Kommunikativ funksiya həmçinin, sosial məqsədlərin, ideyaların və dəyərlərin müdafiə olunmasını ifadə edir. Bu funksiyanın yerinə yetirilməsi siyasi elitanın nümayəndələrindən bəzi zəruri keyfiyyətlərə yiyələnməyi, hər şeydən əvvəl, insanların böyük əksəriyyəti ilə ünsiyyətdə olmağı tələb edir.

Siyasi elitanın ən əhəmiyyətli funksiyalarından digəri **təşkilatçılıq funksiyasıdır**. Siyasi elita eləcə də kütlələri təşkil etmək zərurəti ilə üzləşir və daim üzləşəcəkdir. Siyasi elitanın təşkilatçılıq funksiyası işlənib hazırlanmış kursun praktikada reallaşmasını, siyasi qərarların həyatda təcəssümünü nəzərdə tutur. İşlənib hazırlanmış strateji xətt müxtəlif siyasi tədbirlər sistemində əksini tapır. Bunlar aşağıdakılardır:

- qanunverici qərarların, sənədlərin qəbul edilməsi;
- səfərbərədici (ictimai şüura təsir göstərən müxtəlif

formalar, əhval-ruhiyyənin formalaşması, cəmiyyət üzvlərinin sərvət yönümü);

- tənzimləyici (maddi, insan, maliyyə resurslarının bölüşdürülməsi və yenidən bölüşdürülməsi);
- əlaqələndirici (mərkəzi və regional fəaliyyətlərin əlaqələndirilməsi);
- nəzarətedici;
- nizamlayıb qaydaya salmaq və s.

siyasi elitanın spesifik əhəmiyyət daşıyan funksiyalarından digəri **inteqrativ funksiyadır**. Həmin funksiyanın mahiyyəti bunda ifadə olunur ki, cəmiyyətin sabitliyinin möhkəmlənməsinə yönəlir, sosial münaqişələrə, kəskin ziddiyyətlərin təzahürünə yol verməməyə istiqamətlənir. İnteqrativ funksiyanın məzmununun əhəmiyyətli cəhəti müxtəlif sosial qrupların mənafelərinin ahəngdarlığına, konsensusun (razılığın) əldə olunmasına, bütün sosial qüvvələrin yaxınlığına, əməkdaşlığına, qarşılıqlı siyasi fəaliyyətinə nail olmaqdan ibarətdir. Haqqında danışdığımız funksiyada siyasətçilərin qabiliyyəti, məharəti, çevikliyi, diplomatikliyi, cəmiyyətin bütün təbəqələri ilə ümumi dil tapması və qarşılıqlı fəaliyyəti öz əksini tapır. Siyasi elitanın bu funksiyanı reallaşdırmaq qabiliyyətinin olmaması istər-istəməz cəmiyyətdə partlayışlı situasiyanın yaranmasına gətirib çıxarır.

Siyasi elitanın funksiyalar sistemi bütövlükdə cəmiyyəti idarə etməkdən, ona rəhbərlikdən ibarətdir. Həmin funksiyalar bir tərəfdən ölkənin, dövlətin idarə olunmasında ifadə olunur, digər tərəfdən ictimai həyatın ayrı-ayrı sferalarının tənzimlənməsini şərtləndirir. Bu və ya digər siyasi elita təşəkkül tapdığı vaxtdan etibarən, ölkənin konkret şəraitinə, iqtisadi və siyasi vəziyyətinə uyğun olaraq, müəyyən strategiya və taktika işləyib hazırlayır. Bu fəaliyyət xətti ilk öncə, bütövlükdə cəmiyyətin idarə olunmasına istiqamətlənir.

Siyasi elitanın idarəetmə sistemində **idarəetmə məqsədlərinin reallaşdırılmasına** nail olmaq xüsusi yer tutur. Bu funksiya mahiyyət etibarilə, strateji funksiya ilə əlaqə kəsb etməklə onun tam həyata keçirilməsinə xidmət edir. Siyasi

elita idarə edənlərlə idarə olunanlar arasında hökmranlıq və tabeçilik münasibətlərinin reallaşdırılmasına istiqamətlənir. Hökmranlıq və tabeçilikdən kənarda siyasi elita təsəvvür etmək mümkün deyildir. Elita cəmiyyətə nəinki təbiətən xasdır, eləcə də o, müxtəlif mənbələrə və dayaqlara malik olan çoxcəhətli sosial fenomendir. Siyasi elitanın əhəmiyyətli vəzifələrindən biri **siyasi sistemin optimallaşdırılması, onun təsisatlarının hakimiyyətə gələn sosial qüvvələrin məqsədlərinə və vəzifələrinə** uyğunlaşdırılmasıdır. Demokratik siyasi sistem üçün bir qayda olaraq çoxpartiyalılıq və demokratik seçkilər səciyyəvidir. Tarixi təcrübə göstərir ki, hakimiyyətə sahib olan siyasi lider və ya qrup özündən əvvəlki siyasi sistemi saxlamağa cəhd edir.

Nəhayət, siyasi elitanın ən mühüm vəzifələrindən biri cəmiyyətdə **münaqişələrin tənzimlənməsi, mövcud ictimai sistemin daxili əlaqələrinin həyata keçirilməsi və sabitliyin** təmin olunmasıdır. Hakimiyyət iki tərəf arasında münasibət olmaq etibarilə, mövcud cəmiyyətdə hamı tərəfindən qəbul olunmuş və ya hüquqi cəhətdən təsbit edilmiş dəyərlərə və prinsiplərə əsaslanır. Həmin dəyərlər və prinsiplər nəinki müxtəlif insanların, eləcə də sosial təbəqə və qrupların ictimai və siyasi münasibətlər sistemində yeri və rolunu, funksiyası və vəzifələrini müəyyən edir və tənzimləyir.

II BÖLMƏ
Siyasi təsisatlar sistemi

I FƏSİL
Siyasi hakimiyyət

1. Hakimiyyətin məzmunu və təzahür xüsusiyyətləri

Siyasəti cəmiyyət həyatının digər sferalarından (iqtisadi, sosial, mənəvi və s.) fərqləndirən cəhət onun hakimiyyət vasitəsilə həyata keçirilməsidir. Siyasət qrupların, birliklərin, təşkilatların tələbatının, səylərinin və qarşılıqlı fəaliyyətinin səbəbinin başlıca obyekti kimi sıxış edir. Lakin hakimiyyət siyasətdə daha gizli hadisə kimi səciyyələnir və onun təbiətini üzə çıxarmaq asan məsələ deyildir. Hakimiyyətin mahiyyətinin düzgün başa düşülməsi (bütövlükdə) və xüsusilə, siyasi hakimiyyətin dürüst dərk edilməsi, onun reallaşmasının üsul və formalarının müəyyənləşdirilməsi siyasət aləminin mahiyyətinə daha dərindən nüfuz etməyə imkan yaradır. Hakimiyyət və hakimiyyət münasibətləri siyasətin məğzini təşkil edir. Məşhur Amerika sosioloqu **T.Parsonsun** fikrincə, pul iqtisadiyyatda necə əhəmiyyət kəsb edirsə, hakimiyyət də siyasətdə elə əhəmiyyətə malikdir. Hakimiyyət cəmiyyətin və siyasətin fundamental başlanğıcıdır, siyasətin əsaslarına xidmət edir. O, sabit insan birliklərinin mövcud olduğu hər yerdə – ailədə, istehsal kollektivlərində, müxtəlif təşkilatlarda və müəssisələrdə, bütün dövlətdə mövcuddur. Dövlətdə o ali, siyasi hakimiyyət kimi təzahür edir.

Siyasi təlimlər tarixində siyasət və hakimiyyət həmişə ayrılmaz, qarşılıqlı əlaqə kəsb edən hadisə kimi nəzərdən keçirilmişdir. Siyasi hakimiyyət daim ictimai xarakter daşıyır, sosial strukturun fəaliyyəti vasitəsilə təzahür edir, məcburetmə gücündən, əxlaqi təsirdən istifadə etməyi, ənənəyə, nüfuza əsaslanmağı nəzərdə tutur.

Hakimiyyət anlayışı siyasi nəzəriyyənin başlıca anlayışlarından biri olmaqla siyasəti, siyasi münasibətləri, siyasi

təsisatları, dövləti başa düşməyə kömək edir. Hakimiyyət münasibətlərinə hələ antik dövrün mütəfəkkirləri (**Platon, Aristotel** və başqaları) xüsusi diqqət yetirmişlər, sonralar **Makiavelli, Hobbs, Lokk, Kant** və xeyli digər orta əsr və Yeni dövr filosofları böyük maraq göstərmişlər. Hakimiyyət problemi müasir Qərb politoloqlarının diqqət mərkəzindədir.

Hazırda bu ictimai hadisənin müəyyənləşdirilməsində müxtəlif cəhdlər nəzərə çarpır. Bəzi müəlliflər hakimiyyəti bir nəfərin və ya bir qrupun öz iradəsini həyata keçirmək imkanları kimi müəyyənləşdirir; digərləri idarəetmə məsələlərinə münasibətdə subyektlər arasında əlaqə, fəaliyyət münasibətləri kimi açıqlayır; üçüncü qrup mövcud qaydaların özünəməxsus dəyişdirilməsinə imkan yaradan yaradıcı başlanğıc, bilik kimi nəzərə çatdırır; nəhayət, onu mütəşəkkil sinfi zorakılıq kimi əsaslandırmağa səy göstərənlər də mövcuddur.

Politoloji ədəbiyyatda hakimiyyətin təbiəti və mahiyyəti barədə bütöv bir sıra konsepsiyalar mövcuddur. Onların arasında marksist, bihevioryçu, struktur-funksional (sistemli) və digərləri seçilir. **Marksist konsepsiyalarda** hakimiyyət bəzilərinin digərləri üzərində hökmranlığı, mütəşəkkil qüvvəyə tabe olmaq kimi şərh edilir. Həmin konsepsiyalarda sinfi hökmranlıq – tabe etmə vurğulanır. **Marks və Engels** hesab edirdilər ki, siyasi hakimiyyətin başlıca cəhəti sinfi xarakter daşımasıdır, hökmranlıq və tabeçilik münasibətləridir. Marksizmə görə, hakimiyyətin mühüm əlaməti zorakılıqdır. Bununla yanaşı, marksist konsepsiyalarda belə bir əhəmiyyətli ideya diqqəti cəlb edir: ictimai tərəqqinin hərəkətverici qüvvəsi demokratiyanın inkişafıdır. İctimai inkişafda xalq kütlələrinin roluna aid marksist müddəa buna aydın sübutdur.

Əlbəttə, hakimiyyət münasibətlərinin mahiyyətini yalnız məcburetməyə və zorakılığa aid etmək düzgün deyildir. Hakimiyyət münasibətləri ictimai münasibətlərin təbii və zəruri sferalarını yaradır, bunlar hər şeydən əvvəl, ictimai

qaydaların qorunub saxlanması zərurətindən irəli gəlir.

Hakimiyyətin müəyyənləşdirilməsinə **bihevioryçu yanaşma** çərçivəsində rol oynamaq, davranış konsepsiyası, resursların mübadiləsi nəzəriyyəsi və digərləri fərqləndirilir. Belə konsepsiyalar üçün hakimiyyəti "aşağıdan" nəzərdən keçirmək səciyyəvidir. Hakimiyyət münasibətləri uyğun gəlməyən qarşılıqlı əlaqələrin nəticəsi, digər insanların davranışının dəyişilməsi imkanlarına əsaslanan xüsusi davranış tipi kimi şərh olunur. Bihevioryçu konsepsiyada hakimiyyət digər fərdlərin və fərdlər qrupunun davranışını dəyişməyə imkan yaradan fərdlər və ya fərdlər qrupunun şəxsiyyətlərarası münasibətləri kimi çıxış edir. Problemin mahiyyəti birinin digəri üzərində nəzarəti kimi açıqlanır.

Hakimiyyət münasibətləri nəzəriyyəsinə görkəmli alman alimi **Maks Veber** böyük töhfə bəxş etmişdir. O, hakimiyyətin müəyyənləşdirilməsi üçün **pozitiv-sosioloji** yanaşmanı əsas götürmüşdür. **Veberin** konsepsiyasına görə, hakimiyyətin müəyyənləşdirilməsinin əsasını subyektlər arasındakı münasibətlərin uyğunsuzluğu və bununla bağlı bir subyektin digərinə təsiri təşkil edir.

Hakimiyyət nəzəriyyəsinin daha da inkişafında böyük xidmət **struktur-funksionalizmə** məxsusdur. Belə ki, **T.Parsons** təsdiqləmişdir ki, hakimiyyət siyasi sistemin təhlilində əhəmiyyətli yer tutur, o makro sosial sistemin xüsusiyyəti və ya atributudur. Sistemli yanaşma sistemin ifadəsi kimi, hakimiyyətin ictimai strukturlarda və funksiyalarda sirrini axtarmağa istiqamətlənir. Hakimiyyət münasibətlərinin əsasında funksiyaların ziddiyyəti və uyğunsuzluğu, vətəndaş cəmiyyətinin və dövlətin imkanları dayanır. Fərdin rolu və statusundan aşılı olaraq, hakimiyyət subyektin bu statusundan əmələ gələn fəaliyyət qabiliyyəti kimi müəyyənləşdirilir.

Hakimiyyətin müəyyənləşdirilməsinə müxtəlif yanaşmaların mövcudluğu nəinki hakimiyyətin, eləcə də siyasətin çoxölçülü olmasını ifadə edir. Bu yanaşmalara müraciət edilməsi hakimiyyət və siyasət problemlərinin hərtərəfli öyrənilməsinə imkan yaradır.

Hakimiyyət məsələsinin aydınlaşdırılması üçün hər şeydən əvvəl, sözün çox geniş mənasında hakimiyyətin xarakteristikasını açıqlamaq zəruridir. Sözün daha geniş mənasında hakimiyyət anlayışı cəmiyyətin birliyini və sabitliyini təmin edən zəruri funksiya kimi səciyyələnir, sözün dar, məhdud mənasında isə bu anlayış siyasi hakimiyyət mənasında ifadə olunur. Sözün geniş mənasında hakimiyyət insanların fəaliyyəti və davranışının xarakterinə və istiqamətinə təsir qabiliyyətini səciyyələndirən sosial münasibətlərin forması kimi başa düşülür. Hakimiyyət ümumi mənada hər hansı vasitənin köməyilə insanların fəaliyyətinə, davranışına müəyyənedici təsir göstərmək qabiliyyəti və imkanıdır. Hakimiyyətin xarakteristikasında çıxış nöqtəsi cəmiyyətə xas olan insanlar arasındakı iradi münasibətlərdir, hakimiyyətin iradəsinin müəyyənedici olmasıdır.

Hakimiyyətin bilavasitə daşıyıcısı, agenti hakimiyyətin subyekti və obyektidir. Subyekt (aktor) hakimiyyətin fəal, istiqamətverici başlanğıcını təcəssüm etdirir. Hakimiyyət münasibətlərinin təşəkkülü üçün subyektin hakimiyyətdə olmaq arzusu, nüfuz və digər keyfiyyətlərə yiyələnməsi zəruridir. Siyasi hakimiyyətin subyektləri mürəkkəb çoxsəviyyəli struktura malikdir. Onun ilkin aktorları fərdlər və sosial qruplardır, ikincisi isə siyasi təşkilatlar, müxtəlif qrupları və təşkilatları hakimiyyət münasibətlərində bilavasitə təmsil edən daha yüksək səviyyəli subyektlər, siyasi elitalar və liderlər hesab olunur.

Hakimiyyət həmişə ikitərəfli səviyyədə mövcuddur, yəni qarşılıqlı fəaliyyətdə olan subyektə və obyektə malikdir. Hakimiyyət tabelikdə olan obyektsiz mövcud ola bilməz.

Hakimiyyət müəyyən təşkilatda təbii-tarixi zərurətdən yaranır və bütövlükdə cəmiyyətin, ayrılıqda müxtəlif sosial birliklərin mənafelərinin reallaşmasını təmin etməyə imkan yaradır. Məhz bu tələbat müəyyən təşkilatda hakimiyyətin fəaliyyətinin təhrikedici qüvvəsi kimi çıxış edir.

Hakimiyyət münasibətləri sistemi özündə dörd başlıca

komponenti birləşdirir:

- hakimiyyətin minimum iki fərdi və ya kollektiv partnyorunun mövcudluğu;
- itaətsizlik zamanı müəyyən sanksiyaların mümkünlüyünü nəzərdə tutan hakimiyyətin iradəsinin (əmr, tələb) ifadəsi;
- hakimiyyəti həyata keçirənə tabeçilik;
- əmr verənlərin (tələb edənlərin) və ona tabe olanların hüququnu müəyyən edən ümumi qəbul edilmiş normaların mövcudluğu. Böyük hakimiyyət böyük fəaliyyət azadlığını ifadə edir.

Cəmiyyətdə hakimiyyət münasibətlərinin çoxcəhətli xarakter daşımasını (iqtisadi hakimiyyət, ailədə hakimiyyət, elmi nüfuz hakimiyyəti, kilsə, məscid hakimiyyəti, ideologiya hakimiyyəti, dini hakimiyyət, partiya hakimiyyəti və s.) nəzərə alaraq, siyasi hakimiyyətin spesifikliyini müəyyənləşdirmək zəruridir. Siyasi hakimiyyət o yerdə başlanır ki, burada təsiretmə qabiliyyəti təşəkkül tapır, başqa sözlə, ictimai qruplarda, təbəqələrdə, siniflərdə, bütövlükdə bütün cəmiyyətdə yayılır. O, iki cəhəti nəzərdə tutur: birincisi, qruplar arasında və onların üzərində hakimiyyət tərəfindən həyata keçirilən ictimai bölgü, ikincisi ictimai, ümumdövlət miqyasında mütəşəkkil məcburetmə. Beləliklə, açıq məcburetmə qüvvəsi siyasi hakimiyyəti səciyyələndirən xüsusi amil kimi çıxış edir. Fərdi hakimiyyət qeyri-siyasi hadisədir. Mütəşəkkil məcburetmə ilə yanaşı, hakimiyyət münasibətləri sistemində hüquq normaları və siyasi liderlərin nüfuzu və ya hakimiyyət orqanları böyük rol oynayırlar.

Deməli, **siyasi hakimiyyət** mütəşəkkil məcburetməyə (zorakılığa), hüquqa və nüfuza əsaslanan böyük sosial qruplar arasındakı iradi münasibətlərdir. Belə bir cəhəti nəzərə almaq zəruridir ki, siyasi hakimiyyət dövlət hakimiyyəti ilə eynilik təşkil etmir, istər-istəməz hər cür siyasi hakimiyyət dövlət hakimiyyəti deyildir. Məsələn, hakimiyyət münasibətləri siyasi partiyaların, ictimai hərəkatların və təşkilatların fəaliyyətində təşəkkül tapır. **Dövlət hakimiyyəti siyasi**

hakimiyyətin yüksək formasıdır, daha tam ifadəsidir, siyasi hakimiyyətin daha inkişaf etmiş növüdür. Eləcə də siyasi hakimiyyət idarəetmə ilə eynilik kəsb etmir, çünki idarəetmə elə vasitədir ki, onun köməyilə hakimiyyətin məqsədyönlü təsir göstərməsi gerçəkliyə çevrilir.

Hakimiyyətin siyasi fəaliyyətinin başlıca vəzifələri bunlardır:

- milli-dövlət maraqlarını – millət və xalqın yaşaması, həyati tələbatının reallaşması, özünü mühafizəsi, özünütəsdiqi və öz təhlükəsizliyini təmin etməsi;
- bütün cəmiyyətin, eləcədə ayrı-ayrı sosial birliklərin mənafeyi naminə müxtəlif sosial proseslərin uyğunlaşdırılması;
- ümumi məqsədlərə və ya hakim sosial qrupların mənafeyinə müvafiq olaraq ictimai, siyasi münasibətlərə müəyyən istiqamət verilməsi;
- müəyyən ictimai sistemin sabit fəaliyyətinin təşkili, qorunub saxlanılması və keyfiyyətcə inkişafı;
- ictimai normalar halında legitim məcburetmənin həyata keçirilməsini nəzərə almaq.

Hakimiyyətin mahiyyətini aydınlaşdırarkən onu hakimiyyətin resursları və ya mənbəyi ilə əlaqələndirmək zəruridir. Siyasi fikir tarixində bu məsələyə həmişə əhəmiyyətli diqqət yetirilmişdir. Məsələn, **N.Makiavelli** hesab edirdi ki, hakimiyyəti uğurla həyata keçirmək üçün insanın maddi mənfəətə və özünü qoruyub saxlamağa cəhdini nəzərə almaq tamamilə vacibdir. Müasir politoloqlar da bu cəhətə mühüm əhəmiyyət verirlər. Hakimiyyətin başlıca mənbələri hansılardır? Digər insanlara iradi təsir imkanlarını müəyyən edən nədir, siyasi hakimiyyətə yiyələnməyə nə imkan yaradır?

Məşhur Amerika politoloqu **R.Dalın** təsnifatına görə, hakimiyyətin mənəbyinə bunlar aiddir: sosial vəziyyət, iqtisadi imkanlar, qanun və qanunçuluq mədəniyyəti, nüfuz, işçi yerinə nəzarət, informasiyaya yiyələnmək. Onun fikrincə, müasir cəmiyyətdə hakimiyyətin resursları qeyri-bərabər

bölünsə də, bu və ya digər dərəcədə cəmiyyətin bütün üzvləri üçün əlçatandır. Hakimiyyətin resurslarına hərbi qüvvələr (buna görə hakimiyyət insanların şüurunda daha çox birbaşa zorakılıqla eyniləşdirilir), təşkilat, təhsil və təcrübə da aid edilir.

Siyasi hakimiyyətin və hakimiyyət münasibətlərinin mahiyyəti məsələsini təhlil edərkən hakimiyyətin həyata keçirilməsində zorakılıq probleminə də xüsusi diqqət yetirilməlidir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, **hakimiyyət münasibətlərinin bütün sisteminin özəyini "hökmranlıq etmək-tabeçilik" münasibəti təşkil edir**. Cəmiyyətdə tabeçilik əsasən dərk edilmiş xarakter daşıyır. Belə halda hakimiyyətin iradəsi başlıca sosial qrupların mənafeyi ilə üstüstə düşür, hakimiyyət ilk öncə, hüquqa və nüfuza əsaslanır, tabeçilik isə həm fəal və eləcə də passiv formada ifadə edilə bilər. Lakin belə situasiyada da inam sistemi effektli fəaliyyət göstərirsə və cəmiyyətdə hakimiyyətə dərk olunmuş tabeçilik hakimdirsə, ifadəsi zorakılıq olan məcburetmə elementi tam mənada əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, real hakimiyyət məcburetmə gücü ilə zəruri əlaqəyə malikdir. Hakimiyyətlə böyük, ictimai cəhətdən əhəmiyyətli sosial qruplar arasında ziddiyyətlərin artdığı şəraitdə hakimiyyət münasibətləri sistemində zorakılığın rolu kəskin surətdə artır.

Məcburetmə subyektin öz məqsədinə çatması üçün obyektin müqavimətini zorakılıqla aradan qaldırmaqla, hakimiyyətin əldə edilməsinə istiqamətlənir. Lakin zorakılıq hakimiyyətin iradəsinin reallaşması üçün yeganə vasitə deyildir. **Zorakılıq güclü hakimiyyətin yox, hakimiyyətin gücünün ifadəsidir**.

Siyasi hakimiyyətin mahiyyətini nəzərdən keçirərkən, onu hakimiyyətlə ictimai mənafeyin nisbəti problemi ilə əlaqələndirmək məqsədəuyğundur. Bu baxımdan "hakimiyyət kimə xidmət edir" və "kim idarə edir" prinsipini aydınlaşdırmaqla, hakimiyyətin təbiətini müəyyənləşdirmək imkanı əldə edilir.

Ümumiyyətlə, konkret formalarından asılı olmayaraq **"hakimiyyət" anlayışı ümumi səpkidə bir qrupun digərlərinə hökmranlıq etmək, sərəncam vermək, onları idarə etmək hüququ və imkanlarını ifadə edir; bəzilərinin digərlərinə münasibətdə öz iradəsini həyata keçirmək, onların fəaliyyətinə və davranışına müəyyən təsir göstərmək qabiliyyəti və imkanıdır, bu məqsədlə nüfuzdan, hüquqdan, zorakılıqdan və digər vasitələrdən istifadə edilir.**

Sosial sistemin bütün hadisələri kimi, siyasi hakimiyyət də özünəməxsus başlanğıca malikdir. İctimai həyatın bu və ya digər hadisəsinin ilk başlanğıcı onun gələcək vəziyyətinə əhəmiyyətli təsir göstərir. Siyasi praktika təsdiqləyir ki, həmin xüsusiyyət siyasi hakimiyyətin taleyində də öz təcəssümünü tapır. İctimai inkişafın bəzi məqamları aydın şəkildə göstərir ki, siyasi hakimiyyət müxtəlif yollarla qərarlaşa bilər. Azad demokratik seçkilər, hərbi çevriliş və ya qanlı inqilab məhz bu qəbildəndir.

Hakimiyyət problemində **siyasi lider və siyasi liderlik də** xüsusi əhəmiyyət kəsb edir.[1] Siyasi lider sadəcə olaraq, yalnız siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin idarə olunması funksiyasını həyata keçirən, siyasi təşkilatları və siyasi hərəkatları tənzimləyən insan deyildir. Siyasi lider o şəxsdir ki, hadisələrin gedişini və siyasi proseslərin istiqamətini dəyişdirmək qabiliyyətinə malikdir. Elə buna görə də hər bir baş nazir, hökmdar, siyasi partiyanın rəhbəri, parlamentin üzvü siyasi lider səviyyəsinə yüksəlmir. Siyasi liderlər cəmiyyətdəki siyasi prosesləri fəallaşdırır. Onlar cəmiyyətin tarixi inkişaf gedişini müəyyən edən proqram irəli sürürlər.

Siyasi liderlərin təzahürü və fəaliyyəti çoxcəhətli mahiyyət daşıyır. Onun meydana çıxması, fəaliyyəti və davranışı hər şeydən əvvəl, obyektiv və universal hadisədir. Siyasi

[1] Növbəti yarımfəsil məhz siyasi lider və siyasi liderlik məsələsinə həsr edilmişdir. Lakin bu yarımfəslin mahiyyəti ilə bağlı həmin problemə burada da qısa toxunmaq zəruridir.

liderə olan ehtiyac ondan irəli gəlir ki, insanların birgə fəaliyyətinin bütün növləri təşkilatçılıqdan, qarşıya qoyulan məqsədlərin reallaşmasının rasional vasitələrindən xeyli asılıdır. Həmin funksiyanı yalnız nüfuza, yüksək fəallığa və enerjiyə malik olan insanlar həyata keçirirlər. Siyasi liderin fəaliyyətinin universallığı isə onunla müəyyənləşir ki, insanların, qrupların, təşkilatların və hərəkatların birgə fəaliyyətinin bütün növləri liderə ciddi ehtiyac duyur.

Siyasi liderlik anlayışı siyasi lider anlayışı ilə sıx əlaqə kəsb edir. Siyasi liderlik liderlə tabelikdə olanın qarşılıqlı fəaliyyətinin çoxcəhətli və mürəkkəb mexanizmini əks etdirir. Liderlik anlayışının başlıca komponentləri bunlardır: şəraiti dəqiq, düzgün qiymətləndirmək qabiliyyəti, qarşıya qoyulan vəzifələrin həlli yollarını və vasitələrini dürüst müəyyənləşdirmək; bu və ya digər qərarın həyata keçirilməsi məqsədilə insanların düşüncəsinə təsir göstərmək, onları səfərbər etmək, idarə edənlərin liderə şüurlu və könüllü tabeçiliyi və s. Liderlik liderlə hər hansı qrupun, birliyin üzvləri arasında xüsusi mexanizmə malik olan qarşılıqlı fəaliyyətdir. Deməli, liderlik liderlə müqayisədə daha geniş anlayışdır.

Liderliyin məzmununda formal və qeyri-formal liderlik də öz ifadəsini tapır. Rəhbərlik funksiyalarının təsisatlaşması formal liderlik anlayışında ifadə olunur. Formal liderlik müəyyən şəxsin mövcud təşkilatın üzvlərinə nüfuzlu təsirini mənalandırır. Qeyri-formal liderlik isə lider rolunu yerinə yetirməyə subyektiv qabiliyyəti, hazırlığı və bacarığı səciyyələndirir, o eləcə də qrup üzvlərinin, bu və ya digər şəxsin rəhbərlik etmək hüququna malik olmasını təsdiqləməsidir.

Siyasi hakimiyyətin başlıca funksiyası bütövlükdə **cəmiyyətə (ölkəyə, dövlətə) və onun hər bir sferasına (siyasi, iqtisadi, sosial, mənəvi-ideoloji) rəhbərlikdən, onları idarə etməkdən ibarətdir**. Bu funksiyanın konkret məqsədi cəmiyyətdə qayda yaratmağa, orada ayrı-ayrı təbəqələrin müxtəlif mənafeləri arasında meydana çıxan ziddiyyətlərin

həllinə nail olmaqdır. Başlıca funksiyanın yerinə yetirilməsində hər bir siyasi hakimiyyət özünəməxsus vəzifələri və məqsədi, öz konkret proqramı, öz resursları və s. ilə fərqlənir.

Beləliklə, hər bir siyasi hakimiyyət özünün təşəkkül tapdığı andan etibarən, ölkənin konkret şəraitinə, iqtisadi və siyasi vəziyyətinə uyğun olaraq, bütövlükdə cəmiyyətin idarə olunmasının strategiya və taktikasını işləyib hazırlayır. Siyasi müxalifətə münasibətə xüsusi diqqət yetirilir, cəmiyyətin müxtəlif təbəqələrinə münasibətdə konkret siyasət, hakimiyyətin resurslarının və s. təmin olunması siyasəti işlənib hazırlanır.

İkinci funksiya birinci (əsas) funksiya ilə sıx qarşılıqlı əlaqə kəsb edir – **bu funksiya siyasi sistemin özünün optimallaşdırılmasından, onun təsisatlarını hakimiyyətə gələn qüvvələrin məqsədlərinə, vəzifələrinə və öz mahiyyətinə uyğunlaşdırmaqdan ibarətdir.**

Siyasi hakimiyyətin **üçüncü funksiyası ölkədə sabitliyin təmin edirməsinə nail olmaqdır.** Müxtəlif dövlətlərdə və ayrı-ayrı siyasi hakimiyyətlərdə həmin funksiya bu və ya digər dərəcədə yerinə yetirilir. Sabitliyin təmin olunması dərəcəsi bilavasitə hakimiyyətin legitimliyindən, başqa sözlə, xalqın hakimiyyəti tanımasından asılıdır.

Siyasi hakimiyyətin qeyd etdiyimiz funksiyaları qarşılıqlı əlaqə kəsb edir. Əlbəttə, siyasi hakimiyyət üç funksiya ilə məhdudlaşmır, onun digər əhəmiyyətli funksiyaları da vardır.

Hakimiyyətin strukturu özünəməxsus növlərə də malikdir. Hakimiyyətin bütün növləri onun resurslarına və cəmiyyət həyatının ayrı-ayrı sferalarına uyğun şəkildə təzahür edir. Politoloji ədəbiyyatda hakimiyyətin növləri sistemində iqtisadi, sosial, mədəni-informasiya və məcburetmə daha çox mənalandırılır.

İqtisadi hakimiyyət iqtisadi resurslar, müxtəlif maddi sərvətlər üzərində nəzarəti həyata keçirir. Bu hakimiyyət ilk növbədə siyasi hakimiyyətlə sıx əlaqəyə malikdir. **Sosial ha-**

kimiyyətin fərqləndirici cəhəti isə ondan ibarətdir ki, ictimai həyatın digər sahələrində də nəzərə çarpır və iqtisadi hakimiyyətlə daha çox bağlılıq kəsb edir. İqtisadi hakimiyyətdən fərqli olaraq, sosial hakimiyyət sosial pillələrin – statusun, vəzifənin, güzəştin və imtiyazların bölüşdürülməsi (paylanması) qabiliyyətidir. Hakimiyyətin digər əhəmiyyətli növü sayılan **mədəni-informasiyanı** səciyyələndirən əsas cəhət odur ki, insanların idarə edilməsi intellektual qabiliyyətə, informasiyaya əsaslanır. Mədəni-informasiya hakimiyyəti insanlar üzərində biliklərə, informasiyaya və onların yayılması vasitələrinə əsaslanan hakimiyyət növüdür. Siyasi hakimiyyətin bu növü yalnız hökumətin fəaliyyəti barədə, cəmiyyətdəki vəziyyətlə bağlı obyektiv məlumat yaymaqla mənalanmır, həmçinin, cəmiyyət üzvlərinin ictimai şüuruna aldadıcı, çaşdırıcı təsir göstərmək qabiliyyəti ilə səciyyələnir. Nəhayət, siyasi hakimiyyətin **məcburetmə növü** zorakılıq resurslarına əsaslanması və fiziki qüvvə tətbiq etmək vasitəsilə, insanlar üzərində nəzarəti ilə fərqlənir. Məcburetmə hakimiyyətini siyasi hakimiyyətlə eyniləşdirmək olmaz. Yadda saxlamaq lazımdır ki, siyasi hakimiyyətin mühüm xüsusiyyətlərindən biri, məhz dövlət tərəfindən açıq şəkildə güc tətbiq edilməsidir.

Hakimiyyət insanın inkişafı ilə birlikdə təzahür etmiş, öz təşəkkülündə uzun və mürəkkəb təkamül yolu keçmiş və daim təkmilləşmişdir. Hakimiyyətin təkamül prosesi müasir şəraitdə də davam edir.

2. Hakimiyyətin tipləri və onun legitimliyi problemi

Cəmiyyətin həyatında hər bir hadisə başlanğıca malikdir. Bu və ya digər ölkədə hökmranlıq edən siyasi hakimiyyətin də öz başlanğıcı vardır. Məlumdur ki, siyasi hakimiyyət azad demokratik seçkilər nəticəsində və ya eləcə də əhalinin xeyli təbəqələri üçün faciəyə səbəb olan, milyonlarla insanın həyatı üçün təhlükə törədən hərbi çevrilişlə, qanlı inqilabla bağlı formalaşa bilər.

İlk başlanğıcdan qanuna əsaslanan, cəmiyyətin özü və xarici dövlətlər tərəfindən rəsmən tanınan hakimiyyətə isə xalq başqa münasibət bəsləyir. İlk başlanğıcdan bu cür səlahiyyət əldə edən hakimiyyət cəmiyətlə siyasi hakimiyyətin qarşılıqlı münasibətlərində konsensusun yaranmasına istiqamətlənir, nəticədə xalq belə hakimiyyətin rəhbər rolunu qəbul edir. Beləliklə, **rəsmi hakimiyyətin qanuniliyinin cəmiyyət, xalq tərəfindən etiraf olunması onun köklü xarakteristikasıdır**. Bir sözlə, siyasi hakimiyyətin təzahürünün təhlili onun həyata keçirilməsi üsullarının, başqa sözlə hakimiyyətin sosial "texnologiyasının" nəzərdən keçirilməsini tələb edir. Bu məsələnin aydınlaşdırılması üçün **siyasi hökmranlığın əsas tiplərinin** (hakimiyyətin həyata keçirilməsinin) xarakteristikasını açıqlamaq lazımdır.

Müasir politologiyada hökmranlıq tiplərinin müəyyənləşdirilməsinin klassiki **Maks Veber** hesab olunur. Onun təsnifatından çıxış edərək, hakimiyyətin həyata keçirilməsinin üç başlıca tipi müəyyənləşdirilir: leqal, ənənəvi və harizmalı.

Hökmranlığın (hakimiyyətin) **leqal** (hüquqi, formal möhkəmləndirilməsi) tipi təşəkkül tapan hakimiyyət münasibətlərinin tərəflərinin rasional və məqsədyönlü fəaliyyəti ilə bağlıdır. O, şəxsiyyətin tabeçiliyi ilə deyil, məhz qanunların müəyyən edilməsilə səciyyələnir, formal – hüquqi başlanğıca əsaslanır, səriştəliliklə və xüsusi peşəkarlıq hazırlığı ilə fərqlənən bürokratik idarəetmə ilə bağlıdır. Qərb nəzəriyyəçiləri adətən, leqal hakimiyyəti (hökmranlığı) sabit demokratik təsisatlara və plüralist xarakterə malik olan (Konstitusiyalı – plüralist cəmiyyət – **R.Aron**) cəmiyyətin praktikası ilə əlaqələndirirlər. **Hökmranlığın ənənəvi tipinin** əsasını siyasətin subyektlərinin ənənəvi fəaliyyəti təşkil edir. Hakimiyyətin həyata keçirilməsinin belə tipi hər şeydən əvvəl, ənənəvi mövcud olan qaydaya və hakimiyyətə inama istiqamətlənir. Bir qayda olaraq, hökmranlığın bu tipi patriarxal idarəetmə strukturunun üstünlük təşkil etdiyi, çox vaxt silki qaydaya əsaslanan cəmiyyətə aid edilir.

Hökmranlığın harizmalı tipi affektli (qeyri-təbii) fəaliyyətə əsaslanır və qeyri-adi şəraitdə inkişaf edən cəmiyyətlər üçün səciyyəvidir. O, mahiyyət etibarilə, nüfuz hakimiyyətidir, harizmalı hakimiyyətin nüfuzuna, istedadının gücünə əsaslanır. Hakimiyyətin həyata keçirilməsinin belə tipinə hər şeydən əvvəl, ictimai inkişafın keçid və ya dönüş mərhələlərində, inqilabi dəyişikliklər, dərin və mürəkkəb sosial-siyasi islahatlar, milli müharibələr dövründə təsadüf olunur.

Politoloji ədəbiyyatda siyasi hökmranlığın – hakimiyyətin həyata keçirilməsinin digər təsnifatı da təklif edilir: demokratik, avtoritar, totalitar; antaqonist cəmiyyətlərdə müvafiq siniflərin hökmranlığı və digərləri.

Hakimiyyət məsələsini öyrənərkən **onun legitimliyi probleminə** xüsusi diqqət yetirilməsi tələb olunur. Siyasi elmdə "legitimlik" anlayışı heç də onun "qanuniliyinin" hüquqi şərhi mənasında başa düşülmür. **Legitimlik politoloji mənada** hakimiyyətin vətəndaşlar tərəfindən müdafiəsi və etirafı kimi başa düşülür. Belə halda legitimlik idarə edənlərin idarə olunanların əksəriyyəti tərəfindən təsdiqlənməsi, qəbul olunmasıdır, legitimliyin əldə edilməsi isə üzərində hakimiyyətin həyata keçirildiyi insanlar tərəfindən müdafiə olunmasıdır. Bunu "legitimlik" anlayışının terminoloji mənası da təsdiqləyir. Legitimlik termini latın dilində **legitimus** sözündən götürülüb, qanuni mənasını ifadə edir. "Hakimiyyətin legitimliyi" termini elmə ilk dəfə böyük alman politoloqu **M.Veber** tərəfindən gətirilmişdir.

Rasional-hüquqi meyara əsaslanan legitim hakimiyyət onun uzunmüddətli olacağına təminat verir. Bunu daha çox demokratik siyasi rejimlərlə səciyyələnən dövlətlərdəki siyasi hakimiyyət şərtləndirir, həmin dövlətlərin siyasi və iqtisadi sisteminin yüksək inkişaf səviyyəsi reallaşdırır. ABŞ-dakı prezident hakimiyyəti buna misal ola bilər. Ənənəvi hakimiyyət də uzun müddətli xarakterə malikdir. Çünki irsən keçən bu hakimiyyətdə bir varis digərlərini əvəz edir və xeyli onilliklər, hətta yüzilliklər ərzində mövcud olur. Böyük Bri-

taniyanın kral hakimiyyətinin legitimliyi buna əyani sübutdur.

Lakin harizmalı legitim hakimiyyət uzunmüddətli mövcudluğuna əsas vermir. Məsələ onda deyildir ki, harizmalı siyasi liderin ölümü ilə hər şey dəyişir. Digər səbəblər də mövcuddur. Hakimiyyətin bu legitim tipi xüsusi funksiyanı yerinə yetirir. Onun təşəkkülü bir qayda olaraq, dərin ictimai dəyişikliklər dövrü ilə bağlıdır, irimiqyaslı sosial islahatlarla şərtlənir. Belə halda qarşıya qoyulan məqsədlərə çatmaq üçün xalqı "ayağa qaldırmaq", səfərbər etmək və öz ardınca aparmaq zərurətə çevrilir. Bunun üçün durğunluq dövrü keçirən cəmiyyətdə qayda yaratmaq, ictimai ətaləti aradan qaldırmaq tələb olunur.

Siyasi hakimiyyətin legitimliyi mühüm əhəmiyyət kəsb edir. Çünki xalqın, cəmiyyətin mövcud hakimiyyəti müdafiə etməsi, ona inamı hakimiyyətin rasionallığı üçün zəruri şərtdir. Cəmiyyət üzvlərinin siyasi hakimiyyətin qanuniliyinə inamının olmaması isə mövcud sistemin qeyri-sabitliyi üçün başlıca amillərdən biridir. Elə buna görə də hakimiyyətə gələn hər bir sosial qüvvə ilk öncə, vətəndaşların inamını qazanmağa səy göstərir. Bu məqsədlə müxtəlif üsul və vasitələrdən istifadə olunur. legitimləşmənin obyektini bir qayda olaraq dövlət və onun orqanları, siyasi rejim, həyata keçirilən siyasi və iqtisadi islahatlar və s. təşkil edir. Şübhəsiz, siyasi hakimiyyətin legitimliyi xeyli dərəcədə siyasi liderin, dövlət xadimlərinin fəaliyyətinin xarakteri ilə bağlıdır. Ölkə başçısı legitimliyin təminatçısı kimi çıxış etməlidir. Belə olduqda hakimiyyətin rasionallığı və ölkədə sabitliyin qərarlaşması üçün zəmin yaranmış olar.

Ən müxtəlif hakimiyyət tiplərinin vətəndaşlar tərəfindən müdafiəsi və qəbul olunması cəmiyyətin inkişafının tarixi şəraitindən, təşəkkül tapan konkret-tarixi situasiyadan, ölkədəki siyasi mühitdən və digər amillərdən asılıdır. Legitimliyin meyarının müəyyənləşdirilməsində iki başlıca nöqteyi-nəzər daha çox yayılmışdır: liberal və praqmatik. Legitimliyə aid **liberal** (demokratik) görüş ondan ibarətdir ki,

yalnız elə hakimiyyəti təsdiqləmək lazımdır ki, demokratik qaydalar əsasında formalaşmışdır. Praqmatik nöqteyi-nəzərə görə, hakimiyyətin legitimliyi problemində başlıca cəhət onun formalaşması qaydaları yox, məhz hakimiyyətin cəmiyyətdəki situasiyanı idarə etmək qabiliyyətidir, onun sabitlik vəziyyətini saxlamaqdan, effektli fəaliyyətdən ibarətdir.

Politoloji ədəbiyyatda **hakimiyyətin legitimliyinin təmin edilməsinin üç səviyyəsi** fərqləndirilir: ideoloji, struktur və personallaşdırma (şəxsləndirmə).

İdeoloji səviyyə hakimiyyətin cəmiyyətdə nəzərə çarpan ədalətə aid təsəvvürə uyğun gəlməsinə, vətəndaşların idarə edənlərin peşəkarlığına inam ölçüsünə, eləcə də hakimiyyətin obyektinin (vətəndaşların) onun daşıyıcıları, subyekti ilə eyniləşdirilməsinə əsaslanır. Məsələn, keçmiş sovetlər birliyində işlədilən belə bir şüar həmin eyniləşdirməyə misal ola bilər: "Xalq və partiya ayrılmazdır".

Legitimliyin **struktur səviyyəsi** adət halını almış hakimiyyət orqanlarının formalaşması qaydasının mövcud qaydalara əsaslanması ilə bağlıdır, bu, bütövlükdə hakimiyyətə inama istiqamətlənir. Sabit dövlət təsisatlarının fəaliyyəti, seçki prosesi qaydalarının dəyişməzliyi vətəndaşlar tərəfindən hakimiyyətin müdafiə olunmasına əsas yaradır.

Personallaşdırma (şəxsləndirmə) səviyyəsi hakimiyyətin mövcud təsisatlarının bəyənilməsinə yox, məhz konkret surətdə hakimiyyətdə olan şəxslərə əsaslanır. Bu sistem nəticəsində hakimiyyət liderlə eyniləşdirilir, hakimiyyətin etiraf olunması isə insanların şüurunda şəxsi seçimlə və şəxsi siyasi idealla əlaqələndirilir.

Bütövlükdə legitimlik şübhəsiz, hakimiyyətin effektliyindən, onun vətəndaşların zəruri problemlərini həll etmək, bütün cəmiyyətin mənafeyi naminə fəaliyyət göstərmək qabiliyyətindən asılıdır. Hakimiyyətin legitimliyinin təbliğində müəyyən təsisatlar, xüsusilə kütləvi informasiya vasitələri böyük rol oynayırlar. KİV-in müasir cəmiyyətdə rolu daim artır. Onun vətəndaşlara siyasi təsiri böyükdür.

Hakimiyyətin həyata keçirilməsinin ən mühüm nəzəri və praktiki problemi **hakimiyyətin bölünməsi problemidir**. Hakimiyyətin yayılması, onun strukturu hakimiyyətin bölünməsi ("horizontal" bölgü) və mərkəzlə yerli orqanlar arasında hakimiyyətdən istifadə edilməsi ("vertikal" bölgü) hüququ ilə bağlıdır.

Hakimiyyətin bölünməsi dövlətdə hakimiyyətin təşkili prinsipidir. Həmin prinsipə görə qanunverici, icraedici və məhkəmə hakimiyyəti müxtəlif insanlar və dövlət orqanları tərəfindən həyata keçirilir. Bu baxımdan hakimiyyətin həmin qollarından biri özünə aid məsələlərin həllində digərinin səlahiyyətinə qarışa bilməz (Konstitusiyaya görə). Eyni zamanda hakimiyyətin qolları, məsələləri qarşılıqlı nəzarətdə həll edirlər və özünə məxsus əks mövqedə dayanmaq sistemini yaradırlar.

Hakimiyyətin bölünməsi ideyası ilk dəfə antik dövrdə **Siseron** tərəfindən irəli sürülmüşdür. O, qeyd edirdi ki, dövlət daxildən vahid olmamalıdır, dövlət bölünən olmalıdır. XVII əsrdə İngiltərədə təzahür edən levellerlər siyasi cərəyanının təlimində isə hakimiyyətin bölünməsi ideyası daha geniş inkişaf etdirilmişdir.

Hakimiyyətin bölünməsi konsepsiyası XVII-XVIII əsrlərdə formalaşdırılmışdır **(C.Lokk, Ş.Monteske, D.Medison** tərəfindən). Onun mənası bundan ibarətdir ki, dövlət hakimiyyətinin vətəndaşlara münasibətdə mümkün ola bilən özbaşınalığı məhdudlaşdırılsın, onun qəsb edilməsinə, bir əldə və ya bir dövlət təsisatında təmərküzləşməsinə yol verilməsin. Bu konsepsiyanın müəlliflərinin və tərəfdarlarının ideyasına görə, hakimiyyətin bölünməsi dövlət tərəfindən idarəçiliyin daha effektli həyata keçirilməsinə imkan yaradır. Hüquqi dövlətin siyasi praktikasında, demokratik cəmiyyət haqqında təsəvvür hakimiyyətin bölünməsi prinsipindən ayrılmazdır.

Hakimiyyətin üç qola ayrılması hakimiyyətin vahid sisteminin yoxluğu kimi başa düşülməməlidir. Eləcə də belə düşünmək olmaz ki, əgər hakimiyyətin bölünməsi prinsipi

"təmiz" halda həyata keçirilmirsə, deməli hakimiyyət münasibətləri sistemində heç bir differensasiya mövcud deyildir.

Hakimiyyətin bölünməsi vertikal və horizontal xətt üzrə mümkündür. Vertikal bölgü hakimiyyətin dövlət idarəçiliyinin müxtəlif səviyyələri arasındakı bölgüdür. Hakimiyyət bölgüsünün iki səviyyəsi mövcuddur: ümummilli (və ya mərkəzi) və yerli. Mərkəzlə yerli orqanlar arasında aralıq səviyyələr ola bilər, məsələn, regional səviyyə. Belə halda region (vilayət, ölkə, şəhər) hakimiyyətə malik olmaqla, Konstitusiya ilə mərkəzi hakimiyyətin qəsdindən müdafiə olunur. Hakimiyyətin belə sistemi federal sistem adlanır. Əgər hakimiyyətin regional səviyyəsi yoxdursa və ya o, zəifdirsə, mərkəzdən asılıdırsa, hakimiyyətin bu cür sistemi unitar sistem adlanır. ABŞ, Hindistan, Rusiya federal idarəetmə sistemidir. İngiltərə isə unitar sistemə malikdir.

Hakimiyyətin vertikal məhdudlaşdırılması ondan istifadə hüququnun bölünməsi ilə əlaqədardır, başqa sözlə, hakimiyyət səlahiyyətlərinin bir hissəsinin "yuxarıya" və ya "aşağıya" verilməsilə bağlıdır. Hakimiyyətin mərkəzə ("yuxarı") verilməsi idarəetmənin böyük fəaliyyət imkanlarına malik olan subyektə verilməsini ifadə edir. Bunun nəticəsində bir qayda olaraq hakimiyyət səlahiyyətlərindən effektli istifadə olunmasının yüksək səviyyəsi əldə edilir. Lakin hakimiyyətin bu cür verilməsi, onun hakimiyyət strukturlarının yuxarı qatlarında yüksək dərəcədə təmərküzləşməsi təhlükəsi doğurur, deməli pərəstişin, diktatorluğun, totalitar rejimin və s. təşəkkülünə yol açılır. Hakimiyyətin təşkilində hipertrofiyalı (həddən artıq) mərkəzçilik rəhbərliyin və idarəetmənin inzibati-iradi üsullarının həyata keçirilməsinə gətirib çıxarır. Hakimiyyətin horizontal bölgüsü isə onun dövlət idarəçiliyi elementləri arasında bölünməsinin bir sıviyyəsində, məsələn, hakimiyyət orqanları (qanunverici, icraedici və məhkəmə) arasında özünü təcəssüm etdirir. Demokratik ölkələrin siyasi təcrübəsi göstərir ki, hakimiyyətin bu qollarını bir orqanda birləşdirməyə lüzum yoxdur, onları bütöv bir sıra səbəblərə görə məhdudlaşdırmaq məqsədəuyğundur: 1. Hər

bir dövlət orqanının funksiyalarını, səriştəliliyini və məsuliyyətini dəqiq müəyyənləşdirmək, qarşılıqlı nəzarəti həyata keçirmək, bütün dövlət strukturlarının fəaliyyətinin birliyinə nail olmağa kömək edən bir-birini şərtləndirmə sisteminin yaradılması zərurəti; 2. Hakimiyyətdən sui-istifadə hallarının, diktatura yaratmaq cəhdlərinin qarşısının alınması zərurəti; 3. şəxsiyyətin dəyərlərini qorumaq baxımdan hakimiyyətlə azadlığı, qanun və hüququ, dövləti və cəmiyyəti ahəngdar surətdə birləşdirmək zərurəti.

Siyasi hakimiyyətin həyata keçirilməsi mexanizminin təhlili siyasi strategiyanın və siyasi məharət texnologiyasının nəzərdə tutulmasını tələb edir. Siyasi strategiya və texnologiya nəzərdə tutulan nəticələrin əldə olunması naminə müəyyən ardıcıl fəaliyyəti ifadə edir. Siyasi strategiya çərçivəsində situasiyanın konkret-tarixi xüsusiyyətləri nəzərə alınmaya bilməz. Siyasi texnologiya isə müəyyən prinsip üzrə fəaliyyət məntiqini əks etdirir.

Siyasi məharət strategiya və texnologiyanın nisbəti variantını tapmaq qabiliyyəti ilə müəyyən olunur, bunun sayəsində əldə edilən nəticə siyasi subyektin təsirinin və statusunun artmasına imkan yaradır.

Müasir demokratik cəmiyyətlərdə siyasi təsisatların təşkilinin hamı tərəfindən qəbul edilmiş norması hakimiyyətin bölünməsi prinsipidir. Hakimiyyətin bir nəfərin əlində həddən artıq cəmləşdirilməsi, hər hansı siyasi idarəetmə orqanının hakimiyyəti öz inhisarına alması böyük təhlükə olmaqla, demokratik prinsiplər üçün təhlükə yaradır, qanunsuzluq, ədalətsizlik doğurur.

Hakimiyyətin üç qolunun – icraedici, qanunverici və məhkəmə orqanlarının səlahiyyətlərinin normativ cəhətdən möhkəmləndirilməsinin təhlilinə xüsusi diqqət yetirilir. Hüquqşünasların nöqteyi-nəzərincə, bu cür təhlil siyasi təsisatların (dövlətin, partiyaların, siyasi hərəkatların və s.) öz səlahiyyətləri çərçivəsində bir-birindən asılılığına imkan yaratmır, bir-birinə nəzarət etməyi reallaşdırır, hakimiyyətin bütövlükdə onun hər bir qolunun əlində cəmləşməsinin qar-

şısını alır və demokratiya üçün təhlükəni aradan qaldırır. Əlbəttə, hakimiyyət orqanlarının formalaşmasının və qarşılıqlı münasibətlərinin prinsipləri eyni deyildir. Bununla yanaşı, həm də belə bir ümumi qayda mövcuddur ki, qanunverici hakimiyyət icraedici hakimiyyətə nəzarət edir və onların hər ikisi bir qayda olaraq hüquqi zəmində, qanun çərçivəsində fəaliyyət göstərir, hakimiyyətin üçüncü qolu olan məhkəmə hakimiyyəti isə icraedici və qanunverici hakimiyyətin öz səlahiyyətlərini necə həyata keçirdiklərini izləyir, həm də onlardan asılı olmamaq şərtilə. Belə bir cəhəti qeyd edək ki, hakimiyyətin bölünməsi konsepsiyasının nümayəndələri hakimiyyət orqanları sistemində parlamentə daha çox üstünlük verirlər və qeyd edirlər ki, icraedici hakimiyyətlə məhkəmə hakimiyyətinin fəaliyyətinin həddini yalnız ali qanunverici təsisat (parlament) müəyyən etməlidir. Təcrübə göstərir ki, icraedici hakimiyyət qanunvericilik prosesində fəal iştirak edir. Lakin hazırlanan və təqdim olunan qanun layihələri parlamentdə müzakirə edilir.

Hazırda dünya ölkələrinin xeyli hissəsində hakimiyyətin bölünməsi sistemini fərqləndirən xüsusiyyət ondan ibarətdir ki, vətəndaşların müəyyən hissəsi, məsələn, orduda, məhkəmədə fəaliyyət göstərən dövlət qulluqçuları qanunvericilikdə əksini tapan qaydaya əsasən parlamentə seçilmək hüququndan məhrumdurlar.

Qeyd etmək lazımdır ki, Avropanın demokratik ölkələrində, eləcə də ABŞ-da hakimiyyətin bölünməsi sistemində məhkəmə hakimiyyəti əhəmiyyətli rol oynayır. Məhkəmə hakimiyyəti qanunverici və icraedici orqanların fəaliyyətində qanunçuluğa əməl edilməsinin real təminatçısıdır. Eləcə də qanunverici təsisatla icraedici təsisat arasında mürəkkəb və çətin həll edilən ziddiyyətlər və ixtilaflar təzahür etdikdə, məhkəmə hakimiyyəti ədalətli və obyektiv münsif kimi çıxış edir.

3. Siyasi liderlik

Müasir politoloji ədəbiyyatda siyasi liderlik probleminə böyük diqqət yetirilir, istər-istəməz bu problem şəxsiyyətin siyasətin subyekti kimi öyrənilməsi ilə bağlıdır. liderin cəmiyyətin siyasi həyatında yeri və rolunu, siyasi liderlik fenomeninin əhəmiyyətini yalnız dünyanın tarixi təcrübəsi deyil, eləcə də bu və ya digər ölkədə ictimai-siyasi situasiyanın müasir inkişafı, ölkədə sosial-iqtisadi və mənəvi-ideoloji dəyişikliklərin xarakteri, istiqaməti və dinamikası, cari siyasi proseslərin məzmunu sübut edir.

Liderlik sosial həyatda ümumi fenomen kimi çıxış edir. O, hər yerdə, insanın həyat fəaliyyətinin bütün növlərində: sahibkarlıq sferasında və dini sahədə, partiyaların və həmkarlar ittifaqının fəaliyyətində, dövlət müəssisələrində və qeyri-formal təşkilatlarda, ailə həyatında və kütləvi fəaliyyətdə mövcuddur. Liderliyin müxtəlif təzahürləri arasında öz əhəmiyyətinə görə, siyasi liderlik daha çox fərqləndirilir, buna görə onun mahiyyətinin aydınlaşdırılmasına politoloqlar xüsusi diqqət yetirirlər.

"Lider" anlayışı ingilis dilində "leader" sözündən götürülüb aparıcı, başqa insanları idarə edən, onlara təsir göstərən mənasını ifadə edir. Lakin bu hər cür təsir deyil, məhz elə təsirdir ki, aşağıdakılarla səciyyələnir: birincisi, daim, uzunmüddətli təsirlə, ikincisi, bütün qrupa, təşkilata, cəmiyyətə (və ya onun böyük hissəsinə) təsiri ilə və üçüncüsü, təsiretmənin prioriteti (üstünlüyü) ilə. "Liderlik" anlayışı liderlə idarə olunanların qarşılıqlı münasibətinin mürəkkəb mexanizmini əks etdirir. Deməli, **liderlik** şəxsiyyətin qrupa, təşkilata, cəmiyyətə və ya onun böyük hissəsinə daim prioritet təsiridir. Buradan aydın olur ki, lider təşkilatın və ya sosial qrupun avtoritar üzvü olmaqla, onun şəxsi təsir qabiliyyəti sosial-siyasi proseslərdə əhəmiyyətli rol oynamağa, eləcə də kollektivdə, qrupda, cəmiyyətdə qarşılıqlı münasibətlərin tənzimlənməsinə imkan yaradır.

Liderlik anlayışının başlıca tərkib hissələri bunlardır: birincisi, liderin situasiyanı dəqiq qiymətləndirmək, qarşıda

duran vəzifələrin düzgün həllini müəyyənləşdirmək, hər hansı qərarın yerinə yetirilməsi ilə bağlı, insanların səfərbərliyi məqsədilə onların zəkasına və enerjisinə təsir göstərmək qabiliyyəti. İkincisi, liderlik liderin, bu və ya digər birliyin üzvlərinin xüsusi qarşılıqlı təsir mexanizmi olmaqla, sonuncu onun qərarını və fəaliyyətini fəal müdafiə edir, şüurlu və könüllü surətdə ona tabe olur.

Liderliyin ən müxtəlif növləri arasında siyasi liderliyi fərqləndirən başlıca cəhət onun hakimiyyət fenomeni ilə sıx əlaqə kəsb etməsidir. Siyasi liderlik hakimiyyətin xüsusi növü kimi çıxış edir və buna görə son dərəcə geniş xarakter dayışır. Siyasi liderlik insanların siyasi fəaliyyətinə şəxsi təsir göstərmək qabiliyyətini ifadə etməklə, qrupda, təşkilatda, cəmiyyətdə sosial-siyasi və psixoloji qarşılıqlı münasibətlər və oriyentasiya sistemi ilə şərtlənir. Liderlik insanların birgə fəaliyyətinin təşkilinin obyektiv qanunauyğunluğudur.

Müasir politoloji ədəbiyyatda liderlik anlayışının məzmunu müxtəlif mövqelərdən araşdırılır. Məsələn, bu anlayışın müəyyənləşdirilməsində belə bir fikir vurğulanır ki, liderlikdə başlıca cəhət hakimiyyət qərarlarını qəbul etməyə imkan yaradan idarəetmə statusudur, rəhbərlik vəzifəsidir. Bu, **L.Edinqer** tərəfindən cəhd edilən struktur-funksional yanaşmadır. Liderlik adamları birləşdirən, onu özünəməxsus simvola çevirən fərdi inteqrativ qabiliyyətdir **(V.Amelin)**, siyasi "bazarda" özünəməxsus rəqabət mübarizəsinin nəticəsidir **(C.Oppenheymer)**. Rus politoloqları **V.P.Puqaçev və A.İ.Solovyev** qeyd edirlər ki, liderliyi müəyyənləşdirmək üçün üç başlıca meyar mövcuddur:

- Liderlik hakimiyyətin növlərindən (variantlarından) biri olmaqla, onun spesifikliyi yuxarıdan aşağıya istiqamətlənməsində təzahür edir. Liderliyin daşıyıcısı əksəriyyət deyil, bir nəfərdir və ya şəxslərdən ibarət qrupdur.
- Liderlik idarəetmə statusudur, sosial mövqedir.

- Liderlik digər adamlara təsir göstərməkdir[1].

Jan Blondel qeyd edir ki, "liderlik millətin üzvlərini fəaliyyətə təhrik etmək üçün bir nəfərin bir neçə fərd tərəfindən həyata keçirilən hakimiyyətidir". **Parsons** belə qənaətə gəlir ki, liderlik təsisatı normativ qayda olub, əhatəli liderlik funksiyasını həyata keçirmək üçün səlahiyyətlərin bir neçə yarımqrupa və ya fərdə (siyasi xadimə) verilməsini təmin edir. Siyasi lider subyektdir, mövcud funksiyaların daşıyıcısıdır.

Liderlik kateqoriyasını tam açıqlamaq üçün onun daha bir neçə xarakteristikasına cəhd edilməlidir. Xüsusilə qeyd etmək vacibdir ki, liderlik insanların birgə fəaliyyətinin **təşkilinin obyektiv zəruriliyini** əks etdirir. Əməyin ictimai xarakteri insanların fərdi əmək səylərinin razılaşdırılmasını, əlaqələndirilməsini və tənzimlənməsini nəzərdə tutur. İctimai proseslərin qaydaya salınması və idarə olunmasının bu funksiyasını eləcə də liderlik təsisatı yerinə yetirir. O, şəxsiyyətlərarası münasibətləri idarə edir, insanların fərdi səylərini birləşdirir və əlaqələndirir. Buna görə, liderlik qrup halında, kollektiv fəaliyyətin nəzərə çarpdığı hər yerdə mövcuddur. Liderlik bütün təşkilatların aparıcı əlamətidir. Heç də təəccüblü deyil ki, o bəşəriyyətin özü qədər qədim hadisədir.

Əlbəttə, siyasi liderliyin müəyyənləşdirilməsinə dair birmənalı fikir mövcud deyildir və onun mahiyyəti müxtəlif nöqteyi-nəzərlərdən aydınlaşdırılır. Belə bir fikir mövcuddur ki, siyasi lider fenomenini yalnız şəxsiyyətin başlıca keyfiyyətləri doğurur, o, zəkanın, iradənin, enerjinin, cazibə qüvvəsinin, təşkilatçılıq qabiliyyətinin nəticəsidir. Siyasi liderliyin təhlilinə belə yanaşma **keyfiyyət nəzəriyyəsi** adlandırılan nəzəriyyə üçün səciyyəvidir.

Situasiya konsepsiyasının tərəfdarları isə liderə olan tələbatın başlıca amilini situasiya, cəmiyyət tipi və onun vəziyyəti ilə, ənənələrlə əlaqələndirirlər. Belə halda təbii ola-

[1] В.П.Пугачев, А.И.Соловьев. Введение в политологию. М., 2003, с. 116-117

raq, üstünlük subyektiv amilə, liderin şəxsiyyətinin xarakterinə və xüsusiyyətlərinə deyil, məhz obyektiv şəraitə aid edilir. Siyasi liderlik fenomeninin təhlilinə **vebersayağı** yanaşma daha geniş yayılmışdır. Belə yanaşmada hakimiyyəti həyata keçirən şəxsin nffuzunun təbiət etibarilə aydınlaşdırılması əsas götürülür. **M.Veber** hesab edirdi ki, ənənəvi liderlik inama, adət və ənənələri gözləməyə əsaslanır; harizmalı lideri rəhbərin, gələcəyi görənin xüsusi, fövqəltəbii qabiliyyəti doğurur; bürokratik (legitim) liderlik qanuna və hüquqi normalara əsaslanır, buna görə də onun təbiətində inam və qanun başlıca yer tutur.

Siyasi liderlik çoxcəhətli anlayışdır. Lakin bu anlayışda üç səpki müəyyənedicidir:

- liderin şəxsi keyfiyyətləri;
- onun hakimiyyəti həyata keçirməsi vasitələri;
- liderin üzləşdiyi situasiya.

Həmin üç səpkinin məcmuu siyasi liderin təşəkkülünü, onun fəaliyyətinin effektliyini və səmərəli nəticəsini xeyli dərəcədə müəyyənləşdirir:

"Siyasi liderlik" münasibətləri aşağıdakı ünsürləri özündə birləşdirir.

- Subyektin-liderin hökmranlığı. Bu hökmranlıq liderə təmsil etdiyi qrup, təşkilat tərəfindən ona görə həvalə olunur ki, həmin birliklərin iradəsini həyata keçirsin, başqa sözlə, ümumi mənafe və məqsədlərin həllini təmin etsin;
- Liderin təşəbbüskarlığı. Həmin keyfiyyət kollektiv məqsədlərin həyata keçirilməsi naminə yollar axtarılmasını və bütün resursların səfərbər edilməsini nəzərdə tutur;
- Rəhbərlik münasibəti. Başqa sözlə, subyekt-lider adamların birgə fəaliyyətinə rəhbərlik etməklə, kollektiv fəaliyyət prosesini düzgün, məqsədyönlü səmtə istiqamətləndirməlidir;
- Liderliyin mövcud qrupun, birliyin mənafeyinin xarakterindən, məqsədlərinin məzmunundan asılılığı. Siyasət sosial fəaliyyətin və münasibətlərin təşkil olunmuş prosesi olduğuna görə, kollektiv iradəni həyata keçirənlərin dərin

nüfuza malik olmasını həmişə obyektiv zərurətə çevirir[1]. Əsil siyasət daim razılaşdırılmış mənafelərin yollarının axtarılmasını, meydana çıxan sosial ziddiyyətlərin və münaqişələrin həllini özündə əks etdirir. Liderlik bilavasitə siyasətin yaradıcı mahiyyətindən irəli gəlir"[2].

Siyasi elmə aid müasir ədəbiyyatda liderlik fenomeninin müəyyən meyarlarla şərtlənən təsnifatına cəhd edilir. Siyasi liderliyin təsnifatı tədqiqatçılar tərəfindən başlıca olaraq, aşağıdakı meyarlar əsasında nəzərə çatdırılır: 1. Liderliyin tipinə görə (proqramçı, strateq və icra edən); 2. Fəaliyyətin xarakteri nöqteyi-nəzərdən (universal və situasiyalı); 3. Rəhbərlik üsulu baxımdan (demokratik, avtoritar, anarxist).

Siyasi liderin təsnifatı üçün ümumiləşdirici meyarlardan biri onun qarşıya qoyduğu məqsəddir, cəmiyyətə təsiridir. Bu meyardan çıxış edərək, Amerika politoloqu **R.Takker** siyasi liderin üç tipinin mövcudluğunu nəzərə çatdırır: mühafizəkarlar, islahatçılar, inqilabçılar.

Politoloji ədəbiyyatda siyasi liderliyin digər təsnifatında başlıca meyar kimi, liderliyin idarəetmədə istifadə etdiyi metod əsas götürülür. Həmin meyara uyğun olaraq, tədqiqatçılar bütövlükdə iki idarəetmə metoduna (demokratik və avtoritar) diqqət yetirirlər. Demokratik siyasi lider insanların ləyaqətinə və şəxsiyyətinə hörmətlə yanaşır, onların uğurlar əldə etmələri üçün maksimum imkanlar yaratmağa çalışır. Bu cür liderlər tənqiddən ehtiyat etmir, insanlara xeyirxah münasibət bəsləyir, mənafelərin ümumiliyi üçün şərait yaradır.

Avtoritar siyasi lider isə qeyri-demokratik idarəetmə üsullarına meyl edir, tənqidə yol vermir, güc tətbiq etməyə əsaslanır.

Siyasi liderlik problemini nəzərdən keçirərkən siyasətdə liderin rolunun təhlili xüsusi əhəmiyyət kəsb edir. Siya-

[1] Məcid Əfəndiyev. Siyasi elmin əsasları. S. 274-275

[2] Зеркин Д.П. Основы политологии. Ростов-на Дону. 1997, с. 334

sətdə liderin rolunun aydınlaşdırılması hər şeydən əvvəl, onun funksiyalarının nəzərdən keçirilməsini zərurətə çevirir.

Siyasi liderin ən əhəmiyyətli funksiyası **inteqrativ funksiyasıdır**. Hər bir lider öz siyasi fəaliyyətində insanların əhəmiyyətli qruplarının, ilk öncə isə öz tərəfdarlarının və ardıcıllarının birləşməsini təmin edir. Ümummilli siyasi lider nəinki öz dünyagörüşünə və siyasi mövqeyinə yaxın olan vətəndaşların, eləcə də əhalinin ən geniş təbəqələrinin, böyük ictimai qrupların və siniflərin, bütövlükdə cəmiyyətin birliyinə cəhd etməlidir.

İnteqrativ funksiya cəmiyyətin inteqrasiyasını nəzərdə tutur. Siyasi lider vətəndaşları ümumi məqsədlər və dəyərlər naminə birləşdirməyə səy göstərməklə vətəndaşlara, xalqa xidmət etmək nümunəsi nümayiş etdirməlidir. İnteqrativ funksiyanın xüsusi əhəmiyyəti ondan ibarətdir ki, cəmiyyətin bütövlüyünün və sabitliyinin qorunub saxlanmasına, vətəndaş həmrəyliyinin və razılığının bərqərar olmasına istiqamətlənir. Siyasi lider siyasi və iqtisadi islahatların sosial aspektini aydın və düzgün dərk etməli, cəmiyyətdə kəskin qütbləşmə yaranmasına, müxtəlif münaqişələrin təzahürünə yol verməməlidir.

Siyasi liderin **sosial arbitraj** (sosial mübahisələr həll etmək) **funksiyası** vətəndaşları qanunsuzluqdan, bürokratiyanın özbaşınalığından müdafiə etməyə, qayda və qanunlara əməl edilməsinə yönəlir. Siyasi liderin digər mühüm **funksiyası kütlələrin səfərbər edilməsidir**. Böyük ictimai problemlərin həlli üçün lider vətəndaşların siyasi fəallığını müəyyən məcraya istiqamətləndirməli, onların sosial enerjisini dolğun səviyyəyə çatdırmalı və kütlələrdə sosial nikbinlik əhval-ruhiyyəsi yaratmalıdır.

Liderin öz fəaliyyəti prosesində reallaşdırdığı əhəmiyyətli funksiyalarından digəri **hakimiyyətin legitimliyinin təmin edilməsi funksiyasıdır**. Siyasi lider özünün bütün fəaliyyəti ilə hakimiyyətin nüfuzunu möhkəmləndirməli, tərəfdarlarını maksimum dərəcədə öz proqramına cəlb etməyə nail olmalıdır. Məhz belə halda həm liderlərin öz siyasi xətti

və eləcə də onların təmsil etdikləri siyasi təsisatlar vətəndaşların əksəriyyəti tərəfindən bəyənilir və müdafiə olunur.

Effektli siyasət yeritmək siyasi liderin vacib **funksiyalarından** biridir. Bu funksiya siyasi liderin bütün fəaliyyətinin nəticələrini birləşdirir. Yeridilən siyasətin effektivlik ölçüsü, əslində siyasi liderin ictimai çəkisini müəyyənləşdirir, ölkənin və ya dünya tarixində onun konkret yerini müəyyənləşdirir.

Siyasi praktika təsdiqləyir ki, siyasi lider yuxarıda qeyd edilən funksiyalardan heç birinə etinasızlıq göstərməməlidir. İctimai təbəqələrin və qrupların mənafe və tələbatını nəzərə almaq və bunu öz siyasi proqramında müvafiq surətdə ifadə etmək, onu bütövlükdə cəmiyyətin mənafeyi naminə praktiki cəhətdən reallaşdırmaq lider üçün prinsipial əhəmiyyət kəsb edir.

Təşəbbüskar, yenilikçi funksiya sosial quruculuq naminə siyasi liderin yeni, işgüzar ideyaları şüurlu surətdə həyata keçirməsini ifadə edir. Bu məqsədlə ictimai inkişafın yeni siyasi proqramı və strateji xətti işlənib hazırlanır, siyasi strukturların yeniləşməsi həyata keçirilir. Siyasi lider həmçinin, xalqın adət-ənənələrini qoruyub yaşatmalı, sosial tərəqqini təmin etməli, insanlarda ictimai ideallara və dəyərlərə inam hissi oyatmalıdır. Təşəbbüskarlıq, yenilikçilik funksiyasının miqyaslı yerinə yetirilməsi harizmalı liderə aiddir.

Siyasi liderin **kommunikativ funksiyası** insanların bütün mənafelərinin və tələbatının liderlərin siyasi bəyannamələrində və proqramlarında, həmçinin, əməli fəaliyyətində ifadəsini səciyyələndirir. Siyasi lider ictimai əhval-ruhiyyəni və ictimai rəyi həmişə nəzərə almalıdır. O, kütləvi informasiya vasitələrilə, ilk öncə isə televiziya vasitəsilə xalqla birbaşa ünsiyyətdə olmaq üçün geniş imkanlara malikdir.

Siyasi liderin başlıca funksiyalarının həyata keçirilməsində **onun inam və görüşlər sistemi** çox böyük rol oynayır. Həmin sistemi bunlar təşkil edir: baş verən siyasi proseslərin mahiyyətini, xarakterini və istiqamətini lider necə başa

düşür; ətraf siyasi mühiti hansı səviyyədə aydınlaşdırır; bu və ya digər siyasi təsisatların, ayrıca şəxsiyyətlərin fəaliyyətini necə qiymətləndirir; öz fəaliyyət proqramını formalaşdırmaq üsulları nədən ibarətdir və s. Siyasi liderin əhatəsinə təsir qabiliyyəti, siyasi mövqeyinin aydınlığı, həyata keçirdiyi kursun ardıcıllığı bilavasitə onun inamının qətiyyəti və gücündən asılıdır. Siyasi liderin görüşlərində baş verən hər hansı mühüm dəyişiklik onun öz funksiyalarını effektli yerinə yetirməsinə birbaşa təsir göstərir. Möhkəm inama əsaslanan lider başqalarını öz görüşlərinə inandırmağa qadirdir. Möhkəm olmayan görüşlərə malik rəhbərlər isə daha çox situasiyadan və öz əhatəsindən asılı olan praqmatik kimi çıxış edirlər.

Siyasi liderin fəaliyyətində onun **rəhbərlik üsulu** mühüm əhəmiyyətə malikdir. İctimai və siyasi mühit xeyli dərəcədə liderin siyasi rəhbərlik üsulundan asılıdır. Rəhbərlik üsulu liderlik etmək və liderlik nümunəsi formalaşdırır, liderin öz tərəfdarları və əleyhidarları ilə qarşılıqlı münasibətinin xarakterini müəyyənləşdirir. O, siyasi liderin yaxın əhatəsinin formalaşmasına xüsusi təsir göstərir. Siyasi rəhbərlik üsulunun xarakterik tərəfi demokratik və ya totalitar rəhbərlik metodundan istifadə edilməsidir.

Siyasi liderin konkret fəaliyyətini təhlil edərkən, liderliyin nəticələrinə mühüm təsir göstərə bilən bir sıra digər amillərə diqqət yetirilməsi zəruridir. Politoloqların tədqiqatlarında göstərilir ki, siyasi liderliyin məzmunlu tərəfini başa düşmək üçün liderin səylərinin motivi, siyasi rəhbərin xarici hadisələrə reaksiyası, əldə olunan təcrübə, siyasi liderin xeyirxahlıq istedadı mühüm əhəmiyyət kəsb edir. Siyasi liderliyin xeyli tərəfini başa düşmək üçün liderin xarakterinin müəyyənedici cəhəti böyük əhəmiyyətə malikdir. Siyasi həyatın praktikası göstərir ki, siyasi liderin ictimai və dövlət səlahiyyətlərinə malik olduğu şəraitdə şəxsiyyətinin müəyyənedici keyfiyyəti nəinki dövlətin cari siyasətinə, eləcə də onun nəticələrinə mühüm təsir göstərə bilər. Liderin şəxsiyyətinin elə keyfiyyəti cəmiyyət üçün böyük təhlükə törədə

bilər ki, ictimai və milli mənafeyə qarşı çevrilsin. Bununla bağlı **"təsir agenti"** fenomeninə diqqət yetirilməlidir.

Liderin fəaliyyətinin müvəffəqiyyəti və effektliyi xeyli dərəcədə onun əhatəsindən asılıdır. Hər bir lider onu müdafiə edən və ona bilavasitə yardım göstərən, fikirləri və siyasi proqramı ilə razılaşan insanlar qrupu ilə bağlıdır. Bu insanlar siyasi liderin yaxın əhatəsini təşkil edirlər. Siyasi liderlə onun yaxın əhatəsi arasındakı qarşılıqlı münasibət siyasi qərarların hazırlanması və qəbulu prosesinə, cəmiyyətdə əxlaqi-siyasi mühitin xarakterinə, liderin özünün nüfuzuna mühüm təsir göstərir. Liderin ictimai-siyasi xadimlərlə və sadə vətəndaşlarla sıx əlaqəsi onun məhsuldar siyasi fəaliyyəti üçün vacib şətdir. Şübhəsiz, bütün bu amillər siyasi liderin öz başlıca funksiyalarını reallaşdırmasında ciddi rol oynayır.

Normal siyasi prosesin inkişafı üçün, böyük siyasi xadimin şəxsiyyətinə pərəstiş xüsusi təhlükə törədir. **Şəxsiyyətə pərəstiş** bir nəfərin rolunu həddindən artıq şişirtmək, onun fövqəltəbii keyfiyyətlərə malik olduğunu iddia etmək, tarixi prosesin gedişini onun həlledici təsiri ilə əlaqələndirməkdən ibarətdir. Şəxsiyyətə pərəstiş haqqında o zaman danışmaq olar ki, cəmiyyətdə liderin xüsusi vəziyyətini və ona spesifik münasibəti təsdiqləyən dörd xarakterik cəhət təşəkkül tapır:

- hakimiyyətin həddən artıq siyasi liderin əlində cəmləşməsi;
- lider və ona yaxın olan rəhbərlər tərəfindən, hakimiyyətdən sui-istifadə nəticəsində ölkədə qanunçuluğun pozulması;
- siyasi liderin yaxın əhatəsi tərəfindən təriflənməsi;
- vətəndaşların ən geniş təbəqəsinin ("aşağıların") onun qarşısında kütləvi şəkildə sitayiş etməsi.

Şəxsiyyətə pərəstişin yaranmasının səbəbini aydınlaşdırarkən bu hadisənin obyektiv və subyektiv köklərinə diqqət yetirilməsi zəruridir. Nəzərə almaq lazımdır ki, həmin fenomenin əsasında bütövlükdə hakimiyyətə pərəstiş dayanır. Hakimiyyətə pərəstiş əsasən totalitar rejim şəraitində

tipik hadisə kimi nəzərə çarpır və totalitar tipin öz sisteminin zəruri elementi kimi çıxış edir. Belə pərəstiş hakimiyyətin və müvafiq olaraq, onun daşıyıcılarının və hakimiyyət strukturlarının uydurmaları ilə bağlıdır. Hakimiyyətin hər cür inhisara alınması, siyasi rəqabətin yoxluğu şəxsiyyətə pərəstişin rüşeymlərini özündə saxlayır, çox güclü vertikal strukturun mövcudluğu zəminində hakimiyyətin sərt mərkəzləşdirilməsi isə onun inkişafı üçün ən əlverişli şərait yaradır.

II FƏSİL
Dövlət başlıca siyasi təsisatdır

1. Dövlətin mənşəyi, mahiyyəti və səciyyəvi xüsusiyyətləri

Dövlət cəmiyyətin siyasi sisteminin mərkəzi elementi, siyasi hakimiyyətin başlıca daşıyıcısı kimi çıxış edir. Buna görə o, siyasi fəaliyyətin və siyasi münasibətlərin başlıca subyekti və eyni zamanda əsas obyektidir.

Dövlət təzahür etdiyi andan cəmiyyətin həyatında qarşılıqlı sinfi münasibətlərin və ziddiyyətlərin tənzimlənməsində, şəxsiyyətin hüquq və azadlığının təmin olunmasında böyük rol oynayır. Elə buna görə də fəlsəfi, sosioloji, politoloji ədəbiyyatda dövlət probleminin öyrənilməsinə xüsusi diqqət yetirilir. Dövlət politologiyanın ən fundamental problemlərindən biridir. Onun əhatəli, dərindən tədqiqi digər siyasi təsisatların və bütövlükdə cəmiyyətin siyasi sisteminin mahiyyətinin dərk olunmasına xidmət edir. Dövlətin mənşəyi və mahiyyəti, cəmiyyətlə dövlətin nisbəti, dövlət aparatının fəaliyyəti, şəxsiyyətin və dövlətin qarşılıqlı münasibəti məsələsinə aid müxtəlif mülahizələr yürüdülmüşdür.

Dövlətin tədqiqinə dair üç müxtəlif mövqe təşəkkül tapmışdır: 1. Siyasi fəlsəfi-antik ənənələrdən irəli gələn və dövləti "ümumi işin" həlli, cəmiyyətdə insanların birgə həyatının təmin edilməsi vasitəsi hesab edən fikir istiqaməti (Aris-

totel, Russo və b.); 2. Sinfi-cəmiyyətin siniflərə bölünməsini və sinfi mübarizə vasitələrini doğuran görüşlər; 3. Hüquqi-dövləti hüququn və qanunun mənbəyi kimi qəbul edən ideya istiqaməti.

Dövlətin müasir politoloji təhlili onun mürəkkəblik, çoxfunksiyalılıq, daxili differensiallıq kəsb edən bütövlüyündən doğur. Sistemli nəzəriyyə çərçivəsində dövlət cəmiyyətin siyasi sisteminin və siyasi təşkilinin bir hissəsi, siyasi partiyalarla, ictimai təşkilatlarla, mürəkkəb, çoxqatlı siyasi mühitlə qarşılıqlı fəaliyyətdə olan başlıca siyasi təsisatlardan biri kimi nəzərdən keçirilir. Belə kontekstdə dövlətin cəmiyyətin siyasi sistemindən, sosial-iqtisadi proseslərin xarakterindən və inkişaf meylindən, mənəvi sərvətlərin və qərarlaşan ənənələrin məcmuundan xeyli asılılığı üzə çıxır.

Dövlət məcburetmə mexanizminə, hüquqi sanksiyalara, xüsusi fəaliyyət aparatına əsaslanan, cəmiyyətin siyasi sisteminin başlıca siyasi təsisatı, ümumi hakimiyyət orqanı kimi çıxış edir. Onun müəyyənləşdirdiyi başlıca xətt siniflərin və sosial qrupların mənafelərinin uyğunlaşdırılmasından, ifadəsindən və reallaşdırılmasından ibarətdir. Digər siyasi təsisatlardan fərqli olaraq, dövlət ümumilik kəsb edən əlamətə malikdir, elə buna görə də o nəinki xüsusi, partikulyar eləcə də ümumi mənfeləri ifadə etməyə qadirdir.

Dövlətin genezisi (mənşəyi) problemi həmişə hərtərəfli təhlil predmeti olmuşdur. Politoloji ədəbiyyatda bu məsələ müxtəlif cür şərh edilir.

Dövlət haqqında ən ilk təsəvvür hakimiyyətin ilahi mənşəyi ideyası ilə bağlıdır. **Teokratik konsepsiyalarda** o, "ilahi qüvvənin işi" kimi nəzərdən keçirilir. Qədim Şərq və Yunan xalqlarının miflərində ali hakimiyyət nümayəndələrinin ilahi mənşəyə malik olması göstərilirdi. Dövlətin ilahi mənşəyi məsələsi müasir dinlərdə də etiraf olunur.

Patriarxal nəzəriyyə dövlətin təzahürünü tayfa və qəbilələrin birləşməsinin təbii və üzvi nəticəsi kimi nəzərdən keçirir. **R.Folmarın** fikrincə, tayfa və qəbilələr daha böyük birliklər olmaq etibarilə, cəmiyyət üzvləri üzərində himayəçilik

tələbatından doğan xüsusi təsisatdır. Məlum olduğu kimi, **Konfutsi** dövləti böyük ailə hesab edərək, hökmdarları itaətdə olanlarla məhz bu əsasda qarşılıqlı münasibətlərə çağırırdı. **Antropoloji nəzəriyyə Aristotelin** əsərlərindən çıxış edərək, dövlətin təzahürünü insanın ictimai təbiəti ilə əlaqələndirir. **Aristotel** iddia edirdi ki, insan ictimai (siyasi) və kollektiv varlıq kimi müəyyən birgəyaşayış formalarında mövcud ola bilər, həmin birgəyaşayış formalarından ən yüksəyi isə dövlətdir.

Əsasını ictimai müqavilə ideyası təşkil edən **Müqavilə nəzəriyyəsi** tərəfdarları **(T.Hobbs, C.Lokk, J.J.Russo)** hesab edirlər ki, dövlət insanlar arasında könüllü razılığın məhsuludur. Belə razılaşmanın səbəbini **T.Hobbs** insanın digər adamların təcavüzünə məruz qalmasında, "hamının hamıya qarşı müharibəsinin" kəskinləşdiyi və genişləndiyi şəraitdə həyat və mülkiyyət üçün təhlükə yaranmasında görürdü, Lokk isə dövlətin təzahürünü insanın zəkası və insanların hüququnu təmin edən xüsusi orqana ehtiyac olduğunu dərk etmək qabiliyyəti ilə əlaqələndirirdi.

XIX əsrdə **işğal nəzəriyyəsi** geniş yayıldı **(L.Qumploviç, F.Oppenheymer)**. Bu nəzəriyyəyə görə, dövlətin təzahürünün başlıca səbəbi kimi bəzi xalqların digərlərini işğal etməsi etiraf edildi. Bunun nəticəsində böyük insan qruplarını tabeçilik vəziyyətində saxlamaq üçün xüsusi aparatın mövcudluğuna tələbat yarandı. Şübhəsiz, işğalçılıq müharibələri cəmiyyətdə sinfi münasibətlərin təşəkkülünə imkan yaratdı və müəyyən dərəcədə dövlətin təşəkkülü prosesini şərtləndirdi. Dövlətin mənşəyinə dair **sosial-iqtisadi nəzəriyyə**, eləcə də **marksizm** hesab edir ki, dövlətin təzahürünün başlıca səbəbi əmək məhsuldarlığının inkişafı prosesidir, xüsusi mülkiyyətin yaranması və bu əsasda sosial-sinfi differensasiyanın və sinfi mübarizənin təzahürüdür. Bir sözlə, dövlətin mənşəyi birdəfəlik hadisə deyildir, məhz ibtidai özünü idarənin tənəzzülünün uzun prosesidir.

Dövlətin təkamül prosesi yalnız onun təşkili formalarını deyil, həmçinin mahiyyət etibarilə, xeyli keyfiyyətlərini

böyük dəyişiklikliyə düçar etdi. Dövlət öz inkişafının ilk mərhələlərində **ənənəvi** formada çıxış etmişdir, adət və normalar əsasında kortəbii formalaşmışdır. Bu zaman dövlətin təsisatlı başlanğıcı inkişaf etməmiş səviyyədə təzahür etmişdir, onun bəzi funksiyaları müəyyənləşməmişdi, şəxsiyyət dövlət hakimiyyətinin mənbəyi kimi nəzərdən keçirilmirdi.

Beləliklə, qeyd etmək olar ki, dövlət **genetik cəhətdən** (mənşə etibarilə) cəmiyyətin tarixi inkişafının, onun differensasiyasının və sinfi ziddiyyətlərin təzahürünün məhsuludur, **funksional baxımından** o, cəmiyyətin bütövlüyünü təmin edir, hakim siniflərin (dairələrin) mənafeyinin müdafiəçisidir, **struktur nöqteyi-nəzərdən** hakimiyyətin fəaliyyətinin forma və üsullarını, idarəetmə aparatının xüsusiyyətlərini möhkəmləndirir.

Dövlətin mahiyyətli əlamətləri bunlardır: 1) nəinki coğrafi, həmçinin siyasi kateqoriya olmaq etibarilə, müəyyən ərazi və sərhədin mövcudluğu; 2) dövlətin əhaliyə, vətəndaşlara malik olması. Ərazinin həcmi və əhalinin sayı dövləti kiçik, orta, böyük dərəcələrə ayırmağın əsaslarına xidmət edir; 3) əhali üçün məcburi olan vergilərin yığılması dövlətin müstəsna hüququdur. Vergilər ordunun, dövlət aparatının saxlanmasına, sosial, mədəni və təbii ehtiyatların saxlanmasına sərf edilir; 4) xüsusi məcburetmə aparatının və məmurların mövcudluğu. Dövlət elə xüsusi şəxslər təbəqəsindən ibarətdir ki, məhz hakimiyyəti öz əlində mərkəzləşdirir.

Siyasi hakimiyyət dövlət sayəsində və onun vasitəsilə suverenliyi, başqa sözlə, ölkə daxilində aliliyi və xaricdən qeyri-asılılıq kimi öz mühüm cəhətlərini reallaşdırır. Dövlət hakimiyyətinin bu xüsusiyyəti birincisi, onun dövlət aparatı kimi məcburetmə vasitəsinə malik olmasından, ikincisi isə hökmranlığını hüquq normalarının köməyilə reallaşdırmasından irəli gəlir. Dövlət ictimai həyatı tənzimləyən və hamı üçün məcburi xarakter daşıyan hüquqi yaradıcılıq, qanunların hazırlanması kimi çox mühüm funksiyaları yerinə yetirir. Bu təsisat cəmiyyətin bütün təşkilatlarının fəaliyyətini

reqlamentləşdirir (qaydaya salır), həmin fəaliyyətin əsas formalarını, onun metodlarını, qeyri-dövlət orqanlarının səlahiyyətlərini müəyyənləşdirir. **Veberin** qeyd etdiyi kimi, zorakılıqdan **qanuni** istifadə edilməsi yalnız dövlətə xasdır.

Qərb politologiyasının çox görkəmli nümayəndəsi **M.Dyuverje** dövlətin digər ünsiyyət formalarından fərqləndiyini şərtləndirən iki meyarın mövcudluğunu göstərir: 1. Xüsusi güclü təşkilat; 2. Onün üzvlərinin intensiv həmrəyliyi. O, dövlət təşkilatının qeyri-dövlət təşkilatlarından üstünlüyünü üç münasibətdə görür: 1. İdarəetmə strukturları arasında əmək bölgüsu (qanunverici, inzibati, məhkəmə); 2. İtaətdə saxlamağa imkan yaradan tam və mütəşəkkil sanksiyalar sisteminin mövcudluğu; 3. Özünün bütün qərarlarının həyata keçirilməsi üçün maddi gücə malik olması, çünki yalnız o, polisə, orduya malikdir. Rus alimi **Berdyayev** qeyd edirdi ki, dövlət ona görə mövcud deyildir ki, yer kürəsini cənnətə çevirsin, onun üçün lazımdır ki, yer kürəsinin tamamilə cəhənnəmə çevrilməsinə imkan verməsin.

Bir sözlə, **dövlət cəmiyyətdə siyasi hakimiyyətin təşkili və həyata keçirilməsi formasıdır, o, xüsusi aparatın köməyilə, fərdin və cəmiyyətin mövcudluğunun əsasını həqiqətən təmin edən spesifik siyasi təsisatdır.**

Müasir **konstitusiyalı** dövlət insanın şüurlu fəaliyyətinin nəticəsi, siyasi davranışın və vətəndaş hüququ sisteminin hüquqi cəhətdən nizama salınmasını təmin edən təsisat kimi çıxış edir. Xüsusi siyasi birlik olmaq etibarilə, dövləti cəmiyyətin siyasi sisteminin digər təsisatlarından fərqləndirən spesifik keyfiyyətlər aşağıdakılardır:

- ümumilik – dövlət cəmiyyətin bütün üzvlərinin mənafeyini ifadə etməlidir;
- dövlət orqanizminin bütün tərəflərinin fəaliyyətini tənzimləyən hüquq normalarının bütün sistemi vasitəsilə, dövlətin fəaliyyətinin formalaşmasının xüsusi dərəcəsi;
- siyasi hakimiyyət dövlətdə özünün xüsusi, təmərküzləşmiş ifadəsini tapır. Hər bir ictimai problemin həlli birbaşa və ya dolayısı ilə dövlətlə bağlıdırsa, o, siyasi xarak-

ter kəsb edir;

- mürəkkəb sosial məsələləri yüksək səviyyədə həll etmək qabiliyyəti (bunun üçün dövlət maksimum resurslara malik olmalıdır);

- dövlət digər siyasi təsisatlarla müqayisədə daxili strukturunun daha yüksək differensiallaşması və ixtisaslaşması səviyyəsinə malikdir.

Həmin keyfiyyətlər və dövlətə xas olan digər mühüm cəhətlər hakimiyyətin başlıca təsisatının (dövlətin) mahiyyətini ifadə edir. Dövlətin mahiyyətinin və başlıca parametrlərinin başa düşülməsi dövlətlə vətəndaş cəmiyyətinin nisbəti probleminin aydınlaşdırılmasına imkan yaradır. Bu problem mühüm siyasi əhəmiyyət kəsb edir, çünki onun həlli vasitəsilə ictimai həyatın dövlət tərəfindən tənzimlənməsinin real həcmini dərk edə bilərik, eləcə də vətəndaşın şəxsi həyatı sferasına dövlətin təsirinin həddini və imkanlarını müəyyənləşdirmək mümkündür.

Vətəndaş cəmiyyəti dövlətlə bərabər elə sosial məkanın bir hissəsini təşkil edir ki, insanın həyat fəaliyyəti buradan sızılır. O, özündə **qeyri-dövlət əlaqələrinin və muxtar fərdlərin münasibətlərinin məcmuunu birləşdirir**. Vətəndaş cəmiyyəti sferasının ayrılığının başlıca meyarı, özünüidarə və özünü təşkilin başlanğıcında inkişaf edən insanların qarşılıqlı sosial münasibətlərinin müəyyən sahəsinin dövlətdən "ayrılmasıdır".

Vətəndaş cəmiyyəti çərçivəsində formal məhdudlaşdırma imkanları, insanın həyat fəaliyyətinə birbaşa müdaxilə və onun siyasi-hüquqi tənzimlənməsi minimuma endirilir. Ailə həyatı, azad iqtisadi seçim şəraitində gündəlik təsərrüfat fəaliyyəti, dini fəaliyyət, ənənəvi gündəlik norma və adətlərin gözlənilməsi, dostluq əlaqələri və ünsiyyət məhz vətəndaş cəmiyyəti sferasına aiddir. Real həyatda insan həm vətəndaş cəmiyyətinin üzvü, eləcə də dövlətin vətəndaşı və siyasi birliyin təmsilçisi kimi çıxış edir. İnsan xüsusi şəxs kimi siyasətdən təcrid olunur, lakin vətəndaş kimi, istər-istəməz onunla bu və ya başqa cür bağlıdır.

Vətəndaş cəmiyyətinin əsasını fərdin iqtisadi azadlığı, iqtisadi və siyasi hakimiyyət arasındakı həddi, insanın həyat fəaliyyəti mənbələrinin müxtəlifliyi və iqtisadi seçim azadlığı təşkil edir. Vətəndaş cəmiyyətinin miqyası və hüdudu, onun inkişaf səviyyəsi xeyli dərəcədə dövlətdən asılıdır. Demokratik dövlət mənasız qəyyumluqdan uzaqlaşır, şəxsi həyat fəaliyyəti formaları üçün əlverişli şərait yaradır. Totalitar (avtoritar) dövlət isə əksinə, vətəndaş cəmiyyətinin normal fəaliyyətinə mane olur, onun sferasını son dərəcə məhdudlaşdırır.

Dövlətlə vətəndaş cəmiyyətinin prinsipial fərqi onların strukturunda ifadə olunur. Belə ki, əgər dövlət dəqiq ifadə edilən igerarxiyalı vertikallıq kəsb edirsə, vətəndaş cəmiyyətinin strukturu horizontal xarakter daşıyır, istər-istəməz o subordinasiyaya (tabeçiliyə) malik olmayan horizontal xarakter kəsb edir.

Dövlət və vətəndaş cəmiyyəti öz mövcudluq üsullarına görə də fərqlənirlər: dövlət nəinki demokratik və eləcə də totalitar (avtoritar) simaya malikdir, vətəndaş cəmiyyətinə isə daxilən demokratik başlanğıc xasdır. Şəxsi özfəaliyyət və özünütəşkil vətəndaş cəmiyyətinin daxili xarakteristikasıdır. Həyatın dövlət və qeyri-dövlət sferaları yalnız prinsipial fərqlərlə səciyyələnmir. Dövlət və vətəndaş cəmiyyəti arasındakı qarşılıqlı münasibətlər münaqişəli xarakter də kəsb edə bilər, buna görə siyasi inkişaf şəraitindən (daxili və beynəlxalq, ekstremal və normal və s.) asılı olaraq, onların arasında ziddiyyətlər zəifləyə və ya güclənə bilər. Lakin son nəticədə dövlət və vətəndaş cəmiyyəti arasındakı qarşılıqlı münasibət onunla səciyyələnir ki, həyatın bu iki sferasından hansı özünüinkişaf və özünüaktuallaşdırma üçün daha çox əlverişli şərait yaradır. Xeyli mütəfəkkirlər hesab etmişlər ki, dövlət vətəndaş cəmiyyətindən yüksəkdə dayanmamalıdır və ona nəzarət etməməlidir, əksinə, vətəndaş cəmiyyəti dövlət üzərində üstünlük təşkil etməlidir (Qeyd edək ki, IV bölmənin V fəsli məhz vətəndaş cəmiyyətinə həsr edilib).

Cəmiyyətin siyasi sistemi vahid normativ dəyərlər əsa-

sında təşkil olunan siyasi subyektlərin qarşılıqlı fəaliyyətinin məcmuudur. Siyasi sistemin özəyini təşkil edən dövlətin özü də sözün geniş mənasında insanlar arasındakı əlaqədir, yeganə ali hakimiyyətə tabe olan siyasi birlikdir. Dövlət insanların davranışının məcburi surətdə tənzimlənməsini nəzərdə tutan və normalar sistemi əsasında idarə olunan təşkilatdır. Onun başlıca məqsədi ümumi mənafeyi və ümumi iradəni ifadə etməkdən, insan hüquqlarını və azadlıqlarını qorumaqdan ibarətdir.

Müasir dövlət insanın ümumi hüquqlarını, ən başlıca sosial-siyasi və hüquqi dəyərləri təmin edən təsisatlarsız təsəvvürə sığan deyil. Siyasi birlik olmaq etibarilə, dövlət vahid iqtisadi və mədəni məkan xaricində ola bilməz. Dövlət eləcə də müasir dünya birliyi çərçivəsində mövcuddur və fəaliyyət göstərir. Dövləti cəmiyyətlə eyniləşdirmək cəhdləri yolverilməzdir. Cəmiyyət daha geniş anlayışdır. Dövlət cəmiyyətin bir hissəsidir, onun siyasi və sosial təşkili formasıdır. Bir sözlə o, cəmiyyətin başlıca siyasi təsisatı olmaq etibarilə, insanlar arasında tarixən qərarlaşan siyasi, sosial-siyasi əlaqələr və hüquqi münasibətlər sistemidir.

Qeyd etmək lazımdır ki, müvafiq normativ qaydalara və iqtisadi kompleksə malik olmadan müstəqil suveren dövlətin mövcudluğu qeyri-mümkündür. Dövlət konkret məkan-zaman çərçivəsində mövcud olan kollektiv fenomendir[1].

Dövlətin bütün inkişaf mərhələləri və tipləri bir sıra sabit, ümumtarixi əlamətlər və funksiyalarla səciyyələnir: hər hansı sosial-sinfi zəmində idarə edən dairələrin formalaşmasının həyati zəruriliyi. Bu zəmində müasir dövlətlərdə siyasi partiyaların, ictimai hərəkatların, hakimiyyətin seçkili subyektlərinin hesabına cəmiyyətin demokratikləşməsi meyli güclənir; siyasi təşkilin səciyyəvi mövcudluğu – siyasi sistemlər, mərkəzi və periferiya hakimiyyətinin strukturu və onların arasındakı münasibət; dövlətin yeritdiyi xarici siya-

[1] Санестабен Л. Государство и общество. Диалог, 1993, № 5-6

sətlə əlaqədar onun ərazisindən kənarda siyasi məkanın genişlənməsi zəruriliyi; ölkə və xalq arasında bir sıra öhdəliklərin yerinə yetirilməsi. Başqa sözlə, ölkə daxilində əmin-amanlığın və qaydaların qorunması, hakimiyyətə mənsub olan ərazinin müdafiəsi, sosial, milli, iqtisadi münasibətləri tənzimləmək, ümumi rifah məqsədlərini və vəzifələrini diqqətdən yayındırmamaq; hamı üçün mütləq xarakter kəsb edən qanunlar qəbul etmək, büdcə siyasətini həyata keçirmək, müxtəlif təyinatlı silahlı qüvvələr yaratmaq, saxlamaq və bundan istifadə etmək, xarici siyasəti həyata keçirmək və dövləti xarici ölkələrdə təmsil etmək hüququ və s. Beləliklə, dövlət milli və çoxmillətli durumun yaratdığı və müəyyən ərazidə möhkəmlənən siyasi təsisatdır.

2. Dövlətin formaları. Dövlət hakimiyyətinin fəaliyyət mexanizmi

Dövlətin tipləri və formaları böyük müxtəliflik kəsb edir. Bu müxtəliflik tam şəkildə tarixi inkişafda təzahür etmişdir və 200-dən artıq dövlətin mövcud olduğu müasir dövrdə də nəzərə çarpır. Dövlətin təsnifatı müxtəlif əlamətlər və zəmin əsasında həyata keçirilə bilər. Marksizm təlimində dövlətin təsnifatı üçün başlıca və əslində yeganə meyar onun sosial-iqtisadi, sinfi mahiyyəti götürülür. Bu baxımdan dövlətin quldarlıq, feodal, burjua, sosialist, eləcə də kapitalizmə və ya sosializmə keçid oriyentasiyalı (bu, əsasən, XX əsrin 60-80-ci illəri üçün səciyyəvi olmuşdur) tipləri müəyyənləşdirilir. Əlbəttə, dövlətin tiplərinə belə formasiyalı münasibət müasir qərb politologiyası üçün səciyyəvi deyildir, həmin mövqe daha çox rus ədəbiyyatında nəzərə çarpır. Marksist təsnifat müəyyən əsasa malik olsa da, dinamikliktən məhrumdur, ehkamçılığa sövq etməklə, real gerçəkliyin kobudlaşdırılmasına istiqamətlənir.

Dövlətin tiplərinin təsnifatına formasiyalı münasibətlə yanaşı, sivil mövqedən münasibət də diqqəti cəlb edir. Sivil yanaşmanın əsasını ictimai inkişafın mənəvi-əxlaqi və mə-

dəni amilləri təşkil edir. Həmin amillər cəmiyyətin sosial və dövlət həyatına güclü təsir göstərir. İngilis tarixçisi və filosofu **A.Toynbi** "Tarixin dərk edilməsi" adlı fundamental əsərində yazır ki, "mədəniyyət elementi sivilizasiyanın ruhunu, qanını, limfasını, mahiyyətini təşkil edir, onun iqtisadi, xüsusilə siyasi planda müqayisəsi sivilizasiyanın təbiətinin və hərəkətverici qüvvələrinin təbiətinin sanki süni, adi, əhəmiyyətsiz səviyyədə yaradılmasıdır".

Tarixi proses bir-birindən nəinki dəyərlər sisteminə, hakim mədəniyyətinə və eləcə də səciyyəvi dövlət tiplərinə görə fərqlənən xeyli sivilizasiyanın təşəkkülünə gətirib çıxarmışdır: yerli (lokal) sivilizasiya və dövlət tipləri (qədim misir, şumer, ellin və s.); xüsusi sivilizasiya və dövlət (Hind, Çin, Qərbi Avropa, Şərqi Avropa, İslam və b.); müasir sivilizasiya.

Ali hakimiyyət təşkili üsuluna görə **dövlət, monarxiya** və **respublikaya** ayrılır. Hazırda dünya dövlətlərinin üçdə biri monarxiya formasında mövcuddur, bunların əksəriyyəti məhdudlaşdırılmış konstitusiyalı monarxiya kimi çıxış edir. Monarxiyada dövlət başçısı irsi qaydada müəyyənləşir, belə vəziyyət heç bir dövlət orqanından və əhalidən asılı olmayaraq qərarlaşır. Konstitusiyalı monarxiyada hökmdarın hakimiyyəti Konstitusiya ilə məhdudlaşdırılır. Belə idarəetmə forması Böyük Britaniyada, Belçikada, Niderlandda, İsveçdə, Norveçdə, Danimarkada, İspaniyada, Yaponiyada mövcuddur. Burada hökmdarın hakimiyyəti qanunvericilikdə yayılmır və idarəetmə sferasında xeyli məhdudlaşır. Hökmdar daha çox nümayəndəlik funksiyalarını yerinə yetirir. Belə dövlətlərdə parlament və hökumət xeyli vəzifə həyata keçirir.

Respublikalarda dövlət hakimiyyətinin yüksək orqanlarının formalaşması seçkilər vasitəsilə baş verir. İcraedici hakimiyyətin başçısı sayılan prezidentin seçildiyi respublikalar (ABŞ, Fransa və b.) prezidentli respublika hesab olunurlar. Parlament tərəfindən formalaşdırılan icra hakimiyyətinin hökumətə məxsus olduğu respublikalar par-

lamentli respublika adlanır (İngiltərə, Almaniya, İtaliya və b.).

Məhdudlaşdırılmış monarxiyadan parlament idarəçiliyi formasına keçiddə icraedici hakimiyyətin dualist forması təşkil olunur: 1. Dövlət başçısı – hökmdar (İngiltərədə, Norveçdə, İsveçdə, İspaniyada və b.) və ya respublika prezidenti (Fransa, Finlandiya, Meksika) parlament qarşısında məsuliyyət daşımır. 2. Baş nazirin rəhbərliyi altında parlament tərəfindən yaradılan və bu parlament qarşısında məsuliyyət daşıyan hökumətin ondan asılı olmaması.

Dövlət forması hakimiyyətin ərazi və sinfi siyasi təşkilinin xarici təzahürüdür və özündə üç elementi birləşdirir: ərazi quruluşu, idarəetmə forması və siyasi rejim. Dövlətin ərazi quruluşu mərkəzi və yerldi dövlət orqanlarının əlaqəsini, dövlətin ayrı-ayrı hissələrinin öz aralarındakı və bütövlükdə dövlətlə münasibətlərini əks etdirir. Bu əlamətə görə iki başlıca forma – unitar və federativ dövlət və keçid forma-konfederasiya fərqləndirilir.

Unitar dövlət – (unitar – latın dilində "unis" sözündən götürülüb bir, vahid deməkdir) vahid konstitusiyaya və vətəndaşlığa, ali hakimiyyətin vahid orqanları sisteminə malik olması və ölkənin bütün ərazisində məhdudlaşdırılmayan fəaliyyəti ilə səciyyələnir. Bir qayda olaraq bu, mono (vahid) milli dövlətdir. Əgər unitar dövlətdə digər millətlərin nümayəndələri mövcuddursa, onların problemi muxtar birliklərin (Böyük Britaniya, İspaniya, Finlandiya və b. buna misal ola bilər) köməyilə həll olunur. Belə dövlətdə bütün dövlət aparatının mərkəzləşdirilməsi həyata keçirilir və yerli orqanların nəzarəti altında birbaşa və yaxud dolayı yolla tətbiq edilir. Mərkəzi hakimiyyətin yerli orqanlar üzərində hansı nəzarəti həyata keçirməsindən asılı olaraq, mərkəzləşdirilmiş və yerli unitar dövlət fərqləndirilir. Burada vahid məhkəmə sistemi həyata keçirilir, birkanallı vergi sistemindən istifadə edilir.

Federasiya – (latın dilində "fedus" sözündən götürülüb ittifaq, birlik mənasını ifadə edir) federal qanunvericilikdə nəzərdə tutulan məsələlərin həllində müəyyən müstəqillik

səlahiyyətlərinə malik bir neçə dövləti və ya dövlət birliklərini (ştatlar, respublikalar, torpaqlar, kantonlar, mahallar və s.) birləşdirən ittifaq dövlətidir. Federasiyanın ərazisi federasiya subyektlərinin ərazisindən ibarətdir, buna baxmayaraq həmin subyektlər tam suverenliyə malik deyildirlər, federasiyanın tərkibindən çıxmaq hüququndan məhrumdurlar. Federasiyada dövlət aparatının iki səviyyəsi mövcuddur: federal ittifaq və respublika (ştatların, kantonların, torpaqların səviyyəsi), burada iki palatalı federal parlament yaradılır, həmin palatalardan biri federasiya subyektlərinin mənafeyini əks etdirir. Onun formalaşması üçün əhalinin sayından asılı olmayaraq, bərabər nümayəndəlik prinsipindən istifadə edilir. Federasiyada ikili vətəndaşlıq mövcul ola bilər, federasiyanın üzvləri öz konstitusiyasına və ya nizamnaməsinə malik ola bilər, bununla belə ümumi federal qanunun federasiya subyektlərinin qanunu üzərində aliliyi prinsipi məcburidir. Federasiya subyektləri özünün məhkəmə sisteminə malikdir, ikikanallı vergi sistemindən istifadə edilir: federal vergi və federasiya subyektlərinə aid olan vergi. Hər bir federasiya üçün başlıca məsələ ittifaqla federasiya subyektləri arasında səlahiyyətlərin həddinin dürüst müəyyənləşdirilməsidir. Federasiya ərazi-inzibati əlamət (ABŞ) və ya milli ərazi əlaməti (SSRİ), eləcə də qarışıq əlamət (indiki Rusiya) üzrə təşkil olunur. Ərazi federasiyası federasiya subyektlərinin dövlət suverenliyinin xeyli dərəcədə məhdudlaşdırılması ilə səciyyələnir (federasiyadan çıxmaq hüququ yoxdur və s.). Milli federasiya bir neçə millət və xalqın mövcudluğu ilə bağlıdır, belə federasiya böyük suverenliyə malikdir (ərazi federasiyası ilə müqayisədə). Burada millətlərin öz müqəddəratını təyin etmək məsələsi kəskin şəkildə nəzərə çarpır.

Konfederasiya – müstəqil dövlətlərin daimi (bəzən müvəqqəti) ittifaqı olub, onların ümumi məqsədlərini təmin etmək üçün yaradılır. Konfederasiya özünün ümumi qanunvericilik, icraedici və məhkəmə orqanlarına malik deyildir. Onun üzvləri suverenliyini, vergi sistemini, ordusunu, və-

təndaşlığı (İsveçrə) saxlayır. Bir qayda olaraq konfederasiya uzunmüddətli olmur və dağılır və ya federasiya şəklində təşkil olunur (Almaniya ittifaqı 1815-1867, ABŞ 1781-1787 və s.).

Dövlətin spesifikliyi və tarixi zəruriliyi əyani şəkildə daha çox onun funksiyalarında təzahür edir. "Dövlətin funksiyası" termini dövlətin fəaliyyətinin başlıca, daha əhəmiyyətli istiqamətlərini ifadə etmək üçün tətbiq edilir. Funksiya dövləti statikada yox, dinamikada səciyyələndirir. Dövlətin funksiyaları obyektivlik kəsb edir, onlar dövlətin tiplərindən, onun qarşısında duran başlıca vəzifələrdən asılı olaraq müəyyənləşdirilir və bu vəzifələrin reallaşdırılması vasitəsi kimi səciyyələnir.

Dövlətin fəaliyyətinin istiqamətləri ictimai həyatın hansı sferalarına nüfuz etməsindən asılı olaraq, daxili və xarici funksiyalara ayrılır. Fəaliyyət müddətinə görə dövlətin daimi və müvəqqəti, bəzən isə əsas və qeyri-əsas funksiyalarının mövcudluğu nəzərə çatdırılır. Hakimiyyət orqanları üzrə qanunverici, icraedici və məhkəmə hakimiyyəti funksiyaları mövcuddur. Ümumsosial və sinfi funksiyaların mövcudluğu da diqqətdən yayınmır. Ümumsosial funksiyalara milli təhlükəsizliyin təmin edilməsi, təbii fəlakətin nəticələrinin və ekoloji partlayışın aradan qaldırılması, əhalinin sağlamlığı, əmək qabiliyyəti olmayanların sosial təminatı, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi və s. ilə bağlı sosial proqramların reallaşdırılması aid edilir.

Elmi ədəbiyyatda dövlətin funksiyalarının təsnifatı iki parametr üzrə aparılır: daxili və xarici funksiyalar. Daxili funksiyalara aiddir:

1. Dövlət quruluşunun və vətəndaşların təhlükəsizliyinin, qanunvericiliyin və hüquq qaydalarının təmin edilməsi;

2. Mülkiyyətin iqtisadi əsasının, formasının qorunması və tənzimlənməsi;

3. Sosial münaqişələrin, sinfi-qrup halında ziddiyyətlərin tənzimlənməsi, vətəndaşların və sosial qrupların mənafe və tələbatının təmin olunması;

4. maarif və mədəniyyət sferasının tənzimlənməsi, ideoloji-tərbiyə işinin təmin edilməsi;

5. Etnik qrupların münasibətlərinin nizama salınması;

6. Demoqrafik və ekoloji proseslərin tənzimlənməsi.

Başlıca xarici funksiyalar isə bunlardır:

1. Beynəlxalq münasibətlərin bütün sferalarında dövlətin mənafeyi və suverenliyinin qorunması;

2. Beynəlxalq təşkilatların, ittifaqların, birliklərin bütün sferalarında iştirak etmək vasitəsilə cəmiyyətin və dövlətin mənafeyinin reallaşdırılması.

Dövlətin funksiyalarının daha çox üstünlük təşkil etməsi baxımdan sosial, hüquqi, hərbi funksiyalar ön plana çəkilir.

Müasir şəraitdə dövlətin iqtisadi funksiyasının rolu artır. Bu funksiya iqtisadi münasibətlərin tənzimlənməsi ilə bağlıdır. Həmin münasibətlərin əsasını mülkiyyət münasibətləri təşkil edir. Xüsusi kapitalist təsərrüfatı şəraitində ilk vaxtlar dövlətin iqtisadiyyata qarışmasının zəruriliyi inkar edilirdi. Hazırda bazar mexanizminin iqtisadiyyatı tənzimləməsi imkanlarının məhdudlaşmasını nəzərə alaraq, demokratik dövlət təsərrüfat fəaliyyəti sferasına fəal müdaxilə edir.

Dövlət çoxsaylı funksiyalarının həyata keçirilməsini, cəmiyyətin siyasi cəhətdən idarə olunmasını peşəkar məmurlardan ibarət çoxsaylı dövlət aparatının vasitəsilə reallaşdırır. Ənənəvi olaraq, dövlət hakimiyyətinin üç başlıca qolu fərqləndirilir: ayrı-ayrı ölkələrdə müxtəlif cür təşkil edilən və adlandırılan qanunverici, icraedici və məhkəmə hakimiyyəti.

Müasir dövlətin təşkilati strukturuna müvafiq olaraq, dövlət aparatının beş ünsürü müəyyənləşdirilir: 1. Nümayəndəli orqanlar; 2. İcraedici-sərəncam verən orqanlar; 3. Məhkəmə orqanları; 4. Prokuror nəzarəti orqanları; 5. Dövlət nəzarəti orqanları.

Qərb siyasi nəzəriyyəsində dövlət hakimiyyətinin təşkilinə aid iki konsepsiya mövcuddur: 1. Üç hissədən ibarət

olan hakimiyyətin bölünməsi doktrinası (Ş.Monteske) və 2. Nümayəndəli hakimiyyət şəklində hakimiyyətin bölünməzliyi (vahidliyi doktrinası).

Cəmiyyətin siyasi sabitliyi xeyli dərəcədə hakimiyyətin bütün qollarının qarşılıqlı münasibətlərindən, onların səlahiyyətlərinin ciddi bölünməsindən, əməli işdə fəaliyyətlərinin uyğunluğundan asılıdır. Burada siyasi lider, peşəkar zəmində çalışan dövlət aparatı işçiləri, öz qarşılıqlı münasibətlərini razılaşma və kompromis əsasında təşkil etməyi bacaran və arzu edən siyasi partiyalar və hərəkatlar böyük rol oynayırlar. Dövlət hakimiyyətinin nüfuzu, siyasi və digər problemlərin uğurlu həlli dövlət aparatının necə işləməsindən, məmurların peşə hazırlığından, əhalinin dövlət hakimiyyətinin fəaliyyətini, məsuliyyətini qiymətləndirməsindən çox asılıdır.

Yeni və ən yeni siyasi tarix dövlət aparatının, dövlət hakimiyyəti təsisatlarının fəaliyyətində iki başlıca meylin mövcudluğunu təsdiqləyir: a) nümayəndəli və məhkəmə hakimiyyətinin ziyanına icraedici hakimiyyətin gücləndirilməsi; b) dövlət aparatının bürokratikləşməsi prosesinin güclənməsi.

Bürokratizm – (latın dilində büro-stol, yunan dilində kratiya – hakimiyyət deməkdir, hərfi mənada stol hakimiyyəti kimi mənalanır) icraedici hakimiyyətin mərkəzinin cəmiyyət üzvlərinin iradəsindən ayrılmasına əsaslanan korporativ idarə sisteminin iyerarxiyalı təşkilidir. Bürokratiya müxtəlif sferalarda dövlətin və cəmiyyətin fəaliyyətində məmurluğun formal və qeyri-formal əlaqələrinin məcmuuna əsaslanan faktiki hakimiyyət sistemidir.

Qeyd etmək lazımdır ki, aparatın öz-özünə mövcudluğu, hələ bürokratiyanın və mühafizəkarlığın zəruriliyindən danışmaq demək deyildir. Hər bir sistem, cəmiyyət isə xüsusilə müəyyən hökmranlığı tələb edir, digər halda hərcmərclik və xaosun baş verməsi təbiidir. Aparat (dövlət hakimiyyəti) ictimai orqanizmi qaydaya salır, ona sabitlik təlqin edir, müxtəlif həlqələrin uzlaşmasını təmin edir, intizamı

möhkəmləndirir və meydana çıxan ziddiyyətlərin həllinə imkan yaradır. Bürokratiya və mühafizəkarlıq o zaman ağalıq üsuluna çevrilir ki, məmurların məsuliyyətsizliyi öz həddini aşır. Bürokratiya adətən, demokratiyanın təzahür etmədiyi və zəiflədiyi dövrdə inkişaf edir. **R.Lüksemburq** qeyd edirdi ki, bürokratiya həyatın fəal ünsürünə o zaman çevrilir ki, hər bir ictimai təsisatda həyat zəifləyir və ya yox olmağa başlayır.

Bürokratiya dövlət aparatının strukturunda xüsusi qapalı mühiti təşkil edir. O, praktiki olaraq özünü dövlətlə, öz mənafeyini isə dövlətin mənafeyi ilə eyniləşdirir. Bürokratiya üçün dövlət məsələləri dəftərxana məsələlərinə, dəftərxana məsələləri isə dövlət məsələlərinə çevrilir. Onun iyerarxiyası bilik, informasiya iyerarxiyasıdır. **Bürokratiyanın yeganə ideologiyası vəzifəpərəstlikdir – mənsəbpərəstlikdir.**

Qərb politologiyasında bürokratiya fenomeni **Maks Veber** tərəfindən nəzərdən keçirilmişdir. O, bu fenomenə pozitiv münasibət bəsləyərək hesab edir ki, bürokratiya hakimiyyətin həyata keçirilməsinin ən rasional formasıdır, ümumiyyətlə, idarəetmənin rasionallığının təcəssümüdür. Bununla yanaşı, **Veber** bildirirdi ki, bürokratiyanın hər yerdə inkişafının zəruriliyi şəxsiyyətin susdurulmasına, onun şəxsiyyət başlanğıcının itirilməsinə gətirib çıxarır ki, biz hazırda bunu praktiki olaraq bütün ölkələrdə müşahidə edirik.

Veberin fikrincə, bürokratik təşkilat bunlarla səciyyələnir: 1. Təşkilatın üzvləri arasında ciddi şəkildə bölüşdürülən vəzifələrlə şərtlənən effektivlik. Bu, rəhbər vəzifələrdə yüksək ixtisaslı mütəxəssislərdən istifadə etməyə imkan yaradır; 2. Rəhbərlik edən şəxslərin tabelikdə olan üzərində nəzarətinin həyata keçirilməsinə imkan yaradan hakimiyyətin ciddi iyerarxiyalaşması; 3. Formal surətdə və dəqiq müəyyən edilmiş qaydalar sisteminin mövcudluğu. Bu, idarəetmə fəaliyyətinin uyğunlaşdırılmasını və xüsusi hallarda ümumi göstərişin tətbiq olunmasını təmin edir; 4. İnzibati fəaliyyətin simasızlığı, belə halda hər bir funksioner (təşkilatın fəalları) fərd kimi deyil, məhz sosial hakimiyyətin

reallaşmasında müəyyən vəzifənin daşıyıcısı kimi çıxış edir.

Dövlət qulluqçularının fəaliyyəti ilk başlanğıcda funksional inzibati xarakter daşıyır. Lakin bürokratiyanın mahiyyətində üzə çıxan funksionallıq sonralar siyasi xarakter kəsb edir və bürokratiya müstəqil siyasi qüvvəyə çevrilir, hətta avtoritar hakimiyyətin dayağı kimi çıxış edir. Bununla belə, müasir dövlət ənənəvi funksiyanı saxlamaqla yanaşı, ictimai ziddiyyətlərin və münaqişələrin geniş dairəsini tənzimləməyə mühüm diqqət yetirir.

3. Müasir dövlətlərin inkişafında yeni meyllər

Dövlətin təkamülünün meyllərinə və cəmiyyət həyatında onun rolunun artmasına aid nəzəri təsəvvürlərə əhatəli yiyələnmək ictimai zərurətdir.

Dövlət haqqında nəzəri görüşlərdə iki başlıca mövqeyi araşdırmaq vacibdir. Bu mövqelərdən biri dövlətin yüksək ictimai fayda kəsb etməsinə dair ideya istiqamətidir. Həmin istiqamət elmi ədəbiyyatda **apoloqet** (məddah, müdafiəçi) və ya **etatik** münasibət kimi mənalandırılır. İkinci mövqe dövləti sosial və əxlaqi **bəla** (şər) mənbəyi hesab edir, **antietatik,** tənqidi istiqamət kimi səciyyələndirir. XVIII əsrə qədər bütövlükdə birinci mövqe hakim olmuşdur, maarifçilik dövründən başlayaraq dövlətə aid tənqidi baxışlar güclənir.

Etatik nəzəriyyənin tərəfdarları bütün vətəndaşların mənafeyinə cavab verən, ictimai və şəxsi rifaha qayğı göstərən, insanların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olanların hamısına malik olan dövlətin qüdrətinin möhkəmləndirilməsi zərurətini göstərirlər. Dövlətin tənqidçiləri (liberalizmin tərəfdarlarından anarxistlərə qədər) onun fəaliyyət sferasının son dərəcə məhdudlaşdırılması və hətta onun tam inkar olunması tələbi ilə çıxış edirlər və bildirirlər ki, hakimiyyət qəsb etməyə, zorakılığa meylli olduğu üçün onun sosial-iqtisadi proseslərə qarışması təsirli ola bilməz.

Müasir ictimai praktikada dövlətin inkişafında iki meyl aydın müşahidə olunur. Bir tərəfdən, makroiqtisadi

problemlərin həllində, mürəkkəbləşən bütün sosial və siyasi proseslərin tənzimlənməsində, informasiya axınının artmasında dövlətin rolu və əhəmiyyəti güclənir. Şübhəsiz, cəmiyyət dövlətin ekoloji həyat şəraiti, mütəşəkkil cinayətkarlığın artması, beynəlxalq terrorçuluq və digər hallarla bağlı təhlükəyə reaksiya verməsinə maraqlıdır. Digər tərəfdən, özünüidarə başlanğıcının inkişafı, müxtəlif sosial qüvvələrin kooperasiyası, cəmiyyətin həyatına siyasi partiyaların və qrup mənafelərinin təsirinin genişlənməsi, müasir dövlətin bəzi funksiyalarının yerli orqanlara verilməsi və digər proseslər əks meylin mövcudluğunu təsdiqləyir.

Bütövlükdə bəşəriyyətin, sivilizasiyanın hazırkı inkişaf mərhələsində dövlətin fəal iştirakı olmadan çoxsaylı problemləri həll etməyə kifayət qədər əsas yoxdur. Bundan əlavə, keçid mərhələlərində dövlətin tənzimləyici və inteqrativ roluna tələbat kəskin şəkildə artır. Ölkələrin müasir təcrübəsi göstərir ki, dövlətin bu və ya digər funksiyalarının pozulması vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafı prosesinə, bütün ictimai həyatın demokratikləşməsinə zərər yetirə bilər.

Cəmiyyətin siyasi sistemi statik vəziyyətə məruz qalan hadisə kimi nəzərə çarpmır. Hər bir siyasi sistemin inkişafı ilə bağlı, siyasi təsisat olmaq etibarilə dövlət də təkamül prosesinə məruz qalır və təkmilləşir. Müasir dövlətin inkişafında əhəmiyyət kəsb edən bir sıra meyllər nəzərə çarpır. Dünya dövlətlərinin əksəriyyətinin inkişafında **başlıca meyl onların əsil demokratik, hüquqi dövlət yaradılmasına səy göstərmələridir**. Bu cəhət Avropa ölkələrinin əksəriyyətinin konstitusiyasında öz təcəssümünü tapmışdır.

Müasir demokratik dövlət hər şeydən əvvəl, hüquqi mahiyyət kəsb edir. Hüquqi dövlətin müasir modeli nəinki keçmişə aid olan təcrübəni, eləcə də son illərin dəyəri hesab olunan demokratik prinsiplərin müəyyən hissəsini özündə əks etdirir. Əlbəttə, hüquqi dövlətin prinsiplərinin ayrı-ayrı ölkələrdə həyata keçirilməsi müxtəlif formada təzahür edir.

Müasir dünyada dövlətin inkişafında **əhəmiyyətli yeni meyllərdən digəri dövlətin suverenliyinin demokratik ba-**

xımdan məhdudlaşdırılmasıdır. Bununla bağlı belə bir maraqlı cəhəti qeyd etmək lazımdır ki, əgər əvvəllər dünya birliyi tərəfindən hər hansı dövlətə müəyyən məsləhət verilməsi həmin dövlətin daxili işlərinə qarışmaq kimi başa düşülürdüsə, müasir qarşılıqlı asılılıq dünyasında müxtəlif problemlərin, xüsusilə bəşəriyyət üçün böyük təhlükə mənbəyi sayılan hərbi, ekoloji və digər məsələlərin həlli lazım gələrsə bu və ya digər ölkənin suverenliyinin ağıllı, sağlam düşüncə tərzi ilə məhdudlaşdırılmasını tələb edir, həyati zərurətə çevirir. Belə ki, bir dövlətin digər dövlətin atom stansiyasında baş verən partlayışın nəticələrini aradan qaldırmasını ondan tələb etməsini həmin dövlətin daxili işinə qarışmaq kimi düşünmək səhv olardı.

Müasir dövlətin inkişafının **ən yeni meyllərindən biri də iqtisadi və siyasi həyatın inteqrasiyasıdır**. İnteqrasiya meyli indiki şəraitdə ilk öncə, Avropa iqtisadi birliyinə daxil olan dövlətlərin sayca artmasında nəzərə çarpır. 1994-cü ildə bu təşkilata Avstriya, İsveç və Finlandiya daxil olduqdan sonra onun üzvlərinin sayı 15-ə çatdı. İndi Avropa parlamenti tipli xüsusi dövlətlərarası hakimiyyət orqanı yaradılır. Bütün bu yeni təşəkkül tapan təsisatlar Qərbi Avropa ölkələrinin daha sıx siyasi inteqrasiyasını səciyyələndirir.

Müasir dünya ölkələrinin inkişafının **yeni spesifik meyllərindən** biri cəmiyyətin birliyini təmin edən xüsusi ideologiyaya malik olmaq səyləridir. Əgər cəmiyyəti vahid şəkildə birləşdirmək ideyası yoxdursa, onda dövlət öz inteqrasiya funksiyasını itirir. Belə olduqda ayrı-ayrı qruplar hakimiyyətin ali orqanlarına təzyiq göstərməklə, özlərinə lazım olan imtiyazları tələb edəcəklər. Nəticə etibarilə, dövlət bütün cəmiyyətin mənafeyini ifadə etmək imkanından kənarda qalacaqdır.

Müasir dövlətin **yeni inkişaf meyllərindən** digəri isə bürokratik idarəetmə aparatının ixtisar olunmasıdır, onun saxlanmasına sərf edilən xərclərin azalmasıdır. Dövlət qulluqçuları – bürokratlar həmişə özlərinin eqoist mənafeyini hər şeydən üstün tutur. Bu, dövlətin mənafeyinə ziddir.

Müasir dünyada dövlətin inkişafında **ən yeni qlobal meyl hüquqi dövlətin və vətəndaş cəmiyyətinin təşəkkülüdür.** Hüquqi dövlət haqqında ideya iki başlıca prinsip əsasında – dövlətdə qaydalara əməl etmək və vətəndaşların müdafiəsi ilə əlaqədar yaranır. Hüquqi dövlətdə hər bir insan qəbul olunan qərarların nəticələrini, ardıcıllığını və universallığını nəzərə almaq hüququna malikdir, eləcə də qanunla dəqiq müəyyənləşdirilən öz hüquq və vəzifələrini başa düşür. Hüquqi dövlətin başlıca məqsədi ictimai həyatın bütün sferalarında öz vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə təminat verməkdir. Lakin bu məqsədə nail olmaq üçün, vətəndaşlar da öz növbəsində qanunlara hörmətlə yanaşmalıdırlar. Hüquqi dövlət bütün vətəndaşlar üçün vahid və məcburi olan hüquqi qaydalar yaratmağa cəhd edir. Təsadüfi deyildir ki, indiki şəraitdə bütün vətəndaşların bərabər mahiyyətli olması və onların hüquqlarının eyni dərəcədə təmin edilməsi prinsipi qərarlaşır.

Hüquqi dövlətin başlıca təsisatları və prinsipləri bunlardır: müxtəlif siyasi partiyalar və təşkilatlar vasitəsilə yaradılan nümayəndəlik; seçki sistemi; parlamentarizm; konstitusiyalılıq və hakimiyyətin bölünməsi; kilsənin (məscidin), bütövlükdə dinin dövlətdən kənar olması; azadlığın bərabərlik üzərində üstünlüyü.

Hüquqi dövlət istibdad dövlətindən fərqli olaraq, müəyyən daimi normalar və qaydalar kompleksi ilə özözünü məhdudlaşdırır. Onların içərisində hakimiyyətin üç qola ayrılması norması başlıca yer tutur. Hər bir hakimiyyət özünün ümumi funksiyalarını həyata keçirir, lakin birgə fəaliyyətində bir-birini tarazlaşdırır, demokratik normaların pozulmasına və hakimiyyətdən sui-istifadəyə qarşı təminat yaradır. Lakin dövlətin vətəndaşları ümumi seçki sistemi və seçki prosesi vasitəsilə hakimiyyətə nəzarət etmək imkanı əldə edirlər. Hüquqi dövlət üçün səciyyəvi olan qarşılıqlı nəzarətin bu prinsipi hələ alman filosofu **İ.Kant** tərəfindən formalaşdırılmışdır. Bir sözlə, qanunverici də ayrıca vətəndaş kimi, qanuna tabe olmalıdır.

Legitim hakimiyyət özünün cəmiyyətdə qərarlaşması və möhkəmlənməsi üçün hüquq formasında ifadə olunur. Çünki güc özlüyündə hakimiyyəti yarada bilməz. Dövlət hüquqla, hüquq normaları ilə bağlıdır, buna görə o, elə qüvvədir ki, məhz hüquqa xidmət etməlidir. Bu isə o deməkdir ki, dövlət insan hüquqlarına zidd olan qanunlar yarada bilməz. Hüquqi dövlətdə hüquq ayrıca fərdin azadlığının təminatçısı kimi çıxış edir. Fərdin hüququnun qorunması belə bir cəhəti ifadə edir ki, o, arzu etdiyi yerdə yaşamaq, həyat tərzi seçmək, fəaliyyət sferasını və növünü azad müəyyənləşdirmək hüququna malikdir. Hüquq şəxsiyyətin, mülkiyyətin, mənzilin, xüsusi həyat tərzinin, mənəvi azadlığın və s. toxunulmazlığını təmin edir. Qanunların hökmranlıq etdiyi cəmiyyətdə dövlətin funksiyası bundan ibarət olmalıdır ki, vətəndaşlar arasındakı münasibətləri hüquqi zəmində tənzimləsin. Demokratik hüquqi dövlətin aydın nəzərə çarpan əlamətləri bunlardır: siyasi prosesdə iştirak hüququ; siyasi partiyalar, müxtəlif maraq qrupları arasında müəyyən oyun qaydalarının gözlənilməsi; ümumi seçki prosesində hakimiyyətin bütün səviyyələrində hakimiyyət dəyişikliyi; parlamentarizmin və plüralist demokratiyanın digər norma və prinsipləri.

Hüquq dövlət hakimiyyəti tərəfindən gözlənilə bilən suiistifadə hallarını nəzərə almaqla hər bir fərdin, şəxsiyyətin azadlığının təminatçısı kimi çıxış etməlidir. Hüququn vəzifəsi ondan ibarətdir ki, mübahisələri və mübahisəli problemləri gücə söykənən və qanuna zidd hallara əsaslanan formada yox, yalnız dinc vasitələrlə həll etsin. Hüquqi dövlətin dəyərli əhəmiyyəti bundan ibarətdir ki, burada bütün vətəndaşlar vəzifəsindən, əmlakından, ictimai mövqeyindən asılı olmayaraq, qanun qarşısında bərabərdir və onun pozulmasına görə eyni dərəcədə məsuliyyət daşıyırlar.

Hüquqi dövlət özünün formalaşması və qərarlaşması prosesində yalnız fərdi azadlığın və hüququn qanunvericiliklə təmin olunmasını işləyib hazırlamır, eləcə də vətəndaş cəmiyyətinin normal mövcudluğu və fəaliyyəti, onun əsas

təsisatları, prinsipləri və dəyərləri üçün başlıca təminat yaradır. Hüquqi dövlət vətəndaş cəmiyyəti ilə bir sıra ümumi və birləşdirici hüquqi əsasa malikdir ki, bu da mahiyyət etibarilə, ümumbəşəri xarakter dayışır.

Qeyd edək ki, vətəndaş cəmiyyətində bir-birinə zidd xüsusi mənafelər təmərküzləşir. Vətəndaşların ümumi iradəsini ifadə edən hüquqi dövlət real həyati prosesdə həmin mənafelərin barışdırılmasına və uzlaşdırılmasına nail olmalıdır. Dövlət quruluşunun əsasını təşkil edən demokratik prinsiplər xeyli dərəcədə dövlətin müstəqilliyini, onun təsisatlarının fəaliyyətinin bu və ya digər iqtisadi və sosial-sinfi mənafelərdən qeyri-asılılığını təmin edir. Bu qeyri-asılılıq vətəndaş cəmiyyətinin mövcudluğu və onunla hüquqi dövlət arasında real uyğunluğun üzə çıxması ilə müəyyənləşir.

Vətəndaş cəmiyyəti heç bir təşkilati mərkəzə malik olmayan cəmiyyətdir. Vətəndaş cəmiyyətini təşkil edən təşkilatlar və birliklər öz-özünə yaranır. Dövlətin hər hansı formada iştirak etmədiyi vətəndaş cəmiyyəti ictimai həyatı təşkil edən və tənzimləyən qüdrətli sferaya çevrilir. Vətəndaş cəmiyyəti demokratik dövlətin ən əhəmiyyətli tərəfidir. Onun inkişaf dərəcəsi demokratiyanın inkişaf səviyyəsini təcəssüm etdirir.

Müasir dövlət insanın ümumi hüquqlarını, ən başlıca ictimai-siyasi və hüquqi dəyərləri təmin edən təsisatlarsız təsəvvürə sığan deyil. Siyasi birlik olmaq etibarilə, dövlət vahid iqtisadi və mədəni-mənəvi məkan xaricində mövcud ola bilməz. O, nəinki müəyyən sosial mühitdə, eləcə də dünya birliyi çərçivəsində mövcuddur. Bu cəhətin özü müasir dövlətin inkişafının yeni mahiyyətli meyli kimi səciyyələnir.

III FƏSİL
Siyasi partiyalar siyasi təsisatlar sistemində

1. Siyasi partiya anlayışı

Siyasi təhlilin mühüm obyektlərindən biri siyasi partiya və partiya sistemidir. Bu gün cəmiyyətin siyasi həyatını başlıca siyasi təsisatlardan biri olan partiyalarsız təsəvvür etmək çətindir. Həmin problemə mərağın artması siyasi partiyaların təşəkkülü, inkişafı və eləcə də partiya plüralizmi şəraitində daha çox nəzərə çarpır. Partiya fenomeninin çoxölçülü olması və mürəkkəbliyi ona dair müxtəlif tərifl ərin mövcudluğu ilə izah olunur. "Partiya" anlayışı etimoloji baxımdan "hissə", "ayrılıqda", bütövün tərəfi, siyasi reallığın, siyasi sistemin ünsürü kimi mənalanır. "Partiya" termini latın dilində "pars" – hissə və "partire" – ayırmaq sözlərindən əmələ gəlib. Bu anlayış ilk dəfə antik dövrdə işlədilmişdir. Bununla belə, ilk partiyalar XIII əsrdə İngiltərədə parlamentin təzahürü ilə təşəkkül tapır, XVIII əsrin sonunda isə Avropada müasir tipli partiyalara yaxın olan siyasi birliklər qanuniləşdirilir. Müasir siyasi hərəkatların və partiyaların formalaşdığı XIX əsrə qədər, partiya termini hakimiyyət sferasında öz aralarında rəqabət aparan və ya hakimiyyətə təsir göstərən qruplar kimi ifadə edilirdi. Siyasi partiyaların mükəmməl forması XIX əsrin ortalarında təzahür etdi, birinci dünya müharibəsi ərəfəsində isə onlar hər yerdə ən mühüm ictimai-siyasi hadisəyə, daimi siyasi amilə çevrilir. İkinci Dünya müharibəsindən sonra siyasi partiyalar konstitusiyalarda təsbit olunur. Hazırda dünyanın xeyli ölkəsində siyasi partiyalar haqqında maddə konstitusiyada öz əksini tapmışdır.

Siyasi partiyaların təzahür etdiyi andan onun qiymətləndirilməsinə birmənalı yanaşılmayıb, çox vaxt isə kəskin tənqid edilib. Partiyalar ictimai münaqişələrin və qiyamların mənbəyi hesab olunub **(F.Bekon), T.Hobbsun** fikrincə, partiyaların fəaliyyətinə yol verən hökmdarlar, əslində, düşməni öz hasarına buraxır, bu isə vətəndaşların rifahına ziddir.

Politologiya çərçivəsində təşəkkül tapan elmdə (partiologiyada) bu siyasi təsisata ilk əvvəllər xüsusi neqativ münasibət bildirilirdi (**R.Mixels** və b.).

"Partiya neqativçiliyi" eləcə də müasir nəzəriyyələrdə, xüsusilə birbaşa demokratiya konsepsiyasında geniş yayılmışdır.

Lakin hazırki şəraitdə partiologiyada siyasi partiyaların azadlıq və demokratiya ilə qarşılıqlı əlaqəsi ideyası qərarlaşmışdır. Daha çox yayılan fikir bundan ibarətdir ki, partiya müxalifətçi qüvvə olmaqdan çox, dövlətə münasibətdə loyal mövqe tutan və cəmiyyətin siyasi sisteminin fəaliyyətində pozitiv rol oynayan təsisatdır. Hazırda partiyanın mahiyyətini müəyyənləşdirməkdə xeyli müxtəlif yanaşma mövcuddur. Bunların arasında üç başlıca yanaşmanı fərqləndirmək olar:

1. Partiyanı liberal ənənələrlə əlaqələndirən və insan qrupları kimi başa düşən ideoloji doktrina (**B.Konstan**). Partiyanın ənənəvi mövqedən müəyyənləşdirilməsi seçki prosesi, namizədlərin irəli sürülməsi və peşəkar siyasi elitanın hazırlanması ilə əlaqələndirilir;

2. İkinci yanaşma – siyasi partiyanın dövlət sistemində fəaliyyət göstərən təşkilat olmaqla, təsisatlı baxımdan başa düşülməsi (**M.Dyüverje**). Təsisatlı yanaşmanın əhəmiyyətini inkar etmədən qeyd etmək lazımdır ki, mürəkkəb struktur olmaqla, siyasi partiyanın mahiyyəti təşkilat aspekti ilə tükənmir, çünki təşkilat problemi ideya motivləri, doktrinalar və proqramlarla, ictimai rəyə təsir və s. ilə qovuşur. Siyasi partiyanın başa düşülməsinə təsisatlı yanaşmağın mütləqləşdirilməsi heç də siyasi bitərəflik deyildir, istər-istəməz bu yanaşma tədqiqatçılıq münasibətində açıq şəkildə sinfi mübarizə nəzəriyyəsinə qarşı istiqamətlənir;

3. Və nəhayət, üçüncü yanaşma – siyasi partiyaların müəyyən siniflərin mənafelərinin ifadəçisi kimi şərhi (Marksizm).

Politologiyada siyasi partiyanın müəyyənləşdirilməsinə fərqli yanaşmalar nəzərə çarpır. Bəzi yanaşmalarda başlıca

diqqət partiyanın strukturunun xüsusiyyətlərinə, uzun müddətli mövcudluğuna, sosial sabitlik amillərinə istiqamətlənir. Belə yanaşma üçün səciyyəvi cəhət bundan ibarətdir ki, partiya "öz xüsusi strukturuna malik olan insanların birliyi" kimi başa düşülür **(M.Dyüverje)**, bu müəllifə görə, partiya nisbi möhkəmliyi, sosial cəhətdən formalaşmasının uzun müddətli olması, dövlət hakimiyyəti idarələrinə sahibliyə cəhd etməsi ilə fərqlənir və öz təşkilatı daxilində elə bir struktura malikdir ki, partiya liderlərini öz tərəfdarları ilə idarəetmə mərkəzlərində birləşdirir". Belə yanaşma partiyanın fəaliyyəti üçün əhəmiyyətli aspektləri üzə çıxarır.

Funksional yanaşmanın tərəfdarları belə hesab edirlər ki, partiya fenomenini dəqiq müəyyənləşdirmək üçün, onun yerinə yetirdiyi funksiyalar başlıca meyar qəbul edilməlidir. **K.Louson** iddia edir ki, hələ partiyaya aid mövcud olan yanaşmaların heç biri məqbul sayıla bilməz. **K.Douson** özü isə belə hesab edir ki, partiya seçkilər yolu ilə xalqın və ya onun bir hissəsinin səlahiyyətlərini bu təşkilatın xüsusi nümayəndələri üçün uzatmağa və mövcud hökumət təsisatlarının siyasi hakimiyyətini həyata keçirməyə çalışan fərdlərin təşkilatıdır.

Amerika politoloqu **P.Merkl** hesab edir ki, partiya elə siyasi birlikdir ki, yeni üzvlər seçir və sosiallaşdırır, liderləri daxili nümayəndəlik prosesləri və seçkilər vasitəsilə seçir, daxili mübahisələri həll edir.

Fransız politoloqu **J.Burdo** çoxpartiyalı sistemə aid özünəməxsus təsnifat təklif edir. O, belə sistemin iki tipini fərqləndirir: nizamlı və nizamlı olmayan çoxpartiyalılıq. Onun fikrincə, nizamsız çoxpartiyalılıq İtaliya və Fransaya xasdır, bu ölkələrin siyasi həyatında partiyalar nizamsızlıq təəssüratı yaradır.

J.Burdo nizamlı partiya sisteminə Niderlandı və Skandinaviya dövlətlərini aid edir, bu ölkələrdə partiyalar daxili birlik nümayiş etdirir, seçicilər isə onlara məhəbbət bəsləyirlər, belə şəraitdə sabit hökumət formalaşır.

Partiyanın müasir çoxsaylı elmi tərifi qarşılıqlı əlaqə

kəsb edən dörd meyar baxımdan müəyyənləşdirilir:

1. Hər bir partiya ideologiyanın daşıyıcısıdır və ya ən azı dünyanı və insanı xüsusi qiymətləndirmək qabiliyyətinə malikdir;

2. Partiya təşkilatdır, başqa sözlə, siyasətin ən müxtəlif səviyyələrində insanların kifayət qədər uzunmüddətli birliyidir.

3. Partiyanın məqsədi hakimiyyəti ələ almaqdan və həyata keçirməkdən ibarətdir;

4. Hər bir partiya özünün xalq tərəfindən müdafiə olunmasını təmin etməyə çalışır (ona səs verməkdən fəal üzvlüyə qədər).

Partiyanın çoxmiqyaslı olması onun mərkəzi, başlıcası isə yerli orqanlara malik olduğunu ifadə edir, bu isə həmin siyasi təsisatı yalnız fraksiya səviyyəsində mövcud olan parlament qruplarından fərqləndirir. Partiya hakimiyyəti o zaman əldə etməyə cəhd edir ki, təzyiq qrupları hakimiyyətə təsir göstərməyə çalışırlar. Xalqın müdafiə etməsinə (xüsusilə seçkilər vasitəsilə) arxalanmaq, onu seçkilərdə və parlamentin həyatında iştirak etməyən klublardan fərqləndirir. Partiya kütlələrin ümumi mənafelərini ifadə etməyə cəhd etdiyi halda, təzyiq qrupları ayrı-ayrı qrupların mənafeyini müdafiə edir. Düzdür, partiyalarla digər siyasi təşkilatlar arasındakı həddşərti xarakter daşıyır və çox vaxt isə silinir. Məsələn, klublar və ya təzyiq qrupları tez-tez partiyalara qovuşurlar.

Yuxarıda yürüdülən mülahizələri nəzərə alaraq, müasir partiyaların müəyyənləşdirilməsinə aid müxtəlif fikirləri açıqlamaq olar. **Şvartsenberq** iddia edir ki, siyasi partiya həm milli və eləcə də yerli səviyyələrdə mövcud olan, hakimiyyəti ələ almağa və yola salmağa istiqamətlənən və bu məqsədlə geniş kütlələr tərəfindən müdafiə olunmağa cəhd edən, fasiləsiz fəaliyyət göstərən təşkilatdır. **Karmoni** isə qeyd edir ki, partiya ictimai rəyi müəyyən məqsəd naminə səfərbər etmək, hakimiyyət orqanlarında iştirak və yaxud hakimiyyəti öz tələblərinin əldə olunmasına istiqamətlən-

dirmək üçün, vətəndaşları vahid siyasi yönümdə birləşdirən mütəşəkkil qüvvədir. Bəzi tədqiqatlarda, xüsusilə marksist mövqeyi əks etdirən görüşlərdə bildirilir ki, siyasi partiya hər hansı bir sinfin daha fəal və mütəşəkkil hissəsidir və ya onların mənafelərini ifadə edən öz təbəqəsidir.

Ümumiyyətlə, belə qənaətə gəlmək olar ki, siyasi partiya ideoloji əsasa malik könüllü ittifaq olmaqla, hakimiyyəti ələ almağa və ya dövlət hakimiyyətində iştirak etməyə istiqamətlənir, buna görə hakimiyyət bu birlik üçün siyasi proqramın reallaşdırılması vasitəsidir (böyük sosial qruplardan birinin mənafeyinə münasibət baxımdan).

Siyasi partiya ümumi həyatın gənc təsisatıdır, lakin kütləvi partiyaların təşəkkülü daha əvvəlki zamanlara təsadüf edir.

Xeyli tədqiqatçı hesab edir ki, "partiya" və "siyasət" anlayışları XVI əsrdə Avropada müəyyənləşdirilmişdir. Avropa ədəbiyyatında belə bir fikir kök salmışdır ki, partiya ümumi səsvermə hüququnun qərarlaşması ilə, başqı sözlə, Fransa inqilabı dövründə "klubların", siyasi qrupların və onların nümunələrinin təzahürü ilə təkamül tapmışdır. İngilis-Amerika tədqiqatçıları belə hesab edirlər ki, partiyalar onların indiki səviyyədə başa düşülməsi mənada XVII-XVIII əsrlərdə yaranmışdır.

XVIII əsrin ortalarında ingilis filosofu **Yum** ilk dəfə olaraq partiyanın mənafe üzrə, bu və ya digər şəxsiyyətlə bağlılığı baxımdan – "affektə görə partiya", "prinsipə görə partiya" təsnifatının verilməsini təklif etdi. XIX əsrin başlanğıcında ingilis alimi **Berk, Yumun** "prinsip üzrə partiyalar" haqqında tezisindən istifadə edərək, partiyanın elmi tərifini verdi. **Berkə** görə, partiya ümumi prinsiplər əsasında yaranan və milli mənafeyi birgə səylərlə təmin etmək üçün birləşən insanlar qrupudur.

Kütləvi mühitdə fəaliyyət göstərən müasir partiyalar XIX əsrin ikinci yarısında Avropada formalaşmışdır. Bu mənada siyasi partiyaları Avropa mədəniyyəti sferasında təşəkkül tapan və sonralar müasir dünyanın digər mədəni

regionlarında yayılan siyasi təsisat kimi mənalandırmaq olar.

Politologiyada **M.Veberin** partiyaların tarixini dövrləşdirmək təklifi hamı tərəfindən qəbul edilmişdir: 1. Aristokratik qruplaşmalar; 2. Siyasi klublar; 3. Kütləvi partiyalar. Əslində, bu üç mərhələnin hamısını öz inkifaşında yalnız iki ingilis partiyası – liberallar (viqilər) və mühafizəkarlar (torilər) təmsil etmişdir. Digər müasir kütləvi partiyaların tarixi isə çox qısadır, onların əksəriyyəti dərhal kütləvi partiya kimi formalaşmışlar. Buna görə, hamı tərəfindən belə hesab olunur ki, aristokratik birləşmələr və klublar mərhələsi partiyaların "tarixdən əvvəlki" mərhələləridir, onlar özünün ən yetkin formasında məhz kütləvi təşkilat kimi çıxış edirlər.

İlk kütləvi siyasi partiya 1861-ci ildə İngiltərədə yaranan liberal partiya idi. 1863-cü ildə isə ilk kütləvi fəhlə partiyası – Ümumi Almaniya Fəhlə İttifaqı **F.Lassalın** rəhbərliyi altında yarandı. XIX əsrin sonlarında kütləvi partiyalar dünyanın əksəriyyət ölkələrində (İngiltərədə liberallar və mühafizəkarlar) və Qərbi Avropa qitəsində (sosial-demokrat partiyaları) təşəkkül tapır. Kütləvi siyasi partiyaların yaranmasını şərtləndirən səbəblər bunlardır: 1. Siyasətdə iştirak sferasını əhəmiyyətli dərəcədə genişləndirən ümumi səsvermə hüququnun yayılması; 2. Fəhlə sinfinin mütəşəkkil inkişafı. Bu iki proses belə təzahür edirdi: mütəşəkkil proletariat onun mənafeyini parlamentdə müdafiə edən kütləvi partiya yaradır; ənənəvi siyasi qruplaşmaların rəqabətli inkişafı davam edir. Qarşılıqlı fəaliyyətdə olan siyasi partiyalar isə qanunverici və icraedici hakimiyyət strukturlarının formalaşması ilə bağlılıq kəsb edir, partiya sistemlərini yaradırlar.

Bir sözlə, partiya ilk əvvəl, müxtəlif sosial təbəqələrin mənafeyinin ifadəçisi kimi yaradılmışdır. Partiyalaşma prosesində tədricən ümummilli partiyalar seçicilərin yeni-yeni qruplarını öz sıralarına cəlb etmişdir. Son nəticədə partiyalar bu və ya digər sosial təbəqənin mənafeyinin uzlaşdı-

rılmasına yönələn təşkilat kimi bərqərar olmuşdur. Məhz bu cəhət partiyadaxili fraksiyaların təzahürünü şərtləndirir. Qeyd etmək lazımdır ki, fraksiyaların proqramı partiyanın ümumi proqramından müəyyən cəhətlərlə fərqlənir.

Əlbəttə, partiyalar daxilində fraksiyaların yaranması onların siyasi xəttini daha da mükəmməlləşdirir, seçicilərin müxtəlif kateqoriyaları arasında təsirini qoruyub saxlamağa imkan yaradır, cəmiyyətdəki plüralist mənafelərin çoxcəhətliliyini nəzərə almağı şərtləndirir. Partiyanın siyasətinin səciyyəvi məqamlarından biri ondan ibarətdir ki, onun siyasəti məhz partiyadaxili müxtəlif fraksiya və cərəyanlar arasında mübarizə prosesində işlənib hazırlanır. Bu və ya digər partiyanın qurultayında həmin qruplar alternativ sənədlərlə çıxış edərək, onun nümayəndələr tərəfindən müdafiəsinə və təsdiqinə səy göstərirlər, müxtəlif konsensusa gəlirlər və güzəştə gedirlər.

Partiyaların çoxunun rəhbər orqanları fraksiyaları təmsil edən nümayəndəlik əsasında təmsil olunurlar. Belə praktika partiya aparatına imkan verir ki, öz möhkəmliyini saxlasın, seçicilərin əhval-ruhiyyəsində baş verən dəyişikliyi vaxtında hiss etsin və partiya qarşısında duran problemlərin həlli üçün səmərəli yollar axtarıb tapsın. Partiya cəmiyyətdəki təbəqələrdən birinin nüfuzunu daha çox qazanırsa və uzun müddət hansı təbəqə tərəfindən müdafiə olunursa, həmin təbəqə partiyanın sosial bazası adlanır. Demokratik ölkələrin siyasi həyatında partiyalarla yanaşı, çoxsaylı ittifaqlar, assosiasiyalar, ictimai hərəkatlar və s. mövcuddur. Bunlar da partiyalar kimi öz tərəfdarlarının mənafelərini müdafiə edirlər. Həmin ictimai birliklər ayrıca sosial qrupların məhdud mənafelərinin reallaşmasına səy göstərirlər və ya bütövlükdə cəmiyyət üçün faydalı olan müxtəlif problemlərin həllinə istiqamətlənirlər (ətraf mühitin qorunması, istehlakçıların hüquqlarının müdafiəsi və s.). İctimai birliklərin fəaliyyətinin fərqləndirici cəhəti bundan ibarətdir ki, onlar hakimiyyətə yiyələnməyi qarşılarına məqsəd qoymurlar, məhz siyasi proseslərə təsir göstərmək, konkret qərarların

qəbul olunması uğrunda mübarizə aparırlar.

Bütün digər siyasi təsisatlardan, mənafe qruplarından və müxtəlif ictimai birliklərdən fərqli olaraq, partiya özünəməxsus xüsusi funksiyalara və onları həyata keçirmək üçün səciyyəvi üsullara, müəyyən daxili təşkilata və struktura, siyasi fəaliyyət proqramına və digər ideoloji istiqamətləndirmə sisteminə malikdir.

2. Siyasi partiyaların təsnifatı və funksiyaları

Siyasi partiyaların təsnifatı üçün xeyli meyarlar mövcuddur. Həmin meyarlar siyasi partiyaların praktikasının müxtəlif elementlərinin əhəmiyyətindən asılıdır. Təsisatlı yanaşmanın tərəfdarları təşkilati meyardan istifadə edirlər, liberal ənənə üçün təsnifatın başlıca olaraq ideoloji əlaqələrin xarakteri nöqteyi-nəzərdən verilməsi məqsədəuyğun hesab olunur, marksistlər təsnifatda sinfi meyarın əsas rol oynadığını bildirirlər.

Marksist konsepsiyaya uyğun olaraq, partiyalar belə fərqləndirilir:

- sosialist oriyentasiyalı partiyalar ("hər şeydən əvvəl, muzdlu əməyi təmsil edənlərin mənafeyini ifadə edən və sosial ədalət şüarı altında onların sosial-iqtisadi zülmdən azad olması uğrunda mübarizə aparan "zəhmətkeşlər partiyası". Bunlara aiddir: kommunist, sosialist, sosial-demokrat, leyborist (fəhlə) partiyaları);

- burjua partiyaları – dövlətin himayəçiliyi ilə xüsusi mülkiyyətin saxlanması və inkişafı, sahibkarlıq və rəqabət azadlığı tələbi ilə çıxış edirlər. Bunlar sağ mühafizəkar, mərkəzçi və liberal-demokratik istiqamətli partiyalardır;

- xırda burjua partiyaları – dövlətin himayəsi ilə xırda mülkiyyətçilərin mənafeyini və eləcə də bir qayda olaraq sahibkarlığı müdaifiə edən partiyalardır. Xırda burjua partiyalarını kəndli (aqrar) partiyaları, xırda sahibkarlıq partiyaları, qulluqçular, ziyalıların müəyyən təbəqələri və s. təmsil edirlər. Marksist təsnifat partiyaların bu başlıca tipləri ilə

yanaşı, milli-demokratik (milli-inqilabçı), klerikal və digər partiyaların mövcudluğunu da nəzərə çatdırır.

Siyasi partiyaların qiymətləndirilməsində **meyarlıq ənənəsi,** onların təsnifatında istifadə olunan ən müxtəlif meyarları özündə ehtiva edir. Hər hansı başlıca meyarla bağlı təsnifat həmçinin, mövcud ənənə çərçivəsində təmin edilir. Daha çox aşağıdakı meyarlardan istifadə olunur:

- **ideoloji** – onun köməyilə, birliyin fəaliyyətində rəhbər götürülən ideoloji doktrina üzə çıxarılır. Bu əsasda inqilabçı, islahatçı, liberal, mühafizəkar və digər partiyalar fərqləndirilir.

- **rol oynamaq** – bu meyar partiyanın qiymətləndirilməsi üçün onun oynadığı ictimai rolu mərkəzi amil hesab edir; eləcə də parlament və avanqard partiyalar fərqləndirilir;

- **partiyanın kütlələrlə əlaqəsi meyarından** nümayəndəli və səfərbəredici partiyaların differensiallaşdırılmasında istifadə edilir, həmin meyar insan kütlələrini birləşdirməyə və onları konkret vəzifələrin həllinə istiqamətləndirməyə imkan yaradır.

Siyasi partiyaların təsnifatının bütöv bir sıra meyarları onların cəmiyyətin siyasi sistemində yerinə yetirdiyi rola və bu sistemə münasibətinə görə səciyyələnir. Cəmiyyətin siyasi sistemində rolu və ona münasibəti meyarı baxımdan aşağıdakı oriyentasiyalı partiyalar mövcuddur:

- hakimiyyət uğrunda leqal mübarizə aparan və onun həyata keçirilməsinə çalışan;

- seçkilərdə iştirak edən – öz fəaliyyətini faktiki olaraq seçkiqabağı kampaniya dövrü və seçkilərlə məhdudlaşdıran "xidmət edici" və ya seçki partiyaları (məsələn, ABŞ-da);

- hakimiyyətin həyata keçirilməsini və ictimai inkişafın strateji proqramının reallaşmasını təmin edən (məsələn, keçmiş sosialist ölkələrində);

- mövcud elitanın dövlət hakimiyyətini müdafiə edən. Belə halda partiya dövlət hakimiyyətinin mərkəzi strukturunun kütləvi müdafiəsini təşkil edən hərəkat kimi çıxış edir (məsələn, vaxtilə Misir prezidenti **Naserin** yaratdığı Ərəb Sosialist İttifaqı);

- cəmiyyət həyatında total iştirak edən və hər şeydən əvvəl, siniflərin mənafeyini ifadə edən ictimai partiyalar (və ya birliklərin partiyaları). Onların funksiyaları dövlət hakimiyyətinin mövcudluğu ilə bağlıdır (məsələn, XIX-XX əsrlərin qovuşuğunda mövcud olan sosial-demokrat partiyaları). Həmin partiyalar yalnız hakimiyyət uğrunda mübarizə vasitələri deyildilər. Eləcə də mədəni həyatın inkişafına təsir göstərən, ona sosial qiymət verən maarifçi təşkilatlar idi. Müasir yüksək səviyyədə təşkil edilən cəmiyyətlərdə müəyyən amillərlə bağlı belə tipli partiyalar aradan qalxır.

Politoloji ədəbiyyatda partiyaların təsnifatı onların siyasi sistemdə yeri və roluna görə verilir. Bu meyara görə, aşağıdakı partiyaların mövcudluğu nəzərə çatdırılır:

1. **Dövlətə qovuşan** partiyalar. Bütün partiyalar dövlət hakimiyyətinə cəhd etsə də, bu tipli partiya bir qayda olaraq, ictimai həyatın başlıca sferaları (iqtisadi, hüquqi, mənəvi) üzərində real nəzarətə malikdir. Partiyanın ideologiyası dövlətin ideologiyasına çevrilir, partiya elitası isə dövlət idarələrini və dövlət idarəetmə sistemini formalaşdırır. Bu tipli partiya üçün sərt mərkəzləşdirmə və üzvlüyün qaydaya salınması, ciddi intizam, fraksiyaların və partiyadaxili diskussiyaların olmaması səciyyəvidir;

2. **Avtoritar partiyalar** – dövlətə qovuşmayan, lakin siyasi rejimin əsasını təşkil edən və onun tərəfindən müdafiə və himayə edilən. Bu partiyalar əsasən radikal islahatçı milli hərəkatlar nəticəsində gənc dövlətlərdə təşəkkül tapır ("üçüncü dünya" ölkələrində milli-inqilabi oriyentasiyalı partiyalar, postsovet məkanında "xalq cəbhəsi" bazasında yaranan partiyalar). Onlar üçün ideoloji fəaliyyət sferasına daha çox diqqət yetirilməsi, cəmiyyətin yenidən təşkilinin radikal metodlarına oriyentasiya, mərkəzləşdirilmiş təşkilat, partiya və dövlət strukturlarının əlaqələndirilməsinə cəhd səciyyəvidir.

3. **Parlament partiyaları** – rəqabətli siyasi sistemlərdə fəaliyyət göstərirlər, belə tipli partiyalarda iki təşkilati mər-

kəz mövcuddur: partiyanın sədri və onun lideri. Sədr faktiki olaraq partiya maşınının meneceri, rəhbəri hesab olunur: o regional şöbələrin fəaliyyətini əlaqələndirir, seçki kompaniiyasını təşkil edir, sənədləşməni həyata keçirir. Lider partiyanın siyasi simasını təcəssüm etdirir, o, hər il partiya konfranslarında seçilir. Bəzi partiyalarda bu iki mərkəz birləşə bilir. Partiya liderinin prezident (prezidentli respublikalarda) və ya baş nazir vəzifəsinə (parlamentli respublikalarda və ya konstitusiyalı monarxiyalarda) namizədliyi təsdiqlənir.

Parlament partiyalarının partiya intizamı digər tipli partiyaların inzibati təşkilindən əhəmiyyətli dərəcədə fərqlənir. Əvvəla, azlığın çoxluğa tabe olması prinsipi mövcud deyildir, başqa sözlə, təşkilati mərkəz partiyada eyni fikirliliyin təmin olunması vasitəsinə malik deyildir. Bu böyük boşluq xeyli sayda fraksiyalar, daimi diskussiyalar doğurur. Xeyli parlament partiyalarının nizamnaməsində onların üzvlərinin təşkilati və ya ideoloji səbəbdən partiyadan kənar edilməsi haqqında fikir yoxdur. Hər bir partiyada mühafizəkar, mərkəzçi və radikal qanad mövcuddur, lakin mərkəzçilər daha böyük nüfuza malikdirlər, hər bir istiqamətin (qanadın) öz mövqeyini azad ifadə etmək hüququ vardır. Avropanın parlament partiyaları üçün vətəndaşları ən geniş dünyagörüşü əsasında birləşdirmək məqsədilə, digər partiyalar və birliklərlə (pproqramları yaxın olan) hərtərəfli koalisiya yaratmaq səciyyəvidir.

Parlament fraksiyalarının fəaliyyətinin əsasını digər təşkilati prinsiplər (qanunverici hakimiyyət orqanlarında partiya və hərəkatların malik olduğu yerin sayı) təşkil edir. Bir qayda olaraq fraksiyalar mütəşəkkil fəaliyyət göstərir, dəqiq geniş proqrama və bir sıra üstünlüklərə (onların fəaliyyətinin dövlət büdcəsindən maliyyələşdirilməsi, qanunvericilik təşəbbüsü hüququ) malikdirlər. Fraksiyalar partiya rəhbərliyindən asılı deyildir, fəaliyyətlərində xeyli dərəcədə müstəqildirlər, bu isə onları partiyada müəyyən gücə çevirir. Məsələn, ABŞ-da ölkə prezidenti vəzifəsinə iddialı olan siyasi lider, partiyanın sədri və Konqresin partiya fraksiyala-

rının rəhbərliyi mövcuddur. Dövlət qərarlarının qəbulu prosesində fraksiya xeyli dərəcədə prezidentə – öz partiyasının liderinə qarşı çıxır və prezident isə fraksiyaya təsir göstərmək üçün formal vasitələrə malik deyildir. Partiyalar tərəfindən irəli sürülən baş nazir və ya prezident əgər fraksiyanın üzvlərinin əksəriyyəti tərəfindən müdafiə olunmursa, bir qayda olaraq istefaya göndərilir.

Prezidentli respulikalarda belə bir praktika yayılmışdır ki, partiyanın lideri prezident vəzifəsinə seçildiyi zaman partiyadan çıxır. Bu yalnız irəli sürülən partiya liderlərinin mənafeyini ifadə etmək cəhdi ilə şərtlənmir, hər şeydən əvvəl, onların bütün cəmiyyətin mənafeyinin ifadəçisi olmaq zərurətindən irəli gəlir. Belə vəziyyət Fransa, Türkiyə, Finlandiya və digər ölkələr üçün səciyyəvidir. Bütövlükdə baş nazirə nisbətən prezidentin onu irəli sürən partiyadan asılı olmaması daha çox nəzərə çarpır.

Politologiyada partiyaların təsnifatına təşkilati struktur meyarı baxımdan cəhd də diqqəti cəlb edir:

1. **Mərkəzləşdirilmiş**, iyerarxiyalı təşkil olunan, güclü rəhbərlik mərkəzinə malik olan, vahid proqram xəttini yerinə yetirən formalaşmış partiya;

2. **Desentralizasiya olunmuş** – başlıca olaraq siyasi sistemdə fəaliyyət göstərən partiyalar. Belə partiyaları səciyyələndirən cəhət ondan ibarətdir ki, partiya sistemi ikinci dərəcəli roly oynayır, siyasi həyatın qlobal, bütöv təşkilinə iddialı deyil;

3. **Kadr partiyaları** – azsaylı olması, üzvlüyə azad və sadələşdirilmiş qəbul qaydası, siyasətçilərinin ciddi statusa malik olmaması ilə fərqlənirlər. Bu partiyalar əsasən, peşəkar siyasətçilərdən formalaşır, partiyaya maddi yardım göstərmək imkanına malik olan maliyyə elitasına arxalanırlar. Bunlara ABŞ-dakı iki ən nüfuzlu partiyanı misal göstərmək olar. Ənənəvi olaraq demokratları **Rokvellerin** qruplaşmaları, respublikaçıları isə Amerikanın iri biznesinin "dəyirmi stol"unun və Texasın "günəş məntəqəsi"nin üzvləri müdafiə edirlər;

4. **Kütləvi partiyalar** – çoxsaylı üzvlərə malik olması, öz sıralarında 10 %-dən artıq vətəndaşı birləşdirməsi və müntəzəm surətdə onların səsini qazanması ilə fərqlənirlər;

5. **Üzvlüyü dəqiq və formal prinsiplərlə** (nizamnamə, partiyaya qəbul formaları və şərtləri, parlament uğrunda mübarizə metodları, partiya üzvlərinə münasibətdə cəzalandırma və mükafatlandırma və s.) müəyyənləşdirilən partiyalar;

6. **Üzvlüyünə qəbulu azad surətdə həyata keçirən partiyalar.** Belə partiyalara mənsubiyyət mövcud partiyanın namizədinə səs verməkdə ifadə olunur (ABŞ), lakin bəzi hallarda partiyaya üzvlük ifadəsi prinsipi daha mürəkkəb olur.

Siyasi partiyaların təsnifatının meyarlarından digəri partiya rəhbərliyi təsisatıdır, bu meyar əsasında aşağıdakı partiyaların mövcudluğu müəyyənləşdirilir:

- **kollektiv rəhbərlik;**

- rəhbərlik edən qrupun liderinin üstünlüyünü ifadə edən **kollektiv rəhbərlik** – bu arbitr rolunu yerinə yetirir, başlıca rəhbərlik istiqamətini müəyyən edir və ya hakimiyyəti bütövlükdə partiyanın fəaliyyəti üçün daha əhəmiyyətli sferalarda təmərküzləşdirir;

- formal surətdə təsdiqlənən başçı tipli **şəxsi rəhbərlik**;

- hakimiyyətin tamamilə liderin əlində cəmləşdiyi **harizmalı rəhbərlik**. Belə partiyalarda cəmiyyətdəki və ya partiyadakı nüfuzundan asılı olaraq, şəxsiyyət (lider) hakim mövqeyə malikdir;

- **Konsensual rəhbərlik**. O, müxtəlif sosial qrupların mənafelərini əks etdirir, mənafelərin nümayəndəliyi kimi çıxış edir (Yaponiyadakı liberal-demokrat partiyası).

Partiyaların funksiyalarının şərhi baxımdan onu siyasi sistemdə böyük sosial qrupların (siniflər, təbəqələr, birliklər) mənafelərinin ifadəçisi olan təşkilat kimi başa düşmək vacibdir. Siyasi partiyaların təhlilinə aid olan əhəmiyyətli məsələ müasir siyasi partiyaların funksiyaları məsələsidir. Partiya əhalinin və dövlətin vertikal əlaqələrinin həlqəsi olmaqla, praktiki olaraq siyasi prosesin bütün mərhələlərini əhatə

edən iki qrup funksiyanı yerinə yetirir. Partiyanın **daxili funksiyasına** onun büdcəsinin formalaşması, rəhbərliyin seçilməsi, partiya bürokratiyası ilə sıravi üzvlərin münasibətlərinin müdafiə edilməsi və s. aiddir.

Partiyanın daha əhəmiyyətli funksiyası olmaq etibarilə, **xarici funksiya** hər şeydən əvvəl, onun siyasi hakimiyyətin əldə edilməsi və bundan istifadə olunması uğrunda mübarizəyə istiqamətlənməsini ifadə edir və onu müdafiə edən əhali qruplarının mənafelərinin reallaşmasına yönəlir. Başqa sözlə, əgər mənafe qrupları bir qayda olaraq bu və ya digər problemi mövcud idarəetmə rejimi şəraitində həll etməyə çalışırsa, partiya daxili və xarici siyasət məsələlərinin həllinə aid öz proqramını irəli sürməklə yanaşı, eyni zamanda ali siyasi hakimiyyətin dəyişdirilməsi iddiası ilə çıxış edir. Lakin siyasi tələbin belə xarakteri tez-tez hakimiyyətin dinc yolla müxtəlif ictimai qüvvələr arasında bölünməsi ilə müşahidə olunur. Bu mənada partiya vətəndaşların qrup mənafelərinin təmin olunmasının elə mexanizmi ilə çıxış edir ki, bu ictimai sarsıntılardan çəkinməyə imkan yaradır.

Partiyalar hakimiyyətlə bağlı olan bu və ya digər iddialarını irəli sürməklə, əhali ilə dövlət strukturları arasındakı əlaqələri, vətəndaşların siyasi iştirakçılığının **təsisatlaşmasını** təmin edirlər, onlar əhalinin kortəbii təzahür edən ictimai siyasi fəallığını rəsmi üsullar (qaydalar) vasitəsilə öz liderlərinin nəzarəti ilə əvəz edirlər. Belə münasibətdə partiya adamların siyasi fəaliyyətsizliyinə qarşı daha təsirli vasitədir, eləcə də hakimiyyətə qeyri-konstitusiyalı, qeyri-hüquqi təsir metodudur.

Bütövlükdə partiyanın iki qrup funksiyasına aid olan başlıca konkret funksiyalar aşağıdakılardır:

- siyasi sistemin bütün səviyyələri üçün **siyasi liderlərin və elitanın seçilməsi və cəlb edilməsi**. Bu, hər şeydən əvvəl, öz namizədlərini seçkilərə irəli sürmək yolu ilə baş verir. Lakin onların fəaliyyətinin açıq xarakteri, hakimiyyətin müxtəlif qolları ilə ayrı-ayrı siyasi təsisatlar arasındakı münasibətləri daim müdafiə etməsi, partiya ekspertlərindən və analitikla-

rindən dövlət idarəçiliyi sisteminin müxtəlif səviyyələrində istifadə olunması partiyaya özünün daha görkəmli və nüfuzlu nümayəndələrini müəyyən dövlət vəzifələrinə göndərməsinə imkan yaradır. Beləliklə, partiya seçkilərsiz cəmiyyət və dövlət işlərinin idarə olunmasında bu və ya digər sahəyə qismən nəzarət edə bilər;

- **nümayəndəlik** – müəyyən ictimai qrupların sosial-siyasi mənafelərinin ifadəsi və təmsil olunması. Mərkəzi və yerli nümayəndəli orqanlarda öz deputatlarına malik olan partiyalar tərəfdarlarının tələblərini artikulyasiya etmək (xəbər vermək) və onları qəbul oluna biləcək səviyyədə hakimiyyət strukturlarının diqqətinə çatdırmaq imkanlarına yiyələnirlər. Bundan əlavə, onlar bu məqsədlə yerli və ya ümummilli miqyasda partiya mətbuat orqanlarından və kütləvi informasiya vasitələrindən istifadə edirlər;

- **sosial inteqrasiya** – öz tərəfdarlarını birləşdirmək. Partiyalar təşkilatçılıq fəaliyyəti vasitəsilə tərəfdarlarını müəyyən mənəvi-ideoloji dəyərlər əsasında birləşdirir, onların siyasi fəaliyyətinə mütəşəkkil və məqsədyönlü xarakter verir. Beləliklə, kütlələrin xeyli hissəsinin fəaliyyəti inteqrallaşan (birləşdirici), sabit, müəyyən forma kəsb edir. Bu isə cəmiyyətdə sabit və başa düşülən zəmində siyasi əlaqə və münasibətləri təşkil etməyə imkan yaradır;

- **siyasi sosiallaşma**. Vətəndaşların siyasi sosiallaşması onlarda hakimiyyətə münasibətdə müvafiq keyfiyyətlərin və vərdişlərin formalaşdırılmasını ifadə edir. Siyasi sosiallaşma müəyyən siyasi mədəniyyətin formalaşdırılması və inkişafına istiqamətlənən, siyasi dəyərlərin və ənənələrin insanların yeni nəslinə bəxş edilməsini əks etdirən, müəyyən partiyaların mövqeyini müdafiə edən fəaliyyətdir;

- **ideoloji funksiya**. Bu funksiya hər şeydən əvvəl, siyasi partiyaların müəyyən dünyagörüşü əsasında işlənib hazırlanan siyasi proqramları ilə əlaqədardır, cəmiyyətin xeyli sosial və sinfi qüvvələrinin mənafeyinin nəzəri formada ifadəsidir. Bundan əlavə, ideoloji funksiya partiyanın öz idealları və dəyərlərinin təbliğ olunmasına, eləcə də partiyanın fəa-

liyyətinə yeni tərəfdarların cəlb olunmasına istiqamətlənən təbliğat və təşviqat işidir. Seçici uğrunda mübarizə aparmaqla, partiya ən mühüm siyasi münaqişələri və onları aradan qaldırmaq yollarını özünəməxsus şəkildə aydınlaşdırır, cəmiyyətdə təşəkkül tapan situasiyanı sıravi vətəndaşların başa düşməsinə çalışır. Bu vəzifəni həll etmək üçün başlıca vasitə ictimai inkişafın başlıca məsələləri üzrə digər siyasi qüvvələrlə fikir ayrılığının ifadəsidir. Amerika alimi **E.Şattşeyder** hesab edir ki, "fikir ayrılığının ifadəsi hakimiyyət uğrunda mübarizənin ən başlıca vasitəsidir", belə halda partiya öz mövqeyini ictimai rəy üçün açıqlamaqla "idarə etmək üçün bütün şanslara malik olur";

- **xüsusi siyasi funksiya**. Bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, birincisi, konkret ictimai-syasi qüvvələrin mənafelərini reallaşdırmağa, bu və ya digər sosial dəyişikliklərin həyata keçirilməsinə istiqamətlənən siyasi strategiyanı reallaşdırır. Partiyanın strateji xətti adətən, siyasi fəaliyyətin başlıca istiqamətini müəyyənləşdirməklə, müttəfiqlərin seçilməsi ilə, böyük siyasi problemlərin mərhələli həllilə bağlıdır. İkincisi, bu funksiya fəaliyyət, partiyanın taktiki fəaliyyətinin işlənib hazırlanması və reallaşması vasitəsilə açıqlanır, mahiyyəti isə siyasətin cari məsələlərinin həllinin konkret üsul və metodları ilə müəyyən olunur.

Siyasi partiyalar cəmiyyətin siyasi sistemində ayrı-ayrı vətəndaşlarla, sosial təbəqələrlə, ictimai qruplarla dövlət hakimiyyəti orqanları arasında "vasitəçi" kimi çıxış edirlər. Onlar kortəbii tələblərə və proseslərə nəzəri və mütəşəkkil qaydalar təlqin etməklə, xalq və hakimiyyət arasında özünəməxsus rol oynayırlar. Qərb siyasi elmində siyasi partiyaların funksiyalarının müəyyənləşdirilməsinə klassik yanaşma belə bir tezisdə əksini tapır ki, demokratik cəmiyyətdə partiya siyasi iradənin formalaşmasına və ifadəsinə imkan yaradır. Lakin belə bir cəhəti diqqətdən yayındırmaq olmaz ki, siyasi partiyaların hakimiyyət uğrunda mübarizəsi müəyyən şəraitdə siyasi prosesin deformasiyasına (formasını dəyişməsinə) gətirib çıxara bilər. Onlar o zaman qeyri-sabit-

ləşdirici rol oynaya bilərlər ki, son dərəcə radikal yönümlü partiyalar siyasi həyatda xüsusi rol oynayırlar. Cəmiyyətin siyasi həyatına partiyalar həm də o halda təsir göstərə bilər ki, onlar hər şeydən əvvəl, xarici qüvvələrin, cəmiyyətin və dövlətin mənafeyinin əsil düşmənlərinin mənafeyini ifadə etməklə qeyri-milli mövqedən çıxış edirlər. Sabit və demokratik inkişaf üçün ciddi təhlükə eləcə də o zaman yaranır ki, partiyalar siyasi mübarizədə qeyri-qanuni metodlardan istifadə edir, gizli və terrorçu fəaliyyət üsullarına meyl edirlər, bu isə konstitusiya qaydalarının və vətəndaş hüququnun pozulmasına gətirib çıxarır. Nəhayət, korrupsiyaya yoluxan, cinayətkar qruplarla sıx əlaqədə olan və bu yolla hakimiyyət strukturları üzərində nəzarətə cəhd edən, fəaliyyəti həmin strukturlarla əlaqə kəsb edən partiyalar tərəfindən cəmiyyətin normal siyasi inkişafına xeyli ziyan vurula bilər.

3. Partiya sistemləri: tipləri, inkişaf meylləri

Cəmiyyətin siyasi sistemində partiyaların rolunu aydınlaşdırmaq üçün partiya sistemlərinin xarakteristikası böyük əhəmiyyət kəsb edir. **Partiya sistemi müxtəlif tipli partiyaların bir-birilə, eləcə də dövlətlə və digər hakimiyyət təsisatları ilə sabit əlaqə və münasibətlərinin məcmuudur.** Partiya sistemi siyasi hakimiyyətin təşkilinin elə formasına qarşı istiqamətlənir ki, burada ya partiya birləşmələri mövcud deyildir və yaxud onların mövcudluğu son dərəcə rəsmi xarakter daşıyır (məsələn, keçmiş SSRİ-də, Albaniyada, bu gün isə Kubada, Şimali Koreyada olduğu kimi). Partiya sistemlərinin formalaşmasına daha böyük təsir göstərən amillərə aiddir: **cəmiyyətin sosial strukturunun xarakteri, fəaliyyətdə olan qanunvericilik (hər şeydən əvvəl, seçki qanunları) və sosial mədəni ənənələr.** Məsələn, kəndli təbəqəsinin xeyli təşəkkül tapdığı ölkələrdə bir qayda olaraq, aqrar partiyalar yaranır. Hər hansı birliyin, məsələn, orta təbəqənin, sinfin müəyyənedici rol oynadığı ölkələrdə hakim partiya sisteminin yaranması üçün zəmin mövcuddur. Əgər cəmiyyətin sosial strukturuna bu və ya digər təbəqələr arasın-

da qütbləşən ziddiyyətlər nüfuz edirsə, belə halda partiya sistemi münaqişəli xarakter kəsb edir və ictimai münasibətlərin gərginləşməsini kəskinləşdirir. Eləcə də sosial qruplar vahid dəyərlər və ideallar sisteminə istiqamətlənirsə, o zaman partiya sistemi partiyadaxili və partiya-dövlət münasibətlərinin daha mülayim formaları ilə səciyyələnəcək.

Partiya sistemlərinin xarakterinə qanun da təsir göstərə bilir. Bu, kiçik partiyaların fəaliyyətinin məhdudlaşdırılmasında, radikal istiqamətli müxalifət partiyalarının seçkilərə buraxılmasına mane olmaqda, qeyri-leqal partiya birliklərinə münasibətdə zorakı fəaliyyətə icazə verilməsində nəzərə çarpır. Majoritar tipli seçki sisteminin fəaliyyət göstərdiyi yerdə bir qayda olaraq, iki partiyalı sistem və ya bir hakim partiya sistemi formalaşır. Proporsional seçki sistemi isə, əksinə, hakimiyyət orqanlarında xeyli siyasi qüvvələrin təmsil olunması şansını təmin etməklə, çoxpartiyalı sistemin və partiya koalisiyalarının yaranmasına yol açır, yeni partiyaların təşəkkülünü yüngülləşdirir.

Sosial mədəni ənənələr də partiya sisteminin yaranmasına əhəmiyyətli təsir göstərir. Çoxcəhətli mədəniyyət nümunələri və dil bu prosesdə özünəməxsus pozitiv rol oynayır.

Partiyadaxili qarşılıqlı münasibətlərin xarakterindən asılı olaraq, partiya sistemləri xeyli dərəcədə onların arasında siyasi fikir ayrılığının mənbəyi sayılan məsələlər tipi ilə şərtlənir. Hazırda elmi ədəbiyyatda bu cür yeddi məsələlər tipi ("problem ölçüləri") müəyyənləşdirilir: mədəni-etnik problemlər; dövlətlə kilsə arasındakı ziddiyyətlər; şəhərlə kənd arasındakı ziddiyyətlər; sosial-iqtisadi ziddiyyətlər; rejimin müdafiəsi ilə bağlı olan problemlər; xarici siyasi problemlər; **R.İnqlxartın** xüsusi diqqət yetirdiyi postmaddi dəyərlərin yayılması[1].

Müxtəlif ölkələrdə partiya sistemləri xeyli spesifikliyə və çoxcəhətli xarakterə malikdir. Bu mənada partiya sistem-

[1] Голосов Т.В. Сравнительная политология. Новосибирск, 1995, с. 125

lərinin formalaşması yalnız yuxarıda qeyd etdiyimiz üç amillə müəyyən olunmur. Həmin prosesə eləcə də, tarixi, iqtisadi, sosial, ideoloji, etnik və digər amillər əhəmiyyətli təsir göstərir.

Partiya sistemi tipinin **tarixən** təşəkkülü dərin siyasi ənənələrlə, cəmiyyətin inkişafının müxtəlif mərhələlərində siyasi qüvvələrin mübarizəsinin xarakteri və hakimiyyətin fəaliyyətinin xüsusiyyətləri ilə müəyyən olunur. **İqtisadi amillərin** təsirinə diqqət yetirərkən, xüsusilə, bu və ya digər ölkə çərçivəsində çoxukladlı təsərrüfatın mövcud olub-olmamasını nəzərə almaq vacibdir. Bir və ya plüralist **ideoloji sistemin** hökmranlığı cəmiyyətdə təşəkkül tapan birpartiyalılığı və ya çoxpartiyalılığı müəyyənləşdirir. Ölkə əhalisinin **etnik tərkibinin** qeyri yekcinsliyi xeyli milli birlikləri əks etdirən mürəkkəbliyə malik partiya sistemi doğura bilər.

Elektoral dəstək əldə etmək məsələsi ilə bağlı, partiyalararası münasibətlərə gəldikdə isə, partiya sistemləri **heterogen** (elektoratın müxtəlif dərəcələri uğrunda partiyanın mübarizəsini təcəssüm etdirən) və ya **homogen** (bir və ya eyni elektorat təbəqəsi uğrunda mübarizəni ifadə edən) rəqabətin üstünlüyü şəraitində təşəkkül tapır. Partiyalararası rəqabətin xarakterindən asılı olaraq, partiya sistemlərinin məzmunu aşağıdakı amillərin təsiri sayəsində formalaşır:

- ciddi müəyyənləşdirilən vəzifələrin həlli üçün partiyanın **müxtəlif tipli**, başqa sözlə, qısa müddətli **birlikləri**. Burada partiya elitası başlıca rolu öz üzərinə götürür;
- müttəfiqlərin dörd növünün qarşılıqlı fəaliyyət göstərdiyi blok, başqa sözlə, iyerarxiyalı ittifaq: öz baza dəyərlərini, mənafelərini və məqsədlərini digərlərinə qəbul etdirən hegemon partiya; bu ittifaqa, bloka liderlik şərtilə daxil olan "ikinci dərəcəli partiya";
- Başlıca "oyunçulardan" daha çox asılı olan və ittifaqa daha miqyaslı xarakter verən **"partiya-rele"**; heç kimin mənafeyinə praktiki zərər yetirməyən **"statistlər"** (əhəmiyyətsiz rol oynayan).
- **koalisiya**, başqa sözlə, müttəfiqlərin uduşu təmin

edən imkanları haqqında rasional təsəvvürə əsaslanan, bütün iştirakçıların, eləcə də partiyanın digər birlik formalarının (həm seçkilər dövründə və eləcə də, ondan sonra təşəkkül tapan) daha bərabərhüquqlu olmasını nəzərdə tutan uzunmüddətli birliklər.

Nəinki partiyadaxili, həmçinin, partiyaların digər siyasi münasibətlərindən (partiya-dövlət, təzyiq qrupları, vətəndaş cəmiyyəti münasibətlərinə aid olan) asılı olaraq, partiya sistemlərinin hər şeydən əvvəl, bu əlaqələrin **keyfiyyət** xarakteristikasına, həm də, partiyaların **kəmiyyət** tərkibinə görə təsnifatına cəhd edilir. Belə ki, ölkədə fəaliyyət göstərən partiyaların sayı baxımından aşağıdakı partiya sistemləri fərqləndirilir:

- **birpartiyalı sistem** – özündə istibdad və demokratik variantları əks etdirir;
- **biryarım partiya sistemi** – tərkibində hakim partiyadan və baxışlarına görə ona yaxın, lakin az tanınan təşkilatdan təşkil olunan koalisiya fəaliyyət göstərir;
- **ikipartiyalı sistem** – rəqabətdə olan, hamı tərəfindən nisbətən eyni dərəcədə tanınan iki partiyanın mövcudluğu;
- **ikiyarım partiya sistemi** – iki nüfuzlu partiyanın vasitəçilik fəaliyyəti ilə əlaqələndirilməsi, eyni zamanda "üçüncü" qüvvə kimi rol oynayan alternativ təşkilat bu iki rəqibin barışmasına imkan yaradır;
- **çoxpartiyalı sistem** – sayı üçdən çox olan partiyalar. Həmin partiya sistemlərindən hər birinin üstün və çatışmayan cəhətləri vardır. Məsələn, Yaponiyanın, Suriyanın, İspaniyanın və bir sıra digər ölkələrin təcrübəsi təsdiqləyir ki, çoxpartiyalı sistemin üstünlüyü təkbaşına idarə edən partiyanın xeyrinədir. Siyasi cəhətdən sabit inkişaf edən Niderland, Danimarka, Belçika, Avstriya və bəzi digər dövlətlərdə çoxpartiyalılıq hakim partiyasız daha faydalıdır. ABŞ-da, İngiltərədə, İrlandiyada, Kanadada, Avstraliyada və bir neçə digər ölkədə təsis edilən ikipartiyalı model vətəndaşlara seçmək, hökumətə kursu dəyişmək, cəmiyyətdə sabitlik imkanı yaradır, lakin siyasi bazarda yeni partiyaların tə-

zahürünü çətinləşdirir.

Belə bir cəhəti də qeyd etmək vacibdir ki, ənənəvi olaraq, Avropa siyasi partiyaları yaşlı əhalidən ibarət olan vətəndaşlara güclü təsir göstərir. Məsələn, AFR-də siyasi partiyaların üzvlərini seçki hüququ olan yaşlıların 4,5%-i, İsveçrədə 8,5%-i, İtaliya və Niderlandda 9,5%-i, Belçikada 10%-i, İsveçdə 15%-i, Avstriyada 23%-i təşkil edir. Müqayisə üçün qeyd edək ki, 1995-ci ildə Rusiyadakı siyasi partiyalarda yaşlı vətəndaşlar məhz 1,9% təşkil etmişdir.

Daha geniş yayılan metodikaya müvafiq olaraq, bütün partiya sistemləri **rəqabətdə olan və rəqabətdə olmayan (birpartiyalı)** partiya sistemləri kimi nəzərdən keçirilir. Rəqabətdə olan partiya sistemi öz növbəsində çoxpartiyalı, ikipartiyalı və hakim partiyadan ibarət çoxpartiyalı sistemə ayrılır.

Çoxpartiyalı sistem (inteqral çoxpartiyalılıq) ümummilli əhəmiyyət kəsb edən və siyasi həyatda müstəqil rol oynayan çoxsaylı siyasi partiyalarla səciyyələnir (Məsələn, Fransada, İtaliyada). Bir qayda olaraq, çoxpartiyalılıq şəraitində parlamentdə təmsil olunan partiyalardan heç biri müstəqil surətdə hökumət yaratmaq iqtidarında deyildir. Buna görə, icraedici hakimiyyət koalisiya zəminində, partiyalararası əsasda formalaşır. Çoxpartiyalılıq belə bir cəhəti ifadə edir ki, cəmiyyətdə çoxsaylı siyasi partiyalar vasitəsilə əhalinin ən müxtəlif təbəqələrinin mənafeyi təmsil olunur, lakin onlar bu mənafeləri effektli reallaşdırmaq və onların harmoniyalılığını təmin etmək iqtidarında deyildirlər.

Beləliklə, çoxpartiyalı sistem hakimiyətin mənafeyini və yayılmasını ifadə etmək üçün geniş imkanlar yaradaraq, dövlət hakimiyyəti orqanlarının mümkün ola bilən qeyri-sabitliyinə zəmin hazırlanmasını, siyasi partiyaların rəqabət xarakterli kəskin mübarizəsi nəticəsində hakimiyyətin tez-tez əvəz olunmasına təsir etməyi özündə əks etdirir. Hətta parlamentdə və hökumətdə təmsil olunan nisbətən kiçik partiya siyasi situasiyanın qeyri-sabitliyinə və koalisiya hökumətini istefaya göndərməyə nail ola bilər. Belə şəraitdə

müxtəlif siyasi qüvvələrin birliyini təmin edən və siyasi rəqabət gedişində qeyri-müəyyənlik dərəcəsini azaldan sabit və möhkəm partiya ittifaqı tarazlaşdırıcı mexanizm kimi çıxış edir. **İkipartiyalı sistem** ölkədəki iki böyük və daha nüfuzlu siyasi partiyaların qarşılıqlı fəaliyyəti əsasında təşəkkül tapır. İkipartiyalılıq digər, o cümlədən ümummilli səviyyədə partiyaların qeyri-mövcudluğunun ifadəsi deyildir, lakin onların hamısı aparıcı siyasi qüvvələrin qarşıdurmasına müdaxilə etmir.

Bəzi politoloqların fikrincə, nə qədər ki, siyasi seçim hər şeydən əvvəl, "dualist formada" çıxış edir, belə halda ikipartiyalılıq "təbii" xarakter daşıyır **(M.Dyuverje)**. Bu cür sistem özünün yüksək funksionallığını və nəticə etibarilə, səmərəliliyini təzahür etdirir və hakimiyyətin real sabitliyini təmin edir. İkipartiyalı sistem əhalinin güclü orta təbəqələrinin mövcudluğu bazasında təşəkkül tapır, bu o zaman nəzərə çarpır ki, vətəndaşların əksəriyyəti siyasi spektrin mərkəzinə cəlb olunur, radikal yönümlü partiya isə kütləvi bazaya malik olmur və kifayət qədər ciddi təsir göstərə bilmir.

İkipartiyalılıq şəraitində aparıcı siyasi partiyalardan hər biri seçkilərin nəticələrinə görə, müstəqil surətdə hökuməti formalaşdırmaq imkanına və qabiliyyətinə yiyələnir. Seçicilərin rəğbətinin azalması əsas partiyaların ölkənin idarə olunmasında bir-birini əvəz etməsinə gətirib çıxarır. Bununla bağlı hər iki partiya daha çox özünə yaxın olan təbəqələrə üz tutur, dövlət siyasətinin qeyri prinsipial kursu dəyişir. Bununla belə, hakimiyyətin sabitliyi zərurəti əldə olunur.

Bu sistemin başlıca qüsuru ondan ibarətdir ki, iki qüdrətli siyasi partiyanın hakimiyyət uğrunda mübarizəsi uzun müddətli seçki kompaniyası dövründə yaradıcı fəaliyyətdən uzaqlaşmağa gətirib çıxarır, eləcə də qərabətdə olan qüvvələrin diqqət mərkəzində əksəriyyət hallarda pozitiv məqsədlər yox, neqativ sosial-siyasi faktlar dayanır. Bununla yanaşı, faktiki olaraq üçüncü qüvvə tərəfindən ciddi alternativlik aradan qalxır, bu isə bütövlükdə ikipartiyalı sis-

temin nümayəndəlik imkanlarını azaldır.

Qeyd etmək maraqlıdır ki, "tam" ikipartiyalılığa (başqa sözlə, ikipartiyalılığa çox və ya az "təmiz" formada) əsasən, ingilis-Amerika ölkələrində (məsələn, ABŞ, Böyük Britaniya, Yeni Zelandiya və b.) təsadüf edilir, eyni zamanda, çoxpartiyalılıq özünün klassik formasında daha aydın şəkildə roman xalqlarında – tarixən qədim Roma ilə bağlı olan xalqlarda (Fransa, İtaliya, İspaniya, Latın Amerikası dövlətləri və b.) təzahür edir.

İkipartiyalı sistemin müxtəlifliyi "tam olmayan" ikipartiyalılıq və ya "ikiyarım partiya" sistemi kimi çıxış edir. Belə "tam olmayan" ikipartiyalılıq öz təcəssümünü müharibədən (1941-1945-ci illər) sonrakı dövr ərzində AFR-in siyasi həyatının praktikasında tapır. O, elə hallarda yaranır ki, üçüncü partiya ilə koalisiya şəraitində iki böyük partiya siyasi meydanda rəqabət aparır. Buna görə, onlar hakimiyyətdə bir-birini əvəz etməklə, eyni zamanda öz kiçik müttəfiqi ilə koalisiyada çıxış etməyə məcburdur.

Hazırkı şəraitdə **hakim partiyadan ibarət çoxpartiyalı sistem** xeyli yayılmışdır. Plüralist mahiyyət kəsb etməklə, o, ölkədə mövcud olan xeyli siyasi partiyalardan birinin xüsusi imkanlarını ifadə və təmin edir. Belə sistemin təşəkkülü və fəaliyyətinin şərti uzun dövr ərzində seçkilərdə seçicilərin 30-35%-dən çox səsini əldə edən partiyanın hakim mövqeyidir (həmin vaxt rəqabət aparan partiyalardan hər biri 10-15% səs əldə edir). Buna görə, müxalifət partiyaları müxtəlif səbəblər üzündən vahid müxalifət blokunu formalaşdırmağa qadir olmur. Belə ki, Avropada hakim partiyadan ibarət çoxpartiyalı sistem İsveçdə, Norveçdə və Danimarkada təşəkkül tapmışdır, o, Hindistanın siyasi praktikası, eləcə də bir sıra digər ölkələr üçün səciyyəvidir.

Bu partiya sistemi kifayət qədər sabitliyə və müəyyən effektivliyə malik olmaqla yanaşı, eyni zamanda bir siyasi qüvvənin liderliyini müdafiə etməyə meyllidir, müəyyən hallarda isə siyasi həyatda fəaliyyətsizliyi ilə nəzərə çarpır. O, həmçinin, birpartiyalı sistemə keçid mərhələsi də ola bilər

(hakim partiyadan yüksəkdə duran çoxpartiyalılığa çevrilərsə), əlbəttə, hər cür siyasi rəqabətin aradan qaldırılması ilə bağlıdır (keçmişdə Şərqi Avropanın bir sıra ölkələrində olduğu kimi).

Son onillikdə bir sıra Avropa ölkələrində parlamentdə təmsil olunan partiyaların sayına aid rəqəmdər bəzi Avropa ölkələrində nüfuzlu ümummilli siyasi partiyalar haqqında təsəvvür yaradır. Məsələn, Avstriyada 4, Almaniyada 5, Belçikada 7, İtaliyaja 10, İsveçrədə 11, Niderlandda 12 ümummilli partiya parlamentdə təmsil olunur.

Birpartiyalı sistem rəqabətdə olmayan partiya sistemi tipi olmaqla, siyasi plüralizmin tam qeyri mövcudluğu ilə səciyyələnir, ciddi şəkildə desək, partiya sistemi kimi nəzərə çarpmır. Onun formalaşması şəraiti müxtəlif ola bilər: o, kifayət qədər inkişaf etməmiş sosial differensiasiya, patriarxal ənənələrin hökmranlığı (inkişaf etməkdə olan ölkələrdə) nəticəsində, eləcə də konkret-tarixi amillərin təsiri altında (SSRİ-də vətəndaş müharibəsi nəticəsində) təşəkkül tapır.

Birpartiyalı sistem yüksək sosial effektivlik nümayiş etdirməyə qadirdir (xüsusilə ölkənin inkişafının ekstremal şəraitində), bundan əlavə, xüsusi səfərbəredici qabiliyyətə malikdir. Onun "anadangəlmə" qüsurları bunlardır:

- idarə edən partiyanın dövlətə qovuşmasının zəruriliyi, bunun nəticəsində onların **simbiozu** (bir-birindən istifadə edərək birlikdə yaşaması) yaranır, partiyanın özü isə partiya birliyinin mahiyyətli keyfiyyətini itirməyə başlayır ("ümumi" xarakter kəsb edir);
- birpartiyalılıq tarixi praktikanın göstərdiyi kimi, siyasi problemlərin həllinin inzibati metodlarını doğurur;
- birpartiyalılıq şəraitində hakimiyyətdən ciddi suiistifadə imkanları təşəkkül tapır ki, bu da demokratik nəzarətdən uzaqlaşmadır;
- siyasi partiyaların rəqabətinin mövcud olmaması vaxtı gələndə müəyyən siyasi durğunluq doğurur, müxalifətçi əhval-ruhiyyənin zəifləməsinə və gələcəkdə ciddi sosial-siyasi münaqişələrin artmasına gətirib çıxarır.

Yeri gəlmişkən qeyd edək ki, partiya sistemlərinin təşəkkülü yollarını tədqiq edən ilk politoloq **Moris Dyuverje** hesab olunur. Seçki ilə partiya sisteminin qarşılışlı əlaqəyə malik olduğunu sübut etmək məhz ona məxsusdur. **Dyuverje** partiya sistemlərini araşdırarkən "üç sosial qanunu" işləyib hazırlamışdır:

1. Proporsional seçki sistemi bir-birindən asılı olmayan, sərt daxili struktura malik çoxlu partiyalarla səciyyələnən çoxpartiyalı sistemin yaranmasına gətirib çıxarır.

2. İki turda keçirilən majoritar səsvermə sistemi qarşılıqlı əlaqələrə və kompromislərə can atan, öz mövqeyini çevikliklə dəyişə bilən bir neçə partiyanın mövcud olduğu partiya sisteminin meydana gəlməsinə şərait yaradır.

3. Bir turda keçirilən majoritar səsvermə sistemi iki partiyanın rəqabətdə olduğu partiya sisteminin formalaşmasını şərtləndirir[1].

Birpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemlər adətən, müxtəlif siyasi rejimlərə malik olan ölkələrdə təşəkkül tapır. Belə bir cəhəti qeyd etmək vacibdir ki, cəmiyyətin demokratikləşməsi səviyyəsi heç də bilavasitə partiya sistemlərinin tipi ilə bağlılıq kəsb etmir. Lakin hər halda XX əsrin siyasi tarixi təsdiqləyir ki, çoxpartiyalılıq (əgər o dekorativ xarakter daşımırsa) cəmiyyətin siyasi həyatının, ümumiyyətlə, onun bütün sferalarının demokratikləşməsi üçün əlverişli şərait yaradır.

Çoxpartiyalı sistemin mövcudluğu kompleks amillərlə: sosial, milli, ideoloji, dini, tarixi və təsisatlı amillərlə şərtlənir. "Partiya sistemləri sosial maraqları və siyasi baxışları qruplaşdırır, onlara yerli və ümummilli səviyyədə özünü ifadə imkanı yaradır, ictimai-siyasi qüvvələri, o cümlədən seçiciləri təşkil edir, onların nümayəndəli orqanlara deputatların irəli sürülməsində və istiqamətləndirilməsində yardımçı olur. Siyasi nöqteyi-nəzərdən demək olar ki, partiya sistem-

---

[1] Г.ВПушкарева. Партии и партийные системы: концепция М.Дюверже. "Социально-политической журнал". 1993, № 9-10. с. 117

ləri hakimiyyətin həyata keçirilməsinin ikinci yoludur"[1].

Çoxpartiyalılıq bilavasitə sosial təbəqələrlə bağlıdır və onların müxtəlifliyini əks etdirir. O, əhalinin yekcins olmayan milli tərkibi ilə də şərtlənə bilər. Bu, etnik qrupların mənafelərinin partiya tərəfindən təmsil olunmasını nəzərdə tutur. Çoxpartiyalılığın təşəkkülü ideoloji və dini plüralizmlə müəyyən olunur və xeyli dərəcədə proporsional nümayəndəlik və majoritar sistemdəki seçkilərdə stimullaşdırılır (**M.Dyuverje**). Şübhəsiz, çoxpartiyalılığın mövcudluğu, siyasətdə qrup mənafelərinin çoxcəhətliliyinin təmsil olunmasının optimal imkanları və siyasi koalisiyanın potensialının reallaşması sosial münaqişələrin həlli üçün zəruridir. Çoxpartiyalılığın neqativ tərəfi isə mənafelərin aqreqasiyası (ümumiliyi) ilə parlament çoxluğunun sabitliyinin qarşıdurmasının mənbəyidir.

Siyasi partiyaların və partiya sistemlərinin strukturunun yeni istiqamətdə təkmilləşməsi və onların kütlələrə real təsirinin güclənməsi ilə bağlı, partiya sistemlərinin inkişafında özünəməxsus, spesifik meyllər üzə çıxır.

[1] Политология: Энциклопедический словарь, М., 1993, с. 143

III BÖLMƏ
DEMOKRATİYA VƏ DEMOKRATİK TƏSİSATLAR

I FƏSİL
DEMOKRATİYA SPESİFİK SİYASİ FENOMENDİR

1. Demokratiya haqqında başlıca nəzəriyyələr

Müxtəlif ölkələrdə demokratiyanın təşəkkülü və inkişafı yüzilliklər ərzində fəlsəfi-nəzəri planda təhlil edilmişdir, bununla yanaşı, tədqiqatçılar onun müxtəlif praktikasını empirik baxımdan da mənalandırmışdır. Buna görə də bu və ya digər dövlətin praktiki təcrübəsinin əks etdirilməsi demokratik quruculuğun normativ **modelinin** yaradılmasına çevrilmişdir.

Demokratiya problemi çoxdandır ayrıca dövlətlərin və xalqların son dərəcə əhəmiyyət verdiyi vacib məsələ kimi nəzərə çarpır. XX əsrin sonları və XXI əsrin əvvəllərində posttotalitar inqilab ölkələrin böyük qruplarında demokratiyaya yol açmaqla və dünyanın siyasi mənzərəsini dəyişdirməklə, "qlobal demokratikləşmə"haqqında danışmağa imkan yaradır. Demokratik transformasiyanın belə miqyası onun mənalandırılması və hər şeydən əvvəl, demokratik tranzitdə beynəlxalq amilin rolunun başa düşülməsi zərurətini doğurur. Demokratiyanın nəzəri cəhətdən müxtəlif şərhlərinə baxmayaraq, son nəticədə həmin şərhlər iki daha ümumi mövqe ilə tamamlanır.

"Sərvət yönümü" nöqteyi-nəzərinin tərəfdarları demokratiyanı hakimiyyətdə müəyyən idealları və prinsipləri tamamilə təcəssüm etdirən siyasi quruluş kimi nəzərdən keçirirlər. Demokratiyanın bu cür müəyyənləşdirilməsi onun sosial mənasını və əhəmiyyətini ifadə edir. Belə tədqiqatçılar demokratiyanı xalq hakimiyyəti sistemi kimi qiymətləndirirlər ki, bu da onun etimologiyasına (yunanca demos –

xalq, cratos – hakimiyyət deməkdir) tamamilə uyğun gəlir.

"Rasional-prosedur" mövqeyin tərəfdarları isə bildirirlər ki, demokratiya məhz o zaman mümkündür ki, cəmiyyətdə hakimiyyətin resurslarının yayılması o dərəcədə geniş xarakter kəsb edir ki, ictimai qruplardan heç biri rəqibini özünə tabe etmək və ya hakimiyyət hegemonluğunu saxlamaq iqtidarında olmur. Belə halda situasiyadan daha səmərəli çıxmağın yolu kompromisə nail olmaqdan, funksiya və səlahiyyətlərin qarşılıqlı bölgüsündən ibarətdir. Bunlar siyasətin demokratik təşkili mövcudluğunu ifadə edən prosedura və texnologiyalardır.

Demokratiyanın bu cür başa düşülməsini ilk əsaslandıranlardan biri **M.Veberdir**. O, öz fikrini **plebisit** (ümumi səsvermə) **idarəetmə** nəzəriyyəsində irəli sürür. **Veberin** fikrincə, demokratiya hökmranlıq "vasitəsi", ümumi "xalq iradəsi" kimi səciyyələnir. Vətəndaşlar öz mənafelərini müdafiə etmək üçün özünün hakimiyyətə və idarəetmə aparatına nəzarət hüququnu ümumxalq səsverməsi yolu ilə seçilən harizmalı liderə verməlidir. Buna görə, **Veber** iddia edir ki, demokratiya "xalqın etibar etdiyi lideri seçdiyi zaman" həyata keçirilən prosedura və razılığın məcmuudur. Demokratiyanın proseduralı və prosessual aspektini vurğulayarkən, bu alman politoloqu kütlələrin idarəetmədə iştirak ideyasını tamamilə rədd edir.

Müasir siyasi elmdə daha əvvəlki tarixi mərhələlərdə işlənib hazırlanan və yuxarıda qeyd etdiyimiz yanaşmalar çərçivəsində təzahür edən xeyli ideya (Marksizm, liberalizm və s.) öz ifadəsini tapmışdır. Lakin dəyişən reallığı, demokratik prosesləri dinamikasını nəzərə alan bir sıra nəzəriyyələr də formalaşmışdır. Məsələn, sərvət yönümü mövqeyi çərçivəsində **partisipar** (ingiliscə, participation – iştirak etmək deməkdir) demokratiya ideyası təşəkkül tapmışdır.

Həmin ideyaya görə, demokratiyanın siyasi təşkilinin mahiyyəti bundan ibarətdir ki, siyasi sistemin bütün səviyyələrində cəmiyyət və dövlət işlərinin idarə olunması üçün bütün vətəndaşlar bu və ya digər funksiyaları mütləq

icra etməlidirlər (məsələn, dövlət qərarlarının qəbulunda, icmalara, ayrıca ərazilərə aid qərarların qəbul edilməsində).

Lakin dünyada demokratik qaydaların praktiki olaraq genişləndiyi şəraitdə prosedur yanaşma çərçivəsində nəzəri quraşdırmalar daha fəal inkişaf etmişdir. Məsələn, Amerika alimi **Y.Şumpeter** "Kapitalizm, sosializm, demokratiya" (1942) kitabında **eqalitar elitizm** nəzəriyyəsinin başlıca müddəalarını işləyib hazırlamışdır. Həmin nəzəriyyənin əsas müddəalarına müvafiq olaraq, azad və suveren xalq siyasətdə tamamilə məhdud funksiyalara malik olur.

Sıravi vətəndaş yalnız aralıq təsisatı seçir və nəticədə hökuməti formalaşdırır, sonra isə idarəetmədən tamamilə uzaqlaşdırılır. Buna görə, demokratiya seçicilər tərəfindən müdafiə olunmaq və onların səsini qazanmaq üçün elitaların yarışını təmin edən son dərəcə təsisatlı tədbirdən başqa heç nə deyildir.

Demokratiyanı belə başa düşməklə, **Şumpeter** onun başlıca problemini ixtisaslı siyasətçilərin seçilməsində görürdü. Demokratik idarəetmə formasının fəaliyyəti üçün o, idarə edənlərin fəaliyyət üsulunu da mühüm şərt hesab edirdi. **Şumpeterin** fikrincə, idarə edən elita yalnız başa düşülən deyil, həmçinin, xalqın qəbul etdiyi formada qərar qəbul etməlidir. Belə xarakterli fəaliyyəti təmin etmək üçün hakimiyyət və bürokratiya öz peşəkar fəaliyyət normalarını ciddi surətdə gözləməlidirlər.

Həmin ideyada idarə edən dairələrin nəzərə çarpan rolunun qeyd olunması ilə yanaşı, kütlələrin demokratik quruluşun formalaşması prosesində iştirakının zəruriliyi də etiraf edilir. Bu mənada haqqında mülahizələr yürütdüyümüz ideyalar XX əsrdə geniş yayılan **elita** nəzəriyyələrindən köklü surətdə fərqlənir. Bu nəzəriyyələr demokratiyanın mahiyyətini idarə edənlərin fəaliyyəti ilə əlaqələndirirlər. Belə ki, **P.Barax, C.Sartori, H.Kene** və bir sıra digər alimlər hesab edirdilər ki, özünü idarə edən demos-mif deməkdir, onun siyasi zorakılığa meylli olması isə ictimai mənafe üçün təhlükədir. Buna görə onlar demokratiyanın zəmini olmaq

etibarilə, elitanın rolunun durmadan artmasını qiymətləndirməklə, idarə edənlərlə idarə olunanlar arasındakı məsafənin genişlənməsini hakimiyyətin qüsuru mənada deyil, məhz sabitliyin rəhni kimi əsaslandırmağa cəhd edirdilər.

Demokratiya nəzəriyyəsinin inkişafına **plüralizm** tərəfdarları əhəmiyyətli töhfə bəxş etdilər. Plüralizm termini elmi dövriyyəyə ilk dəfə **X.Volf** (1679-1754) tərəfindən gətirilsə də, demokratik nəzəriyyənin işlənib hazırlanması üçün həmin termindən məhz XX əsrin birinci yarısında istifadə olundu (**Q.Laski, D.Trumen, R.Dal**). Bu konsepsiyada demokratiya onun müxtəlif qüvvələr arasında diffuziyası şəraitində formalaşan hakimiyyətin təşkilinin tipi kimi nəzərdən keçirilir. Bu mənada demokratiya siyasətin başlıca hərəkətverici qüvvələri olan müxtəlif qrupların azad oyunu, yarışı hesab edilir. Demokratiya nəzəriyyəsinin inkişafına **A.Leyphart** diqqətəlayiq töhfə bəxş etmişdir. O, **konsosial (konsosiational)** demokratiya ideyasını irəli sürməklə, plüralist demokratiya konsepsiyaları sistemini əhəmiyyətli dərəcədə təkmilləşdirmişdir. Bu alim eləcə də demokratiyanın mahiyyətinin prosedur tədbirlərdən ibarət olduğunu bildirirdi və həmin mövqedən çıxış edərək "hakimiyyətin bölünməsinin" orijinal modelini işləyib hazırlamışdır. Bu model azlığın mənafe nümayəndəliyinin təmin olunmasını nəzərdə tuturdu, lakin onun dövlət idarəçiliyi vasitələrinə yiyələnməsini məqbul hesab etmirdi. Bununla bağlı **Leyphart** həmin azlığın hakimiyyətə gələ bilməsi üçün dörd ən mühüm mexanizmi müəyyənləşdirir.

Belə model hər şeydən əvvəl, cəmiyyətin başlıca təbəqələrini təmsil edən bütün partiyaların iştirakilə koalisiyalı hökumətin yaradılmasını nəzərdə tutur. Həmin modeldə əhalinin müxtəlif qruplarının proporsional nümayəndəliyini təmin edən texnologiyanın rolu son dərəcə prinsipial məna kəsb edir. Demokratiyanın bu modelinin işlənib hazırlanması üçün siyasi məqsədlərin müəyyənləşdirilməsində qruplara imkan yaradılmasına son dərəcə əhəmiyyət verilir və eləcə də bu məqsədlə onların veto hüququna malik olması

bildirilir, qəti qərar qəbul olunması üçün adi deyil, məhz ixtisaslı çoxluğun (səslərin üçdə ikisi və ya dörddə üçünün) mövcudluğu azlığın nümayəndələrinə öz mənafelərinin müdafiəsi üçün əlavə şans vermiş olardı[1].

Lakin praktikada belə model azlığın siyasi periferiyaya və müxalifət düşərgəsinə sıxışdırılmasına istiqamətlənir. Hakimiyyətdə iştirak etməyin belə demokratik modeli məhz o halda mümkündür ki, qruplar öz siyasi təşkilatlarına malikdirlər və nisbi müstəqillik kəsb edən siyasət həyata keçirirlər.

Son illər **bazar demokratiyası** nəzəriyyəsi də əhəmiyyətli dərəcədə yayılmışdır. Bu nəzəriyyəyə görə, hakimiyyətin mövcud sisteminin təşkili demokratik sistemə bənzərlik kimi səciyyələnir. Belə halda "əmtəə malın" daimi mübadiləsi baş verir, satıcılar-hakimiyyətin daşıyıcıları öz qazancını, statusunu, seçicilər tərəfindən "müdafiə olunmaq" imtiyazını mübadilə edirlər. Beləliklə, siyasi fəaliyyət elə elektorat davranış hesab olunur ki, bu çərçivədə səslərin verilməsi aktı özlüyündə "alınma" və ya "investisiya", seçicilər isə əsasən, passiv "istehlakçılar" kimi şərh edilir. Deməli, demokratiyanın başlıca vəzifəsi elə seçki strategiyaları tətbiq etməkdən ibarət olur ki, o, hakimiyyətə namizədliyi seçicilərin mövqeyi ilə əlaqələndirir. Bu, vətəndaşların iradəsini manipulyasiya etmək üçün meydan açsa da, **U.Qrayderin** dediyi kimi, "belə düzəltmə iradə" "demokratiyanın kirayə verilməsinin" mahiyyətini dəyişdirmir. Demokratiyanın prosedur əsasının müasir görüntüsü indiki cəmiyyətin texniki inkişafını təhrif edə bilməz. Kütləvi kommunikasiyanın strukturunda elektron sistemin təzahürü və rolunun artması teledemokratiya ideyasını həyati zərurətə çevirdi. Belə halda demokratiya üçün ənənəvi proseduranın mövcudluğu, hakimiyyətin texniki cəhətdən təchiz olunması səviyyəsi və qarşılıqlı interaktiv təsir sistemi (TV, İnternet)

---

[1] Лейпхарт А. Демократии в многосоставных обществах. Сравнительное исследование. М., 1997

vətəndaş strukturu ilə əlaqələndirilir (seçkilər, referendum, plebisit zamanı).

Əhalinin geniş təbəqələrinin siyasi həyata cəlb olunması faktı bir sıra alimlərin səylərini prosedur yanaşma çərçivəsində sıravi vətəndaşın rolunu gücləndirməyə istiqamətləndirdi. Belə ki, **A.Ettision** "zəkalı" ictimai sistem konsepsiyasını təklif etdi. Bu konsepsiyaya görə, hakimiyyət cəmiyyətin daxilindən impulslara həssas reaksiya verir. Məhz belə həssaslıq qabiliyyəti, vətəndaşlarla dialoqa hazır olmaq, həmin alimin fikrincə, demokratik siyasətə uyğun gəlir. İctimaiyyətin rolunun daha çox qiymətləndirilməsinə dair **Ettisionun** ideyası "refleksiyalaşmış" (düşündürücü) demokratiya konsepsiyasında öz əksini tapdı. Bu konsepsiyada hakimiyyətin funksiyasının yerinə yetirilməsini təmin edən prosedura deyil, məhz ictimai rəyin siyasi idarəetməyə nüfuz etməsi vurğulanır. Həmin ideyanın tərəfdarlarının fikrincə, qərarların qəbulu prosesində elə mexanizm formalaşır ki, "xalqın muxtarlığı" siyasi sferada demokratiyanın mahiyyətini təşkil edir[1].

Harvard Universitetinin strateji tədqiqatlar institutunun sabiq direktoru **S.Hantinqton** bəzi avtoritar rejimlərin demokrtiyaya keçid prosesini demokratikləşmənin üçüncü dalğası kimi səciyyələndirir. Bu alimin fikrincə, həmin prosesin başlıca məzmunu demokratik prinsiplərin və təsisatların ölkələrin xeyli qrupunda yayılmasından ibarətdir.

S.Hantinqton tərəfindən "üçüncü dalğa" konsepsiyası **O.Tofflerin** "Üçüncü dalğa" əsərinin təsiri altında işlənib hazırlanmışdır. **O.Toffler** həmin əsərində sosial həyatın bütün sferalarında baş verən dəyişiklikləri elektron və informasiya inqilabının nəticəsi kimi nəzərdən keçirir. **S.Hantinqton** özünün "Üçüncü dalğa". XX əsrin sonunda demokratikləşmə" əsərində totalitarizmdən və avtoritarizmdən demokratiyaya keçidin zəmini, gedişi və perspektivini təhlil edərək,

[1] Bohman J., Renq w Deliberative Democracy. Essays on Reason and Politics. Cambridqe. L., 1997

müasir dünyada baş verən dəyişikliklərin geniş və bütöv mənzərəsini açıqlayır. O, qlobal siyasi dəyişiklikləri şərh etmək üçün **"demokratik dalğa"** və ya **("demokratikləşmə dalğası")** anlayışını işlədir:

Demokratikləşmə dalğası ölkələr qrupunun müəyyən zaman ərzində qeyri-demokratik rejimlərdən demokratik rejimə keçməsidir. Bu zaman əks inkişaf istiqaməti də baş verir[1].

Bu dalğa eləcə də **liberallaşmanı** və siyasi sistemin qismən **demokratikləşməsini** ifadə edir. Lakin demokratikləşmə ilə yanaşı, əks proseslər də baş vermişdir, belə ki, ölkələrin böyük qrupunda antidemokratik qüvvələrin güclənməsi ilə bağlı demokratikləşməyə zidd meyllər üstünlük təşkil etmişdir. Bu meyllər həmçinin, demokratiyanın məğlubiyyəti, avtoritar və totalitar rejimlərin yaranması ilə şərtlənmişdir. **Hantinqton** bu mərhələləri tarixdə **"təbii dalğa"** (və ya demokratikləşmədən yayınma – reverse "wave") adlandırır. Təbii olaraq demokratikləşmə silsilə proses kimi nəzərdən keçirilir. Lakin bu silsilələr heç də həmişə labüd zərurət deyil. Həmin silsilələrdən hər biri lokal məkan həddi çərçivəsində müvafiq konkret şəraitdən asılı olaraq təzahür edir.

Samuel Hantinqton demokrtaikləşmənin aşağıdakı dalğalarını müəyyənləşdirir.

- uzunmüddətli ilk demokratikləşmə dalğası (1828-1926);
- demokratikləşmədən ilk yayınma dalğası (1922-1942);
- demokratikləşmədən yayınmanın ikinci dalğası (1958-1975);
- başlanğıcını Portuqaliyadakı inqilabdan götürən üçüncü demokratikləşmə dalğası (1974).

Əgər XX əsrin 20-30-cu illəri antidemokratik meylin üstünlüyü ilə səciyyələnirsə, müasir demokratik dalğanın

---

[1] Huntinqton S. The Third Wave: Democratization in the Lafe Twentieth Century. London: Norman, 1991. P. 14

fərqləndirici cəhəti əvvəlki demokratik proseslərlə müqayisədə daha qlobal xarakter kəsb etməsidir. **S.Hantinqton** 1970-1980-ci illərdəki qlobal demokratik prosesi müəyyənləşdirən demokratikləşmənin üçüncü dalğasının beş ümumi şərtini nəzərə çatdırır.

- avtoritar və totalitar sistemlərin legitimliyinin böhranı;
- 60-cı illərdə dünya iqtisadiyyatının misilsiz inkişafı, eləcə də təhsilin inkişafı və şəhər orta sinfinin artması;
- 60-cı illərdə katolik kilsəsi doktrinasında ciddi dəyişikliklər;
- aparıcı dünya siyasi qüvvələrinin (ABŞ, SSRİ, Avropa cəmiyyəti) siyasi kursunda dönüş;
- beynəlxalq kommunikasiyanın yeni vasitələrilə gücləndirilən nümayiş effekti, eləcə də üçüncü dalğa çərçivəsində demokratiyaya keçidin başlanğıc təcrübəsi (digər ölkələrdə rejimin dəyişiməsini gücləndirməyə xidmət edən).

S.Hantinqton yuxarıda qeyd etdiyimiz mulahizələrindən çıxış edərək avtoritarizmin əks dalğasının mümkünlüyünü də diqqətdən yayındırmır. Bunun səbəbi aşağıdakılardır:

- gənc demokratiyalarda çətinlik sistemi;
- dünyada, regional, milli iqtisadi böhran;
- demokratik dövlətlərdən birinin avtoritar idarəetməyə keçməsi;
- qısa müddətdə islahatların həyata keçirildiyi zaman yaranan sosial və siyasi gərginlik;
- terrorçuluq, üsyançılıq və müxalifətin hərəkətləri nəticəsində qanunçuluğun və hüquq qaydalarının pozulması.

Avtoritarizmin yeni dalğası müxtəlif formalarda, daha çox isə aşağıdakı kimi mümkündür:[1]

1. avtoritar millətçilik;
2. dini fundamentalizm (xristian, islam və s.)
3. oliqarxiya avtoritarizmi;

[1] Huntinqton S. The Third Wave: Democratization in the Lafe Twentieth Century. London: Norman, 1991. P. 290-294

4. açıq diktatura;

5. kommunist diktaturası;

6. kütləvi informasiya vasitələrinin manipulyasiyaçılıq qabiliyyətinə və nəzarətinə əsaslanan texniki-elektron diktatura.

Amerka politoloqu **F.Şmitter Hantinqtondan** fərqli olaraq, demokratik proses dalğasının digər dövrləşməsini təklif edir. O, qlobal demokratikləşmə dalğasının dörd mərhələsini qeyd edir:[1]

1. Başlanğıcını şərti olaraq 1848-ci il inqilabından götürən demokratikləşmə, lakin 1852-ci ildən xeyli ölkələr (xüsusilə Fransa, Almaniya, Avstriya-Macarıstan) avtoritar idarəetmə formasına qayıtdılar;

2. Birinci dünya müharibəsindən sonra Almaniyanın məğlubiyyəti və eləcə də Rusiya və Avstriya-Macarıstan imperiyasının süqutu nəticəsində Şərqi və Mərkəzi Avropada yeni dövlətlər təzahür etdi və onlardan çoxunda ilk başlanğıcda demokratik idarəetmə formaları təşəkkül tapdı;

3. İkinci Dünya müharibəsindən sonra;

4. 1974-cü ildə Portuqaliyada hərbi çevrilişlə.

Bu dövrləşmənin pozutiv fərqləndirici cəhəti Birinci Dünya müharibəsindən sonra ayrıca demokratikləşmə dalğası mərhələsinin müəyyənləşdirilməsidir. Lakin müəllif demokratikləşmə mərhələsinin birinci dalğasını məkan və zaman çərçivəsində məhdudlaşdıraraq onu məhz kontinental Avropaya aid edir. Bu mənada **Hantinqton və Şmitterin** demokratikləşmənin müasir dalğasını qiymətləndirmələri üst-üstə düşür. **F.Şmitter** "Demokratiyanın təhlükəsi və dilemması" adlı məqaləsində 25 aprel 1974-cü ildə Portuqaliyada **Salazar-Kaetano** rejiminin süqutundan sonra 40-dan artıq ölkədə demokratiyaya keçidin bir qədər müvəffəqiyyətsizliyə uğraması faktını diqqətə çatdırır.

Müasir demokratikləşmə prosesinin xüsusiyyəti ondan

---

[1] Schmitter Ph. C. Democratization. Waves of // Encyclopedia of Democracy. V. 2. New York. 1995, p. 346, 347

ibarətdir ki, demokratiyaya keçid əsasən, demokratik metodla, hökumət və müxalifətin danışıqları yolu ilə, siyasi kompromis və razılaşma vasitəsilə, seçkilər və qeyri-zorakılıqla baş verir. Təcrübə təsdiqləyir ki, avtoritar rejimə qarşı inqilabi mübarizə bir avtoritar rejimin digər belə rejimlə əvəz olunmasına gətirib çıxarır.

Müasir demokratik inkişafın müxtəlif formaları demokratiyanın səviyyəsini ölçməyə imkan verən meyarın müəyyənləşdirilməsini aktuallaşdırır. Demokratiyanın inkişaf səviyyəsinin ölçü metodu **demokratik audit** adlandırılır. Bu metod cəmiyyətin siyasi inkişaf vəziyyətinin monitorinqi kimi səciyyələnir. Demokratiyanın ölçüsünə dair ilk cəhd XX əsrin ikinci yarısına aiddir.

Siyasət nəzəriyyəsində demokratiyanın səviyyəsini müəyyənləşdirən bir neçə metod formalaşmışdır. Onlardan biri **sərvət metodu** adlanır. Demokratiyanın səviyyəsini müəyyənləşdirməyə istiqamətlənən belə yanaşma **R.Dalın demokratiya-poliarxiya** konsepsiyasının təsiri altında təşəkkül tapmışdır. Sonralar həmin yanaşma **R.Qastil** tərəfindən istifadə edilərək, siyasi və vətəndaş hüququ ölçüsünün yeddi göstəricisi sisteminə aid edilmişdir.

İkinci yanaşma poliarxiyanın iki göstəricisini (mübahisə və iştirakçılıq) ölçən **obyektiv indikatorların** üzə çıxarılmasına istiqamətlənmişdir. Onun müəllifi fin politoloqu **T.Banhanen** hesab olunur. Demokratiyanın səviyyəsini ölçməyə imkan yaradan digər yanaşma **təsisatlı metod** adlanır. Demokratikləşmə prosesinin təhlili üçün İkinci Dünya müharibəsindən sonra **K.Caqqes və T.Qar** demokratiya və avtoritariyanın xüsusi göstəricilər toplusunu işləyib hazırlamışlar. O, "Polity III" adlandırılır. Bu müəlliflər bütün siyasi sistemləri onların təsisatlı strukturundan asılı olaraq bir-birinə uyğun gələn (uzlaşan) və bir-birinə uyğun gəlməyən (uzlaşmayan) sistemlərə ayırırlar. Demokratiya üçün siyasi iştirakçılıq – rəqabət, icraedici vəzifə – icraedici hakimiyyətə təzyiq səciyyəvidir. Əgər 1946-cı ildə bir-birinə uyğun gəlməyən 22 avtokratik və 35 demokratik dövlət təmsil

olunurdusa, 1994-cü ildə bü rəqəmlər 18:50 nisbətində idi. Həmin illər ərzində bir-birinə uyğun gəlməyən siyasi sistem isə müvafiq olaraq 19 avtokratik və 13 demokratik dövlətdən ibarət olmuşdur[1]. Müasir siyasi nəzəriyyə demokratikləşməyə, sosial-siyasi transformasiyanın gedişinə təsir göstərən amillərin məcmuunu və xarici şəraiti geniş aydınlaşdırır.

2. Siyasi demokratiyanın mahiyyəti və universal xarakteri

Siyasət nəzəriyyəsində tədqiqatçılar müxtəlif konsepsiyalarla demokratiyanın bu və ya digər aspektlərinə xüsusi əhəmiyyət versələr də, praktiki sahədə prosedur yanaşmaların üstünlüyü öz ifadəsini tapmışdır. Axı, real təcrübə təsdiqləyir ki, demokratik qaydaların təkamülü prosesində antik şəhər-polisdən başlayaraq, müasir dövlətlərə qədər onların qərarlaşmasında hakimiyyət orqanlarına seçkilərdən, hakimiyyət strukturlarına bu və ya digər formada nəzarətin təşəkküləndən və digər bu kimi universal prosedurların həyata keçirilməsindən istifadə edilmişdir. Belə universal prosedurlar daim təkmilləşmiş və zənginləşmişdir. Hakimiyyətin bölünməsi prinsipini, beynəlxalq demokratik təsisatların (XX əsrin 20-ci illərində Millətlər cəmiyyəti, 50-ci illərdə BMT və 70-ci illərdə Avropa ittifaqının) formalaşmasını, hüquqi və sosial dövlət mexanizminin yaradılmasını və s. buna aid etmək olar. Əvvəldə qeyd etdiyimiz nəzəri yanaşmaların (metodların) praktika ilə əlaqələndirilməsi göstərir ki, demokratiya müəyyən hakimiyyət sistemi olmaq etibarilə, siyasi həyatın təşkili forması kimi səciyyələnir. Əhalinin bütün təbəqələrinin hakimiyyətdə iştirakı naminə, sosial seçkilərin bütün variantlarında demokratiyadan istifadə olunur. **H.Lints** qeyd edir ki, "demokratiya siyasi alternativləri formalaşdıran və müdafiə edən elə qanuni hüquqdur ki,

[1] Сморгнов Л.В. Изучение "третьей волны" демократизации в сравнительной политологии // Космополис. 1999. С. 110-111

təşkilat-birləşmək azadlığına, söz azadlığına və şəxsiyyətin digər başlıca siyasi hüquqlarına imkan yaradır, demokratik proseslərə bütün siyasi təsisatların cəlb olunmasını, siyasi cəmiyyətin bütün üzvlərinin siyasi fəallıq şəraitini (siyasi üstünlüklərindən asılı olmayaraq) təmin edir. Demokratiya hakim partiyanın əvəz olunması labüdlüyünü tələb etməsə də, demokratik rejimin xarakterindən asılı olaraq onun mümkünlüyünü istisna etmir".

"Demokratiya" yunan dilində üç söz birləşməsindən əmələ gəlib: demos – xalq, kratos – hakimiyyət, kratein – ağalıq etmək, xalqın hakimiyyəti mənalarını ifadə edir. "Demokratiya" terminini ilk dəfə antik yunan tarixçisi Heredot işlətmişdir. İctimai fikir və siyasi elm tarixində "demokratiya" anlayışı uzun müddət və bütövlükdə yunan filosofu **Aristotelin** həmin anlayışa münasibəti mənasında başa düşülmüşdür.

Demokratiya xalqın vasitəsilə idarəetmə formasıdır, hakimiyyətin peşəkar siyasətçilər tərəfindən həyata keçirilməsidir. O, xalqın "ümumi iradəsinin" formalaşması prosesi deyildir, məhz liderlərlə təmsil olunan qrupların mənafelərinin rəqabətə əsaslanan mübarizəsidir, sıravi vətəndaşa sosial strukturun rəhbər tərkibini müəyyən etməyə, rəhbərliyə isə öz hakimiyyətini leqallaşdırmağa imkan yaradan mexanizmdir.

Normativ bazada demokratiya münaqişəli mənafelərin rəqabətini təşkil edir və qaydaya salır, məğlubiyyətə uğrayan qrupun hakimiyyətdə iştirak etməsini davam etdirmək hüququnu saxlayır. Demokratiya şəraitində hər bir qrup öz davranışının strategiyasını sərbəst seçmək imkanı əldə edir. Lakin belə strategiyanın tətbiqinin nəticələri müxtəlif istiqamətli ola bilər.

Hakimiyyətin demokratik təşkilinin spesifikliyi və unikallığı onun üsullarının universallığında və siyasi qaydaların təşkili mexanizmində ifadə edilir. Bu cəhət aşağıdakıları nəzərdə tutur:

- cəmiyyət və dövlət işlərində bütün vətəndaşların bə-

rabər hüquqlu iştirakının təmin olunması;

- hakimiyyətin başlıca orqanlarının sistemli seçilməsi;
- çoxluğun nisbi üstünlüyünü və azlığın hüququna hörməti təmin edən mexanizmin mövcudluğu;
- hakimiyyətin əvəz olunmasının hüquqi metodlarının mütləq üstünlüyü (konstitusionalizm);
- elita idarəçiliyinin peşəkar xarakteri;
- ən mühüm siyasi qərarların qəbuluna ictimaiyyətin nəzarəti;
- ideya plüralizmi və rəylərin rəqabəti.

Demokratiyanın formalaşmasının belə ümumi universal üsullarının mövcudluğu **birbaşa, plebisit və nümayəndəli** demokratiyanın mexanizminin fəaliyyəti ilə bağlıdır. **Birbaşa** demokratiya qərarların hazırlanması, müzakirəsi, qəbulu və reallaşmasında vətəndaşların bilavasitə iştirakını nəzərdə tutur. Belə iştirakçılıq formasından əsasən, o zaman istifadə olunur ki, vətəndaşlardan hər hansı xüsusi hazırlıq tələb olunmur. Məsələn, hakimiyyətdə iştirakın belə forması yerli əhəmiyyətli məsələlərin həllində, özünüidarə çərçivəsində meydana çıxan problemlərdə, lokal münaqişələrin tənzimlənməsində geniş yayılmışdır.

Əhəmiyyətinə görə, hakimiyyətin mövcud formasına yaxın olan plebisit **demokratiyadır**. O, xalqın açıq iradəsini nəzərdə tutur, lakin qərarın hazırlanmasının yalnız müəyyən mərhələsi ilə bağlıdır. Məsələn, dövlət başçısı və vətəndaşlar qrupu tərəfindən çıxarılan qərarın, qanun layihəsinin bəyənilməsi və ya inkar edilməsi buna misal ola bilər. Ona görə, səsvermənin nəticələri həmişə məcburi hesab edilmir, qəbul olunan qərarın hüquqi nəticəsi yalnız hakim dairələr tərəfindən nəzərə alınır.

Demokratik prosesin əhəmiyyətli istiqamətlərindən biri **nümayəndəli (seçki hüququnu əks etdirən) demokratiyadır**. Real demokratiya xalq tərəfindən seçilən insanların hakimiyyətidir. Belə hakimiyyət nümayəndəli demokratiya adlanır.

Nümayəndəli demokratiya vətəndaşların siyasi iştirak-

çılığının daha mürəkkəb formasıdır. Çünki bütün xalqın həyata keçirə biləcəyi siyasi hakimiyyət, başqa sözlə bilavasitə demokratiya şəraiti yalnız idealdır. Nümayəndəli demokratiya vətəndaşların qanunverici və ya icraedici hakimiyyətə, yaxud müxtəlif vasitəli strukturlara (partiyalar, həmkarlar ittifaqları, hərəkatlar) seçdikləri nümayəndələr vasitəsilə qərarların qəbulu prosesinə bilavasitə (dolayısı ilə) cəlb olunmalarıdır. Bu mexanizm əslində əsasən, demokratik idarəçiliyin strukturunu təşkil edir. Lakin nümayəndəli demokratiyanın başlıca problemi siyasi mübarizənin reprezentativliyini (nümayəndəliyini) təmin etməklə bağlıdır, başqa sözlə, elə şərait yaradılmasıdır ki, onun vasitəsilə bu və ya digər şəxslərin seçilməsi əhalinin əhval-ruhiyyəsinə və mənafeyinə uyğun gəlsin.

Demokratiya hər şeydən əvvəl, xalq hakimiyyətinə əsaslanan dövlət quruluşu forması kimi mənalanır. Digər tərəfdən, demokratiya dedikdə insanların iyerarxiyalı şəxsiyyətlərarası münasibətlərini tənzimləyən norma və prinsiplərin məcmuu başa düşülür. Demokratik siyasi rejimlə bağlı, yalnız demokratiyanın mahiyyəti barədə konkret təsəvvürlə kifayətlənmək azdır, eləcə də cəmiyyətin siyasi sisteminə aid zəruri biliklərə yiyələnmək vacibdir. Əlbəttə, cəmiyyətin siyasi sisteminin mahiyyəti siyasi rejimin məqsədlərinə tabedir. Müasir demokratiyanın universal xarakteri yalnız onun ən əhəmiyyətli təsisatlarına və mexanizminə deyil, eləcə də hakimiyyətin ideya əsaslarına aiddir. Siyasi inkişafın müasir təcrübəsi göstərir ki, demokratiyanın diktaturanın bu və ya digər formasına çevrilməsinin qarşısını almaq üçün yeganə vasitə, onun təsisatlarının fəaliyyətinin fərdin hüquq və azadlığının üstünlüyünü qərarlaşdıran dəyərlərə tabe olmasıdır. Son nəticədə məhz hakimiyyət təsisatlarının belə oriyentasiyası seçkilərdən və digər demokratik prosedurlardan əhalinin ayrıca (sosial, etnik və s.) qrupları və qüvvələri üçün üstünlük yaradılmasının qarşısını alır. Dövlət təsisatlarının fəaliyyətinin belə ideya əsasının mövcudluğu demokratiyanı möhkəmləndirir, onun siyasi sistemin xüsusi

tipi kimi səciyyələnməsinə imkan yaradır.

Bu prinsiplər əsasında təşəkkül tapan siyasi sistem hakimiyyətin siyasi təşkilinin çoxsaylı milli modellərinin məhdudlaşdırılması üçün heç bir maneə yaratmır. Bu mənada Qərb (Böyük Britaniya, Almaniya, ABŞ) və eləcə də Şərq (Hindistan, Yaponiya) demokratiyası nümunə kimi səciyyələnə bilər. Həmin ölkələrdə hakimiyyət təsisatlarının fəaliyyətində fərdi və kollektiv dəyərlər arasında müxtəlif əlaqələr təşəkkül tapmışdır.

Demokratik prosesin əhəmiyyətli tərkib hissəsi müasir demokratiya üçün səciyyəvi olan aşağıdakı universal demokratik proseduranın işlənib hazırlanmasıdır:

- yüksək siyasi qanunverici orqanın xalq tərəfindən seçilməsi;
- hakimiyyətin seçkili orqanlarının mövcudluğu;
- seçicilərin bərabər hüquqa malik olmasının təmin edilməsi;
- bütün seçicilərin bərabər seçki hüququna malik olmaları;
- səsvermənin azad keçirilməsi;
- çoxluğun qərarı azlığın hüququnu məhdudlaşdırır;
- cəmiyyətlə onun seçdiyi orqanların hakimiyyəti qarşılıqlı və mütənasib olmalıdır;
- demokratiya fasiləsiz və diqqətli ictimai nəzarətə məruz qalmalıdır;
- dövlət və cəmiyyət bütün sosial və siyasi səviyyələrdə münaqişələrin qarşısını almaq və onları aradan qaldırmaq üçün fəaliyyət mexanizmi işləyib hazırlayır.

Cəmiyyətin demokratik siyasi təşkilində dövlətin funksiyası demokratiyanın qorunması və inkişafı zərurəti ilə müəyyən olunur. Bunun üçün hakimiyyət kifayət dərəcədə güclü olmalıdır. Lakin güclü hakimiyyət demokratik prosesin ayrı-ayrı mərhələlərində özünü müxtəlif tərzdə aparır və aparmalıdır da. Demokratiyanın möhkəmlənmədiyi şəraitdə, demokratik cəmiyyətin təşəkkülünün ilk mərhələsində güclü hakimiyyət asanlıqla diktaturaya (avtoritar və totali-

tar) çevrilir.

Demokratiya bütöv ictimai hadisədir. Müasir cəmiyyətdə demokratiya ümumi xarakter daşımırsa, əhalinin bir hissəsinə (siniflərə, təbəqələrə) şamil edilib, digərlərinə tətbiq olunmursa, o, əsil demokratiya deyildir. Demokratiya seçkili formada cəmiyyət həyatının ancaq bir sferasında, müəyyən məsələdə tətbiq edilib digər sahələrə şamil olunmursa (məsələn, ictimai özünüidarəyə aid edilərək dövlət müəssisələrində həyata keçirilmirsə), dəyərli ola bilməz. Demokratiya şıltaqlıq, ictimai israfçılıq deyil, məhz labüd tarixi zərurətdir, cəmiyyətin yenidən təşkili, təkmilləşməsi üçün lazımdır. **O, idarəetmənin, cəmiyyətin siyasi və sosial təşkilinin, dövlətin və hakimiyyətin başlıca formalarından biridir.** Demokratik cəmiyyət xalqın siyasi qərarların işlənib hazırlanmasına təsiri hüququ ilə səciyyələnir. Həmin hüquq demokratik təsisatlarda, xüsusilə kütləvi informasiya vasitələrində təkliflər və ya tənqid formasında, seçkiqabağı kompaniyada iştirak etməkdə üzə çıxır. Qəbul edilmiş qərarların işlənib hazırlanmasında xalqın siyasi iştirakçılığına konstitusiya vasitəsilə təminat verilir.

Müasir demokratik hüquqi dövlətdə xalq hakimiyyətin mənbəyi kimi çıxış edir. Xalq öz rəyinə əsaslanaraq nümayəndələrini seçir, onlara hər hansı bir məsələni həll etmək hüququ verir. Demokratiya şəraitində qanun yalnız vətəndaşları hakimiyyətin özbaşınalığından deyil, həmçinin, hakimiyyətin özünü vətəndaşlardan müdafiə edir.

Demokratiyanın mahiyyəti və universal xarakteri eləcə də onun prinsipləri ilə təsdiqlənir. Demokratiya iki başlıca prinsipi ilə səciyyələnir: **azadlıq və bərabərlik.** Müasir demokratiya mənafelərin nümayəndəliyi kimi mənalanır. Bütün vətəndaşlar siyasi həyatın iştirakçıları olmaq etibarilə, demokratik dövlətdə bərabər hüquqludur. Bərabərlik iki səviyyədə – qanun qarşısında bərabərlik və siyasi hüquq bərabərliyi kimi səciyyələnir. Əmlak vəziyyətindən, mülkiyyətindən, vəzifəsindən və ictimai mövqeyindən, xidmətlərindən asılı olmayaraq, bütün vətəndaşlar qanun qarşısında

bərabər hüquqludur. Siyasi hüquq bərabərliyi isə o deməkdir ki, hər bir vətəndaş seçmək və seçilmək hüququna malikdir. Vətəndaşların demokratik dövlətlərdə ümid etdiyi siyasi hüquq və azadlıqlara həmçinin, öz rəyini azad şəkildə ifadə etmək, siyasi partiyalar, digər ictimai-siyasi təşkilatlar yaratmaq, mitinqlər, yığıncaqlar və nümayişlər keçirmək hüquqları və s. aiddir. Demokratiya şəraitində dövlət eləcə də vicdan azadlığına təminat verir, hər hansı dini qəbul etmək hüququnu müdafiə edir, azadlığı və ictimai həyatda iştirak hüququnu həyata keçirir. Demokratik cəmiyyətdə siyasi müxalifətin mövcudluğu da demokratiyanın dəyərli mahiyyətini əks etdirir. Siyasi müxalifətin mövcudluğu fikir azadlığını, kütləvi informasiya vasitələrinin müstəqilliyini, hakimiyyət strukturlarının fəaliyyətinin obyektiv tənqidini və ona nəzarəti, ölkənin sosial-iqtisadi və siyasi-mənəvi inkişafı ilə bağlı alternativ proqramın təklif edilməsini nəzərdə tutur.

Demokratiyanın mahiyyətindən və universal xarakterindən çıxış edərək belə qənaətə gəlmək olar ki, demokratik prosesə qədəm qoyan hər bir cəmiyyət **birinci** öz vətəndaşlarının və idarəetmə orqanlarının qanun qarşısında real bərabərliyini təmin etməlidir. **İkinci,** cəmiyyət və vətəndaşlar hüquqa zidd hərəkətlərdən müdafiə olunmalıdır. **Üçüncü,** demokratik formalar və birgə yaşayış normaları təkmilləşdirilməlidir. **Dördüncü,** formal elan olunmuş və real fəaliyyətdə olan ictimai münasibətlər, hüquq, idarəetmə bir-birinə uyğunlaşdırılmalıdır. **Beşinci,** insana hörmət, onda insani ləyaqət hissi və idarəetmənin bütün formalarına, həmvətənlərə əsil inam hissi tərbiyə edilməlidir. **Altıncı,** müxtəlif ictimai qrupların və vətəndaşların ayrı-ayrı kateqoriyalarının, idarələrin, hakimiyyət və dövlət orqanlarının imtiyazları ləğv edilməlidir. **Yeddinci,** əhəmiyyət kəsb edən bütün daxili və xarici hadisə və proseslər barədə məlumatlandırma ardıcıl, sistemli və obyektiv surətdə həyat keçirilməlidir. **Səkkizinci,** cəmiyyət mədəniyyət sferasında, yaradıcılıq sahələrində məcburi himayəçilikdən imtina etməlidir. **Doqqu-**

zuncu, əhalinin yerli, dövlət və iqtisadi idarəetmə orqanları ilə daimi əlaqəsi təmin edilməlidir. Bir sözlə, demokratiyanın inkişafı ictimai nəzarətin sosial funksiyası və ictimai tənqidlə şərtlənir. Belə şərtləndirmə bütövlükdə cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsi kimi səciyyələnir. Ümumiyyətlə, mülahizələrimizi XX əsrin görkəmli siyasi xadimi **Y.Çörçillin** belə bir siyasi kəlamı ilə tamamlayırıq: "İdarəetmə formaları içərisində ən pisi demokratiyadır. Lakin nə edəsən ki, bəşəriyyən bundan yaxşısını əldə edə bilməyib".

3. Siyasi demokratiya: formalaşma mexanizmi və ziddiyyətləri

Demokratik mahiyyətli siyasi qaydaların təşəkkülü zəminini və mexanizmini işləyib hazırlamaq siyasət nəzəriyyəsinin çox mürəkkəb problemidir. Müasir şəraitdə onların həlli xeyli dərəcədə demokratik tipli hakimiyyət sisteminə keçən inkişaf etməkdə olan ölkələrin spesifikliyini başa düşməklə bağlıdır. Belə keçid prosesi demokratiyanın "üçüncü dalğası" çərçivəsində nəzərə çarpır.

Hazırda siyasi demokratiyanın formalaşması şəraitinə münasibətdə iki başlıca elmi yanaşma mövcuddur. **Struktur** istiqamətin (yanaşmanın) tərəfdarları belə bir mövqedən çıxış edirlər ki, demokratik qaydalar müəyyənedici makro amillərin təsiri altında təşəkkül tapır. Həmin amillərə iqtisadi və sosial strukturlar, cəmiyyətin hüquqi normaları, müvafiq ənənələr, adətlər və s. aiddir. Məsələn, marksistlər mülkiyyət münasibətlərini siyasi qaydaların təşəkkülünün başlıca amili hesab edirdilər. Belə nöqteyi-nəzərə görə, demokratiya cəmiyyətin müvafiq sosial-iqtisadi inkişafı ilə formalaşmalıdır.

Prosedur yanaşma (istiqamət) tərəfdarları həmin ideyaya etiraz etsələr də bildirirlər ki, "demokratikyanın həyata

keçirilməsi üçün ilkin şərtlərə etinasızlıq lazım deyildir"[1], bununla belə hesab edirlər ki, demokratiyaya keçidin və onun qərarlaşmasının başlıca şərti idarə edən elitanın xarakterindən, onun siyasi dəyərləri və ideallarından, hökmranlıqda istifadə etdiyi ən əhəmiyyətli taktikadan və texnologiyadan ibarətdir. Bu mənada **A.Pşevorski, F.Şmitter, D.Lints** və başqaları iddia edirlər ki, demokratiya özünəməxsus "siyasi layihə" kimi çıxış edir, bu və ya digər ölkədə təşəkkül tapan şəraitdə reallaşır. Hər hansı ölkədə demokratik qaydaların təzahürünə hazırlıq dərəcəsi isə demokratiyanın formalaşmasını sürətləndirən və ya ləngidən amillərlə əlaqələndirilir.

Amerika alimi **D.Kempbell** 1960-cı ildə çap etdirdiyi "Amerika seçicisi" kitabında demokratik qaydaların təşəkkülünü şərh etməyin metodologiyasını təklif etmişdir. Onun ideyasının mahiyyəti bundan ibarətdir ki, həmin prosesə təsir göstərən müxtəlif amillər ardıcıl surətdə nəzərə alınmalıdır. Rus tədqiqatçısı **A.Y.Melvil** bu ideyadan istifadə edərək, demokratiyanın formalaşmasına təsir göstərən yeddi dəyişən səviyyənin mövcudluğunu qeyd etmişdir:

- xarici beynəlxalq mühit (beynəlxalq iqtisadi situasiya, hökumətlərarası və qeyri-hökumətlərarası əlaqə və münasibətlər);
- dövlət və millət əmələ gətirən amillər (vahid ərazi, vahid dövlət, milli eynilik hissi və s.);
- ölkənin inkişafının ümumi sosial-iqtisadi səviyyəsi;
- sosial-sinfi proseslər və şərait (sosial differensasiyanın dərəcəsi və cəmiyyətin inkişafı, siniflər və sosial qruplar arasında münasibətlər);
- sosial mədəni və sərvət amilləri, cəmiyyətdə hakim olan mədəni-siyasi sərvətlər və oriyentasiya;
- siyasi amillər və proseslər (partiyalar, ictimai-siyasi hərəkatlar və təşkil olunmuş qruplar, onların siyasi strateg-

[1] Zakaria F. The Rise of Liberal Democracy //Foreiqn Affairs, Nowember/December, 1997. Vol. 76. № 6. P. 35

iyası və taktikası);

- fərdi, şəxsiyyətə aid və siyasi-psixoloji amillər (başlıca aktorların konkret qərarı və hərəkəti)[1].

A.U.Melvilin təklif etdiyi metodologiya müxtəlif ölkələrdə demokratik siyasi qaydaların formalaşmasına təsir göstərən ən müxtəlif şərait və amillərin hesaba alınması üçün daha geniş imkanlar yaradır. Bugünkü praktikada təşəkkülü baxımdan, nisbi sabitlik təşkil edən demokratik siyasi qaydaların formalaşmasının konkret zəminini aşağıdakılar təşkil edir:

- ölkənin iqtisadi inkişafının kifayət qədər yüksək səviyyəsi;
- bazar münasibətlərinin və industrial iqtisadiyyatın mövcudluğu;
- urbanizasiya;
- kütləvi kommunikasiyanın inkişafı;
- xarici dövlətlərin demokratiyada ifadə olunan köməyi.

Bir qayda olaraq, **vətəndaşların yüksək rifah halından kənarda, müəyyən mənəvi ənənələrsiz, müvafiq siyasi-mədəni zəmindən məhrum olan demokratiya qeyri-mümkündür.**

Demokratiyanın təşəkkülü və inkişafına təsir göstərən bütün amillər bu və ya başqa şəkildə elitar dairələrin düşüncə tərzində təzahür edir. Elitar dairələr öz ölkələrində demokratik siyasi qaydaların yaradılmasını qarşılarına məqsəd qoyurlar. Bu elə ideal təsəvvürlərin başlıca rol oynamasını müəyyənləşdirir ki, əsasən praktiki siyasətlə möhkəmləndirilir və sosial reallığın yaradılması mənbəyini təşkil edir.

Lakin demokratiyaya müxtəlif yanaşmalara baxmayaraq, ona aid yaradılan hər bir model demokratiyaya daxilən xas olan ziddiyyətləri nəzərə almalıdır. Praktiki dəyişikliklərdə həmin ziddiyyətlərə etinasızlıq layihələşdirilən məqsədləri şübhə altına ala bilər, dövlətin resurslarının tükənməsinə, kütlələrin və ya elitanın demokratik quruluş ideallarına bağlı ümidsizliyinə, hətta demokratik rejimlərin totalitar və avtoritar rejimlərə çevrilməsinə gətirib çıxara bilər.

---

[1] Bax: Мелвиль А.Ю. Демократические транзиты. М., 1999, с.41-42

Bu ziddiyyətlər yalnız demokratiyanın formal və real əsaslarının üst-üstə düşməməsi ilə deyil, eləcə də ümumi hakimiyyətin öz təbiətinə xas olan daxili münaqişələrlə (insanların real qeyri-bərabərliyi, hakimiyyət təsisatlarının statusunun şəxsiyyətin statusu üzərində üstünlüyü və s.) şərtlənir. İtaliya nəzəriyyəçisi **N.Bobbio** bu ziddiyyətləri obrazlı şəkildə, demokratiyanın "yerinə yetirilməyən vədləri" adlandırmışdır.

Bu alimin nöqteyi-nəzərincə, demokratiyanın ideal modeli prinsipial uyğunsuzluq kəsb edən siyasi bazar münasibətlərində tarazlığın əldə olunmasını nəzərdə tutmaqla yanaşı, dörd başlıca azadlığın saxlanmasına təminat verir: inam azadlıqları, onların ifadəsi, toplusu və assosiasiyası. İdealda bu, fərdlə dövlət hakimiyyəti təsisatlarının birbaşa əlaqəsi hesabına reallaşır. Əslində isə, vətəndaşların siyasi əlaqələri çoxsaylı strukturlar və assosiasiyalar (partiyalar, hərəkatlar və s.) vasitəsilə həyata keçirilir, eləcə də bu strukturlar və assosiasiyalar tez-tez fərdlərin hüququna və azadlığına qəsd edir, onların siyasi həyatda iştirakını sıxışdırır. Bəzi hallarda isə demokratik prinsiplər sosial sferada yayılmır, hakimiyyətin demokratik tipinin sistemli əsasının formalaşmasına maneçilik törədir. Beləliklə, demokratiya siyasi münasibətləri tarazlaşdırmaqla, özündə iki təhlükəni gizlədir: o, ya xüsusi, korporativ mənafelərin (elitanın, bürokratiyanın, vətəndaşların ayrıca qruplarının) ictimai mənafe üzərində üstünlüyünü təmin edən başlıca forma ola bilər və yaxud hər cür xüsusi mənafelərə etinasız yanaşan oxlokratik idarəetmə forması kimi nəzərə çarpar. Demokratiyanın ən mühüm ziddiyyətlərindən biri formal hüquqlara və real resurslara malik olanların siyasi imkanlarının uyğun gəlməməsinin təzahürüdür. Hələ **Tokvil** tərəfindən şərh edilən azadlıq və bərabərliyin bu paradoksu belə bir reallığı əks etdirir ki, vətəndaşların hüquq və səlahiyyətlərinin bölüşdürülməsində bərabərlik prinispinin elan edilməsinə və hətta qanunvericilikdə möhkəmləndirilməsinə baxmayaraq, demokratiya əməli işdə bu hüquq bərabərliyini təmin etməyə qadir deyildir. Əlbəttə, müxtəlif qrupların və ayrı-ayrı və-

təndaşların resurslara yiyələnməkdə və onu idarə etməkdə bərabərhüquqlu olmaması buna səbəb ola bilməz. Başqa sözlə, demokratiya ən mühüm iqtisadi, informasiya, güc resurslarına sahib olan birliklərin və ya ayrıca vətəndaşların qrup hakimiyyətinə üstün təsirini aradan qaldırmağaqadir deyildir. Məhz buna görə, demokratiyanın saxlanması bilavasitə formal hüquqlara malik və resurslara sahib olanların mənafe və mövqelərinin barışığından asılıdır. Bu isə öz növbəsində, cəmiyyətdə siyasi mədəniyyətin müəyyən nümunələrinin təşəkkülü üçün idarə edən dairələrdən müxtəlif tarazlaşdırıcı mexanizmlərin yaradılmasını tələb edir. Belə tipli daxili münaqişələrin həlli praktikası, demokratiyanın bir sıra digər, xüsusilə funksional ziddiyyətləri ilə mürəkkəbləşir. Məsələn, demokratik siyasi qaydaların formalaşmasında idarə edən dairələrin xidməti vəzifələri və rolu aydın nəzərə çarpır, lakin əhalinin başlıca kütlələrinin gündəlik nisbi funksiyaları tam aydınlığı ilə diqqəti cəlb etmir. Sıravi vətəndaşların siyasi davranışının mühafizəkar formalarının başa düşülməsində bu cür qeyri-müəyyənlik, praktiki olaraq həmişə hakimiyyət təsisatlarının rolunun mütləqləşdirilməsi, əhalinin geniş sosial təbəqələrinin hakimiyyətə təsirinin azalması ilə əlaqələndirilir.

Demokratik qaydaların tərəfdarları üçün cəmiyyətin mənəvi sferasındakı ziddiyyətlər xeyli mürəkkəblik yaradır. Vahid dövlət siyasətinin həyata keçirilməsi zərurəti, hökmən dövlətin iqtisadi və ya digər ictimai dəyişikliklərdə üstünlüyünü şərtləndirən dəyərlər sisteminə, ideallar və prinsiplər məcmuuna əsaslanmalıdır. Eyni zamanda, əhalinin mənəvi oriyentasiyasının belə aşkar dayağı demokratiyanın bütün binasının baza elementi olan ideya plüralizminin prinsiplərinə ziddir. **A.Hayekin** xəbərdarlıq etdiyi kimi, mənəvi azadlıq mütləq hakimiyyətin informasiya məkanının genişləndirilməsini nəzərdə tutur, bu isə adamların davranışını informasiya baxımından məqsədyönlü tənzimləmək imkanlarını azaldır. Buna görə, demokratiya daim çoxfikirlilik doğurmaqla, cəmiyyətin mənəvi məkanının müxtəlif cəhətli olma-

sını şərtləndirməklə sosiumda siyasi inkişafın vahid xəttinin düzümündə öz imkanlarını pozur. Demokratiya beynəlxalq münasibətlər sahəsində ciddi çətinliklərə məruz qalır. Hazırda o, siyasi münasibətlərin bu sahəsində öz prinsiplərinin sıxışdırılması məsələsini aydın şəkildə nəzərə çatdırır. Bu mənada, inkişaf etmiş xeyli ölkələr mövcud siyasi qaydaların bərqərar olmasında böyük uğurlar əldə etsələr də, həmin problemin həllinə qadir deyildirlər. Başqa sözlə, onlar beynəlxalq siyasi münasibətlərdə demokratiyanın prinsiplərinin qərarlaşması məsələsinin həllində tam real uğurların əldə edilməsindən xeyli uzaqdırlar. Görkəmli amerika tədqiqatçısı **D.Heldin** qeyd etdiyi kimi, "qlobal asılılıq demokratiyanı dəyişdirir"[1].

Demokratiyanın məruz qaldığı ciddi çətinliklər prosesi praktiki olaraq heç bir dövlətdən yan keçmir. Buna görə, dünya siyasi birliyi yaranmış vəziyyətdən çıxış yoluna imkan yaradan bu və ya digər ümumi yanaşmanı, qiymətləndirməni və mexanizmi işləyib hazırlamağa məcburdur. Beləliklə, həmin qaydaların təşəkkül tapdığı ayrı-ayrı demokratik dövlətlər bu və ya digər beynəlxalq standartları (məsələn, insan hüquqlarının gözlənilməsi və ya daxili münaqişələri tənzimləmək üçün güc tətbiq edilməsi) pozduqda və ya ondan uzaqlaşdıqda, beynəlxalq və regional qüvvələrin ciddi təzyiqinə məruz qalırlar, hətta xarici suverenliyinin bir hissəsini məhdudlaşdırmağa məcbur olurlar. Nəticədə bu dövlətlər və siyasi strukturlar arasında kəskin ziddiyyətlər yaranır.

Müasir dünyada belə səciyyəli proseslər çərçivəsində faktiki olaraq heç kim tərəfindən seçilməyən "dünya hökuməti" (dünyanın daha inkişaf etmiş ölkələrinin rəhbərlərindən ibarət) formalaşır, bu "hökumətin" fəaliyyətinə haqq qazandıran "suverenliyin məhdudlaşdırılması" və ya "transmilli demokratiya" konsepsiyaları təzahür edir və reallaşır. Belə siyasi-ideoloji xətt dünyada birmənalı başa düşülmür.

---

[1] Held D. Democracy and Qlobal Order. Cambridqe, 1995. P. 268, 271-272

Əgər Küveytə qarşı İraqın təcavüzkarlığının dəf olunmasında Küveytə kömək edən Avropa ölkələrinin hərəkətlərini demokratik dövlətlərin əksəriyyəti müdafiə etdisə, NATO-nun Kosovada etnik münaqişəni hərbi əməliyatla həll etməsi çoxsaylı etirazlar və məzəmmətlə qarşılandı.

Artıq xeyli milli dövlətlər demokratiyanın bu cür kosmopolit modelinə oriyentasiyanı arzulamır, dövlətlərarası və transmilli qüvvələr mərkəzinin təsirinə tabe olmaq istəmirlər. Təşəkkül tapmaqda olan yeni beynəlxalq qayda dünyada keyfiyyətcə başqa siyasi tarazlığın formalaşmasına imkan yaradır, belə tarazlıq çoxluğun və azlığın barışmasının yeni mexanizmini, dövlətlərin və xalqların suveren hüquqlarının bölüşdürülməsi sahəsində mənafelərin uyğunlaşdırılmasını, beynəlxalq münaqişələrin həlli prosesinə onların təsir dərəcəsini tələb edir. Lakin bütün hallarda bu problemlər hazırkı şəraitdə demokratik qaydaların nəinki dünyada və eləcə də ayrıca ölkələrdə möhkəmlənməsinə mane olur. Nə qədər ki, beynəlxalq münaqişələrin tənzimlənməsinə vahid münasibət işlənib hazırlanmayıb, belə halda bəşəriyyət demokratiyanın başlıca prinsiplərini, öz vətəndaşlarının ictimai rəyinə əsaslanan dövlət hüququnu, müstəqil siyasi xətlin müəyyənləşdirilməsini şübhə altında qoyacaqdır.

II FƏSİL
PARLAMENT
BAŞLICA DEMOKRATİK TƏSİSATDIR

1. Parlament anlayışı: mahiyyəti, səlahiyyətləri, funksiyaları

Parlament öz fəaliyyətini demokratik prinsiplər və dəyərlər əsasında həyata keçirən hər bir dövlətin zəruri atributudur. O, yüksək seçkili nümayəndəli orqandır, bəzi hallarda isə qismən təyin olunma formasında təşkil edilir. Parlament əhalinin sosial və siyasi cəhətdən fəal qruplarını təmsil

edən nümayəndələr hesabına formalaşır və bir sıra ölkələrdə müxtəlif cür: ABŞ və Latın Amerikası ölkələrində (Braziliya, Boliviya, Meksika, Venesuela) konqres, İsveçdə Riqsdaq, Finlandiyada seym, Norveçdə stortinq, Türkiyədə Böyük Millət Məclisi, Almaniya Federativ Respublikasında Federal Məclis, Rusiyada Duma, Ukraydana Rada, Azərbaycanda Milli Məclis və s. kimi adlanır. O, bu və ya digər ölkədə müxtəlif səlahiyyətlərə malikdir.

İlk parlamentlər XII-XIII əsrlərdə təşəkkül tapmışdır. "Parlament" termini də məhz, XII-XIII əsrlərdə işlədilmişdir. İlk ispan parlamenti kortes adlanırdı. Parlament termini latın dilində danışmaq mənasını ifadə edən "parla" sözündən əmələ gəlmişdir. Latın sözü olmaq etibarilə "parlamentum" termini ilk başlanğıcda monarxların nahardan sonrakı söhbətini səciyyələndirirdi. Parlament məfhumu onun vətəni olan İngiltərədə XIII əsrdə işlədilmişdir. İngiltərədə bu söz əvvəllər hər hansı müzakirə mənasını ehtiva edirdisə, sonralar "formal yığıncaqları" parlament adlandırırdılar. 1265-ci ildə ilk dəfə olaraq, "İngiltərənin ali şurası" təsisatı parlament kimi təsdiqlənir. Məhz, bu mənada İngiltərə parlamentin klassik vətəni hesab olunur. Heç də təsadüfi deyil ki, **Uinston Çörçill** "Britaniyanın yaranması" adlı kitabında yazırdı: "Parlament termini siyasi mənada İngiltərədə XIII əsrdə işlədilmişdir".

Parlament mürəkkəb və ziddiyyətli siyasi fenomendir. Elə buna görə ona qəti və birdəfəlik qiymət vermək qeyri-mümkündür. Ümumiyyətlə, ilk dəfə İngiltərədə nümayəndəli orqan kimi meydana gələn parlament bu gün Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Kanada, Belçika, Hindistan və digər ölkələrdə ali nümayəndəli orqan kimi fəaliyyət göstərir.

Parlament anlayışının mahiyyətini düzgün və əhatəli anlamaq məqsədilə ilk əvvəl, parlamentin **səlahiyyətləri** və **funksiyaları** barədə dolğun təsəvvürə malik olmaq vacibdir.

Parlamentin səlahiyyəti bir tərəfdən onun hüquqi mövqeyini, ölkənin siyasi həyatında rolunu müəyyən edən

mühüm amildir, digər tərəfdən ümummilli nümayəndəli təsisat olmaq etibarilə, parlamentin dövlət hakimiyyətinin digər orqanları ilə qarşılıqlı münasibətinin zəruri şərtidir.

Müxtəlif ölkələrdə parlamentlərin səlahiyyətləri eyni olmasa da, həmin səlahiyyətləri **üç başlıca qrupa ayırmaq olar. Birinci qrupa** aid olan səlahiyyətlərin mahiyyəti bundan ibarətdir ki, konstitusiyaya görə, qanunvericilik fəaliyyətinin obyekti olan məsələlərin dəqiq siyahısı hazırlanır. Belə parlamentlər öz səlahiyyətlərinin həddini aşmaq hüququna malik deyildir. Əks halda məhkəmə parlamentin hüquqi əsası olmayan təşəbbüslərini konstitusiyaya zidd hərəkət kimi qiymətləndirir və onu qanunvericilik imkanlarından məhrum edir, həmçinin, parlamentin təşəbbüs xarakterli qərarını qeyri-qanuni sayır.

Səlahiyyətinə görə birinci qrupa aid olan parlamentin fəaliyyətinin səciyyəvi və klassik nümunəsi ABŞ-ın konstitusiyasında daha aydın nəzərə çarpır. Bu konstitusiyada ali qanunverici orqan olan konqres üçün müəyyən fəaliyyət səlahiyyətləri öz əksini tapmışdır. Eləcə də konqresin səlahiyyətlərinə aid olmayan əlavə məsələlərin siyahısı verilmişdir. Ümumiyyətlə, konqresin fəaliyyət sferasından kənarda qalan məsələlər isə ayrı-ayrı ştatların səlahiyyətlərinə şamil edilir.

Parlamentin səlahiyyəti məsələsi ABŞ-da necədirsə, Fransada da təxminən elədir. Fransa konstitusiyasının 34-cü maddəsində parlamentin qanunvericilik fəaliyyətinin obyektini təşkil edən məsələlərin daha da dəqiqləşdirilməsi və əlavə məsələlərlə tamamlanması müəyyən hüquqi qaydalara əsaslanmaqla həyata keçirilə bilər. Bu konstitusiyanın 37-ci maddəsində deyilir: Qanunvericilik sahəsinə aid olmayan məsələlər inzibati qaydada həll olunur. ABŞ və Fransa ali qanunverici orqanlarının səlahiyyətlərinin müqayisəli təhlili belə qənaətə gəlməyə əsas verir ki, əgər ABŞ-da qanunvericilik səlahiyyəti konqreslə federasiya subyektləri arasında məhdudlaşdırılırsa, Fransada bu səlahiyyət parlamentlə hökumət arasında məhdudlaşdırılır. Deməli, parla-

mentin səlahiyyətinin müəyyənləşdirilməsi sistemi həm federativ və eləcə də unitar dövlətlərdə tətbiq oluna bilər. Lakin fərq ondan ibarətdir ki, səlahiyyətlərin bölüşdürülməsi müxtəlif subyektlər arasında həyata keçirilir.

Səlahiyyətlərinə görə **ikinci qrupa** aid olan parlamentlər qeyri-məhdud fəaliyyət istiqamətinə malikdirlər.

Belə parlamentlərin hüquqi baxımdan bu və ya digər məsələ üzrə qanun qəbul etməyə səlahiyyətləri çatır. Lakin bu tipli parlamentlərin suverenliyi praktiki cəhətdən deyure (rəsmən, hüquqi baxımdan) və defakto (faktiki olaraq, əslində) məhduddur. Bununla yanaşı, **ikinci qrupa** aid olan parlament səlahiyyətləri bir sıra ölkələrdə, məsələn, Böyük Britaniya, Yeni Zelandiya, İtaliya və İrlandiyada parlament sisteminin əsası hesab olunur. İtaliya və İrlandiyada hətta konstitusiya nəzarəti tətbiq olunur ki, bu da parlamentin nəzərdə tutulan geniş səlahiyyətlərinin məhdudlaşdırılması deməkdir. Məsələn, İrlandiya konstitusiyasının 15-ci maddəsində deyilir: "Hazırkı konstitusiyaya zidd olan hər hansı qanunu parlamentin qəbul etmək hüquqi yoxdur".

Belə hüquqi qayda İtaliya konstitusiyasının 136-cı maddəsində də təsbit olunmuşdur. Həmin maddədə qeyd olunur ki, "konstitusiyaya zidd hesab edilən sərəncam ona dair məhkəmənin qərarı çap olunduğu gündən etibarsız sayılır".

Səlahiyyətlərinə görə **üçüncü qrupa** daxil olan parlamentlərin fəaliyyətinin fərqləndirici cəhəti bundan ibarətdir ki, onların səlahiyyət sferası vahid prinsip üzrə müəyyən olunur. Bu baxımdan Hindistan parlamenti səciyyəvidir. Hindistan parlamentinin səlahiyyəti həmin ölkənin konstitusiyasının 246-cı maddəsinə əsasən üç istiqamətdə ifadə olunur. Birinci istiqamət xüsusi səlahiyyətlərə malik olan ittifaq (federasiya) parlamentinin fəaliyyətini əks etdirir. Qanunvericilik səlahiyyətinin ikinci istiqaməti ştatların səlahiyyətini ifadə edir. Üçüncü istiqamətə isə ittifaq (federasiya) və ştatların parlamentinin birgə səlahiyyəti daxildir. İttifaqla onun subyektləri arasında münaqişəli vəziyyət ya-

randıqda Hindistan konstitusiyasına görə, ittifaq parlamentinin qanunvericilik üstünlüyü saxlanılır. Deməli, bu ölkənin parlamenti ciddi konstitusiya göstərişləri ilə məhdudlaşdırılmır.

Parlamentə malik olan ölkələrin konstitusiyalarında parlament dövlət hakimiyyətinin ali orqanları sistemində mərkəzi təsisat kimi təsbit olunmuşdur. Ümumiyyətlə, parlament xalqın siyasi təsisatı, onun müstəqilliyinin aparıcı qüvvəsi kimi qiymətləndirilir. Lakin hazırkı şəraitdə ölkələrin xeyli hissəsində hakimiyyət sistemində parlamentin mərkəzi mövqeyinin müəyyən dərəcədə zəifləməsi nəzərə çarpır. Parlamentin rolunun qismən tənəzzülə uğraması müxtəlif ölkələrdə spesifik cəhətlərlə səciyyələnir.

Ölkələrin bir qrupunda, məsələn, qüdrətli dövlətlərdən olan Fransada parlamentin böyük səlahiyyətlərə malik olmaması konstitusiyada təsbit olunmuş və qanuniləşdirilmişdir. Belə hal elmi ədəbiyyatda bəzən parlamentin gücsüzlüyü kimi qiymətləndirilir.

ABŞ kimi ən qüdrətli ölkədə isə əksinə, parlament müstəqil ali qanunverici orqan kimi mövcuddur və hüquqi baxımdan onun səlahiyyətləri məhdudlaşdırılmır. Lakin belə bir cəhəti qeyd edək ki, ABŞ parlamenti (konqresi) ikinci dərəcəli məsələlərin həllində müstəqildir. Sözün əsil mənasında qanunvericilik icra hakimiyyətinə prezidentə və onun başçılıq etdiyi inzibati aparata məxsusdur fikri xeyli vaxtdır Amerikada hüquqa dair ədəbiyyatda geniş şəkildə öz əksini tapıb. ABŞ-ın siyasət sahəsində görkəmli tədqiqatçılarından biri olan **Conson** həmin fikri obrazlı şəkildə belə ifadə edir: "Bütün ölkə və konqresin özü prezidentə məmuniyyətlə qanunvericilik lideri kimi baxır".

Nəhayət, bir sıra ölkələrdə (İngiltərə, Kanada, Yeni Zellandiya və s.) dövlətin idarə olunmasında ağırlıq mərkəzi parlamentin yox, hökumətin üzərinə düşür. Həmin ölkələrin hüquqi-siyasi dairələrində belə vəziyyət kabinet idarəçiliyinin ən mühüm prinsipi kimi izah olunur və əsaslandırılır. Bütün bunlara baxmayaraq, dünya dövlətşünaslığında par-

lamentin funksiyaları birmənalı qiymətləndirilir. Başqa sözlə, ali qanunverici orqan böyük səlahiyyətləri olan siyasi təsisat kimi əsaslandırılır. Belə əsaslandırma parlamentin fəaliyyət sferasına aid olan **üç başlıca səlahiyyətlə – qanunvericilik, büdcə və hökumət üzərində nəzarətlə əlaqədardır.**

Parlament anlayışının mahiyyətini əhatəli dərk etmək baxımdan onun funksiyaları haqqında dürüst nəzəri təsəvvürə malik olmaq məqsədəuyğundur.

İngiltərədə konstitusiyalı monarxiyanın təşəkkül tapdığı dövrdən parlamentin funksiyalarının müəyyən sxemi qəbul olunmuşdur. Avropa ölkələrinin hüquqi və sosioloji ədəbiyyatında parlamentin funksiyalarının müəyyənləşdirilməsi istiqamətində təqdirəlayiq addımlar atılmışdır. Məsələn, ingilis hüquqşünası və sosioloqu **Sidney Lou** parlamentin funksiyalarını aşağıdakı qaydada müəyyənləşdirmişdir:

1. Qanunverici fəaliyyət.
2. İdarəetmə və icra sahəsində nəzarət.
3. Maliyyə siyasəti və dövlət gəlirlərinin tənzim olunması.
4. Cinayətkarlığa və şikayətlərə dair məsələlərin müzakirəsi.
5. Dövlət xadimlərinin sınaqdan keçirilməsi, parlament müzakirələrində seçilməsi və müvafiq nazir vəzifələrinə təyin olunması.

Sidney Lou bu funksiyaları parlamentin qanunvericilik fəaliyyətinin **"başlıca kateqoriyaları"** adlandırır. Qeyd edək ki, **Lounun** təklif etdiyi sxem həddən artıq milli xarakter kəsb edir. Onun parlamentin funksiyalarına dair fikri, əslində ingilis parlament sistemini səciyyələndirir. **Lounun** əsaslandırdığı funksiyalar müasir siyasi və hüquqi ədəbiyyatda lazımi səviyyədə qiymətləndirilsə də, hüquqşünas alimlər və politoloqlar tərəfindən dünya ölkələrinin əksəriyyəti üçün daha ümumi əhəmiyyətə malik olan funksiyalar sistemi də təklif olunur. Bu baxımdan parlamentin funksiyaları barədə **Robert Karr** tərəfindən təklif olunan fikir diqqəti cəlb edir. Onun vacib saydığı funksiyalar bunlardır:

1. Siyasətin müəyyən edilməsi və ya siyasi xəttin parlament tərəfindən rəsmən təsdiqi.

2. Dövlət xəzinəsi üzərində nəzarət.

3. İnzibati aparat üzərində və qanunların həyata keçirilməsi prosesinə nəzarət.

4. İctimai rəyə təsir.

Robert Karrın əsaslandırdığı həmin funksiyalar universal xarakter daşıyır, yəni ölkələrin xeyli qismi üçün məqbul hesab olunur. Bu funksiyaların əhəmiyyəti və səciyyəvi cəhəti bundan ibarətdir ki, özündə hər şeydən əvvəl, qanunvericilik mahiyyətini əks etdirir. **Robert Karr** tərəfindən irəli sürülən funksiyalar sxeminin digər diqqəti cəlb edən cəhəti ictimai rəyin təsirinin siyasi baxımdan mənalandırılmasıdır. Yeri gəlmişkən qeyd edək ki, ictimai rəyin dövlət tərəfindən nəzərə alınması demokratik idarəçiliyin qüdrətli amillərindəndir.

Ümumiyyətlə, elmi ədəbiyyatda bu və ya digər hakimiyyət orqanının, o cümlədən parlamentin həyata keçirdiyi funksiyaların təsnifatı üçün aşağıdakı cəhətlər başlıca meyar hesab olunur;

1. Hakimiyyətin hər hansı orqanının dövlət aparatında yeri.

2. Mövcud hakimiyyət orqanının digər idarəetmə orqanları ilə qarşılıqlı münasibəti.

3. Hakimiyyət orqanının cəmiyyətə dövlət rəhbərliyini həyata keçirməsi prosesində praktiki rolu.

Əlbəttə, unutmaq olmaz ki, parlamentin başlıca məqsədi qanunlar qəbul etməkdir. Lakin bir cəhəti də qeyd etmək vacibdir ki, müasir parlamentin qanunvericilik fəaliyyəti ciddi dəyişikliklərə məruz qalmışdır. Belə ki, sənaye kapitalizminin təşəkkülü və inkişafı dövründə parlament sözün əsil mənasında hakimiyyətin qanunverici orqan hesab olunurdu. Həmin dövrdə hökumətin fəaliyyəti, əslində parlamentə tabe idi və sonuncunun qəbul etdiyi qanunvericilik aktlarının sayı artırdı, onun qanunvericilik fəaliyyətinin həcmi isə genişlənirdi. Lakin inhisarçı kapitalizmin iqtisadı

qüdrətinin artması parlamentin qanunvericilik səlahiyyətlərinin tədricən məhdudlaşdırılmasına gətirib çıxarır və onun əvvəlki səlahiyyətləri hökumətin fəaliyyət sferasında əksini tapır. Müasir dövrdə sözün müəyyən mənasında **parlament qanunverici orqandan qanun təsdiq edən orqana çevrilib**. Bu real cəhəti dünyanın ən nüfuzlu hüquqşünasları və politoloqları da təsdiqləyirlər. Hazırda parlamentin nüfuzunun tənəzzülə uğramasını **Belfastdakı Britaniya Krallığı** universitetinin mühazirəçisi **Ceyms** daha dəqiq ifadə etmişdir. **Ceymsin** fikrincə, Britaniya konstitusiyasının inkişafı ona gətirib çıxardı ki, icraedici hakimiyyət qanunvericilik təşəbbüslərini tam inhisara aldı. Belə mülahizələri yürüdən görkəmli alimlərdən digəri Fransa sosioloqu **Lekeldir. Lekel** Fransa respublikasının qanunvericilik praktikasını tədqiq etmək əsasında belə qənaətə gəlir ki, "parlamentin qanunvericilik təklifləri seçicilərin şüuruna təsir edə bilən mərasimdən başqa bir şey deyildir".

Ümumiyyətlə, müasir dövrdə ölkələrin əksəriyyətində qanunvericilik təşəbbüsləri hökumətə məxsusdur. Məsələn, İngiltərə hökumətində nazirlər kabinetinin tərkibində Lordprezidentin və nümayəndələr palatasının liderinin başçılıq etdiyi qanunvericilik təklifləri komitəsi fəaliyyət göstərir. Bu komitə bilavasitə hökumətin qanunvericilik proqramının işlənib hazırlanması ilə məşğuldur. İngiltərə parlamentinin fəaliyyəti isə hökumətin qanun layihələrini nəzərdən keçirmək səlahiyyəti ilə məhdudlaşır.

Prezident idarəçiliyinin mövcud olduğu ölkələrdə isə konstitusiyaya görə, hökumət qanunvericilik təşəbbüsündən məhrumdur. Buna görə, hökumət qanunvericilik təşəbbüsünü dolayı yolla həyata keçirməyə məcburdur. Bu cəhət ABŞ-ın nümunəsində aydın nəzərə çarpır. ABŞ prezidenti parlamentin qanunvericilik fəaliyyətinə formal, sırf informasiya xarakteri daşıyan müraciət və ya məktub vasitəsilə təsir göstərir. Əslində isə, prezidentin konqresə göndərdiyi məktub qanunvericilik gücünə malikdir. Bir sözlə, prezident qanunvericilik prosesinə partiya liderlərinin iştirakı ilə

çağrılan "prezident müşavirəsi" və digər üsullarla həlledici təsir göstərir.

Parlament anlayışı ilə bağlı biliklərimizi zənginləşdirmək baxımdan parlament üzvünün (deputatın) hüquqi mövqeyinə dair konkret təsəvvürə yiyələnmək də siyasi əhəmiyyətə malikdir. Parlament üzvü peşəkar qanunverici şəxs olmaq etibarilə, bütün milləti təmsil edir. Əhalinin müxtəlif sosial qruplarını təmsil edən nümayəndələrin parlamentdə deputat mandatı əldə etmə dərəcəsinin meyarı onların sosial fəallığı və siyasi yetkinliyidir.

Deputat mandatı dövlət vəzifələrində və digər vəzifələrdə çalışan şəxslərlə müqayisədə deputata müəyyən üstünlük verir və onun hüquqi mövqeyini möhkəmləndirir. Bir qayda olaraq konstitusiya və ya müvafiq qanunvericilik deputat mandatının digər vəzifələrlə bir araya sığmamasının meyarlarını və əlamətlərini müəyyən edir. Bu, mahiyyət etibarilə belə bir cəhəti ifadə edir ki, parlamentdəki fəaliyyət deputatın yeganə fəaliyyət sferasıdır (nazir vəzifəsi daşıyan şəxslər istisna olmaqla). Deputatın peşəkarlığı nəzəri cəhətdən "hakimiyyətin bölünməsi" prinsipi ilə şərtlənir. Həmin prinsip isə qanunverici və icraedici hakimiyyətin birləşməsini qadağan edir. Təəssüf ki, ölkələrin cüzi qismində həmin prinsip pozulur.

Parlamentlə parlamentarizmin nisbəti məsələsini açıqlamaq da vacib və faydalıdır.

Qanunvericilik orqanlarının icraedici orqanlardan üstünlük təşkil etdiyi dövlətlərdə siyasi hakimiyyət sistemi parlamentarizm adlanır. Parlamentarizm bu və ya digər ölkədə cəmiyyətə dövlət rəhbərliyi sistemidir. Parlamentarizm qanunverici və icra funksiyalarının dəqiq bölüşdürülməsi, qanunvericilik orqanı olmaq etibarilə, parlamentə digər dövlət orqanlarına nisbətən üstünlük verilməsi ilə səciyyələnir. Parlamentarizm şəraitində hökumət parlament tərəfindən təşkil olunur və onun qarşısında məsuliyyət daşıyır. Başqa sözlə, parlamentarizm dövlət hakimiyyəti və idarəçiliyi mexanizmində seçkili orqanın formal cəhətdən başlıca mövqe tut-

masıdır. Parlamentarizm kapitalizmin təşəkkül tapdığı ilk dövr üçün səciyyəvi olan siyasi hakimiyyət sistemidir. XIX əsr parlamentarizmin yüksək səviyyədə inkişafı dövrüdür. Müasir dünyamız isə parlamentarizmə nisbətən idarəçilik orqanlarının rolunun artması və hökumətlərin parlamentin bir çox funksiyalarını, o cümlədən qanunvericilik funksiyasını öz əlinə alması ilə diqqəti cəlb edir.

2. Parlamentin strukturu

Bütün ölkələrin parlamentləri mahiyyətinə və fəaliyyət xarakterinə görə fərdi, özünəməxsus cəhətlərə malikdir. Bununla yanaşı, həmin parlamentlərə bir sıra ümumi əlamətlər xasdır. Bu əlamətlər dünya parlamentlərinin sistemləşdirilməsi üçün başlıca şərtdir. Müasir parlamentlər, əsasən aşağıdakı üç əlamət üzrə sistemləşdirilir:

1) Parlamentin strukturu, 2) parlamentin səlahiyyətlərinin həcmi, 3) sosial tərkib.

Parlamentlər strukturuna görə ikipalatalı (bikameral) və ya birpalatalı (unikameral) ola bilər. Parlamentlərin ənənəvi təşəkkül tarixi ikipalatalılıqla səciyyələnir. Lakin XX əsrin ikinci yarısından etibarən, bu qanunauyğunluq mühüm dəyişikliyə uğramışdır. Belə ki, müstəmləkə sistemindən azad olan və müstəqil inkişaf yoluna qədəm qoyan ölkələr praktiki şəkildə ikipalatalı parlament sistemini inkar etmiş və birpalatalı parlamentə üstünlük vermişlər. Hətta klassik kapitalist ölkələrinin müəyyən hissəsi müxtəlif mülahizələrə görə, birpalatalı parlament idarə sisteminə keçmişlər.

Politologiyaya dair bəzi tədqiqat işlərində parlamentə malik ölkələrdə ikipalatalı sistemin sayca üstünlük təşkil etməsi iddia olunur. Əslində isə, belə deyildir. Hazırda dünya parlamentlərinin əksəriyyəti birpalatalıdır. İndi dünyada elə bir qitə yoxdur ki, orada ikipalatalı parlament üstünlük təşkil etsin. Faktlara müraciət edək. Avropada 23 dövlətdən 12-si birpalatalı parlamentə malikdir (keçmiş sosialist ölkə-

ləri buraya daxil deyil). Həmin göstərici digər qitələrdə də aydın nəzərə çarpır. Məsələn, Afrikada parlamentə malik olan 36 dövlətdən 26-da birpalatalı parlament sistemi, Amerika qitəsində 22 dövlətdən 11-də, Asiya, Avstraliya və Okeaniyada isə 22 dövlətdən 11-də birpalatalı parlament mövcuddur.

İlk parlamentlərin iki palatalılıq formasında təşəkkül tapması bir sıra amillərlə bağlıdır. Əvvəla, yuxarı palata aristokratiyanı təmsil etmək məqsədilə yaradılıb. İkincisi isə o, dövlət hakimiyyətinin yüksək orqanları sistemində demokratik ünsürlərə malik olan aşağı palata ilə tarazlığı saxlamaq üçün təşkil olunmuşdur. Klassik kapitalist ölkələrinin ideoloqları həmişə ikipalatalı parlamentə böyük üstünlük vermiş və bu parlament sistemini demokratiyanın dəyərlərindən biri kimi əsaslandırmağa səy göstərmişlər. Məsələn, XX əsrin nüfuzlu siyasi xadimlərindən biri olan **Çörçill** özünəməxsus qətiyyətlə qeyd edirdi ki, "mən indiyə qədər demokratik təsisatlara malik elə bir ölkə tanımıram ki, o, birpalatalı parlament idarə sistemini qəbul etsin. Mənə elə bir azad, demokratik konstitusiya göstərin ki, o, birpalatalı idarə prinsiplərinə əsaslanır".

İkipalatalı və birpalatalı parlamentlərin formalaşması **ümumi və fərqli cəhətlər kəsb edir**. Həmin palataların təşəkkülünün **ümumi əlamətlərindən** biri bundan ibarətdir ki, ikipalatalı parlamentin aşağı palatası və birpalatalı parlament ümumi, bərabər və birbaşa seçki əsasında şəxsi və gizli səsvermə yolu ilə təşkil olunur. Həm ikipalatalı, və eləcə də birpalatalı parlamentlərin səlahiyyəti ölkələrin böyük əksəriyyətində parlamentin ilk iclası günü başlanır və sonuncu iclasda başa çatır. Lakin bu palataların səlahiyyət müddəti bütün ölkələrdə eyni deyildir.

İkipalatalı parlamentin yuxarı palatası birbaşa, bəzi hallarda isə dolayı yolla, yəni çoxdərəcəli seçki əsasında təşkil olunur.

Yuxarı palatanın birbaşa seçki əsasında formalaşması ABŞ, İtaliya və s. dövlətlərdə, dolayı yolla təşkili isə Fransa,

Hindistan və digər ölkələrdə həyata keçirilir.

İkipalatalı və birpalatalı parlamentdə komitələr, yaxud komissiyalar fəaliyyət göstərirlər. Parlament komissiyaları parlamentin köməkçi orqanlarıdır. Komissiyalar içərisində qanunverici parlament komissiyaları başlıca rol oynayırlar. Qanunverici parlament komissiyaları **daimi, müvəqqəti və xüsusi formada** mövcuddur. **Daimi komissiyalar** yarandığı vaxtdan parlamentin səlahiyyət müddəti başa çatana qədər fəaliyyət göstərir. **Müvəqqəti komissiyalar** öz fəaliyyətini müvafiq parlament qanunvericiliyində nəzərdə tutulan qayda əsasında, palataların səlahiyyət vaxtının müxtəlif məqamlarında dayandırır. **Xüsusi komissiyaların** fəaliyyətini səciyyələndirən cəhət isə peşəkar parlament üzvlərindən təşkil olunmasıdır, başqa sözlə, yüksək səviyyədə ixtisaslaşdırılmış komissiya kimi formalaşmasıdır. Avropa dövlətlərinin əksəriyyətində daimi qanunverici parlament komissiyaları fəaliyyət göstərir. Reqlamentə görə, parlament komissiyaları seçilir. Federativ dövlət formasının mövcud olduğu ölkələrdə ikipalatalılıq mövcuddur. Birpalatalı parlament isə başlıca olaraq unitar dövlətlərdə (Panama, Boliviya, Azərbaycan və s.) təşkil olunur. Bütövlükdə ikipalatalı parlamentin həyata keçirdiyi səlahiyyətlər birpalatalı parlamentə malik ölkələrdə məhz, mövcud vahid palata tərəfindən icra olunur. İkipalatalı parlamentlərin fəaliyyət predmetinə daxil olan məsələlər əvvəl aşağı, sonra isə yuxarı palatada müzakirə olunur və müvafiq qərarlar qəbul edilir. Birpalatalı parlamentdə müzakirə edilən müxtəlif məsələlər isə əvvəl ayrı-ayrı komitələrdə və ya komisiyalarda nəzərdən keçirilir, bundan sonra parlamentin ümumi müzakirəsinə təqdim olunur.

İkipalatalı və birpalatalı parlamentin fəaliyyətinin bu fərqli cəhətləri heç də ikipalatalı parlament sistemində mövcud olan daimi komitələrin və yaxud komissiyaların unudulması kimi başa düşülməməlidir.

İkipalatalı parlament sistemi ilə səciyyələnən federativ dövlət formasının spesifik cəhətləri təbii olaraq, ikipalatalı

parlamentin strukturunda və fəaliyyətində müəyyən özünəməxsusluq doğurur. Federativ dövlət forması kimi səciyyələnən ölkələr mahiyyət etibarilə, bir tərəfdən vahid dövlət kimi mövcuddur, digər tərəfdən isə federasiya subyektlərinə (ştatlara, əyalətlərə, respublikalara və s.) malikdirlər. Məsələn, hazırda ABŞ-da federasiya subyektləri ştatlardırsa, keçmiş SSRİ-də bu subyektlər respublikalardan ibarət idi. Bir sözlə, **Federativ ölkələrin inkişafının** spesifik şəraiti hər iki palatanın – aşağı və yuxarı palataların hər birinin formalaşmasında və iş üsulunda səciyyəvi xüsusiyyətləri şərtləndirir. Məsələn, bütün ölkənin mənafeyini ifadə edən aşağı palatanın deputatı ümumi və birbaşa seçki yolu ilə seçilirsə, federasiya subyektlərinin mənafeyini təmsil edən yuxarı palatanın üzvü seçilə bilər, təyin edilir. Federasiyanın bütün subyektləri öz miqyasından (böyük və ya kiçikliyindən), əhalisinin sayından asılı olmayaraq, palatanın tərkibində eyni sayda nümayəndə ilə təmsil olunur. Məsələn, ABŞ-da yuxarı palatanın (senatın) tərkibinə hər ştatdan altı il müddətinə iki nəfər senator seçilir. Senatın üçdə bir hissəsi hər iki ildən sonra təzələnir. Ştatların səfirləri sayılan senatorlar onları seçən ştatlar qarşısında məsuliyyət daşımırlar. Parlament üzvünün öz seçiciləri qarşısında məsuliyyət daşımaması Avropanın bir sıra ölkələrində də diqqəti cəlb edir. Yeri gəlmişkən qeyd edək ki, seçicilər qarşısında məsuliyyət daşımaq hələ ilk parlamentlərin təşəkkül tapdığı vaxtdan mövcuddur. Seçicilər qarşısında məsuliyyət daşımaq parlamentə malik Avropa ölkələrində tarixən deputatın əldə etdiyi "imperativ mandatla" şərtlənmişdir. Lakin XVII-XVIII əsrlərdə imperativ mandatın ləğvi ideyası irəli sürülür. Bu ideya ilk dəfə ingilis nəzəriyyəçisi ser **Edvard Kok** tərəfindən onun "İngiltərənin hüquqi təsisatı" (1630-cu il) kitabında öz əksini tapmışdır, sonralar isə ingilis konstitusiya hüququnun klassiki **Edmund Berk imperativ mandatı** və deputatın hər hansı təlimata tabe olmasını qətiyyətlə pisləmişdir. Parlament üzvünün öz seçiciləri qarşısında deyil, məhz, bütün millət qarşısında məsuliyyəti demokratiyanın mahiyyətin-

dən irəli gəlir. Hazırda nəinki ABŞ-da, həmçinin Avropanın Almaniya, Fransa və İtaliya kimi demokratik ölkələrində **imperativ mandat ləğv edilmiş və deputatın mənsub olduğu parlament vəzifəsindən geri çağırılması qadağan olunmuşdur.** Təsadüfi deyil ki, imperativ mandatın ləğvi və deputatın parlamentdən geri çağırılmaması bir sıra Avropa ölkələrinin konstitusiyalarında təsbit edilmişdir. AFR-nın konstitusiyasının 38-ci maddəsində qəti şəkildə qeyd olunur ki, "alman bundestaqının deputatı bütün xalqı təmsil edir və buna görə də yalnız öz vicdanına tabedir". Buradan belə bir məntiqi nəticə hasil olur ki, deputatın yerinə yetirdiyi vəzifələr onun əldə etdiyi mandatla deyil, məhz xalqa sədaqəti ilə şərtlənir. Əlbəttə, parlament üzvünün vətənə, millətə vicdanla, təmənnasız xidməti onun vətəndaşlıq statusudur.

İkipalatalı parlamentin fəaliyyəti ABŞ-dakı kimi digər federativ dövlətlərdə də özünəməxsusluq kəsb edir. Məsələn, AFR-də yuxarı palata - bundesrat seçilmir. O, alman torpaqlarının hökumət nümayəndələrindən təşkil olunur. Bundesratın təşkilində alman torpaqlarının əhalisi iştirak etmir. Lakin əhalinin sayından asılı olaraq, hər bir torpaq sahəsinin bundesratda 35 nümayəndəsi təmsil oluna bilər. Bundesratın üzvləri torpaqların hökumətləri tərəfindən təyin olunur və lazım gəldikdə geri çağırılır. Bundesrat daim fəaliyyət göstərən orqandır. Konstitusiya qanunları müstəsna olmaqla, digər qanunlar bundesratda sadə səs çoxluğu ilə qəbul olunur. Bundesrat heç kəs tərəfindən buraxıla bilməz. O, konstitusiyanın və torpaqların sərhədlərinin dəyişdirilməsi, maliyyə, vergi və sair məsələlər üzrə bundestaqın - aşağı palatanın qəbul etdiyi qanunları təsdiqləyir. Əgər bundesrat bu qanunlarla razılaşmazsa, o zaman veto hüququndan istifadə edir.

İkipalatalı parlament sistemi **unitar dövlətlərdə** də mövcud ola bilər. Məsələn, İtaliyada parlament iki bərabər hüquqlu palatadan - senatdan (yuxarı palata) və deputatlar palatasından (aşağı palata) ibarətdir. İtaliya parlamentli respublikadır. 1947-ci il konstitusiyasına əsasən, ölkədə qa-

nunvericilik hakimiyyət funksiyası parlament tərəfindən həyata keçirilir. Palataların iclaslarını aparmaq üçün hər palata öz üzvlərindən sədr (spiker) və rəyasət heyəti seçir. Respublika prezidenti müxtəlif fəaliyyət sahələrində görkəmli nailiyyətləri ilə fərqlənən və vətənin şöhrətini ucaldan beş nəfər vətəndaşı ömürlük senator seçə bilər. Konstitusiyaya görə, parlamentin səlahiyyətinə qanunlar vermək, hökumətin fəaliyyətinə nəzarət, müharibə elan etmək, beynəlxalq müqavilələri təsdiqləmək, büdcə haqqında hesabatı təsdiq etmək və s. daxildir. Konstitusiyanın 71-ci maddəsində xalqın qanunvericilik təşəbbüsü təsbit olunmuşdur. Bu isə o deməkdir ki, 50 min nəfərdən ibarət olan seçicilər öz adından qanun layihəsi irəli sürə bilər. Palatalara təqdim olunmuş qanun ləyihəsi ilk növbədə komissiyalarda müzakirə olunur, sonra palataların ümumi iclaslarına göndərilir. Qanunlara palatalarda iki dəfə baxılır və mütləq səs çoxluğu ilə qəbul edilir. Qanun parlamentdə qəbul olunduqdan sonra, prezident tərəfindən imzalanır və qüvvəyə minir.

Böyük Britaniyada qanunvericilik hakimiyyəti monarxdan (ölkə başçısından), icma və lordlar palatasından ibarət olan parlamentə məxsusdur. Lakin hazırda İngiltərə parlamentinin, xüsusilə icma palatasının rolu azalaraq əvvəlki əhəmiyyətini itirmişdir. Çünki mühüm siyasi xarakterli məsələlər parlamentin palatalarında deyil, məhz, hökumətin iclaslarında həll olunur. Parlamentin səlahiyyətləri faktiki olaraq hökumət vasitəsilə həyata keçirilir. Qanunvericilik təşəbbüsü praktiki baxımdan hökumətə məxsusdur. Deputatların qəbul etdiyi hər hansı qanun layihəsi hökumət tərəfindən bəyənilmədikdə qəbul edilmir.

Ali qanunverici orqan olmaq etibarilə, İngiltərə parlamenti iki palatadan - icma palatası və lordlar palatasından ibarətdir. Majoritar seçki sistemi şəraitində icma palatasının deputatlığına iki əsas partiyanın – mühavizakarların və leyboristlərin nümayəndələri seçilir. Qanuna görə, baş nazir parlamentin buraxılmasını kraldan tələb edə bilər. İcma palatasının səlahiyyətinə icraedici orqanların fəaliyyə-

tinə nəzarət, kabinetin hesabatını dinləmək, ona etimad məsələsini həll etmək və s. vəzifələr aiddir. Əslində isə icma palatası kabinetə deyil, məhz, kabinet icma palatasına nəzarət edir. Hökumət parlamenti buraxmaq səlahiyyətinə malikdir.

Lordlar palatası isə parlamentin imtiyazlı palatası olub varislik hüququ əsasında təşkil olunur. Bu palatanın üzvləri seçilir (21 per müstəsna olmaqla), varislik qaydasında təyin olunur. Lordlar palatasının fəaliyyətinə baş nazirin təqdimi ilə kral tərəfindən təyin olunmuş Lord-kansler sədrlik edir. Lord-kansler hökumətin üzvüdür və baş nazirə tabedir.

Qeyd etmək lazımdır ki, mühüm əhəmiyyətə malik qanun layihələrinin üçdə iki hissəsi icma palatası tərəfindən hazırlanıb müzakirəyə təqdim edilir. Qanun layihəsi parlamentdə müzakirə olunduqdan və hər iki palata tərəfindən bəyənildikdən sonra kral tərəfindən təsdiqlənir və o, qanun layihəsinin qüvvəyə mindiyin elan edir.

Yaponiya parlamenti iki palatadan ibarətdir: Nümayəndələr palatası və məsləhətçilər palatası. Parlament qəbul etdiyi qərar əsasında öz üzvləri içərisindən baş nazir seçir. Baş nazir isə parlament üzvlərindən dövlət nazirlərini təyin edir. Əgər nümayəndələr palatası hökumətə etimad göstərməmək barədə qərar layihəsi qəbul edərsə və 10 gün müddətində həmin palata hökumət tərəfindən buraxılmazsa, belə halda hökumət bütün üzvləri ilə istefa verməlidir.

Birpalatalı parlamentlər isə unitar dövlətlərdə mövcuddur. Unitar dövlətlərin özünəməxsus, spesifik inkişaf şəraiti birpalatalı parlament sisteminin mahiyyətində öz əksini tapır. Unitar dövlət formasının mövcud olduğu ölkələrdə birpalatalı parlamentin nəinki strukturunda və səlahiyyətlərində, həmçinin onun sosial tərkibində və fəaliyyərində ikipalatalılıqla müqayisədə fərqli cəhətlər təzahür edir. Bu baxımdan Finlandiya parlamentinin mahiyyəti və səlahiyyətlərini nəzərdən keçirək.

Finlandiya respublikasının ali qanunvericilik orqanı seymdir. Seym adlanan Finlandiya parlamenti birpalatalı-

dır. Bu ölkənin konstitusiyasının 2-ci paraqrafında qeyd olunur ki, qanunverici hakimiyyət seym tərəfindən respublika prezidenti ilə birlikdə həyata keçirilir. 1928-ci il yanvarın 13-də seymin təşkili və fəaliyyəti haqqında nizamnamə qəbul olunmuşdur. Seym 200 deputatdan ibarət olub proporsional seçki sistemi ilə 4 il müddətinə seçilir. Seym ildə bir dəfə öz növbəti sesiyasını çağırır. Finlandiya prezidenti seymin fövqəladə sesiyasını çağırmaq hüququna malikdir. Seymin səlahiyyətlərinə qanunlar vermək, büdcəni təsdiq etmək, konstitusiyanı dəyişdirmək, hökumətin fəaliyyətinə nəzarət, beynəlxalq müqavilələr bağlamaq və s. daxildir. Seymin hər sesiyasında sədr, iki nəfər sədr müavini və 5 daimi komissiya seçilir. Həmin komissiyalar bunlardır: 1. Konstitusiya komissiyası. 2. Qanunvericilik komissiyası. 3. Xarici işlər komissiyası. 4. Maliyyə komissiyası. 5. Bank işləri komissiyası.

Hər bir komissiya təşkil olunduqdan sonra ən geci 2 gün ərzində öz iclasını çağırmalı və seymin ümumi iclası üçün bütün zəruri məsələlərə dair rəyini hazırlamalıdır. Seymin nizamnaməsinin 66-cı maddəsinə görə, qanun layihələri üç oxunuşdan keçməlidir. Üçüncü oxunuşda qanun layihəsi səsə qoyulur. Seym ikinci oxunuşda bəyənilən qanun layihəsini qəbul və ya rədd edə bilər.

Unitar dövlət olan **Azərbaycan Respublikasının Milli Məclisi** də birpalatalıdır. Birpalatalı və ikipalatalı parlamentlər üçün səciyyəvi olan ümumi prinsiplər Azərbaycan Respublikasının Milli Məclisinin strukturunda, sosial tərkibində və səlahiyyətlərində öz əksini tapmışdır.

III FƏSİL
SEÇKİ SİSTEMLƏRİ

1. Seçkilər siyasi sistemin yeniləşməsi texnologiyasıdır

Seçki sistemi son dərəcə mürəkkəb və dinamik hadisədir. Hər bir ölkədə onun konkret məzmunu müxtəlifdir və bir ölkə çərçivəsində seçki sisteminin məzmunu vaxtı gələndə çoxsaylı şəraitin təsiri altında dəyişir. O, yerli orqanlar-

dan tutmuş ölkə Prezidentinə qədər nümayəndəli hakimiyyət sisteminin formalaşması prosesinin həyata keçirilməsi üsuludur.

Seçkilər müasir demokratik cəmiyyətdə siyasi prosesin ayrılmaz hissəsidir. O, böyük siyasətə üz tutan insana əlverişli imkan, parlamentin deputatı (millət vəkili), qubernator və ya ölkə prezidenti olmağa isə zəmin yaradır. Bununla yanaşı, seçkilər zamanı vətəndaşlar fəal siyasi həyata cəlb edilir, onlar ali dövlət orqanlarının şəxsi tərkibinə təsir göstərmək imkanları baxımından özlərinin əhəmiyyətini hiss etməyə başlayırlar.

Fəaliyyətdə olan hər bir orqanizm kimi, siyasi sistem də dinamik sabitlik vəziyyətində olmalıdır, başqa sözlə, qeyri-sabitləşdirici xarici və daxili təsirlərə qarşı möhkəm, dayanıqlı reaksiya verməli, eyni zamanda öz tərəqqisini, yeniləşməsini, inkişafını təmin etməlidir. Siyasi sistemin yeniləşməsinin bir sıra yolları, mexanizmi və texnologiyası mövcuddur: siyasi təsisatların dəyişməsi; yeni partiyaların və siyasi fəaliyyətin digər subyektlərinin formalaşması; partiya sistemlərinin transformasiyası; Konstitusiyaya düzəliş; dövlətin və cəmiyyətin başlıca məsələlərinin inkişafına aid referendum; qarşılışlı münasibətlər haqqında müqavilə; kütləvi informasiya vasitələrinin oriyentasiyasında əhəmiyyətli dəyişiklik; qanunverici və icraedici hakimiyyətə seçkilər və s., bir sözlə, siyasi sistemin bütün yarımsistemlərində mümkün ola bilən dəyişikliklərin həyata keçirilməsi (təsisatlı, normativ, funksional və digər yarımsistemlərdə).

Seçkilər cəmiyyətin siyasi sisteminin yeniləşməsinin ən əhəmiyyətli texnologiyasıdır. Maraqlıdır ki, bəzi ölkələrdə, xüsusilə demokratikləşmə prosesinə son illər (postsovet məkanında) qədəm qoyan Rusiya kimi böyük bir ölkədə seçkilərin keçirilməməsi tezisini irəli sürənlərə təsadüf edilir. Məsələn, həmin ölkədə seçkilərin keçirilməməsini iddia edənlər aşağıdakı cəhətlərə əsaslanırlar: qanunlar təkmilləşmiş səviyyədə deyil, çoxlu yanlışlıqlarla səciyyələnir, yenidən işlənib hazırlanması və tamamlanması tələb olunur; seçki kam-

paniyalarının nəticələrinə görə, bir sıra şəhərlərdə əvvəllər cinayətkarlıq edən liderlər hakimiyyətə gəlirlər, bununla bağlı rəhbərliyi seçmək yox, təyin etmək lazımdır; nisbi sabitliyin zəif vəziyyəti seçkilərin pozulmasına səbəb olur, buna görə onların keçirilməsinə ehtiyac duyulmur; icraedici hakimiyyətin qanunverici müxalifət orqanları islahatların gedişini ləngidir, nümayəndəli hakimiyyətsiz də keçinmək mümkündür; Dumanın yeni tərkibi yaxşı qaydada, işgüzar olmayacaq, buna görə də yeni seçkilərin mənası yoxdur; Mərkəzi Seçki Komissiyası saxtakarlığın olmayacağına təminat verə bilməz; xalq seçkilərdən yorulub, işləmək lazımdır, "siyasi oyun" oynamaq yox və s.

Əvvəla, qeyd edək ki, seçkilərin keçirilməsini inkar edən rus ideoloqları tarixən demokratik quruculuq prosesindən xeyli uzaq olan ölkəni təmsil edirlər, ikincisi onlar keçmiş totalitar cəmiyyətin "vətəninin" nümayəndələridir, nəhayət, Rusiyanın indiki siyasi, iqtisadi, hərbi və digər durumu, eləcə də bu ölkədə etnik ziddiyyətlərin güclənməsi demokratik tranziti çətinləşdirir. Bir sözlə, seçkilərin keçirilməməsinin tərəfdarları bu məqsədlə, təmsil etdikləri ölkənin demokratiyaya zidd məqamlarını əsas götürürlər. Yeri gəlmişkən qeyd edək ki, seçki kampaniyasında baş verən neqativ hallar, həmçinin, saxtalaşdırma keçmiş SSRİ-nin tərkib hissəsi olan və hazırda müstəqillik əldə edən ölkələrin böyük əksəriyyətində (və ümumiyyətlə, dünyada) nəzərə çarpır, seçki prosesi subyektiv əyintilərə məruz qalır. Ümumiyyətlə, siyasi sistemin tərkibinin, strukturunun demokratik yeniləşməsi aşağıdakı məqamların reallaşmasını ifadə edir:

- Əsas Qanuna müvafiq olaraq, vətəndaşlara və siyasi qüvvələrə siyasi həyatda iştirak etmək üçün öz konstitusiya hüquqlarını reallaşdırmaq imkanları (seçmək və seçilmək) verilməsi;

- dövlətin vətəndaşlarında fəaliyyətdə olan qanuna və ənənələrə hörmət və tabe olmaq tərbiyəsi;

- siyasi partiyaların, seçilən deputatların, cəmiyyətin

inkişaf paradiqmasının konstitusiya ilə dəqiqləşdirilməsi imkanları (proqram məqsədləri vasitəsilə);

- siyasi partiyaların çəkisinin və nüfuzunun, onların müasir siyasi kursun formalaşmasında iştirakı imkanlarının real müəyyənləşdirilməsi;

- kadrların hazırlanması, seçilməsi və tərbiyəsi imkanları – son nəticədə siyasi elitanın yeniləşməsi;

- qanunverici orqanın və ya bu və digər liderin legitimliyinin (yeniləşməsinin) güclənməsi;

- parlamentin strukturunun iqtisadi, siyasi həyatın dəyişilən şəraitinə, cəmiyyətin sosial stratifikasiyasına müvafiq olaraq qaydaya salınması;

- seçicilərin daha çox hissəsini öz tərəfinə cəlb etməyi bacaran siyasi partiyaların təcrübəsinin möhkəmləndirilməsi və təbliği;

- partiya sisteminin formalaşdırılması və strukturlaşdırılması, onun cəmiyyətin adekvat tələbatı səviyyəsinə çatdırılması;

- ölkə daxilində və beynəlxalq aləmdə "demokratik hüquqi dövlət" imicinin saxlanması və möhkəmləndirilməsi;

- liderlərin və bütövlükdə bütün cəmiyyətin siyasi mədəniyyətinin təkmilləşdirilməsi;

- ölkənin əsas Qanunu olan Konstitusiya və eləcə də onu heç kimin pozmasına yol verilməməsi.

Lakin müasir dövlətlərdə və onların siyasi təsisatlarında hakimiyyət səlahiyyətlərinin reallaşmasının vasitəli forması daha geniş yayılmışdır, belə halda bir siyasi subyekt digər siyasi subyektin nümayəndəsinin rolunu yerinə yetirir. Siyasi münasibətlər tarixi göstərir ki, hökmranlıq edən subyekt son dərəcə nadir hallarda öz adından çıxış edir. Məsələn, **XIV Lüdovik** deyirdi ki, "Dövlət mən özüməm". Bir qayda olaraq, belə subyekt özünü faktiki baxımdan digər siyasi qüvvələrin (dövlətin və ya onun təsisatının, millətin, sinfin, təbəqənin, siyasi partiyanın, müəyyən ərazinin əhalisinin və s.) nümayəndəsi hesab edir. Siyasi subyektlər arasında münasibətlərdə onlardan birinin digərinin nümayən-

dəsi kimi çıxış etməsi, başqa sözlə, birincinin hakimiyyət səlahiyyətlərini və digər siyasi fəaliyyəti həyata keçirməsi **siyasi nümayəndəlik münasibəti adlanır**.

Tarixdə xeyli bu cür siyasi nümayəndəlik münasibətinin müxtəlif təşəkkül üsulları mövcud olmuşdur[1].

Müasir dövlətlərdə siyasi nümayəndəliyin formalaşmasının daha geniş yayılan üsulu hakimiyyətə nümayəndə göndərilməsidir. İndiki demokratik dövlətlərdə hakimiyyətə nümayəndə göndərilməsinin iki istiqamətini fərqləndirmək olar: "aşağıdan yuxarı" və "yuxarıdan aşağı". Birinci halda xalq öz səlahiyyətini demokratik seçkilər vasitəsilə öz nümayəndəsinə (prezidentə, parlamentin deputatına) verir. Hakimiyyət səlahiyyətlərinin sonrakı bölgüsündə prezident və ya parlament icraedici səlahiyyəti baş nazirə, o isə nazirlərə həvalə edir.

Nümayəndəlik münasibətinin "yuxarıdan aşağı" göndərilməsi isə idarəetmə münasibətlərinin, rəhbərlik və tabelik münasibətlərinin təşəkkülünə gətirib çıxarır. Siyasi nümayəndəliyin belə növünü **formal nümayəndəlik** kimi müəyyənləşdirmək olar (rəhbərlə onun nümayəndələri arasında şəxsi münasibətlərdən asılı olmayaraq).

Hakimiyyət orqanlarına seçkilərdə xalq tərəfindən hakimiyyət münasibətlərinə nümayəndə göndərilməsi seçicilərlə həmin orqanların nümayəndələri arasında belə bir inamlı münasibət yaradır ki, seçilmiş nümayəndə seçicilərin mənafeyini ifadə və müdafiə edəcək. Bu cür münasibəti **qeyri-formal** nümayəndəlik münasibəti hesab etmək olar. Siyasi nümayəndəlik münasibəti siyasi münasibətlərin digər növləri ilə sıx əlaqə kəsb edir.

Siyasi nümayəndəlik münasibətinin müqavilə praktikası nəzəri ifadəsini hakimiyyət və cəmiyyət (dövlət və xalq) arasında müqavilə münasibətləri konsepsiyasında tapmışdır. Xalqın dövlətə qayda yaratmaq hüququ verməsinə razılığı ideyası ilk dəfə **T.Hobbsun** "Vətəndaş haqqında" və "Le-

[1] Bax: Политология. Под общ. ред. В.К.Мокщина. М., 2010. С. 246

viafan" adlı əsərlərində, sonra isə **İ.İ.Russonun** "İctimai müqavilə haqqında və ya "Siyasi hüququn prinsipləri" əsərində öz əksini tapdı.

Xalq suverenliyi nəzəriyyəsinə görə, hakimiyyətin əsas mənbəyi və ona nümayəndə göndərilməsinin başlıca subyekti **xalqdır**. Vətəndaş cəmiyyətinin təşəkkülü etnik birliyin suveren xalq kimi təşkili sayəsində baş verir. Hakimiyyət səlahiyyətlərinin ayrı-ayrı və ya kollektiv siyasətçilər nümunəsində xalqın nümayəndələrinə verilməsi demokratik üsullar gedişində – siyasi hakimiyyət orqanlarına seçkilərdə həyata keçirilir. Seçkilərin effektivliyinin başlıca amili isə vətəndaş cəmiyyətinin yetkinlik dərəcəsi və onun səviyyəsinə uyğun olan partiya sisteminin inkişafıdır.

2. Seçkinin prinsipləri və funksiyaları

Demokratik seçkilər bir sıra prinsiplərlə müəyyən olunur. Onlar dəyərli mahiyyət kəsb etməklə, seçkilərin nümayəndəli mexanizmini təmin edir. Bu prinsiplər seçki qanunvericiliyi ilə müəyyən olunur, həmin qanunvericiliyin başlıca vəzifəsi insanın ən əhəmiyyətli hüquqlarından birini – **səsvermə hüququnu və ya səs hüququnu** təmin etməkdən ibarətdir.

"Səsvermə" çox qədim termindir. O, bizə antik Spartadan gəlib çıxmışdır. Orada dövlət hakimiyyətinin ali orqanı (qerusiya) ümumi iclas (apela) gedişində ümumi qışqırıq (qışqırma səsi) vasitəsilə formalaşmışdır, başqa sözlə, qerusiyanın üzvü o adam seçilirdi ki, iclasdakılar onun seçilməsi üçün daha çox qışqırırdılar. Antik Afinadan isə bizə "seçki qutusu" anlayışı bəxş edilmişdir. Qədim afinalılar səsvermə gedişində seçki qutusuna məhz qara və ya ağ rəngdə daşları – bülletenləri atırdılar. Buradan da "əleyhinə" "səs vermək" anlayışının sinonimi kimi "qara şarı gizlincə at" ifadəsi işlədilmişdir. Afinada qara rəngli daş "əleyhinə" səs verməyi ifadə edirdi. Səs hüququ ən başlıca hüquqdur, onsuz digər hüquqlar məna kəsb etmir. Demokratik seçkilərin ümumbəşəri dəyərlərini inkar etmək hakimiyyət iddiasında olan so-

sial-siyasi qüvvələrin avtoritar və ya totalitar səylərini ifadə edir. Bunu prakitikada rus bolşevizmi, İtaliya faşizmi və alman milli-sosializmi təsdiqləmişdir.

Parlament demokratiyası ilə səciyyələnən ölkələrin konstitusiyalarında hər şeydən əvvəl, nümayəndəli orqanların seçkili olması və onun formalaşmasında xalqın ayrılmaz hüququ prinsipi möhkəmləndirilir. Bir qayda olaraq, konstitusiyanın mətnlərində seçkilərin ümumiliyi prinsipinin məzmunu açıqlanır.

Ümumilik prinsipi müəyyən yaş həddinə çatmış vətəndaşların seçmək və seçilmək hüququnu təcəssüm etdirir. Bu prinsip bütün əhalinin seçici kimi **fəal hüququnu** və eləcə də hakimiyyət orqanlarına namizəd kimi **passiv hüququnu** əks etdirir. Başqa sözlə, fəal seçki hüququ dedikdə dövlət hakimiyyəti orqanlarının, bələdiyyələrin seçilməsində əhalinin səsvermədə iştirakı hüququnun təmin olunması başa düşülür. Passiv hüququ isə ayrı-ayrı şəxslərin seçkili dövlət orqanlarına, həmçinin digər seçkili vəzifələrə öz namizədliyini irəli sürmək imkanına malik olmasını ifadə edir.

Ümumi seçki hüququ ölkənin bütün vətəndaşlarının dövlət hakimiyyəti orqanlarının və digər orqanların seçilməsində iştirakı hüququnu nəzərdə tutur. Demokratiya şəraitində ümumi seçki hüququnun həyata keçirilməsinin ən zəruri üsullarından biri məhz səsvermə sayılır.

Müasir demokratik seçkilərin vacib **prinsiplərindən biri bərabər seçki hüququdur**. Onun parktiki təcəssümü bundan ibarətdir ki, qanunvericilik orqanına deputatlar seçilir, hər bir deputat (millət vəkili) eyni sayda seçicilərdən seçilir, hər bir seçici isə ümumi elektoral qərara eyni dərəcədə təsir göstərir. Bu prinsipin gözlənilməsini təmin etmək heç də asan deyildir. Bərabər seçki hüququ prinsipinə riayət etmək xeyli dərəcədə seçki dairələrinin düzgün müəyyənləşdirilməsindən asılıdır, onların "kəsirli", əyintili fəaliyyəti seçicilərin səsini hiyləgərliklə əldə etməyin effektli üsuludur.

Bərabər seçki hüququ prinsipi müəyyən vacib istiqamətlər də kəsb edir: namizədlərin irəli sürülməsində bərabər

imkanlar onların müdafiəsi üçün toplanmış imzaların lazımi sayda olmasını təmin edir və seçkiqabağı təşviqatın aparılmasında bərabər imkanları şərtləndirir. Lakin sonuncu tələbə əməl etmək çətindir, çünki namizədlərin maddi imkanları eyni deyil, seçkiqabağı təşviqata və digər hallara nəzarət formaları isə qeyri-mükəmməl nəzərə çarpır. Heç də təsadüfi deyil ki, bəzi ölkələrdə seçki kompaniyasını yalnız dövlət maliyyələşdirir, bu isə namizədlərin maddi vəziyyətinin bərabərliyini təmin edir.

Bəzi hallarda vətəndaşların ayrıca kateqoriyalarının seçki hüququnun genişləndirilməsi üçün, bərabərlik prinsipinin pozulmasının məcburiliyi yaranır (xüsusi qaydaların tətbiqi yolu ilə). Buna görə, dövlət orqanlarındakı yerlərin bir hissəsi əhalinin müəyyən təbəqəsinə verilir. Məsələn, belə güzəşt Cənubi Afrika Respublikasında və Zimbabvedə irqi azlığın nümayəndələrinə aid edilir. Etnik qruplar üçün nəzərdə tutulan bu cür normaların tətbiqi eləcə də Livanda, Belçikada və bəzi digər ölkələrdə mövcuddur.

Seçkilərin digər **prinsipi onların birbaşa olmasıdır**. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, inkişaf etmiş parlament demokratiyasına malik ölkələrin əksəriyyətində seçicilər parlamentin üzvlərini, prezidenti, siyasi hakimiyyətin digər orqanlarının nümayəndələrini birbaşa (vasitəçi, təmsilçi və ya nümayəndə olmadan) seçirlər. Demokratik dövlətlərin əksəriyyətinin konstitusiyasında seçicilərin səsvermədə bilavasitə iştirakı hüququ qaydada təsbit edilmişdir. Nümayəndəli orqanlara seçkilərdə birbaşa seçki prinsipinə birmənalı şəkildə tam əməl edilir. Lakin bəzi ölkələrdə prezident seçkilərində həmin prinsipə riayət olunmur. Formal dolayı seçkilərin mahiyyəti isə bundan ibarətdir ki, seçilən birmənalı olaraq seçicilərin iradəsini icra edir. Formal dolayı seçkilər (məsələn, ABŞ-da prezident seçkilərində) praktiki olaraq birbaşa seçkilərdən heç bir şeylə fərqlənmir, çünki seçilənlərin vəzifəsi öz seçicilərinin qərarını dəqiq yerinə yetirməkdən ibarətdir. Müqayisə üçün qeyd edək ki, ABŞ-da dolayı seçki sistemi tətbiq olunur, lakin parlament

idarəçiliyi sistemində isə dövlət başçısı xalqın mandatını qazanan ali qanunverici orqan tərəfindən seçilir.

Əvvəllər geniş istifadə edilən dolayı seçkilər seçki prosedurlarının demokratikliyini əhəmiyyətli dərəcədə azaltdı. Onlardan istifadə edilməsi hər şeydən əvvəl, seçicilərin xeyli hissəsinin seçkilərin keçirilməsində şəxsən iştirak etmək, onların gedişinə və nəticələrinə bilavasitə təsir göstərmək imkanlarının məhdudlaşdırılması ilə bağlıdır. Birbaşa seçkilər isə seçicilərin onlarda həqiqətən ümumi iştirakı imkanlarını yaradır və seçki kampaniyasının tam legitimliyini təmin edir.

Demokratik seçkilərin ən mühüm **prinsipi bəhsləşmədir**. Demokratiyanın qərarlaşmasının əhəmiyyətli şərti olan bu prinsip rəqabət aparan partiyaların, hərəkatların, namizədlərin (müxtəlif sosial qrupların mənafelərini təmsil edənlərin) seçkilərdə iştirakını ifadə edir. Ayrı-ayrı sosial birliklərin mənafelərini ifadə edən siyasi partiyalar müxtəlif sosial təbəqələrin və qrupların seçkilər vasitəsilə siyasi sistemə cəlb olunmasına cəhd edirlər. Bəzi ölkələrdə bəhsləşmə prinsipi qanunvericiliklə təsdiqlənmişdir. **Ədalətli bəhsləşmə prinsipinin** təmin edilməsinə şərait yaradılması demokratik seçkilərin bərqərar olmasının rəhnidir. Səsvermə proseduralına aid olan **prinsip** bütün demokratik dövlətlərdə qəbul olunan **gizli səsvermədir**. Bu prinsip seçicilərə xaricdən təsiri xeyli dərəcədə azaldır. Gizli səsvermə prinsipi seçicilərə xarici təsir ehtimalını azaldan texniki xarakterli müxtəlif üsullarla təmin edilir. Qanunda bu prinsipin pozulmasına qarşı sərt cəza nəzərdə tutulur.

Demokratik seçki **prinsipinə seçkilərə ictimai nəzarət** imkanını da aid etmək olar. Xarici və ölkə daxili (milli) müşahidəçilərin seçkilərdə iştirakı seçkilərin keçirildiyi dövlət üçün seçki prosesinin nüfuzunu yüksəldə bilər. Bəzi ölkələrdə, məsələn, Filippində seçkilərdə iştirak etmək vətəndaşların hüququ deyil, borcdur, lakin üzürlü səbəb olmadan seçki məntəqəsinə gəlməyənlər inzibati qaydada cəzalandırılır, hətta ona qarşı cinayət işi qaldırıla bilər. Lakin demo-

kratik ölkələrin çoxunda **azad seçkilər** və vətəndaşların onlarda könüllü iştirakı prinsipi fəaliyyət göstərir. Bu, o deməkdir ki, heç kimin vətəndaşların seçkilərdə məcburi iştirak etməsinə və onların iradəsini azad bildirməsinə təsir göstərmək hüququ yoxdur.

Demokratik seçkilər prinsipinə, eləcə də **seçkiqabağı mübarizədə imkanların bərabərliyi prinsipi** aiddir. Bu müxtəlif maddi imkanlar hesabına hər hansı namizədin üstünlük qazanmasına yol verilməməsini təmin etməyi nəzərə tutur.

Nəhayət, demokratik seçkilərin daha bir **prinsipi müntəzəmlik, vaxtaşırılıq** hesab olunur. Yəni hüquqi normalara zidd olaraq seçkilərin ləğv edilməsi və ya onların başqa vaxta keçirilməsi yolverilməzdir. Seçkilərin vaxtaşırılığı (dövriliyi) seçicilərin mənafeyinə uyğun olaraq, siyasi elitada dəyişiklik aparılmasına imkan yaradır.

Seçkilərin mahiyyəti onun funksiyaları vasitəsilə üzə çıxır. Funksionallığa (eləcə də struktura) malik olmayan sosial hadisə yoxdur. Seçkilər öz demokratik təbiətinə uyğun olan bir sıra funksiyalar yerinə yetirir. Onların ən əhəmiyyətli funksiyalarından biri **fəaliyyətdə olan nümayəndəli sistemin yaradılmasıdır**. Seçkilər hakimiyyət orqanlarında vətəndaşların nümayəndəlik münasibətlərini yaradır və onların fəaliyyətinə təsir göstərməyə imkan verir. Hakimiyyətin nümayəndəli sistemi cəmiyyətə təsir etməklə, onun sosial qrupların nümayəndələrinin inteqral mənafelərinə uyğun şəkildə dəyişilməsini şərtləndirir və cəmiyyətin inkişaf prosesini təmin edir.

Seçkilər müxtəlif sosial qrupların **mənafelərinin artikulyasiyasının** (əlaqələndirilməsinin) xüsusi mexanizmidir. Seçkilər dövrü vacib həyati problemlərin kəskin şəkidlə dərk edilməsini şərtləndirir. Adamlar namizədlərin hakimiyyət orqanında təmsil olunmasını necə başa düşmələrini öz maraqları ilə müqayisə edirlər. Seçkilər əsil siyasi bazar kimi mənalanır və namizədlər bu bazarda öz imicini və seçkiqabağı proqramını mübadilə etməklə, seçicilərin inamını və səlahiyyət əldə edirlər. Lakin burada seçicilər üçün proqram

daha çox dəyərlidir.

Müxtəlif sosial qrupların mənafeləri yalnız fərqləndiyinə görə yox, eləcə də bir-birinə zidd olduğu üçün **seçkilər əhalinin müxtəlif qruplarının mənafelərinin dinc rəqabəti funksiyasını** yerinə yetirir. Belə şəraitdə partiyalar münaqişəli vəziyyətdə olan müxtəlif sosial qrupların təmsilçilərinə çevrilirlər. Seçkiqabağı mübarizənin məntiqi ifrat (sərt) siyasi mövqeyi daha mülayim mövqe ilə əvəz etməyə məcbur edir. Bu, əhalinin əsas kütləsi tərəfindən müdafiə olunur. Buna görə seçkilər sosial münaqişələrin təsisatlanmasının və həllinin üsullarından biri kimi səciyələnir.

Seçkinin başlıca funksiyalarından biri **hakimiyyət orqanlarının formalaşdırılması funksiyasıdır**. Həmin funksiya seçkili hakimiyyət orqanlarının formalaşmasına xidmət edir. Bu funksiya ilə əlaqə kəsb edən digər funksiya **dövlət təsisatlarının formalaşmasının legitim üsuludur**. Seçkilər vətəndaş cəmiyyətində demokratikləşmənin əsasını və fəaliyyətini təşkil edən köklü vasitələrdən biridir. Bu funksiya vətəndaşların seçki hüququ mövqeyini səciyyələndirir. Seçkinin əhəmiyyətli funksiyalarından biri də **əhalinin geniş təbəqələrinin siyasi proseslərə cəlb olunması funksiyasıdır**. Seçkilər əhalinin siyasit fəallığının daha da yüksəlməsinə, xalqın hakimiyyətin mənəbəyi kimi çıxış etməsinin praktiki təsdiqinə istiqamətlənir. Lakin bəzi hallarda əhalinin müəyyən hissəsi seçkilərə laqeyd münasibət bəsləməklə, ondan uzaqlaşmağa səy göstərir. Səsvermədə iştirak etməkdən kənarlaşmaq **absenteizm** adlanır. Seçkilərin gedişində, eləcə də **nümayəndəlik münasibətlərinin təsisatlaşması** sosial funksiyası reallaşır. Nəzəri cəhətdən hər bir cəmiyyət üzvü hər hansı sosial birliyin mənafeyini adekvat ifadə etməyə, hakimiyyət orqanlarında təmsil olunmağa qadirdir. Lakin əslində, bu, heç də hamıya nəsib olmur. Nümayəndələrin formalaşmasının xüsusi bazasının təşəkkülünə kömək etmək seçki prosesinin ən mərkəzi problemlərindən biridir. Onun həlli kommunikasiyanın müxtəlif növ üsullarından və seçicilərlə qarşılıqlı fəaliyyətdən düzgün istifadə olunmasından asılıdır.

Buna görə, demokratik cəmiyyətdə seçkilər siyasi prosesin mərkəzi mexanizmidir və cəmiyyətin ləyaqətli nümayəndələrinin siyasi elitaya cəlb olunmasına imkan yaradır.

Seçkinin **təmsilçilik təsisatı münasibətlərinin yaradılmasına** istiqamətlənən funksiyası da özünəməxsus əhəmiyyətə malikdir. Seçki hüququ ilə, bütün vətəndaşların seçkili orqanlara seçilməsi və orada təmsil olunması hüququ nəzərdə tutulur. Lakin seçki prosesinin siyasi praktikası göstərir və təsdiqləyir ki, həmin hüquqdan vətəndaşların ancaq bir qrupu istifadə etmək imkanı əldə edir. Hər bir seçici onun seçkilərdə iştirakı sayəsində seçilən xalq nümayəndəsini, əslində özünün təmsilçisi kimi dərk edir. Bu cəhət cəmiyyətdə mühüm bir məsələnin – təmsilçilik münasibətlərinin formalaşmasını şərtləndirir.

Nəhayət, seçki funksiyasına **siyasi sosiallaşmanı** da aid etmək olar. Bu seçki kampaniyası əhalinin siyasi iştirakçılığının fəallığını ifadə edir. Seçici seçkilər zamanı çox vaxt öz siyasi mövqeyinə yenidən diqqət yetirir və ya onu dəqiqləşdirir. Beləliklə, seçkilər cəmiyyətin demokratikləşməsi və siyasi inkişafının mexanizmi kimi çıxış edir.

3. Seçki sistemlərinin tipləri

Amerikalılarda belə bir zarafat vardır: beyslol (top oyunu) üzrə ölkə çempionatının finalı qurtarana qədər seçki kampaniyasına başlamaq lazım deyildir. Hər bir zarafatda olduğu kimi, bu zarafatda da böyük həqiqət ifadə edilir. Seçki sistemi son dərəcə mürəkkəb hadisə olduğu üçün, onu həyata keçirmək çətin və məsuliyyətli işdir. Onun obyektiv (saxtakarlığa yol vermədən), düzgün və ləyaqətli siyasi planda keçirilməsi xalqın siyasi iradəsinə, demokratik seçiminə hakimiyyətin əsil hörmətidir, vicdanlı münasibətidir. Bunun əksinə hərəkət etmək hakimiyyətdə qərarlaşan siyasi qüvvələrin yalnız bir məqsədə – hakimiyyəti qoruyub saxlamağa, onu "əbədiləşdirməyə" cəhdindən başqa bir şey deyildir. Təəssüf ki, müasir dövlətlərdə, hətta "demokratik" cəmiyyətlərdə bu hala çox təsadüf edilir.

Seçki sistemi siyasi hakimiyyətin nümayəndəli dövlət orqanlarının legitim təşəkkülünü təmin edən və tənzimləyən qaydaların, üsulların və proseslərin məcmuudur. Səsvermə prosesini reallaşdırmaq məqsədilə həyata keçirilən konkret seçki forması seçki anlayışı ilə təcəssüm olunur.

Seçki sistemi eləcə də hər bir vətəndaşın seçkili orqanların seçilməsində iştirakı, seçicilərlə seçkili orqanları təmsil edənlər arasında əlaqələri müəyyənləşdirən qaydalar kimi səciyyələnir. Bu və ya digər ölkədə hansı seçki sisteminə üstünlük verilməsi həmin ölkənin siyasi sisteminin xarakterindən, idarəetmə tərzindən və dövlətin həyata keçirdiyi siyasətdən asılıdır. Hər bir ölkədə seçki sistemi qanunvericilik əsasında formalaşır və konstitusiyada müəyyənləşdirilir. Qanunvericilikdə namizədin irəli sürülməsi qaydası haqqında müddəa, namizədə olan tələb, səsvermə üsulu və səslərin hesablanması, kütləvi informasiya vasitələrinin xidmətindən istifadə etmək imkanları, eləcə də maliyyələşmə mənbəyi əksini tapmışdır.

Hər bir ölkədə seçki sistemi haqqında qanunvericilik öz xüsusiyyətlərinə malikdir. Bu, namizədin irəli sürülməsi üsulundan etibarən təzahür edir. Qanunvericilikdə ayrıca şəxslərin, vətəndaşların və partiyanın qrup halında namizədliyinin irəli sürülməsi imkanı nəzərdə tutulur. Məhz iki ölkədə (Avstriya və İsveçdə) partiyalara namizədlərin irəli sürülməsində müstəsna hüquq verilir. Əlbəttə, praktikada bütün ölkələrdə namizədlərin irəli sürülməsində partiyalar böyük rol oynayırlar.

Hər bir ölkənin tarixi, mədəni, siyasi, sosial inkişaf xüsusiyyətləri ilə şərtlənən spesifik seçki normalarına malik olmasına baxmayaraq, orada bəzi ümumi prinsiplər də mövcuddur. Bu ümumi prinsiplər seçki sistemlərinin **tipləri** haqqında mülahizələr yürütməyə imkan yaradır. Hər bir seçki sistemi bu və ya digər seçki texnologiyalarının tətbiqinə aid olan öz spesifikliyinə malikdir. Seçki sistemlərinin **üç başlıca** tipi fərqləndirilir: **majoritar (mütləq və nisbi çoxluq), proporsional və qarışıq**.

Ümumi seçki hüququnun qərarlaşdığı inkişaf etmiş sənaye ölkələrində iki başlıca seçki sistemi təşəkkül tapmışdı. Əvvəllər **majoritar** seçki sistemi daha çox yayılmışdı. Lakin sonralar yeni proporsional seçki sistemi təzahür etdi. Bu sistem XIX yüzilliyin ikinci yarısından etibarən, tədricən öz mövqeyini möhkəmlətdi. Bununla belə, sonralar bir sıra Avropa ölkələri yeni majoritar seçki sisteminə üstünlük verdilər.

Majoritar (fransız dilində majerite sözündən götürülüb – çoxluq deməkdir) seçki sisteminin əsasını çoxluq prinsipi təşkil edir. Belə halda seçkilər bir qayda olaraq, təkmandatlı dairədə keçirilir və səslərin əksəriyyətini əldə edən namizəd qalib gəlir və deputat seçilir. Majoritar sistemin daha çox yayılmış növü **nisbi və mütləq çoxluq** sistemidir. **Nisbi çoxluq** seçki sistemində namizədin mandat əldə etməsi üçün seçkiqabağı mübarizədə rəqiblərindən çox səs toplaması kifayətdir. **Mütləq çoxluq** seçki sistemində isə deputat mandatını əldə etmək üçün səslərin 50%-dən çoxunu (50% və 1 səs) qazanmaq lazımdır. Əgər namizədlərdən heç biri lazım olan sayda səs toplamırsa, belə halda səsvermənin ikinci turu keçirilir və burada birinci turda daha çox səs qazanan iki namizəd deputat mandatı uğrunda mübarizəni davam etdirir. İkinci turda bir neçə variantdan, eləcə də nisbi çoxluq variantından istifadə etmək olar.

Proporsional seçki sistemi ilə müqayisədə majoritar sistem universal xarakter daşıyır. Bu sistem yalnız parlament seçkisində deyil, həmçinin, yüksək dövlət vəzifələrini təmsil edən şəxslərin, məsələn, prezidentin seçilməsi üçün tətbiq edilir.

Onun digər müsbət cəhətləri də vardır. Birincisi, bu seçki sistemi deputatla seçicilər arasında birbaşa əlaqələrin (çox vaxt şəxsi xarakter daşıyan) yaranmasına kömək edir. Deputat öz seçki dairəsi, onun sakinlərinin problemləri və maraqları barədə yaxşı təsəvvürə malik olur. Eləcə də seçicilər namizəd haqqında, onun siyasi görüşləri, davranışı, xarakteri barədə kifayət qədər tam təsəvvür əldə edirlər. De-

putatın öz seçiciləri ilə möhkəm əlaqələri parlamentdə onun mövqeyini möhkəmləndirir, ona xarici amillərin təsirinə, o cümlədən müxtəlif gizli strukturların təzyiqinə mane olur.

İkincisi, majoritar sistem daha güclü siyasi cərəyanın mbvqeyini möhkəmlətməklə, qanunvericilik orqanlarında qüvvələrin möhkəm yerbəyer edilməsi üçün şərait yaradır, parlamentin strukturlarından kiçik və orta imkanlara malik olan partiyaların sıxışdırılmasına istiqamətlənir və iki və ya üçpartiyalı sistemin təşəkkülünü stimullaşdırır. Parlamentdə liderlik edən partiyanın güclü mövqeyi sabit hökumətin formalaşmasına, onun effektli və ardıcıl siyasi kurs həyata keçirməsinə imkan yaradır. Yeri gəlmişkən qeyd edək ki, ABŞ və İngiltərə kimi böyük ölkələrdə parlamentdə yerlər uğrunda iki güclü partiya mübarizə aparır. Bu cür sistemlərdə siyasi qüvvələr arasında tarazlığın təmin edilməsi ehtimalı yüksək olduğundan, daha sabit hökumətin təşkili imkanları da mövcuddur. Daha sabit siyasi sistemə malik olan demokratik ölkələrdə majoritar seçki sistemi üstünlük təşkil edir. Təəssüf ki, belə üsul avtoritar xarakterli bəzi "demokratik" dövlətlərdə də tətbiq olunur.

Majoritar seçki sistemi müəyyən çatışmazlıqlara da malikdir. Bu sistemin başlıca çatışmazlığı ondan ibarətdir ki, o kiçik partiyaların və birliklərin öz nümayəndələrinin dövlət orqanlarında təmsil olunması imkanlarını kəskin şəkildə məhdudlaşdırır. İkincisi, majoritar seçki sistemi ölkədə sosial-siyasi qüvvələrin real yerləşdirilməsini əks etdirmir. Xeyli nüfuzlu siyasi partiya və təşkilatlar sıxışdırılaraq parlamentdən kənarlaşdırılır. Beləliklə, ümummilli, ümumdövlət orqanları olmaq etibarilə, parlamentin və hökumətin əhəmiyyəti azalır. Üçüncüsü, bu sistem vasitəsilə formalaşan deputat korpusu cəmiyyətdə real qüvvələr nisbətini, eləcə də mövcud siyasi meylləri və müxtəlif ictimai mənafeləri müəyyən hallarda tam adekvat əks etdirmir. Dördüncüsü, majoritar seçki sistemi ali qanunverici orqanda təmsil olunan deputatlar arasında regional mənafelərə üstünlük verilməsini şərtləndirir. Bu cəhət deputatın bəzən

daha çox təmsil etdiyi regionun problemləri ilə maraqlanmasına səbəb olur. Təəssüf ki, belə halda imperativ mandatın ləğv olunduğu bir sıra demokratik Avropa ölkələrində vətəndaşlıq hüququ qazanan bir məsələ – deputatın mahiyyət etibarilə, bütün millətin mənafeyinin daşıyıcısı kimi çıxış etməsi gündəlikdən kənarlaşır. Müqayisə üçün təkcə bir misalı qeyd etmək kifayətdir: AFR-nın konstitusiyasının 38-ci maddəsində belə bir müddəa təsbit olunmuşdur ki, "alman bundestaqının deputatı bütün xalqı təmsil edir və buna görə də yalnız öz vicdanına tabedir". Bəli hamı, xüsusilə xalqın siyasi-hüquqi mənafenin daşıyıcıları hər şeydən əvvəl, bütün xalqın mənafeyini ifadə etməlidirlər (əgər həqiqətən xalqı təmsil edirlərsə). Majoritar seçki sistemi dünyanın bir sıra ölkələrində, xüsusilə ABŞ, İngiltərə, Fransa, Yaponiya, Kanada, Yeni Zelandiya və digər dövlətlərdə tətbiq olunur. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikasının 24 avqust 2002-ci ildə keçirilmiş referendumuna əsasən, Konstitusiyada edilmiş dəyişikliyə uyğun olaraq hazırda Milli Məclisə seçkilərdə majoritar seçki sistemi tətdiq edilir (maddə 83).

Majoritar seçki sistemini adətən, obrazlı şəkildə, "finişə birinci çatan sistem" adlandırırlar. Onun haqqında eləcə də deyirlər ki, "qalib gələn hər şey əldə edir".

Proporsional seçki sistemi seçkilərin yalnız çoxmandatlı ümumdövlət orqanları dairəsində keçirilməsini nəzərdə tutur. Hər bir seçki təşkilatı və ya partiya hakimiyyətin nümayəndəli orqanlarına seçkilərdə bir nəfər namizədə yox, bir qayda olaraq mövcud seçki təşkilatının və ya partiyanın qurultayında təsdiqlənən namizədlərin siyahısına səs verilməsini təklif edir. Belə halda hakimiyyətin müvafiq orqanlarında yerlərin bölüşdürülməsi hər bir seçki təşkilatının və ya partiyanın bütün ölkə üzrə proporsional qaydada əldə etdiyi səsə görə həyata keçirilir. Elə, seçki sisteminin proporsional adlandırılması da buradan irəli gəlir.

Proporsional sistemdə kiçik seçki bloklarının nümayəndələrinin hakimiyyətin nümayəndəli orqanlarına da-

xil olmaq imkanı vardır. Bu sistem majoritar seçki sistemi ilə müqayisədə müasir dünyada daha geniş və çox yayılmışdır. Belə bir faktı qeyd etmək kifayətdir ki, Latın Amerikası ölkələrində yalnız proporsional seçki sistemi keçirilir. Bu sistem çoxpartiyalılığın inkişafına imkan yaradır.

Majoritar seçki sistemi kimi proporsional sistem də müxtəlif cür keçirilir:

- **ümumdövlət səviyyəsində proporsional seçki sistemi.** Belə halda seçicilər seçki təşkilatlarına və partiyalara bütün ölkə miqyasında səs verirlər. Bu zaman seçki dairəsi ayrılmır;

- **çoxmandatlı dairələrə əsaslanan proporsional seçki sistemi.** Bu cür halda isə deputat mandatları siyasi partiyaların və təşkilatların seçki dairəsində təsiri əsasında bölüşdürülür. Proporsional seçki sistemini fərqləndirən dəyərli cəhət ondan ibarətdir ki, onun köməyilə formalaşan hakimiyyət orqanları cəmiyyətin real siyasi mənzərəsini səciyyələndirir. O, dövlətlə vətəndaş cəmiyyətinin əks əlaqəsini təmin edir və son nəticədə siyasi plüralizmin inkişafına imkan yaradır.

Proporsional seçki sistemi xalis şəkildə İsraildə və Niderlandda qərarlaşıb. Majoritar seçki sistemindən fərqli olaraq, proporsional sistemdə seçki dairəsi bütün ölkə miqyasında təşkil edilir və deputat mandatları partiyaların topladığı səsə uyğun olaraq bölüşdürülür. Proporsional seçki sistemində bir neçə böyük regional dairələr də təşkil edilə bilər. Bu cür qayda Norveç istisna olmaqla, Skandinaviya ölkələrində tətbiq edilir. Proporsional seçki sisteminin müsbət cəhəti ondan ibarətdir ki, o, siyasi qüvvələrin parlament səviyyəsində ədalətli nümayəndəliyini təmin edir. Nəticədə parlament qərarlarının qəbulunda ayrı-ayrı sosial və siyasi qrupların mənafeləri xeyli nəzərə alınır.

Proporsional seçki sistemində mandatların paylanmasında bütün partiyaların iştirakı mümkün deyildir. Daha nüfuzlu partiyaların parlamentdə təmsil olunmasını təmin etmək məqsədilə, dünya təcrübəsində **seçki baryeri** prinsipi

tətbiq olunur. Həmin prinsipin mahiyyəti ondan ibarətdir ki, deputata mandatların bölgüsündə iştirak etmək hüququ, müəyyən edilən seçki baryerini keçdikdən sonra, başqa sözlə lazım olan səsi əldə etməklə verilir. Bu və ya digər ölkənin qanunvericiliyində ifadə edilən baryer seçkilərdə iştirak edənlərin ümumi sayının 1%-dən 18%-nə qədərini təşkil edir. Seçki baryerinin tətbiqi nəticəsində müəyyən edilmiş minimum səs toplaya bilməyən partiyalar parlamentdə təmsil olunmaq hüququnu itirirlər. Heç də təsadüfi deyil ki, az nüfuzlu partiyalar seçki baryerini aşmaq üçün bloklar yaratmağa məcbur olurlar və bundan sonra seçkilərə qoşulurlar. Baryeri keçmək bu və ya digər partiyanın cəmiyyətdəki real nüfuzuna dəlalət edir və onun topladığı səs də bunu təsdiqləyir.

Proporsional seçki sisteminin bir sıra başlıca çatışmazlıqları bunlardır:

Birincisi, həmin seçki sistemində hökumətin formalaşması mürəkkəbləşir. Onun səbəbləri dəqiq və qəti proqrama malik hakim partiyanın olmamasından, yaradılan çoxpartiyalı koalisiyaya (ittifaqa) qarşısına müxtəlif məqsədlər və vəzifələr qoyan partiyaların cəlb olunmasından ibarətdir. Belə əsasda yaradılan hökumət qeyri-sabitliyi ilə fərqlənir.

İkincisi, proporsional seçki sistemi ona gətirib çıxarır ki, bütün ölkə çərçivəsində müdafiə olunmayan siyasi qüvvələr hakimiyyət orqanları sistemində nümayəndəliklə təmsil edilir.

Üçüncüsü, proporsional seçki sistemində səsvermə konkret namizədlərə deyil, partiyalara tətbiq olunduğu üçün, deputatlarla seçicilər arasında birbaşa əlaqə çox zəif olur.

Dördüncüsü, proporsional sistemdə səsvermə partiyalarla bağlı həyata keçirildiyi üçün, belə vəziyyət deputatların bu partiyalardan asılılığına imkan yaradır.

Beşincisi, majoritar seçki sistemi ilə müqayisədə proporsional seçki sistemi ölkədə partiyaların ifrat çoxluğuna, eləcə də parçalanmasına şərait yaradır. Seçki baryeri bu

prosesin qarşısının alınmasına xidmət etsə də, proporsional təmsilçilik seçki sisteminin həyata keçirildiyi ölkələrdə partiyaların sayca artmasına mane ola bilməmişdir.

Ümumiyyətlə, majoritar və proporsional seçki sistemlərinin çatışmazlıqları Fransanın məşhur siyasi xadimi **Mişel Rokara** belə bir maraqlı fikir söyləməyə əsas vermişdir: "Majoritar sistem həddindən artıq kobuddur, proporsional sistem isə olduqca təhlükəlidir".

Seçki sistemləri öz təşəkkülü və inkişafında böyük yol keçmişdir. Bu prosesin gedişində (ikinci dünya müharibəsindən sonrakı dövrdə) qarışıq seçki sistemi formalaşmağa başlamışdır.

Qarışıq seçki sistemi mojaritar və proporsional seçki sistemlərinin çatışmazlıqlarını minimuma endirmək məqsədilə, bu iki sistemin uyğunlaşdırılmasını nəzərdə tutur, başqa sözlə, onların xüsusiyyətlərini özündə əks etdirməklə səciyyələnir. Belə uyğunlaşma ondan ibarət ola bilər ki, parlamentin bir hissəsi majoritar sistemdə, ikinci hissə isə proporsional sistemdə seçilsin. Bu sistemin tətbiq olunduğu ölkələrin hər birində seçici iki səsə malik olur. Başqa sözlə, bir səs majoritar siyahı üzrə, digər səs isə proporsional siyahıya uyğun olaraq verilir. Son nəticədə ali qanunverici orqanı (parlamenti) təmsil edən deputatların bir hissəsi proporsional, digər hissəsi isə majoritar qaydada mandata yiyələnirlər. Bir sıra ölkələrin (Almaniya, Rusiya və b.) qarışıq seçki sistemləri buna misal ola bilər. Seçki sisteminin təkmilləşdirilməsi təcrübəsi təsdiqləyir ki, qarışıq seçki sistemi daha demokratik mahiyyət kəsb edir və siyasi sabitliyin əldə olunması üçün effektlidir.

Qarışıq seçki sistemində çoxmandatlı dairənin yerinə təkmandatlı dairə yaradılır. Seçkilərdə iştirak etmək hüququ 4-5 partiyaya verilir, lakin qalib kimi yalnız 2-3 partiya gözdən keçirilə bilər. Belə sistem sabit partiya blokunun yaradılmasına, effektli seçki kampaniyasının keçirilməsinə və hakimiyyətin əldə olunmasına imkan verir. Qarışıq sistemdə namizədlərin siyahısına partiyalar yox, onların

nümayəndələri daxil edilir, buna görə, səsvermə zamanı seçim hər şeydən əvvəl, yalnız partiya proqramı üzrə deyil, fərdi qaydada baş verir. Qeyd edək ki, 1995 və 2000-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə qarışıq seçki sistemindən istifadə edilmiş və 125 millət vəkilinin 100-ü majoritar, 25-i isə proporsional sistem əsasında seçilmişdir. Hazırda isə respublikamızda yalnız majoritar seçki sistemi tətbiq olunur.

Seçki sistemi ancaq səsvermə qaydalarını və mandatların bölüşdürülməsi üsulunu tənzimləyən hüquqi normalar məcmuu deyildir. Hər bir seçki sistemi seçkiqabağı mübarizə iştirakçılarını xüsusi "siyasi oyun" qaydalarına təhrik edir, seçkiqabağı razılaşmaların və ittifaqın tamamlanması prosesinə təsir göstərir.

4. Seçki kampaniyasının strategiyası və taktikası

Namizədin seçkiqabağı mübarizəyə qoşulması haqqında rəsmi ərizəsindən sonra geniş miqyaslı seçki kampaniyası başlanır. Həmin kampaniyanın gedişində həll ediləsi məsələlər çoxsaylı və mürəkkəbdir. Ona xüsusilə, namizədin **seçki platformasını irəli sürməsi** aiddir. Seçki platforması hər hansı namizədin, partiyanın və ya qrupun fəaliyyət proqramı və siyasi tələbidir. Ərizədə bu platformanın məhz başlıca müddəaları ifadə edilir. Seçicilər üçün aydın olan həmin təkliflər paketi (bağlı məktub) ölkə səviyyəli və eləcə də yerli əhəmiyyətli vacib problemlərin həllinə istiqamətlənir. Daha sonra, seçkiqabağı kampaniyada bütün mümkün olan vasitələrin köməyilə, namizədin platformasının geniş reklamı həyata keçirilir. Xüsusilə, seçkiqabağı kampaniyanın **strategiyası və taktikası** formalaşdırılır. Həmin kampaniyanın başlıca vəzifələri namizədin yüksək şəxsi keyfiyyətlərinin təbliğindən və onun imicinin yaradılmasının vacibliyindən ibarətdir.

Ciddi siyasətçilər seçki kampaniyasına hazırlığa hələ seçkilərin keçiriləcəyi vaxtın rəsmi elan edilməsindən əvvəl başlayırlar. Bu istiqamətdə ilk addım seçki dairəsində situa-

siyanın təhlilidir. Seçki kampaniyasının təşkilatçıları tədqiqat aparmaq sayəsində minimum vacib biliklər əldə edirlər ki, bu da seçki strategiyasını kortəbii deyil, düşüncəli, ağıllı istiqamətdə müəyyənləşdirməyə imkan yaradır.

Namizədin ərizəsindən sonra başlanan seçkiqabağı kampaniya üç mərhələdən keçir və bu mərhələlərin hər birinə aid olan məsələlər həll edilir.

Birinci mərhələdə seçkiqabağı kampaniyanın əsası yaradılır. Bu zaman onun qərargahı formalaşır, seçki kampaniyasının vəzifələri təhlil edilir, maliyyələşmə mənbələri, kütləvi informasiya vasitələri ilə əlaqə və digər vəzifələrlə bağlı məsələlər həll olunur.

İkinci mərhələdə strategiya işlənib hazırlanır. Müxtəlif strateji variantlardan ən lazımlısı müəyyənləşdirilir. Yeri gəlmişkən qeyd edək ki, Amerikada seçki dairələrində strategiyanın seçilməsi məsələsi üç variantdan birinə aid edilir:

1. Partiyanın tərəfdarlarına və onların imkanlarına əsaslanan partiyalı mənsubiyyətə dəqiq istiqamətənən kampaniyanın təşkili.

2. Kampaniyanı ən mühüm mübahisəli məsələlərlə bağlı diskusiya formasında aparmaq, onların həlli üçün nüfuzlu qüvvələrin marağına uyğun olan üsullardan istifadə etmək.

3. **Üçüncü mərhələnin** məqsədi namizədin platformasının geniş reklamını təmin etməkdən və seçicilərin səsini qazanmaqdan ibarətdir. Bu mərhələdə namizədin seçicilərlə çoxsaylı görüşləri keçirilir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün, strateji xəttə malik olmaq çox vacibdir. Bunsuz seçki kampaniyasına başlamaq mənasızdır. Əgər namizədin və onun komandasının strategiyası yoxdursa, onların fəaliyyəti hökmən xaoslu xarakter kəsb edəcək, ziddiyyətli olacaq və nəticədə sərf edilən səylər heçə enəcək.

Strategiyanın hazırlanmasında seçicinin azad seçimini nəzərə almaq lazımdır, onu bu və ya digər namizədə səs verməyə məcbur etmək olmaz, seçkilərə həvəs oyatmaq la-

zımdır. Bu məqsədlə namizədin və ya partiyanın cəzbedici obrazını yaratmaq yolu ilə kütləvi şüura informasiyalı təsir göstərilməlidir. Həmin obrazın başlıca parametrlərinin seçimi seçki kampaniyasının strategiyasının məzmununu müəyyənləşdirir. **Seçki strategiyası** elə informasiyaların məcmuudur ki, məzmununun açıqlanmasına bütün seçki kampaniyası tabe olacaqdır.

Strategiyanın işlənib hazırlanması belə bir sualı cavablandırmaqdan başlanır: insanların namizədlə bağlı dəlillər əldə etməsinə və seçki kampaniyasının təşkilatçılarının məqsədlərinə müvafiq olaraq, onların elektoral davranışına hansı informasiya təsir göstərə bilər. Bu suala konkret dürüst ifadə edilən cavab faktiki olaraq seçki kampaniyasının başlıca mövzusuna çevrilir, onun strategiyasını təşkil edir.

Seçki dairəsində situasiyanın təxmini təhlili gedişində ilk öncə, belə bir məsələnin aydınlaşdırılmasına diqqət yetirilməlidir ki, seçki dairəsinin sakinlərini daha çox hansı məsələlər narahat edir: işsizlik, yoxsa həyat səviyyəsinin aşağı olması, namizədin, dövlət xadimlərinin şəxsi keyfiyyətləri və ya mövcud regionun sosial-iqtisadi, mədəni problemləri, eləcə də siyasətçilərin milli ləyaqəti, peşəkarlığı, xalqla əlaqəsi yoxsa hakimiyyət orqanlarında təmsil olunmaq ehtirası, təmənnalı siyasət və s.

Seçki kampaniyasının konkret strategiyası başlıca olaraq, real situasiyaya uyğun olan mövcud resurslarla, kampaniyanın miqyası ilə müəyyən olunur. Bir qayda olaraq seçkilər miqyası etibarilə, müxtəlif səviyyələrdə keçirilir: **parlament və prezident seçkiləri (ümummilli); bələdiyyə və inzibati ərazi seçkiləri (yerli).**

Seçki kampaniyasının təşkilatçıları strategiyanı hazırlayarkən bir sıra konkret qaydalara riayət etməlidirlər:

- mövcud olan bütün resursların və potensial ehtiyatların maksimum səfərbərliyinin reallaşmasına səy göstərmək;
- qarşıya qoyulan məqsədin dəqiq, aydın və real müəyyənləşdirilməsi;
- namizəd, qrup və yaxud partiya üçün nəzərdə tutulan

şəraiti, eləcə də seçki kampaniyasının gedişində onların dəyişməsi ehtimalını real qiymətləndirmək.

Başlıca məqsədin müəyyənləşdirilməsi seçki kampaniyasının strategiyasının tam formalaşdırılması baxımdan xüsusi əhəmiyyət kəsb edir. Çox vaxt kifayət qədər təsir göstərmək qabiliyyətinə malik olmayan partiyaların, partiya bloklarının və ayrı-ayrı namizədlərin başlıca məqsədi məhz seçki kampaniyasında iştirak etməkdən ibarət olur. Parlamentdə təmsilçiləri olmayan müxtəlif kiçik partiyaların heç olmasa bir neçə namizədinin ali qanunverici orqanda təmsil edilməsi nailiyyət hesab olunur.

Rəqabət aparan seçki kampaniyası iştirakçılarının seçkiqabağı mübarizəsinin strategiyası bir qayda olaraq onunla müəyyənləşir ki, bu iştirakçılar siyasi məkanda nə kimi yer tutmuşlar, cəmiyyətin siyasi həyatında necə rol oynamışlar və hansı sosial təbəqəyə arxalanmaq istəmişlər. Çoxcəhətli sərvət yönümləri, mənafelər, əhalinin ümidi iştirakçıların seçkiqabağı müxtəlif elektoral strategiyanı hazırlamalarına imkan yaradır.

Strateji mövzular seçki kampaniyasının gedişində müxtəlif kommunikativ üsullarla yayılan müvafiq dəlillərlə, faktlarla informasiya cəhətdən dolğunlaşdırılmalıdır. Göründüyü kimi, seçki kampaniyasının strategiyası siyasi mübarizənin müxtəlif iştirakçılarının malik olduqları real şərait və imkanlarla müəyyən edilən göstəricilərdən və seçkilərdə qələbəni şərtləndirən və təmin edən obyektiv və subyektiv xarakterli amillərdən ibarətdir.

Seçki kampaniyasının strategiyası eləcə də seçkiqabağı mübarizə çərçivəsində lazımi imicin və əlaqələrin formalaşmasına xidmət edə bilər.

Bu və ya digər namizədə münasibətdə dairənin bütün elektoratını beş təbəqəyə ayırmaq olar:

1. namizədi, partiyanı fəal müdafiə edənlər;

2. namizədi, partiyanı passiv müdafiə edənlər;

3. bitərəf mövqedə duranlar;

4. inamsız əhval-ruhiyyədə olanlar;

5. qətiyyətlə namizədin, partiyanın əleyhinə çıxanlar.

Seçki kampaniyasının strateji planı yalnız namizədin özünün, onun komandasının və onların könüllü köməkçilərinin konkret işləri sayəsində reallaşa bilər. Məhz onların fəaliyyəti ilə seçki kampaniyası ümumi mənzərə əldə edir: reklam məhsulları yayılır, namizədin açıq çıxışları təşkil olunur, küçələrdə, digər zəruri yerlərdə təşviqatçılar təzahür edirlər. Bir qayda olaraq, bu və ya digər texnoloji üsulların seçilməsi bilavasitə seçilmiş **taktikadan** asılıdır, başqa sözlə, situasiyanın inkişafı və fəaliyyətdə olan şəxsin məqsədi ilə birbaşa müəyyənləşən üsul və qaydaların məcmuu ilə şərtlənir.

Taktikanın məqsədi namizəd, onun proqramının başlıca məqsədi haqqında əhalini məlumatlandırmaqdan, seçicilərdə məhz bu namizədin müdafiə edilməsinə istiqamətlənən rəy, mülahizə, inam, qiymətləndirmə və s. formalaşdırmaqdan ibarətdir. Müxtəlif taktiki vasitələri şüura təsir göstərməyin, seçicilərin seçki kampaniyasının təşkilatçısının məqsədinə uyğun gələn dəlillər əldə etməsinin konkret üsulu kimi nəzərdən keçirmək olar. Əgər seçki kampaniyasının strategiyası **nə etmək** sualına cavab axtarırsa, taktika necə fəaliyyət göstərmək sualını cavablandırır. Hər iki sual qarşıya qoyulan məqsədə çatmağı mənalandırır.

Seçkiqabağı kampaniyada çoxcəhətli taktiki üsullardan istifadə olunmasına baxmayaraq, seçki prosesinin bütün iştirakçıları tərəfindən çox və ya az reallaşdırılan bir neçə **başlıca taktiki istiqaməti** fərqləndirmək olar.

Belə istiqamətlərdən birincisi **şüar yazılmış plakatın hazırlanmasıdır**, başqa sözlə seçicilərə müraciət olunmasıdır və eləcə də praktiki olaraq, namizədin bütün reklam məhsulu ilə tirajının təyin edilməsidir.

İkinci başlıca istiqamət **informasiyalı vəziyyət** yaradılmasıdır. Müasir cəmiyyətdə əhali sürətli informasiya axını ilə yüklənir və hər dəfə daha yeni informasiya əvvəllər yayılanı sıxışdırır. Əgər namizəd seçicilərin onun haqqında məlumatlı olmasını və onu başa düşmələrini istəyirsə, həmişə

müxtəlif informasiyalı vəziyyət yaratmalıdır ki, televiziya, radio, mətbuat daim onun haqqında lazımi informasiyanı yaysınlar. **M.Tetçerin** siyasi məsləhətçisi işləmiş **B.Bryus** belə bir əhvalatı nəzərə çatdırır ki, seçki kampaniyalarının birində o, və onun qrupu gündəlik hadisələrin seriyasını işləyib hazırlamaqla, **M.Tetçerin** xarakterinin müəyyən cəhətlərini üzə çıxarmışlar və həmin hadisələrin elə qaydaya salınmasına çalışıblar ki, bu, axşam televiziya xəbərlər buraxılışında elan edilə bilsin. Belə də olur. Nəticədə **M.Tetçer** hər axşam televiziya verilişlərində tamaşaçılara göstərilmiş və o, ağıllı məsləhətləri ilə (hətta paltarı necə tikmək, corabı necə toxumaq barədə) xeyli televiziya tamaşaçısının rəğbətini qazana bilmişdir. Bu cəhət spesifik əhəmiyyətə malik informasiyalı vəziyyət kimi səciyyələnir.

Üçüncü başlıca taktiki istiqamət **siyasi reklamın hazırlanması və yayılmasıdır**. Seçki kampaniyasının bu əhəmiyyətli məhsuluna televiziya reklam göstəriciləri, plakatlar, vərəqələr, təqvimlər, internetdə, eləcə də qəzet və jurnallarda reklamlar və s. aiddir. Seçki kampaniyasının təşkilatçıları xüsusi reklam məhsullarının yaradılması və yayılması prosesinə tam nəzarət edirlər. Həmin məhsulların effektli və təsirli olması təşkilatçıların qabiliyyətindən, bacarıq və vərdişlərindən asılıdır.

Dördüncü başlıca taktiki istiqamət **namizədin seçicilər qarşısında çıxışının təşkil edilməsidir**. Namizədlə bilavasitə ünsiyyətin yaranmasına xidmət edən belə görüşlərin bacarıqla təşkili, seçicilərə çox güclü təsir göstərir. Bir seçki kampaniyası çərçivəsində istifadə edilən taktiki üsulların çoxcəhətli olması, onların əlaqələndirilməsini tələb edir. Buna görə də seçki kampaniyasının taktikası həmişə planlaşdırılır, başqa sözlə namizədin, onun komandasının üzvlərinin planı – qrafikası (reklam, KİV ilə əlaqə, kütləvi tədbirlərin keçirilməsi, rəqibin fəaliyyəti barədə informasiyanın toplanması və s.) tərtib olunur və həm də bu, müxtəlif istiqamətdə aparılan işə cavab verməlidir.

IV BÖLMƏ
CƏMİYYƏTİN SİYASİ XARAKTERİSTİKASI

I FƏSİL
SİYASİ SİSTEM: FƏALİYYƏT MEXANİZMİ VƏ İNKİŞAF QANUNAUYĞUNLUĞU

1. Siyasi sistemin məzmunu, struktur elementləri və funksiyaları

Cəmiyyətin siyasi sisteminin öyrənilməsinə cəhd edərkən belə bir cəhətə diqqət yetirmək vacibdir ki, siyasi sistemin mahiyyəti, inkişafı, strukturu və fəaliyyəti politologiyanın mərkəzi problemlərindəndir. Bu, onunla müəyyən olunur ki, söhbət hakimiyyətin mexanizmini və həyata keçirilməsini açıqlamağa, siyasi problemlərin təhlili sistemindən istifadə etməyə, cəmiyyətin təbiəti və onun sferalarının qarşılıqlı fəaliyyəti haqqında daha bütöv təsəvvür əldə etməyə imkan yaradan inteqrativ anlayışlardan gedir.

Cəmiyyətin siyasi sisteminin nəzərdən keçirilməsi müasir elmdə geniş yayılan və qəbul edilən sistemli tədqiqat metoduna əsaslanır. **L.fon Bertalanfinin** (1901-1972) ümumi sistem nəzəriyyəsi əsasında bir sıra alimlər (**T.Parsons** (1902-1979), **(P.Merton)** və başqaları sosial sistem nəzəriyyəsini işləyib hazırlamışlar. Bu nəzəriyyələrdə cəmiyyət yarımçıq deyil, məhz vahid sosial sistem kimi nəzərdən keçirilir. Amerika alimi **D.İstonun** ümumi sosiologiyanın nailiyyətlərinə əsaslanaraq əsasını qoyduğu siyasi sistem nəzəriyyəsini **Q.Almond** (1911-ci ildə anadan olub), **A.Lipset** (1922-ci ildə anadan olub), **D.Bell** (1919-cu ildə anadan olub) və digər tədqiqatçılar inkişaf etdirdilər.

Cəmiyyətin təhlilinə sistemli yanaşma marksist elmi ənənələri çərçivəsində fəal tətbiq olunur. Sinfi təhlil vasitəsilə cəmiyyət bir sıra yarımsistemlərdən ibarət olan vahid sistem kimi araşdırılır. Siyasi sferanı da özündə əks etdirən cəmiyyətin üstqurum tərəfi marksist konsepsiyaya görə,

mülkiyyət münasibətlərinin xarakterindən və məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılıdır.

Müasir dövrdə cəmiyyətin siyasi sferasının sistemli yanaşma mövqeyindən öyrənilməsi dünya elminin nailiyyətlərindən istifadə edilməklə həyata keçirilir. Bu, təsadüfi deyil. Cəmiyyətin siyasi sisteminin təhlilinə sistemli yanaşma hər şeydən əvvəl, tədqiqatlarda siyasi hadisələrin və empirizmin öyrənilməsində yarımçıq mövqeyi aradan qaldırmaq tələbatı ilə şərtlənir.

Müasir politoloji elm cəmiyyətin siyasi sisteminin öyrənilməsini daxili mürəkkəblik kəsb edən, lakin daha mürəkkəb sistemin (supersistemin) bir hissəsini təşkil edən bütöv orqanizm kimi nəzərdən keçirir. Beləliklə, siyasi sistemin təşəkkülü, inkişafı və dəyişməsi prosesinə təsir göstərən xarici amillərin nəzərə alınması zərurəti yaranır. Buraya aiddir: cəmiyyətin maddi-texniki və iqtisadi inkişaf səviyyəsi, hakim mülkiyyət münasibətləri, sosial-sinfi strukturun xarakteri, cəmiyyətin mənəvi sərvətlərinin tipi və vəziyyəti. Qeyd etdiyimiz amilləri cəmiyyətin digər sferalarına nüfuz etməklə, siyasi proseslərə təsir göstərən **ilk qaydaya aid xarici amillər** kimi müəyyənləşdirmək olar. Eyni zamanda, siyasi sistemdə yoxlanılan dijər xarici təsiretməni də nəzərə almaq zəruridir. Belə təsiretmə amilləri bunlardır: beynəlxalq münasibətlər və dünya siyasəti sferalarındakı proseslər, ölkənin geosiyasi vəziyyəti, demoqrafik dəyişikliklər, tarixi ənənələrin təsiri və s. Onları şərti olaraq **ikinci qaydaya aid xarici amillər** kimi səçiyyələndirmək olar.

Sistem əmələ gətirən daxili amillər də mühüm əhəmiyyət kəsb edir. Siyasi sistemin tipi və inkişaf xarakteri həmin amillərdən çox asılıdır. Bu, birincisi, müxtəlif ictimai qrupların siyasi mənafelərinin məzmunu və istiqamətlənməsidir; ikincisi, siyasi sistemin özünün daxili struktur ünsürlərinin qarşılıqlı fəaliyyətinin xüsusiyyətləridir; üçüncüsü, siyasətin müxtəlif subyektlərinin konkret fəaliyyətidir. Deməli, elə cəhətlərə diqqət yetirilməlidir ki, cəmiyyətin müxtəlif inkişaf mərhələlərində bu və ya digər sistem əmələ gətirən


amillər xüsusi rol oynamış və oynayırlar. Məsələn, quldarlıq dövründə cəmiyyətin siyasi sisteminin fəaliyyəti üçün dövlət tam əhəmiyyət daşımışdır, orta əsrlərdə siyasi həyatın müəyyənedici amili güclü mənəvi nüfuza malik olan kilsə olmuşdur, yeni və ən yeni dövrdə siyasi proseslərdə siyasi partiyalar və digər ictimai birliklər xüsusi yer tutmuşlar.

Vahid ictimai sistem çərçivəsində yarımsistemlərin qarşılıqlı fəaliyyət xarakterini nəzərdən keçirmək gedişində, cəmiyyətin siyasi sisteminin spesifik yerini aydınlaşdırmaq zəruridir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, siyasi sistem (yarımsistem) digər yarımsistemlər üzərində **"üstünlük"** təşkil etməklə, siyasi sistem çərçivəsində işlənib hazırlanan siyasi qərarlar, sənədlər, qanunlar bütün cəmiyyət üçün ümumi (məcburi) xarakter daşıyır, beləliklə, cəmiyyətin digər yarımsistemlərinə birbaşa təsir göstərir. Bundan əlavə, siyasi sistem son dərəcə yüksək "muxtarlıq" səviyyəsinə malikdir, eləcə də digər yarımsistemlərə nisbətən vətəndaşların davranışına xüsusi təsiretmə, kifayət qədər xüsusi hüquqi və siyasi normalar vasitəsilə sərt tənzimləmə mexanizmi ilə səciyyələnir. Siyasi sistemin mahiyyətini müəyyənləşdirmək üçün, politoloji ədəbiyyatda bu məsələnin həllinə çoxsaylı yanaşmanı diqqətdən yayındırmamaq zəruridir. Bütövlükdə siyasi sistemin mahiyyətinin müəyyənləşdirilməsində hər şeydən əvvəl, siyasətin başlıca istiqamətlənməsini – cəmiyyətin inteqrasiyasını və "hakimiyyət" kateqoriyasında ifadə olunan daxili keyfiyyətini nəzərə almaq lazımdır. **Siyasi sistem dəyişilən şəraitdə hakimiyyət təsisatları vasitəsilə cəmiyyətin inteqrasiyasını və adaptasiyasını (uyğunlaşmasını) təmin edən qarşılıqlı siyasi əlaqələr və siyasi fəaliyyət sistemidir.**

Nəzəri və praktiki təhlil üçün mühüm əhəmiyyət kəsb edən siyasi sistemin təsnifatı mürəkkəbliyi ilə fərqlənir. Elmi ədəbiyyatda, xüsusilə rus elmi ənənələrində siyasi sistemin təsnifatı iki meyarla şərtləndirilir: formasiya əlaməti (quldarlıq, feodal, burjua və ya sosialist cəmiyyətinə xas olan siyasi sistem) və milli-dövlət əlaməti üzrə təsnifatlar. İkinci

təsnifatda ayrı-ayrı ölkələrin siyasi sisteminin spesifikliyi nəzərdə tutulur. Məsələn, Rusiyanın, ABŞ-ın, Böyük Britaniyanın, Çinin və digər ölkələrin siyasi sistemləri. Qərb siyasi elmində siyasi sistemin daha geniş mənzərəli təsnifatı mövcuddur, bu cür təsnifat üçün müxtəlif meyarlar əsas götürülür. Belə ki, siyasi sistem əhatə dairəsinə (lokal və qlobal, makro və mikrosistemlər), inkişaf qabiliyyətinə və aşkarlıq dərəcəsinə görə, struktur differensasiyası (mərkəzləşdirilmiş və mərkəzdən uzaq) və digər əlamətlər üzrə təsnifatlaşdırılır. Bununla belə, müasir politoloji ədəbiyyatda siyasi sistemin iki başlıca tipi müəyyənləşdirilir və geniş yayılmışdır: demokratik və qeyri-demokratik siyasi sistemlər. Qeyri-demokratik sistemlərin də iki növü mövcuddur: totalitar və avtoritar. Bir sözlə, Qərb siyasi elmində müasir siyasi sistemlərin üç başlıca növü nəzərə çatdırılır: Totalitar, avtoritar və demokratik siyasi sistemlər. Cəmiyyətin siyasi sisteminin konkret təhlili onun daxili strukturunun və başlıca funksiyalarının üzə çıxarılmasını tələb edir.

Qərb politologiyasında cəmiyyətin siyasi sisteminin struktur elementlərinin müəyyənləşdirilməsində mühüm fərqlər nəzərə çarpır. **D.İston** siyasi sistemin strukturunu siyasətin müxtəlif subyektlərinin (fərdlər, qruplar və təşkilatlar) təşkil etdiyini və bu subyektlərin qarşılıqlı əlaqəyə malik olduğunu qeyd edir. **Q.Almond** bihevioriçu mövqedən çıxış edərək bildirir ki, cəmiyyətin siyasi sisteminin struktur elementləri roldan, fəaliyyətdən və qarşılıqlı fəaliyyətdən, davranışın tipindən və nümunəsindən ibarətdir. **R.Qoldmen** isə hesab edir ki, həmin struktur elementlərinə birbaşa və əks əlaqələr, qərarların qəbulu prosesi, siyasi fəallığın nümunələri, informasiya axını və s. daxildir. Siyasi sistemin struktur elementlərinə aid digər şərhlər də mövcuddur. Siyasi sistemin strukturu barədə aşağıdakı sxem ümumi təsəvvür yaradır.



Siyasi sistemin həmin struktur elementləri onun inkişafında və fəaliyyətində əhəmiyyətli rol oynayır və bir-birilə sıx əlaqə kəsb edir.

Siyasi və hüquqi normalar (tənzimləyici yarımsistemlər) cəmiyyətin siyasi həyatının ümumi istiqamətlənməsini siyasi və qanunvericilik formalarında tənzimləyir, eləcə də hakimiyyət orqanlarının, siyasi təsisatların səlahiyyət həddini, vətəndaşların hüquq və vəzifələrini nizamlayır.

Cəmiyyətin siyasi təşkili (təsisatlı yarımsistem) dövlət orqanlarından, siyasi partiyalardan və ictimai təşkilatlardan ibarət olan cəmiyyətin siyasi sisteminin özünəməxsus əsasını (skeletini) təşkil edir. O, böyük dəyişkənliyi ilə fərqlənən digər yarımsistemlərdən fərqli olaraq nisbi sərtliyə malikdir.

Siyasi münasibətlər (funksional-kommunikativ yarımsistem) cəmiyyətdə hakimiyyətin real sistemini, siyasi subyektlər arasındakı əlaqələrin xarakterini, siyasi rejimin mahiyyətini ifadə edir. Siyasi münasibətlər hər şeydən əvvəl, sosial qüvvələrin və siyasi subyektlərin əməkdaşlıq və rəqabət münasibətləri, onların funksiyaları, rolu və əlaqələri vasitəsilə təzahür edir.

Siyasi sistemin elementi olmaq etibarilə, siyasi münasibətlər ictimai münasibətlərin növlərindən biri kimi səciyyələnir. Politoloji ədəbiyyatda siyasi münasibətlərin təsnifatı müxtəlif meyarlar üzrə aparılır. Xüsusi meyar kimi,

siyasi münasibətlərin subyekt tərkibinə böyük diqqət yetirilir. Bu meyara müvafiq olaraq, siyasi münasibətlərin üç qrupu göstərilir: 1. Siniflər, millətlər və dövlətlər arasındakı münasibətlər; 2. Rəhbər və idarəetmə orqanlarının sosial-iqtisadi, mədəni-mənəvi və siyasi proseslərə təsirini səciyyələndirən münasibətlər; 3. Siyasi təşkilatlar və müəssisələr arasındakı münasibətlər (subordinasiya – xidmətdə kiçiyin böyüyə tabe olması prinsipi, əlaqələndirmə, mərkəzçilik).

Siyasi şüur (mənəvi-ideoloji yarımsistem) vətəndaşların siyasi gerçəkliyə münasibətini əks etdirən görüşlərin və təsəvvürlərin məcmuudur. O, müəyyən dərəcədə öz ifadəsini cəmiyyətin siyasi mədəniyyətində tapır, özünü ideoloji təsəvvürlərdə və ənənələrdə təzahür etdirir.

Siyasi sistemdə cəmiyyətin siyasi mütəşəkkilliyini təmin edən dövlət başlıca rol oynayır. Dövlət bir sıra xüsusi cəhətlərə malikdir. Birincisi, o, öz fəaliyyətini bütün ölkədə və vətəndaşlar arasında yayan, hər şeyi əhatə edən təşkilat kimi çıxış edir. İkincisi, dövlət ümumi hakimiyyəti təcəssüm etdirir və bütün digər ictimai hakimiyyətləri özünə tabe edir. O, hakimiyyət metodlarını, zəruri hallarda isə məcburetməni həyata keçirir. Üçüncüsü, dövlət hüququn köməyilə ictimai münasibətləri tənzimləyir və öz iradəsində hamı üçün məcburi olan xarakteri əks etdirir. Dördüncüsü, dövlət xüsusi peşəkar aparata malik olmaq sayəsində cəmiyyətin idarə olunmasını həyata keçirir, maddi və təbii resurslardan istifadə olunmasını qaydaya salır.

Siyasi sistemi təşkil edən siyasi təsisatlar arasında siyasi partiyalar əhəmiyyətli yer tutur. Partiyaları ictimai təşkilatlardan fərqləndirən səciyyəvi cəhət hakimiyyət uğrunda mübarizədir və ya hakimiyyətə təsir göstərməkdir. Siyasi partiyalar birincisi, yüksək dərəcədə təşkilatlanmağa qadirdir; ikincisi, öz məqsədlərini hakimiyyət uğrunda mübarizə yolu ilə reallaşdırmağa cəhd edir.

Cəmiyyətin siyasi sferasının inkişaf qanunauyğunluqlarını başa düşmək üçün siyasi sistemin funksiyaları haqqında təsəvvürə malik olmaq vacibdir. Bu funksiyalar icti-

mai orqanizmin bütövlüyünün saxlanmasına və onun dəyişən xarici və daxili qaydalara uyğunlaşmasına imkan yaradır. Siyasi sistemin funksiyaları onun həyat qabiliyyətinin saxlanmasına, mükəmməl sabitliyinə və daha da inkişafına istiqamətlənən fəaliyətində ifadə olunur.

Siyasi sistem cəmiyyətdə aşağıdakı funksiyaları yerinə yetirir: 1) ictimai inkişafın məqsədlərinin formalaşması; 2) cəmiyyətin siyasi birliyi; 3) siyasi rejimin tənzimlənməsi. Birinci funksiyanın reallaşması prosesində siyasi sistem siyasi təsisatların fəaliyyətinin, cəmiyyətin inkişafının məqsədlərini işləyib hazırlayır. Bu məqsədlərin konstitusiyalarda və dövlətin qanunlarında möhkəmləndirilməsi onların ümumxalq xarakteri kəsb etməsini təcəssüm etdirir. Cəmiyyətin siyasi birliyi bütün xalqın dövlətə və hökumətə tabe olmasını ifadə edir. Siyasi rejimin tənzimlənməsi prosesində dövlət insanların, qrupların, təşkilatların davranış formalarını, onların öz aralarında və dövlətlə qarışıq münasibətlərini müəyyən edir. Bu, siyasi normaların köməyilə əldə olunur.

Siyasi sistemin funksiyalarının reallaşması prosesində siyasi şüur və siyasi mədəniyət əhəmiyyətli rol oynayır.

T.Parsonsun nəzəriyyəsinə müvafiq olaraq cəmiyyətin hər hansı siyasi sistemi aşağıdakı köklü məsələləri həll edir:

- **sabitlik və özünü mühafizə** – bu, əhalinin əksəriyyətinin cari tələbatının təmin olunması mexanizmini, cəmiyyətdə yaranan gərginliyin nəzarətdə saxlanmasını və yüngülləşdirilməsini nəzərdə tutur;

- **uyğunlaşmaq** – sabitliyin təmin olunması üçün sistemin qabiliyyət və imkanlarının mövcudluğunu nəzərdə tutur;

- **məqsədlərin əldə edilməsi** – kollektiv məsələlərin reallaşması üçün, sistemin vətəndaşları və maddi resursları səfərbər etmək qabiliyyətini ifadə edir;

- **inteqrasiya** – sistemin öz tərkib elementləri arasında qarşılıqlı münasibətləri əlaqələndirmək qabiliyyətini səciyyələndirir.

Müasir politologiyada siyasi sistemin funksiyalarını

daha tam, təfərrüatına qədər və ardıcıl **Q.Almond** təhlil etmişdir.

O, iddia edir ki, bütün sistemlər iki əsas funksiyalar toplusunu yerinə yetirir – "daxil etmə" və "xaricetmə" funksiyaları.

Almond "daxil etmənin" 4 funksiyasını göstərir:

1. Siyasi sosiallaşma və iştirakçılığa cəlb olunma.
2. Mənafelərin artikulyasiyası.
3. Mənafelərin dövlət siyasətinin alternativinə çevrilməsi.
4. Siyasi kommunikasiya.

Qeyri-hökumət sisteminin həyata keçirdiyi və "xaricetmənin" 3 funksiyası:

1. Norma-qanunların işlənib hazırlanması.
2. Normaların tətbiqi.
3. Normaların gözlənilməsinə nəzarət.

Hakimiyyətin həyata keçirdiyi:

Siyasi sosiallaşma və iştirakçılığa (siyasətdə) cəlb olunma – bu funksiya bütün siyasi sistemlərə xasdır, "iştirakçılıq ruhunun" yayılmasına imkan yaradır. Demokratik ölkələrdə bu funksiyanı qeyri-hökumət orqanları yerinə yetirir; totalitar cəmiyyətlərdə siyasi sosiallaşmanın bütün obyektləri dövlətin nəzarətində olur.

Mənafelərin artikulyasiyası – bu, mənafe qruplarının həyata keçirdiyi siyasi konvensiya gedişində ilk funksional nəticədir. Demokratik ölkələrdə mənafe qrupları vətəndaşlarla dövlət arasında əlaqələndirici həlqə kimi nəzərdən keçirilir. Keçmiş SSRİ-də 1985-ci ilə qədər Sovet İttifaqı Kommunist Partiyası bütün sosial mənafelərin ifadəçisi kimi çıxış edirdi, başqa sözlə mənafelərin artikulyasiyasını faktiki olaraq partiya həyata keçirirdi. **Almondun** fikrincə, mənafelərin artikulyasiyasını reallaşdırmağa qadir olan siyasi sistem, həm də onları dövlət siyasətinin alternativinə çevirmək tələbatını təmin etmək qabiliyyətinə malikdir.

Siyasi kommunikasiya – bu, informasiya və inamların

verilməsi prosesi olub, siyasi sistemin müxtəlif strukturları arasında əlaqələrin təmin olunması vasitəsidir. Siyasi təşkilatların rəhbərliyi üçün və siyasətin reallaşması naminə adətən, informasiyanın vertikal axını tələb edilir: xalqdan hökumətə qədər və əksinə. Bundan əlavə hakimiyyətin səviyyələri ilə orqanları arasında informasiyanın horizontal axını da zəruridir.

Norma-qanun yaradıcılığı nəticəsində cəmiyyətdə vətəndaşların davranışını müəyyənləşdirən qanunlar işlənib hazırlanır. Norma-qanunların işlənib hazırlanmasının adi prosesi bir sıra mərhələdən ibarətdir:

- siyasətin işlənib hazırlanması və ümumi məqsədlərin seçimi;
- məqsədlərin əldə edilməsi üçün qərarların və konkret qaydaların işlənib hazırlanması.

Mövcud funksiyanı qanunverici, eləcə də icraedici və məhkəmə orqanları yerinə yetirirlər.

Siyasətin və qərarların qəbul edilməsinin vacib aspekti **normaların tətbiqi** funksiyasıdır, bu funksiyanı nəinki icraedici orqanlar, çox vaxt qanunverici və hüquqi strukturlar yerinə yetirirlər.

Normaların gözlənilməsinə nəzarət – qanunların şərhini və mövcud qanunların pozulması faktlarını müəyyənləşdirmək məqsədilə fəaliyyəti və müvafiq cəzanın tətbiqini nəzərdə tutur.

Almond siyasi sistemin fəaliyyətini üç səviyyədə nəzərdən keçirir, bu səviyyələr siyasi sistemin tiplərini müqayisə etməyə imkan yaradır.

Birinci səviyyə – sistemin özünün imkanları çərçivəsində həyata keçirilən proseslərdir; hökumətin cəmiyyət üzərində hakimiyyətini, onun məqsədlərinin əldə edilməsi naminə insanların düşüncəsinə və davranışına təsir etmə dərəcəsini nəzərdə tutur.

İkinci səviyyə – sistemin özündə baş verən proseslərdir, başqa sözlə, daxil olan amillərin xaric olan amillərə çevrilməsi üsullarıdır.

Üçüncü səviyyə – sistemin mövcud modelinin və onun uyğunlaşmasının mühafizəsi prosesidir, **Almond** buraya hər şeydən əvvəl, sosiallaşma prosesini və kadrların seçilməsini aid edir, bu prosesdə yeni rollar yaradılır və yeni insanlar siyasi həyata "qapılırlar". Bir sözlə, bu səviyyə **Ç.Endreynin** qeyd etdiyi kimi, "siyasətin istehsalı" üsulu kimi çıxış edir.[1]

İnkişaf etmiş ölkələrin həyat fəaliyyətinin müxtəlif sferalarına kompüter texnikasının kütləvi tətbiqini ifadə edən informasiya texnikasına keçilməsi, sosial sistemlərin təhlilində mexaniki modellərdən istifadə olunmasına imkan yaratdı. Bu onunla şərtləndi ki, özünütəşkil sistemi informasiyaya müstəqil reaksiya vermək qabiliyyətinə malik olmalıdır, öz davranışını dəyişməlidir. Əgər həmin dəyişiklik effektlidirsə və sistem öz məqsədinə çatırsa, belə halda onun enerjisi və ya daxili gərginliyi azalır. Sistemin fəaliyyətinin effektliyi iki dəyişən amildən asılıdır: a) informasiyanın vaxtında və tam verilməsindən və b) fəaliyyəti istiqamətləndirən və nəzarətdə saxlayan komandanın verilməsi mexanizmindən.

Siyasi sistemi gibernetik maşına ilk bənzədən Amerika politoloqu **K.Doyç** hesab olunur. O, siyasi sistemi "kommunikativ yanaşma" kontekstində nəzərdən keçirmişdir. **K.Doyç** siyasəti qarşıya qoyulan məqsədlərə çatmaq üçün insanların səylərinin idarə edilməsi və əlaqələndirilməsi prosesi kimi başa düşmüşdür.

Məqsədlərin formalaşması, onların əlaqələndirilməsi siyasi sistem tərəfindən mövcud məqsədlərə münasibətdə cəmiyyətin vəziyyəti haqqında informasiya əsasında həyata keçirilir. Beləliklə, siyasi sistemin fəaliyyəti xarici mühitdən daxil olan informasiyanın keyfiyyətindən və həcmindən asılıdır. İnformasiyanın bu iki axını əsasında axtarılan məqsədlə bağlı, sonrakı fəaliyyəti nəzərdə tutan siyasi qərarlar qəbul olunur.

Axtarılan məqsədlərə nail olunması siyasi sistemin cəmiyyətdə dinamik tarazlığın – qrupların, statusların, mə-

[1] Эндрейн Ч. Сравнительный анализ политических систем. М.: Вес мир, 2000, с. 20

nafelərin tarazlığının əldə edilməsini təmin etmək cəhdini səciyyələndirir. Lakin nə qədər ki, daim məqsədlərin dəqiqləşdirilməsi baş verir, siyasi sistemin tarazlığı daha çox real vəziyyət deyil, məhz ideal vəziyyətdir. Arzu olunan məqsədlərin reallaşması bir-birilə qarşılıqlı fəaliyyətdə olan dörd kəmiyyət amilindən asılıdır: 1. Sistemin informasiya yükü (o elə vəzifələr və sosial dəyişikliklər miqyası ilə müəyyən olunur ki, hökumət tərəfindən həyata keçirilməsi nəzərdə tutulur); 2. Sistemə gec reaksiya vermək (başqa sözlə, siyasi sistem yeni vəzifələrə və fəaliyyətin yeni şəraitinə nə qədər tez və ya gec reaksiya vermək qabiliyyətinə malikdir); 3. Sistemin axtarılan məqsədə doğru fəaliyyətində yaranan dəyişikliklərin (sayı); 4. Sistemin hadisələrin inkişafı, yeni problemlərin təzahürü imkanlarını qabaqcadan görmək qabiliyyəti və onları həll etməyə hazır olması.

Doyçun modeli sosial sistemin həyatında informasiyanın mühüm əhəmiyyətinə diqqət yetirir. Kommunikasiya sisteminin genişləndiyi şəraitdə informasiyanın fəaliyyəti hakimiyyətin effektliyini xeyli dərəcədə müəyyən edir. İnformasiyanın siyasi sistemin bir hissəsindən (məsələn, elitadan) digərinə (vətəndaşlara) hərəkəti cəmiyyətin öz yetkinliyindən asılıdır. Cəmiyyətin iqtisadi, sosial, mədəni və siyasi inkişafı informasiyanın istiqamətini, onun həcmini, mobilliyini, differensiallığını, sosial qruplardan asılılığını müəyyən edir. Demokratik cəhətdən inkişaf etmiş ölkələrdə siyasi informasiya əhalinin bütün qruplarına ünvanlanır, qarşılıqlı mübadilə əsasında fəaliyyət göstərir: liderdən əhaliyə, eləcə də vətəndaşdan hakimiyyətə qədər. Kütləvi informasiya vasitələrinin inkişaf etməməsi, müstəqil mətbuatın olmaması siyasi informasiyanın dozalı xarakterini və həcmini şərtləndirir, onun üzərində dövlətin tam nəzarətini reallaşdırır.

2. Siyasi sistemin təsnifatı və dinamikası

Siyasi sistemin öyrənilməsi yalnız onun mühüm əlamətlərinin, ümumi cəhətlərinin üzə çıxarılmasını deyil, eləcə də konkret-tarixi şəraitdə inkişaf edən siyasi sistemlərin

fərqlərinin, fərdi xüsusiyyətlərinin aydınlaşdırılmasını ifadə edir. Buna görə siyasi sistemin təsnifatı vacib və zəruridir. Siyasi sistemlərin təsnifatına cəhd edərkən onların fərqləndirilməsinin meyarlarını göstərmək lazımdır. Siyasi sistemlərin təsnifatı böyük çoxcəhətliliyi ilə fərqlənməklə, xeyli müxtəlif meyarlara əsaslanır. Siyasi sistemlərin ümumi qəbul edilmiş başlıca cəhətlərini nəzərdən keçirək.

Tarixi prosesin **formasiya mövqeyindən** təhlili marksist nəzəriyyə üçün səciyyəvidir. Həmin mövqeyin mahiyyəti bundan ibarətdir ki, dünya tarixinin keyfiyyətcə müəyyən inkişaf mərhələləri ictimai-iqtisadi formasiya adlandırılır. Onlar cəmiyyətin müvafiq tiplərinə xas olan maddi nemətlərin istehsal üsulunun xarakteri və sosial sinfi strukturla müəyyənləşdirilir. Formasiya mövqeyindən yanaşma baxımdan siyasi sistemlərin quldarlıq, feodal, kapitalist, sosialist tipləri fərqləndirilir. Həmin tiplərdən hər biri müəyyən siniflərin, sosial qrupların siyasi hökmranlığı ilə səciyyələnir və konkret olaraq dövlət idarəçiliyinin və hakimiyyətin müxtəlif formalarda təşkilində təzahür edir.

Eləcə də siyasi sistemlərin təsnifatında **sivilizasiyalı** metod tətbiq edilir. Belə ki, Amerika alimi **Q.Almond** müasir dünyada siyasi sistemlərin dörd tipinin mövcudluğunu qeyd edir: ingilis-Amerika, kontinental Avropa, sənayeyə qədərki və qismən sənaye, totalitar sistemlər. Bu təsnifat müxtəlif siyasi mədəniyyətlərə əsaslanır.

İngilis-Amerika sistemi homogen siyasi mədəniyyətlə səciyyələnir. Bu siyasi mədəniyyətə xüsusi funksiyaların yerinə yetirilməsi naminə siyasi münasibətlərin (partiyaların, qrup mənafelərinin və s.) ixtisaslaşması xasdır. Hakimiyyət və siyasi sistem daxilində təsir etmə ayrılıqda mövcuddur. Siyasi sistemin bu qrupunda rol strukturları dərin differensiallıq kəsb edir, dəqiq ifadə olunmuşdur, təşkil edilmişdir və bürokratlaşdırılmışdır.

2. Kontinental Avropa sistemi bütövlükdə ümumi kökə və ümumi irsə malik olmaqla, siyasi mədəniyyətin yarımçıqlığı ilə fərqlənir. Onlar üçün köhnə və yeni mədəniyyətlərin

mövcudluğu səciyyəvidir. Belə tipli siyasi sistem hər şeydən əvvəl, Fransada, Almaniyada, İtaliyada mövcuddur. Skandinaviya ölkələrində isə kontinental Avropa və ingilis-Amerika sistemləri arasında mövcud olan aralıq mövqeli sistem nəzərə çarpır.

3. Sənayeyə qədərki və qismən sənaye siyasi sistemi qarışıq siyasi mədəniyyətə malikdir. Kommunikasiyanın və kordinasiyanın (əlaqələndirmənin) çətinliyi, siyasi oriyentasiyadakı kəskin ziddiyyətlər, sistemin bütün həlqələrinin rollarının zəif əlaqələndirilməsi dərəcəsi zorakılıq tətbiq edilməsini zərurətə çevirir.

4. Totalitar tipli siyasi sistem. Totalitar siyasi mədəniyyət siyasi fəallığın məcburetmə tipini yaradır. Buna könüllü birliklər uyğun gəlir, siyasi kommunikasiya isə monolit (vahid) partiyanın nəzarətində olur.

Totalitar, avtoritar və demokratik sistemlərin müəyyənləşdirilməsinə cəhd daha geniş yayılmışdır. Onların həddinin dürüst müəyyənləşdirilməsinin meyarı siyasi hakimiyyətin həyata keçirilməsinin vasitə və metodlarının məcmuu olan siyasi rejimdir, cəmiyyət (xalq) və şəxsiyyətdir.

Cəmiyyətin siyasi sisteminin təsnifatına dair digər maraq doğuran mövqelər də mövcuddur. Məsələn, Amerika alimi **U.Rostou** və fransız tədqiqatçısı **Aron** siyasi sistemlərin belə bir təsnifatını təklif edirlər: 1. Ənənəvi; 2. Modernləşmiş demokratiya və Totalitar sistemlər.

Bəzi tədqiqatçılar siyasi sistemlərin təsnifatı üçün siyasi prosesdə iştirakı meyar kimi qəbul edirlər. Fransız politoloqu **J.Blondel** siyasi sistemi beş kateqoriyaya ayırır: 1. Dövlət qərarlarının qəbulunda liberalizmə əsaslanan liberal demokratiya; 2. Sosial nemətlərin bərabərliyinə üstünlük verən və onun əldə edilməsinin liberal vasitələrinə etinasız yanaşan kommunist sistemi; 3. Sosial və iqtisadi nemətlərin tamamilə qeyri-bərabər bölüşdürülməsini həyata keçirən oliqarxiyanın idarə etdiyi **ənənəvi** siyasi sistem; 4. Son zamanlar inkişaf etmiş ölkələrdə təşəkkül tapan və iqtisadi və sosial nemətlər sahəsində böyük bərabərliyin əldə olunmasına cəhd

edən açıq siyasi sistem; 5. Təşəkkül tapan qeyri-bərabərliyi qoruyub saxlamaq üçün fəal siyasət yeridən, bərabərliyin və siyasətdə iştirakçılığın dərinləşməsinə qarşı çevrilən **Avtoritar-mühafizəkar** sistem.

Siyasi sistemin nisbətən az yayılan digər təsnifatı da mövcuddur. Belə ki, **Z.Bjezinski və S.Hantinqton instrumental və ideoloji** siyasi sistemlərin mövcudluğunu bildirirlər. İnstrumental siyasi sistem sosial və siyasi inkişafın təbii nəticəsi kimi təşəkkül tapır və rasional əsaslandırılan model üzrə məcburi yaradılır. **D.Koulmenin** təsnifatının əsasını isə siyasi münaqişə meyarı təşkil edir. Bu meyara uyğun olaraq ənənəvi, patriarxal, qarışıq və müasir siyasi sistemlər fərqləndirilir, belə sistemlərdə siyasi inkişaf müvafiq olaraq avtoritar, yarımmünaqişəli və münaqişəli mərhələlərdə öz əksini tapır.

Siyasi sistemin təsnifatının müxtəlifliyi siyasi aləmin çoxölçülü olmasını təsdiqləyir. Çoxölçülü siyasi sistemin təhlili üçün çoxölçülü yanaşma tələb olunur.

Cəmiyyətin siyasi sisteminin mühüm xüsusiyyəti onun **dəyişkənliyidir, dinamikasıdır**. Siyasi sistemin təkamülünün mənbəyi çox vaxt kəskin siyasi münaqişələrə, sinfi qarşıdurmaya, etnik toqquşmalara gətirib çıxaran cəmiyyətdəki sosial və sinfi mənafelərdə təzahür edən fərqlərdir. Siyasi mübarizədə rəqabət aparan hər bir qrup spesifik məqsədlərin əldə edilməsinə, öz mövqeyini müdafiə etməyə cəhd edir. Siyasi mübarizədə iştirak edən sosial qüvvələrin mövqeyi mühafizəkar, islahatçı, inqilabi və ya qisasçı xarakter daşıya bilər. Cəmiyyətdə üstün mövqeyə malik olmaqdan asılı olaraq siyasi sistemin təkamülünün müvafiq formaları bunlardır: a) islahat yolu; b) inqilabi proseslər; v) əksinqilab; q) mürtəce proseslər; d) siyasi durğunluq.

Siyasətdə durğunluq siyasi quruluşun mühafizə olunması, siyasi rəhbərliyin forma və metodlarının əhəmiyyətli dərəcədə dəyişilməsinə istiqamətlənən səylərin aradan qaldırılması ilə səciyyələnir. Durğunluq şəraitində demokratiyanın çərçivəsi, xalq kütlələrinin siyasi qərarların işlənib hazır-

lanmasında və reallaşmasında iştirakı məhdudlaşır. Siyasətin həyata keçirilməsində xalqın iştirakı formal qayda kəsb edir. Avtoritarlıq, ictimai proseslərin tənzimlənməsində dövlət aparatının rolu güclənir, onun fəaliyyət sferası genişlənir. Durğunluğun vacib şərti siyasətdə bürokratizmdir. Bu öz ifadəsini dövlət aparatının fəaliyyətində ictimai problemlərin həllinə dair formal qərarların işlənib hazırlanması, süründürməçilik, kağız üzərində iş və digər neqativ halların təzahüründə tapır. Durğunluğun digər vacib şərti siyasi böhrandır. Cəmiyyətin problemləri həll edilmir, yalnız dərinləşir. Mövcud siyasi quruluşun sabitliyinə təhlükə yaradan problemlərin köklü həlli aradan qalxır. Problemin həllinin təqlid edilməsi də həyata keçirilə bilər. Hakimiyyətin həyata keçirilməsinin ənənəvi metod və formaları onun saxlanması üçün əlverişli olmadıqda, siyasi böhranın kəskinləşdiyi şəraitdə siyasi sistemin təkamülünün islahatlar yolu zərurətə çevrilir. Siyasi sistemin dəyişilməsi strategiyası islahatlara əsaslandığı zaman o, sosial sistemdə gərginlik doğuran ictimai münasibətlərin ayrı-ayrı aspektlərinin qaydaya salınması ilə məhdudlaşır. Belə hal cəmiyyətin ziddiyyətli sferalarında tədrici tənzimlənmələrlə səciyyələnir. Buna görə hakimiyyət bütövlükdə cəmiyyətin yenidən təşkilinə cəhd etmir, məhz siyasi sistemin normal fəaliyyətin çətinləşdirən hallardan uzaqlaşmağa çalışır. İslahatçılıq praqmatik ruhu ilə səciyyələnir, o, öz qarşısına ideal model əsasında cəmiyyətin tam yenidən təşkili vəzifəsini qoymur. İslahat yolu o zaman reallaşır ki, siyasi böhran şəraitində onun zəruriliyi dərk olunur. Böhran partlayış həddinə çatdıqda islahat əhəmiyyətini itirir və inqilabi dəyişikliklər vaxtı gəlib çatır. İnqilabi dəyişikliklərin həyata keçirilməsi üçün inqilabi şərait zərurətə çevrilir. Bir tərəfdən onu dövlət hakimiyyətinin kəskin böhranı, eləcə də hakim sinfin mövcud böhranlı vəziyyəti qaydaya sala bilməməsi, digər tərəfdən isə siyasi hakimiyyəti dağıtmağa hazır olan və cəhd edən geniş sosial təbəqənin təşəkkülü səciyələndirir. Bunun üçün inqilabi qüvvələr inqilabi dəyişikliklərin təşkilatçısı rolunu oynayan

qabaqcıl partiyaya malik olmalıdırlar.

Siyasi sistemin inqilabi yolla yenidən təşkili bir sıra mərhələdən ibarətdir: **yetişmə, partlayış, qələbə və təsisatlaşma**. Yetişmə mərhələsində inqilabi situasiya formalaşır. Hökumət qüvvələri və inqilabçı kütlələr arasında silahlı toqquşma partlayışa gətirib çıxarır. Əgər inqilabi hərəkat qalib gəlirsə, köhnə dövlət aparatının sındırılması və yeninin əsasının qoyulması mərhələsi başlanır. Yeni dövlət quruluşunun formalaşması zamanı bürokratik maşının sındırılması baş verir, dövlət aparatının rolu xeyli azalır. Bu onu görə baş verir ki, yeni siyasi elita əvvəlki rejimin bürokratiyasına inanmır. Yeni dövlətin yaradılması prosesində inqilabçı partiya xalq kütlələrinə arxalanır, onları siyasi qərarların işlənib hazırlanmasına və reallaşmasına cəlb edir. Nümayəndəli və bilavasitə demokratiyanın forma və metodları böyük çəkiyə malik olur. İnqilabi dəyişikliklərin həlledici mərhələsində yeni siyasi sistemin təsisatlaşması baş verir, yeni iqtisadi, siyasi, mədəni təsisatlar yaradılır və bütövlükdə cəmiyyətin oriyentasiyasını müəyyən etməyə başlayır. İcraedici hakimiyyətin rolu artır, xarici və daxili siyasət məsələlərini, cəmiyyətin iqtisadi və sosial inkişafını həll etmək qabiliyyətinə malik olan dövlət aparatı formalaşır. Əgər inqilabi qüvvələr məğlub olarsa, siyasi sistemdə mürtəce proseslər baş verir və son nəticədə faşist və ya hərbi siyasi rejim qərarlaşır.

İnqilabi dəyişikliklər ziddiyyətli prosesdir. Siyasi inqilabın qələbəsindən sonra onun məruz qaldığı təhlükələrdən biri "rəhbərə sitayişdir", müəyyən qruplara, korrupsiyaya üstünlük verilməsidir. Sosial inqilabın daha çox təsadüf edilən cəhəti onun ilk məqsədləri ilə konkret təcəssümü arasında təzahür edən ziddiyyətlərdir. Bu inqilabi rejimin düşmənlərinin istifadə etdiyi zəhmətkeşlərdə yaranan ümidsizlikdir. Hadisələrin belə dönüşü əksinqilaba gətirib çıxara bilər. Müxtəlif əksinqilabi qüvvələrin ümumi məqsədi hakimiyyətin və itirilmiş mövqeyin qaytarılmasıdır.

Siyasi sistemin demokratikləşməsi prosesi ziddiyətli baş verir. Bu, həm obyektiv və eləcə də subyektiv çətinlik-

lərlə, ziddiyyətlərlə, nöqsanlarla bağlıdır. Hər şeydən əvvəl, siyasi islahatların əlverişli olmayan iqtisadi şəraitini qeyd etmək lazımdır. Belə şəraitdə insan hüquqlarını reallaşdırmaqda dövlət çətinlik çəkir.

Siyasi sistemin demokratikləşməsi yolunda maneçilik törədən subyektiv hallara kütləvi şüurda totalitar təfəkkürə xas olan ünsürlərin saxlanması (qanunun nüfuzdan düşməsi, siyasi passivlik və s.), rəhbərlikdə avtoritar üsulun mövcudluğu (qərarların təkbaşına qəbuluna cəhd etmək, aşkarlıq prinsipinin təhrif olunması və s.), siyasi mədəniyyətin aşağı səviyyədə təzahürü, başqalarının rəyinə hörmətlə yanaşmamaq, siyasi məsuliyyətsizlik və digər bu kimi neqativ cəhətlər aiddir.

Cəmiyyətin spesifik yarımsistemi kimi səciyyələnən siyasi sistemin özü də bir neçə yarımsistemdən ibarətdir:

1. Təsisatlı yarımsistem. Bu, siyasi sistemin "ruhunu", materiyasını təşkil edir. Təsisatlı yarımsistem özündə siyasi idarəetmə və dövlət idarəçiliyi formalarını, siyasi sistemin mahiyyətini şərtləndirən siyasi rejimləri, hakimiyyətin bölünməsi sistemini, siyasi təsisat olmaq etibarilə partiyaları, siyasi hərəkatları, seçki sistemini əks tedirir. Siyasi sistemdə hakim mövqe tutmaq etibarilə, təsisatlı yarım sistem onun fəaliyyət imkanlarının reallaşması üçün normativ-huquqi baza yaradılmasını təmin edir. Siyasi sistemin siyasi sabitliyi və digər ictimai sistemlərin fəaliyyətinə və inkişafına təsiri, eləcə də xarici siyasətin işlənib hazırlanması yalnız təsisatlı yarımsistemin sayəsində reallaşır.

2. Tənzimləyici yarımsistem. O cəmiyyətin (ölkənin) konstitusiyasında və digər qanunvericilik aktlarında ifadə edilən siyasi-hüquqi normalara əsaslanmaqla, müxtəlif siyasi təsisatların (siyasi partiyaların, siyasi hərəkatların, əlbəttə, ilk növbədə dövlətin və s.) formalaşması prosesini, fəaliyyətini qaydaya salır, hərtərəfli tənzimləyir.

3. Kommunikativ yarımsistem. Bu yarımsistem mövcud cəmiyyətin siyasi sisteminin fəaliyyəti prosesində təşəkkül tapan münasibətlərin məcmuundan ibarətdir. Təbii ki, hə-

min münasibətlər ilk öncə, cəmiyyətin idarə olunmasını əks etdirir. Siyasi təsisatlar və eləcə də siyasi rəhbərlər və liderlər, siyasi elitanı təmsil edənlər məhz bu münasibətlərin subyektləri kimi çıxış edirlər.

Siyasi sistemin kommunikativ yarımsisteminə, o cümlədən hakimiyyət uğrunda mübarizə, ona sahib olmaq, ən başlıcası əldə saxlamaq və həyata keçirməklə bağlı olan münasibətlər aiddir. Həmin münasibətlər bir qayda olaraq, cəmiyyətin mövcud hüquq normalarına əsaslanan xarakter daşıyır. Belə bir cəhəti də qeyd etmək lazımdır ki, siyasi sistemdə çox hallarda cəmiyyətin hüquq normalarında möhkəmləndirilməyən qeyri-formal münasibətlər də yaranır və inkişaf edir.

4. Siyasi-ideoloji yarımsistem. O, siyasi görüşlər sistemini, siyasi nəzəriyyə və təlimləri ifadə edir. Siyasi-ideoloji yarımsistemi səciyyələndirən həmin mənəvi-siyasi dəyərlər siyasi təsisatların, siyasi-hüquqi normaların yaradılmasının, nəinki siyasi münasibətlərin, həmçinin bütün siyasi sistemin təkmilləşdirilməsi və fəaliyyətinin zəminini təşkil edirlər. Cəmiyyətin siyasi-ideoloji yarımsistemi siyasi məqsədlərin və onların əldə edilməsi üsullarının müəyyənləşdirilməsində, sosial sistemdə yaranan xeyli siyasi problemlərin həllində əhəmiyyətli rol oynayır.

Cəmiyyətin siyasi sistemi bir sıra funksiyalar yerinə yetirir. Onlardan ən əhəmiyyətlisi dövlətin siyasi **rəhbərliyi, inteqrativ və tənzimləmə funksiyalarıdır.**

Dövlətin siyasi rəhbərliyi və ya cəmiyyətin idarə olunması funksiyası strateji məqsədlərin və ictimai inkişafın perspektivinin müəyyənləşdirilməsinə, siyasi xəttin işlənib hazırlanmasına istiqamətlənir. Həmin funksiya bəzi hallarda məqsədə yönələn funksiya adlandırılır.

Siyasi sistemin inteqrativ funksiyası cəmiyyətin ictimai-siyasi birliyini, sabitliyini təmin etməklə, bütövlükdə cəmiyyətin və onu təşkil sistemlərin dinamikliyini şərtləndirməklə səciyyələnir.

Cəmiyyətin siyasi sisteminin xüsusi əhəmiyyət kəsb

edən digər funksiyası tənzimləmə funksiyasıdır.

Bu funksiya başlıca siyasi təsisat olmaq etibarilə, dövlətdə siyasi davranışın və siyasi münasibətlərin nizama salınmasına və müəyyən çərçivədə qərarlaşmasına yönəlir. Tənzimləmə funksiyasının mahiyyəti insanların davranışının yüksək səivyyəsini təmin edən tənzimləmə sisteminin və mexanizminin işlənib hazırlanmasından ibarətdir.

3. Siyasi sistemlərin müqayisəli təhlili

Siyasi sistem olmaq etibarilə, totalitarizm XX əsrdə meydana gəlmişdir. Lakin totalitarizm ideyası çox əvvəllər yaranmışdır. "Totalitarizm" termini latın dilində bütövlük, tamlıq mənasını ifadə edən "totalitas" sözündən götürülmüşdür. Totalitarizm siyasi və politoloji termin kimi XX əsrin ikinci yarısında geniş yayılmışdır.

Siyasət nəzəriyyəsində totalitarizm həmin əsrin 40-50-ci illərində təşəkkül tapmışdır. Totalitarizm problemi daha çox **F.Hayek, X.Arend, K.Fridrix və Z.Bjezinski** tərəfindən tədqiq edilmişdir. Z.Bjezinskinin "Totalitar diktatura və avtokratiya" kitabı (1956) daha çox maraq doğurur.

Totalitarizmin əsas ümumi zəmini cəmiyyətin inkişafının sənafe mərhələsinə aiddir. Bu mərhələdə kütləvi kommunikasiya sistemi təşəkkül tapır, ictimai əlaqələr xeyli mürəkkəbləşir, ideologiyanın məcburi yolla həyata keçirilməsi təmin edilir. Beləliklə, dövlətin cəmiyyət həyatının bütün sferalarına total (tam) nəzarəti üçün ilk zəmin yaranır.

Totalitarizmin ən səciyyəvi subyektiv mənbələrindən biri ictimai inkişafın sənaye mərhələsində cəmiyyətin avtomatlaşdırılmasına insanın psixoloji cəhətdən hazırlanmasıdır, həmçinin, kollektiv təşkilatların dağıdılması və dini əlaqə və dəyərlərin aradan qalxmasıdır, sosial özgələşmənin güclənməsidir. Məhz inkişafın sənaye mərhələsinin və etatizmin (ictimai həyatın ayrı-ayrı sferalarına dövlətin təzyiqinin güclənməsi) təzahürü ilə kollektiv-mexanisizmə əsaslanan dünyagörüşü totalitarizmin əsasını təşkil edir. Böhran totalitarizmin sosial mənbəyinin təşəkkülünü təmin edir.

Yəni totalitar inqilabda birbaşa iştirak edən sosial təbəqələrin sayının və təsirinin təzahürünü xeyli dərəcədə artırır. Totalitarizmin daha qətiyyətli tərəfdarı kimi sosial strukturda sabit, möhkəm mövqeyə malik olmayan marginal qruplar, aralıq təbəqələr çıxış edirlər.

Totalitar təfəkkür və şüur obyektiv qanunauyğunluğa malik olan ictimai hadisədir. Totalitar sistem təsadüfi, kortəbii deyil, müəyyən ideoloji nümunə zəminində təşəkkül tapır. Totalitar siyasi sistem insan zəkasının məhsuludur. Totalitarizmin əsasını ideologiya təşkil edir. İdeologiya sosial-inteqrativ fünksiyanı yerinə yetirir, insanları siyasi birlikdə cəmləşdirir, vətəndaşların davranışının və dövlət siyasətinin motivləşməsinin istiqamətverici amili kimi səciyyələnir. Bütün ictimai həyatın ideologiyalaşması öz həyatı gücünü məhz ideologiyadan alır, bu, totalitar siyasi sistemin ən əhəmiyyətli cəhətidir. Totalitar ideologiya cəmiyyətə zorakı ruhda, məcburi xarakterdə nüfuz edir, "ümumi mənafeyin" ölçüsü kimi əsaslandırılır. Totalitar siyasi sistemdə hakimiyyət informasiyanı inhisara alır, kütləvi informasiya vasitələri üzərində nəzarəti həyata keçirir. Totalitar siyasi sistem **ictimai rəyi** aradan qaldırır, onu **rəsmi cəhətdən siyasi qiymətləndirmə** ilə əvəz edir. Bu siyasi sistemdə cəmiyyətin hərtərəfli ideologiyalaşması onun totalitar siyasiliyini, hakimiyyət aparatının təmərküzləşməsini və həddən artıq böyüməsini təmin edir. Totalitar siyasi sistem vətəndaş cəmiyyətinin tamamilə aradan qaldırılmasına yönəlir. Həmin siyasi sistem vahid, hakim, totalitar tipli partiyanın mövcudluğu ilə fərqlənir.

Totalitar siyasi sistem öz təbiətinə uyğun gələn sosial struktur formalaşdırır. Kütləvi, sistemli terror doğurur. Bu sistem özünə kütləvi dayaq yaratmaq məqsədilə müəyyən sinfin və ya millətin, hətta irqin üstünlüyünü elan edir. Totalitar siyasi sistemdə şəxsiyyət və cəmiyyət dövlətə tabe etdirilir, onların hər cür muxtarlığı və hüquqları aradan qaldırılır. İdeologiyanın sosial və iqtisadi həyata müdaxiləsi hədsiz səviyyəyə çatır, xüsusi mülkiyyət təsərrüfat həyatından kə-

narlaşdırılır, bazar münasibətlərini tamamilə inkar etmək və planlaşdırma idarə sistemitndə həlledici yer tutur.

Totalitar siyasi sistem üç formada təzahür edir: **kommunizm, faşizm və milli sosializm**. Politoloji ədəbiyyatda çox vaxt fvşizm **sağ totalitarizm**, kommunizm isə **sol totalitarizm** adlandırılır. Sağ totalitarizmə Almaniyada **A.Hitlerin**, İtaliyada **V.Mussolininin** rejimləri aid edilir. Sol totalitarizm isə sosialist (kommunist) rejimi ilə əlaqələndirilir.

Totalitarizmin hər iki növü (sağ və sol) fərqləndirici xüsusiyyətlərə malikdir. Totalitar ideyada və təfəkkür tərzində üstünlük öz əməyi hesabına yaşayan fəhlə sinfinə, bütövlükdə zəhmətkeşlərə (kəndli sinfinə və ziyalılara), millət və irqə verilir. Sol totalitarizm beynəlmiləlçiliyi, sağ totalitarizm isə heç bir lüzum olmadan milli ideyanı mütləqləşdirir.

Totalitarizmin ilk tarixi forması 1918-ci ildə yaranan **sovet kommunizmi sayılır**. Sovet tipli totalitarizmin əsasını hərbi kommunizm sistemi təşkil edir. Kommunist totalitarizmi totalitarizmin digər tarixi formaları ilə müqayisədə totalitar siyasi quruluşun ümumi və başlıca cəhətlərini özündə daha çox əks etdirmişdir, o, xüsusi mülkiyyəti tam ləğv etməklə bərabər, şəxsiyyətin bütün müxtarlığını aradan qaldırır.

Totalitar siyasi sistemin digər tarixi forması **faşizmdir**. Totalitarizmin bu növü 1922-ci ildə İtaliyada təşəkkül tapmışdır. Həmin siyasi sistemdə totalitarizmə xas olan xüsusiyyətlər tam əksini tapmamışdı. İtaliya faşizmi yeni cəmiyyətin köklü surətdə təşkil olunmasını qarşıya məqsəd qoymamışdı. O, daha çox Roma imperiyasının bərpa olunmasına çalışırdı, etnik zəmində kollektivçiliyin həyata keçirilməsinə, kütləvi cinayətkarlığın aradan qaldırılmasına cəhd edirdi.

Totalitar siyasi sistemin üçüncü forması **milli-sosializmdir**. Totalitar sistemin bu tarixi forması 1933-cü ildə Almaniyada təşəkkül tapmışdır. Milli-sosializm İtaliya faşizmi ilə qohumluq kəsb etsə də, məhz sovet kommunizmindən xeyli cəhətləri mənimsəmişdir (totalitar partiyanın və dövlətin

təşkili formalarını).

Bir sözlə, totalitar siyasi sistemlər müəyyən ümumi, oxşar xüsusiyyətlər kəsb etməklə bərabər, özünəməxsus fərqlərə də malikdirlər.

Siyasi sistemin tiplərinin müəyənləşdirilməsi üçün siyasi rejim, başqa sözlə hakimiyyətin, cəmiyyətin və şəxsiyyətin qarşılıqlı münasibətlərinin xarakteri və üsulları meyar hesab olunur. Totalitar siyasi sistem üçün ən ümumi şəkildə cəmiyyətin və şəxsiyyətin hakimiyətə tamamilə tabe olması, dövlət tərəfindən vətəndaşlar üzərində total nəzarətin həyata keçirilməsi səciyyəvidir.

Avtoritarizm bir şəxsin və ya şəxslər qrupunun vətəndaşlar üzərində qeyri-məhdud hakimiyyəti ilə fərqlənir. Belə siyasi quruluşda şəxsiyyətin və cəmiyyətin müxtar vəziyyəti ancaq qeyri-siyasi sferalarda həyata keçirilir. Demokratik siyasi sistemdə isə totalitar və avtoritar sistemlərdən fərqli olaraq, cəmiyyətin (əksəriyyətin) hakimiyyət üzərində nəzarəti təmin edilir.

Şəxsiyyət muxtarlığa, hüquq və azadlıqlara malik olduğu təqdirdə, o, hakimiyyətin mənbəyi kimi etiraf edilir və liberal demokratiyanın mövcudluğu reallaşır, lakin hakimiyyət əksəriyyət tərəfindən məhdudlaşdırılmırsa, bu zaman demokratiya totalitarlığa çevrilir.

Müasir dünyada siyasi sistemin daha geniş yayılan tipi avtoritarizmdir. Malik olduğu spesifik xüsusiyyətlər nöqteyi-nəzərdən avtoritarizm totalitar və demokratik siyasi sistemlər arasında bir növ aralıq (mezo) mövqeyi ilə fərqlənir. Avtoritar siyasi sistemi totalitarizm ilə yaxınlaşdıran cəhət hakimiyyətin məhdud qrupun əlində cəmləşməsidir. Onun demokratik sistemlə müəyyən oxşarlığını şərtləndirən cəhət isə, ictimai həyat sferalarının, ilk növbədə, iqtisadiyyatın muxtarlığıdır, dövlət tərəfindən tənzimlənməsidir, digər əhəmiyyətli ictimai məqamı bundan ibarətdir ki, vətəndaş cəmiyyətinin ünsürlərinin aradan qaldırılmasına cəhd edilmir. Siyasi sistem nəzəriyyəsinin tədqiqatçılarından hesab olunan **T.Madron** belə qənaətə gəlir ki, totalitar, avtori-

tar və demokratik formalarda təzahür edən cəmiyyətin siyasi sistemi "münasibətlər şəbəkəsi və s. ilə möhkəmləndirilən obyektlərin və onların əlamətlərinin məcmuudur".

Avtoritar siyasi sistemdə totalitarizmdən fərqli olaraq inqilabi dünyagörüşünə və vahid ideologiyaya ehtiyac duyulmur, burada yalnız **hakimiyyətin əldə saxlanması marağı** həlledici rola malikdir. Totalitar və avtoritar sistemləri fərqləndirən əlamətlərdən digəri odur ki, ictimai həyatın ayrı-ayrı tərəflərinin reqlamentləşdirilməsi müxtəlif cür həyata keçirilir. Totalitar sistemdə bir tərəfdən, totalitar dəyərlər sistemi yaradılır və təbliğ edilir, digər tərəfdən isə siyasi mahiyyət kəsb edən cəmiyyət üzvü formalaşdırılır. Avtoritar sistem üçün bunun əksinə olaraq xalqın siyasətdən uzaqlaşdırılması, kütlələrin siyasi cəhətdən məhdud səviyyədə məhdudlaşdırılması nəzərdə tutulur.

Partiyalar, parlament və hakimiyyətin bölünməsi sistemi avtoritar sistemdə formal xarakter daşıyır. **Avtoritar siyasi sistem totalitarizmdə mövcud olmayan tayfaçılığa** ciddi üstünlük verilir (bəzi postsovet respublikalarında olduğu kimi).

Totalitar və avtoritar siyasi sistemlərdə tətbiq edilən cəzalar da müxtəlifdir. Totalitar sistem öz əleyhidarlarına qarşı sistemli terror üsullarına əl atdığı halda, avtoritar sistemdə seçmə terrora üstünlük verilir. Belə ki, mövcud siyasi quruluşa qarşı çıxanlara gizli fəaliyyət göstərən polis terror tətbiq edir, **"təhlükəli görünən"** ayrı-ayrı şəxslər seçmə terrorun qurbanı olur.

Avtoritar siyasi sistem özünəməxsus yaxşı cəhətlərə də malikdir. Bu ilk öncə, ekstremal şəraitdə nəzərə çarpır. Avtoritar hakimiyyət siyasi sabitliyi saxlamaq və möhkəmləndirmək naminə, ictimai qaydaları gözləmək məqsədilə yüksək qabiliyyətə malikdir, siyasi əleyhdarlarının müqavimətini qırmağa qadirdir. Bu kimi cəhətlər köklü ictimai islahatlar aparılması üçün yetərlidir. Lakin avtoritarizmin "demokratik ruhu" uzunömürlü deyildir.

Müasir dünyanın nəzərə çarpan mühüm inkişaf meyl-

lərindən biri məhz hakimiyyətin demokratikliyinin intensiv səviyyədə güclənməsidir. Demokratik rejimin yeni ölkələrdə yayılması məhz həmin meyli səciyyələndirir.

Müasir dövr məhz diktaturadan demokratiyaya keçilməsi ilə diqqəti cəlb edir. Müstəqillik əldə edən ölkələrin demokratik yolla inkişafının əhəmiyyətli mərhələlərindən biri Birinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Demokratiyanın digər yüksək inkişaf mərhələsi XX əsrin ortalarından etibarən, inkişaf etmiş bir sıra ölkələrdə (AFR, İtaliya, Yaponiya və s.) hüquqi dövlətlərin təşəkkülü prosesi ilə başlanır.

Demokratikləşdirməni liberallaşdırma ilə eyniləşdirmək olmaz. Liberallaşdırma bütün hallarda siyasi və vətəndaşlıq hüququ sferalarında hakimiyyətin tam və əhatəli olmayan, məhdudlaşdırılan və nəzarət edilən xarakterdə güzəştlərə getməsini səciyyələndirir. Mövcud rejim müxalifətlə müəyyən kompromislərə gedir, lakin onun hakimiyyət səlahiyyətləri əldə etməsinə yol vermir. Adətən, liberallaşdırma demokratiyaya keçiddən qabaq nəzərə çarpır.

Möhkəm demokratik quruluşun təşəkkülü haqqında o zaman böyük ehtimalla danışmaq mümkündür ki, məhz aşağıdakılar reallaşdırılsın:

- siyasi davranış formalarına siyasi əleyhdarla birlikdə əməl edilsin, belə halda siyasi əleyhdar düşməndən opponentə, başqa sözlə qərəzsiz, obyektiv mövqedən çıxış edən şəxsə çevrilir;
- demokratik təsisatlar real surətdə və səmərəli fəaliyyət göstərirlər;
- vətəndaş cəmiyyəti formalaşır;
- başlıca siyasi qüvvələr əsas dəyərlər üzrə razılığa gəlirlər;
- siyasi qruplaşmalar arasındakı münaqişələr qanunla tənzimlənir.

Mövcud politoloji ədəbiyyatda siyasi sistem nəzəriyyəsinin çoxcəhətli əhəmiyyəti ilə bağlı xeyli nöqteyi-nəzər mövcuddur. Siyasi sistem nəzəriyyəsinin praktiki aspektinə

dair ümumi təsəvvür yaradan ən mühüm fikirlər aşağıdakılardır.

Birincisi, siyasi sistem nəzəriyyəsi onun yaradıcılarının fikrincə, siyasi sistemin strukturunun təkmilləşdirilməsinə aid tövsiyələrin işlənib hazırlanmasına imkan yaratmalıdır. Bununla əlaqədar hazırda belə bir fikir təsdiqlənir ki, siyasi sistemlərin böyük effektivliyinə nail olmaq üçün, bütövlükdə onların mexanizminin inkişaf prosesinin planlaşdırılması zəruridir, onlara daim təsir göstərən bütün amillər kompleksini başa düşmək, siyasi sistemin inkişafı prosesinə müdaxilə etmək vacibdir. **L.Haas** yazır ki, bütün böyük, mürəkkəb sistemlərin müəyyən özünü uyğunlaşdırmaq qabiliyyəti heç kimdə şübhə doğurmamalıdır. Lakin nəzərə almaq lazımdır ki, böyük siyasi, sosial, iqtisadi və texniki sarsıntıların təsiri altında onlar öz yeni strukturlarını inkişaf etdirəcəkdir.

İkincisi, siyasi sistem nəzəriyyəsi onun yaradıcılarının nöqteyi-nəzərincə, siyasi sistemdə real surətdə mövcud olan dayağına (kütlələrə) arxalanmağı iqtisadi, siyasi və sosial cəhətdən daha da genişləndirməli və möhkəmləndirməlidir. Siyasi sistem nəzəriyyəsinin belə halda praktiki əhəmiyyəti qərb politoloqları tərəfindən bu cür qiymətləndirilir ki, həmin nəzəriyyə nəinki siyasi sistemlərin əksəriyyətinə xas olan tarazlıq, sabitlik və digər cəhətlərin və hadisələrin məzmununu dərindən başa düşməyə kömək edir, eləcə də cəmiyyətin və siyasi sistemin təkamülünün bu və ya digər mərhələsində onların inkişaf səviyyəsini müəyyənləşdirir.

Üçüncüsü, siyasi sistem qərb müəllifləri tərəfindən kapitalizm cəmiyyətinin siyasi sisteminin tərkib hissəsini təşkil edən dövlət orqanlarını və ictimai-siyasi təsisatları daha da öyrənmək və təkmilləşdirmək məqsədilə istifadə edilir.

Dördüncüsü, qərb politologiyası çərçivəsində siyasi sistem konsepsiyası burjua siyasi sistemindəki "sarsıntılı situasiyanı", disfunksiyanı (nizamsızlığı), siyasi və sosial "gərginliyi" müəyyənləşdirməyin ən mühüm nəzəri vasitələrindən biri kimi xidmət edir. Bununla əlaqədar olaraq siyasi sistemdə mümkün ola bilən sarsıntılı situasiya, siyasi sosial gə-

rginliyi müəyyənləşdirmək problemi və onların zəiflədilməsinin ən təsirli vasitələrinin işlənib hazırlanması, sonra isə tamamilə aradan qaldırılması müasir qərb politologiyasında və sosiologiyasında ən vacib vəzifələrdən birinə çevrildi. Heç də təsadüfi deyil ki, məşhur Amerika alimi **D.İston** və onun ardıcılları siyasi sistemin öyrənilməsi və onun nəzəriyyəsinin işlənib hazırlanması prosesində siyasi sistemin özünü mühafizəsi, "özünü yaşatması" və sabitliyin saxlanması kimi məsələlərə birinci dərəcəli əhəmiyyət vermişdir.

Beşincisi, qərb politoloqları tərəfindən siyasi sistem nəzəriyyəsi bu və ya digər ölkədə siyasi sabitliyin səviyyəsini müəyyən etmək üçün istifadə edilir.

Siyasi sistem nəzəriyyəsinin yuxarıda sadalanan praktiki xarakterli təzahürü və rolu ilə yanaşı, qərb politologiyasında onun təzahürünün digər formaları da mövcuddur. Bütün bunlar müxtəlifliyinə baxmayaraq, siyasi sistem nəzəriyyəsinin nəinki elmi-nəzəri və eləcə də siyasi-praktiki, tətbiqi əhəmiyyət kəsb etdiyini sübuta yetirir.

II FƏSİL
SİYASİ REJİMLƏR

1. Siyasi rejimin mahiyyəti və təsnifatı

Siyasi rejim cəmiyyətin siyasi həyatının şəraitini ifadə edir, bu və ya digər ölkənin konkret tarixi inkişaf mərhələsinin müəyyən mühitidir. Müxtəlif mənafelərin inteqrasiyası, onların hakimiyyət strukturlarında ifadəsi, siyasətin qarşılıqlı sosial fəaliyyətinin tənzimlənməsi siyasi rejimin vasitəsilə həyata keçirilir. Rejim məvhumu latın dilində **reqimen** sözündən əmələ gəlib və idarəetmə mənasını ifadə edir. Siyasi münasibətlərin vəziyyəti və xarakteri hakimiyyətin konkret tipini, cəmiyyətin siyasi sisteminin funksional parametrini müəyyənləşdirir və öz ifadəsini "siyasi rejim" elmi kateqoriyasında tapır. **Siyasi rejim** cəmiyyətdə hakimiyyətin həyata keçirilməsinin üsul və metodlarının məc-

muudur. Daha ümumi formada o özündə konkret tarixi şəraitdə cəmiyyət daxilində siyasi qüvvələrin nisbətinin nəticəsi olan siyasi azadlığın vəziyyətini əks etdirir. Polşa sosioloqu **E.Vyatrun** iddia etdiyi kimi, siyasi rejim praktikada konstitusiya qaydaları sisteminin nəticəsidir və ya "Konstitusiyalı və siyasi reallığın özünəməxsus uyğunlaşdırılmasıdır"[1].

Bu fikirdən belə qənaətə gəlmək olar ki, Konstitusiyada təsbit edilən qaydalar həmişə onların siyasi həyatda konkret təcəssümünə uyğun gəlməyə bilər. Siyasi rejim hər hansı ölkədə siyasi hakimiyyətin real mənzərəsini əks etdirir.

Siyasi rejim müəyyən dövlət tipi üçün səciyyəvi olan siyasi münasibətlərin, dövlət hakimiyyətində və cəmiyyətdə təşəkkül tapan münasibətlərin, ideologiyanın hakim formasının, siyasi mədəniyyətin vəziyyətinin məcmuudur[2]. Siyasi məqsədlər sistemi, ümumi doktrina, eləcə də cəmiyyətin və dövlətin inkişafının forma və üsulları siyasi rejimin xarakterindən asılıdır.

Siyasi rejim cəmiyyətin siyasi sisteminin fəaliyyətinin konkret mexanizmidir. Onun mahiyyətinin üzə çıxarılması vasitəsilə siyasi sistemin xarakterini və tipini daha dəqiq qiymətləndirmək mümkündür.

Hakimiyyət rejimlərinin təsnifatına ilk cəhd antik müəlliflər tərəfindən edilmişdir. Belə ki, **Platon** dövlət idarəçiliyinin aşağıdakı tiplərini fərqləndirmişdir: aristokratiya (yaxşıların hakimiyyəti), timokratiya (şöhrətpərəstlərin hakimiyyəti), oliqarxiya (çoxlarının hakimiyyəti), demokratiiya (hamının hakimiyyəti) və tiraniya (zorakı hakimiyyət). O, bütün bu idarəetmə tiplərini tənqid edərək göstərmişdir ki, təkamül gedişində demokratiyadan sonra hökmən tiraniya gəlir.

Aristotel dövlət idarəçiliyinin altı formasını qeyd etmiş və onları müsbət və mənfi xüsusiyyətlərə malik cütlüyə ayırmışdır: monarxiya-tiraniya; aristokratiya-oliqarxiya; poli-

---

[1] Вятр Е. Типология политических режимов. Таллин, 1991, т. 1. С. 55-56

[2] Политология: Энциклопедический словарь, М., 1993, с. 296

tiya-demokratiya. O, bu cütlüyün ilk hissəsini müsbət, ikinci hissəsini isə mənfi idarəetmə tipi hesab etmişdir. **Aristotel** aristokratiyanı arzu olunan dövlət quruluşu hesab etmişdir.

Hakimiyyət və idarəetmə tiplərinin təsnifatı və təhlili siyasi fikir tarixinin digər görkəmli nümayəndələri tərəfindən də nəzərə çatdırılmışdır. **N.Makiavelli, F.Bekon, T.Hobbs, B.Spinoza, Ş.Monteske** və başqaları siyasi rejimin mahiyyətini və onu doğuran səbəb və şəraiti müəyyənləşdirmək üçün müxtəlif meyarlardan istifadə etmişlər. Onların görüşlərinin müqayisəsi müasir siyasi rejimlərin müqayisəli təhlili üçün dəyərlidir.

Siyasi təlim və nəzəriyyələrdə siyasi rejimlərin mahiyyəti və fərqləndirici xüsusiyyətləri müxtəlif nöqteyi-nəzərdən araşdırılır. Belə ki, marksist konsepsiya siyasi rejimlərin müqayisəli təhlilini istehsal sistemi ilə əlaqələndirir. Müasir Qərb politoloji ədəbiyyatında isə həmin məsələ digər mövqedən izah olunur. Məsələn, fransız sosioloqu və politoloqu **M.Dyuverje** qeyd edir ki, siyasi rejimləri fərqləndirən cəhətlər hər şeydən əvvəl, tarixi inkişafın və mədəniyyət sferasındakı tərəqqinin nəticəsidir. Belə bir cəhəti unutmaq olmaz ki, ictimai inkişafın bu və ya digər mərhələsində siyasi rejimlərin təsnifatı həmin mərhələnin konkret reallığı ilə şərtlənir[1].

Hazırda "siyasi rejim" anlayışı ilə bağlı iki nöqteyi-nəzər mövcuddur. Onlardan biri siyasi-hüquqi və ya təsisatlı mövqe ilə bağlıdır, digəri sosioloji metodla əlaqədardır. Həmin nöqteyi-nəzərlər bir-birindən xeyli fərqlənir.

Birinci nöqteyi-nəzəri, siyasi təhlilin təsisatlı istiqamətini təmsil edən alimlər "rejim" anlayışını idarə etmə və ya dövlət quruluşu ilə eyniləşdirməyə meyl edirlər. Məsələn, Amerika tədqiqatçısı **K.Bekster** yazır ki, siyasi rejim idarəetmə sistemi və ya formasıdır. Məsələnin belə qoyuluşu eləcə də fransız dövlətşünaslığı üçün səciyyəvidir, həmin dövlətşünaslıqda monarxiya və respublika başlıca olaraq

[1] Məcid Əfəndiyev. Siyasi elmin əsasları. S. 386

idarəetmə forması kimi izah edilir, "siyasi rejim" termini isə Konstitusiya hüququnun kateqoriyalar aparatının bir hissəsi hesab olunur və dövlət hakimiyyətinin bölünməsi və nisbəti xüsusiyyətinə aid edilir. Buna müvafiq olaraq hakimiyyətin birləşdirilməsi rejimi (mütləq monarxiya), hakimiyyətin bölünməsi rejimi (prezident respublikası) və əməkdaşlıq respublikası rejimi (parlament respublikası) fərqləndirilir. Lakin tədricən rejim anlayışı müstəqil "vətəndaşlıq" hüququ əldə etdi. Artıq 1968-ci ildə məşhur fransız alimi **M.Dyuverje** qeyd etdi ki, fransız politoloqları tərəfindən belə təsnifat ikinci dərəcəli hesab olunur və onlar burada məhz "hökumət strukturları tipinin" təsnifatını nəzərdən keçirirlər. Siyasi təhlilin belə aspektilə Amerika politoloqu **Q.Lassuellin** qeyri-təsisatlı mahiyyət daşıyan mövqeyi də yaxınlıq təşkil edir. **Lassuellin** rejimi başa düşməsi xüsusiyyəti onunla əlaqədardır ki, o, rejimi siyasi sistemin nizama salınması, legitimləşməsi üsulu kimi nəzərə çatdırır. Bu alimin fikrincə, rejim ("idarəetmə forması", "siyasi qayda") siyasi formaların nümunəsi kimi səciyyələnir. Rejim ona görə fəaliyyət göstərir ki, siyasi prosesdə məcburetmə elementini minimuma endirsin. **Lassuell** rejimlə "idarəetməni bir-birinə qarşı qoyur və iddia edir ki, rejim özündə "siyasətdəki nəzarət funksiyalarının bölüşdürülməsini və reallaşdırılmasını" birləşdirir. Rejimin belə başa düşülməsi onu başlıca olaraq, konstitusiyalı fəaliyyətlə əlaqələndirir və hərbi diktaturanın rejim adlandırılmasını inkar edir.

İkinci nöqteyi-nəzərə uyğun olaraq, cəmiyyət və dövlət arasında elə əlaqələrə birinci dərəcəli əhəmiyyət verilir ki, o, real surətdə təşəkkül tapmışdır. Belə halda rejim yalnız hakimiyyətin (dövlət quruluşunun) "forması" və hətta ancaq strukturu kimi deyil (ona xas olan siyasi iradənin reallaşdırılması metodları ilə), eləcə də daha geniş əhəmiyyət kəsb edən aspektdə, başqa sözlə, qarşılıqlı sosial və siyasi münasibətlərdə uyğunluğa malik olan anlayış kimi nəzərdən keçirilir. Beləliklə, siyasi təhlilin birinci istiqaməti rejimi əgər idarəetmə formaları və dövlət quruluşu ilə eyniləşdirirsə,

ikinci istiqamətinin nümayəndələri siyasi rejimi və siyasi sistemi az məhdudlaşdırırlar. Hər bir rejim müəyyən sosial əsaslar sistemi ilə şərtlənir. Cəmiyyətin siyasi sisteminin mahiyyəti siyasi rejimin məqsədlərinə tabedir.

Siyasi elmdə siyasi rejimin səciyyəvi anlayışını ilk müəyyənləşdirənlərdən biri **M.Dyüverje** olmuşdur. O, siyasi rejimi bir tərəfdən "idarəetmə strukturu, bir sosial birliyi digərindən fərqləndirən insan cəmiyyəti tipi kimi", digər tərəfdən "partiya sistemlərinin müəyyən uyğunlaşdırılması", qəbul edilən qərarların birinə və ya bir neçə tipinə səsvermə üsulu, təzyiq qruplarının bir və ya bir neçə strukturu kimi" izah edir. Digər müasir fransız politoloqu **J.Ł.Kermon M.Dyüverjenin** müddəasını belə dəqiqləşdirir: "Siyasi rejim dedikdə müəyyən dövrdə mövcud ölkənin siyasi hakimiyyətinin formalaşmasına imkan yaradan ideoloji, təsisatlı və sosioloji qayda elementlərinin məcmuu başa düşülür"[1]. Rejim hüquqi mexanizmlərin məcmuundan və ya hətta idarə edən siniflərin cəhdlərindən daha mürəkkəb məvhumdur.

Siyasi rejimə aid bu təsəvvür Avropa siyasi elmində hamı tərəfindən qəbul edilmişdir.

Yuxarıda yürüdülən mülahizələr əsasında siyasi rejimin aşağıdakı əlamətlərini nəzərə çatdırmaq məqsədəuyğundur.

Birincisi, rejim sosial və siyasi sabitlik məsələsini həll etməklə irimiqyaslı, makro sosial proseslərin təşkilinə imkan yaradır. Bu mənada o siyasi sistemin məzmununun dinamikasını açıqlamaqla, ona yaxın olduğunu əks etdirir. Hər bir rejim öz fəaliyyətində təşəkkül tapan iqtisadi mənafelər və mədəni dəyərlər sisteminə əsaslanmağa cəhd edir. Buna görə hər bir rejim dövlət və vətəndaş cəmiyyəti arasında təşəkkül tapan qarşılıqlı münasibətlər problemini həll etməyə məhkumdur. Axı, rejimin xarakteristikasında başlıca tip və xüsusiyyət kimi təzahür edən hökumət və müxalifət partiyaları məhz vətəndaş cəmiyyətinin strukturlarına

[1] Политология. Под ред. Б.И.Кремова. М., 2002, с. 233

əsaslanır.

İkincisi, siyasi rejim siyasi sistemin elementlərinin, strukturunun qarşılıqlı fəaliyyətini qaydaya salmaqla, onların uyğunlaşdırılmasını və əlaqələndirilməsini təmin etməklə siyasi sistemin nəinki dinamikasını, eləcə də sabitliyini həyata keçirir.

Üçüncüsü, siyasi rejim idarə edənlərin öz səlahiyyətlərini həyata keçirməsinə imkan yaradan hakimiyyət strukturlarının məcmuunu səciyyələndirir. Bəzi hallarda çoxpartiyalılıq təsisatı mövcud ola bilər, digər hallarda ictimai mənafeləri uyğunlaşdırmadan başqa mexanizm və strukturlar vasitəsilə rejim tərəfindən siyasi qərarlar qəbul olunur və həyata keçirilir. Buna görə hakimiyətin strukturunu hakimiyyətin həyata keçirilməsinin formal-hüquqi mexanizmi ilə eyniləşdirmək olmaz.

Dördüncüsü, hər bir rejim öz fəaliyyətində məqsədlərinə çatmaq üçün müxtəlif metodlara müraciət edir. Rejimlər öz məqsədlərinə çatmaq üçün istifadə etdikləri metodlardan asılı olaraq bir-birindən fərqlənirlər və öz aralarında hakimiyyətin həyata keçirilməsi metodlarını və öz hakimiyyət strukturlarını qarışdırmamalıdır, çünki rejim yalnız spesifik hakimiyyət strukturlarına deyil (bunlara siyasi sistemlər də malikdirlər), eləcə də onun reallaşdırılmasının xüsusi metodlarına malikdir.

Beşincisi, siyasi rejim siyasi sistemlə müqayisədə özünə xas olan xüsusi müvəqqəti xüsusiyyətlərə malikdir. Bu cəhəti Amerika politoloqları **C.Barn, M.Karter və M.Ckidmer** belə izah edir: "Rejim siyasi sistem çərçivəsində həyata keçirilən siyasi hakimiyyətin fəaliyyətinin spesifik mərhələsidir". Buradan belə qənaətə gəlmək olar ki, bu və ya digər sistem rejim çərçivəsində fəaliyyət göstərə bilər.

Yuxarıda yürüdülən mülahizələri ümumiləşdirərək, siyasi rejimə belə bir tərif vermək olar: **Siyasi rejim** cəmiyyətin ümumi çərçivələrində (struktur və müvəqqəti xarakterli çərçivədə) fəaliyyət göstərən hakimiyyətin müəyyən strukturlarının məcmuu olmaqla, onun sabitliyini qarşısına məq-

səd qoyur və bunun üçün təşəkkül tapan sosial mənafelərə və spesifik metodlara əsaslanır. **Bir sözlə, siyasi rejim siyasi hakimiyyətin həyata keçirilməsi metodlarının, üsullarının, vasitələrinin məcmuudur.**

Siyasi rejimin xarakteri əsasən, dörd mühüm əlamətdən asılı olaraq müəyyənləşdirilir: partiyaların sayı; açıq müxalifətin mövcudluğu; vətəndaşların siyasi azadlığının səviyyəsi; azad seçkilərin mövcudluğu.

Siyasi rejimlərin təsnifatının köklü meyarı kimi bu və ya digər meyllərin üstünlüyü çıxış edir:

- siyasi sistemin başlıca elementlərinin qarşılıqlı əlaqəsi;
- vətəndaş cəmiyyəti və dövlət arasındakı ziddiyyətlər, onların nisbəti;
- dövlət hakimiyyətinin həyata keçirilməsi mexanizmi.

"Siyasi rejim" anlayışından istifadə etməklə, cəmiyyətdə siyasi idarəetmənin hansı metodlarla həyata keçirilməsini bilmək olar.

2. Demokratik siyasi rejim

Demokratiya, demokratiklik hakimiyyətin hakim formalarının və metodlarının fərqləndirilməsinin ən mühüm meyarıdır. Buna görə "demokratiya" politologiyanın başlıca anlayışlarından biri hesab olunur.

Demokratiya anlayışı siyasi nəzəriyyədə və praktikada müxtəlif cür və çoxaspektli istifadə olunur. O, xüsusilə hakimiyyətin forması kimi dövlət quruluşunu səciyyələndirmək üçün, eləcə də hər cür təşkilatın (partiya, həmkarlar ittifaqı və s.) forması, vətəndaşların və ictimai qrupların hakimiyyətin həyata keçirilməsində iştirakının ölçüsü, vətəndaşların hüquq və azadlığının sinonimi, siyasi dünyagörüş və ictimai hərəkat ("demokratlar"), nəhayət, sosial-siyasi və mənəvi dəyər kimi işlədilir. Belə halda demokratiya hakimiyyətin təşkili və həyata keçirilməsinin xüsusi üsulu kimi başa düşülür. Demokratik siyasi rejim xalqın hakimiyyətin mənbəyi kimi tanınması ilə bağlıdır və vətəndaşların siyasi həyatda geniş iştirakı və onların siyasi hüquq və azadlıqla-

rının praktiki reallaşması vasitəsilə, hakimiyyət strukturlarının formalaşması prosesini təmin etməlidir. Beləliklə, **demokratik siyasi rejim xalq hakimiyyətini, başqa sözlə bütün hakimiyyətin xalqa verilməsini, onun siyasi təsisatlara nəzarəti vasitəsilə cəmiyyətin və dövlətin real idarə olunması imkanlarını nəzərdə tutur.**

Praktiki həyatda əsil, "xalis" demokratiya (xalq hakimiyyəti) hər şeydən əvvəl, real gerçəkliyin nəzəri modeli, nümunəsi kimi çıxış edir. Demokratiya idealı bu və ya digər dərəcədə xoşbəxt gələcəyi arzulayan xeyli mütəfəkkirin əsərlərində öz əksini tapmışdır. Cəmiyyətin demokratik təşkili haqqında nəzəri təsəvvürlər **Aristotel, N.Makiavelli, T.Hobbs, C.Lokk, Ş.Monteske, J.J.Russo, T.Cefferson, A. De Tokvil** və digər mütəfəkkirlərin əsərlərində aydın şəkildə ifadə olunmuşdur. Demokratiyanın tarixi ənənələri liberalizmin banisi **C.Lokkun** yaradıcılığında daha sox nəzərə çarpır, müasir demokratiyanın başlanğıcı **Russonun** adı ilə bağlıdır, hakimiyyətin bölünməsi ideyasının əsil demokratik mahiyyətinə aid ideya **Ş.Monteskeyə** məxsusdur, eləcə də ABŞ-ın müstəqilliyi bəyannaməsinin müəllifi **T.Ceffersonla** bağlıdır.

Xalq hakimiyyəti probleminin nəzəri cəhətdən mənalandırılmasında demokratiyaya aid marksist konsepsiya mühüm əhəmiyyətə malikdir. Bu konsepsiyaya görə, demokratiya son nəticədə cəmiyyətdə hakim olan istehsal münasibətləri ilə qərarlaşan dövlət – siyasi təşkil formasıdır, hakimiyyət formasıdır. O, sinfi xarakter daşıyır, istismarçı cəmiyyətdə isə formal, məhdud xarakterə malikdir, hakim siniflərin diktaturasının xüsusi formasıdır. Marksizmə görə, sosializm uğrunda inqilabi mübarizənin məqsədlərindən biri formal demokratiyanın aradan qaldırılmasına nail olmaqdan və əsil xalq hakimiyyətinin təşkilindən ibarətdir.

Siyasi elmdə demokratiyaya aid **M.Veberin plebisit demokratiya konsepsiyası** xüsusi yer tutur (qədim Romada qara camaat, sadə xalq plebis adlanırdı). Alman alimi öz əsərlərində müasiri olduğu cəmiyyəti bürokratik tipli çə-

miyyət kimi səciyyələndirmişdir və demokratiyanı bürokratik aparatın fəaliyyəti üzərində təsirli nəzarət mexanizminin işlənib hazırlanması mənada (siyasi elitanın seçilməsi texnikası kimi) şərh etmişdir. **Veberin** fikrincə, parlament demokratiyasının rolu siyasi liderin seçilməsindən və bürokratiya üzərində nəzarətdən ibarətdir, bürokratiyanın hakimiyyətini məhdudlaşdırmaq üçün siyasi lider plebis, başqa sözlə ümumisəsvermə yolu ilə seçilməlidir.

Müasir qərb politologiyasında plüralist demokratiya konsepsiyası **(R.Dal, D.Rismen)**, elitar demokratiya nəzəriyyəsi **(İ.Domxoff, T.Day, Q.Sayqler)** və parsipator demokratiya **(D.Makferson və b.)** nəzəriyyəsi daha geniş yayılmışdır. Demokratiya konsepsiyalarında ifadə olunan bəzi nəzəri müddəalar bir sıra hallarda praktikada təsdiqlənmişdir.

Demokratik hakimiyyət sistemi özündə iki mühüm komponenti birləşdirir: 1. Siyasi hökmranlığın və rəhbərliyin demokratik forma və metodlarını, 2. Qəbul edilən qərarlara təsir göstərmək yolu ilə vətəndaşların siyasətdə real iştirakı imkanlarını. Buna görə, demokratik rejimin fəaliyyəti üçün siyasi həyatın praktikasında başlıca demokratik prinsiplərin reallaşması xüsusi əhəmiyyət kəsb edir.

R.Dal qeyd edir ki, demokratiyanın formalaşması və fəaliyyətinin **başlıca prinsipi** hakimiyyətin qəsb edilməsi vasitəsilə onun bir əldə mərkəzləşməsinə yol verməməkdən ibarətdir. Buna görə, demokratik rejimin qeyri-demokratik rejimlərdən başlıca fərqi ondan ibarətdir ki, hakimiyət strukturlarının və münasibətlərinin demokratik təşkilində onun səlahiyyətlərinin müəyyən hissəsinin yerli orqanlara verilməsi, hakimiyyətin müxtəlif qollara (qanunverici, icraedici və məhkəmə) ayrılması həyata keçirilir. Hakimiyyətin bu qolları müstəqildir, biri digərindən asılı deyildir, özlərinə xas olan funksiyaları icra edirlər.

Hakimiyyətin həyata keçirilməsinin **digər demokratik** prinsipi bunlardır: siyasi plüralizm (çoxpartiyalılıq, siyasi fəallığın və şəxsi fəaliyyətin təzahürünün müxtəlifliyi), vətəndaşların mənafelərinin ifadəsinin birbaşa və nümayəndəli

formaları, azadlıq və məsuliyyətin qarşılıqlı əlaqəsi, çoxluğun mənafeyinin və azlığın hüququnun öz mövqeyində təmin olunması, qanunun aliliyi, aşkarlıq, seçilmiş nümayəndələrin geri çağırılması hüququ və digərləri. Demokratik hakimiyyət sistemlərində **demokratik prosedurlar** böyük əhəmiyyətə malikdir. Hakimiyyət təsisatlarının formalaşması, onların fəaliyyətinin və qərarların qəbul olunmasının demokratik proseduraları (rəsmi qaydaları) demokratik prinsiplərin gözlənilməsindən az əhəmiyyət kəsb etmir. Məsələn, **E.Vyatr** demokratik rejimi səciyyələndirərək onun üç ən mühüm əlamətini qeyd edir: müntəzəm yarış seçkiləri; xalqın iradəsinin nəticələri sayəsində hökumətin əvəz olunması; şəxsiyyətin və azlığın hüququnun qorunması.

Demokratik rejimi səciyyələndirən daha mühüm proseduralar arasında aşağıdakıların fərqləndirilməsi zəruridir.

- seçkilər – düzgün, yarışqan, azad, müntəzəm;
- səsvermə – birbaşa, bərabər, gizli;
- referendum – məsələnin səliqəli, nəzakətli şəkildə qoyuluşu referendumun keçirilməsində xüsusi əhəmiyyət kəsb edir;
- nümayəndə göndərmək səlahiyyəti;
- ictimai rəyin öyrənilməsi və nəzərə alınması;
- əhəmiyyətli ictimai məsələlərin ümumxalq müzakirəsi;
- xalqı hakimiyyətin mənbəyi kimi təsdiqləmək;
- mərkəzdə və yerlərdə seçkili dövlət orqanlarının mövcudluğu;
- hakim partiya ilə yanaşı, müxalifət partiyalarının leqal mövcudluğu;
- vətəndaşların siyasi və digər hüquq və azadlıqlarının rəsmi cəhətdən elan olunması və faktiki istifadə edilməsi və onların ictimai təşkilatlar yaratmasının rəsmiləşdirilməsi;
- bütün vətəndaşların qanun qarşısında bərabərliyi.

Demokratik inkişafın müasir nəzəriyyəsində və praktikasında demokratik rejimlərin iki başlıca tipi fərqləndirilir: elitar-demokratik və sosial demokratiya rejimləri.

Elitar-demokratik siyasi rejim başlıca olaraq rəsmi-hü-

quqi başlanğıca, məhz hökmranlığın demokratik təsisatlarına və prosedurlarına əsaslanır. Burada vətəndaşların hakimiyyətin demokratik təsisatlarına, hakimiyyət sisteminə təsiri məhdudlaşır. Vətəndaşların geniş kütləsi siyasi qərarların qəbulu prosesinə təsir etməkdən kənarlaşdırılır, onlar siyasi proseslərə və dövlətin siyasətinə real təsir etmək vəziyyətində deyildir. Siyasi rejimin bu tipi üçün səciyyəvi olan siyasi plüralizm hər şeydən əvvəl, siyasi elitaların rəqabətinə və daha nüfuzlu partiyaların yarışmasına aid edilir.

Hakimiyyətin elitar-demokratik sistemi şəraitində elitar siyasi qüvvələrin rəqabəti real ictimai münasibətlərin kiçik dairəsinə toxunur, onların prinsipial məsələlərə dair birliyi və razılığı xüsusi xarakterli fikir ayrılığında üstünlük təşkil edir. Siyasi elitaya daxil olan daha nüfuzlu qruplar müəyyən oyun qaydaları çərçivəsində hərəkət edərək, digər sosial-siyasi qüvvələrin siyasi qərarlarının qəbul edilməsinə yol verməməklə, növbə ilə ən əhəmiyyətli dövlət funksiyalarını həyata keçirə bilərlər. Bəzən söhbət bu və ya digər siyasi elita daxilindəki qruplar haqqında deyil, məhz rəqabətdə olan siyasi elitalar barədə gedə bilər, bu isə işin mahiyyətin dəyişmir.

Hakimiyyətin belə sistemində vətəndaşlar siyasi makroproseslərə təsir göstərə bilmir. Geniş ictimai təşəbbüslər və sıravi vətəndaşların siyasi fəallığı ümumdövlət problemlərində yox, yerli əhəmiyyətli məsələlərdə mərkəzləşir və özünüidarə və özfəaliyyət formalarının inkişafında təzahür edir.

Elitar – demokratik siyasi rejimin kifayət qədər effektli fəaliyyətinə ABŞ nümunə ola bilir. Belə sistemin xüsusiyyətləri hələ XIX əsrin birinci yarısında fransız nəzəriyyəçisi **Aleksis de Tokvil** tərəfindən (1805-1859) dərindən tədqiq edilmiş və öz ifadəsini onun "Amerikada demokratiya" kitabında ifadə olunmuşdur.

Sosial demokratiya rejimi vətəndaşların ictimai işlərdə formal iştirakını, ayrı-ayrı partiyaların və qüvvələrin hakimiyyətin resurslarını və qərarları qəbul etməsi prosesini sərt inhisara almaması şərtilə, ən müxtəlif sosial qrupların və tə-

bəqələrin mənafelərinin geniş uyğunlaşdırılmasını nəzərdə tutur.

Belə siyasi rejimin fəaliyyəti sosial-siyasi mənafelərin çoxluğuna, əsas imkanların bütün vətəndaşlara və ictimai qruplara bərabər verilməsi zərurətinə, həmçinin, resursların ədalətli bölüşdürülməsi yolu ilə "autsayderlərin" müdafiəsinə əsaslanır. Müxtəlif ictimai-siyasi qüvvələrin kompromisi və konsensusu sosial demokratiyanın inteqrativ başlanğıcı kimi çıxış edir və müxtəlif qrup halında və partikulyar mənafelərin ümumi siyasi vasitələrdən və parlament texnikasından istifadə etməklə uyğunlaşdırılmasına əsaslanır. Sosial demokratiya rejiminin siyasi sistemi "açıq" xarakter daşıyır, qanun çərçivəsində fəaliyyət göstərən hər bir sosial-siyasi qüvvə isə siyasi qərarların qəbul olunması prosesinə təsir göstərmək və real müstəqil fəaliyyət hüququna malikdir. Sosial demokratiyanın xeyli ideyası və prinsipi Avropanın Lanimarka, Finlandiya, İsveç və bəzi digər ölkələrində reallaşır. Hazırda bir sıra Şərqi Avropa dövlətlərinin və keçmiş SSRİ-nin tərkibinə daxil olan və indi müstəqillik əldə edən respublikaların siyasi liderləri sosial demokratiya cəmiyyəti yaratmağa cəhd etdiklərini bildirirlər. Obrazlı desək, əsil demokratik dövlətlərin demokratiyasını "icarəyə götürməyə" səy göstərirlər.

Demokratik rejimin konkret variantlarının seçilməsi xeyli amillərdən: tarixi ənənələrin xarakterindən və tarixi təcrübədən, ölkənin maddi və mənəvi imkanlarından, siyasi qüvvələrin nisbətindən, vətəndaşların siyasi şüurunun vəziyyətindən və cəmiyyətin siyasi mədəniyyətinin tipindən, idarə edən elitanın müəyyənedici cəhdlərindən və s. asılıdır. Hakimiyyət rejiminin mahiyyətini bilmək dövlət təsisatlarının, ictimai təsisatların və onların siyasətdə rolunun təhlilinə imkan yaradır.

Qeyd etmək lazımdır ki, demokratiya özü ictimai hakimiyyətin forması kimi daxili ziddiyyətlər vasitəsilə inkişaf edir. İngiltərənin baş naziri **U.Çörçill** (1874-1965) dəfələrlə qeyd etmişdir ki, "demokratiya idarə etmənin ən pis forma-

sıdır, əgər digər formaları nəzərə almasaq o, zaman-zaman yoxlanmağa, sınanmağa məruz qalır". Bununla görkəmli siyasi xadim mövcud siyasi formanın mürəkkəbliyini, müxtəlif qrupların mənafelərinin daim uyğunlaşdırılması zərurətini, şəxsiyyətin hüquq və azadlığına təminat verilməsini qeyd etmək istəyirdi.

Xeyli ölkənin təcrübəsindən çıxış edərək qeyd etmək olar ki, demokratik mexanizm təşəkkülünün başlanğıc mərhələsində çox kövrək olduğu üçün, kifayət qədər ümumi və xüsusilə siyasi mədəniyyətə yiyələnməyən kütlələrin fəal siyasi prosesə geniş cəlb olunması, onun asanlıqla dağılmasına səbəb ola bilər. Məhz buna görə nəzəriyyə və siyasi praktika belə bir məsələnin həlli yolunu əsas götürdü ki, kim idarə edir və hakimiyyəti necə təşkil etmək lazımdır ki, hamının passiv siyasi hüquq bərabərliyini, cəmiyyətin müəyyən hissəsi üçün isə fəal siyasi hüququ təmin etmək mümkün olsun: hakimiyyətin bir mərkəzdə cəmləşməsi prinsipindən hansı üsulla xilas olmaq mümkündür, dövlətin rolunu və təsirini necə zəiflətmək lazımdır ki, hakimiyyəti dövlət mexanizminin özünün müxtəlif hissələrində, vətəndaş cəmiyyətinin ayrı-ayrı təsisatlarında yerləşdirmək mümkün olsun. Qərb cəmiyyəti bu məsələni həll edərək hüquqi, konstitusiyalı dövlət yaratmaq yolunu tutdu, başqa sözlə, qanunlar cəmiyyəti nə dərəcədə idarə edir məsələsi əsas götürüldü.

Qanunverici və icraedici hakimiyyətin təşkilindən – hakimiyyətin dəqiq bölünməsi prinsipindən və ya onun ciddi bölünməsindən imtina etməkdən asılı olaraq parlament və ya prezident respublikası təşəkkül tapır.

Parlament siyasi təşkil forması hakimiyyətin dəqiq bölünməsini nəzərdə tutmur. Xalqın çoxluğunun təmsil olunması səsvermənin vahid sistemi əsasında – parlamentə deputatların seçilməsilə formalaşır. İcraedici hakimiyyətin formalaşması birbaşa deyil, dolayı yolla həyata keçirilir: hökumətin başçısı və kabinet üzvləri parlament üzvləri tərəfindən seçilir. Beləliklə, hakimiyyətin bölünməsi hökumətin formalaşmasından sonra dolayı yolla həyata keçirilir. Par-

lamentdə əksəriyyət tərəfindən müdafiə edilən lider icraedici hakimiyyətin başçısı təyin olunur. Hökumət parlamentin onu müdafiə etməsinə əsaslanır, parlament hökumətə nəzarət edir, əgər hökumət öz funksiyalarını, vəzifələrini yerinə yetirə bilmirsə, istefaya göndərilir. Parlament idarəçiliyinin klassik nümunəsi Böyük Britaniyadır. Ölkənin daxili və xarici siyasi kursunun formalaşmasında geniş səlahiyyətlərə malik olan baş nazir böyük rol oynayır, o parlament vasitəsilə idarə edir.

Demokratik rejimin digər forması prezident idarəçiliyidir, o hələ seçkilər mərhələsində hakimiyyətin ciddi bölünməsini nəzərdə tutur. Bu idarəetmə forması qanunverici və icraedici hakimiyyətin mövcudluğunu əks etdirdiyinə görə, belə idarəçilik formasına malik ölkələrdə bir-birindən asılı olmayan elektorata malik ikili seçki sistemi mövcuddur. Prezident respublikası ümumi milli səsvermə yolu ilə, vətəndaşların parlamenti və icraedici hakimiyyətin başçısını birbaşa seçmələrinə əsaslanır. Sonra prezident hökumətin üzvlərini təyin edir, onun fəaliyyətinə nəzarəti həyata keçirir. O, bilavasitə xalq qarşısında məsuliyyət daşıyır. Səsvermənin ikili sistemi icraedici və qanunverici hakimiyyətin bərabər legitimliyini təmin edir.

Demokratiyanın prezident modelinin tipik nümunəsi ABŞ hesab olunur. Orada eyni vaxtda həm prezident və həmçinin, konqres idarə edir. Hakimiyyətin bu iki qolunun bərabər legitimliyi onların arasında münaqişə doğurur. Buna görə, ABŞ-da parlamentarizmin klassik təsisatı olmaq etibarilə, konqresin dövlət başçısını istefaya göndərmək və onun qarşısında məsuliyyət daşımasını həyata keçirmək hüququ yoxdur. Amerika sistemi hakimiyyətin qolları arasında yaranan münaqişələri həll etmək məqsədilə öz mexanizmini yaratmağa məcbur olmuşdur. Buna cəmiyyətin yetkin siyasi mədəniyyəti və yaradılan təsisatlı mexanizm imkan yaratmışdır. Hakimiyyətin qolları arasında münaqişələr yarandıqda arbitr (münsif) rolunu Konstitusiya məhkəməsi və ya Ali Məhkəmə yerinə yetirir.

Hazırda, Sovet İttifaqında və Şərqi Avropada siyasi rejimlərin dağıldığı şəraitdə rejimin bir tipindən digərinə, xüsusilə avtoritarizmdən demokratiyaya keçid problemləri politoloqların diqqət mərkəzində durur. Siyasi keçidin demokratik idarəetmə formasına hərəkət kimi müəyyənləşdirilməsi bəzi cəhətlərin öyrənilməsini nəzərdə tutur.

1. Keçidin səbəbləri. Hər bir tədqiqat demokratik keçidin səbəbləri haqqında məsələnin aydınlaşdırılması ilə başlanır. Səbəb dedikdə iqtisadi böhran, sosial mədəni ziddiyyət, hakimiyyətin yüksək dairələrində fikir ayrılığı, rejimin ideoloji legitimləşməsinin zəifləməsi və digər hallar nəzərdə tutulur. Bu amillər rejimə güclü təsir göstərir və nəticə etibarilə, onun ya könüllü, yaxud zorakı yolla əvəz olunması həll olunur.

2. Başlanğıc və başa çatma mərhələsi. Siyasi keçid fakta çevrildikdən sonra onun həddinin dəqiq formalaşdırılması zərurəti yaranır. Avtoritar rejimin hökmranlığının nə zaman və hansı mərhələdə başa çatdığını və keçid mərhələsinin başlandığı dövrü müəyyənləşdirmək zəruridir. Hər şeydən əvvəl, həmin başlanğıcın bilavasitə sübutu kimi qruplaşma halında olan müxalifət hökumətinin fəal çıxışı və hakimiyyətin yüksək dairələrində dəyişiklik (kadrların yer dəyişməsi, rejimin liderinin islahatlar həyata keçirməyi nəzərdə tutması və s.) çıxış edir. Rejim siyasi müxalifətin hüququnu bu və ya digər formada legitimləşdirərək keçid vəziyyətində fəaliyyət göstərir, eyni zamanda demokratik təsisatların təsisatlaşması baş verir. Keçid prosesinin o zaman başa çatdığını söyləmək olar ki, demokratik təsisatlar cəmiyyətdə kifayət qədər möhkəmlənir, demokratik idarəçilik normaları və mənafelərin demokratik uyğunlaşdırılması siyasi aktorların hamısı və ya əksəriyyəti tərəfindən qəbul olunur.

3. Proses və onun aralıq mərhələləri. Demokratik keçid prosesi hamar və birtərəfli deyil, mürəkkəb kompleks hadisədir. Görüş dairəsindən asılı olaraq keçidin müxtəlif mərhələləri fərqləndirilə bilər: liberallaşma, siyasi müxalifətin

enerjisinin tükənməsi; rejim və müxalifət arasındakı dialoq və rəqabətin tərkibinin müəyyənləşdirilməsi; demokratikləşmə və möhkəmlənmə.

Demokratikləşmə və demokratik təsisatların tərkibinin müəyyənləşdirilməsi müəyyən səviyyədə kütləvi siyasi enerjinin həyata keçirilməsi prosesidir.

Demokratikləşmənin liberallaşmadan prinsipial fərqi bundan ibarətdir ki, kütləvi sosial təbəqələrə siyasi fəaliyyətdə iştirak üçün nə dərəcədə imkanlar yaradılır. Buna görə, demokratik təsisatların təsisatlaşması – rəqabətli partiya sisteminin formalaşması, yeni seçki qanununun qəbul olunması, konstitusiyanın işlənib hazırlanması və qəbulu, milli-dövlət təşkili məsələsinin həlli, icraedici, qanunverici və məhkəmə hakimiyyətinin düzgün bölünməsinin həyata keçirilməsi o mənada nəzərdən keçirilməlidir ki, bunlar kütləvi siyasi iştirakçılığa nə dərəcədə təsir göstərir.

Demokratik keçid prosesi o zaman möhkəmlənmə mərhələsi əldə edir ki, artıq başlıca demokratik təsisatlar bərqərar olur, azad seçkilər və hökumətin hüquqi səlahiyyəti ictimai inamın miqyası ilə müəyyən olunur.

4. Keçidin üsulları. Rejimin və müxalifətin seçdiyi demokratikləşmə strategiyasından asılı olaraq, siyasi keçidin müxtəlif üsulları fərqləndirilir. Şübhəsiz, Macarıstanda və Polşada demokratiyaya keçid Rumıniya və Albaniya ilə müqayisədə prinsipial surətdə fərqlənir. Baltik ölkələrində keçid Qazaxıstan və Qırğızıstandan fərqli olaraq prinsipial özünəməxsusluğa malikdir. Keçid dinc və zorakılıqla, təkamül və inqilab yolu ilə də baş verə bilər.

5. Demokratik keçidin xarici amilləri. Xarici amil daxili styasi transformasiyada müstəqil rol oynamağa qadirdir. Cəmiyyətin müxtəlif inkişaf mərhələlərində həmin rol ideyaya, beynəlxalq təşkilata və ya beynəlxalq-iqtisadi əlaqələr sisteminə məxsus ola bilər.

Rejimin demokratikləşməsi prosesinə münasibətdə xarici amil onun inkişafına imkan yaradar və ya mane ola bilər. Başqa sözlə, belə təsir pozitiv və ya neqativ xarakterdə

nəzərə çarpar. Demokratik prosesə xarici təsiretmənin zorakı formaları da mövcuddur. Bunlardan nəzarət, şərtləndirmə və demokratik rejimi çökdürmək məqsədilə hərbi işğalçılıq amillərini göstərmək olar. Əlbəttə, zorakı yolla təsiretmə forması heç də həmişə effektli olmur.

3. Totalitar və avtoritar siyasi rejimlərin fərqləndirici xüsusiyyətləri

Siyasi rejimlərin mahiyyətinin başa düşülməsinə prinsipial yanaşmanın aydınlaşdırılmasından sonra siyasi rejimlərin daha ümumi tiplərinin təhlili zəruridir. Bu mənada demokratik siyasi rejimin mahiyyətini və fərqləndirici xüsusiyyətlərini nəzərə çatdırdıq. İndi isə hər şeydən əvvəl, antidemokratik rejimlərin – totalitarizmin və avtoritarizmin təhlilinə keçmək məqsədəuyğundur. **Totalitarizm** antidemokratik rejimin (avtoritarizm, hərbi diktatura, istibdad idarəçiliyi və s. ilə yanaşı) növlərindən biridir. Bu rejim dövlət tərəfindən cəmiyyətin və hər bir insanın həyat fəaliyyətinin bütün sferalarının tam (total) qaydada sərt nizama salınması və zorakı vasitələrlə onların üzərində nəzarətin həyata keçirilməsidir. Belə rejim şəraitində dövlət hakimiyyəti məhdud insanlar qrupunun və ya siyasi liderin, "rəhbərin" əlində cəmləşir və totalitarizmlə avtoritarizmin tipoloji əlaqəsini üzə çıxarır.

"Totalitarizm" termini latın dilində tam, bütövlük mənasını ifadə edir və qeyri-siyasi etimoloji baxımdan xeyli alim tərəfindən çoxdan istifadə olunur. Bu termini siyasi söz ehtiyatına **Benito Mussolini** bəxş etmişdir: hələ 1922-ci ildə faşist diktatırasının təşkilinə qədər İtaliya liberalizminin zəifliyini və ölkənin mənafeyini müdafiə edə bilməməsi ilə əlaqədar İtaliya dövlətini tənqid edərək, **Mussolini** öz çıxışlarında ölkədə "totalitar hakimiyyət" bərqərar etmək vəzifəsini qarşısına məqsəd qoymuşdu. Bu hakimiyyət 1923-cü ilin payızında təşəkkül tapdı.

Tarixçi **İ.Petersonun** fikrincə, "totalitarizm" termini

yox, məhz anlayışı ilk dəfə 1923-cü ildə siyasi lüğətə İtaliya liberalı **Covanni** tərəfindən İtaliyada faşist hakimiyyətinin yaradılması məqsədilə gətirilmişdir. Bu yeni siyasi anlayış faşist hakimiyyətini bütün digər diktaturalardan fərqləndirmək üçün işlədilmişdir.

İlk başlanğıcda "totalitarizm" anlayışının mənası faktiki olaraq, faşist tipli (hər şeydən əvvəl, İtaliyaya aid olan) totalitarizm bazasında işlənib hazırlanmış və açıqlanmışdır, artıq XX əsrin 20-ci illərinin sonunda "Tayms" adlanan ingilis qəzeti totalitarizmi nəinki faşizm və eləcə də SSRİ-də olan siyasi quruluş kimi, neqativ hadisə mənasında səciyyələndirmişdir.

Sonralar məhz həmin ruhda **Hayek** "Köləliyə doğru yol" (1944-cü il), **Hanna Lenit (Hermann)** "Totalitarizmin mənşəyi" (1954-cü il), eləcə də **K.Fridrix və Z.Bjezinski** "Totalitar diktatura və avtokratiya" (1956-cı il) adlı əsərlərində totalitarizmin mahiyyətini geniş açıqladılar. Bu kitablar çap edildikdən sonra belə hesab olundu ki, qərb politologiyasında totalitarizm nəzəriyyəsinin başlıca cəhətləri təşəkkül tapmışdır.

Totalitarizm siyasi anlayış olmaq etibarilə, bu gün faşist və kommunist tipli totalitarizmi səciyyələndirmək üçün geniş istifadə olunduğuna görə, belə bir sual meydana çıxır: bu rejimin eyni olmayan şəraitdə və ölkələrdə qərarlaşmasının səbəbləri hansılardır?

Totalitar rejim hər şeydən əvvəl, elə ölkələrdə təşəkkül tapır ki, öz inkişafı gedişində müxtəlif səbəblərə görə, obyektiv surətdə ekstremal şəraitlə və son dərəcə mürəkkəb vəzifələrlə üzləşir. Bunları həll etmək üçün bütün xalqın enerjisini və səylərini fövqəladə surətdə səfərbər etmək zəruridir. Xalq situasiyanı hiss edərək "millətin xilaskarı, öz rəhbəri uğrunda" hər şeydən keçir.

Totalitar rejimin bəzi başlıca cəhətləri bununla bağlıdır:

1. Rəhbərin (liderin) və ya qrupun müvəffəqiyyətlə başa çatdırdığı, pramidalı formaya, zirvəyə malik olan hakimiyyət strukturlarının həddən artıq mərkəzləşməsi; hakim

qrup qanunverici, icraedici və məhkəmə hakimiyyətini öz əlində cəmləşdirərək heç bir seçki orqanı qarşısında məsuliyyət daşımır.

2. Rejimin nəzarətsiz hökmranlığı hüququnu əsaslandıran ümumi, xilaskar ideologiya. Totalitar rejimdə ideologiyanın əhəmiyyəti bütün əhalinin bir məqsədə tabe edilməsi zərurəti ilə şərtlənir, məsələn, faşizmdə olduğu kimi – millətin irqçi alman dövləti ətrafında birləşməsi ideyasının yaradılması.

3. Siyasi məqsədləri formalaşdıran, onların reallaşması vasitələrini müəyyənləşdirən, kadrların seçilməsi və yerləşdirilməsini həyata keçirən hakim kütləvi, vahid partiya.

4. Harizmalı şəxsiyyət – "millətin atası" və ya "xalqın xilaskarı", onun "böyük rəhbəri".

5. Məcburetmə dövlət maşını, geniş yaılmış cəza sistemi.

6. İctimai həyatın bütün sahələrinin yüksək dərəcədə hərbləşdirilməsi, mərkəzləşdirilmiş formada idarə olunan səfərbəredici iqtisadiyyat.

7. Zorakılıqdan daim istifadə edilməsi, kütləvi terror.

8. İndiyə deyil, məhz gələcəyə oriyentasiya.

Totalitarizmin mahiyyətini araşdırarkən tədqiqatçıların əksəriyyətinin diqqət yetirdiyi başlıca ideya ilə razılaşmaq zəruridir. Bu ideya ondan ibarətdir ki, totalitar rejimdə fərdin iqtisadi azadlığının vacib şərti hesab olunan vətəndaş cəmiyyəti praktiki olaraq nəzərə çarpmır. Totalitarizmdə mülkiyyət bütövlükdə dövlətə məxsusdur və ya ona sərt nəzarət edilir, bu isə inhisarçı hakimiyyəti doğurur, istər-istəməz siyasətin və hakimiyyətin vasitələri bir yerdə birləşir və dövlətin **ümumi məcburetmə hakimiyyətinə** gətirib çıxarır. Totalitar rejimin bütün digər spesifik cəhətləri məhz buradan irəli gəlir. Tarixdə çox geniş məlum olan ənənəvi istibdad rejimlərindən fərqli olaraq, totalitar sistem müəyyən müddət idarə edənlərlə idarə olunanlar arasında konsensusu saxlayan daxili birliyi ilə fərqlənir.

Totalitarizmə həsr olunmuş xeyli tədqiqat işlərində hakimiyyətin müasir kütləvi informasiya vasitələrindən isti-

fadə edilməsini inhisara alması, hakim təbəqənin faktiki olaraq məhdudlaşlırılmayan siyasi hökmranlığı, insanın əsassız, ideoloji prinsiplər bazasında "yenidən formalaşdırılması" göstərilir.

Eləcə də totalitar rejimin səciyyəvi sosial bazasına (lümpen təbəqənin xüsusi roluna), cəmiyyətin siyasi mədəniyyətinin özünəməxsus modelinə diqqət yetirilməlidir. Bu sistem çərçivəsində idarə edən rejimin hakimiyyəti nəinki vətəndaşların siyasi həyatda iştirakına mane olmur, həm də onların mövcud quruluşun "ümumi müdafiəsinə" istiqamətlənməsini stimullaşdırır.

Avtoritarizm adətən, totalitarizmlə demokratiya arasında aralıq vəziyyətə malik olan rejim tipi kimi səciyyələnir. Lakin belə xüsusiyyət, hətta totalitarizmin və demokratik rejimin hansı cəhətlərə malik olduğunu göstərdikdə belə, bütövlükdə avtoritarizmin mahiyyətli əlamətlərini açıqlamır.

Avtoritarizmin müəyyənləşdirilməsi üçün hakimiyyət və cəmiyyətin münasibətlərinin xarakteri mahiyyətli əhəmiyyət kəsb edir. Bu münasibət inamdan çox məcburetmə əsasında təşəkkül tapır. Buna baxmayaraq, həmin rejim ictimai həyatı liberallaşdırır, eləcə də dəqiq işlənib hazırlanmış rəhbər ideologiya mövcüd deyildir. Avtoritarizm siyasi təfəkkürdə, rəylərdə və hərəkətlərdə məhdud və nəzarətdə olan plüralizmə yol verir, müxalifətin mövcudluğu ilə barışır. Cəmiyyət həyatının müxtəlif sferalarına rəhbərlik bir o qədər totallıq kəsb etmir, vətəndaş cəmiyyətinin sosial iqtisadi infrastrukturu, istehsal, həmkarlar ittifaqı, təhsil müəssisələri, kütləvi təşkilatlar, kütləvi informasiya vasitələri üzərində sərt məhdudlaşdırılan nəzarət yoxdur. Lakin rejim hakimiyyət uğrunda real siyasi rəqabətə, cəmiyyət həyatının ən mühüm məsələləri üzrə qərarların qəbul olunmasında əhalinin faktiki iştirakına sərt münasibət bəsləyir.

Avtoritarizm şəraitində şəxsiyyətin hüququ, azadlığı təhrif olunur və pozulur, seçki proseduraşı saxta, zahiri xarakter daşıyır, xalq hakimiyyətdən uzaqlaşdırılır və onun

formalaşmasında və həyata keçirilməsində real surətdə iştirak etmir. İcraedici hakimiyyət bütün arzuolunmaz, terrorçu metodlarla müxalifətə divan tutmaq üçün, bilavasitə zorakılıq tətbiq etmək imkanlarını daim saxlayır.

Avtoritar rejimlər arasında teokratik rejimi, xüsusilə fərqləndirmək olar. Belə rejimdə ümumi hakimiyyət məhdud qrupun, müəyyən tayfanın əlində cəmləşir, idarəetmədə həddən artıq mərkəzləşmə həyata keçirilir (İranda **Ayətolla Xomeyninin** rejimi). Avtoritar rejimin ifrat ifadəsinə hərbi rejimlər (Çilidəki **Pinoçet** rejimi), vətəndaş diktaturaları (Ərəb Şərqi ölkələrindəki rejimlər) misal ola bilər. Həmin rejimlərdə birbaşa zorakılığa istiqamət götürülür, iqtisadiyatın hərbləşdirilməsi baş verir, kütlələrdə fanatizmə sitayiş diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, müasir şəraitdə avtoritarizmin daha kobud formalarının böhranı ilə bağlı, praktiki olaraq hərbi rejimlər nəzərə çarpmır.

Avtoritar rejimə xas olan bir sıra səciyyəvi cəhətlər aşağıdakılardır:

- hakimiyyətin (icraedici, çox vaxt isə qanunverici) liderin (dövlət başçısının, hakim partiyanın yuxarı dairələrinin, xuntanın) əlində yüksək dərəcədə mərkəzləşməsi, hakimiyyətin bölünməsi prinsipindən imtina etmək və ya onun formal qəbul olunması;
- birbaşa zorakılığın, siyasi repressiyaların (cəza tədbirlərinin) sosial-siyasi və ideoloji manipulyasiya ilə (hiyləgərliklə) əlaqələndirilməsi;
- sosial demaqoqluqdan, kompromisdən, manevr etmədən geniş istifadə olunması, məhdud və formal siyasi plüralizmə yol verilməklə, leqal müxalifətin qadağan olunması;
- hakim partiyanın milliləşdirilməsi;
- müxtəlif məcburetmə növləri vasitəsilə vətəndaşların hakimiyyətin iradəsinə sözsüz tabe edilməsi, siyasi təşəbbüslərin və hakimiyyətə zidd fikirlərin (rəylərin) susdurulması.
- avtoritar rejimin mahiyyətini öyrənərkən belə bir cəhətə diqqət yetirilməlidir ki, bu rejimdə bilavasitə siyasətlə

bağlı olmayan digər həyat sferaları üzərində birbaşa nəzarət həyata keçirilmir. **Siyasi praqmatizm** hakimiyyətin avtoritar sisteminin səciyyəvi xüsusiyyətidir. Politoloqların fikrincə, avtoritar rejim hakimiyyətin həyata keçirilməsinin kifayət qədər sabit formasıdır.

Avtoritar rejimin təsnifatına çoxcəhətli yanaşmaları və üst-üstə düşməyən nöqteyi-nəzərləri əsas götürərək, onun aşağıdakı tiplərini qeyd etmək olar: **mütləqiyyət-monarxiya, hərbi avtoritar (hərbi xunta), avtoritar-bürokratik və inqilabi-populist (geniş yayılan).**

Avtoritar rejimlərin müxtəlif hökmranlıq sistemində yerini müəyyənləşdirərkən, nəzərə almaq lazımdır ki, o, cəmiyyətin totalitarizmdən demokratiyaya keçid şəraitində hakimiyyətin həyata keçirilməsinin zəruri tipidir, eləcə də avtoritar rejimlər inqilabi dəyişikliklər dövründə və digər ekstremal şəraitlərdə, məsələn, müharibə, iqtisadi böhran, cinayətkarlıq və s. zamanı hakimiyətin həyata keçirilməsidir. Belə şəraitlərdə avtoritar hakimiyyət keçid dövrünün tələbatı kimi çıxış edir və gələcəkdə (meydana çıxan ictimai problemlərin pozitiv həlli zamanı) demokratiyaya tərəf transformasiya oluna bilər.

Tarixi təcrübə təsdiqləyir ki, avtoritar rejim bir qayda olaraq, siyasi qüvvələrin kəskin qütbləşməsi ilə müşahidə edilən ictimai quruluşların əvəz olunması zamanı baş verir. Bu zaman nəzərə çarpan uzunmüddətli iqtisadi və siyasi böhranın demokratik vasitələrlə aradan qaldırılması mümkün olmur. Tarix və müasir dövr avtoritar rejimlərə dair misallarla zəngindir. Avtoritar rejimlər xüsusilə, XX əsrin ikinci yarısında Asiya, Afrika və Latın Amerikasının müstəmləkəçilikdən xilas olan bir sıra ölkələrində təşəkkül tapdı. 1953-cü ildən sonra SSRİ-də totalitar rejimin avtoritar rejimə çevrilməsi başlanır.

XX əsr bir tərəfdən totalitarizmin yüksəlişi və dağılması, digər tərəfdən isə demokratiyanın Avropa və Şimali Amerika hüdudlarından kənarda yayılması dövrü kimi səciyyələnir. Düzdür, demokratiyanın təntənəsi barədə da-

nışmaq hələ tezdir. Çünki yer kürəsi əhalisinin yarısından çoxu avtoritarizm şəraitində yaşayır. Müqayisə üçün qeyd edək ki, yaxın keçmişdə bəzi Avropa dövlətləri avtoritar metodlarla idarə olunurdular. Portuqaliyanı (1922-1974-cü illər), İspaniyanı (1939-1976-cı illər) və Yunanıstanı (1967-1974-cü illər) xatırlamaq yerinə düşər. Praktiki olaraq bütün diktator sistemləri bəzən "üçüncü dünya ölkələri" adlandırılan "inkişaf etməkdə olan ölkələrdə" mövcuddur. Hazırkı şəraitdə həmin ölkələr arasındakı fərqlər, xüsusilə sosial-iqtisadi inkişaf səviyyəsinə görə elə həddə çatmışdır ki, "üçüncü dünya ölkələri", inkişaf etməkdə olan ölkələr" terminlərini işlətmək artıq öz elmi əhəmiyyətini azaltmışdır, bu terminləri yalnız söz xatirinə işlətmək olar.

Müasir avtoritarizmin demokratiya ilə müqayisə edilməsinə çətinlik törədən məqamlar da mövcuddur. Bununla əlaqədar düzgün olmayan təsəvvürlərin təşəkkülü bir tərəfdən, qərb demokratik nəzəriyyələrinin, digər tərəfdən isə avtoritarizmin siyasi praktikasının fərqləndirilməsi ilə şərtlənir. Bu və ya digər ölkənin nailiyyətlərini obyektiv qiymətləndirmək üçün iqtisadi və sosial inkişaf göstəricilərini, təhsilin əldə edilmiş səviyyəsini və mədəniyyət sahəsindəki uğurları, milli və ya irqi dözümlüyü, eləcə də cəmiyyət həyatının digər konkret aspektlərini öyrənmək lazımdır. Bəzi avtoritar dövlətlərin inkişaf xüsusiyyətləri ilə hətta səthi tanışlıq, belə bir cəhəti qeyd etməyə imkan yaradır ki, məsələn, Sinqapurda cinayətkarlıq Böyük Britaniyaya nisbətən on dəfə azdır, milli gəlirin artım sürəti isə qərb dövlətlərinin göstəriciləri ilə müqayisədə daha yüksəkdir. Bununla yanaşı, avtoritar siyasi rejimlərin əlverişli inkişafına dair bu kimi misallar əksəriyyət hallarda ya böyük təbii resurslar ehtiyatı (Fars körfəzi monarxiyaları) və ya əmək etikasının xüsusiyyətləri (Şərqi Asiya regionu ölkələri) ilə əlaqədardır. Avtoritar siyasi rejimin malik olduğu spesifik fövqəladə şərait, onun eləcə də irəli sürdüyü başlıca məqsədi müəyyənləşdirir. Həmin məqsədin mahiyyəti isə ölkədə qayda yaratmaqdan, cəmiyyət həyatının normal şəraitini təmin etməkdən ibarət-

dir. Avtoritar rejimin irəli sürdüyü başlıca məqsəd öz növbəsində, onun əldə olunması vasitələrini müəyyənləşdirir, eləcə də ictimai həyatın bütün sferalarının, sosial təbəqələrin hamısının imkanlarını və vəzifələrini şərtləndirir. Avtoritar rejimlərin yaranmasının konkret şəraiti nə qədər müxtəlifdirsə, onların hər biri bir o qədər fərqləndirici cəhətlər kəsb edir.

Avtoritarizmin totalitarizmdən fərqi bu rejimin məqsədlərini, tarixi vəzifələrini başa düşməklə bağlıdır. Totalitarizm bir qayda olaraq utopik ideyalarla əlaqədardır. Məsələn, "üçüncü reyx" min il yaşamağı nəzərdə tuturdu. Sovet kommunist sistemi əbədi mövcud olacağını güman edirdi.

Avtoritar rejim isə cəmiyyətin köklü, inqilabi surətdə yenidən dəyişdirilməsini qarşısına məqsəd qoymur. Onun məqsədi konkret vəzifələri həyata keçirməkdən, ölkəni çətin vəziyyətdən xilas etməkdən ibarətdir.

XX əsrin sonunda təşəkkül tapan situasiya belə bir qənaətə gəlməyə əsas verir ki, antidemokratik rejimlər tarixən öz ömrünü başa vurmuşdur və müxtəlif amillərin təsiri altında onların demokratiya tərəfə təkamülü baş verəcəkdir.

III FƏSİL
SİYASİ ŞÜUR VƏ SİYASİ İDEOLOGİYA

1. Siyasi şüur anlayışı

Siyasi şüurun məzmununun müəyyənləşdirilməsi yalnız sosial mənafelər meyarı ilə məhdudlaşmır. Siyasi şüurun öyrənilməsinin mühüm funksional istiqaməti eləcə də onun nəzəri-ideoloji formalarının tədqiq olunmasında təzahür edir. Yadda saxlamaq lazımdır ki, cəmiyyətin siyasi şüuru yekcins ola bilməz. Çünki o, bütün sosial qrupların və təbəqələrin dövlətə münasibətlərini, sosial qruplar arasındakı qarşılıqlı münasibətlər sferasını əhatə edir. Gerçəkliyin siyasi cəhətdən düzgün qiymətləndirilməsi mövcud sosial sistem-

dəki fərdlərin və qrupların konkret vəziyyətindən asılıdır[1].

Siyasi sferada hakimiyyət təsisatlarının fəaliyyət xarakteri, müxtəlif subyektlərin davranış formaları və insanın fəallığının bütün digər təzahürləri bilavasitə onun ideyaları, görüşləri, hissləri və digər mənəvi hadisələr əsasında formalaşır və inkişaf edir. "Siyasi şüur" insanın bütün hissi və nəzəri, dəyərli və normativ, rasional və şüuraltı təsəvvürlərinin məcmuunu əks etdirən ən ümumi kateqoriyadır. O, insanın siyasi strukturlarla münasibətini ifadə edir. Siyasi şüur bütün elə idealları, normaları və görüşləri əks etdirir ki, o, məhz bunlarla istiqamətlənir və onlardan hakimiyyət mexanizminə uyğunlaşmaq üçün istifadə edir. Siyasi şüur özünə xas olan funksiyaları siyasətdə yerinə yetirir.

Siyasi şüur öz məzmununa görə, ictimai həyatın siyasi sferasının bütün təsisatlı olmayan komponentlərini əks etdirir. O, belə bir cəhəti ifadə edir ki, hakimiyyət və tdarəetmə orqanlarının fəaliyyətindəki dəyişiklik, partiyalararası münasibətlərin və digər siyasi proseslərin qaydaya salınması bu və ya başqa şəkildə elitar və qeyri-elitar təbəqələrin subyektiv mövqeyi ilə şərtlənir. Hər bir sosial qrupun real vəziyyəti dövlət hakimiyyətinə münasibətdə spesifik fərqlər kəsb etdiyinə görə, hakimiyyət uğrunda mübarizədə daim siyasi mənafelərin toqquşması nəzərə çarpır. Elə bu mənada dövlət hakimiyyətinin təşkili siyasi təfəkkürün mərkəzi problemidir[2].

Müasir elmdə siyasi şüurun məzmunu ilə bağlı iki başlıca konseptual mövqe mövcuddur. Birinci mövqeyin – **bihevioryçu** yanaşmanın tərəfdarları siyasi şüuru insanın rasional təfəkkürünün forması kimi araşdırırlar, başqa sözlə elə görüşlərin və təsəvvürlərin bütün məcmuunu əsas götürürlər ki, bu, hakimiyyət sferasında insanın öz rollarının və funksiyalarının həyata keçirilməsində istifadə edilir, başqa sözlə, siyasi şüur insanın təfəkkürünü siyasətdə qaydaya salan mə-

[1] Məcid Əfəndiyev. Siyasi elm. B., 2010, s. 666

[2] Спиркин А.Г. Основы философии. М., 1988, с. 486

növi hadisə kimi səciyyələndirilir.

İkinci mövqe – **aksioloji** yanaşma isə siyasi şüuru sosial təfəkkürün müəyyən səviyyəsinə daxil edir. Bu nöqteyi-nəzərə görə, siyasi şüura eləcə də müxtəlif adi, ümumbəşəri görüşlər və insani dəyərlər aiddir, lakin siyasi şüurun mahiyyəti insanların qabiliyyəti və onların qrup mənafelərini müəyyənləşdirməsi ilə, bunları digər qrup tələbatları ilə müqayisə etməklə, həmçinin, bu mənafelərin və tələbatların reallaşdırılması üçün dövlətin istifadə etdiyi üsul və vasitələri görməklə şərtlənir.

Beləliklə, siyasi şüur elə təsəvvür səviyyəsi kimi başa düşülür ki, insanı öz siyasi iştirakçılığını optimallaşdırmağa və hakimiyyət sferasında zəruri funksiyaları yerinə yetirməyə istiqamətləndirir[1].

Aksioloji yanaşma çərçivəsində şüurun iki növü nəzərə çarpır – siyasi və potestar (**potestar** – latın dilində potestas sözündən götürülüb – **hakimiyyət** mənasını ifadə edir). Həmin iki şüur variantı müxtəlif prinsiplərə və gerçəkliyin əks etdirilməsi meyarına istiqamətlənir.

Dünya politologiyasında siyasi şüurun subyekti başlıca olaraq üç səviyyədə araşdırılır.

Birinci səviyyədə siyasi şüur aktual siyasi məzmun kəsb edən məsələlərə aid, cəmiyyətin kütləvi şüuru kimi nəzərdən keçirilir. Kütləvi siyasi şüur siyasi davranışın daha tipik və kütləvi variantını şərtləndirir.

İkinci səviyyədə siyasi şüur siyasətlə bağlı olan böyük (sosial siniflər, milli-etnik birliklər, əhalinin müxtəlif qrupları və təbəqələri) və kiçik (siyasi elita, hərbi hökumət xuntası, hakim partiyanın siyasi bürosu, təzyiq qrupu tipi olmaq etibarilə müxtəlif lobbi birlikləri və s.) qrupların ümumiləşmiş şüuru kimi şərh olunur. Belə siyasi şüur qrupların siyasi fəallığının intensivliyini, istiqamətini və məzmununu şərtləndirən təsəvvürlərin məcmuu kimi səciyyələnir.

Üçüncü səviyyədə siyasi şüur siyasəti müxtəlif cür dərk

[1] Ətraflı bax: Соловьев А.И. Политология. С. 330-331

edən, onu az və ya çox dərəcədə dəqiq qiymətləndirən və siyasi planda məqsədyönlü fəaliyyət göstərən şəxsiyyətin, siyasi fərdin xarakteri və keyfiyyəti baxımdan başa düşülür.

Siyasi şüurun formalaşması yolları mürəkkəb və ziddiyyətlidir. Belə düşünmək səhv olardı ki, o, kütlələrin şüuruna partiya və siniflərin ideoloji təsəvvürləri kimi nüfuz edir. Bu cür fikir marksistlərə aiddir. Əslində, siyasi şüurun formalaşması insanların sosial gerçəkliyi tənqidi qiymətləndirməsi, hissi təsəvvürlərinin ümumiləşdirilməsi və tədricən rasionallaşdırılması prosesində, partiya və digər siyasi hərəkatın məqsədlərinin dərk edilməsində, siyasi şüurun formalaşan dəyərləri normalarına cəlb olunmaqda, bu və ya digər siyasi idealların ədalətli olması inamına emosional qovuşmaqda həyata keçirilir. Təbii ki, qeyd etdiyimiz bu üsullardan heç biri siyasi görüşlərin formalaşmasını təmin etmir, məhz hakimiyyət – qrup halında eyniləşdirməni həyata keçirmək qabiliyyətinin təzahürü üçün zəmin yaradır. İnsanın öz görüşlərini siyasi şüur səviyyəsinə yüksəldə bilməsini yalnız praktika cavablandırmağa qadirdir. Siyasi təfəkkür məntiqi, mücərrəd təfəkkür forması deyildir. Onun inkişafı xüsusi biliklərə yiyələnməkdən daha çox, real siyasi rəqabət prosesində iştirakından asılıdır. Buna görə, vətəndaşların hakimiyyətə göndərilməsində iştirakı imkanlarının məhdudlaşdırılması siyasi şüuru kütləşdirir və hakimiyyət mexanizminin tənəzzülünə imkan yaradır.

Cəmiyyətin siyasi şüurunda insanların praktiki fəaliyyəti ilə bu fəaliyyətin sosial şəraiti arasındakı nisbət öz əksini tapır. Siyasi şüur məhz dövlət hakimiyyətinin mahiyyətini dərk etmək tələbatı kimi meydana gəlmişdir. Dövlət hakimiyyəti isə ilk öncə, müxtəlif sosial qrupların mənafeyini ifadə edir. Deməli, siyasi şüur dövlət hakimiyyətinə münasibətdə sosial qrupların iqtisadi və ictimai münasibətlərini əks etdirir. İqtisadi və sosial mənafelərin bilavasitə belə şərtlənməsi siyasi şüurun spesifikliyini doğurur və bu zəmində xüsusi siyasi mənafe formalaşır. Siyasi şüur ictimai şüurun digər tərəflərinə nisbətən iqtisadi bazisla daha sıx

bağlıdır. Bu ondan irəli gəlir ki, siyasi şüurun yüksək səviyyəsi olan siyasi ideologiya iqtisadi bazislə dolayısı deyil, birbaşa əlaqə kəsb edir. Lakin bu əlaqənin özü də sosial qrupların mənafeyindən asılıdır.

Siyasi şüurun məzmununun müəyyənləşdirilməsi yalnız siyasi mənafelərlə şərtlənmir. Bu məqsədlə həmçinin, siyasi şüurun adi və nəzəri-ideolojit formalarının tədqiqi zəruridir. Çünki siyasi şüur anlayışının obyektiv, dəqiq açıqlanması onun funksional mahiyyətinin aydınlaşdırılmasından çox asılıdır. Heç də təsadüfi deyil ki, fəlsəfi və politoloji ədəbiyyatda siyasi şüurun iki formasının – **adi – praktiki (siyasi psixologiya) və ideoloji-nəzəri** (siyasi ideologiya) siyasi şüurun öyrənilməsinə mühüm diqqət yetirilir.

Adi-praktiki siyasi şüur özündə sistemli olmayan görüşləri və təsəvvürləri, eləcə də müxtəlif sosial qrupların hisslərini və əhval-ruhiyyəsini, məsələn həmrəyliyi, düşmənçiliyi və sairəni əks etdirir. Nəzəri-ideoloji siyasi şüur isə sosial qrupların, millətlərin, dövlətin köklü mənafelərini ifadə edən görüşlər, ideyalar sistemidir, cəmiyyətin təşkilinə, onun dövlət quruluşunun xarakterinə və müxtəlif istiqamətli siyasəti həyata keçirməyə aid baxışlar sistemidir.

Adi-praktiki siyasi şüur insanların əməli fəaliyyətindən, sosial təcrübəsindən hasil olmaqla, kortəbii surətdə yaranır. Bu şüur emosiyalardan və dəyişməkdə olan sosial təcrübədən asılı olaraq, çox hallarda sabit xarakter daşımır. Adi siyasi şüurda təzahür edən müəyyən stereotiplər siyasi təfəkkürün mükəmməl surətdə formalaşmasına mane olur. Hər hansı sosial qrupun adi siyasi şüuru gündəlik həyatda necə təzahür edirsə, hakimiyyətə münasibətdə də bu cür nəzərə çarpır. Adi siyasi şüurun məzmunu zəkanın ümumiləşdirici qabiliyyətindən, geniş tarixi perspektivdən, nəzəri düşüncə tərzindən və fəlsəfi kateqoriyalardan məhrumdur. Bununla yanaşı, adi şüur məhz obyektiv sosial gerçəklikdən birbaşa asılı olduğu üçün, onun gündəlik məzmunu özündə təmsil etdiyi sosial qrupun siyasi ideologiyasının rüşeymlərini də əks etdirir.

Siyasi şüurun nəzəri səviyyəsi hər şeydən əvvəl, siyasi həyatın prosesləri və hadisələri haqqında nəzəri təsəvvürlərin, onun mahiyyətli tərəfi barədə biliklərin ifadəsidir. Siyasətin nəzəri səviyyədə dərk olunması siyasi şəraitə inamlı istiqamətlənməyə, konkret siyasi məsələləri həll etməyə, idarəetmə qərarlarının qəbuluna, müəyyən məqsədlərin əldə olunması üsullarını və metodlarını müəyyənləşdirməyə imkan yaradır. Elmi biliklər əsasında siyasi inkişaf strategiyasını təmin etməyə imkan yaradan konseptual metod işlənib hazırlanır. Siyasi gerçəkliyin nəzəri səviyyədə dərk olunması kütləvi xarakter kəsb etmir və **siyasi şüurun fərdi formasına aiddir**. Siyasi şüurun nəzəri səviyyəsinin belə qiymətləndirilməsi heç də o demək deyildir ki, elmi biliklərə yiyələnmək siyasətsilərin praktiki fəaliyyətdə səhv etməmələrinə təminat verir, eləcə də belə qənaətə gəlməyə əsas vermir ki, adi şüur səviyyəsində qəbul edilən qərarlar uğursuzluqla nəticələnir. Təcrübə təsdiqləyir ki, bir sıra hallarda sağlam düşüncə mürəkkəb siyasi situasiyadan ən uğurlu səviyyədə çıxmağa səmərəli təsir göstərir. Eləcə də siyasi praktika ilə əlaqədən məhrum olan nəzəri biliklər birtərəfli, məhdud xarakter kəsb edir. Elmi abstraksiya əsasında qəbul edilən qərar, hətta cəmiyyətin ahəngdar inkişafına ciddi ziyan vurmağa qadirdir.

Siyasi şüurun digər mühüm komponenti **siyasi dəyərlər və mülahizələrdir**. Bu komponent vasitəsilə şəxsiyyət və ya ictimai qruplar siyasi gerçəkliyə öz münasibətini bildirir. O, birmənalı təzahür etmir və iki başlıca səviyyədə (psixoloji və ideoloji) üzə çıxa bilər.

Psixoloji səviyyədə dəyərlər və mülahizələr siyasət haqqında emosional – hissi formada çıxış edir və siyasi hadisə və halların hissi dərkedilməsilə tamamlanır, onlara münasibətdə hiss, əhval-ruhiyyə və emosiyada ifadə olunur. Bu səviyyədə dəyər və mülahizələr siyasi hadisələrin dərk edilməsini müsbət, mənfi və neytral şəkildə ifadə edə bilər. Onlar hər şeydən əvvəl, daxili səbəblər üzündən əmələ gəlir, spontan (daxili səbəb) xarakter daşıyır.

İdeoloji səviyyədə dəyərlər və mülahizələr mücərrəd xarakter kəsb edir və siyasi məqsədlər, eləcə də görüşlər sistemi formasında üzə çıxır. Onlarda adətən, bu və ya digər siyasi hadisələri bəyənmək və ya pisləmək hissləri deyil, həmçinin hadisələrin keyfiyyət xarakteristikası, siyasi proqnoz, siyasi proseslərin gedişi ilə bağlı mütəşəkkil fəaliyyətə tələbat ifadə olunur. Qeyd edək ki, ideoloji səviyyədə dəyərlər və mülahizələr nəzəri biliklər və təsəvvürlər əsasında formalaşır.

2. Siyasi şüurun strukturu və funksiyaları

Siyasi şüur siyasətin mühüm amili kimi çıxış etməklə, cəmiyyətin siyasi sisteminin fəaliyyətini, siyasi proseslərin istiqamətlənməsini, siyasi fəaliyyətin xarakterini və insanların davranışını əhəmiyyətli dərəcədə müəyyənləşdirir. O, siyasi sistemin fəaliyyətinin subyektiv əsasını təşkil edir və hər bir ayrıca insanın davranışının rasional tərəfini əks etdirir, siyasi mədəniyyətlə sıx bağlıdır və onu xeyli dərəcədə müəyyənləşdirir, şəxsiyyətin siyasətlə tanışlıq dərəcəsini ümumiləşmiş formada ifadə edir.

Siyasi şüur hüquqi şüur, əxlaq, elm, din, incsənət kimi, ictimai şüurun xüsusi formasıdır. Siyasi şüur insanların siyasi gerçəkliyə münasibətini ifadə edən görüşlərin, məqsədlərin və dəyərlərin məcmuu kimi çıxış edir.

Siyasi şüur fərdlərin və ictimai qrupların hakimiyyətə, dövlətə, partiyalara, siyasi dəyərlərə, siyasi inkişafın məqsədlərinə, ənənələrə, eləcə də siyasi həyatın xarakterinə və siyasi münasibətlərə münasibətini əks etdirir. O, insanın və ya sosial qrupların həyat təcrübəsinin spesifikliyi ilə, onların mənafeləri, tələbatları, sosial-siyasi mövqeyi ilə zəruri olan əlaqə kəsb edir.

Siyasi şüurun əsasını **siyasi gerçəkliyə aid biliklər** təşkil edir. Məhz siyasi həyatın faktları və hadisələri haqqında biliklərin müəyyən məcmuu əsasında ictimai varlığın siyasi sferasına aid olan görüşlər və dəylərlər təşəkkül tapa bilər.

Qeyd edək ki, siyasi gerçəkliyə aid olan biliklərin özü iki başlıca səviyyə (empirik və nəzəri) ilə ölçülür.

Siyasi şüur müxtəlif elementləri özündə əks etdirməklə, daxili strukturlaşması ilə səciyyələnir. Hazırda siyasi fəaliyyətə xidmət edən mənəvi törəmələrin (elementlərin) məcmuu əsasən üç başlıca struktur çərçivəsində tədqiq olunur:

- **qnoseoloji (koqnitiv)** – siyasi şüurun elementlərinin real gerçəkliyi düzgün əks etdirməsi nöqteyi-nəzərdən həmin elementlər arasındakı fərqlərin açıqlanması. Başqa sözlə, şüurun qnoseoloji strukturu belə bir cəhəti nəzərdə tutur ki, subyektlərin görüşləri siyasət aləminin müxtəlif tərəflərini bu və ya digər dərəcədə tam əks etdirən biliklərdir. Bu aspektdə nəzərdən keçirilir: siyasi həqiqət və yalan məsələsinin nisbəti, siyasi intellektin yanlış olması və siyasi aləmin sirrinə onun nüfuz etmə gücü, mifoloji, utopik və elmi əks etdirmə tipi.

- **aksioloji** – dərk edən subyektin siyasi sferanın mənəvi hadisələrini məqbul və ya qeyri-məqbul hesab etməsi baxımdan əks etdirməsi. Başqa sözlə, siyasi təsəvvürün bu strukturunda müxtəlif mülahizələr və dəyərlər şərh edilir ki, onlar da siyasəti dərk edən subyektin bu və ya digər üstün dəyərlərini təcəssüm etdirir.

- **sosioloji (funksional)** – siyasi şüurun bütün elementlərini tutduğu yer nöqteyi-nəzərdən səciyyələndirir, eləcə də praktikada mənəvi hadisələrin reallaşması prosesində həmin elementlərin rolunu ifadə edir. Bir tərəfdən, bu struktur çərçivəsində fərdi, qrup halında və ya kütləvi şüurun müxtəlif formaları, digər tərəfdən isə insan təfəkküründün məzmununun praktika sferasında əksini tapan komponentləri (ideallar, prinsiplər, normalar, motivlər və b.) təsvir olunur. Bu mənada siyasi şüurun daha çox ümumiləşmiş elementi siyasi ideologiya və siyasi psixologiya hesab olunur, onlardan hər biri siyasi həyatda əhəmiyyətli, son dərəcə mürəkkəb spesifik rol oynayır.

Siyasi şüurun strukturunda ideal və psixoloji elementlər də başlıca yer tutur. **İdeal** komponent siyasi gerçəkliyə aid

bilikləri (empirik və ya nəzəri) səciyyələndirir. **Psixoloji** element isə siyasi hadisələrə hissi-emosional münasibəti əks etdirir.

Qeyd etmək lazımdır ki, kütləvi şüurun vəziyyəti ictimai rəydə ifadə olunur. **İctimai rəy** cəmiyyətin müxtəlif qruplarının siyasi faktlara və hadisələrə münasibəti (gizli və ya açıq) olub, cəmiyyətdə siyasət haqqında yayılmış mülahizələri əks etdirir[1]. İctimai rəy ilk öncə, müxtəlif sosial qrupların əhval-ruhiyyəsi, onların siyasəti, bu və ya digər siyasi təsisatların və subyektlərin cəmiyyət həyatında yeri və rolunu qiymətləndirməsi ilə bağlıdır. O, həm bütün cəmiyyət çərçivəsində və eləcə də konkret siniflər, qruplar və təbəqələr arasında, müəyyən yerdə, bu və ya digər region səviyyəsində formalaşa bilər.

Səmərəli siyasətin yeridilməsi ictimai (siyasi) rəyi nəzərə almadan mümkün deyildir. Siyasi şüurun vəziyyətinin dəyişməsi prosesinin öyrənilməsi, ictimai rəyin qiymətləndirilməsi və proqnozu **siyasi monitorinqin** tərkib hissəsidir. İctimai rəyi öyrənərkən nəzərə almaq lazımdır ki, o adekvat (həqiqi) və eləcə də aldadıcı (yalan) mülahizələrlə nəzərə çarpa bilər (siyasi faktlar və hadisələr haqqında).

Siyasi şüur siyasi davranış mexanizmində xüsusi rol oynayır. O, siyasi fəaliyyəti qabaqlayır və insanların siyasi davranışını xeyli müəyyənləşdirməklə, onu vasitəli ifadə edir.

Siyasi davranış ictimai fəallığın təzahür növüdür və elə fəaliyyət sistemidir ki, şəxsiyyət və ya ictimai qrup dövlətlə və digər siyasi təsisatlarla qarşılıqlı fəaliyyətdədir. Biheviorizmin tərəfdarları siyasi davranışı insanın mühitdəki siyasi stimullara cavab reaksiyası sistemi kimi araşdırırlar. Siyasi görüşlərin mənbəyinə aid bütün görüşlərin müxtəlifliyini nəzərə alaraq belə hesab etmək olar ki, onun köklü səbəbi adamların müəyyən tələbatları və mənafeləri, hakimiyyət təsisatları vasitəsilə reallaşdırmağa dərk edilmiş cəhdidir.

---

[1] Макеев А.В. Политология. Учеб. Пособ. М., 2000. С. 215

Fərdi və qrup halında mənafelərin təmin olunmasını əldə etmək vasitəsi olan hakimiyyətə cəhd siyasi şüurla siyasi davranışın bilavasitə əlaqəsini məqsədə çevirməlidir. Başqa sözlə, arzu olunan gələcəyin ideal modeli formalaşdırılmalıdır. Məqsədin ifadə forması olmaq etibarilə, siyasi ideya siyasi şüurun təməlini təşkil edir. Deməli, siyasi şüur siyasi davranışın başlıca amillərindən biri, siyasi davranış isə məqsədin reallaşdırılması vasitəsi kimi çıxış edir.

Məqsədin aydınlığı, onu dərk etmək siyasi şüurun siyasi davranışı hansı səviyyədə müəyyənləşdirməsi səviyyəsindən asılıdır..Şüurun nəzəri səviyyəsi məqsəd aydınlığını, dəqiq görünən məqsədi təmin edir, adi şüur səviyyəsi isə yaxşı halda siyasi davranışın sağlam düşüncəyə əsaslanmasına imkan yaradır.

Şüur və davranış **sosial informasiya** vasitəsilə əlaqə kəsb edir. Bu əlaqə üçün informasiyanın kəmiyyəti və keyfiyyəti çox dəyərlidir. Mənbəyini informasiya təşkil edən bilik əsasında subyektin bu və ya digər siyasi situasiyada özünü necə aparmasına dair qərar qəbul olunur. Siyasi davranışın mövcud şəraitə uyğun gəlməsi xeyli dərəcədə siyasi şüurdan asılıdır, sonuncu isə öz növbəsində informasiyanı əldə etmək imkanlarından və qabiliyyətindən asılı olaraq ondan istifadə edir. Eyni zamanda, cəmiyyətin müxtəlif təbəqələri informasiya axınını eyni dərəcədə əldə etmək imkanına malik deyildir. Bundan əlavə, siyasi davranış əhəmiyyətli dərəcədə subyektin mədəni səviyyəsindən asılıdır.

Siyasi davranış həmçinin, bütövlükdə şüur vasitəsilə müxtəlif ictimai qrupların biliklərə münasibəti ilə müəyyənləşir. Bu baxımdan, əhalinin və onun ayrı-ayrı təbəqələrinin təhsil səviyyəsi böyük əhəmiyyət malikdir. Düzgün və zəruri biliklərə yiyələnməmək nəticəsində siyasi davranış inama deyil, etiqada əsaslana bilər, bu isə onun konkret tipinin formalaşmasında əhəmiyyətli rol oynayar.

Siyasi şüur siyasətin təsisatlı olmayan elementi kimi üç ən mühüm funksiyanı yerinə yetirir:

- **koqnitiv** – siyasi subyektlərin funksiyalarının yerinə

yetirilməsi və modifikasiyası (şəklini dəyişməsi) üçün biliklərin daim yeniləşməsinə cəmiyyətin tələbatının əks olunması;

- **kommunikativ** – subyektlər arasında və hakimiyyət təsisatları ilə dərk edilmiş qarşılıqlı fəaliyyətin təmin olunması;

- **ideya** – siyasi dünyanı görmək qabiliyyətinin əldə olunması və genişlənməsi ilə bağlı subyektin öz maraqlarını dərk etməsi.

Həmin funksiyaların tamlığı dərəcəsinin və xarakterinin reallaşması siyasi proseslərin xarakterindən asılı olaraq əhəmiyyətli dərəcədə dəyişə bilər. Məsələn, keçid dövrlərində siyasi həyata fəal qoşulan müxtəlif subyektlər siyasi dəyişiklikləri və siyasi gələcəyi özlərinə məxsus səviyyədə başa düşürlər, belə halda bir qayda olaraq, siyasi şüurun kommunikativ funksiyası zəifləyir, eyni zamanda onun ideya funksiyası fəallaşır.

Mənəvi hadisələrə xas olan funksiyalar və eləcə də siyasi şüuru səciyyələndirən funksiyalar digər hadisələrdən asılı olan və həmin hadisənin dəyişikliyə məruz qalması nəticəsində dəyişən hadisədir. Cəmiyyətə funksional yanaşma özündə bir neçə əhəmiyyətli cəhətləri ifadə edir. Bu mənada nəzəri yanaşma olmaq etibarilə, **funksionalizm** cəmiyyətin təşkilinin geniş spektrini əhatə edir. Onun başlıca cəhəti cəmiyyətin bir hissəsinin digər hissəsinə və ya daha böyük sosial sistemə inteqrasiyasını, adoptasiyanı (uyğunlaşmanı) təmin edən inamın müəyyən aspektinə münasibətdən ibarətdir.

Cəmiyyət, eləcə də siyasi cəmiyyət sistem olmaq etibarilə, **konkret funksiyaların** və sistemin müvafiq ünsürlərinin formalaşması prosesi kimi səciyyələnir. İctimai sistemdə yeni funksiyaların formalaşması əmək bölgüsü əsasında baş verir. Bu prosesin hərəkətverici qüvvəsi isə tələbatdır.

Siyasi təfəkkürün formalaşmasında, sosial hadisə və prosesləri siyasi cəhətdən düzgün təhlil edib qiymətləndirməkdə siyasi şüurun funksiyaları dəyərli rol oynayır.

Siyasi şüurun funksiyaları yuxarıda qeyd etdiyimiz

kimi, cəmiyyətin müxtəlif inkişaf mərhələlərində heç də eyni səviyyədə fəaliyyət göstərmir. Məsələn, siyasi sabitliyin pozulduğu prosesdə həmin funksiyaların bəzisinin fəaliyyəti nəinki zəifləyir, hətta dayanır. Siyasi təcrübə təsdiqləyir ki, siyasi sabitliyin pozulduğu hallarda siyasi şüurun əlaqələndirmə, sosial təşkilatçılıq funksiyalarının fəaliyyəti əhəmiyyətli dərəcədə zəifləyə bilər. Belə halda mövcud ölkədə siyasi hakimiyyətə münasibətdə əks mövqelərdə dayanan sosial qruplar arasındakı mübahisə və münasibətlər kəskinləşir.

Ümumiyyətlə, siyasi şüurun funksiyalarının çoxcəhətliliyi ilk öncə, onun məzmununun zənginliyi və strukturunun spesifikliyi ilə şərtlənir. Bu cəhət siyasi şüurun sosial-siyasi məqsədini və rolunu aydın başa düşmək üçün prinsipial əhəmiyyətə malikdir.

3. Siyasi şüurun ideoloji komponenti

Siyasi şüurda onun tərkibini təşkil edən ideologiya mühüm yer tutur. Şəxsiyyət və ictimai qruplar praktiki fəaliyyətlərində ideoloji məqsədləri, prinsipləri, doktrinaları başlıca siyasi dəyər kimi qiymətləndirirlər, çünki ideoloji dəyərlər xeyli dərəcədə onların siyasi səylərini müəyyənləşdirir. Heç də təsadüfi deyil ki, **Makiavelli** siyasi ideologiyanı müəyyən qrupların "mənəvi knyazlığı" silahı adlandırırdı. O, siyasi şüurun daha təsirli forması olmaqla, dövlətin və digər vacib hakimiyyət təsisatlarının fəaliyyətini istiqamətləndirir və cəmiyyətin bütövlüyünü təmin edir.

"İdeologiya" terminini elmi dövriyyəyə ilk dəfə fransız tədqiqatçısı (filosofu) **Antuan Destyut de Trasi** bəxş etmişdir (XVIII əsrin sonunda yazdığı "Düşünmək qabiliyyəti haqqında etudlər" əsərində). O, 1801-1815-ci illərdə yazdığı "İdeologiyanın ünsürləri" adlı dörd cilddən ibarət əsərində ideologiyanı "ideyaların təşəkkülü və insan təfəkküründün qanunları haqqında elm" kimi əsaslandırmağa cəhd etmişdir. Siyasi ideologiya maarifçilik dövründə təşəkkül tapmışdır. O, arzu edilən ideal cəmiyyət haqqında təsəvvürləri əks

etdirirdi. Lakin bu təsəvvürlər birmənalı deyildi.

Müasir elmdə "ideologiya" termininin şərhində müxtəlif mövqelər nəzərə çarpır. **T.Parsons** ideologiyanı **geniş tutumlu** anlayış kimi şərh edərək, ona funksional yanaşma kontekstində diqqət yetirir. O, ideologiyanın təbiətini və spesifikliyini nəzərdən keçirmir, məhz cəmiyyətdə yerini müəyyənləşdirməyə çalışır və hesab edir ki, ideologiya konkret cəmiyyətin dəyərlər sistemidir.

İdeologiyaya **direktiv (göstəriş)** xarakterli münasibət marksizmə məxsusdur. Marksist konsepsiya ideologiyanı siyasi şüurun digər formalarından təcrid etməyə istiqamətlənir və elmi şüurun formalarından biri, sosial sinfin siyasi hegemonluğu kimi əsaslandırılır. Bir sözlə, klassik marksizmdə ideologiya sinfin köklü mənafeyinin ifadəsi kimi vurğulanır.

İdeologiyaya **kulturoloji** yanaşma isə onun mədəniyyət kontekstində araşdırılmasıdır və ideologiyanı sonuncunun mühüm elementi kimi nəzərdən keçirir. Belə ənənə **M.Veberin, K.Manheymin, E.Dürkheymin** əsərlərində əsaslandırılır. **Veber** ideologiyanı konkret cəmiyyətdə dini normalarla şərtlənən siyasi ideal kimi şərh edir. Bu kulturoloji mövqeyi müasir tədqiqatçılardan **E.Şilza, U.Mats** və başqaları inkişaf etdirmişlər. Onları daha çox sosial tərəqqidə ideologiyanın rolu maraqlandırır. **E.Şilzanın** başlıca müddəaları bunlardır:

- ideologiya anlayışı yalnız elə inam sisteminə aid edilə bilər ki, ciddi ictimai böhranlar zamanı qanunauyğun olaraq siyasi səhnəyə nüfuz edir.
- ideologiya siyasi dünyagörüşü olmaqla, elə dəyərlər sistemini səciyyələndirir ki, bu, inam gücünə və xüsusi sərvət yönümü potensialına malikdir.
- ideologiyanın sərvət yönümü protensialı o dərəcədə əhəmiyyətlidir ki, böhranla səslənən sosial qeyri-adiliyüin qarşısını ala bilər.

A.U.Habermas hesab edir ki, hazırda spesifik **"sinfi dünya"** olmadığı üçün, ideologiyanı "kütləvi mədəniyyət" əvəz edir. Amerika nəzəriyyəçisi **L.Sadcentin** fikrincə, ideo-

logiya siyasi inkişafın müəyyən məqsədlərini və dəyərlərini işləyib hazırlamaqla, praktiki problemlərin həllini kobudlaşdırır. **F.Uotkins** iddia edir ki, ideologiya həmişə status-kvoya qarşı durur və əhəmiyyətli dəyişdirici potensialı saxlamaqla, siyasi amil kimi çıxış edir. **Q.Lassuell** isə ideologiya barədə daha differensial təsəvvür yaradaraq təklif edir ki, o, kommunikasiyanın müxtəlif növlərindən biri olmaqla, siyasi cəmiyyətin saxlanmasına istiqamətlənir. Siyasət aləmində ideologiyanın rolu bu və ya digər ölkədə tarixi şəraitin vəziyyətindən asılı olaraq dəyişir. Belə ki, XX əsrin 60-cı illərində Fransız alimləri **D.Bell və R.Aron** qərb ölkələrində əsas məsələlər üzrə ("ümumi rifah dövlətinin" rolunu, idarəetmənin desentralizasiyasını, siyasi plüralizmi və mürəkkəb iqtisadiyyatı qiymətləndirərək) başlıca siyasi qüvvələrin qarşılıqlı anlaşmasının əldə olunduğunu, eləcə də kütləvi cəmiyyətin təşəkkülünü, iyerarxiyalı bürokratiyanın inkişafını və ictimai inkişafın digər göstəricilərini nəzərə alaraq, "ideologiyanın sonu" və ideologiyasızlaşma dövrünün başlanması haqqında qənaətə gəlirlər. İdeologiya ilə bağlı yuxarıda yürütdüyümüz mülahizələri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, ideologiya siyasi ideyaların, görüşlərin, dəyərlərin, məqsədlərin məcmuunun sistemləşdirilmiş növü, həmçinin, fərdi və eləcə də ictimai şüurun tərkib hissəsi olmaqla, bu kontekstdə siyasi ideologiya kimi çıxış edir. Beləliklə, ictimai şüurda özünəməxsus "siyasiləşmiş seqment" yoxdur. Siyasi elmə dair ədəbiyyatda (politoloji tədqiqatlarda) siyasi ideologiya bu və ya digər şəxslər qrupunun hakimiyyət iddiasına (və ya ondan istifadə olunmasına) haqq qazandıran, bu məqsədə müvafiq olaraq, ictimai şüuru xüsusi ideyalara tabe etdirən müəyyən doktrina kimi mənalandırılır.

Politoloji ədəbiyyatda siyasi ideologiyanın bəzən ümumiləşmiş formada siyasi şüurun yüksək səviyyəsi kimi şərh edilməsi təsadüfi deyil. Belə halda siyasi ideologiyanın ictimai şüur sistemində yeri və rolu kifayət qədər yüksək qiymətləndirilir. Siyasi ideologiya siyasi xarakterli ideyalar vasitəsilə hakimiyyət münasibətləri sistemi və cəmiyyətin siyasi

quruluşu barədə təsəvvürləri birbaşa əks etdirir. Böyük dünyagörüşü əhəmiyyətinə malik olmaqla, o, insanların yiyələndiyi siyasi biliklərin məcmuunu və siyasət haqqında mövcud mülahizələri şüurda tənzimləmək qabiliyyətinə qadirdir. İdeologiya özündə kütləvi emosiyanı, narazılıq və həmrəylik hissini, sosial əhval-ruhiyyəni əks etdirir. İdeologiyasız ictimai və fərdi şüurda siyasi gerçəkliyin bəsitləşdirilməsi, sadələşdirilməsi meyli güclənir. Siyasi ideologiyanın hakimiyyət sferasında rolu onun ictimai şüura yiyələnməsi xarakterindən asıldır. Buradan çıxış edərək, qeyd etmək olar ki, siyasi ideologiyanın başlıca funksiyaları bunlardır:

- **sərvət yönümü** – o cəmiyyət, sosial təraqqi, şəxsiyyət, hakimiyyət haqqında başlıca təsəvvürlər daxil olmaqla, düşüncə sisteminə və insan fəaliyyətinə istiqamətlənir;

- **səfərbəredici** – siyasi ideologiyanın bu funksiyası siyasi fəaliyyətin bilavasitə motivi kimi çıxış edir və cəmiyyəti, sosial qrupları onun reallaşmasına səfərbər edir. Eləcə də həmin funksiya praktiki fəaliyyətin bu və ya digər siyasi proqramlar və məqsədlər əsasında təşkilini təcəssüm etdirir, konkret ictimai məsələlərin həllinə istiqamətlənir. Beləliklə, ideologiya ideoloji plüralizm şəraitində həqiqətən müəyyənedici rol oynamağa qadirdir. Görkəmli politoloq **L.Sanesteban** düzgün olaraq qeyd edir ki, ideologiyanın hakim mövqeyə malik olması onun daha çox yayılması ilə deyil, məhz insanların böyük qisminin siyasi fəaliyyətini istiqamətləndirməsi ilə müəyyən olunur;

- **inteqrativ** – siyasi ideologiya xüsusi mənafelərə qarşı durmaqla yanaşı, inteqrativ amil kimi çıxış edir. İnteqrativ funksiya hər cür ideologiyanın mühüm cəhətidir. İdeoloji ümumilik, ideoloji görüşlərin birliyi əsasında müxtəlif siyasi təsisatların, məsələn, siyasi partiyaların birliyi baş verir;

- **dayandırıcı-məhdudlaşdıran** – siyasi gerçəkliyin izahı üsulu olmaq etibarilə, siyasi ideologiya cəmiyyətin, qrupların, fərdlərin tələbatları ilə onların təmin olunmasının real imkanları arasında uyğunsuzluğun yarandığı şəraitdə sosial gərginliyin azalmasına xidmət edir;

- **idraki və proqnozlaşdırma** – bunların məzmunu elmin oxşar funksiyalarından fərqlənir. İdeologiya nə qədər ki, öz daşıyıcısına sərt bağlıdır, belə halda onun idraki imkanları kifayət qədər məhdudlaşır və müvafiq sosial qrupların (ideologiyanın daşıyıcılarının) mənafeyinin bütün cəmiyyətin tələbatı ilə üst-üstə düşməsi dərəcəsindən asılı olur. Proqnozlaşdırıcı funksiya isə çox vaxt insanların ideoloji dəyərlər sistemində öz siyasi idealına qeyri-tənqidi yanaşması sayəsində səmərəli reallaşmır.

- **aksioloji** – insanların öz siyasi fəaliyyətində rəhbər tutduqları norma və idealların işlənib hazırlanmasını ifadə edir. Onun köməyilə müəyyən sosial qrupların ümumi dəyərlər sisteminə oriyentasiyası təmin olunur. Bu funksiya eləcə də siyasi hadisə və proseslərin konkret qiymətləndirilməsi ilə bağlıdır;

- **müəyən sosial qrupların mənafeyinin ifadəsi və müdafiəsi** – siyasi ideologiya hər hansı sosial qrupun mənafeyi bazasında təşəkkül tapır və onların mənafelərini bir-birinə qarşı qoyur.

Siyasi ideologiyanın bu funksiyaları, onları siyasi şüurun digər formalarından (məsələn, siyasi psixologiyadan) fərqləndirən iki xüsusiyyət sayəsində: **total əhəmiyyətə** (qloballığa) **iddialı olmaq** və normativlik əsasında yerinə yetirilir.

İdeologiya və siyasətin nisbəti məsələsi ciddi nəzəri və praktiki problemdir. XX əsrin 60-cı illərində əvvəldə qeyd etdiyimiz kimi, Qərbdə "ideologiyanın sonu" haqqında fəal mübahisələr nəzərə çarpdı və "ideologiyasızlaşma" barədə tezis irəli sürüldü.

Qeyd etmək lazımdır ki, insanların həyatı ideoloji "vakuum" şəraitində mümkün deyildir. İdeologiyanın siyasətdə rolu tamamilə təbiidir və son dərəcə əhəmiyyətlidir. Siyasi ideologiyanın köməyilə insanların dünyagörüşü təşəkkül tapır və inkişaf edir, siyasi dəyərlər və sərvət yönümü formalaşır. İdeologiya qrup halında və ictimai mənafelərin ifadəsini təmin edən siyasi və ictimai təşkilatların aləti kimi nəzərə çarpır, ideoloji birləşmə isə ağır həyati sınaqlarda özünü

böyük yaradıcı qüvvə kimi sübut etmişdir. Eyni zamanda qeydj etmək lazımdır ki, total siyasətin total ideologiyalaşması təhlükəlidir, belə halda cəmiyyətin siyasi həyatı özünün bütün çoxcəhətli təzahürlərində vahid ideoloji doktrina əsasında nəzərə çarpır. Siyasətin ideologiyalaşması hər şeydən əvvəl, cəmiyyətdə ideoloji inhisarın nəticəsi və ideoloji plüralizmin aradan qalxması kimi çıxış edir. Bunun sayəsində siyasət "ideologiyanın xidmətçisinə" çevrilir və siyasət cəmiyyəti dərin böhrana sövq edir. Cəmiyyət həyatının bütün sferalarında, həmçinin siyasətdə və ideologiyada köklü dəyişikliklər müasir cəmiyyətin vəziyyətini əhəmiyyətli dərəcədə müəyyən edir.

İdeologiya ilə elmin nisbəti də maraq doğurur. Belə bir fakta diqqət yetirmək lazımdır ki, əsil elmə obyektivlik, qərəzsiz qiymətləndirmə, tənqidi, yaradıcı xarakter, həqiqəti axtarmaq və s. xasdır. Elmin başlıca funksiyası idraki və proqnozlaşdırma funksiyalarıdır. Elmin məqsədi obyektiv biliklər sistemini formalaşdırmaqdan ibarətdir. Belə ki, siyasi elm (politologiya) cəmiyyət həyatının siyasi sferası haqqında ümumi, inteqral biliklər yaratmağa, onun fəaliyyəti və inkişafının qanunauyğunluğunu üzə çıxarmağa cəhd edir. Elmdən fərqli olaraq ideologiya qərəzlidir, ona partiyalılıq, sinfilik, nisbətən dəyiqşməz prinsiplərin işlənib hazırlanması kimi keyfiyyətlər xasdır. Siyasi ideologiya siyasi və ictimai inkişafda ümumi deyil, qrup halında nöqteyi-nəzəri ifadə edir, onu korporativlik səciyyələndirir. Buna görə o, korporativ şüurun özünəməxsus növü kimi çıxış edir. İdeologiya siyasət haqqında obyektiv biliklər sistemi vermir, məhz siyasi mənafeləri ümumiləşmiş formada səciyyələndirir, siyasi məqsədləri və vəzifələri müəyənləşdirir, müəyyən siniflərin və ictimai qrupların mövcud hakimiyyət münasibətlərinin möhkəmlənməsinə və ya aradan qaldırılmasına istiqamətlənən dəyərlər sistemini və oriyentasiyanı formalaşdırır. Bir sözlə, ideologiya proqram və fəaliyyət üçün rəhbərlik kimi çıxış edir. Buna görə o, nəinki siyasi şüurun, eləcə də bütövlükdə ictimai hadisə kimi siyastəin ən əhəmiyyətli kom-

ponentlərindən biri olmuş və olmaqdadır. İdeologiya həmçinin sosial qrupların siyasi reallığa münasibətini müəyənləşdirir, eləcə də cəmiyyətin siyasi inkişafının prinsipial istiqamətini əsaslandırır.

4. Müasir siyasi ideologiyalar

Siyasi tarix yüzilliklər ərzində xeyli ideoloji doktrinaların təzahürü və tənəzzülünü nümayiş etdirmişdir. Dini və milli ideologiya, anarxizm və tyermondializm, ekologizm və xristian-demokratik ideologiyalar qüdərtli siyasi hərəkatları istiqamətləndirmişlər. Onların əhatə dairəsi çox genişdir, özündə həm mötədil (mülayim), həmçinin radikal, ekstremist ideya-siyasi cərəyanları birləşdirir. Bəzən siyasi ideologiyanın "sol" və "sağ" cərəyanlara ayrılması ilə rastlaşırıq. Qeyd edək ki, bütövlükdə müasir siyasi ideologiyaların (ilk növbədə mötədil ideologiyaların) inkişafında müşahidə olunan meyllərdən biri onların yaxınlaşması və bir-birinə nüfuz etməsidir.

Müasir dövrün başlıca siyasi-ideoloji cərəyanları bunlardır: liberalizm-neoliberalizm, mühafizəkarlıq-neomühafizəkarlıq, marksizm (kommunist və sosialist ideologiyası), sosial-demokratiya, faşizm.

Liberalizm ideyası hələ antik dövrün böyük mütəfəkkirləri sayılan **Demokrit və Lukretsi** tərəfindən irəli sürülmüşdür. Lakin liberalizm müstəqil ideoloji cərəyan olmaq etibarilə, XVII-XVIII əsrlərin sonunda ingilis maarifçiləri **C.Lokk, T.Hobbs, C.Mill və A.Smitin** siyasi fəlsəfəsi əsasında formalaşmışdır. Şəxsiyyətin azadlığını insanın başlıca hüququ, eləcə də xüsusi mülkiyyət sistemi ilə əlaqələndirərək, liberalizm öz konsepsiyasının əsasının azad rəqabət idealından, bazar münasibətlərindən, sahibkarlıqdan ibarət olduğunu elan etdi.

Liberalizmin dünyagörüşü əsasını universal şəxsi azadlıq idealı ilə əlaqəyə malik olan **fərdiyyəçilik**, humanizm və rasionalizm, insanın şəxsi dəyəri və xüsusi mülkiyyətdən

özgələşməmək, azad bazar və rəqabət təşkil edir. Liberalizmin siyasi proqramı ictimai həyatda dövlətin rolunun məhdudlaşdırılmasına, konstitusiyalı prinsiplərin, parlament demokratiyasının və hakimiyyətin bölünməsinin qərarlaşmasına, vətəndaş cəmiyyəti sferasının genişlənməsinə istiqamətlənmişdir. Radikalizm və siyasi fəaliyyətin ifrat metodları liberalizmə yabançıdır. Liberalizmin başlıca siyasi ideyaları vətəndaşların hüquq bərabərliyi, dövlətin müqavilə bağlamaq təbiəti, eləcə də siyasətdə rəqabət aparan peşəkar, iqtisadi, dini və siyasi assosiasiyaların bərabərhüquqlu rəqabətinə inam, əxlaqi cəhətdən onlardan birinin digəri üzərində praktiki üstünlüyünə yol verməməkdən və sairədən ibarətdir. Liberalizm yarandığı vaxtdan dövlətə tənqidi münasibəti, vətəndaşların yüksək siyasi məsuliyyəti prinsipini, dini azadlığı, plüralizmi, konstitusiyalılığı müdafiə etmişdir.

Liberalizmin daxilində müəyyən cərəyanların təzahürünə qarşı çıxan görüşlər sistemi də nəzərə çarpır. Bu mənada liberalizmin ən başlıca dəyərlərini daha aydın şəkildə müdafiə edən **libertalizmdir**. O, liberalizmin daxilində dəyişikliklərin baş verməsi imkanlarına qarşı qətiyyətlə çıxış edir. Liberalizmin görkəmli nümayəndələri sayılan **F.Hayek** və **L.Mizes** hesab edirlər ki, hər cür iqtisadi planlaşdırma siyasi diktaturaya gətirib çıxarır, ictimai inkişafın başlıca dilemmasını (iki mümkün qərardan birini qəbul etmək) isə planlaşdırma (tiraniya forması) ilə rəqabət (azadlıq simvolu) arasındakı münasibətlərdə görmək lazımdır.

Liberal ideologiya daha çox ingilis-Amerika ölkələrində, xüsusilə ABŞ-da geniş yayılmışdır. Liberalizmin fərdi idealı praktiki özünəməxsus əhəmiyyət qazanmışdır və Qərb cəmiyyətinin başlıca məqsədinə çevrilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində azad rəqabət prinsiplərinin reallaşması ilə bağlı liberalizmin baza dəyərləri aydın şəkildə böhrana məruz qalmışdır. Sənaye və maliyyə inhisarının çəkisinin və təsirinin kəskin şəkildə artması siyasi oliqarxiyanın təzahürünə, parlament demokratiyasının rolunun azalmasına gətirib çıxartdı. Hazırda klassik li-

beralizm öz əsassızlığını büruzə vermiş və **neoliberalizmə** transformasiya edilmişdir (formasını dəyişdirmişdir).

Neoliberalizmi – yeni tarixi formanı məhz iqtisadiyyatda dövlət idarəçiliyinin güclənməsi və sosial məqsədlərin rolunun artması doğurmuşdur. Neoliberalizm liberalizmin ənənəvi dəyərlərini XX əsrin ikinci yarısının iqtisadi və siyasi reallıqlarına uyğunlaşdırmağa cəhd edir. Neoliberalların siyasi proqramında idarə edənlərlə idarə olunanların konsensusa gəlməsi, kütlələrin siyasi prosesdə iştirakının zəruriliyi, idarəetmə qərarlarının qəbulu qaydalarının demokratikləşməsi ideyası başlıca yer tutur.

Əgər klassik liberallar siyasi həyatın demokratikliyini mexaniki müəyyənləşdirməyə meylli idilərsə, neoliberallar dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin plüralist formasına üstünlük verirlər. Buna görə **R.Dal, C.Lindblyum** və başqaları belə hesab edirlər ki, çoxluğun idarə olunması nə qədər ədalətli olarsa, o, liberalizmin prinsiplərinə daha çox uyğun gəlir. Məşhur nəzəriyyəçi **C.Pouls** "Ədalət nəzəriyyəsi" kitabında liberal doktrina üçün bərabərlik problemini ön plana çəkir, həm də siyasi bərabərliyə nisbətən sosial bərabərliyə üstünlük verir. Belə mövqe neoliberalizm ideologiyasını sosial demokratların başlıca fəlsəfi məqsədləri ilə yaxınlaşdırır. Liberal əsasda siyasi iştirakçılığa və demokratik elitizmə aid müxtəlif nəzəriyyələr inkişaf etmişdir.

Müasir siyasi ideologiyalardan digəri XVIII əsrin sonunda təşəkkül tapan mühafizəkarlıqdır. Mühafizəkarlıq terminini ilk dəfə həmin dövrdə **F.Şatobrian** işlətmişdir. Mühafizəkarlığın dünyagörüşü zəmini üzvi və bütöv sistem olmaq etibarilə, ənənəvi əxlaqi və maddi dəyərlərə əsaslanan cəmiyyətin ("həyati başlanğıcın") təsdiqlənməsinə əsaslanır.

Mühafizəkarlıq ideyasını təşkil edən ən mühüm cəhətlər dini dünyagörüşünə yönələn irrasionalizm, milli dəyərlərlə bağlı olan **traditsionalizm (ənənəviçilik) və tarixi həyat tərzidir**.

Mühafizəkarlıq ikili mənəvi hadisə kimi səciyyələnir. Bir tərəfdən o, müəyyənedici inersiya (ətalət, iradəyə əsaslanmayan hərəkət) və adətlə bağlı olan psixoloji durum, tə-

fəkkür tərzi, müəyyən həyati temperament, əvvəlki idarəetmə sisteminə üstünlük verən köhnəpərəst şüur sistemidir (məqsədlərindən və məzmunundan asılı olmayaraq). Digər tərəfdən, mühafizəkarlıq siyasətdə və bütövlükdə həyatda müvafiq **davranış modelidir**, öz fəlsəfi əsasları ilə səciyyələnən xüsusi **ideoloji** mövqedir. O, özündə siyasi iştirakçılıq, dövlətə, sosial qaydalara və müəyyən siyasi fəaliyyətə, partiyalara, ittifaqlara münasibət prinsiplərini birləşdirir, mövcud qaydaları qoruyub saxlamağa cəhd edir. Mühafizəkarlığın mənəvi ataları **İ. De Mestr, L. de Bonald, E.Berk, sonralar X.Kortes, R.Pil, O.Bismark** və başqaları sosial qaydaları şüurlu yenidən təşkil etmək haqqında fikrin qeyritəbiiliyin təsdiqləməyə cəhd etmişlər.

Mühafizəkarlığın siyasi proqramı sosial-siyasi dəyişiklikləri ictimai siyasi təsisatlarla, ölkənin sosial mədəni xüsusiyyətləri ilə möhkəmləndirilən adətlərə, milli ənənələrə uyğunlaşdırmaqdan ibarətdir. Həmin proqramda dövlətin və ailənin möhkəmləndirilməsinə, icmanın saxlanmasına, kilsənin mövqeyinə və roluna, cəmiyyət həyatının mənəvi-əxlaqi aspektinə böyük diqqət yetirilir. Bu məqsədlə qanun və qaydanın, ictimai intizamın, vətəndaşların vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsinə istiqamətlənən tədbirlər mühüm əhəmiyyət kəsb edir.

Mühafizəkarlığın siyasi-ideoloji dəyərlərinin reallaşması güclü dövləti, kompromisdən geniş istifadə edilməsini, radikal (xüsusilə, inqilabi xarakterli) tədbirlərin inkarını, siyasi dəyişikliklərin təkamül yolu ilə istiqamətlənməsini təmin edən ictimai status-kvonun saxlanmasını nəzərdə tutur. Mühafizəkarlar özlərini insan hüququnun və demokratik prinsiplərin qətiyyətli müdafiəçiləri hesab edirlər. Onlar cəmiyyətin insan üzərində tam üstünlüyünü əsaslandırmağa çalışırlar: məsələn, **Berk** iddia edir ki, "insanlar kölgə kimi gedirlər, lakin ümumi rifah əbədidir". Mühafizəkarların fikrincə, insan azadlığı onun cəmiyyət qarşısındakı vəzifələri, cəmiyyətin tələblərinə uyğunlaşmaq imkanı ilə müəyyən olunur. Onlar siyasi problemləri dini və əxlaqi problem kimi

nəzərdən keçirirlər, başlıca dəyişikliklər məsələsini isə insanın mənəvi simasının dəyişilməsində görürlər.

Mühafizəkar ideoloqların fikrincə, siyasi qaydaların əsasını **kompromisə əsaslanan tədrici** islahat təşkil edir. Kompromis nisbi qaydaların hətta tamamlanmamış halda saxlanmasının yeganə təminatıdır.

İndiki şəraitdə mühafizəkarlıq dünyadakı dəyişikliklərə uyğunlaşır. Belə ki, XX əsrin 70-ci illərinin birinci yarısından etibarən, mühafizəkarlıq neomühafizəkarlıq simasında çıxış etməyə başlayır. Onun daha görkəmli nümayəndələri **İ.Kristol, N.Podqorets, D.Bell, Z.Bjezinski** və başqaları hesab olunur. Onlar o dövrün iqtisadi böhranına, keynsiançılığın genişlənməsinə, gənclərin kütləvi etirazına cavab verən bir sıra ideyalar işləyib hazırladılar. Beləliklə, mühafizəkarlığın bu forması ənənəvi dəyərləri qərb cəmiyyətinin inkişafının sonrakı industrial mərhələsinə uğurla uyğunlaşdırdılar.

Neomühafizəkarlıq vətəndaşla dövlətin qarşılıqlı əxlaqi məsuliyyətini və onların qarşılıqlı yardımını, hüquqa hörmət edilməsini, həddən artıq demokratiyaya qeyri-inamı, dövlət qaydalarının möhkəmliyinə əsaslanan ailə və dinin mənəvi üstünlüyünü, sosial sabitliyi cəmiyyət üçün başlıca şərt hesab edirlər. Bu ideya cərəyanı bütün problemləri həll edə bilməsə də, onun doktrinası insanın təsəvvüründə dünyanın bütöv mənzərəsini canlandırdı, cəmiyyətin böhranının başlıca səbəbini və ondan çıxış yolunu, əxlaqi prinsipləri böhranlı sosiuma uyğunlaşdırmağı göstərdi. Neomühafizəkar şüur üçün ictimai islahatların keçirilməsi zərurətini təsdiqləmək, elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə olunması səciyyəvidir. Onun siyasi məqsədini, oriyentasiyasını praqmatizm fərqləndirir.

Müasir dövrün başlıca siyasi-ideoloji cərəyanlarında biri **marksizmdir**, başqa sözlə **kommunist və sosialist** ideologiyasıdır. **Sosializm** ideyası dünyaya qədim zamanlardan məlum olsa da, bu ideyanın nəzəri cəhətdən əsaslandırılması və ideoloji cəhətdən rəsmiləşməsi yalnız XIX əsrin ortalarında

reallaşdı. Həmin dövrdə yaranan marksist (kommunist) ideologiyası yetkin olmayan kapitalizmin kəskin sinfi ziddiyyətləri şəraitində təşəkkül tapmışdır. Onun dünyagörüşü əsası dialektik-materialist təsəvvürlə və sosial-siyasi proseslərin təhlilinə sinfi mövqedən yanaşma ilə bağlıdır.

Marksizmin siyasi proqramı özündə hakimiyyət münasibətlərinin və mülkiyyət münasibətlərinin inqilabla dəyişdirilməsi tələblərini təcəssüm etdirir, bu dəyişikliklərə kommunist partiyası tərəfindən rəhbərlik edilməsi zərurətini elan edir, keçid dövründə proletariat diktaturası dövlətinin yaradılması və onun böyüyərək ümumxalq dövlətinə çevrilməsi ideyasını irəli sürür. Xüsusi mülkiyyətin və sinfi ziddiyyətlərin aradan qaldırılması, dövlətin ölüb getməsi və "yeni insanın" formalaşması ilə bağlı olan **insanların ümumi bərabərliyi başlıca kommunist idealı** kimi çıxış edir.

Tarixi təcrübənin göstərdiyi kimi, marksizmin siyasi proqramının reallaşması kəskin sinfi mübarizə, zorakılıq metodlarından geniş istifadə olunması, vahid partiyanın siyasi inhisarı, istehsal vasitələrinin milliləşdirilməsi, vahid ideologiyanın hökmranlığı ilə bağlıdır. Maddi, sosial və mənəvi həyat sferalarında, dövlət quruculuğu sahəsində böyük uğurlar vətəndaşların siyasi hüquq və azadlıqlarının məhdudlaşdırılması, iqtisadi fəaliyyət və mənəvi yaradıcılıq sferasında sərt sosial nəzarətin həyata keçirilməsi ilə müşayiət olunmuşdur. Marksizmin bəzi konseptual müddəaları praktikada kifayət qədər təsdiqlənmədi. Nəticə etibarilə bu ideologiyanın müasir dünyaya təsiri xeyli dərəcədə zəiflədi.

Müasir dünyada **sosial-demokratiya ideologiyası** daha geniş yayılmışdır. O, XX əsrdə ictimai şüura daha böyük təsir göstərən ideologiyadır. Bu ideologiya sosialist ideologiyasının qolu olmaq etibarilə, Birinci Dünya müharibəsini və Rusiyadakı bolşevik inqilabını xüsusi tənqidi səviyyədə qiymətləndirməyə cəhd etmişdir.

Müasir sosial-demokratiya plüralist dünyagörüşünə (marksizmə, yenikantçılığa, tənqidi rasionalizmə və s.) əsaslanaraq azadlıq, ədalət və həmrəylik ideyasını müdafiə edir.

O, özünün mövcud olduğu bütün müddət ərzində sosial və dövlətlərarası sülhün üstünlüyünü müdafiə etmiş və ədalətli ictimai quruluş ideyasını azadlıq və əmək həmrəyliyi prinsipi ilə əlaqələndirmişdir. Sosial demokratların doktrinasında sinfi mübarizədən imtina etmək, xalq hakimiyyəti, zəhmətkeşlərin sosial müdafiəsi və fəhlə özünüidarəsinin genişləndirilməsi üstünlük təşkil edir.

Sosial demokratların siyasi proqramı özündə ictimai islahat, sosial müttəfiqlik, hüquqi dövlət, sosial oriyentasiyalı qarışıq iqtisadiyyat, siyasi plüralizm və demokratiya tələblərini əks etdirir. Sosial-demokrat ideologiyasının əhəmiyyətli komponenti əxlaqi dəyərlər sistemindən və siyasi fəaliyyətin etik stimulundan ibarətdir. Sosial demokratların irəli sürdüyü "sosial müttəfiqlik" konsepsiyası sinfi mübarizənin "azadlıq, həmrəylik və ədalət" prinsipləri əsasında əvəz olunmasını və təkmilləşdirilməsini nəzərdə tutur. Həmin konsepsiya sabit siyasi inkişaf şəraitində siyasi hərəkatın cəlbedici proqramına çevrilir. Sosial demokratların "demokratik sosializm" modelinin həyata keçirilə bilməməsi "ümumi rifah dövləti" ideyasının reallaşması çətinlikləri ilə bağlıdır.

Sosial demokratların siyasi strategiyası inqilabi mübarizə metodlarından imtina etməyə, siyasi fəaliyyətin parlament formasına üstünlük verilməsinə, ictimai dəyişikliklərin ("xırda işlər" siyasətinin) tədriciliyinə, geniş siyasi ittifaqların və koalisiyaların yaradılmasına əsaslanır. Bu proqram praktikada demokratiya və sosial ədalət ideyasının təcəssümündə əhəmiyyətli nəticələrlə tamamlanıb (Avropanın industrial cəhətdən inkişaf etmiş ölkələrində). Lakin "demokratik sosializm" və "ümumi rifah dövləti" konsepsiyaları həyata keçirilmək imkanına malik olmayıb.

Nəhayət, müasir dövrün başlıca siyasi-ideoloji cərəyanlarından biri də **faşizmdir**. Bu ideologiya XX əsrin 20-ci illərində yaranmışdır. Faşizmin təkamülü, müxtəlif ölkələrdə siyasi münasibətlərə təsir üsulu politoloji ədəbiyyatda ona birmənalı olmayan münasibəti, yanaşmanı şərtləndir-

mişdir. **Faşizm** termini latın dilində fasio, italiyanca isə fassismo sözlərindən götürülmüşdür və **dəstə, birləşmə** mənasını ifadə edir. Hazırda politoloji ədəbiyyatda faşizm ikili aspektdə başa düşülür. Bəzi tədqiqatçılar faşizmi XX əsrin 20-30-cu illərində İtaliyada, Almaniyada və İspaniyada formalaşan siyasi ideologiyanın növlərindən biri kimi qiymətləndirirlər. Faşizmin banisi İtaliya sosialistlərinin sol qanadının keçmiş lideri **B.Mussolini** hesab olunur. Onun nəzəriyyəsi **Platonun, Hegelin** elitar nəzəriyyələrinə əsaslanmaqla, mahiyyət etibarilə son dərəcə millətçilik, dövlətin "sonsuz iradəsi" və onu idarə edən siyasilərin elitarlığı mövqeyindən çıxış edir və bu mövqeyin təbliğinə istiqamətlənir.

Faşizmin səciyyəvi növlərindən biri **Hitlerin (Şiklqruberin) nasional-sosializmidir.** Alman nasional-sosializmi (milli-sosializmi) İtaliya faşizmi ilə sovet kommunizminin bəzi cəhətlərini özündə birləşdirir. Sovet kommunist sistemində "sinif" amili hakim mövqeyə malikdirsə, alman nasional faşizmində "millət" ideyası əsas yer tutur. Faşizmin mahiyyətinə aid politoloji ədəbiyyatda mövcud olan istiqamət ondan ibarətdir ki, o, ideologiya olmaq etibarilə, müəyyən ideya məzmununa malik deyildir, elə yerdə və o zaman formalaşır ki, siyasi qüvvələrin ideya və praktiki fəaliyyətində ön plana demokratiyaya təzyiq göstərilməsi çəkilir, zorakılıq və terror ehtirası hakimiyyəti ələ keçirmək və ondan istifadə olunması cəhdlərini pərdələyir. Beləliklə, faşizmin ideya əsasının üstünlüyü daha çox bu və ya digər **irqi, etnik, sinfi, yerliçilik** münasibətlərində, eləcə də cəmiyyətin digər qruplarına münasibətdə üzə çıxır.

Faşizmin belə çərçivədə səciyyələndirilməsi onun millətçi və xüsusi totalitar rejimlərin müxtəlif növləri ilə əlaqələndirilməsindən irəli gəlir. Məsələn, fransız nəzəriyyəçisi **S.Peyn** faşizmi "inqilabi ultramillətçilik forması", alman tarixçisi **A.Meller** isə "totalitarizmin personal forması" (personal - şəxs, şəxsiyyət mənasını ifadə edir, latın dilində person sözündən götürülüb) kimi təsvir edirlər.

Hazırda faşizm ideologiyası müxtəlif cərəyanlar for-

masında təzahür edir. Müasir dünyanın siyasi həyatına təsir göstərən həmin cərəyanlardan biri **ekstremist ideologiyadır**. Məhz onun əsasında antikonstitusiya istiqamətli, cəmiyətin sabitliyinə və təhlükəsizliyinə qorxu yaradan siyasi təşkilatlar və hərəkatlar meydana çıxır.

Ultrasağ (sağ ekstremist) ideya-siyasi cərəyan ciddi ictimai təhlükə yaradır. Bunlara faşizm, nasizm (neonasizm) aiddir. Onlar ümumi ideya köklərinə malikdirlər: ifrat nasionalizm və rasizm, zorakılığa və şəxsi hakimiyyətə sitayiş və s. Bu ideologiyalar praktikada siyasi terrorizmə, zorakılığa, totalitar metodlara, ictimai həyata nəzarət olunmasına, milli zülmə, soyqırıma və müharibələrə gətirib çıxarır.[1]

Ultrasol (sol ekstremist) ideologiya isə təcili inqilab, radikal sosial-siyasi çevriliş, volyuntarizm və siyasi dözümsüzlük ideyasını fəaliyyət proqramının əsası kimi qəbul edir. Ultrasollar sırasına anarxizmin müxtəlif cərəyanlarını (dövlətin və hər cür dövlət hakimiyyətinin dağıdılması və məhvi ideologiyasını) trotskisizmi və neotrotskisizmi (dünya inqilabi ideyalarını), eləcə də siyasi terrorizmə meylli olan "yeni solları" aid etmək olar.

IV FƏSİL
SİYASİ MƏDƏNİYYƏT

1. Siyasi mədəniyyət: mahiyyəti, məzmunu, strukturu

Dərin siyasi proseslərin inkişafı və eləcə də siyasi həyatın konkret təzahürü xeyli dərəcədə cəmiyyətin siyasi mədəniyyətindən asılıdır. Siyasəti təşkil edən bu mühüm cəhəti nəzərə almadan siyasi hadisələrin və proseslərin mahiyyətini düzgün başa düşmək və qiymətləndirmək mümkün deyildir. Siyasi mədəniyyət cəmiyyətin mənəvi mədəniyyətinin tərkib hissəsini təşkil edir. Sözün daha geniş mənasında insan tərə-

[1] Ermənilərin azərbaycanlılara (Dağlıq Qarabağda) qarşı törətdikləri soyqırım buna aydın misaldır.

fından yaradılanların hamısı (maddi və mənəvi sərvətlər) mədəniyyətin mahiyyətini və məzmununu səciyyələndirir. Başqa sözlə, mədəniyyət özündə maddi və mənəvi dəyərləri, onların istehsalı prosesini, bu prosesdə təşəkkül tapan münasibətləri, eləcə də informasiyanın və mədəni sərvətlərin verilməsini (ötürülməsini) təcəssüm etdirir.

Siyasi mədəniyyət müvafiq siyasi təsisatlarda və dəyərlərdə müəyyənləşdirilən və sonuncunun reallaşmasına əsaslanmaqla, siyasət sferasında insanların yaradıcı fəaliyyəti kimi təzahür edir.

"Siyasi mədəniyyət" termini ilk dəfə alman filosofu-maarifçisi **İ.Herder** (1744-1803) tərəfindən istifadə olunmuş və onun əsərlərində işlədilmişdir. Yeri gəlmişkən belə bir maraqlı fikri qeyd edək: Herder bildirirdi ki, "insanların, cəmiyyətin tarixini heyvanlarsız təsəvvür etmək çətindir. Heyvanlar insanların böyük qardaşıdır, çünki onlar insanlardan əvvəl yaranmışlar". Bu fikir 1803-ci ildə dünyasını dəyişən **Herderin** tarix fəlsəfəsinə aid görüşlərini əks etdirir. Siyasi mədəniyyət termini nəticə etibarilə, XIX əsrin sonu XX əsrin əvvəllərində müxtəlif siyasi hadisələrin təhlilində tətbiq edilmişdir (xeyli elmi məktəblər və ilk növbədə marksizm tərəfindən). Lakin siyasi mədəniyyət nəzəriyyəsi bu elmi terminin işlədilməsindən xeyli sonralar, XX əsrin 50-ci illərinin sonlarında və 60-cı illərin əvvəllərində irəli sürülmüşdür. Siyasi mədəniyyət ideyası vətəndaşların və təsisatların siyasi davranışının motivləşməsini dərindən tədqiq etməyə, xeyli münaqişələrin səbəblərini üzə çıxarmağa imkan yaratdı. Bunsuz siyasət üçün ənənəvi olan səbəbi: hakimiyyət və resursların bölüşdürülməsi uğrunda mübarizəni izah etmək mümkün olmazdı.

Siyasi mədəniyyət özünəaid nəzəriyyə çərçivəsində cəmiyyətin siyasi sistemi üzərində yüksələn özünəməxsus "mədəni-yaradıcı üstqurum" kimi nəzərdən keçirilir və beləliklə, nəinki siyasi sistemin spesifik keyfiyyəti, eləcə də təmərküzləşmiş şəkildə sosiumun siyasi həyatının xeyli xarakteristikası baxımdan səciyyələnir. O, siyasi aləmin keyfiyyət tə-

rəfini açıqlamağa imkan yaradır.

Siyasi mədəniyyət konsepsiyasının təşəkkülü prosesi, daha çox isə onun məzmununun müəyyənləşdirilməsi məsələsi mübahisələr doğurmuşdur. Həmin mübahisələrdə iki nöqteyi-nəzər üzə çıxmışdır. Birinci nöqteyi-nəzərə görə, siyasi mədəniyyət siyasi mövqelərin məcmuudur. İkinci mövqe isə siyasi mədəniyyəti davranışla əlaqələndirir.

Hazırda siyasi mədəniyyətin mahiyyəti və məzmununa aid üç başlıca mövqe mövcuddur. Alimlərin bir qrupu onu siyasətin bütün subyektiv məzmunu ilə eyniləşdirir və **mənəvi** hadisələrin məcmuu kimi qiymətləndirir (**Q.Almond, S.Verba, D.Duvayn və b.**). Digər alimlər qrupu isə siyasi mədəniyyəti **normativ** tələblərin təzahürü mənada izah edirlər (**C.Vayt**) və ya insanın siyasətdəki davranışının nümunələri kimi açıqlayırlar (**C.Pleyno**). Üçüncü qrup tədqiqatçılar isə siyasi mədəniyyəti praktiki davranışda təcəssümünü tapan siyasi fəaliyyətin üsulu, siyasi fəaliyyət tərzi kimi başa düşürlər (**İ.Şapiro, P.Şaron, V.Rozenbaum**). Siyasi mədəniyyətin belə başa düşülməsi insanın dövlətlə qarşılıqlı fəaliyyətinin praktiki formalarını açıqlayır.

Almond və Verba siyasi mədəniyyəti üç komponentə malik olan fenomen kimi nəzərdən keçirir: 1. "Mahiyyətli məzmun", 2. Müxtəlif siyasi oriyentasiyalar, 3. Bu iki komponentin qarşılıqlı fəaliyyəti. Siyasi mədəniyyətin belə əsaslandırılması baxımından o, fərdin, qrupun, cəmiyyətin münasibətlər tipi olmaq etibarilə, özündə müxtəlif siyasi obyektlərə üç oriyentasiya səviyyəsini birləşdirir.

Birinci səviyyə, sistemli xarakter kəsb edən oriyentasiyanı ifadə edir, başqa sözlə, milli birliyin, rejimin, hakimiyyətin məqsədlərinin nisbi bölüşdürülməsini əks etdirir. O, vətəndaşın davranışını müəyyən edən liderlər, elitalar, təsisatlar və dəyərlər haqqında təsəvvürü özündə ifadə edir.

İkinci səviyyə, aparılan siyasi kursa münasibəti təşkil edən oriyentasiyanı, başqa sözlə, siyasətdə öz nisbi məqsədlərinə münasibəti səciyyələndirir. O, hakimiyyətin hərəkətlərinin vətəndaşın ondan gözlədiyi ilə üst-üstə düşüb-düş-

mədiyini, insanların siyasətdə öz rolu barədə xüsusi təsəvvürlərini təcəssüm etdirir. Vətəndaşların siyasi prosesə cəlb olunması müxtəlif cür ola bilər. **Q.Almond və C.Pauell** siyasi davranışın bir neçə modelini müəyyənləşdirir. Birinci model siyasətdə iştirakçının, vətəndaşın əldə etdiyi informasiya əsasında siyasi həyata real cəlb olunmasıdır. Bu, siyasi sistemdən tələbləri və ya bu tələblərin təmin edildiyi halda siyasi sistemi müdafiə etməyi nəzərdə tutur. İkinci model, **vətəndaşların** siyasi proseslərə cəlb olunmamasını və hakimiyyətin qəbul etdiyi qərara passiv tabe olmalarını ifadə edir. Nəhayət, üçüncü davranış modelində siyasətdən kənar edilən kənd sakinləri özlərinə onun təsirini hiss etmirlər.

Üçüncü səviyyə, "siyasətə nisbi daxil olmaq və ondan uzaqlaşmaq barədə təsəvvürə üstünlük verilməsini bölüşdürmək" oriyentasiyasıdır. O, aparılan siyasətin nəticələrinə liderlərin və sakinlərin münasibətini səciyyələndirir. Burada hökumətin fəaliyyətinin qiymətləndirilməsinin başlıca meyarı kimi, şəxsi təhlükəsizlik və əhalinin rifahının yaxşılaşması çıxış edir.

Siyasi mədəniyyətdə xeyli nəsillərin siyasi həyatının ümumiləşmiş təcrübəsi təcəssüm olunur. O, siyasi fəaliyyətin prinsiplərini və normalarını, xüsusilə siyasi rəhbərliyi, mövcud siyasi təsisatları, vətəndaşların siyasi şüur səviyyəsini, onların siyasət haqqında əldə etdikləri biliklərin dərəcəsini, siyasi sferada davranış üsulunu və s. səciyyələndirir.

Qərb siyasi elmində siyasi mədəniyyət fərdi məqsədlərin və insanların oriyentasiyasının, siyasi həyatın gündəlik hadisə və modellərinin, siyasi fəaliyyətin nümunə və üsullarının məcmuu kimi şərh edilir. Siyasi şüuru səciyyələndirən məqsəd və sərvət yönümü (oriyentasiya) siyasi mədəniyyətin ən mühüm cəhətidir. Eləcə də siyasi fəaliyyətin nümunələri və üsulları, siyasi davranış onun əhəmiyyətli komponenti kimi çıxış edir. Lakin siyasi sferada tarixi yaradıcılığın nəticəsinin ifadəsi olmaq etibarilə, siyasi təsisatlar da siyasi mədəniyyətin tərkib hissəsində mühüm yer tutur.

Qərb siyasi elmində insanın hakimiyyət sferasında

praktiki fəaliyyəti onun siyasi ideallar və dəyərlər axtarışı ilə əlaqələndirilir və siyasi mədəniyyət praktikada daim təkrar istehsal olunan mənəvi proqram, insanların davranış modeli kimi açıqlanır. Bu mənada siyasi fəaliyyət üsulu siyasi mədəniyyəti insanın davranışının daha sabit forması, "mənəvi kodu" kimi səciyyələndirir. Siyasi mədəniyyət eləcə də insanın keçmiş təcrübəni mənimsəməsi baxımdan mənalanır.

Hazırda siyasi mədəniyyət anlayışı xüsusi hadisə olan "mədəniyyətdən" törəmə, cəmiyyətin həyati təzahürlərinin bütövlüyünün ifadəsi kimi fikirlərlə daha çox zənginləşir. Siyasi mədəniyyət spesifik mənəvi hadisə olmaqla, ümumi hakimiyyət sferasında təzahür edir və onun keyfiyyət bütövlüyünü səciyyələndirir.

Siyasi mədəniyyət cəmiyyətin siyasi sistemi ilə qarşılıqlı əlaqə kəsb edir. **O, siyasi sistemin fəaliyyəti prosesində siyasi münasibətlərin xarakteristikası kimi başa düşülməlidir.** Siyasi mədəniyyətin pozitiv və neqativ ünsürləri məhz mövcud siyasi sistemlə şərtlənir. Siyasi mədəniyyəti təşkil edən dəyərlər, siyasi oriyentasiyalar, normalar və stereotiplər sistemində başlıca rol oynayan budur ki, o, siyasi sistemin formalaşmasına və saxlanmasına imkan yaradır. Siyasi mədəniyyətin məzmununa yalnız siyasi sistemin müdafiə olunmasına xidmət edən sərvətlər deyil, eləcə də onun dəyişdirilməsinə təsir göstərən ünsürlər daxildir. Bu cəhət nəinki siyasi mədəniyyətin, həmçinin, bütövlükdə mövcud ictimai-siyasi sistemin mahiyyətinin və inkişaf meylinin əhəmiyyətli göstəricisi kimi səciyyələnir.

Siyasi mədəniyyət ümumi əhəmiyyət kəsb edən siyasi biliklərin səviyyəsini və xarakterini, vətəndaşların siyasi təcrübə ilə şərtlənən fəaliyyətini və davranışını ifadə edir[1]. O, siyasi davranış vasitəsilə reallaşır, dinamik mahiyyət kəsb etməklə, bu və ya digər formada varislik keyfiyyətlərini təcəssüm etdirir. Siyasi mədəniyyət siyasi həyatın özünəməxsus yarımsistemidir. Bir sözlə, **siyasi mədəniyyət anlayışı**

[1] Məcid Əfəndiyev. Siyasi elm. B., 2010, s. 669

özündə şüurun, siyasətin və mədəniyyətin əlamətlərini birləşdirir.

Siyasi mədəniyyətin mahiyyətini və məzmununu dolğun başa düşmək üçün onun **strukturunun** açıqlanması vacibdir. Siyasi mədəniyyət polistrukturlu, çoxsəviyyəli hadisədir. Siyasi mədəniyyətin müxalif sosial və siyasi proseslərlə çoxcəhətli əlaqəsi onun mürəkkəb quruluşunu müəyyən edir.

Siyasi mədəniyyətin strukturunu təşkil edən ünsürlər sosial-iqtisadi, milli-mədəni, ictimai-tarixi və digər uzunmüddətli amillərlə şərtlənir. Buna görə, həmin ünsürlər nisbi sabitliyi, yaşamaq qabiliyyəti, daimiliyi ilə səciyyələnir və yalnız cəmiyyətdə dərin dəyişikliklər prosesində yeni cəhətlər kəsb edir. Siyasi mədəniyyətin strukturuna ilk öncə, uzun müddət ərzində formalaşan xeyli nəsillərin ənənələri, siyasi praktikanın fəaliyyətdə olan normaları, müxtəlif ictimai-syiasi təsisatların qarşılıqlı münasibətləri haqqında ideyalar, konsepsiyalar və inamlar daxildir. Siyasi mədəniyyətin strukturuna eləcə də mövcud siyasi sistemə münasibətdə insanların fəaliyyət yönümü, ayrı-ayrı fərdlər, cəmiyyət və dövlət arasında münasibətlərin prinsipləri daxildir.

Siyasi mədəniyyətin müxtəlif daxili strukturları subyektin siyasi davranışının formalaşması texnologiyasını, konkret ölkənin siyasi mədəniyyətinin təşəkkül mərhələlərini, müxtəlif subyektlərin (elita, elektorat, ayrıca ölkələrin və regionların sakinləri) mövcudluğunu ifadə edir. Məsələn, siyasi mədəniyyət probleminin görkəmli tədqiqatçısı **V.Rozenbaum** hesab edir ki, insanların siyasi sistemə nisbi oriyentasiyası "siyasi mədəniyyətin baza komponentidir"[1]. O, xüsusilə, oriyentasiyanı aşağıdakı blokda differensiallaşdırmağı (ayırmağı) təklif edir:

- dövlət idarəçiliyi **təsisatlarının** nisbi oriyentasiyası. Bu bloka rejimin (dövlət təsisatlarının, normaların, simvol-

[1] Roezenbaum W.A. Politikal Cultur: Bazis Consept in Politikal Science. N.Y., Preaqer publ. 1975. P.6

ların, rəsmi şəxslərin) nisbi oriyentasiyası daxildir;

- siyasi sistemə "digərlərinin" nisbi oriyentasiyası (millətə, dövlətə, müəyyən rayonların sakinliyinə və s. mənsub olmağı dərk etmək), siyasi inam (insanın qarşılıqlı fəaliyyətdə olduğu adamların hərəkətlərinin pozitiv və ya neqativ nəticələrinə inamı ifadə edən);

- xüsusi siyasi fəaliyyətin nisbi oriyentasiyası (siyasi səriştəliliyi səciyyələndirən siyasi həyatda iştirakçılıq, bu məqsədlə müəyyən resurslardan istifadə etmək).

Siyasi oriyentirlər və dəyərlər siyasi mədəniyyəti onların müxtəlif əhəmiyyətini və insanın siyasi fəaliyyətinin formalaşması üçün rolunu nəzərə almaqla strukturlaşdıra bilər. Bu mənada siyasi dəyərlər dünyagörüşü, vətəndaş və xüsusi dəyərlər səviyyəsində təzahür edə bilər.

İnsanın **dünyagörüşü** səviyyəsində sərvət yönümü onun fərdi aləmində siyasət haqqında təsəvvürlər formalaşdırır, həyatı fərdi dərk etməyə istiqamətlənir. **Vətəndaş** sərvət yönümü çərçivəsində insan – hakimiyyət münasibətlərinin iştirakçısı olmaq imkanlarını dərk edir, belə halda onun fəaliyyəti hüquq və azadlıqlarının reallaşmasına təsir göstərir. **Xüsusi siyasi** təsəvvürlər səviyyəsində insan konkret hökumətin, partiyanın, rəsmi şəxslərin və başqalarının fəaliyyətinin praktiki formalarına öz münasibətini müəyyənləşdirir.

Politologiyaya dair ədəbiyatda siyasi mədəniyyətin strukturu həmçinin, **dövlət hakimiyyətinə münasibət və siyasi hadisələri qiymətləndirmək** səviyyəsində nəzərdən keçirilir. Dövlət hakimiyyətinə münasibət səviyyəsi dövlətin şəxsiyyət üzərində üstünlüyünü və ya şəxsiyyətin hüquqlarının dövlətin hüquqlarından aliliyini nəzərdə tutur. Bu cəhət eləcə də hakimiyyət çərçivəsində dövlətin öz vətəndaşlarının hüquq və vəzifələrinə münasibətini şərtləndirir. Siyasi hadisələri qiymətləndirmək səviyyəsi isə insanın müxtəlif mahiyyətli siyasi hadisələrə nüfuz etmək qabiliyyətini, siyasi hadisə və prosesləri obyektiv mövqedən təhlil edib ümumiləşdirmək bacarığını əks etdirir. Siyasi mədəniyyətin strukturunu formalaşdıran cəhətlər sırasında ümumi əhəmiyyət daşıyan

siyasi biliklər, siyasi təfəkkür tərzi, siyasi təfəkkür mədəniyyəti, siyasi davranış və fəaliyyət qabiliyyəti, siyasi hisslər və emosiyalar əhəmiyyətli yer tutur. Belə bir cəhəti yadda saxlamaq vacibdir ki, siyasi davranış və siyasi fəaliyyət siyasi mədəniyyətinin təzahürünün son nəticəsi kimi çıxış edir.

Siyasi mədəniyyətin strukturlaşmasının səciyyəvi üsulu müxtəlif sərvət oriyentirləri (yönümü) və siyasi davranış üsullarıdır. Bu cür strukturlaşma sosial, milli, demoqrafik, ərazi, konfessional və digər ictimai qruplardan asılı olaraq baş verir. Bununla belə, siyasi mədəniyyət subkultura birliklərinin məzmuundan ibarətdir. Həmin subkulturaların daşıyıcıları dövlətə və hakimiyyətə, hakim partiyalara, siyasi iştirakçılıq üsullarına və s. müxtəlif münasibətləri ilə fərqlənirlər.

2. Siyasi mədəniyyətin funksiyaları və tipləri

Siyasi mədəniyyət siyasi həyatda müəyyən konkret funksiyalar həyata keçirir. Siyasi mədəniyyətin funksiyaları siyasi təfəkkürün formalaşmasında, sosial hadisə və prosesləri siyasi cəhətdən düzgün təhlil edib qiymətləndirməkdə əhəmiyyətli rol oynayır. Onun ümumi əhəmiyyət daşıyan ən mühüm funksiyaları aşağıdakılardır:

- **eyniləşdirmə** – insanın mənsub olduğu qrupu daim başa düşmək tələbatının açıqlanması və mövcud cəmiyyətin mənafeyini ifadə və müdafiə etməkdə iştirak, bu məqsədlə özü üçün məqbul olan üsulları müəyyənləşdirmək;
- **oriyentasiya** – insanın siyasi hadisələri mənalandırmaq cəhdini, konkret siyasi sistemdə hüquq və azadlıqlarını reallaşdırmaq imkanlarını başa düşməsi;
- **idraki** – cəmiyyət həyatının siyasi sferası və siyasət haqqında biliklərin toplanması gedişində siyasi gerçəkliyin yaradıcı mənimsənilməsinə istiqamətlənən fəaliyyət, eləcə də müəyyən siyasi mədəniyyət çərçivəsində praktiki fəaliyyət üçün zəruri olan siyasi biliklərin yaradıcı surətdə yenidən işlənməsi;
- **normativ** – bunun vasitəsilə fərdə, sosial qrupa, bütün

cəmiyyətə bu və ya digər normaları və siyasi hadisələri, siyasi davranışı dərk etmək üçün standartlar verilir, siyasi prioritetlər (üstünlüklər) müəyyənləşdirilir;

- **proqramlaşdırma** – müəyyən oriyentasiyaları, norma və təsəvvürləri ifadə etməklə, insanın davranışının təşkilini şərtləndirən müəyyən istiqamət və həd;

- **adaptasiya** (uyğunlaşma) – insanın dəyişilən siyasi mühitə, onun hüquq və hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsinə uyğunlaşmaq tələbatını ifadə edir;

- **tənzimləyici** – təşəkkül tapan siyasi mədəniyyət əsasında çoxcəhətli siyasi münasibətlərin tənzimlənməsini təcəssüm etdirir;

- **əlaqələndirmə** – ümumi qəbul olunmuş terminlərdən, simvollardan, stereotiplərdən, digər informasiya vasitələrindən və ünsiyyət dilindən istifadə etmək əsasında hakimiyyətin bütün subyektlərinin və təsisatlarının qarşılıqlı təsirini şərtləndirir;

- **inteqrasiya** – müəyyən siyasi sistem çərçivəsində müxtəlif sosial təbəqə və qrupların yanaşı mövcudluğunu, dövlətin təhlükəsizliyini və dövlətlə cəmiyyətin qarşılıqlı münasibətlərini təmin edir;

- **aksioloji** – mürəkkəb siyasi şəraitdə insanların sərvət yönümü ilə bağlılığı. Mənimsənilən siyasi mədəniyyətin köməyilə siyasi situasiyanın və siyasi həyat şəraitinin, siyasi davranışın modelinin qiymətləndirilməsi baş verir;

- **sosiallaşma** – insanın müəyyən vərdiş və xüsusiyyətlərə yiyələnməsini və bu əsasda bu və ya digər hakimiyyət sistemində öz vətəndaşlıq hüququnu, siyasi funksiyasını və mənafeyini reallaşdırmaq imkanlarını səciyyələndirir;

- **səfərbərədici və təhrikedici** – öz ifadəsini bütövlükdə cəmiyyətin təkmilləşdirilməsinə istiqamətlənən şüurlu və fəal fəaliyyətdə, belə fəaliyyətə daim tələbat və hazır olmaq qabiliyyətində tapır. Səfərbərədici və təhrikedici funksiyaların sosial mənası ondan ibarətdir ki, bu funksiyalar insanın mənəvi aləmi ilə praktiki fəaliyyətinin qarşılıqlı təsirini şərtləndirir, cəmiyyətin əsaslarının möhkəmləndirilməsinə, hər-

tərəfli təkmilləşdirilməsinə imkan yaradır;

- **sosial təşkilatçılıq** – insanlara məqsədyönlü təsir göstərməklə, onları faydalı sosial yönümlü fəaliyyətə sövq edir, sosial-siyasi fəallığın təşəkkülü, inkişafı və yüksəlməsində qiymətli rol oynayır.

Siyasi mədəniyyət öz fuknsiyalarının reallaşması prosesində siyasi proseslərə və təsisatlara üç cür təsir göstərmək qabiliyyətinə malikdir. Birincisi, onun təsiri altında cəmiyyət üçün ənənəvi olan siyasi həyat formaları **təkrar istehsal oluna bilər**. Buna görə dövlətin islahatlar apardığı dövrdə əhalinin xeyli təbəqəsi yeni məqsədlərə və dəyərlərə zidd olan əvvəlki siyasi qaydaları müdafiə edə bilər. İkincisi, siyasi mədəniyyət cəmiyyət üçün ənənəvi olmayan, **yeni** sosial və siyasi həyat formaları **doğurmağa qadirdir**, üçüncüsü isə əvvəlki və perspektiv siyasi quruluşun elementlərini uyğunlaşdırmağa qabildir.

İctimai inkişaf gedişində bu və ya digər ölkədə siyasi mədəniyyətin müxtəlif **tipləri** işlənib hazırlanmışdır. **Siyasi mədəniyyətin tipləri** hər şeydən əvvəl, vətəndaşların siyasi davranış tərzində müəyyən dəyərləri və standartları (ölçüləri-nümunələri) ifadə edir. Siyasi mədəniyyətin tiplərinin təsnifatının əsasını ictimai-tarixi, milli-mədəni, iqtisadi, mənəvi, dini və digər amillər təşkil edir.

Politologiyaya aid müasir ədəbiyyatda siyasi mədəniyyətin tiplərinin təsnifatına ciddi maraq göstərilir. **X.Ekstayn, Q.Almond, S.Verba, D.Elazar, E.Vyatr** və başqaları siyasi mədəniyyətin tiplərini müxtəlif meyarlarla əlaqələndir. **X.Ekstayna** görə, həmin meyar müxtəlif siyasi sistemlərin, **Q.Almond və S.Verbanın** fikrincə, ölkə və regionların spesifikliyindən, **D.Elazarın** nöqteyi-nəzərincə, vətəndaşların siyasi oyuna oriyentasiyasının tipindən, **D.Kavanın** iddiası baxımdan mədəni komponentlərin daxili bütövlüyündən, **E.Vyatra** görə, ideoloji fərqlərdən ibarətdir.

Elmi ədəbiyyatda siyasi mədəniyyətin tiplərinə aid təsnifatlardan **Q.Almondun və S.Verbanın** təklif etdiyi təsnifat daha çox maraq doğurur. Onlar bu təsnifatın prinsiplərini

1963-cü ildə yazdıqları "Vətəndaş mədəniyyəti" və 1980-ci ildə çap olunan "Bir daha vətəndaş mədəniyyəti haqqında" əsərlərində müəyyənləşdirmişlər. **Q.Almond** və **S.Verba** İngiltərə, İtaliya, AFR, ABŞ və Meksikanın siyasi sistemlərinin fəaliyyətinin başlıca komponentlərini və formalarını təhlil və müqayisə edərək, siyasi mədəniyyətin üç "xalis" tipini müəyyənləşdirmişlər: **paroxial** (patriarxal), **vətəndaş** və **partisipar** (ingilis dilində partisipaton iştirakçılıq deməkdir).

Paroxial-patriarxal siyasi mədəniyyət tipi vətəndaşların siyasətə bir qayda olaraq laqeyd münasibətini səciyyələndirir. Mədəniyyətin bu tipi vətəndaşların qeyri-dəqiq oriyentasiyasını, "rolların və funksiyaların" zəif bölüşdürülməsini nəzərdə tutur. Belə hesab edilir ki, siyasi mədəniyyətin bu tipi daha çox geridə qalan, zəif inkişaf edən ölkələrə məxsusdur.

Vətəndaş siyasi mədəniyyət tipi siyasi təsisatlara güclü oriyentasiyanı və vətəndaşların fərdi fəallıq və səviyyəsinin yüksək olmamasını ifadə edir. Bu tip üçün vətəndaş azadlığı ilə siyasi sistemin sabitliyinin əlaqələndirilməsi, həmçinin, siyasi iştirakçılığın müxtəlif komponentləri arasında tarazlığın yaradılması səciyyəvidir. Qərb tədqiqatçıları çox vaxt siyasi mədəniyyətin bu tipini plüralist demokratiya cəmiyyətinə aid edirlər və onu siyasi mədəniyyətin "yüksək tipi" kimi qiymətləndirirlər.

Partisipar – iştirakçılıq tipi isə siyasi iştirakçılıqda vətəndaşların maraqlı olmasını və onların fəallıq təzahür etdirməsini ifadə edir.

Q.Almond siyasi mədəniyyətin yuxarıda qeyd etdiyimiz üç "xalis" tipi ilə yanaşı, onun digər tiplərinin mövcudluğunu da iddia edir: **homogen (eyni mənşəli), natamam, qarışıq və totalitar**. Bu görkəmli tədqiqatçı bildirir ki, ABŞ, Böyük Britaniya və digər anqlosaks ölkələrində homogen siyasi mədəniyyət tipi üstünlük təşkil edir. Homogen siyasi mədəniyyəti səciyyələndirən cəhət ondan ibarətdir ki, siyasi proseslərin subyektlərinin böyük əksəriyyətini mövcud siyasi sistemin təşkilinin başlıca prinsipləri və ümumi normaları

müəyyənləşdirir. Belə siyasi mədəniyyət şəraitində siyasi sistemin əhəmiyyətli ünsürləri olan siyasi partiyalar, mənafeləri uyğun gələn qruplar (mənafe qrupları) və hakimiyyətin "dördüncü" qolu adlandırılan kütləvi informasiya vasitələri xeyli dərəcədə müstəqil fəaliyyət göstərmək imkanına malik olur və nəticə etibarilə, bütün mənafelərin və mövqelərin qanuniliyi etiraf olunur. Bu isə öz növbəsində cəmiyyətdə praqmatik siyasi xəttin həyata keçirilməsinə zəmin yaradır, müxtəlif sosial subyektlər arasında konsensusun (razılığın) baş tutmasını təmin edir.

Kontinental Avropa ölkələrinin siyasi mədəniyyəti eləcə də **natamam tipli** olması ilə səciyyələnir. Natamam siyasi mədəniyyət siyasi qaydalara münasibətdə müxtəlif sosial qruplar arasında zəruri konsensusun qeyri-mümkünlüyü ilə nəzərə çarpır. Siyasi mədəniyyətin natamam-yarımçıq tipində faydalı fəaliyyət yönümünə və davranış qaydalarına görə bir-birinə uyğun gəlməyən xeyli subkulturalara (subkultura – müəyyən etnik qrupların, sosial təbəqə və qrupların, ictimai təşkilatların spesifik siyasi mədəniyyəti kimi səciyyələnir) təzahür olunur. Bir-birinə zidd subkulturalarla səciyyələnən natamam siyasi mədəniyyət tipi Fransa və İtaliyanın müxtəlif siyasi inkişaf mərhələlərində təzahür etmişdir. Belə siyasi mədəniyyət şəraitində siyasi sabitliyin pozulması diqqəti cəlb edir.

Qabriel Almond totalitar siyasi mədəniyyət tipinin izahına xüsusi diqqət yetirir və onu digər tiplərin hamısından köklü surətdə fərqləndirir. Totalitar siyasi mədəniyyət zahirən homogen tipi xatırladır. Lakin totalitar siyasi mədəniyyətdə homogenlik (eyni mənşəyə malik olmaq) süni xarakter daşıyır. Heç də təsadüfi deyil ki, totalitar siyasi mədəniyyət tipində könüllü təşkilatlar və birliklər qadağan olunur. Bu tipin mövcud olduğu şəraitdə vətəndaşların hakim siyasi elitaya rəğbət dərəcəsini müəyyənləşdirmək çətin olur.

Almond və Verbanın təsnifatını təkmilləşdirmək əsasında **U.Rozenbaum** siyasi mədəniyyətin **yeni – inteqrallaşan tipini** müəyyənləşdirir. Siyasi mədəniyyətin bu tipi cəmiyyə-

tin siyasi təşkilinin başlıca məsələlərinə aid yüksək dərəcədə konsensusun mövcudluğu, siyasi zorakılığın aşağı səviyyəsi və plüralizmin müxtəlif formalarının mükəmməlliyi ilə fərqlənir.

Amerika politoloqu **D.Elazarın** fikrincə, siyasi mədəniyyətin üç başlıca tipi mövcuddur: **əxlaqi, fərdi və ənənəvi**. Digər Amerika politoloqu **U.Blyum** isə siyasi mədəniyyətin **liberal və kollektiv tiplərə** malik olduğunu iddia edir.

Vətəndaşların müxtəlif dəyərləri, normaları, standartları (ayrı-ayrı ölkələr üçün səciyyəvi olan) eyni dərəcədə mənimsəməməsini nəzərə alaraq, tədqiqatçılar siyasi mədəniyyətin **konsensual (razılaşdırıcı)** və **polyarlaşmış (qütbləşən)** tipinin mövcudluğunu da bildirirlər. Siyasi mədəniyyətin konsensual tipi əhalinin nisbi aparıcı dəyərlər, məqsədlər əsasında son dərəcə birliyini (dövlət və cəmiyyət tərəfindən təmin olunan) ifadə edir. Buna görə, həmin siyasi mədəniyyət tipində bir qayda olaraq, vətəndaşların hakim dairələrə və rejimin məqsədlərinə loyallığı (qanun çərçivəsində hərəkəti) yüksəkdir. Polyarlaşmış siyasi mədəniyyət tipində cəmiyyətdə təşəkkül tapan subkulturalar baza dəyərlərinin və əhalinin siyasi fəaliyyətinin oriyentirlərinin kəskin şəkildə üst-üstə düşməməsilə (horizontal subkulturaların uyğunsuzluğu ilə), eləcə də elita və elektoratın qarşı durması (vertikal subkulturaların uyğunsuzluğu) ilə fərqlənir. Siyasi mədəniyyətin əhatə dairəsinə görə daha **geniş, böyük tipləri** bunlardır: **liberal-demokratik, avtoritar və totalitar**[1].

Müxtəlif mədəni-siyasi törəmələrin formalaşması və inkişafı prosesinin mürəkkəb mədəni dəyərlər kompleksinin ümummədəni, milli və sosial-siyasi xarakteristikasına diqqət yetirilməsi zəruridir.

Ümummədəni (mədəni-sivil) amil cəmiyyətin siyasi mədəniyyətinin özünəməxsusluğunun səciyyəvi cəhətlərini başa düşmək üçün prinsipial əhəmiyyət kəsb edir. O, özündə son dərəcə geniş miqyaslı hadisələrlə bağlı olan mənəvi dəyərlər

[1] Əhatəli təsəvvürə malik olmaq üçün bax: Məcid Əfəndiyev. Siyasi elm. S. 697-707

sistemini əks etdirir. Bu dəyərlər (mədəni-sivil planda) dünyagörüşü xüsusiyyətlərini, dini fərqləri, insanların dünyanı dərk etməsinin spesifik əsasını, siyasi davranış üsullarını, hakimiyyətə münasibəti və s. müəyyən edə bilər. Bununla bağlı, məsələn, avropa, asiya, ərəb, slavyan mədəniyyətlərinin xüsusiyyətləri, katoliklərin, pravoslavların, müsəlmanların, buddistlərin, sintoistlərin və digər dini məzhəblərin fəaliyyətinin spesifik dini-əxlaqi prinsipləri fərqləndirilir. Eləcə də böyük və kiçik xalqların siyasi mədəniyyətləri müqayisə edilir. **K.Manheym** iddia edir ki, avropa mədəniyyəti çərçivəsində liberal və mühafizəkar, sonralar isə sosialist siyasi təfəkkür tərzi formalaşmışdır.

Siyasi mədəniyyətin formalaşması və təkamülü üçün **milli-tarixi** amil mühüm əhəmiyyətə malikdir. O, siyasi davranışın tipik nümunələri sisteminin yaranmasına, millətin mövcudluğunun uzun müddətli dövründə onun üzvlərinin əksəriyyətinin hərəkətlərinin tənzimlənməsinə təsir göstərir. Milli-tarixi amilin təsiri sayəsində mövcud cəmiyyət, xalq, ölkə üçün səciyyəvi olan dəyərlər sistemi təşəkkül tapır.

Nəhayət, siyasi mədəniyyətin xarakterində **sosial-sinfi** amillər gözə çarpan iz qoyur və bu, cəmiyyətin sosial-sinfi strukturunun xüsusiyyətlərində, onun inkişaf meylində, real vəziyyətində, bu və ya digər sosial qrupun keyfiyyət tərkibində təzahür edir, eləcə də siyasi elitanın tərkibinin özünəməxsusluğunda üzə çıxır.

Siyasi mədəniyyətin başlıca parametrlərində təzahür edən prinsipial fərqlər **mədəniyyətə əks olan** hadisəni **(kontrmədəniyyəti)** doğura bilər. Kontrmədəniyyət hadisəsinin formalaşması və inkişafı cəmiyyətdə parçalanmanın, qeyri-siyasi sabitliyin əlaməti və siyasi ixtilafların amili kimi çıxış edə bilər. Siyasi kontrmədəniyyət mədəniyyətin müstəqil variantı kimi səciyələnir. Buna görə siyasi sabitliyin saxlanmasının vacib şərti yalnız ümumi siyasi mədəniyyətlə subkulturalar arasında səmərəli tarazlığın müəyyənləşdirilməsi deyil, eləcə də subkulturaların kütləvi kontmədəniyyətə çevrilməsinə yol verməməkdir.

3. Siyasi sosiallaşma

Siyasi mədəniyyətin səciyyəvi cəhəti ondan ibarətdir ki, o, cəmiyyətin təbii-tarixi inkişafının məhsuludur, kollektiv siyasi yaradıcılığın nəticəsidir, siyasi təcrübənin sabit tərəfini möhkəmləndirir, total xarakter daşıyır, çünki siyasi münasibətlər siyasi mədəniyyətlə "nüfuz edir, təmin olunur və qidalanır", əhalinin əsas kütləsinin siyasi şüurunu və siyasi davranışını səciyyələndirir.

Ümumiyyətlə, siyasi mədəniyyət

- şəxsiyyətin siyasi oriyentasiyasını müəyyənləşdirir;
- insanın siyasət aləminə daxil olmasını təmin edir;
- siyasi dəyərlərə (demokratiya, azadlıq, insan hüququ və s.) münasibəti formalaşdırır;
- kütlələrin siyasi təcrübəsini zənginləşdirir;
- siyasi fəallığı artırır;
- ənənələri, nəsillərin varisliyini saxlayır.

İnsanın siyasət aləminə cəlb olunması onun normaları, nümunələri, davranış qaydalarını və ölçüsünü, ənənələri mənimsəməsini və qoruyub saxlamasını təcəssüm etdirir.

İnsanın davranış standartlarını, mədəni sərvətləri və dəyərli fəaliyyət yönümünü mənimsəməsi prosesi onun konkret siyasi sistemə uyğunlaşmasına imkan yaradan cəhətlərin və bacarığın formalaşmasına gətirib çıxarır. Bununla bağlı insan **müəyyən funksiyanı yerinə yetirir**. Elmi ədəbiyyatda həmin funksiya **siyasi sosiallaşma** adlandırılır. "Siyasi sosiallaşma" terminini siyasi elmə ilk dəfə **Q.Haymen** gətirmişdir ("Siyasi sosiallaşma" əsərində).

Siyasi sosiallaşma prosesi XX yüzilliyin 20-ci illərindən başlanmışdır. Siyasi sosiallaşma mürəkkəb və ziddiyyətli proses olduğu üçün, elmdə o, müxtəlif səpkidə şərh edilir. Məsələn, Çikaqo məktəbinin nümayəndələri (**L.Koen, L.Lipton, T.Parsons**) siyasi prosesi insanın oynadığı məşq xarakterli rol kimi nəzərdən keçirirlər **K.Luman və A.Qelen** onu insanın mənimsədiyi yeni dəyərlər kimi qiymətləndirirlər. **E.Erikson və Fromm** isə siyasi mədəniyyətin tədqiqi ilə bağlı, siyasi fəaliyyətin qeyri-şüurlu motivlərinə (siyasi eti-

raz formasına, kontrmədəniyyət davranışına) başlıca diqqət yetirirlər. Bir sözlə, politologiyada (siyasi elmdə) siyasi sosiallaşma prosesinin mahiyyətini başa düşməyə aid uzun müddət vahid konsepsiya mövcud olmamışdır. Şəxsiyyətin siyasi sosiallaşmasının ilk sanballı, politoloqların əksəriyyəti tərəfindən qəbul olunan nəzəriyyəsi **D.İstonun** rəhbərliyi altında ABŞ-ın Çikaqoda fəaliyyət göstərən bir qrup alimi tərəfindən işlənib hazırlanmışdır. Bu nəzəriyyəni müdafiə edən alimlərin çoxu, xüsusilə **L.Koen, R.Lipton və T.Parsons** siyasi sosiallaşmanın mahiyyətində insanın siyasi sistemlə və onun təsisatları ilə qarşılıqlı fəaliyyətini başlıca cəhət kimi əsaslandırmağa çalışırlar.

Siyasi mədəniyyət kontekstində təşəkkül tapan siyasi sosiallaşma məsələsi nisbi müstəqillik kəsb edən nəzəri və praktiki problemdir. Siyasi sosiallaşma cəmiyyət tərəfindən və mədəni ənənələrdə, dəyərlərdə və siyasi davranış normalarında cəmləşən sosial və siyasi təcrübənin şəxsiyyət tərəfindən mənimsənilməsi prosesidir. İnsanın mənimsədiyi normalar, münasibətlər və davranış mövcud siyasi sistemin üstünlüklərinin reallaşmasına xidmət etməlidir. Siyasi sistemin inkişafı nəticəsində bu və ya digər siyasi mədəniyyət tipi dəyişir və ya möhkəmlənir. Belə halda fərd nəinki müəyyən siyasi mühitə uyğunlaşır, davranış nümunələrini mənimsəyir, siyasətin subyekti kimi formalaşır, eləcə də keçmiş təcrübənin, əldə olunan siyasi mədəniyyətin saxlanmasına, yeni forma almasına çalışır. Beləliklə, siyasi sosiallaşma prosesində üç başlıca məsələ həll edilir: cəmiyyətin yeni üzvlərinə onun siyasi mədəniyyətinin və şüurunun başlıca elementlərinin bəxş edilməsi; siyasi fəaliyyət və yaradıcılıq naminə, fərdin zəruri siyasi təcrübə əldə etməsi üçün əlverişli şəraitin yaradılması; dəyişikliyin zəruri şərti kimi siyasi mədəniyyətin müvafiq elementlərinin yeni şəklə salınması.

Siyasi sosiallaşma ikitərəfli prosesdir: bir tərəfdən, onun gedişində şəxsiyyətin mövcud hakimiyyət sisteminə, digər tərəfdən, hakimiyyətin öz vətəndaşlarının ehtiyac və tələblərinə uyğunlaşması təmin olunur. Buna görə siyasi so-

siallaşmanı hakimiyyət təsisatları ilə vətəndaşlar arasında qarşılıqlı inamın yaranması və saxlanması kimi səciyyələndirmək olar. Bu proses fasiləsizliyi ilə fərqlənir və təcrübənin açıq və ya gizli formada verilməsi ilə səciyyələnir. Beləliklə, cəmiyyətin şəxsiyyətin siyasi keyfiyyətinə təsiri daxili inam və etiqadla məhdudlaşır. Təsadüfi deyil ki, **X.Q.Qadamer** ənənəni "azadlıqla tarixin kəsişmə nöqtəsi" adlandırır (insanın onu şüurlu seçimi mənasında).

Politoloji ədəbiyyatda **siyasi sosiallaşmanın üç başlıca mərhələsi** müəyyənləşdirilir. Şəxsiyyətin sosiallaşmasının başlanğıc mərhələsinin təşəkkülü onun cəmiyyət haqqında ilk elementar biliklərlə tanışlığı, ümumi təsəvvürünün və əhval-ruhiyyəsinin formalaşması ilə səciyyələnir. Bu mərhələ uşaqlıq yaşı ilə bağlıdır və adətən, üç-beş yaşdan başlanır. Siyasi sosiallaşma prosesinin başlanğıc mərhələsinin əsasını gerçəkliyin irrasional dərk olunması təşkil edir. Siyasi həyata aid ilk təsəvvür ailədə, kütləvi informasiya vasitələrindən və yaxın əhatə dairəsində əldə olunur. Fərdin siyasi sosiallaşmasına ilk təsir göstərən başlıca təsisat ailədir. Ailə üzvləri müəyyən sosial qrupa mənsub olmaqla, təmsil etdiyi sosial qrupun marağını, tələbatını, siyasi fəaliyyət yönümünü əks etdirirlər. Bu cəhət təbii olaraq fərdin sosial mahiyyətinin, fəaliyyət yönümünün formalaşmasına və gələcəkdə onun siyasət sferasında konkret mövqeyinin reallaşmasına təsir göstərir.

Siyasi sosiallaşmanın **ikinci – fəal fəaliyyət** mərhələsi siyasətə müstəqil marağın mövcudluğu, müəyən siyasi oriyentasiyanın seçimi və qəbul olunması, davranışın **rasional-sübut edilən** əsasları ilə müəyyənləşir. Bu mərhələdə şəxsiyyət müxtəlif növ dəyərlərin, məqsədlərin və normaların müstəqil surətdə istehsalına (yaradılmasına) qadir olur. Sabit və bütöv siyasi sosiallaşma zaman etibarilə, fəal ictimai-siyasi fəaliyyətlə üst-üstə düşür. İnsanın siyasi mahiyyəti məhz əmək fəaliyyəti və ictimai-siyasi fəaliyyət dövründə (ikinci mərhələdə) reallaşır, lakin siyasi keyfiyyət insanın yalnız geniş informasiyaya malik olması ilə deyil, hər şeydən

əvvəl, siyasi biliklərin dərinliyi, siyasi təfəkkürün inkişafı, sərvət yönümünün və məqsədlərin sabitliyi ilə müəyyənləşir. Fərdin siyasi sosiallaşmasının ikinci mərhələsi onun müxtəlif təmayüllü təhsil ocaqlarına cəlb edilməsi ilə başlanır. Humanitar və xüsusilə, sosial fənləri mənimsəməklə gənclər yeni siyasi biliklərə yiyələnmək imkanı əldə edirlər. Nəinki təhsil prosesində, eləcə də müəyyən kortəbii amillərin təsiri nəticəsində fərdlər siyasətə aid xeyli biliklər mənimsəyir və tədricən onlarda siyasətin özünə konkret münasibət formalaşır, mənimsənilən siyasi bilik və təcrübə real həyatla məqsədyönlü əlaqələndirilir.

Nəhayət, sosial və siyasi yetkinlik kimi səciyyələnən **üçüncü mərhələ** siyasi sosiallaşmanın əvvəlki mərhələsinin xarakteristikasının inkişafı ilə bağlıdır. Bu mərhələdə şəxsiyyətin siyasi oriyentasiyasında əldə edilən **həyat təcrübəsi və siyasi təcrübə** daha böyük rol oynayır.

Yetkinlik mərhələsində ictimai-siyasi hadisə və prosesləri daha dərindən qiymətləndirmək qabiliyyəti təzahür edir. Siyasi sosiallaşmanın üçüncü mərhələsində eləcə də istər-istəməz insanın təfəkküründə, oriyentasiyalarında və davranışında müəyyən mühafizəkarlıq yaranır. Sosial və siyasi yetkinlik mərhələsinin səciyyəvi cəhəti ondan ibarətdir ki, insan ilk öncə, xüsusi sosial və siyasi mövqeyə malik olur, siyasi fəaliyyətdə şəxsən iştirak təcrübəsinə yiyələnir.

Şəxsiyyətin siyasi mahiyyəti hər şeydən əvvəl və daha çox onun sosial yetkinlik dövründə reallaşır. Sabit və mükəmməl siyasi mövqeyə malik olan fərd geniş və dərin informasiyaya yiyələnməsi, çoxcəhətli siyasi biliklər əldə etməsi, təcrübə toplaması, məqsədyönlü siyasi fəaliyyət yönümü və yüksək siyasi təfəkkür tərzi ilə səciyyələnir.

Ümumiyyətlə, sözün geniş mənasında siyasi sosiallaşmanı müəyyən mərhələlərlə məhdudlaşdırmaq olmaz. Siyasi sosiallaşma insanın bütün həyatı boyu davam edən prosesdir. Bu proses insanın sosial yetkinliyinin formalaşdığı dövrdən, yəni fərdlərin əmək həyatına qədəm qoyduğu və siyasi fəallığının təzahür etdiyi vaxtdan başlayaraq daim yeniləşir

və inkişaf edir.

Siyasi sosiallaşma məsələsinin öyrənilməsi ilə bağlı **siyasi sosiallaşma təsisatlarına** diqqət yetirilməsi çox vacibdir. Bir qayda olaraq politoloji ədəbiyyatda həmin təsisatlar şəxsiyyətin siyasətə cəlb olunması "vasitəsi" kimi müəyyənləşdirilir, eləcə də **sosiallaşma agentləri** adlandırılır. Siyasi sosiallaşma təsisatlarına və ya agentlərinə ailə, təhsil sistemi, ictimai və siyasi təsisatlar (təşkilatlar), kilsə, (məscid), kütləvi informasiya vasitələri və ayrıca siyasi hadisələr (məsələn, inqilab, hakimiyyət tərəfindən repressiyalar, aclıq və s.) aid edilir. Bu sosiallaşma vasitələri insanın inam və etiqadlar sisteminə başlıca təsir göstərir.

Siyasi sosiallaşma agentlərinin səmərəli və ciddi təsiri xeyli amillərdən asılıdır. Lakin həmin təsir ilk öncə, insanın yaşı və daxili vəziyyəti, onun sosial və siyasi proseslərə cəlb olunmasının intensivliyi, sosiallaşma vasitələrinin yerinə yetirdiyi funksiyaların xarakteri və onların həyata keçirilməsinin sivil və tarixi şəraiti ilə şərtlənir. Siyasi sosiallaşmanın bütün mərhələlərində kütləvi informasiya vasitələri xüsusi rol oynayır. KİV vətəndaşların siyasi mövqeyinə böyük təsir imkanlarına malikdir. Buna görə, KİV-in, xüsusilə, elektron informasiya vasitələrinin şəxsiyyətin siyasi subyektliyinin formalaşmasında rolunun yüksəlməsi ümumdünya meyli kimi səciyyələnir.

Siyasi sosiallaşma gedişində şəxsiyyətin müəyyən strukturu təşəkkül tapır. Bu prosesdə siyasi oriyentasiya sabit xarakter kəsb edir, möhkəm inama və həyati məqsədlərə çevrilir. Siyasi sosiallaşma prosesində siyasi görüşləri həyati reallıqlarla əlaqələndirməyə imkan yaradan praktiki siyasi təcrübə xüsusi rol oynayır.

V FƏSİL
VƏTƏNDAŞ CƏMİYYƏTİ

1. Vətəndaş cəmiyyətinə konseptual yanaşma

Vətəndaş cəmiyyəti ideyası Yeni dövrün ən mühüm siyasi ideyalarından biridir. XVII əsrin ortalarında Avropada meydana gələn "vətəndaş cəmiyyəti" anlayışı müəyyən təkamülə məruz qalmaqla, bir neçə konsepsiyanın və nöqteyi-nəzərin yaranmasını şərtləndirmişdir. Lakin o, daim "dövlət" anlayışına qarşı nəzərdən keçirilmişdir. Siyasi fikirdə vətəndaş cəmiyyəti anlayışına aid iki başlıca klassik nəzəriyyə mövcuddur: **liberal doktrina və marksist konsepsiya.**

Vətəndaş cəmiyyətinə aid **liberal** nöqteyi-nəzərin mənşəyi **T.Hobbs və C.Lokkun** dövrünə təsadüf edir. Onlar "vətəndaş cəmiyyəti" anlayışını insan cəmiyyətinin tarixini əks etdirmək, insanın təbii vəziyyətdən sivil həyata keçməsini ifadə etmək üçün işlətmişlər. Sivilizasiyanın, dövlətin nə olduğunu bilməyən insan "vəhşi", "təbii" vəziyyətində ümumi qarşılıqlı düşmənçilik və müharibə xaosunda (hərcmərclik şəraitində) inkişaf edir. Təbii olaraq dövlətəqədərki vəziyyətdə cəmiyyət sivil ictimai-siyasi qaydalara və vətəndaş cəmiyyətinə qarşı qoyulur. Cəmiyyətin və insan həyatının təbii başlanğıcı kimi insanın təbiəti deyil, məhz sivillik, başqa sözlə, birgə yaşamaq üçün insanın müstəsna qabiliyyətə malik olması əsas götürülür. Vətəndaş cəmiyyəti insanın qidaya, paltara, mənzilə olan başlıca tələbatının ödənilməsinin şərti kimi təsdiqlənir. O, ictimai həyatın müxtəlif sferalarının (iqtisadi, sosial, mədəni) differensasiyası və emansipasiyası (xilası) prosesi nəticəsində təzahür etmişdir. Məhz bu çərçivədə fərdin gündəlik tələbatının təmin olunması baş verir.

İctimai həyatın müstəqil sferalarının təşəkkülü fərdin fəaliyyətinin artan müxtəlifliyi və sosial münasibətlərin mürəkkəbləşməsi prosesini əks etdirirdi. Sosial münasibətlərin müxtəlifliyi hakimiyyətdən asılı olmayan muxtar şəxsiyyətin təşəkkülünün nəticəsi idi. **C.Lokka** görə, müstəqil fərdin kri-

stallaşmasının (büllurlaşmasının) əsasını **xüsusi mülkiyyət** təşkil edir.

Dövlətlə vətəndaş cəmiyyəti arasındakı münasibətlər **ictimai müqaviləyə** əsaslanırdı. Dövlət və vətəndaş cəmiyyəti insanların başlıca tələbatının ödənilməsi və fərdin həyat fəaliyyətinin təmin olunması üçün birgə şərait yaratdıqları üçün həmin münasibətlər mahiyyət etibarilə, sivil xarakter kəsb edirdi. Dövlət vətəndaşın ayrılmaz hüququnu qoruyur və hakimiyyətin köməyilə təbii düşmənçiliyi məhdudlaşdırır, vətəndaş cəmiyyəti isə hakimiyyətin hökmranlığının qarşısını alır. Vətəndaş cəmiyyətinə aid liberal görüşlərdə **G.Hegelin** konsepsiyası xüsusi yer tutur. O, vətəndaş cəmiyyətini etatist[1] mövqedən nəzərdən keçirmişdir. **Hegelin** fikrincə, vətəndaş cəmiyyəti əməyin köməyi ilə öz gündəlik tələbatını ödəyən fərdlərin məcmuudur. Vətəndaş cəmiyyətinin əsasını xüsusi mülkiyyət təşkil edir. Bununla belə, **Hegel** hesab edirdi ki, tərəqqinin hərəkətverici qüvvəsi vətəndaş cəmiyyəti deyil, məhz dövlətdir. **Hegelə** görə, dövlətin vətəndaş cəmiyyətinə münasibətdə üstünlüyü onunla bağlıdır ki, hər şeyin əsası "Mütləq Ruhdan", "Mütləq ideyadan" ibarətdir. Vətəndaş cəmiyyəti Ruhun-İdeyanın "başqa varlıq formasıdır", bütün məziyyətləri məhz dövlət ifadə edir və o, Dünya özünü inkişafının ən başa çatmış təcəssümüdür. İdeya insan şəxsiyyətinin özünün, siyasi, maddi və mənəvi başlanğıcın ümumiliyinin qüdrətli təzahürüdür. Dövlət insanı təsadüflərdən qorumuş, ədaləti təmin etmiş və mənafelərin ümumiliyini reallaşdırmışdır. Vətəndaş cəmiyyəti və fərd dövlətə tabe olmuşdur, çünki ayrı-ayrı qrupları və fərdləri məhz dövlət üzvü bütövlükdə birləşdirir (onların həyat fəaliyyətini mənalandırmaqla). Hər şeyi əhatə edən dövlətin mövcudluğunun təhlükəsi ondan ibarətdir ki, o vətəndaş cəmiyyətini canına hopdurur və vətəndaşların hüquq və azadlığına təminat verməyə cəhd etmir.

[1] Etatizm – ictimai həyatın bütün sferalarına dövlətin təzyiqi

Vətəndaş cəmiyyəti haqqında spesifik klassik görüşlərdən digəri marksist konsepsiyadır. Bu konsepsiya dövlətin vətəndaş cəmiyyətinə münasibətdə birinciliyinə aid **G.Hegelin** tezisini təkzib edir. **E.Marks** vətəndaş cəmiyyətini qlobal cəmiyyətin əsası, fərdin həyat fəaliyyətini isə tarixi inkişafın həlledici amili hesab edirdi. Bu fikir tarixin materialist anlayışından irəli gəlirdi. Həmin anlayışa görə, cəmiyyətin təkamülü maddi həyat şəraitinin təkamülünün nəticəsidir. Vətəndaş cəmiyyəti fərdlərin maddi münasibətlərinin məcmuundan ibarətdir. **Marks** vətəndaş cəmiyyətini bilavasitə istehsaldan inkişaf edən ictimai təşkilat kimi nəzərdən keçirmişdir. Fərdin iqtisadi, istehsal münasibətlərinin məcmuu (başqa sözlə, istehsal prosesində fərdlərin öz aralarındakı münasibət) və onlara uyğun gələn məhsuldar qüvvələr (istehsal vasitələri və işçi qüvvəsi) bazisi təşkil edir. İqtisadi bazis üstqurumu: siyasi təsisatları (o cümlədən, dövləti), hüququ, əxlaqı, dini, incəsənəti və s. şərtləndirir. Dövlət və siyasət istehsal münasibətlərinin ifadəsidir.

Üstqurumun bazisdən asılılığı tezisini irəli sürməklə, **Marks** hesab edirdi ki, dövlət istehsal vasitələrinə sahib olan sinfin siyasi hökmranlığı alətidir. Beləliklə, **Marksa** görə, burjua dövləti iqtisadi cəhətdən hökmranlıq edən sinfin-mülkiyyətçinin mənafeyinin reallaşması və müdafiəsi mexanizmidir. Belə dövlətin **vətəndaşları** məhz mülkiyyətçi siniflər və sosial qruplardır. Təsadüfi deyil ki, alman dilində "burjua" və "vətəndaş" sözləri bir-birinin sinonimi kimi çıxış edir. Dövlət hakimiyyətinin hakim sinifdən asılılığı dövlətin siyasi funksiyasını nəzərə çarpacaq dərəcədə genişləndirir. Siniflərin nümunəsində vətəndaş cəmiyyətinin müəyyən qisminin siyasi həyata cəlb olunması (seçki və digər vətəndaş hüquqlarının genişləndirilməsi sayəsində) siyasətin çərçivəsini böyüdür. Siyasət artıq dövlətin fəaliyyətinə aid edilmir, ona həmçinin, vətəndaş cəmiyyətinin mənafeyini təmsil edən siyasi partiyalar, maraq qrupları qoşulurlar. **K.Marks** kapitalizm şəraitində vətəndaş cəmiyyəti və dövlət arasında ziddiyyətlərin aradan qaldırılması imkanlarını yeni tipli cə-

miyyətin – kommunizm yaranması ilə (dövlətin olmadığı cəmiyyətlə) əlaqələndirirdi. Lakin **Marks** nəzərə almırdı ki, siyasi və iqtisadi hakimiyyəti öz əlində mərkəzləşdirən proletar dövləti şəraitində vətəndaş cəmiyyəti muxtarlıqdan məhrum olur. Çünki vətəndaş cəmiyyəti o zaman muxtar ola bilər və vətəndaşların gündəlik mənafeyinin həyata keçirilməsi üçün həqiqi mühit yarada bilər ki, məhz siyasət iqtisadi münasibətlərdən təcrid edilsin.

XX əsr vətəndaş cəmiyyəti haqqında konsepsiyaların başlıca müddəalarına yeni maraq doğurdu. İnsan hüquqları, şəxsi həyatın toxunulmazlığı, azad sahibkarlıq, plüralizm, qanunçuluq, aşkarlıq məhz bu qəbildəndir. Əlbəttə, vətəndaş cəmiyyətinə aid yeni müddəaların işlənib hazırlanması obyektiv və subyektiv xarakterli amillərlə bağlıdır. Bu baxımdan postindustrial mərhələnin yeni sosial reallıqları və müəlliflərin ideoloji tərəfkeşliyi daha önəmlidir.

Vətəndaş cəmiyyətinə aid yeni yaradıcı şərh Amerika sosioloqu **T.Parsonsun sosioetal cəmiyyət** konsepsiyasında öz əksini tapmışdır. O, ənənəvi və müasir cəmiyyətin fərdi və kollektiv sintezinin həyata keçirilməsinə cəhd etmişdir (həmrəylik və sosial inteqrasiya prinsipini vurğulamaqla). **Parsonsa** görə, sosioetal cəmiyyət cəmiyyətin inteqrativ yarımsistemidir. Onun fikrincə, üç müasir inqilab – sənaye, demokratik və təhsil inqilabları sayəsində mədəni, iqtisadi və siyasi yarımsistemlərə ayrılmaqla, sosioetal cəmiyyətin differensasiyasının yeni modeli təşəkkül tapmışdır. Hər bir yarımsistemdən ayrıca və xüsusi təsisatlar yaranmışdır. İngiltərədə baş verən sənaye inqilabi ilk kapitalist inkişaf meylini başa çatdırdı, ictimai əmək bölgüsünün görünməmiş səviyyədə genişlənməsinə gətirib çıxartdı və iqtisadi cəmiyyəti dövlətdən ayırdı. Mərkəzi Fransa hesab olunan siyasi inqilab həmrəyliyin yeni tipini yaratdı və ümummilli kollektivin (millətin) təzahürü ilə nəticələndi və üzvləri vətəndaş hüquqları ilə yanaşı, siyasi hüquqlar əldə etdilər. Təhsil inqilabı isə insanın mənşəyinə əsaslanmaqla, sosial strukturu bayağılıqdan və sosial stratifikasiyadan azad edir, universitet isə bu

inqilabın mərkəzi təsisatlı kompleksi olmaqla, həmrəyliyə əsaslanan sosial təşkilatın modelinin işlənib hazırlanmasını təmin edir. Təhsil inqilabının başa çatması ilə vətəndaş cəmiyyətinin (sosioetal cəmiyyətin) ayrılığı prosesi baş verir.

Sosioetal cəmiyyət **T.Parsons** tərəfindən iki mənada başa düşülür. **Normativ** kontekstdə o, hüquq normasında təsisatlaşmış mədəni sərvətlər əsasında yaradılan legitim mexanizmi nəzərdə tutur, funksional mənada isə cəmiyyət vahid, qarşılıqlı əlaqədə olan və mütəşəkkil mahiyyət kəsb edən sistem kimi səciyyələnir. Sosioetal cəmiyyət qanun və assosiasiya üçün əsas yaradan çərçivəni müəyyənləşdirir. O, vətəndaşlıq haqqında kompleks təsəvvürün inkişafı ilə bağlıdır və dövlətdə deyil, məhz sosioetal cəmiyyətdə vətəndaşlar üçün bərabər şəraitin mövcudluğunu ifadə edir.

"Vətəndaşlıq" anlayışı özündə üç komponenti birləşdirir: 1. Fərdin subyektiv, ayrılmaz hüququ kimi başa düşülən "neqativ azadlıq" (xüsusi mülkiyyət hüququ, söz, etiqad, yığıncaq, assosiasiya yaratmaq hüququ). Bunlar dövlətdən asılı olmayan muxtar sosioetal cəmiyyəti möhkəmləndirir və sonuncunun birincidən üstünlüyünü təmin edir; 2. Vətəndaşlıqla bağlı olan siyasi hüquq. Bu, səsvermə vasitəsilə nümayəndəli idarəetmədə iştirak etmək imkanlarını və siyasətə təsir göstərmək hüququnu səciyyələndirir; 3. Vətəndaşlığın fundamental elementləri – hüquqların həyata keçirilməsi üçün zəruri olan sosial resurslar və imkanlar. Bunlar vətəndaşların öz hüquqlarından istifadə etmələri üçün "formal" bərabərliyin deyil, "real" şəraitin yaradılmasını nəzərdə tutur.

Sosioetal cəmiyyət dövlətdən və iqtisadiyyatdan ayrılıqda mövcudluğu ilə fərqlənir. Onun təşkili üçün dövlətdəki kimi nə bürokratiya və nə də iqtisadiyyatdakı kimi bazar lazım deyildir, məhz **assosiasiya** prinsipi və onun üzvlərinin qarşılıqlı həmrəyliyi zəruridir. **T.Parsonsun** fikrincə, assosiasiya elə korporasiyadır ki, ümumi normativ struktura (ümumi dyərlərə) münasibətdə onun üzvləri arasında konsensus mövcuddur. Sosioetal cəmiyyətdə müasir assiosiasiyalar bir sıra prinsiplər əsasında fəaliyyət göstərirlər: assosiasiyaların

azadlığına əsaslanan könüllülük; onun üzvlərinin iyerarxiyanı inkar edən bərabərliyi; aktual məsələlərin müzakirəsində proseduralılıq, başqa sözlə formal qaydaların gözlənilməsi.

Parsons həmrəyliyin iki tipini fərqləndirir: 1. Konsensusa əsaslanan həmrəylik; 2. "ümumi mənsubiyyətə", başqa sözlə əvvəlcədən nəzərdə tutulana əsaslanan "diffuziyalı" (qarşılıqlı) həmrəylik. **Parsonsa** görə, sosioetal cəmiyyət kimi, vətəndaş cəmiyyəti də normalara və assosiasiyalara əsaslanır, həm bazara (başqa sözlə, iqtisadiyyata) və eləcə də dövlətə (bürokratiyaya) qarşı dayanır.

T.Parsonsun sosioetal cəmiyyət konsepsiyasına qarşı İtaliya marksisti **Antonio Qramşi** sosialist vətəndaş cəmiyyəti konsepsiyasını yaradır. O, bazisin üstquruma münasibətdə birinciliyi haqqında tarixi materializmin başlıca tezisini yenidən nəzərdən keçirməyə cəhd edir. **A.Qramşi** üstqurumun muxtarlığı, onun müstəqilliyi barədə tezisdən çıxış edir. Mövcud sosial sistemin təkraristehsalı həyat fəaliyyətinin təşkilinin iki prinsipinin **(hegemonluq və hökmranlıq)** birləşdirilməsi vasitəsilə həyata keçirilir. **Hökmranlıq** prinsipi hüquqi, bürokratik, hüquq mühafizə səviyyəsində və dövlətin hərbi aparatında reallaşır, **hegemonluq** isə vətəndaş cəmiyyətinin sosial-siyasi və mədəni təsisatlarında həyata keçirilir. Beləliklə, **Qramşiyə** görə, dövlət muxalifəti və vətəndaş cəmiyyəti işdə iki müxtəlif prinsipin – hegemonluğun və hökmranlığın bir-birinə qarşıdurmasıdır.

Sosialist vətəndaş cəmiyyəti haqqında təlim bir tərəfdən, onun iqtisadiyyatdan muxtarlığına, digər tərəfdən isə dövlətdən asılı olmamasına əsaslanır. **Qramşi** hesab edirdi ki, vətəndaş cəmiyyətinin konkret məzmunu və onun forması sinfi mübarizə nəticəsində təşəkkül tapır. Bu nöqteyinəzərdən nəticə hansı sosial qrupun hegemon rolunu oynamasından və oynayacağından asılıdır. Hegemonluq rolu harada burjuaziyaya məxsusdursa, vətəndaş cəmiyyəti burjua cəmiyyətidir, onun konstitusiya ilə təminatı (hüququ) və siyasi ifadəsi (parlament nümayəndəliyi) məhz burjua idarəçiliyini pərdələməkdir. Vətəndaş cəmiyyətinə dinamizm bəxş

edən, sosial hərəkatların hərəkətverici qüvvəsi olan assosiasiyalar (klublar, mənafe qrupları, siyasi partiyalar) və mədəni təsisatlardır (insan hüququ, nümayəndəli demokratiya), bunlara münasibətdə fəhlə sinfi müxalifət mövqeyində dayanır. Vətəndaş cəmiyyəti sosialist mahiyyət kəsb etdikdən – sosialist cəmiyyətinə çevrildikdən sonra sinfi mübarizənin səbəbi aradan qalxır. Dövlət və vətəndaş cəmiyyətinin qarşılıqlı münasibəti beş mərhələdən keçir: 1. Orta əsr korporativliyi və dualizm; 2. Dövlətin mütləq dualizmi və siyasiləşdirilməyən təbəqə; 3. Burjua inqilabları nəticəsində əvvəlki korporativ formaların dağılması; 4. Müasir dövrün dövlət dualizmi və assosiasiyaların yeni formaları; 5. Müasir assosiasiyaların hakim ideologiyaya totalitar cəlb olunması.

Qramşinin fikrincə, sosialist vətəndaş cəmiyyətində müxtəlif assosiasiyalar arasında razılığın, konsensusun təşkili dövlətin məcburetmə metodları ilə deyil, məhz mədəni vasitələr və dəyərlər vasitəsilə həyata keçiriləcək. Lakin **Qramşinin** fikrincə, vətəndaş cəmiyyəti yuxarıdan – dövlətin vasitəsilə yaradılır. Deməli, dövlət yeni sivilizasiyanın, yeni tipli insanın və vətəndaşın yaranmasında pozitiv rol oynayan amil və vətəndaş cəmiyyətinin mövcudluğunun və yüksək səviyyədə təşkilinin siyasi forması kimi çıxış edəcək.

Vətəndaş cəmiyyəti və dövlət cəmiyyət həyatının müxtəlif tərəflərini və vəziyyətini əks etdirən universallar və ideal tiplərdir. **Qlobal cəmiyyət**, başqa sözlə hər şeyi əhatə edən insan cəmiyyəti vətəndaş cəmiyyətindən və dövlətdən ibarətdir. **İ.L.Kermonun** fikrincə, vətəndaş cəmiyyəti çoxluq təşkil edən şəxsiyyətlərarası münasibətlərdən və sosial qüvvələrdən ibarətdir, o, dövlətin qarışması və köməyi olmadan mövcud cəmiyyəti təşkil edən kişiləri və qadınları birləşdirir.

Vətəndaş cəmiyyəti sosial, iqtisadi, mədəni məkan formasında nəzərə çarpır, burada xüsusi mənafelərini reallaşdıran və fərdi seçim edən azad fərdlər qarşılıqlı fəaliyyət göstərirlər. Vətəndaş cəmiyyəti və dövlət bir-birini tamamlayır. Yetkin vətəndaş cəmiyyəti olmadan hüquqi demokratik cəmiyyət qurmaq qeyri-mümkündür.

2. Vətəndaş cəmiyyətinin təşəkkülü və fəaliyyəti

Vətəndaş cəmiyyətinə xeyli elmlər maraq təzahür etdirir. Bu baxımdan xüsusilə hüquqşünaslığı, iqtisadi nəzəriyyəni, tarixi, fəlsəfəni, sosiologiyanı və digər elmləri qeyd etmək vacibdir.

Hüquqşünaslıq vətəndaş cəmiyyətini vətəndaş hüququnun və hüquqi tənzimləmənin subyekti kimi öyrənir.

İqtisadi nəzəriyyə vətəndaş cəmiyyəti təşkilatlarının yaranmasının iqtisadi səbəblərini, onların fəaliyyətində maliyyə sferasının rolunu tədqiq edir.

Tarix elmini vətəndaş cəmiyyətinin konkret milli formaları, vətəndaşların ictimai həyatda iştirakının xüsusiyyətləri maraqlandırır.

Fəlsəfə və sosiologiya vətəndaş cəmiyyətini sosial sistem kimi, ictimai təşkilatların və ünsiyyətin forması mənada nəzərdən keçirirlər.

Lakin vətəndaş cəmiyyətinin öyrənilməsində xüsusi əhəmiyyətli rol məhz politologiyaya **məxsusdur**. Politologiya vətəndaş cəmiyyətinin siyasi və ictimai təsisatlarla – bütövlükdə dövlətlə, hakimiyyətin federal və yerli orqanları ilə qarşılıqlı fəaliyyətinin xarakteri və formalarını tədqiq edir. Digər elmlərin nailiyyətlərinə əsaslanaraq, politologiya vətəndaş cəmiyyətinin təşəkkülünün səbəblərini və şəraitini, onun strukturunu, təkamül istiqamətini öyrənir. Başqa sözlə, politologiya vətəndaş cəmiyyətinin bütöv mənzərəsini yaradır.

Vətəndaş cəmiyyətinin təşəkkülünü və inkişafını şərtləndirən xüsusi və ümumi səbəblər mövcuddur. Bu prosesi qidalandıran üç başlıca ümumi səbəb aşağıdakılardır.

Birinci səbəb xüsusi mülkiyyətlə bağlıdır. İnkişaf etmiş demokratik cəmiyyətdə əhalinin əksəriyyəti xüsusi mülkiyyətçidir. Əlbəttə, iri biznesin nümayəndələri azsaylıdır. Lakin orta siniflər kəmiyyət etibarilə, çoxluq təşkil edir. Bu mülkiyyətçilərin böyük əksəriyyəti üçün gəlir əldə etmək, ailə həyatının təmin olunması vasitəsi xüsusi mülkiyyətdir. Xüsusi mülkiyyət xüsusi müəssisələrdən (sənaye, ticarət, kənd təsərrüfatı, emal sahələri və s.), torpaqdan, icarəyə verilən tərpənməz əmlakdan, gəlir gətirən qiymətli kağızlar-

dan, faizlə verilən pul vəsaitindən, yazıçılara, bəstəkarlara, ixtiraçılara, elmi işçilərə və digərlərinə məxsus olan intellektual mülkiyyətdən ibarətdir. Buna görə təəccüblü deyildir ki, mülkiyyətin saxlanması və iş qabiliyyəti üçün optimal şəraitin yaradılması onun sahiblərindən enerjili səylərə istiqamətlənməsini tələb edir.

Təcrübə göstərir ki, kollektiv səylər daha effektlidir, belə səylərə aiddir: mülkiyyətçilərin müxtəlif birliklərinin eyni mənafeyi, fermer assosiasiyaları, sahibkarlar ittifaqı, bankirlər və s. Onların nümayəndələri daim qanunvericilik orqanlarının müvafiq komissiyaları və hökumətlə qarşılıqlı fəaliyyətdə olurlar, xüsusi mülkiyyətin fəaliyyəti üçün optimal şəraitin yaradılmasına çalışırlar.

Beləliklə, **xüsusi mülkiyyət** demokratik cəmiyyətin daha inkişaf etmiş təsisatı olmaq etibarilə, vətəndaş cəmiyyətinin təşəkkülü və fəaliyyətinin, onun ən qüdrətli özünü təşkil edən ictimai struktura çevrilməsinin başlıca səbəblərindən biridir. Məhz **xüsusi mülkiyyət, konkret formalarının çoxcəhətliliyi ilə vətəndaş cəmiyyətinin mövcudluğunu zərurətə çevirir.** Vətəndaş cəmiyyəti elə mühitdir ki, müasir insan qanuni yolla öz tələbatını təmin edir, öz fəaliyyətini inkişaf etdirir, qrup halında tədbirlərin (aksiyaların) və ictimai həmrəyliyin dəyərini dərk edir[1].

Belə düşünmək səhv olardı ki, insanların fəaliyyəti başlıca olaraq hamı üçün əhəmiyyətli olan tələbatların ödənilməsi ilə bağlıdır və məhz onlar buna görə siyasətdə özlərini daha çox reallaşdırmağa çalışırlar. Düzlür, fərdlərin mütləq əksəriyyəti ən müxtəlif mənafe və tələbatlarının, həmçinin, fərdi tələbatlarının ödənilməsilə məşğuldurlar. Belə halda fərdlərin fəaliyyəti onların muxtarlığa və kollektiv həyatdan asılı olmamağa istiqamətlənən səylərini əks etdirir. Fərdlərin gündəlik həyatı, bu həyatın ilkin formaları **vətəndaş cəmiyyəti** sferasını təşkil edir. Lakin çoxcəhətli gündəlik tələbatların və onların ilkin formalarının reallaşması, bütün cəmiyyətin

[1] Кумар К. Гражданское общество//Гражданское общество. М., 1994, с. 21

bütövlüyünün və tərəqqisinin saxlanması üçün fərdlərin və sosial qrupların səylərinin razılaşdırılması və inteqrasiyasını tələb edir. İctimai, qrup halında və sosial mənafelər dövlət idarəetmə funksiyaları vasitəsilə həyata keçirir.

Vətəndaş cəmiyyətinin təşəkkülünün **ikinci səbəbi** onun təşəkkülünün birinci səbəbi ilə sıx bağlıdır. Söhbət **azad bazar iqtisadiyyatından** gedir. Demokratik cəmiyyət digər azadlıqlarla yanaşı, öz qanunları üzrə inkişaf edən təsərrüfat sisteminə də malikdir. Yalnız bu qanunlara riayət etməklə, sahibkarlıq fəaliyyətini uğurla həyata keçirmək olar. Ən başlıcası, ayrıca bazar qanununa qarşı çıxmaq çox çətindir. Sahibkarların müxtəlif birliklərinin, başqa sözlə, vətəndaş cəmiyyətinin təşkili bu vəzifəni yüngülləşdirməlidir.

Vətəndaş cəmiyyətinin təşəkkülü və fəaliyyətinin zəruriliyinin **üçüncü səbəbi** ondan ibarətdir ki, **demokratik cəmiyyət öz vətəndaşlarının mənafeyini və tələbatını maksimum təmin etməlidir**. Lakin cəmiyyətin doğurduğu mənafelər o qədər çoxcəhətli, müxtəlif və fərqləndiricidir ki, praktiki olaraq dövlət bu mənafelərin hamısının haqqında informasiya əldə edə bilməz. Deməli, vətəndaşların konkret mənafeləri barədə dövlətə məlumat verilməlidir və öz növbəsində dövlət də gücü və vasitələrilə həmin mənafelərin təmin olunmasını reallaşdırmalıdır. Hər halda o, yenə vətəndaş cəmiyyətinin təşkilatları vasitəsilə fəaliyyət göstərdikdə effektli nəticələr əldə edilir.

Hər bir demokratik ölkədə vətəndaş cəmiyyətinin təşkilatları xeyli çoxluq təşkil edir. Onlar regionun, hətta ayrıca şəhərin konkret problemləri ilə bağlı, peşə mənafeləri ilə əlaqədar təşkil oluna bilərlər.

Vətəndaş cəmiyyətinin çoxsaylı təşkilatları xeyriyyəçilik xarakterli, mədəniyyət sferası ilə bağlı əhəmiyyətli tədbirlərin təşkilində, müxtəlif hərəkatlarda, məsələn, Qərbi Avropa ölkələrində "yaşıllar" hərəkatında iştirak edirlər, belə hərəkatların təşkilatçısı kimi nəzərə çarpırlar.

Vətəndaş cəmiyyətinin təşəkkülünün zəruriliyinin üçüncü səbəbi, başqa sözlə öz vətəndaşlarının mənafe və tə-

ləbatının ödənilməsini demokratik dövlətin maksimum təmin etməsi mahiyyət etibarilə, demokratik cəmiyyətin vətəndaşlarının son dərəcə müxtəlif mənafelərinin mövcudluğunu ifadə edir. Qeyd etmək lazımdır ki, bu mənafelərin geniş miqyaslı olması yalnız demokratik cəmiyyətdə mümkündür. Məhz bu mənada vətəndaş cəmiyyəti demokratik cəmiyyətin ən əhəmiyyətli tərəfi kimi mənalanır. Demokratiya şəraitində vətəndaş cəmiyyətinin təşəkkülü və fəaliyyəti zərurətdir. Demokratik cəmiyyət onun təşəkkülü və inkişafı üçün bütün başlıca şəraiti təmin edir. Vətəndaş cəmiyyətinin fəal həyatının əsas şərti sosial azadlıqdır, demokratik dövlət idarəçiliyidir, siyasi fəaliyyətin və siyasi diskussiyaların ictimai sferasının mövcudluğudur.

Azadlıq vətəndaş cəmiyyətinin əsasıdır. Sosial azadlıq insanın cəmiyyətdə özünü reallaşdırması üçün imkan yaradır.

Vətəndaş cəmiyyətinin fəaliyyətinin mühüm şərti aşkarlıqdır və vətəndaşların onunla bağlı yüksək dərəcədə məlumatlı olmasıdır. Belə məlumata yiyələnmək sosial problemləri görməyə və onların həlli üçün zəruri addımlar atmağa imkan yaradır.

Nəhayət, vətəndaş cəmiyyətinin uğurlu fəaliyyəti üçün ən başlıca şərt müvafiq qanunvericiliyin olması və onun mövcudluğu hüququna təminat verilməsidir.

Vətəndaş cəmiyyətinin **zəruriliyi və mövcudluğu imkanı** haqqında məsələnin nəzərdən keçirilməsi onun funksional səciyyələndirilməsinə əsas verir. **Vətəndaş cəmiyyətinin başlıca funksiyası cəmiyyətin maddi, sosial və mənəvi tələbatının daha çox ödənilməsindən ibarətdir.**

Vətəndaş cəmiyyəti dövlət çərçivəsindən kənarda və dövlətin qarışmadığı şəxsiyyətlərarası münasibətlərin məcmuunun inkişafını özündə təcəssüm etdirir və eləcə də gündəlik fərdi və kollektiv tələbatlarını reallaşdıran ictimai təsisatların geniş sisteminin dövlətdən qeyri-asılılığını səciyyələndirir. Vətəndaşların gündəlik mənafeyinin qeyri-bərabərliyini və vətəndaş cəmiyyəti sferasının müəyyən tabeli vəziyyətdə olmasını nəzərə alaraq, bu sferanın doğurduğu tə-

ləbatları şərti olaraq aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. insanın qidaya, paltara, mənzilə və s. olan başlıca tələbatını şəxsiyyətlərarası qarşılıqlı əlaqənin birinci səviyyəsini təşkil edən **istehsal münasibətləri** təmin edir. Onlar peşə, istehlakçı, ictimai təsisatlar və digər birliklər və assosiasialar tərəfindən reallaşdırılır;

2. nəslin davam etdirilməsinə, sağlamlığa, uşaqların tərbiyəsinə, mənəvi təkmilləşiməyə və etiqada, informasiyaya, ünsiyyətə və s. olan tələbatını sosial mədəni münasibətlər kompleksi (dini, ailə-kəbin, etnik və digər qarşılıqlı fəaliyyət də daxil olmaqla) reallaşdırır. Onlar şəxsiyyətlərarası qarşılıqlı əlaqələrin ikinci səviyyəsini yaradır və ailə, məscid (kilsə), təhsil və elmi müəssisələr, yaradıcılıq ittifaqları, idman cəmiyyətləri kimi təsisatlar çərçivəsinə nüfuz edir;

3. nəhayət, şəxsiyyətlərarası münasibətlərin üçüncü yüksək səviyyəsi siyasi iştirakçılığa olan tələbatı təşkil edir ki, bu da siyasi fəaliyyətə üstünlük vermək və sərvət yönümü əsasında fərdi seçimlə bağlıdır. Bu səfiyyə fərdlərdə konkret siyasi mövqeyin formalaşmasını ifadə edir. Fərdlərin və qrupların siyasi üstünlük verdikləri mənafe qrupların, siyasi partiyaların köməyilə reallaşdırılır.

Şəxsiyyətin yeni sosial əlaqələr prosesinə cəlb olunması digər fərdlərin fəaliyyətinin pozitiv və neqativ istiqamətlərini müəyənləşdirməsi ilə müşayiət olunur, onların qəbul etdiyi siyasi mövqeyə yaxınlaşması və ya ondan uzaqlaşması dərəcəsini aydınlaşdırması ilə şərtlənir. Beləliklə, fərd öz siyasi identivliyini (oxşarlığını) qərarlaşdırır, xüsusi siyasi mövqeyini mənimsəyir. Bu mövqe əsasında o, cəmiyyətlə, dövlətlə qarşılıqlı fəaliyyətdə olur. Şəxsiyyətlərarası münasibətlərin, xüsusilə inamın zəif səviyyəsinə malik olan cəmiyyəti sözün əsil mənasında, müasir sivil cəmiyyət adlandırmaq olmaz. Müasir iqtisadi və siyasi təşkilatların mövcudluğu imkanları həlledici səviyyədə məhz insanlar arasında ümidverici sosial əlaqələrdən asılıdır. Bu, əsil vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafının obyektiv qanunauğunluğudur.

3. Vətəndaş cəmiyyətinin strukturu və fəallıq istiqamətləri

Vətəndaş cəmiyyəti bütün ictimai sferalarda öz təşkilatları və birlikləri ilə təmsil olunur. Onun strukturunu məhz bu təşkilatlar və birliklər səciyyələndirir. Onların daha çox hissəsi isə iqtisadi, sosial-siyasi və mənəvi sferalarda nəzərə çarpır.

İqtisadi sferada qeyri-dövlət müəssisələrində (sənaye, ticarət, maliyyə və s.) təşəkkül tapan təşkilatların böyük şəbəkəsi fəaliyyət göstərir. Onlar müasir demokratik dövlətlərdə əvvəla, mütləq çoxluq təşkil edirlər (İngiltərədə, Fransada, Avstriyada və digər Qərbi Avropa ölkələrində qeyri-dövlət müəssisələrinin 5/4 hissəsini), ABŞ-da isə ümumiyyətlə, dövlət sənaye və ticarət müəssisələri, eləcə də dövlət kommersiya bankları yoxdur. İkincisi, qeyri-dövlət mahiyyətli olmaq etibarilə, vətəndaş cəmiyyətinin strukturunu təşkil edən təşkilatlar və birliklər bazar iqtisadiyyatı şəraitində yaranır və faəliyyət göstərirlər. Bazar şəraitində arzuolunmaz nəticələri aradan qaldırmaq, iqtisadi və siyasi sabitliyin təmin olunmasını dövlətdən tələb etmək (təsərrüfat sferasında müəssisələrin normal fəaliyyəti naminə) məqsədilə, çoxsaylı biznes birlikləri və təşkilatları yaradılır (kooperativlər, icarə müəssisələri, səhmdar cəmiyyətləri, kommersiya bankları, assosiasiyalar, klublar, mərkəzlər və digər birlik formaları). Ayrı-ayrı ölkələrdə və müxtəlif zamanlarda iqtisadi sferada vətəndaş cəmiyyəti təşkilatlarının məqsədləri dəyişə bilər, lakin onların fəallığının strateji istiqaməti dəyişmir. Həmin istiqamətləri nəzərdən keçirək.

- **Mövcud təşkilatlara aid olan müəssisələrin mənafe və hüquqlarını müdafiə etmək**. Bu, onların nümayəndələrinin dövlət hakimiyyətinin yüksək təşkilatlarında, normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak vasitəsilə əldə olunur. Vətəndaş cəmiyyəti təşkilatlarının dövlət qərarlarının qəbulu prosesində iştirakı dərəcəsi Avstriyada və İsveçrədə kifayət qədər yüksəkdir. Mütəxəssislər bu yüksək səviyyəni həmin təşkilatların inkişafı və mütəşəkkilliyi ilə

izah edirlər. Bununla belə, Kanada və İtaliya kimi ölkələrdə mövcud iştirakçılıq səviyyəsi zəifdir. Həmin cəhət biznes sferasında yaradılmış təşkilatların və birliklərin qapalılığı və pərakəndəliyi ilə izah olunur.

- **Biznes təşkilatına daxil olan müəssisələrin iqtisadi mövqeyinin (daxili və xarici bazarda) möhkəmlənməsinə hərtərəfli təsir etmək**. Belə təsir perspektivli layihələrin reallaşması üçün maliyyə vəsaitinin (həmçinin, dövlətin köməyilə) cəlb edilməsini təmin etmək yolu ilə, təsərrüfatçılığın yeni formalarının tətbiqi, məhsulların yeni satış bazarının mənimsənilməsi, birliklərə aid olan müəssisələrin bütün iş şəraiti kompleksinin optimallaşdırılması vasitəsilə həyata keçirilir.

- **Antiinhisar qanunvericiliyinin gözlənilməsinə ictimai nəzarətin və vicdanlı rəqabət qaydalarının təşkili.**

- **Birliklər çərçivəsində təsərrüfat və kommersiya fəaliyyətinin tətbiqi.**

- **Müəssisələrin peşəkarlığının və işgüzar ixtisaslaşmasının yüksəldilməsi** (biznes mərkəzinin və məktəbinin yaradılması vasitəsilə və eləcə də konfransların və işgüzar görüşlərin keçirilməsilə). Əlbəttə, vətəndaş cəmiyyətinin bütün təşkilatları iqtisadi sferada öz səylərini hər şeydən əvvəl, yuxarıda qeyd etdiyimiz istiqamətlərdə cəmləşdirir. Lakin onların fəallığı bununla məhdudlaşmır. Vətəndaş cəmiyyəti iqtisadi sferada sahibkarlıq sisteminin bütövlükdə inkişafı və bazar münasibətlərinin təkmilləşdirilməsi üçün çox və geniş fəaliyyət göstərir. Buna görə, onun diqqət mərkəzində iki başlıca cəhət əsas yer tutur:

- muzdlu işçilərlə qarşılıqlı münasibətin optimal strategeyasının işlənib hazırlanması;

- birliyin qorunub saxlanması və sahibkarlıq mühitinin özündə münaqişələrin həlli.

Vətəndaş cəmiyyətinin iqtisadi sferasında birliklərin və təşkilatların fəaliyyətinin fərqləndirici məqsədi və istimqaməti praktiki olaraq biznes sferasında hər cür birliyin strukturunda, məqsədlərində və fəallığının istiqamətlərində nəzərə çarpır.

Vətəndaş cəmiyyətinin sosial-siyasi sferası özündə aşağıdakıları birləşdirir: ictimai-syiasi təşkilatlar və hərəkatlar; vətəndaşların ictimai fəallığının müxtəlif formaları (mitinqlər, yığıncaqlar, nümayişlər, tətillər); yaşayış yerlərində və ya əmək kollektivlərində ictimai özünüidarə orqanları; qeyri-dövlət kütləvi informasiya vasitələri.

Belə bir sualı cavablandırmaq yerinə düşər: siyasi partiyaları vətəndaş cəmiyyətinin sosial-siyasi sferasına aid etmək olarmı? Bu suala birmənalı cavab yoxdur. Məsələ ondadır ki, hər hansı siyasi partiya cəmiyyətdə hakim mövqe tutursa, deməli, dövlət strukturuna, dövlət hakimiyyət orqanlarına daxildir və belə halda o vətəndaş cəmiyyətinin subyekti sayıla bilməz. Məsələn, keçmiş Sovet İttifaqı Kommunist Partiyası buna misal ola bilər. Eyni zamanda, çoxpartiyalılıq şəraitində hakimiyyətdə olmayan partiya vətəndaş cəmiyyətinin subyektlərinin meyarına tamamilə cavab verir. Onlar qeyri-dövlət birlikləridir (təşkilatlarıdır), dövlətdən asılı deyildirlər və öz mənafelərinin reallaşmasına cəhd edirlər.

Vətəndaş cəmiyyətinin sosial-siyasi sferasının təşkilatları və birlikləri onun bütün subyektləri kimi **ictimai təşəbbüslər əsasında** yaranır və fəaliyyət göstərirlər. Öz sosial mənafelərini mövcud təşkilatlar, sahibkarlar və muzdlu fəhlələr vasitəsilə reallaşdırmağa çalışırlar. Sahibkar ittifaqları əsasən, muzdlu əməkdən istifadə olunması ilə bağlı olan mülkiyyətçilərin kollektiv mənafelərini əks etdirirlər. Bu mənafelər əmək münaqişələrinin dinc yolla tənzimlənməsinə, tətillərin qarşısını almağa, fəhlələrin həmkarlar ittifaqlarına daxil olmamaq inamına aiddir. Sahibkar ittifaqları əmək haqqı səviyyəsinə, iş həftəsinin müddətinə və digər bu kimi məsələlərə münasibətdə vahid siyasətin həyata keçirilməsinə səy göstərirlər.

Zəhmətkeşlərin sosial mənafeləri iqtisadi mənafeləri ilə sıx bağlıdır. Çox vaxt sosial formalar iqtisadi mənafelərin əldə olunması vasitəsi kimi çıxış edir. Həmin formalardan biri ictimai təşəbbüs əsasında yaradılan və geniş inkişaf et-

miş müəssisələrdəki işçi nümayəndəliyidir, başqa sözlə, müxtəlif cür mənafelərin reallaşdırılması məqsədilə yaranan fəhlə təşkilatları və birlikləridir. Bütün demokratik ölkələrdə yaradılan vətəndaş cəmiyyətinin həmin subyektləri qanunla təsdiqlənir, leqal fəaliyyət göstərir, təqib olunmamaq və işdən çıxarılmamaq üçün hüquqi yolla müdafiə edilir.

Təşkilatlar müəssisələrdəki muzdlu əmək adamlarının müəyyən hüquq və funksiyalarını yerinə yetirməyə çalışırlar. **Birincisi**, belə nümayəndəlik işçilərin əmək haqqı səviyyəsinə, əməyin mühafizəsinə, əmək münasibətlərinə, iş həftəsinin müddətinə, peşə xəstəliklərinə, sosial sığorta və pensiya təminatına aid olan tələblərini öyrənmək və ümumiləşdirmək hüququna malikdir. İkincisi, bu təşkilatların funksiyalarına müxtəlif sosial müəssisələrin idarə olunmasında iştirak etmək (müəssisə kollektivi üçün nəzərdə tutulan) aiddir. Bunlara yaşayış fondları, istirahət evləri, yeməkxana, idman və mədəni əyləncə kompleksləri daxildir.

Ayrı-ayrı ölkələrdə həmin sosial müəssisələrin idarə olunması sahəsində işçi nümayəndəliyinin hüquq və funksiyaları müxtəlifdir. O, hər bir ölkədə müvafiq qanunvericiliklə müəyyən olunur. Bu qanunvericilik Fransada daha çox işlənib hazırlanmış və çoxillik praktikaya malikdir. Buna görə, vətəndaş cəmiyyəti təşkilatlarının sosial sferada imkanlarını əks etdirən başlıca müddəaları nəzərdən keçirmək məqsədəuyğundur (xüsusilə, ölkənin zavod komitələrinin imkanları nümunəsində).

Fransada zavod komitələri aşağıdakı hüquqlara malikdir:

- **ilk məsləhət**. Bu, o deməkdir ki, heç bir sahibkar qabaqcadan zavod kollektivinə xəbər vermədən hər hansı istehsal qərarı qəbul etmək hüququna malik deyil. Belə addım istehsalın idarə olunması, ştatın sayının və strukturunun dəyişdirilməsi, iş həftəsinin müddəti, yeni texnologiyanın tətbiqi, müəssisənin hüquqi və iqtisadi cəhətdən təşkili ilə bağlı dəyişikliklərə və digər məsələlərə aiddir;

- **müəssisə barədə məlumatlara dair sənədlərin əldə**

edilməsi. Sahibkar zavod komitəsinin hər bir üzvünə müəssisənin hüquqi formasını əks etdirən materialı, səhmdarlar arasında kapitalın bölüşdürülməsi, sahə müəssisələrinin vəziyyəti barədə məlumat çatdırmalıdır;

- müxtəlif dövlət müəssisələrində və idarələrində yerləşən öz müəssisəsi haqqında informasiya əldə etmək. Zavod komitələrinin üzvləri maliyyə nazirliyinin və vergi idarəsinin təqdim etdiyi sənədlərlə tanış olmaq hüququna malikdirlər. Bu hüquq çox vacibdir, çünki zavod komitəsinin üzvləri sahibkarların verdiyi informasiyanı yoxlamaq imkanı əldə edir. Lakin işçilərin sosial mənafelərinin müdafiəsini daha səmərəli həyata keçirməyə imkan verən müstəqilliyin möhkəmləndirilməsi daha vacibdir.

Vətəndaş cəmiyyəti təşkilatlarının xeyli hissəsi bir sıra demokratik dövlətlərdə XX əsrin başlanğıcında təşəkkül tapmışdır. Məsələn, 1906-cü ildə Amerika milli assosiasiyası sosial reklamların köməyilə öz ölkəsinin əhalisini Niaqar şəlaləsi naminə, enerji kompaniyasının fəaliyyətinin çox zərərli nəticələrini aradan qaldırmağa çağırdı.

ABŞ-da xeyli müddət ictimai informasiya komitəsi fəaliyyət göstərmişdir. Bu qeyri-dövlət təşkilatının vəzifəsi ölkədə və ondan kənarda baş verən hadisələr barədə obyektiv və geniş informasiyanı təmin etməkdən ibarət olmuşdur. Komitə İkinci Dünya müharibəsi illərində Reklam şurası formasında təşkil edildi, onun başlıca vəzifəsi faşist Almaniyası üzərində qələbə çalmaq üçün milləti səfərbər etməkdən ibarət idi. İndiki şəraitdə Reklam Şurası reklam vasitələri ilə çoxsaylı sosial proqramların reallaşmasını təşkil edir. Belə geniş proqramlardan biri SPİD-ə qarşı mübarizə kompaniyası olmuşdur. Onun reklam təminatını Reklam Şurasının özü həyata keçirmişdir. Bu Şura eləcə də ilk dəfə əhalinin savadsızlığı problemini müzakirəyə çıxarmış, uşaqlar üzərində zorakılığa, sürücülərin avtomobili qeyri-ayıq vəziyyətdə sürməsinə qarşı mübarizə kompaniyasına başlamış, narkomaniyanın zərərli nəticələri barədə televiziya üçün material hazırlamışdır. Reklam Şurasının ABŞ-da fəaliyyəti

yeni sosial dəyərlərin yaradılmasında vətəndaş cəmiyyəti təşkilatlarının böyük rolunu, həyat tərzinin təkmilləşdirilməsində xidmətlərini aydın şəkildə təsdiqləyir. Reklam şurasını Amerikanın işgüzar dairələri maliyyələşdirir. Onun illik xərcləri 800 milyon dollardan çoxdur.

Hələ vaxtilə Amerikada demokratiya probleminin görkəmli tədqiqatçısı **A.Tokvil** ABŞ-ı səciyyələndirən xüsusiyyətlər sırasında vətəndaş cəmiyyəti təsisatlarının geniş sisteminin mövcudluğuna böyük əhəmiyyət verərək qeyd etmişdir ki, bu təsisatlar Amerikada demokratiyanın sabitliyinə təminatdır. Bu gün ABŞ-da vətəndaşların 70%-dən çoxu ictimai-siyasi təşkilatlarda və birliklərdə təmsil olunur, 50%-dən çoxu isə iki və daha artıq assosiasiyalarda fəal iştirak edir, 200 istehlakçı təşkilatlar isə özündə 70 milyon vətəndaşı birləşdirir.

Vətəndaş cəmiyyətinin mənəvi sferası fikir, söz azadlığını təmin etməyə, vətəndaşların öz rəyini açıq şəkildə bildirmək üçün real imkanlar əldə etməsinə, yaradıcı birliklərin müstəqilliyini reallaşdırmağa istiqamətlənməlidir. O, insanların həyat tərzi, mənəviyyatı, elmi yaradıcılığı, mənəvi cəhətdən təkmilləşməsi ilə bilavasitə bağlıdır. Vətəndaş cəmiyyəti mənəvi sferada eləcə də milli və insani borcu yerinə yetirən çoxsaylı təşkilatlara malikdir.

Ümumiyyətlə, vətəndaş cəmiyyətinin strukturu ictimai sferalara müvafiq olaraq təşəkkül tapır və təkmilləşir. O, yalnız çoxsaylı təşkilatlara və birliklərə malik olması ilə səciyyələnmir, həmçinin, əsasən horizontal xarakter kəsb edir: vətəndaş cəmiyyətinin bütün təşkilatları könüllü özünütəşkil və özünüidarə birliklərinə aiddir. Lakin vətəndaş cəmiyyəti vertikal əlaqələrə də malikdir. Belə əlaqə o zaman yaranır ki, birtipli birliklər öz üzvlərindən ibarət olan yerli orqanlar da təşkil edirlər. Müasir demokratik cəmiyyətlərdə vətəndaş cəmiyyətinin strukturu daha da təkmilləşir və fəallıq istiqamətləri güclənir.

4. Vətəndaş cəmiyyəti və dövlət

Dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı fəaliyyəti ən mühüm məsələlərdən biridir. Bu qarşılıqlı fəaliyyət vətəndaş cəmiyyətinin təzahürü ilə yaranır. Dövlət və vətəndaş cəmiyyətinin bir-birinə münasibətdə hansının üstünlük təşkil etməsi həmişə mübahisəli məsələ olmuşdur.

Siyasi elmdə uzun müddət "dövlət" və "vətəndaş cəmiyyəti" anlayışları fərqləndirilməmişdir, onlar sinonimli anlayışlar kimi işlədilmişdir. Lakin XVII əsrin ortalarından başlayaraq, cəmiyyətin müxtəlif sferalarının differensasiyası prosesində onların dövlət hakimiyyətinin ümumi asılılığından azad olması ilə əlaqədar və eləcə də müstəqil fərdlərin öz ayrılmaz hüquq və azadlıqları ilə bağlı tarixi inkişafda iki meylin müəyyənləşdirilməsi aktuallaşdı: bir tərəfdən, fərdlərin muxtarlığa və azadlığa cəhdi və bunun nəticəsi olaraq ictimai inkişafda daxili səbəblərdən öz-özünə törəmənin və kortəbiiliyin artması ilə bağlı siyasi elmdə "vətəndaş cəmiyyəti" anlayışı öz əksini tapdı, digər tərəfdən isə daim mürəkkəbləşən qarşılıqlı sosial fəaliyyətdə nizamlı vəziyyətə, bütövlüyə və münaqişələrin neytrallaşdırılmasına tələbat "dövlət" anlayışını əks etdirdi. Dövlət və vətəndaş cəmiyyəti çox vaxt bir-birinə qarşı çıxış etdi.

Vətəndaş cəmiyyəti eləcə də ənənəvi, feodal cəmiyyətini əvəz edir. Qərb siyasi elmində vətəndaş cəmiyyətinə aid iki başlıca mövqe mövcuddur. Birinci mövqeyə görə, vətəndaş cəmiyyəti dövlətə və onun hər cür formasına qarşı çıxan şəxsiyyətlərarası münasibətlər məkanını ifadə edir. Vətəndaş cəmiyyəti fərdlərin gündəlik tələbatının reallaşdırılması sferası olmaq etibarilə, xüsusi şəxslərin bir-biri ilə qarşılıqlı fəaliyyətinin bütün tarixi kompleksini təcəssüm etdirən **sosial universallıqdır**. İkinci nöqteyi-nəzər isə vətəndaş cəmiyyətini **qərb mədəniyyətinin fenomeni**, qərb sivilizasiyasının mövcudluq forması kimi əsaslandırmağa cəhd edir. Beləliklə, vətəndaş özünüdəretmə sosialmədəni mühit şəraitində formalaşmışdır. Azadlıq, mülkiyyət və əməksevərlik kimi dəyərlərdə öz əksini tapan vətəndaşların demokratik sərvət

yönümü fərdlərin özünütəsdiqi istəyində ifadə olunur.

Müasir politoloji fikir vətəndaş cəmiyyətini qeyri-hakimiyyət əlaqələrinin və strukturlarının mürəkkəb və çoxtərəfli sistemi kimi nəzərdən keçirir.

Vətəndaş cəmiyyəti elə bir qüdrətli ictimai qüvvədir ki, dövlət onunla hesablaşmaya bilməz. Vətəndaş cəmiyyəti dövlətdən öz təşəbbüslərini (hər şeydən əvvəl, maddi xarakterli), mənafeyini müdafiə etməyi tələb və xahiş edir. Dövlət vətəndaş cəmiyyətinin tələblərini müxtəlif formalarda öyrənir: vətəndaşların tələblərini öyrənməklə (onları müdafiə etməklə və ya bəyənməməklə), xeyli ictimai birliklərin, təşkilatların, fondların fəallığının inkişafı üçün maddi vəsait ayırmaqla.

Müasir demokratik dövlətlərdə praktiki olaraq, hakimiyyət strukturları sistemində vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqə yaratmaq üçün xüsusi orqanlar yaradılmışdır və fəaliyyət göstərirlər. Onların fəaliyyətinin istiqamətləri və formaları çoxcəhətlidir: mövcud təşkilatların qeydiyyatdan keçməsi, onlara kömək etmək (məsləhətlərlə, maliyyələşdirmə ilə), onların fəaliyyəti üçün əlverişli şəraitin yaradılması. Məsələn, Böyük Britaniyada uzun illərdir xeyriyyəçilik üzrə xüsusi dövlət orqanı – Komissiya fəaliyyət göstərir. O, xeyriyyəçilik təşkilatlarını və fondlarını (həmin ölkədə bunlar kifayət qədər çoxsaylıdır) qeydiyyatdan keçirir. Onlar yoxsullara kömək edir, kilsələrə, təhsilin inkişafına, vətəndaşların sağlamlığının qorunmasına yardım göstərir. Komissiyanın mühüm vəzifəsi ictimai təşkilatlara kömək, hər şeydən əvvəl isə maddi yardım etməkdən ibarətdir.

Xeyriyyəçilik üzrə Komissiya tipli xüsusi orqandan əlavə, dövlət vətəndaş cəmiyyəti ilə geniş yayılan əlaqə formasına da malikdir. Söhbət ondan gedir ki, vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri parlamentlərdə və hökumətlərdə çalışan müxtəlif şuraların və komissiyaların tərkibinə daxil edilir. Onlar çox vaxt siyasi hakimiyyətin nümayəndəli orqanlarında deputat kimi fəaliyyət göstərirlər. Vətəndaş cəmiyyətinin nümayəndələri parlament komi-

tələrində və komissiyalarında dəyərli informasiyaya (vətəndaş cəmiyyətinin inkişaf problemlərinə aid) malik olan ekspertlər və peşəkarlar kimi çıxış edirlər.

Bəzi Qərbi Avropa ölkələrinin parlamentləri və hökumətləri nəzdindəki həmin komitə və şuralara məsləhət xarakterli sosial-iqtisadi şuraları aid etmək olar. Onlara həm dövlət təşkilatının və eləcə də iqtisadi və sosial sfera ilə bağlı olan xeyli ictimai təşkilatların nümayəndələri daxildir. Məsələn, belə şuralar Fransada, Avstriyada, İsveçdə, Finlandiyada, İtaliyada, Belçikada, İspaniyada və digər ölkələrdə mövcuddur. Bu dövlətlərin hökumətləri sosial və iqtisadi xarakterli qanun layihələrinin qəbulu ilə əlaqədar həmin şuraların rəylərini öyrənirlər. Eləcə də şuralar öz təşəbbüsü ilə bu və ya digər konkret problemlərin həlli üçün hökumətə müraciət edirlər.

Vətəndaş cəmiyyəti ilə dövlətin qarşılıqlı fəaliyyətinin digər formaları arasında xeyli ölkələrdə mövcud olan **parlament səlahiyyətli** xidməti qeyd etmək olar. Parlament səlahiyyətli xidmət vətəndaşların hüquq və azadlıqlarının gözlənilməsinə nəzarəti həyata keçirir. Bu xidmətə yüksək rütbəli vəzifəli şəxslər, qanunvericilik hakimiyyəti qarşısında məsuliyyət daşıyanlar başçılıq edirlər. Böyük Britaniyada baş nazirin göstərişi ilə vətəndaş hüquqları üzrə səlahiyyətli şəxs kimi kral fəaliyyət göstərir.

Vətəndaş cəmiyyəti ilə dövlətin qarşılıqlı fəaliyyəti haqqında mülahizələri ümumiləşdirərək bir sıra mühüm nəticələrə gəlmək olar.

1. Vətəndaş cəmiyyəti mütləq hökmranlıq üçün siyasi hakimiyətə cəhd edən "qarşıdurma" sistemində ən mühüm və qüdrətli vasitələrdən biridir. Bu missiyanı yerinə yetirmək üçün o, xeyli vasitələrə malikdir: seçki kompaniyalarında və referendumlarda fəal iştirak etmək, ictimai rəyi formalaşdırmaq üçün (xüsusilə, müstəqil televiziya kanallarının köməyi ilə), bu və ya digəır dövlət islahatlarının aparılmasına müqavimət kampaniyasını təşkil etmək imkanları.

2. Vətəndaş cəmiyyətinin özü (onun xeyli təşkilatları və

birlikləri) dövlət tərəfindən müdafiə olunmağa ehtiyac duyur. Buna görə, təşkilatların nümayəndələri bir sıra dövlət orqanlarının işində fəal iştirak edirlər. Dövlətdən asılı olmayan, öz-özünə yaranan və özünü tənzimləyən vətəndaş cəmiyyəti təşkilatları dövlətlə müxtəlif formalarda qarşılıqlı fəaliyyət göstərirlər.

3. Öz növbəsində dövlət də vətəndaş cəmiyyəti ilə qarşılıqlı fəaliyyətə yüksək dərəcədə maraqlıdır. Bu bir sıra səbəblərlə izah olunur:

- Hakimiyyətdə olan siyasi qüvvələrin legitimliyinin mənbəyi məhz vətəndaş cəmiyyətidir;
- Vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqə cəmiyyətin vəziyyəti, onun mənafeyi, əhval-ruhiyyəsi, hökmranlıq edən siyasi hakimiyyətə münasibət haqqında dövlət üçün geniş-miqyaslı informasiya mənbəyidir;
- Mürəkkəb tarixi mərhələlərdə (iqtisadi böhran, müharibələr və s.) vətəndaş cəmiyyəti bir qayda olaraq dövləti müdafiə edən qüdrətli qüvvəyə çevrilir;
- Vətəndaş cəmiyyəti təşkilatları içərisində dövlət tərəfindən maddi köməyə ehtiyacı olanlar çox olsa da, elələri də vardır ki, dövlətə maliyyə yardımı göstərir (bank assosiasiyaları, sahibkarlıq ittifaqları və b.)

Vətəndaş cəmiyyətinin spesifikliyi, onu təşkil edən təşkilatların muxtar xarakteri və müstəqilliyi heç də o demək deyildir ki, onların fəaliyyətində xoşagəlməz hallar olmaya bilər. Buna görə, vətəndaş cəmiyyətini təşkil edən təşkilat və birliklər üzərində müxtəlif formada nəzarətin həyata keçirilməsi tamamilə zəruri və qanunauyğundur. Belə formalardan biri dövlət və ictimai təşkilatların nümayəndələrindən ibarət birgə orqanın yaradılmasıdır.

Demokratik rejim dövlətlə vətəndaş cəmiyyətinin sıx qarşılıqlı fəaliyyətini nəzərdə tutur. Bu, siyasi və iqtisadi sabitliyin əsasını təşkil edir. Əlbəttə, dövlət və vətəndaş cəmiyyətinin qarşıdurması gözlənilməndir, lakin bu azömürlüdür.

V BÖLMƏ
QLOBAL SİYASİ MƏKANIN POLİTOLOGİYASI

I FƏSİL
Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər

1. Dünya siyasəti nəzəriyyəsinin problemləri

Beynəlxalq aləmdə dövlətlərarası münasibətlər heç zaman bərabərhüquqlu prinsipə əsaslanmamışdır. Hər bir dövlətin rolu onun iqtisadi, texnoloji, hərbi, informasiya imkanları ilə müəyyən olunmuşdur. Bu imkanlar beynəlxalq münasibətlər sisteminin xarakterini və tipini şərtləndirir. Dünya siyasəti nəzəriyyəsində dövlətlər arasında təşəkkül tapan beynəlxalq münasibətlərin təbiəti müxtəlif cür şərh edilir. Dövlətlər arasında mürəkkəb qarşılıqlı münasibətlərin izahına ilk cəhd **Fukinnidin** (b. e. ə. V əsrdə) "Pelopennos müharibəsinin tarixi" adlı kitabı, eləcə də **Siseronun** "Ədalətli müharibələr" haqqında təsəvvürləri hesab olunur. Siyasi fikirdə uzun müddət müharibə və sülh məsələsi mərkəzi yer tutmuşdur.

Dünya siyasəti nəzəriyyəsi və ya beynəlxalq siyasət nəzəriyyəsi siyasi reallığın qlobal kontekstini təhlil edir, dünyanın inkişaf meylini və müasir siyasi strukturunu üzə çıxarmağa çalışır. Dünya siyasəti müxtəlif resurslara sahib olan siyasi aktorların qarşılıqlı fəaliyyətinin nəticəsidir. Bu aktorların hakimiyyət resursları üzrə tipologiyası dünya siyasətinin müxtəlif səviyyəsinin fərqləndirilməsinə imkan yaradır: 1. Fərdi (liderin, elitanın davranışının, siyasi üsulların təhlili); 2. Ayrıca dövlətin səviyyəsi (xarici siyasətin formalaşmasının, onun reallaşması mexanizminin, dünya proseslərinə təsir dərəcəsinin təhlili); 3. Qlobal səviyyə (dövlətlərin və beynəlxalq təşkilatların qarşılıqlı fəaliyyətinin təhlili). Bununla bağlı, dünya siyasəti nəzəriyyəsi dövlətlərarası qar-

şılıqlı fəaliyyəti dünya siyasətinin daha əhəmiyyətli komponenti kimi nəzərdən keçirir.

"Dünya siyasəti" və "dövlətlərarası münasibətlər" anlayışları həcminə və onların haqqında biliklər məcmuuna görə fərqlənirlər. Dünyada situasiya dəyişdikcə, həmin anlayışların məzmunu da dəyişir. Dünya siyasətinin başlıca məzmununu **milli mənafe** və milli təhlükəsizlik təşkil edir[1].

XX əsrdə dünya siyasətinin təbiəti və spesifik xarakteristikası barədə diskussiyalar əsasən, **realistlər və idealistlər** (20-30-cu illərdə), **traditsionalistlər** (ənənəyə əsaslananlar) və **modernistlər** – müasirləşdirmə tərəfdarları (50-60-cı illərdə), **dövlətçilik tərəfdarları** və **qlobalistlər** (70-80-ci illərdə) arasında baş vermişdir.

Realistlər (**C.Kennan, C.Boll, U.Rostou, H.Morgentau, R.Nibar, Tompson, Z.Bjezinski** və b.) belə bir nöqteyi-nəzərdən çıxış edirlər ki, hər bir dövlətin əsas və təbii cəhdinə onun xüsusi maraqlarının əldə olunmasına istiqamətlənən gücün təzahürü xidmət edir. Belə mövqedən dünya siyasəti müstəqil dövlətlərin milli maraqlarına yönələn mübarizə meydanı kimi təsəvvür olunur. Buna görə də elə məqsədlərin əldə edilməsi uğrunda mübarizə aparılır ki, o, həmin dövlətlərin diqqət sferasındadır. Buraya hər şeydən əvvəl, təhlükəsizliyin təmin edilməsi aiddir. Realistlər dünya siyasətində XIX əsrin prussiya generalı, hərb nəzəriyyəçisi **K.fon Klauzevitsin** belə bir fikrindən çıxış edirlər ki, "sülh istəyirsənsə, müharibəyə hazır ol". Düzdür, siyasi realizmin atası Amerika alimi **Hans Morgentau** (1904-1980) hesab olunur. O, "Millətlər arasında siyasi münasibətlər: təsir və dünya uğrunda mübarizə" adlı əsərində (1948) belə bir ideyanı əsaslandırmağa cəhd etmişdir ki, dövlətin beynəlxalq aləmdə davranışının əsası hakimiyyətdir, həm də hakimiyyəti insanın dəyişməz təbiəti ilə əlaqələndirirdi. Morgentau yazırdı ki, "Beynəlxalq siyasət hər cür siyasətə bənzəyir, hakimiyyət

[1] Bu anlayışlar barədə əhatəli təsəvvür üçün ətraflı bax: Məcid Əfəndiyev. Siyasi elm. B., 2010, s. 756-773

uğrunda mübarizədir, beynəlxalq siyasətin bilavasitə məqsədi hakimiyyətdir"[1].

Realist paradiqma və ya siyasi realizm məktəbi insanın eqoist təbiətindən çıxış edir və dövlətin beynəlxalq aləmdə fəaliyyətini bu baxımdan müəyyənləşdirir. Dövlət beynəlxalq siyasətin əsas subyekti kimi obyektiv xarakter daşıyan öz milli mənafeyini güdür, çünki bu mənafe təbii-coğrafi şəraitlə, insanın dəyişməz təbiəti ilə şərtlənir. Bununla bağlı, realizmin tərəfdarları dünya siyasətinə anarxiya, hamının hamıya qarşı potensial müharibəsi kimi diqqət yetirirlər. Bu "müharibədə" dövlət öz imkanlarını real qiymətləndirməkdən çıxış etməlidir. Onun müəyyənləşdirilməsi üçün "güc", "qüdrət" anlayışından istifadə olunur. Bu zəminə müvafiq olaraq, sülhə nail olmaq üçün daha təsirli vasitə, hərbi qüdrəti daim artırmaqla qüvvələr tarazlığını qoruyub saxlamaqdan ibarətdir. Realistlərin başlıca mövqeyi belədir.

XX əsrin 70-ci illərinin sonunda **neorealist paradiqma** və ya **struktur realizm** məktəbi təşəkkül tapdı **(K.Uolts, P.Hiplin. B.Buzan)**. Neorealizmin tərəfdarları dövləti hələlik beynəlxalq siyasətin başlıca subyekti kimi nəzərdən keçirirlər, lakin bildirirlər ki, onun xarici siyasəti milli mənafeyi reallaşdırmaq üçün ittifaqa, koalisiyaya, bloka daxil olmaqdan (başqa sözlə, daha ümumi sistemin, strukturun bir hissəsi olmaqdan) asılıdır. **"Struktur realizm"** məktəbinin adı da buradan götürülmüşdür. **K.Uoltsun** fikrincə, beynəlxalq münasibətlər sistemi nə qədər ki, milli dövlətə əhəmiyyətli təsir göstərir, belə halda dövlət öz hərbi qüdrətini və imkanlarını artırmaq məqsədilə dünyanın siyasi strukturunu dəyişməyə cəhd edir.

İdealistlər (D.Perkins, V.Din, U.Lippman, T.Kuk və b.) əksinə, dünya siyasətini hüquqi və etik kateqoriyaların köməyilə nəzərdən keçirir və dünya münasibətlərinin **normativ** modellərinin yaradılmasından çıxış edirlər. Onların inamı-

[1] Morgenthau H. Politics among Nations: The struggle for Power and Peace N.Y. 1978. P. 29

nın əsasını dövlətlərarası münasibətlərin ən əhəmiyyətli tənzimləyicisi kimi gücdən və hərbi vasitələrdən imtina edilməsi təşkil edir. Bu məqsədlə onlar beynəlxalq hüquq sisteminə və təsisatlarına tam üsütnlük verilməsini daha vacib sayırlar. İdealistlər güc tarazlığı əvəzinə, dövlətlərarası münasibətlərin tənzimlənməsinin digər mexanizminə üstünlük verirlər – məhz kollektiv təhlükəsizlik mexanizmini başlıca tənzimləyici vasitə hesab edirlər.

1918-ci ildə Amerika prezidenti **V.Vilson** müharibədən sonrakı dövrdə dövlətlərarası münasibətlərin tənzimlənməsinə aid 14 maddə müəyyənləşdirmiş və beləliklə, idealistlərin görüşlərini konseptuallaşdırmışdır. O, dünya siyasi münasibətlərinin tənzimlənməsi mexanizminə bunları aid edir: açıq şəkildə sülh danışıqlarının aparılması; sülh və müharibə dövründə azad ticarətə təminat verilməsi; milli silahlanmanın kifayət qədər minimuma endirilməsit (milli təhlükəsizliyə uyğun səviyyədə);bütün mübahisələrin azad və dövlətin suverenliyi prinsipi əsasında beynəlxalq təşkilatların köməyilə qərəzsiz həlli. Məhz 1914-1918-ci illərdəki müharibədən sonra ilk dəfə praktiki olaraq dünyada kollektiv təhlükəsizlik sisteminin yaradılması ideyası səsləndi. Lakin 1918-ci ildə yaradılan Millətlər Cəmiyyəti SSRİ-nin Finlandiyaya, İtaliyanın Efiopiyaya (Mərakeşə) qarşı təzavüzünün və digər hərbi münaqişələrin qarşısını ala bilmədi.

Modernistlər (M.Kaplan, R.Mort, R.Snayder, Q.Alisson) milli dövlətləri digər subyektlər tərəfindən təsirə məruz qalan müstəqil hakimiyyət sistemləri hesab edərək, onların dünyada fəaliyyətinin modelləşdirilməsinə başlıca diqqət yetirdilər. Onların tədqiqatlarında əsasən, qəbul olunan qərarların qaydaları və mexanizmləri, bürokratik kompromislərin texnologiyası, dövlətin xarici siyasətinin işlənib hazırlanmasının digər komponentləri vurğulanır.

1980-ci illərdə neorealizmin variantı kimi **postmodernist** paradiqma-məktəb **(C.Derian, K.T.Syolander, V.Vendt, C.Qolşteyn)** təşəkkül tapdı. Postmodernistlər dünya siyasətini rasional mənalandırmağa cəhd etmirlər, yalnız dünyanı

dəyişməyə çağırırlar. Onlar dövləti fəal fəaliyyət göstərən subyekt kimi səciyyələndirirlər.

Traditsionalistlər – ənənəyə əsaslananlar (R.Meyer və b.) xarici siyasətdə fəaliyyət göstərən elə amillərin təsirini nəzərə almağın zəruriliyini vurğulayırlar ki, onlar konkret ölkə üçün səciyyəvi olan adət və ənənələri translyasiya edirlər (ötürürlər), siyasətçinin şəxsi davranışının xüsusiyyətlərini ifadə edirlər, kütləvi və qrup halında dəyərləri təcəssüm etdirirlər və s.

Dövlətçilik tərəfdarları (K.Doyç, K.Uolts və b.) hesab edirlər ki, bütün baş verən dəyişikliklərə baxmayaraq, dövlət dünya siyasətinin mərkəzi subyekti olaraq qalır, məhz dövlətlərarası münasibətin forması dəyişmişdir. Buna görə, dünya siyasəti sferasının təbiəti də dəyişməz qalmışdır: onu hər şeydən əvvəl, realizm prinsipini rəhbər tutan dövlətin xarici siyasət fəaliyyəti təmin edir.

Dövlətçilik tərəfdarlarının əksinə olaraq, **qlobalistlər (E.Haos, D.Puçala, L.Lindberq** və b.) idealistlərin xəttini özünəməxsus səviyyədə davam etdirməklə, dünyada milli dövlətlərin rolunun azaldığını iddia edirlər. Onların fikrincə, nəqliyyat, rabitə, informasiya sferasında baş verən müasir dəyişiklik milli dövlətləri öz təhlükəsizliyinin qeyri-səmərəli silahına çevirmişdir.

Politologiya ilə dünya siyasəti nəzəriyyəsinin qarşılıqlı əlaqəsi indiki reallığımızın qanunauyğunluğudur. Politologiyanın başlıca anlayışları olan "siyasi hakimiyyət", "siyasi proses", "siyasi rejim", "vətəndaş cəmiyyəti" və digərləri xarici siyasətə, başqa sözlə, beynəlxalq münasibətlərə tətbiq edilmə mənasında spesifik əhəmiyyət kəsb edir.

Beynəlxalq münasibətlər spesifik predmetə malikdir. Onun predmetinin başlıca tərəfini beynəlxalq siyasət və bu siyasətin sosial təbiəti əks etdirir. Əlbəttə, son nəticədə daxili və xarici siyasət bir məsələni – mövcud ölkədə ictimai münasibətlər sisteminin təmin olunması və möhkəmləndirilməsini reallaşdırır.

2. Dünya siyasəti: mahiyyəti, xüsusiyyətləri

Politologiyanın istiqamətlərindən biri dünya siyasəti probleminin öyrənilməsidir. Politoloji biliklərin bu istiqaməti **beynəlxalq münasibətlərin politologiyası** kimi müəyyənləşdirilir. Onun **predmetini dünya siyasəti, bu siyasətin fəaliyyəti və inkişafının qanunauyğunluqları təşkil edir**. Beləliklə, politologiya yalnız daxili siyasi prosesləri və hadisələri deyil, həmçinin, dünya birliyi çərçivəsində dövlətlər və xalqlar arasında təşəkkül tapan siyasi münasibətləri öyrənir. Buna görə, qlobal və regional miqyaslı siyasi proseslərin spesifikliyinin üzə çıxarılması son dərəcə mühüm əhəmiyyət kəsb edir. Onların bu və ya digər ölkələrin daxili siyasi proseslrinə təsirinin aydınlaşdırılması da zəruridir. Belə səciyyəli tədqiqatlarda beynəlxalq qarşılıqlı siyasi fəaliyyət problemi, düyna siyasətində nəzərə çarpan böhranlı hadisələr, müxtəlif səviyyələrdə (qlobal, regional və lokal) beynəlxalq münaqişələrin xarakteri və tipi, onların həlli metodları, qəbul olunan xarici siyasət qərarlarının qaydaları və prinsipləri əhəmiyyətli yer tutur.

Beynəlxalq münasibətlərin politologiyası dünya siyasətinin müxtəlif subyektlərini, beynəlxalq birliklərin konkret tiplərini, onların dünya siyasətində yerini, dünya siyasətinin formalaşması və həyata keçirilməsinə təsir mexanizmini tədqiq edir. Bununla bağlı, dövlətlərarası qruplaşmanın, hərbi-siyasi blokların, transmilli birliklərin və s. mürəkkəb beynəlxalq münasibətlər sistemində roluna xüsusi diqqət yetirilir.

Dünya siyasəti sferasının tədqiqində başlıca istiqamət beynəlxalq, regional və milli təhlükəsizlik probleminin öyrənilməsindən ibarətdir. Bununla bağlı siyasi strategiyanın təhlili, beynəlxalq aləmdə güc mərkəzinin, qüvvələr tarazlığının və beynəlxalq siyasi münasibətlər sisteminin sabitliyinə təsir göstərən digər mühüm hadisə və amillərin öyrənilməsi prinsipial əhəmiyyətə malikdir.

Dünya siyasəti məsələsinə aid olanlardan çox əhəmiyyətlisi **beynəlxalq siyasi münasibətlərin mahiyyətinin və**

xüsusiyyətlərinin nəzərdən keçirilməsidir. Bununla əlaqədar qeyd etmək vacibdir ki, beynəlxalq münasibətlər sistemi iqtisadi, siyasi, elmi-texniki, humanitar-mədəni həyat sferalarında dövlətlər və xalqlar arasındakı münasibətlərin bütün cəhətlərini özündə əks etdirir. Onun tərkib hissəsi dövlətlərin hərbi sahədə, təhlükəsizlik sferasında, ətraf mühitin müdafiəsində və s. qarşılıqlı əlaqəsindən ibarətdir. Dünya birliyi üzvlərinin bu istiqamətdə qarşılıqlı fəaliyyətinin məqsəd və nəticələri məhz dünya siyasəti subyektləri arasında qarşılıqlı münasibətin əlaqələndirilməsinin gücləndirilməsindən ibarət olmalıdır, eləcə də regional və qlobal xarakterli aktual problemlərin həllinə ciddi səy göstərilməlidir.

Beynəlxalq siyasi münasibət dövlətlər və xalqlar arasında qarşılıqlı əlaqənin əsası kimi səciyyələnir. Buna görə, dövlətlər tərəfindən müdafiə olunan qarşılıqlı münasibətlərin siyasi səviyyəsi dövlətlər və xalqlar arasında iqtisadi, mədəni və digər əməkdaşlığın xarakterini xeyli müəyyənləşdirir. **Siyasi münasibətlər hər şeydən əvvəl, xalqlar arasında dövlətlərarası səviyyədə münasibətlərdir.** Əlbəttə, beynəlxalq münasibətlərin subyekti kimi, həm də qeyri-dövlət təsisatları, təşkilatları və birlikləri çıxış edirlər.

Beynəlxalq siyasi münasibətlərin formalaşmasını şərtləndirən səbəblər çoxcəhətlidir. Buraya iqtisadi qaydalara tələbat, coğrafi və etnik yaxınlıq, tarixi taleyin ümumiliyi, müdafiə və təhlükəsizliyin təmin olunmasına birgə maraq, ekoloji problemlərin həlli və digər səbəblər aiddir. Dövlətlər və xalqlar arasında siyasi münasibətlərin formalaşmasının şəraiti və zəmini dəyişə bilər. Lakin onun ikitərəfli və çoxtərəfli əsasda inkişafına tələbat dəyişməz qalır.

Beynəlxalq siyasi münasibətlər prosesinin spesifikliyi ondan ibarətdir ki, siyasətin bu sahəsində **vahid legitim məcburetmə mərkəzi** mövcud deyildir. Beynəlxalq siyasət sferası nisbi müstəqillik kəsb edən siyasi münasibətlər sahəsi olmaq etibarilə, müxtəlif normalarla tənzimlənir. Onun xüsusi tənzimləyicisi dövlətlər arasında təşəkkül tapan **qüvvələr tarazlığıdır**. Qüvvələr tarazlığı ilə bağlı, dövlətlər öz

fəaliyyətini milli mənafelərin beynəlxalq aləmdə reallaşdırılmasına istiqamətləndirirlər.

Qüvvələr tarazlığı konsepsiyası dövlətlərarası münasibətlər sistemində spesifik tarazlıq formasıdır. "Qüvvələr tarazlığı" anlayışı diplomatiya tarixinə intibah dövründə (intibah – XV-XVI əsrlərdə Avropada elm və incəsənətin çiçəkləndiyi dövr) daxil olmuşdur. Həmin anlayış XVI-XVII əsrlərdə qabaqcıl Avropa dölətləri arasında tarixən təşəkkül tapan qüvvələr nisbətini məhdud şəkildə saxlamaq məqsədilə, onların diplomatiya praktikasına nüfuz etmişdir.

XIX əsrdə qüvvələr nisbəti Avropada dövlətlərarası münasibətlər sisteminin vəziyyətini müəyyən edən başlıca konsepsiyaya çevrildi. Qüvvələr tarazlığı siyasi realizm məktəbi nümayəndələri tərəfindən iki formada – siyasət və nəzəri konsepsiya kimi işlənib hazırlanmışdır. Lakin qüvvələr tarazlığı terminə aid nöqteyi-nəzərlərin çoxluğu onun konseptuallaşdırılmasını çətinləşdirir. Amerika nəzəriyyəçisi **E.Haak** həmin terminə münasibətlə bağlı, bir-birinə zidd olan minimum səkkiz şərhin mövcudluğunu qeyd edir. Məsələn, **Stenli Hoffman** və digərləri bildirirlər ki, qüvvələr tarazlığı artıq ümidsiz sistem kimi köhnəlmişdir, çünki müasir beynəlxalq qayda onun üçün zəruri şərait təmin etmir.

Lakin xüsusi siyasi strukturların və mexanizmlərin beynəlxalq sferanı tənzimləməsində üstünlüklərinə baxmayaraq, burada həm hüquqi və eləcə də əxlaqi tənzimləyicilər üçün müəyyən imkanlar saxlanılır. XX əsrin 70-ci illərinin ortalarında Helsinkidə (Finlandiya) qəbul olunan ATƏT-in yekun sənədində müasir beynəlxalq münasibətlərin prinsipləri müəyyənləşdirilmişdir. Həmin prinsiplərə daxildir: dövlətlərin suverenliyinin tanınması; mövcud sərhədlərin toxunulmazlığı; beynəlxalq münasibətlərdə güc tətbiq etməkdən və güclə hədələməkdən imtina etmək; dövlətlərin ərazi bütövlüyünün tanınması; mübahisələrin sülh yolu ilə tənzimlənməsi; insan hüquqlarına və başlıca azadlıqlara hörmət etmək; dövlətlər arasında əməkdaşlığın zəruriliyi və eləcə də onların öz üzərinə götürdüyü öhdəliyi beynəlxalq hüquq əsa-

sında vicdanla yerinə yetirmək.

Lakin 90-cı illərdən etibarən, dünyada qüvvələr tarazlığı əhəmiyyətli dərəcədə dəyişmişdir (SSRİ-nin süqutu ilə bağlı). İndi dünya siyasətində **yeni qaydaların** tətbiq olunması, **yeni təfəkkür** tərzinin qərarlaşması ictimai inkişafın, tarixi tərəqqinin qəti hökmüdür. Dünya siyasətində müasir sağlam qaydaların, düşünülmüş əməli fəaliyyətin təntənəsi beynəlxalq siyasi, iqtisadi və mədəni əlaqələrin yeni, mütərəqqi zəmin üzərində təşkilini şərtləndirir, böhransız, münaqişəsiz dünyanın formalaşmasına təkan verir. Heç də təsadüfi deyil ki, qərb və Amerika əldəbiyyatında **yeni cəmiyyət və yeni dünya nəzəriyyəsi** geniş əksini tapıb. Beynəlxalq siyasi münasibətlər ölkələr və xalqlar arasında onların dünya əlaqələri sistemində vəziyyətini əks etdirən münasibətlərdir. Həmin münasibətlər dünya siyasəti subyektlərinin mürəkkəb qarşılıqlı fəaliyyəti prosesində təşəkkül tapır, uzun tarixi inkişafın nəticəsidir, ayrıca dövlətlərin (və ya dövlətlər qrupunun) gücündən və təsirindən, onların beynəlxalq situasiyanı dəyişdirmək qabiliyyətindən asılıdır. Dünya siyasəti subyektləri arasında münasibətlərdə beynəlxalq münasibətlərin bu və ya digər agentlərinin rolu və əhəmiyyətini, onların siyasi hadisələrin başqa iştirakçılarının vəziyyətinə təsir xarakterini və dərəcəsini aydınlaşdırmaq vacibdir. Müasir şəraitdə dünya inkişafının gedişinə dövlətin təsirinin real çəkisi və dərəcəsi ilk öncə, iqtisadi potensialdan, elmi-texniki səviyyədən və müdafiə qüdrətindən, öz təhlükəsizliyini və sabitliyi təmin etmək qabiliyyətindən asılıdır. Eləcə də təsir amili kimi, ölkənin mədəni-mənəvi potensialı, informasiya imkanları, sosial sferada (həyat tərzi, maddi güzəran) və humanitar sahədə (şəxsiyyətin hüquq və azadlığı probleminin həlli və s.) nailiyyətlərin mövcudluğu da az əhəmiyyət kəsb etmir. Hər bir ölkə üçün əhalinin sayı, ərazisinin həcmi, təbii sərvətlərin mövcudluğu, coğrafi vəziyyət, tarixi əlaqələrin xarakteri və ənənə mühüm əhəmiyyətə malikdir. Nəhayət, bu və ya digər dövlətin beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirmək üçün

ictimai-dövlət quruluşu, siyasi rejim, hakimiyyətlə xalqın siyasi birliyi dərəcəsi, idarə edən elitanın səmərəli daxili və xarici siyasət xəttini həyata keçirmək qabiliyyəti, onun milli-dövlət mənafeyini dərk etmək səviyyəsi, etibarlı siyasi müttəfiqlərə malik olması, beynəlxalq aləmdə daim müttəfiqlik imkanına yiyələnməsi və s. böyük rol oynayır.

Məşhur Amerika politoloqu **C.Naym** hesab edir ki, böyük dövlətin statusunu müəyyən edən doqquz başlıca əlamət mövcuddur:

- ölkənin miqyası (ərazi və əhali);
- təbii resursların həcmi;
- hərbi qüdrət;
- iqtisadi qüdrət;
- elmi-texniki imkanlar;
- milli birlik;
- cəmiyyətin daxili sabitliyi;
- beynəlxalq nüfuz;
- müttəfiqlər tərəfindən müdafiə olunmaq.

Qeyd olunan bütün əlamətlər üzrə yüksək ("güclü") göstəricilərin mövcudluğu, **C.Naymın** fikrincə, ölkəni böyük dövlət hesab etməyə əsas verir.

Beynəlxalq siyasi münasibətlərin mahiyyətini başa düşmək üçün **dünya siyasətinin subyektlərinin** müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Politoloji ədəbiyyatda ilk öncə, beynəlxalq münasibətlərdə əhəmiyyətli rol oynayan dörd başlıca subyekt fərqləndirilir: milli dövlət, dövlətlərarası birliklər, beynəlxalq hökumət təşkilatları və qeyri-dövlət (qeyri-hökumət) təşkilatları və hərəkatları.

Milli (suveren) dövlətlər beynəlxalq münasibətlər sistemində xarici siyasət fəaliyyətinin başlıca subyektləri kimi çıxış edirlər. Onlar beynəlxalq aləmdə öz aralarında müxtəlif münasibətlərin daşıyıcısı kimi səciyyələnirlər, dünya birliyi çərçivəsində qarşılıqlı əlaqələrin və qarşılıqlı fəaliyyətin formalarını müəyyən edirlər (regional səviyyədə və eləcə də ikitərəfli zəmində). Çox vaxt beynəlxalq siyasətin bu və ya digər aspektləri, hətta ayrı-ayrı ölkələrin konkret siyasi rəh-

bərləri ilə genişləndirilir: napoleon müharibələri, **Monro** doktrinası, müharibədən sonrakı Avropa üçün **Marşall** planı və s. bu qəbildəndir. **Dövlətlərarası birliklər** dövlətlərin koalisiyasını (müttəfiqliyini), hərbi-siyasi blokları (məsələn, NATO), birləşdirici təşkilatları (Avropa Birliyi), siyasi assosiasiyaları (ərəb ölkələri liqası, qoşulmamaq hərəkatı) səciyyələndirir. Bu birliklər dövlətlərarası zəmində müasir siyasətdə çox böyük rol oynayırlar.

Beynəlxalq hökumət təşkilatları xüsusi birlik tipi olmaqla, buraya dünya ölkələrinin əksəriyyətinin nümayəndələri daxildir, çox vaxt onların siyasi oriyentasiyası və maraqları üst-üstə düşmür. Belə təşkilatlar ümumi əhəmiyyət daşıyan problemləri müzakirə etmək və dünya birliyinin (BMT, YUNESKO) fəaliyyətini əlaqələndirmək üçün yaradılır. Müharibədən (İkinci Dünya müharibəsi) sonrakı onilliklərdə beynəlxalq hökumət təşkilatlarının əhəmiyyəti xeyli artdı, münaqişəli situasiyaların həllində onların təşəbbüsü gücləndi.

Beynəlxalq siyasi hökumət təşkilatları öz dövlətləri adından beynəlxalq hüququn müstəqil subyekti kimi çıxış edirlər. Bu tipli təşkilatlardan ən universalı və əhəmiyyətlisi **BMT-dir**.

Beynəlxalq qeyri-dövlət (qeyri-hökumət) təşkilatları və hərəkatları da siyasətin fəal subyektləridir. Onların sırasına siyasi partiyaların beynəlxalq birlikləri (məsələn, xristian, kommunist, sosialist – sosialist internasionalı), peşə ittifaqları (ümumdünya həmkarlar federasiyası, Beynəlxalq azad həmkarlar konfederasiyası və s.), gənclər, tələbələr hərəkatı, pasifist hərəkatı, "yaşıllar" (Qrinpis) hərəkatı və s. daxildir. Beynəlxalq münasibətlər sistemində qeyri-hökumət təşkilatları əhəmiyyətli yer tutur. Belə təşkilatlardan tərksilah məsələsi üzrə Cenevrədə və Nyu-Yorkda fəaliyyət göstərən komitəni, Cenevrədəki insan hüquqları komitəsini və s. göstərmək olar. Son zamanlar beynəlxalq qeyri-formal hərəkatlar və təşkilatlar, ilk növbədə "xalq diplomatiyası", "yaşıllar" və digərləri xüsusi rol oynayırlar. Müasir ədəbiyyatda

qeyri-dövlət təşkilatlarına çoxmilli korporasiyaları, kilsə-dini birlikləri və başqalarını aid edirlər. Onlar siyasi xarakterli təşkilatlar olmasalar da, bununla belə beynəlxalq siyasi proseslərə mühüm təsir göstərirlər.

Dünya siyasətinin elə subyektlərinə də diqqət yetirmək lazımdır ki, beynəlxalq münasibətlərin normal inkişafında təhlükə yaradır, bu prosesdə destruktiv rol oynayır. Belə subyektlərə dünyada hökmranlıq iddiasında olan və öz xarici siyasətini işğalçılıq və qisasçılıq prinsipi əsasında həyata keçirməyə cəhd edən dövlətləri aid edirlər. Hazırda dünyada super dövlət kimi tanınan ABŞ-ı buna əyani misal göstərmək olar. Maraqlıdır ki, "ABŞ-ın milli təhlükəsizlik strategiyasında" (1996-cı il) göstərilir ki, hər cür beynəlxalq problemə Birləşmiş Ştatların daxili problemi kimi baxmaq lazımdır. Həmin strategiyada bildirilir ki, "Amerikanın dünyada liderliyi və dünya işlərinə cəlb olunması indi həmişəkindən daha vacibdir".

Dünya siyasətinin destruktiv subyektlərinə həmçinin, beynəlxalq terrorçu qrupları və təşkilatları, transmilli narkobiznes birliklərini, beynəlxalq mafioz strukturları, mason təşkilatlarını, bəzi beynəlxalq dini birlikləri və digərlərini aid etmək olar.

Dünya siyasəti subyektləri arasında münasibətlər müxtəlif zəmində yaradılır və inkişaf etdirilir. Buraya əməkdaşlıq və mübarizə, bir-birini qarşılıqlı müdafiə etmək və rəqabət aiddir. Beynəlxalq münaqişələrin dinc yolla həllində qarşılıqlı (ikitərəfli) mənafeləri nəzərə alan ağıllı kompromis xüsusi rol oynayır.

3. Müasir dünya siyasətinin inkişaf meylləri və spesifikliyi

Beynəlxalq münasibətlər sferasında müasir siyasi həyatın mürəkkəb hadisələrini başa düşmək üçün **dünya siyasətinin inkişaf meyllərinə və spesifikliyinə** xüsusi diqqət yetirilməlidir. Bu başlıca meyllər nəinki beynəlxalq, eləcə də milli siyasi problemlərin təhlili üçün zəruridir. Bununla bağlı ən

əvvəl, dünya siyasətinin tərkib hissəsi olan müasir beynəlxalq münasibətlərin tipologiyasını və spesifikliyini açıqlamaq vacibdir. Beynəlxalq münasibətlərin tipologiyası o dərəcədə praktiki əhəmiyyətə malikdir ki, məhz həm dünya birliyinin və eləcə də konkret ölkənin inkişafına təsir göstərən qlobal amilləri üzə çıxarmağa imkan yaradır. Beynəlxalq münasibətlərin **xronoloji** prinsipə əsaslanan təsnifatı mövcuddur. **C.Modalski və P.Morqan** tarixi həmin prosesdə bu və ya digər "dünya dövlətinin" hökmranlıq etməsi və onun formalaşdırdığı "qlobal sistemin" xarakteri nöqteyinəzərdən araşdırır və bütün beynəlxalq münasibətlər tarixini müəyyən dövrlərə ayırır. Bu nöqteyi-nəzərə görə, XV əsrdən başlayaraq bu günə qədər beynəlxalq münasibətlər tarixi beş dövrə ayırılır və bu müddət ərzində növbə ilə dörd "böyük dövlət": Portuqaliya, Niderland, Böyük Britaniya və ABŞ hökmranlıq etmişdir. Müəllifin fikrincə, beşinci dövr 1914-cü ildən başlanır və "Amerika əsri kimi" adlandırılır. Haqqında danışdığımız konsepsiyanın müasir tərəfdarlarından biri sayılan **R.Koks** (Amerika politoloqu) dünyada hökmranlığın mənasını belə müəyyənləşdirir:

Dünya səviyyəsində hökmranlıq, sadəcə olaraq dövlətlər arasında qayda deyildir. O, hakim istehsal üsulu ilə şərtlənən dünya iqtisadiyyatı daxilində qərarlaşan qaydadır və bütün ölkələrə nüfuz edir, digər istehsal üsullarını özündən asılı vəziyyətə qoyur. Bu, eləcə də müxtəlif ölkələrin sosial siniflərini əlaqələndirən beynəlxalq sosial münasibətlərdir.

Digər müəlliflər beynəlxalq münasibətlərin tipologiyasını əsaslandırmaq üçün **qüvvələrin yerləşdirilməsindən** və onun iştirakçıları arasında təşəkkül tapan **münasibətlərin xarakterindən** istifadə edirlər. Amerika alimi **M.Kaplan** beynəlxalq sistemlərin müvafiq olaraq, altı tipini fərqləndirir: "qüvvələr tarazlığı" sistemi; azad birqütblü (ikiqütblü) sistem; sərt birqütblü sistem; universal sistem; iyerarxiyalı sistem; "veto" sistemi.

2-ci və 3-cü minilliyin hüdudu beynəlxalq siyasi proseslərin, beynəlxalq münasibətlərin inkişafında əhəmiyyətli də-

yişikliklərlə əlamətdardır. "Soyuq müharibənin" qurtarması, "demokratiyanın üçüncü dalğası" çərçivəsində inkişaf edən ölkələrin sayının artması, BMT-nin və digər beynəlxalq təşkilatların nüfuzunun yüksəlməsi beynəlxalq mühiti əhəmiyyətli dərəcədə dəyişdirdi, onu dövlətlərarası əməkdaşlıq üçün daha əlverişli vəziyyətə çevirdi, humanizm normaları və prinsiplərinin təsirini genişləndirdi.

Lakin baş verən siyasi dəyişiklik şərq və qərb ölkələri, Yaxın Şərq dövlətləri arasındakı ziddiyyətlərin yalnız bir hissəsini aradan qaldırdı. Nüvə silahına malik olan ölkələrin sayının artması bəzi regionları bütün dünya üçün potensial təhlükə mənbəyinə çevirdi.

Müasir dünya siyasəti qlobal və daxili siyasi başlanğıcda kəskinləşən mübarizə meydanı kimi səciyyələnir. Bir tərəfdən, beynəlxalq aləmdə milli dövlətlərin rolu ardıcıl surətdə azalır və beləliklə, onların problemləri həll etmək üçün nəinki sadəcə olaraq beynəlxalq birlikdən asılılığı artır, ən başlıcası iqtisadi və hərbi münasibətlərdə daha qüdrətli inkişaf səviyyəsinə malik olan dövlətlər qrupundan və onların hərbi-siyasi müttəfiqlərindən asılı vəziyyətə düşməsi güclənir. Digər tərəfdən, ayrıca dövlətlərin resurs bazalarının genişlənməsi, onların beynəlxalq aləmdə bərabərhüquqlu mövqeyinin gözlənilməsinə imkan verən beynəlxalq hüquq normalarının fəaliyyəti, ölkələrin xarici siyasətinə sivil amillərin təsiri və digər səbəblər əksinə, milli hökumətlərin dünya siyasəti sferasında mövqelərinin möhkəmlənməsini şərtləndirir. Beynəlxalq sferada müxtəlif siyasi və mədən mərkəzlərin təsir rolunun möhkəmlənməsi meyli son nəticədə çoxqütblü dünyanın inkişaf məntiqinə gətirib çıxarır. Bununla yanaşı, həmin meylin təsiri altında ayrıca dövlətlər (dövlətlər koalisiyası) beynəlxalq aləmdə maraq və məqsədlərini əsas götürməklə, digər ölkələrə öz iradəsini zorla qəbul etdirməyə çalışırlar. Belə avtoritar siyasət təhlükəsi dünya siyasətində **imperiyaçılıq, neototalitar** meyli doğurur.

Nəticə etibarilə, yeni dünya qaydalarının təşkili prinsipi kimi çoxqütblülük ciddi sınağa məruz qalır, bəzi hallarda

beynəlxalq münasibətlərin ayrıca iştirakçılarının hökmünə əsaslanan yeni **çoxqütblü** dünyaya transformasiya olunur. Müasir dünya siyasətinin inkişafında başlıca meyllərdən biri **beynəlxalq münasibətlərin əsil ümumdünya münasibətlərinə** çevrilməsidir. Bu mənada dünyamız ən yeni dövr kimi səciyələnir. Başqa sözlə, o, XIX əsrin sonu XX əsrin əvvəllərində olduğu kimi, yalnız bir neçə "böyük dövlətlərdən" və Avropa ölkələrinin üstünlük dairəsindən ibarətdir. İndi dünyada çoxsaylı xalqların yaşadığı 200-dən artıq dövlət mövcuddur. Müqayisə üçün qeyd edək ki, XX əsrin başlanğıcında dünyada 52, ortalarında isə 82 müstəqil dövlət mövcud idi. İndi onların hamısı beynəlxalq münasibətlərin və dünya siyasətinin subyektləridir, bu və ya başqa formada dünyadakı siyasi proseslərə təsir göstərirlər.

Dünya ölkələri və xalqlarının böyük hissəsinin dünya siyasətinə qoşulması **beynəlxalq münasibətlərin** mürəkkəbləşməsini ifadə edir. Bu reallıq dünya siyasi inkişafının digər **meylidir**. Özünəməxsus tarixi və milli təcrübəyə, müxtəlif siyasi quruluş tipinə malik olan, sosial-iqtisadi və mədəni inkişaf səviyyəsi ilə fərqlənən dövlətlərin siyasi həyatda fəal iştirakı, yeni beynəlxalq problemlər və ziddiyyətlər doğurur. Bununla bağlı, müasir siyasətdə beynəlxalq təşkilatların rolu artır, onlar çoxsaylı milli dövlətlərin fəaliyyətini əlaqələndirən subyektlər kimi çıxış edirlər. Beynəlxalq siyasi münasibətlərin mrəkkəbləşməsi, eləcə də keçmişdə iki "fövqəl" dövlətin mövcudluğu ilə bağlı olan iki qütblü dünyanın dağılmasına səbəb oldu və yeni beynəlxalq siyasi strukturun formalaşmasına gətirib çıxartdı.

Müasir siyasi münasibətlri səciyyələndirən mühüm **meyllərdən biri isə xalqların milli özünü dərketmə şüurunun oyanması və inkişafı ilə eyni vaxtda dünyada inteqrasiya prosesinin inkişafıdır**. Bu meyl beynəlxalq miqyasda olduqca ziddiyyətli təzahür edir. Bir tərəfdən ölkələrin və xalqların iqtisadi cəhətdən yaxınlaşması əsasında dünyada beynəlmiləlləşmə (o cümlədən, siyasi sferada) cəhdi güclənir, digər tərəfdən isə müxtəlif xalqların milli və millətçilik səyləri da-

ha qabarıq surətdə nəzərə çarpır, bu isə dünya qaydalarında "milli renessans" hadisəsi kimi müəyyənləşdirilir. Belə ziddiyyətli mənzərəni xüsusilə Avropa ölkələrində müşahidə etmək olar: eyni vaxtda həm inteqrasiya (Qərbi Avropada) və eləcə də dezinteqrasiya (Şərqi Avropada) prosesləri baş verir.

Nəhayət, müasir dünyanın inkişafının mühüm **meyli dünya siyasətinin və beynəlxalq münasibətlərin mərkəzinə qlobal problemlərin nüfuz etməsidir**. Bu problemlərin fərqləndirici cəhəti, sistemlilik və ümumi xarakter kəsb etməsindən asılıdır. Burada müasir dünyanın birliyi, bəşər cəmiyyətinin bütün elementlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı ifadə olunur.

Qlobal problemlər özündə dörd başlıca qrupu birləşdirir: sosial-siyasi, sosial-iqtisadi, ekoloji və humanitar.

Sosial-siyasi problemləri son dərəcə aktual məsələlərin xeyli dairəsi təşkil edir. Bu problemlərin bütün dünya birliyinin birgə səyləri ilə həlli çox zəruridir. Onlara aiddir: nüvə müharibəsinin aradan qaldırılması, sürətlə silahlanmanı dayandırmaq və tərksilah, dövlətlərarası mübahisələri sülh yolu ilə həll etmək, eləcə də regional və beynəlxalq silahlı münaqişələrin həlli, xalqlar arasında etimada, beynəlxalq təhlükəsizlik sisteminin möhkəmləndirilməsinə əsaslanan qeyri-zorakılıq dünyasının formalaşdırılması.

Sosial-iqtisadi xarakterli problemlər iqtisadi istismarın və zəif inkişafın, yoxsulluğun və geriliyin aradan qaldırılması ilə bağlıdır. Bu məqsədlə inkişaf etməkdə olan ölkələrdə enerji, xammal və ərzaq böhranının, kəskin demoqrafik situasiyanın həlli yollarını axtarmaq vacibdir. **Ekoloji** problem insanların təbii yaşamaq vasitələrinin qorunub saxlanması məsələsini nəzərdə tutur. Bunun üçün beynəlxalq səylər və əlaqələr tələb olunur.

Humanitar problem isə bütün insan hüquqlarının təmin olunmasını, şəxsiyyətin mənəvi inkişafını, mədəni geriliyin aradan qaldırılmasını ifadə edir. Müasir dövrün qlobal problemlərinin həlli dünya siyasətinin ən vacib məsələsidir.

Müasir beynəlxalq münasibətlər nüvə silahı ilə bağlı qarşıdurmadan sülh naminə müttəfiqliyə əsaslanan yeni dünya qaydalarına keçilməsi ilə səciyyələnir. Lakin praktika göstərir ki, belə dönüşün həyata keçirilməsi heç də asan deyildir. Sabitliyi və ümumi təhlükəsizliyi təmin edə bilən mexanizm hələ indi formalaşmaqdadır. Yaxın keçmişdəki "düşmənə" münasibətdə inamsızlıq hələ qalmaqdadır. Sürətlə silahlanmaya sərf edilən xərclər xeyli artır. Son zamanlar dünyada hərbi xərclər bir il ərzində 1000 milyard dollar təşkil etmişdir. Dünya alimlərinin yarısından çoxu yeni kütləvi qırğın silahı yaratmağa çalışırlar. Eyni zamanda, dünyada 800 milyon insan mütləq yoxsulluq şəraitində yaşayır, 500 milyon nəfər isə hər il aclıqdan ölür.

Beynəlxalq münasibətlərin müasir mərhələsi dünya birliyi iştirakçılarının qarşılıqlı əlaqəsinin və qarşılıqlı asılılığının artması ilə səciyyələnir. Bu onunla şərtlənir ki, bəşəriyyətin mövcudluğu və inkişafı yalnız bütün dövlətlərin birgə səyləri ilə təmin edilə bilər. Bəşəriyyət qarşısında duran qlobal problemləri məhz bütün dünya birliyinin imkanları və resursları ilə həll etmək mümkündür.

Yeni dünya qaydası konkret dövlətlərin imkanlarından və ərazisinin həcmindən asılı olmayaraq demokratikləşmə, silahsızlaşdırma, humanist müttəfiqlik münasibətləri prinsipi əsasında formalaşır. Hazırda alimlər beynəlxalq münasibətlərin müasir səviyyəsinin və inkişafının xüsusiyyətlərini açıqlamağa çalışırlar, ona görə ki, onların dəyişilməsinin yeni meyllərini üzə çıxara bilsinlər.

Amerika alimləri **M.Zinqer** və **A.Vildavskiy** "iki zona" konsepsiyasını işləyib hazırlamışlar[1]. Onlar dünyanın iki hissəyə – sülh, rifah və demokratiya zonasına və eləcə də müharibə, tənəzzül və inkişaf zonasına ayrıldığını qeyd edirlər.

Bu müəlliflərin fikrincə, insanların əksəriyyəti yoxsulluğun, anarxiyanın, zülmün üstünlük təşkil etdiyi tənəzzül

[1] bax: The American Enterprise İnstitute for Public Policy Research, September/October. P. 12-16

zonalarında yaşayırlar. Sülh, rifah və demokratiya zonasına 25 ölkə daxildir: Qərbi Avropa ölkələri, ABŞ, Kanada, Yaponiya, Avstraliya və Yeni Zelandiya. Həmin ölkələrdə dünya əhalisinin 15 %-i yaşayır. Bu zonalarda hərtərəfli demokratiya üstünlük təşkil edir, sıravi vətəndaşların həyat səviyyəsi yüksəkdir (ildə hər nəfərə düşən əmək haqqı 10 min dollardan 30 min dollara qədərdir). Amerika alimlərinin konsepsiyası ilə razılaşmaq olar. Belə ki, firavan həyat, demokratiya və sülh bir-birilə sıx bağlıdır, əlbəttə bu qaydalardan kənara çıxma halları da mümkündür. Qeyd etmək kifayətdir ki, dünyada zəngin neft ehtiyatına malik olan səkkiz ölkə vardır (bunlar Fars körfəzi ölkələridir). Onları "zəngin" ölkələr adlandırırlar, lakin bu zənginlik əhalinin yüksək əmək məhsuldarlığı ilə bağlı deyildir, demokratiyadan kənardır, ancaq zəngin sərvətlərə malik olmayan elə kiçik ölkələr mövcuddur ki, demokratik ölkə kimi tanınırlar.

Haqqında mülahizələr yürütdüyümüz "iki zona" konsepsiyasının alternativi kimi, Amerika sosioloqu **Fukuyamanın** "tarixin sonu" konsepsiyası da maraq doğurur. O, belə hesab edir ki, XXI əsrdə dünya iki hissəyə bölünəcək: inkişaf etmiş "mərkəz" və həmişəlik geridə qalan "periferiya". Təbii ki, "mərkəz" sənaye cəhətdən inkişaf etmiş Qərb ölkələri, geridə qalmış "periferiya" isə Afrika, Asiya, Latın Amerikası ölkələri, eləcə də keçmiş SSRİ respublikaları və Şərq ölkələri hesab edilir. Bununla yanaşı, **Fukuyama** liberal sivilizasiyanın üstünlüklərini, onların "tarixi qaydaya salmaq" hüququnu inhisara almaq nöqteyi-nəzərini" sübut etməyə çalışır. "Periferiyanın" vəzifəsi isə "mərkəzi" enerji daşıyıcıları ilə təchiz etməkdən və zəhərli tullantıların atıldığı yer kimi çıxış etməkdən ibarət olmalıdır. Bunun əvəzində inkişaf etmiş ölkələr geridə qalan dövlətlərə humanitar yardım göstərəcəklər. Beləliklə, **Fukuyamanın** fikrincə, beynəlxalq münasibətlərdə sabitlik əldə ediləcəkdir[1].

Bu gün yürüdülən siyasi mühakimə və mülahizələrin

[1] Fukuyama F.The End of History and Last Man. The Free Press. 1992

gələcək nəticələrini qabaqcadan dərk etmək beynəlxalq münasibətlərin sabahı baxımdan müstəsna rol oynayır. Bu mənada nəinki siyasətçilər, dövlət başçıları (siyasi liderlər) eləcə də alimlər üzərinə böyük məsuliyyət düşür. Onlar öz fəaliyyətində, fikirlərində heç bir səhvə, qəbahətə yol verməməlidir. Bir sözlə, emosiyalara, təmənnalı hisslərə yox, reallığa əsaslanmaq lazımdır. Romantik deyil, əsil realist olmaq ictimai-siyasi inkişafın gedişini və gələcəyini zəkalı dərk etməyə imkan yaradır.

4. Beynəlxalq siyasi münasibətlərin komponentləri və problemləri

XX əsrin sonunda SSRİ-nin dağılması nəticəsində dünyada bu və ya digər dərəcədə müstəqil dövlətlər sistemi yarandı. Hazırda bütün müstəqil dövlətlər arasında beynəlxalq münasibətlər mövcuddur. Həmin münasibətlərin xarakteri və məzmunu ictimai inkişaf mərhələrində müxtəlif amillərlə şərtlənmişdir. Məsələn, uzun əsrlər boyu beynəlxalq münasibətlərin xarakteri ayrı-ayrı dövlətlərin hakim dairələrinin mənafeyi ilə müəyyənləşib. Son onilliklərdə dövlətlərin qarşılıqlı asılılığı dünya bazarının və beynəlxalq əmək bölgüsünün inkişafı ilə şərtlənir.

Hazırda beynəlxalq münasibətlərin xarakteri və məzmununun səciyyəvi cəhəti, eləcə də spesifik əhəmiyyəti bundan ibarətdir ki, o, məhz ümumbəşəri mənafe ilə müəyyən olunur. Beynəlxalq münasibətlərdə ümumbəşəri mənafeyin ön plana çəkilməsi hər şeydən əvvəl, elmi-texniki və elmi-texnoloji inqilabla bağlıdır. Bu inqilablar informasiya mübadiləsinin intensivliyini, ən geniş regionları əhatə edən infrastrukturun yaradılmasını təmin edir.

Beynəlxalq münasibətlərin ən mühüm komponenti **dövlətlərarası münasibətlərdir**. Dövlətlərarası münasibətlər dünyanın ümumi iqtisadi şəraiti ilə, hər şeydən əvvəl isə dünya təsərrüfat sisteminin vəziyyətilə sıx bağlıdır. Dünya

iqtisadiyyatının yüksəlişi və ya tənəzzülü, xammal, istilik-enerji, ərzaq sahələrindəki vəziyyət, bu və ya digər dövlətin beynəlxalq iqtisadi münasibətlərə cəlb olunma dərəcəsi və sair beynəlxalq münasibətlərə əhəmiyyətli təsir göstərən amillərdir. Beynəlxalq münasibətlərə həmçinin, sənaye cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı münasibətlərin ümumi xarakteri mühüm təsir göstərir.

Beynəlxalq münasibətlərin xarakteri **hərbi-strateji amildən** də çox aslıdır. Hərbi sahədə qüvvələr nisbətinin təxmini bərabərliyi beynəlxalq münasibətləri sabitləşdirir. Hərbi tarazlığın pozulması isə dövlətlərarası münasibətlərə, bütövlükdə isə beynəlxalq vəziyyətə mənfi təsir göstərir.

Beynəlxalq münasibətlərin iştirakçısı olan ölkələr maddi ehtiyatlarına, əhalisinin sayına, ərazisinin həcminə görə və sair göstəricilər baxımdan böyük və kiçik dövlətlər adlandırılır. ABŞ, Rusiya, İngiltərə, Fransa, Çin kimi böyük dövlətlər hər cür silaha, o cümlədən nüvə silahına malikdirlər. Nəinki nüvə silahına malik olan dövlətlər, eləcə də dünyanın digər böyük dövlətləri məsələn, Almaniya və Yaponiya kimi ölkələr bəşəriyyətin dinc taleyi və əmin-amanlığı üçün ciddi məsuliyyət daşıyırlar.

Beynəlxalq münasibətlərin digər **mühüm komponenti regional dövlətlərarası birliklər (hərbi-siyasi və iqtisadi koalisiyalar) arasındakı münasibətlərdir.** Dövlətlərarası birliklərin yaranmasını şərtləndirən başlıca amil onun iştirakçılarının mənafe və məqsədlərinin uyğunluğudur. Regional dövlətlərarası birliklər tədricən və spesifik şəkildə təşəkkül tapır və inkişaf edirlər. Lakin belə birliklər arasındakı münasibətlərdə daim müəyyən ziddiyyətlər nəzərə çarpır. Buna görə, həmin ziddiyyətlərin tənzimlənməsi naminə məqsədəuyğun mexanizm və təsisatlar yaradılması həmişə diqqət mərkəzində durur.

Dövlətlərarası birliklərdə ziddiyyətlərin labüdlüyü milli mənafe ilə bağlı bu və ya digər məsələlərin, xüsusilə, milli təhlükəsizliklə əlaqədar bəzi problemlərin mövcud-

luğundan irəli gəlir. Həmin cəhəti keçmiş dövrün siyasətçiləri də aydın başa düşmüşlər. Elə buna görə onlar yaranmış ziddiyyətli, münaqişəli vəziyyətdən çıxmaq üçün beynəlxalq müqavilələrin zəruriliyini əsaslandırmışlar. Belə bir tarixi faktı yada salaq. **1815-ci ildə Vyana konfransı nəticəsində Avropada beynəlxalq münasibətlər sistemi təşəkkül tapmağa başlayır.** Həmin konfransın başlıca əhəmiyyəti hər şeydən əvvəl, Fransanın bonapart rejiminə qayıtmasının, bir ölkənin digər ölkə üçün təhlükə törətmək dərəcəsinə çatmasının qarşısını almaqdan və bu zəmində avropa qitəsində sülhə nail olmaqdan ibarət idi. Vyana konfransı beynəlxalq münasibətlər baxımdan siyasətçilər tərəfindən yüksək qiymətləndirilsə də, həmin konfransın iştirakçıları öz hərəkətlərində sonralar vahid mövqe tutmadılar. Eləcə də 1914-1918-ci illərdəki birinci dünya müharibəsini başa çatdıran **Versal sülh müqaviləsi** (1919-cu il) imperialist dövlətlər arasındakı köklü ziddiyyətləri həll edə bilmədi.

Beynəlxalq münasibətləri tənzimləyən ilk təşkilat 1935-ci ildə yaradılan **Millətlər Cəmiyyətidir.** Bu beynəlxalq təşkilatın nizamnaməsində onun başlıca məqsədi belə müəyyən olunmuşdur: «Xalqlar arasında əməkdaşlığı inkişaf etdirmək və onların təhlükəsizliyini təmin etmək». İkinci dünya müharibəsindən sonra, 1945-ci ilin oktyabrında **yeni beynəlxalq təşkilat – BMT** fəaliyyətə başladı. BMT-nin başlıca məqsədi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaqdan və möhkəmləndirməkdən, həmçinin, onun iştirakçıları arasında əməkdaşlığı inkişaf etdirməkdən ibarətdir. BMT-nin əsas orqanlarından biri Təhlükəsizlik Şurasıdır. Təhlükəsizlik Şurasına sülh üçün hər hansı təhlükəni, təcavüzkarlıq hərəkətlərini müəyyənləşdirmək, beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək hüququ verilmişdir. Bu şuranın qərarı o halda qəbul olunur ki, onun daimi üzvü olan beş böyük dövlət – Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Çin müzakirə olunan məsələyə yekdilliklə səs versinlər.

Yeri gəlmişkən təəssüflə qeyd etmək lazımdır ki, Təhlükəsizlik Şurasının qəbul etdiyi bəzi qərarlar həyata keçirilmir və uzun müddət kağız üzərində qalır. Məsələn, İsrail və bir sıra ərəb dövlətləri arasında keçmiş münaqişələrin nəticələrinə dair qəbul olunan qərarlar və eləcə də Azərbaycan Respublikasının **mənafeyinə uyğun gələn** Dağlıq Qarabağ barədə dörd qətnamə indiyədək həyata keçirilməyib. BMT-nin Təhlükəsizlik Şurasında təmsil edilən bəzi böyük dövlətlərin dünyanın müəyyən regionlarını özlərinin «təbii milli maraq» zonaları sayması işğal olunmuş ərazilərin geri qaytarılmasına başlıca maneədir.

XX əsrin ikinci yarısından başlayaraq dövlətlərarası birliklərdən ən təsirlisi Şimali Atlantika Bloku (**NATO**) və Varşava Müqaviləsi Təşkilatı olmuşdur. Lakin SSRİ-nin süqutu ilə əlaqədar Varşava Müqaviləsi Təşkilatı dağılmış, NATO isə öz imkanlarını artırmaq istiqamətində səylərini gücləndirmişdir.

Regional dövlətlərarası birliklər sırasında dünya siyasətində mühüm rol oynayan Ərəb Dövlətləri Liqasını, Cənub-Şərqi Asiya ölkələri Assosiasiyasını, Asiya-Sakit Okean Şurasını, Afrika Birliyi Təşkilatını, İslam Konfransı Təşkilatını, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankını, İslam İnkişaf Bankını və digər nüfuzlu təşkilatların adını qeyd etmək vacibdir. Beynəlxalq münasibətlərin subyektləri arasında beynəlxalq iqtisadi birliklər mühüm rol oynayırlar. Həmin iqtisadi birliklərdən dünya siyasətinə sanballı təsir göstərən beynəlxalq təşkilatlardan biri **Avropa İqtisadi Birliyidir**. Heç də təsadüfi deyil ki, dünyanın bir sıra böyük dövlətləri, o cümlədən Rusiya və Türkiyə həmin təşkilata daxil olmağa ciddi səy göstərirlər.

Nəhayət, beynəlxalq münasibətlərin **digər mühüm** komponenti **ümumdünya hökumət və qeyri-hökumət siyasi təşkilatlarıdır**.

Beynəlxalq münasibətlərin mahiyyəti təkcə dövlətlərarası əməkdaşlıq səviyyəsi ilə məhdudlaşmır. Həmin

münasibətlərə eləcə də qeyri-hökumət təşkilatları, siyasi partiyalar və hərəkatlar, müxtəlif sosial qruplar və hətta ayrı-ayrı görkəmli şəxsiyyətlər cəlb olunurlar. Deməli, hazırda beynəlxalq münasibətlər anlayışı sözün əsil mənasında öz mahiyyətini əks etdirir. Başqa sözlə, beynəlxalq münasibətlər nəinki dövlətlərarası, hökumətlərarası, həmçinin, xalqlar arasındakı münasibətlərdir.

İndiki şəraitdə dünyada əhəmiyyətli dəyişikliklər baş verir, beynəlxalq münasibətlərin məzmunu yeni çalarlarla zənginləşir. Dünyada sabitliyi qoruyub saxlamağın köhnə mexanizmi aradan qalxır, dövlətlərarası münaqişələr təhlükəsi tədricən və nisbətən azalır. Beynəlxalq münasibətlərin demokratikləşməsi meyli dünyada əmin-amanlığın bərqərar olması imkanlarını artırır. Lakin beynəlxalq münasibətlərin inkişafı üçün yaranan demokratik şərait heç də beynəlxalq təhlükəsizlik üçün tam təminat vermir. Təsadüfi deyil ki, dünyanın bütün dövlətləri mövcud xarici təhlükəni nəzərə alaraq hələ müdafiə vasitələrindən əl çəkməmişlər. Müasir dünyada sağlam siyasi münasibətlərin təşəkkülündə 1949-cu ildən fəaliyyət göstərən **hökumətlərarası təşkilat – Avropa Şurası və ATƏT** (avropada əməkdaşlıq və təhlükəsizlik təşkilatı) mühüm rol oynayırlar.

Müasir beynəlxalq münasibətlərin uğurlu gələcəyinin əhəmiyyətli amillərindən biri hər hansı dövlətin və ya dövlətlər qrupunun başqa dövlətlər üzərində üstünlüyünə yol verməməkdən ibarətdir. Dövlətlər arasında siyasi danışıqlar aktual beynəlxalq problemləri həll etməyin məqsədyönlü və sağlam üsuludur. Bu, qarşılıqlı inamın və əməkdaşlığın reallaşmasına etibarlı təminat verir.

Müasir beynəlxalq münasibətlər problemlərsiz deyildir. Real surətdə bir sıra ziddiyyətlər mövcuddur ki, onlar da dövlətlərarası münasibətləri mürəkkəbləşdirir.

- Bir tərəfdən, beynəlxalq sənədlərdə dövlətlərin formal bərabərliyi öz əksini tapmışdır, digər tərəfdən, reallıqda onların qeyri-bərabərliyi mövcuddur. Lakin real qeyri-bə-

rabərlik nəinki dövlətlərin böyüklüyündə, qüdrətli olmasında, iqtisadi və hərbi potensialında, eləcə də hüquqi münasibətlərdə mövcuddur. Bəzi ölkələr BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləridir, digərləri yox. Bir qrup ölkə nüvə silahı əldə etmək hüququna malikdir, başqalarına bu silahı yaratmaq qadağan edilir. Bu baxımdan İranla bağlı beynəlxalq qalmaqal hamıya məlumdur. Beynəlxalq təşkilatlar ABŞ başda olmaqla, böyük dövlətlərin təsiri altında fəaliyyət göstərirlər və bəzən onlardan maliyyə asılılığına məruz qalırlar.

- Beynəlxalq (dövlətlərarası) münasibətlər xeyli dərəcədə fraqmentar (yarımçıq-natamam) xarakter daşıyır, başqa sözlə, bütün münasibətlər dairəsini tənzimləyən geniş və tammiqyaslı sistem təşəkkül tapmamışdır. Dövlətlər arasındakı münasibətlər xeyli dərəcədə onlar arasında danışıqlara əsaslanır, lakin danışıqlar məhz real münasibətlərin bir hissəsini tənzimləyir.

- Dövlətlərarası münasibətlər sisteminin özü yekcins deyildir. Bir sıra hallarda siyasət dövlətlərin birinci şəxslərinin (liderlərinin) qarşılıqlı münasibətindən, rəğbətindən və nifrətindən asılıdır. Lakin onların imzaladıqları müqavilələr parlament tərəfindən təsdiq olunduğu üçün danışıqlar prosesində çətinliklər yaradır.

- Eləcə də danışıqların qeyri-sabitliyi dövlətlərarası (beynəlxalq) münasibətlərin problemlərindəndir. Dövlət fəaliyyətdə olan müqaviləni ləğv etməklə, təşəkkül tapan münasibətlər sistemini dəyişdirə bilər.

- Beynəlxalq münasibətlərdə problem yradan amillərdən digəri beynəlxalq hüququn və beynəlxalq təşkilatların zəif olmasıdır. Beynəlxalq hüquq, başqa sözlə, normalar sistemi və dövlətlər arası münasibətlərin nizama salınması xeyli dərəcədə müqavilə xarakteri daşıyır. Hələ 1928-ci ildə bütün müharibələrin qadağan olunması haqqında birgə qərar qəbul olunmuşdur, sonra hərbi zorakılığın qadağan edilməsinə aid qərar qəbul edilmişdir. Lakin 1945-ci ildən sonra da müharibə və münaqişələr mövcud olmuşdur.

- Bütün yuxarıda göstərilən problemlər xeyli dərəcədə dövlətlərin bir-birinə inamsızlığını şərtləndirir.

Lakin belə düşünmək olmaz ki, beynəlxalq münasibətlər hədsiz dərəcədə problemlərdən ibarətdir.

Dövlətlər son onilliklər ərzində inteqrasiya sahəsində xeyli irəliləmişlər, dövlətlərarası qarşılıqlı etimad, siyasi, iqtisadi, mədəni, elmi-texniki və digər sahələrdə əməkdaşlıq səyləri güclənmişdir, xeyli ümumi maraq doğuran addımlar atılmışdır, lakin bununla belə, həll edilməsi vacib olan çoxlu aktual problemlər qalmaqdadır.

5. Müasir dünyada siyasi qaydaları müəyyənləşdirən amillər

XXI əsr yeni geosiyasi iqtisadi və sivill situasiyanın təşəkkül dövrü kimi mənalanır. Bu dövr bir sıra qlobal və lokal amillərin təsiri ilə şərtlənir və birqütblü dünya qaydaları sisteminin formalaşması ilə səciyyələnir.

Birqütblü dünya qaydaları sisteminin formalaşması yeganə fövqəl dövlət olan ABŞ-ın qüdrətinin artması ilə bağlıdır. Siyasi qüvvələrin dünyada yenidən qlobal bölgüsü SSRİ-nin dağılmasının nəticəsidir. ABŞ-ın hegemonluğu imperiya hakimliyi, sərt hegemonluq, güc tətbiq etmək və mütləq azlığın mütləq çoxluq üzərində üstünlüyü təhlükəsi yaradır.

2002-ci ildə ABŞ və İngiltərə başda olmaqla koalisiya qüvvələrinin İraqı darmadağın etməsi və işğalı dünya siyasətində yeni ciddi məqamların və ziddiyyətlərin təzahürünə istiqamətləndi, beynəlxalq münasibətlərin bütün strukturuna böyük təsir göstərdi və BMT-nin rolu artdı. Həmin hadisələr İran körfəzi rayonunda keyfiyyətcə yeni mərhələnin – dünyada yeni qaydada əməkdaşlığın formalaşmasının əsasını qoydu.

ABŞ-ın və onun müttəfiqlərinin İraqda və Yuqoslaviyada birtərəfli hərəkəti "Hindistan-Çin-Rusiya" qeyri-hərbi üçbucağının formalaşmasını sürətləndirə bilər. Çin, Rusiya, Britaniya və Fransa üstünlük təşkil etməyin qlobal sə-

viyyəsinə nail olmağa qadir olmadıqlarını hiss edirlər. Avropa Birliyinin və Çinin yüksəlişi hesabına çoxqütblü dünyaya keçid hələ çox vaxt tələb edir. Amerikanın hegemonluğuna üç şərt obyektiv surətdə mane ola bilər: 1. Amerika xalqının Amerikanın hökmranlığı naminə yüksək dəyərlərin (maddi, mənəvi, siyasi, hərbi və s.) sərf edilməsinə tam etirazı; 2. ABŞ-ın müttəfiqlərinin onunla həmrəyliyə təminat verməməsi; 3. Potensial qurbanların ona qarşı mütəşəkkil qarşıdurması.

Bazarın qloballaşması, kommunikasiya cəhətdən yaxınlaşma, planetar elmi inqilab, millətlərarası sosial fəaliyyət, yeni nəqliyyat növləri, telekommunikasiya texnologiyası və s. əsasında qarşılıqlı asılılığın artması siyasi təsir və üstünlük üçün yeni imkanlar yaradır. Təhsil, infrastrukturun inkişafı, dünya bazarında rəqabət qabiliyyətli mövqeyə malik olmaq, mikroelektronika, biotexnologiya, telekommunikasiya, kosmos texnikası, kompüter XXI əsrdə güc mərkəzinə çevriləcək. Qloballaşma 2000-2026-cı illərdə daha çox fəallıq kəsb edəcək, o, ümumdünya birliyini dünya federal idarəetmə üsulu ilə (federallaşma) tamamlayacaq. Lakin iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin iqtisadi üstünlüyünə əsaslanan dünya informasiya məkanının və dünya bazarının qloballaşması dünya əhalisinin əksəriyyətini qane etmir.

Qərb politologiyasında "yeni dünya qaydaları" konsepsiyası mövcuddur, bu konsepsiya **dünyanın yenidən qurulmasının qlobal layihəsi** kimi təsəvvür olunur. Onun siyasi mahiyyətini dünyanın bütün regionlarında və ölkələrində Qərb demokratiyasının fundamental zəminə əsaslanan siyasi sistemin formalaşması kimi müəyyənləşdirmək olar.

Yeni (vahid) dünya qaydası ideyası iki başlıca istiqamətdən ibarətdir:

1. Bəzi nümunələrə müvafiq olaraq, müxtəlif dövlətlərin ümumdünya unifikasiyası (vahid şəklə salınması) – ümumbəşəri sərvətlərin və sivil cəmiyyətlərin qəbul edilməsi;

2. Hansısa ümumi mərkəzlə, dünya hökuməti ilə vahid

dövlətin yaradılması.

Yeni dünya qaydasının agenti kimi müxtəlif subyektlər çıxış edə bilərlər:

- Ayrıca dövlətlər və ya dövlət (bu gün həmin dövlət ABŞ hesab olunur);
- Milli siyasi təşkilatlar, beynəlxalq və dövlətlərarası təşkilatlar (NATO, ATƏT və b), iqtisadi təşkilatlar (transmilli korporasiyalar tipli), dini təşkilatlar (Vatikan və s.).

Əgər XX əsrə qədər dünyanın dünya tərəfindən istila edilməsi və ya ona tabe olması ideyası hakim idisə, yeni dünya qaydası nəzəriyyəsində dünya XIX-XX əsrlərin qovuşuğunda iki istiqamət kəsb edir: 1. dünyanın mərkəzləşdirilməsi və ya 2. onun əhalisinin unifikasiyası.

Bir sıra milli dövlətlər və siyasi istiqamətlər bu ideyaya müqavimət göstərir, çünki həmin ideyada bir qisim dövlətin digərini özünə tabe etmək cəhdi ifadə olunur, bərabərlik, bərabər hüquqluluq bayrağı altında ölkənin "qızıl milyarda" mənsub olmayan resurslarının və əhalisinin istismar edilməsi həyata keçirilir, eləcə də yeni ideya sayəsində insanların birgə yaşayışının hansı bir formasınınsa hamıya qəbul edilməsinə səy göstərilir. İnsanlar bu qaydalara müvafiq olaraq, yaşamağa məcbur edilir. Yeni dünya qaydaları ideyasının tərəfdarları belə hesab edirlər ki, bu cür üsullar əvvəllər də olmuşdur. İndi bir qisim dövlətlərin (dövlətlər blokunun) digərlərinə tabe edilməsi mexanizmi incə şəkildə həyata keçirilir, birbaşa zorakılıq həmişə nəzərdə tutulmur, iqtisadi təsir imkanları və yenidən bölüşdürmə daha çox təzahür edir. Siyasətçilərin "ölkələrin dostları yoxdur, onların milli mənafeləri vardır" yığcam fikri ənənəvi və geniş şəkil almışdır.

Dövlətlərin – millətlərin dövlət suverenliyi transmilli korporasiyaların, qeyri-hökumət təşkilatlarının, region separatizminin, beynəlxalq cinayətkarlığın artan təsiri sayəsində pozulur. Dövlət suverenliyinin diffuziyası (pozulması) beynəlxalq münasibətlərlə idarə oluna bilməyən hərcmərclik şəraitinə gətirib çıxarmışdır. Belə vəziyyət ABŞ başqa olmaqla birqütblü dünya qaydasının təşəkkülü ilə nə-

ticələnmişdir və münaqişələrin tezliklə həllini təmin edir, beynəlxalq münasibətlər sisteminin özü isə daha da idarə oluna bilməsi ilə nəzərə çarpır. Beynəlxalq işlərdə dağıdıcı xaosa (hərc-mərcliyə) qarşı üç qüvvə çıxış edir: suveren dövlət, hərbi-siyasi blok, beynəlxalq təşkilatlar (hər şeydən əvvəl, BMT). Əlbəttə, müasir beynəlxalq münasibətlərin inkişaf meyli, yüksək texnologiyanın şübhəli əllərə verilməsini qadağan edən qaydaların təşəkkülünü tələb edir. BMT çevik, tez fəaliyyət göstərən və səmərəli beynəlxalq təşkilata çevrilməlidir. Şübhəsiz, beynəlxalq əməkdaşlıq münasibətlərinin inkişafında ən böyük beynəlxalq təşkilat olan BMT prinsipial əhəmiyyətə malikdir. Onun nəzdində fəaliyyət göstərən müxtəlif idarəetmə təsisatları (məsələn, YUNESKO və b.) beynəlxalq iqtisadi, texniki, mədəni, elmi-texniki və digər sahələrdə əməkdaşlığın genişlənməsinə mühüm təsir göstərirlər. Beynəlxalq əməkdaşlığın strukturunda və yeni dünya qaydaları sistemində humanitar əməkdaşlıq əhəmiyyətli və spesifik yer tutur. Humanitar əməkdaşlıq müasir beynəlxalq münasibətlər sistemində başlıca istiqamətlərdən biri olmaqla, cəmiyyətin həyat fəaliyyətinin saxlanmasına, ləyaqətli insan şəxsiyyətinin formalaşmasına əlverişli şərait yaradır.

Müasir dünya qaydalarını müəyyənləşdirən ən dərin amillərdən biri dövlətin və ya dövlətlər qrupunun böyük iqtisadi potensialıdır. Bununla bağlı dünyanın iqtisadi cəhətdən inkişaf etmiş mərkəzləri beynəlxalq münasibətlərdə əhəmiyyətli rol oynayırlar.

"Şimal" və "Cənub" arasında əlaqələrin zəifləməsi artır və böyük əksəriyyətin üç iqtisadi inkişaf mərkəzindən asılılığı güclənir: Şimali Amerikadan, Qərbi Avropadan və Şərqi Asiyadan. Qlobal rəqabət iqtisadi yarışı sürətləndirsə də, Qərb öz üstünlüklərini əldən vermir.

Belə kəskin qarşıdurma 2015-2020-ci illərədək davam edəcək. Zəngin və yoxsul ölkələr arasındakı kəskin fərqlərin artması nəticə etibarilə, yoxsul əhalinin Amerikaya, Avstraliyaya miqrasiyasına gətirib çıxarır. İnkişaf etmiş ölkələr tə-

bii sərvətlərinin azalması ilə bağlı, strateji cəhətdən mühüm xammal mənbələri üzərində nəzarət etməyə çalışır, bu isə zəngin və yoxsul ölkələr arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb olur. Nüvə silahının yayılması isə şəraitin praktiki olaraq nəzarətdən çıxmasına gətirib çıxarır. Bununla bağlı, başda ABŞ olmaqla, industrial cəhətdən inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında iqtisadi cəhətdən yeni soyuq müharibə təhlükəsi yaranır.

Xeyli dəyişdirici amillərin müxtəlif istiqamətləri beynəlxalq münasibətlərin inkişafının müxtəlif ssenarisini (inkişaf məzmununu) doğurur.

Birinci ssenariyə ABŞ-ın dünya hegemonluğu modeli aiddir. O, ABŞ-ın iqtisadi, maliyyə, texnoloji, hərbi, ticarət sferalarında üstünlüyünə əsaslanır. Bu hegemonluq ABŞ-ın beynəlxalq norma və qaydaların formalaşmasında hökmranlığı, ideologiyasının cazibədarlığı, amerika resurslarını səfərbər etmək bacarığı və potensial rəqiblərinin zəifləməsi ilə bağlıdır. Güman olunur ki, ABŞ-ın qlobal hegemonluğu bu əsrin sonuncu rübünə (2080-ci ilə) qədər davam edə bilər. Buna Qərbi Avropa dövlətlərinin mövqeyi də imkan yaradır. Çünki onlar ABŞ-ın qlobal liderliyinə etiraz etmirlər, bu vəziyyətlə hesablaşırlar.

Avropa birliyi hələlik vahid geosiyasi məqsədə malik deyildir, NATO təsisatları isə avropa elitasının davranışına səmərəli nəzarəti reallaşdırmağa istiqamətlənir. Bundan əlavə, Çin və Rusiya da Amerikanın hegemonluğuna mane ola bilmirlər. Bu dövlətlər Amerika texnologiyasına, investisiyalarına, onun satış bazarlarına ehtiyac duyurlar.

İkinci ssenari dünyanın birqütblü struktura malik olmasıdır, başqa sözlə, Çin və Avropa Birliyi ABŞ-ın hegemonluğuna qarşı durmaq iqtidarında deyildir. Əlbəttə, ABŞ-a qarşı ayrıca ölkələrin qarşıdurması kifayət deyil. Belə halda ABŞ-a qarşı ölkələrin koalisiyası qarşı dura bilər. Əlbəttə, belə koalisiyanın yaradılması meyli də hiss olunmur. Lakin bu istiqamətdə Avropa Birliyinin və Çinin iqtisadi qüdrəti daha etibarlıdır. Müqayisə üçün qeyd edək ki,

ümumdünya məhsulunda Avropa Birliyinin payı 19,8%, ABŞ-ınkı isə 20,4% təşkil edir. ABŞ-a qarşı Çin daha ciddi rəqibdir. Proqnozlara görə, 2020-ci ildə Asiya Çinlə birlikdə dünya ümumi məhsulunun 40%-ni istehsal edəcək, Çinin bu məhsuldan əldə edəcəyi gəlir isə 20 trilyon dollara çatacaqdır. Belə halda ABŞ ikinci yerdə olacaq – 13,5 trilyon dollara malik olacaqdır.

Üçüncü ssenari qüvvələr tarazlığına əsaslanan **çoxqütblü dünyadır**. Məsələ ondadır ki, ABŞ-ın hegemonluğu dövrü sonsuz deyildir, bu hər şeydən əvvəl, onun resurslarının məhdudlaşacağı ilə bağlıdır. Çoxqütblülük Avropa Birliyi ilə Rusiya, Çin, Hindistan və Yaponiya arasında regional hegemonluq uğrunda mübarizə gedişində formalaşır. Hər bir mərkəz öz təsir zonasını yaratmağa cəhd edir. Bu istiqamətdə baş verən başlıca proses üç blokun formalaşması ilə bağlıdır: AB (Avropa Birliyi), ŞAATZ (Şimali Amerika azad ticarət zonası), ŞA (Şərqi Asiya). Qeyd edək ki, bu istiqamətdə Rusiya yalnız hərbi imkanlara malikdir, o, iqtisadi və texnoloji resurslar cəhətdən geri qalır.

Dördüncü ssenari **yeddi sivilizasiyanın paralel mövcudluğu** ilə bağlıdır: Qərb, Latın Amerikası, Şərq-Avropa, Müsəlman, Hindistan, Çin, Yaponiya. Onlardan hər biri rəqibinə spesifik təsir göstərməyə qadir olduğu üçün, XXI əsrdə həmin sivilizasiyalar xətti ilə qlobal münaqişələr baş verəcək.

6. Xarici siyasət: mahiyyəti, məqsədi və vəzifələri

Xarici siyasət dövlətin fəaliyyətinin ayrılmaz formasıdır. O, daxili siyasətin davamıdır. Lakin xarici siyasəti daxili siyasətin sadəcə davamı kimi müəyyənləşdirmək olmaz. Xarici siyasət malik olduğu xüsusi spesifik cəhətlərinə görə daxili siyasətdən fərqlənir. Onun iki spesifik cəhətini qeyd etmək olar: 1. xarici siyasətdə məqsədlərin müəyyənləşdirilməsi və reallaşması digər suveren dövlətlərin fəaliyyətini və məqsədlərini nəzərə almaqla həyata keçirilir; 2. xarici siya-

sət özünün mütəşəkkil-təsisatlanmış təminatı ilə (orqanlar, kadrlar) səciyyələnir.

Xarici siyasət bütün spesifikliyi ilə birlikdə daxili siyasətlə qarşılıqlı əlaqəyə və qarşılıqlı asılılığa malikdir. Hələ vaxtilə **Makiavelli** qeyd etmişdir ki, daxili işlər daim o zaman yaxşı olacaqdır ki, xarici iş həmişə yaxşı vəziyyətdə olsun. Əlbəttə, bu fikri eləcə də əksinə, başa düşmək lazımdır.

Daxili siyasətin məntiqi davamı olan xarici siyasət dövrümüzün ən aktual və mürəkkəb problemlərindəndir. Xarici siyasətin mahiyyəti bu günə qədər kəskin elmi mübahisələr predmeti kimi davam edir. Beynəlxalq siyasi elmin müxtəlif nəzəri istiqamətləri dünya siyasəti, daxili və xarici siyasət, bunların qarşılıqlı əlaqəsi və asılılığı məsələsinin araşdırılmasına xüsusi diqqət yetirir. Siyasi idealizm, siyasi realizm, neorealizm, neomarksizm, transnasionalizm və digər nəzəri istiqamətlər xarici siyasət probleminə siyasətin mənbəyi və hərəkətverici qüvvəsi nöqteyi-nəzərdən yanaşırlar.

Siyasi realizmin tərəfdarları daxili və xarici siyasəti, dünya siyasətini eyni mahiyyət kəsb edən məsələ kimi nəzərdən keçirirlər. **H.Morgentaunun** fikrincə, xarici siyasət hər şeydən əvvəl, milli mənafe ilə müəyyən olunur. Milli mənafe insanın dəyişməz təbiəti, coğrafi şərait, sosial-mədəni və tarixi ənənələrlə əlaqə daşıdığı üçün obyektiv xarakterə malikdir. Mənafeyin konkret reallaşması formaları dövlətin fəaliyyəti ilə bağlıdır. Çünki xarici aləmlə əlaqə, məhz dövlətin inhisarındadır. **Morgentau** fikrini davam etdirərək bildirir ki, milli mənafeyin əsasını əks etdirən xalqın dili, onun mədəniyyəti, mövcudluğunun təbii şəraiti və s. isə həmişə yaşayır. Buna görə ölkə həyatının daxili amilləri olmaq etibarilə, siyasi rejim, ictimai rəy dəyişə bilər və dəyişir də – bunlar milli mənafeyə təsir etmək qabiliyyətinə malikdir, lakin **milli mənafe siyasi rejimin xarakteri ilə bağlı deyildir**. **Morgentau** bu fikrini 1948-ci ildə yazdığı və Nyu-Yorkda çap etdirdiyi «Millətlər arasında siyasi

münasibətlər. Hakimiyyət uğrunda mübarizə» kitabında əsaslandırır. Yeri gəlmişkən qeyd edək ki, onun yuxarıdakı mülahizəsi beynəlxalq siyasi nəzəriyyədə geniş rəğbətlə qarşılanmışdır.

Daxili siyasətlə xarici siyasətin əlaqəsinə dair digər təsəvvürlər də mövcuddur. Bu baxımdan geosiyasi konsepsiya, «varlı şimal» və «yoxsul cənub» nəzəriyyələri, eləcə də «dünya mərkəzi» ilə «dünya periferiyasının» asılılığına dair **neomarksist** nəzəriyyə səciyyəvidir. Həmin nəzəriyyələrin mahiyyəti bundan ibarətdir ki, daxili siyasətin mənbəyi xarici məcburetmədir. Məsələn, **İ.Vallerstaynın** nöqteyi-nəzərincə, bu və ya digər dövlətdə daxili ziddiyyətləri və siyasi mübarizəni başa düşmək üçün daha geniş mənada dünyanın bütövlüyünü nəzərə almaq lazımdır. Söhbət «mərkəzlə» «periferiya» arasında qeyri-simmetrik qarşılıqlı asılılığın mövcudluğundan gedir. Mövcud hal xarici siyasət sahəsində onların arasında mübarizənin başlıca amilidir. İnkişaf etmiş ölkələr dünya siyasətində və iqtisadiyyatında hakim mövqe tutmaqdan əl çəkmək istəmir. Zəif inkişaf etmiş ölkələr (periferiya) isə bu vəziyyətlə hesablaşmaq fikrində deyildir. Əlbəttə, nəticə etibarilə bu və ya digər tərəfin başlıca mənafeyi xarici siyasət sferasında təzahür edir. Xarici siyasətin uğurları isə ölkə daxilindəki əlverişli şəraitlə şərtlənir. Hər hansı ölkədə daxili siyasi proseslərin məqbul vəziyyəti dünya siyasətində ləyaqətli yer tutmağa mühüm təkan verir.

Müasir beynəlxalq siyasi nəzəriyyədə diqqəti cəlb edən istiqamətlərdən digəri **neorealizm və strukturalizmdir**. Bu nəzəriyyələrə görə, xarici siyasət daxili siyasətin, beynəlxalq münasibətlər isə daxili ictimai münasibətlərin davamıdır. Neorealizm və strukturalizm nəzəriyyəsinin tərəfdarları iddia edirlər ki, xarici siyasətin müəyyən olunmasında milli mənafelər yox, məhz, beynəlxalq sistemin daxili

dinamikası həlledici rol oynayır.[1]

Dünyanın qarşılıqlı asılılığı konsepsiyasının tərəfdarları isə belə bir tezisdən çıxış edirlər ki, daxili və xarici siyasət ümumi əsasa malikdir. Bu əsas (zəmin) dövlətdir. Heç də təsadüfi deyil ki, belə mövqeyi əsaslandıran Monreal universitetinin professoru **D.Dodley** iddia edir ki, xarici siyasət məsələsini dəqiq araşdırmaq məqsədilə, dövlətin mahiyyəti problemi daha dərindən və əhatəli təhlil olunmalıdır. **Transnasionalizm** məktəbi nümayəndələri isə belə qənaətə gəlirlər ki, hazırkı şəraitdə dünya siyasəti dövlətlər arasındakı münasibətlərlə müəyyən olunmur. Başqa sözlə, hökumətlərarası və qeyri-hökumət təşkilatları, müəssisələr, sosial hərəkatlar, müxtəlif assosiasiyalar və sairənin fəaliyyəti dövlətlərarası münasibətləri beynəlxalq birliklər mərkəzindən sıxışdırır və nəticədə transmilli münasibətlər ön mövqeyə keçir. Bu mənada siyasətin daxili və xarici siyasətə ayrılması öz əhəmiyyətini itirir. Dövlətlərarası xarici və beynəlxalq siyasət nəinki bir-biri ilə sıx bağlıdır, həm də daxili siyasətlə vəhdət təşkil edir. Həmin vəhdət ondan irəli gəlir ki, daxili və xarici siyasət eyni əsasla və son məqsədlə, vahid ehtiyat bazası və subyektlə şərtlənir. İsveçrə tədqiqatçısı **F.Brayarın** düzgün qeyd etdiyi kimi, xarici siyasətin xarici işlər nazirliyində çəkisi bir o qədər çox deyil. Xarici siyasət dövlətlər arasında ümumi mənafedən irəli gələn yaxınlaşmanı həyati tələbata çevirir.

Beynəlxalq aləmdə hər bir dövlətin yeritdiyi siyasət onun mənafeyi ilə bağlıdır. Dövlətin mənafeyinin iki başlıca tərəfi vardır: daxili və xarici mənafe. Daxili mənafe cəmiyyətdə sabitliyin qərarlaşması, vətəndaşların fiziki və mənəvi imkanlarını təzahür etdirməsi üçün müvafiq şəraitin yaradılması ilə bağlıdır. Xarici mənafe isə milli suverenliyin müdafiəsi, dövlətin siyasi təsir dairəsinin genişlənməsi, onun geosiyasi vəziyyəti və sair amillərlə əlaqədardır. Daxili və

[1] Цыганков П.А. Международные отношения. Səh. 57

xarici mənafelər qarşılıqlı əlaqəyə malikdir. Bu mənada dövlətin xarici siyasəti onun daxili siyasətinin davamıdır. Xarici siyasət dövlətin beynəlxalq aləmdə fəaliyyətini səciyyələndirir və digər dövlətlərlə onun münasibətlərini tənzimləyir. Xarici siyasət fəaliyyətinin başlıca subyektləri bunlardır: dövlətlər, xarici ölkələrin partiyaları və digər ictimai təşkilatlar, ümumdünya təşkilatları və regional beynəlxalq təşkilatlar.

Xarici siyasət dövlətin iqtisadi, demoqrafik, hərbi, elmi-texniki və mədəni potensialına əsaslanır. Həmin potensialın düzgün əlaqələndirilməsi və ondan səmərəli istifadə olunması imkan verir ki, dövlət xarici siyasət istiqamətində öz məqsədlərini həyata keçirə bilsin.

Hər bir ölkənin xarici siyasətinin məqsədi differensiallıq (fərqli xarakter) kəsb edir. Onlar ictimai-siyasi quruluşla, təzahür forması ilə, tarixlə, ənənələrlə, geosiyasi reallıqla, digər dövlətlərlə əlaqə ilə və digər amillərlə şərtlənir. Xarici siyasətin ümumi qəbul olunmuş başlıca məqsədinə daxildir:

- mövcud dövlətin milli təhlükəsizliyinin təmin edilməsi;
- onun potensialının (iqtisadi, siyasi, hərbi) artması;
- dövlətin nüfuzunun artması və beynəlxalq mövqeyinin möhkəmlənməsi.

Məlumdur ki, dövlətin təhlükəsizliyinin təmin olunması onun həyati tələbatına cavab verir. Bu məqsədi reallaşdırmadan xarici siyasətdən söhbət gedə bilməz. Xarici siyasətin ən əhəmiyyətli məqsədləri içərisində üstünlük təşkil edən dövlətin potensialının (gücünün) artmasıdır. Söhbət həm iqtisadi və eləcə də intellektual, hərbi, siyasi potensialdan gedir. Dövlət xarici siyasət vasitəsilə öz gücünü (hərbi bloka qoşulmaq, iqtisadi yardım əldə etmək vasitəsilə və s.) artıra bilər. Dövlətin beynəlxalq siyasətdə nüfuzu üçün başlıca məsələ yuxarıda qeyd etdiyimiz iki məqsədin uğurla həyata keçirilməsindən ibarətdir. Bu məqsədlər o zaman müvəffəqiyyətlə reallaşa bilər ki, dövlət xarici siyasətdə müəyyən funksiyaları yerinə yetirsin.

Dövlətin xarici siyasəti üç başlıca funksiyanı yerinə yetirir: **müdafiə, reprezentativ (nümayəndəli) – informasiyalı və danışıqlar – təşkilatı**. Həmin funksiyalardan birincisi xaricdə ölkənin və vətəndaşların hüququnun, mənafeyinin qorunması ilə (dövlət, onun sərhəddi, mənafeyi və s. üçün təhlükə yaranmasının qarşısını almaqla) bağlıdır. İkinci funksiya dövlətin beynəlxalq aləmdə öz müvafiq orqanları vasitəsilə təmsil olunmasını, həmin orqanların dövlətin baxışlarını və maraqlarını ifadə etməsini (səfirlik səviyyəsində) əks etdirir. Üçüncü funksiya diplomatik kanallarla xarici səviyyədə əlaqələrin təşkilindən və ondan istifadə edilməsindən ibarətdir. Xarici siyasətin bütün funksiyaları universal xarakterə malikdir, əlbəttə, onların təzahürü xeyli konkret-tarixi amillərdən asılıdır (cəmiyyətin inkişafından, onun dünya ilə əlaqələrindən, siyasi və dövlət hakimiyyətinin xarakterindən və s.).

Xarici siyasətin məqsədlərini həyata keçirmək üçün onların reallaşdırılması vasitələri həlledici əhəmiyyət daşıyır. **Xarici siyasətin vasitələrinə** aid edilir: informasiya-təbliğat, ideoloji, siyasi, iqtisadi, hərbi. İnformasiya-təbliğat vasitələri mühüm rol oynamaqla təbliğatın, informasiyanın, mədəni siyasətin müxtəlif formalarında təzahür edir. Siyasi vasitə hər şeydən əvvəl, diplomatik münasibətlər sferasını əhatə edir.

İqtisadi vasitə digər ölkələrin siyasətinə təsir göstərmək üçün iqtisadi potensialdan istifadə edilməsini nəzərdə tutur. Hərbi vasitə ordunu, onun qüdrətini əhatə edir. Hərbi vasitənin təzahürü kimi hərbi təzyiqi: manevrlər, sərhədə yaxın olan yerlərdə təlimlərin keçirilməsi, sərhəddə təxribatlar, yeni silah növünə malik olmağı nümayiş etdirmək və sairəni misal göstərmək olar. Xarici siyasətin vasitələrinin təsnifatına, eləcə də onların həyata keçirilməsinin intensivliyi dərəcəsindən asılı olaraq (əməkdaşlıq və ya mübarizə) cəhd etmək olar.

Xarici siyasət bir dövlətin öz milli sərhədlərindən kənarda fəaliyyəti olmaqla, yalnız dövlət tərəfindən qanuni-

ləşdirilən subyektlərin qarşılıqlı fəaliyyətinə aid edilə bilməz, o, daha çox beynəlxalq xarakter daşıyır. Beynəlxalq siyasi münasibətlər sferasına ancaq dövlətlər arasındakı münasibətlər deyil, həmçinin, qrup halında və ya ictimai mənafeləri reallaşdıran hər cür fəaliyyət aiddir, əlbəttə, onlar beynəlxalq aləmdə reallaşırsa. Adi başa düşülməsinə baxmayaraq, beynəlxalq münasibətlər xarici siyasətin müxtəlif növlərinin sadəcə məcmuu deyildir. Beynəlxalq münasibətlər dövlətlər, beynəlxalq təşkilatlar arasındakı qarşılıqlı münasibətlərin nəticələrini səciyyələndirən hadisələri və beynəlxalq proseslərin məcmuunu əhatə edir. Beynəlxalq münasibətlər sferasında xarici və beynəlxalq siyasətin prinsipləri reallaşır. Bu sfera münasibətlərin çoxcəhətliliyi, əlaqə və asılılığın mürəkkəb sistemi, beynəlxalq strukturların (iqtisadi, hərbi, siyasi) mürəkkəbliyi ilə səciyyələnir.

Müasir beynəlxalq münasibətlərin tipləri belə fərqləndirilir: 1. müharibə, 2. soyuq müharibə, 3. dinc yanaşı yaşamaq, 4. bloklara qoşulmamaq, 5. əməkdaşlıq.

Belə tipologiya üçün elə meyar əsas götürülür ki, ona müvafiq olaraq, beynəlxalq münasibətlərin növləri fərqləndirilir. Bu məqsədlə beynəlxalq münasibətlərin predmeti, başqa sözlə, dövlətlər arasındakı münasibətlər sahəsi meyar kimi götürülür. Həmin meyar əsasında beynəlxalq münasibətlərin aşağıdakı növləri müəyyənləşdirilir: siyasi, iqtisadi, hərbi-strateji, mədəni, ictimai, ideoloji, elmi-texniki. Bu münasibətlərin ayrıca növləri beynəlxalq həyatın müxtəlif səviyyələrində təzahür edir. Həmin səviyyələrə aid edilir: qlobal (BMT), regional (Avropa iqtisadi birliyi), regionalüstü (qoşulmamaq hərəkatı) və ikitərəfli. Qeyd etmək lazımdır ki, çoxsəviyyəlilik yeni siyasi təfəkkür prinsiplərinə əsaslanan beynəlxalq münasibətlərin əhəmiyyətli cəhətidir.

Beynəlxalq siyasətdə "siyasi cəsarət" konsepsiyası geniş yayılmışdır. Bu konsepsiya "siyasi maraq" (subyektin arzusu, iradəsi), dərk olunmuş siyasi tələbat, qərarların qəbul edilməsi mexanizmi və nəhayət, siyasi fəaliyyət səviyyəsini nəzərdə tutur.

"Siyasi cəsarət" konsepsiyası siyasətin bu və ya digər subyektinə, hansı qərarı qəbul edəcəyinə qabaqcadan imkan yaradır. Beynəlxalq münasibətlərdə diplomatiya, inteqrasiya və dezinteqrasiya prosesləri, ölkənin daxili sabitliyi, dövlətin maraq sferası və digər amillər də əhəmiyyətli rol oynayırlar.

II FƏSİL
Demokratik tranzit

1. Demokratik tranzit haqqında elmin təşəkkülü və inkişafı

Modernləşmə nəzəriyyəsinin məhdudluğu özünü onda büruzə verdi ki, siyasi inkişafın mümkün olan ssenarisini məhz ümumi formada ifadə edə bilsin. O, siyasi təsisatların optimal xarici görünüşünü müəyyən etmək vəziyyətində olmadı. Lakin siyasi praktikanın ehtiyacı konkret məsələlərə cavab verilməsini tələb etdi. Birincisi, hansı siyasi sistemin təsis edilsməsi zəruridir ki, dövlət hakimiyyəti, hakim partiya, digər siyasi təsisatlar iqtisadi, sosial, mədəni tərəqqiyə daha effektli imkan yaratmağa qadir olsun? İkincisi, cəmiyyətin idarə olunmasında demokratik metodların tətbiqi üçün siyasi quruluşda hansı dəyişiklikləri həyata keçirmək lazımlır? Bu suallara cavab verməyə qadir olan paradiqma (görüşlər, məktəb) axtarışı tranzit haqqında elmin-tranzitologiyanın, başqa sözlə, demokratiyaya keçid barədə görüşlər sisteminin (elmin) təşəkkülünə gətirib çıxartdı.

İlk başlanğıcda tranzitologiya Avropada İkinci Dünya müharibəsinin nəticələrinin təsiri altında baş verən dəyişikliklərin tədqiqi və ümumiləşdirilməsinə cəhd etdi. Bu dəyişikliklər keçmiş **Hitler** koalisiyasına daxil olan ölkələrdə dünyanın ikinci demokratikləşməsi dalğasını ifadə etdi. Həmin ölkələrdə demokratikləşmə prosesi özünəməxsus xüsusiyyətlər kəsb etdi: Almaniyada, İtaliyada, Yaponiyada demokratikləşmə prosesi bu ölkələrə ABŞ-ın birbaşa və dolayısı ilə təsiri nəticəsində baş verdi və demokratikləşmənin

ilk mənbəyi ilk öncə, xarici amillər oldu.

Demokratiyaya keçiddə siyasi dəyişikliklərin dinamikası haqqında təsəvvürlərin inkişafını iki ardıcıl mərhələyə ayırmaq olar: birinci mərhələ XX əsrin 60-cı və 70-ci illərinin başlanğıcını, ikinci mərhələ isə həmin əsrin 70-90-cı illərini əhatə edir.

Birinci mərhələdə demokratikləşmə problemi bir sıra məsələlərin işlənib hazırlanması ilə sıx bağlı olmuşdur. Həmin məsələlərə aiddir: inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə siyasi dəyişikliklərin və aqrar islahatların təbiəti, onların sosial-siyasi tərəqqiə təsiri, dövlətin inkişafında bürokratiyanın təbiəti və rolu, siyasi və iqtisadi elitanın təbiəti və qarşılıqlı fəaliyyəti, siyasi iştirakçılığın növləri, dinin və siyasi təsisatların qarşılıqlı fəaliyyəti və s. Birinci mərhələ çərçivəsində iki məktəbin mövcudluğunu qeyd etmək olar: **1. Struktur məktəb və ya modernləşmə məktəbi; 2. "Aktor məktəbi" və ya tranzitologiya.**

Birinci məktəbin nümayəndələri (**S.Lipset, Q.Almond, S.Verba, B.Mur** və b.) sabit demokratiyanın dörd böyük zəruri zəmininin mövcudluğunu iddia edirlər. **1. Sosial-iqtisadi inkişaf. S.M.Lipset** "Siyasi insan. Siyasətin sosial əsası" adlı əsərində struktur təhlili demokratiyanın zəmini kimi təklif edir. **2. Vətəndaş mədəniyyəti. Q.Almond və S.Verba** Almaniya, İtaliya və Meksikanın nümunəsində demokratiya, başqa sözlə, vətəndaş mədəniyyəti üçün daha əlverişli olan və millətlər üçün ümumilik kəsb edən mədəni normalar məcmuunu və hüquq haqqında təsəvvürləri sabit demokratiyanın zəmini hesab edirlər. Bunun əsası kimi, cəmiyyət üzvlərinin qarşılıqlı etimadının yüksək dərəcəsini, münaqişəli maraqlarında kompromisə və dözümlülüyə cəhd etmələrini başlıca şərt sayırlar. **3. Siyasi qüvvələrin nisbəti. B.Mur** tarixi-komparativ təhlildən istifadə edərək, Böyük Britaniyada, Fransada, Çində, Yaponiyada və Hindistanda müasir cəmiyyətə keçidin nəticələrini qiymətləndirmək əsasında belə qənaətə gəlirlər ki, hazırda demokratik inkişafın siyasi formaları müxtəlif ölkələrdə antifeodal inqilabın xarakteri ilə,

başqa sözlə siyasi qüvvələr nisbəti ilə müəyyənləşir. **4. Kommunist sisteminin inkişafı. R.Dal** özünün "İnqilabdan sonra. Hakimiyyət yaxşı cəmiyyətdə" adlı əsərində (1969-cu il) belə bir sualı cavablandırır ki, demokratiya nə üçün bərqərar edilməlidir və bununla bağlı həmin prosesdə siyasətçilərin roluna böyük diqqət yetirir. Sonra yazdığı "Poliarxiya" adlı əsərində (1971) o, siyasətçilərin seçiminin rejimin təkamülünü necə müəyyənləşdirməsi məsələsini təhlil edir.

Siyasi dəyişikliklərə aid digər şərh "aktor məktəbi" ilə bağlıdır. İlk başlanğıcda bu istiqamət müxtəlif cür adlandırılırdı: "həlletmə yollarının təhlili", "volyuntarizm". Lakin son nəticədə **"tranzitologiya"** adlandırıldı. **(Q.O.Donnellin, F.Şmitterin, T.Karlın, L.Daymondun, X.Lintsin, C.Lipsetin, A.Psevorskinin, S.Hantinqtonun və b. əsərlərində).** Belə yanaşmanın təşəkkülü **S.Hantinqtonun** fikrincə, dünyada demokratiyanın üçüncü dalğası ilə bağlıdır. İndi alimlərin diqqət mərkəzində demokratiyanın mexanizmi durur. Tranzitologiyanın tezliklə qəbul edilməsinə aşağıdakı amillər imkan yaratdı.

- Problemi yenidən mənalandırmağa və siyasi elmin mövcud istiqamətdə inkişafına təkan verən siyasi reallığın kəskin dəyişməsi.

- Tranzitologiyaya aid tədqiqatlar boş yerdən təzahür etməyib, məhz siyasət nəzəriyyəsinin, müqayisəli politologiyanın, beynəlxalq münasibətlərin yaratdığı yarıməsrlik əlverişli zəmindən sonra təşəkkül tapdı. Tranzitologia oyun nəzəriyyəsinə, modernləşməyə, struktur funksionalizmə, siyasətə, elitaya və siyasi plüralizmə aid nəzəriyyələrin işləyib hazırladığı metodologiyanı öz tədqiqatlarında tətbiq etdi.

- Praktiki olaraq tranzitologiyanın əsasını qoyan və inkişaf etdirən tədqiqatçılar ciddi siyasi tədqiqatlar təcrübəsinə malik idilər.

Belə hesab olunur ki, demokratikləşmənin və yeni siyasi təsisatların möhkəmləndirilməsinin tədqiqinin nəzəri əsası **Dankvart Ractoy** tərəfindən qoyulmuşdur. Lakin rejimin dəyişilməsi prosesini daha əvvəl, alman politoloqu **O.Kirçhaymer** əsaslandırmışdır. Bununla belə, keçid dövrü-

nün müasir siyasi tədqiqatların istiqaməti kimi ilk dəfə öyrənilməsi **D.Rastounun** 1970-ci ildə çap olunan məqaləsi ilə əlaqələndirilir[1]. Bu tədqiqatçı konkret misallarla göstərdi ki, demokratiyanın bu və ya digər ölkədə mövcudluğunu və ya yoxsulluğunu heç bir amil ayrılıqda, onların məcmuu halında müəyyənləşdirmir. **Rastou** keçid dövrünü siyasi inkişafın müstəqil mərhələsi kimi əsaslandıraraq, tranzitologiyanın inkişafında konseptual rol oynayan bir sıra metodoloji müddəalar irəli sürdü.

Tranzitologiyanın təşəkkülünün XX əsrin 70-90-cı illərini əhatə edən ikinci mərhələsində onun inkişafında yeni əhəmiyyətli addımlar atıldı. 1978-ci ildə **X.Lintsin** və **A.Stepanın** redaktəsi altında "Demokratik rejimlərin iflası" adlı üçcildlik monoqrafiyası çapdan çıxdı. Bu kitabda komparativ-tarixi təhlil metodu əsasında XX əsrdə demokratiyanın iflasının səbəbləri və əlamətləri, bu prosesin başlıca formaları və qanunauyğunluğu araşdırıldı, eləcə də demokratiyanın bərpası imkanları problemi tədqiq edildi. Tranzit sisteminin tədqiqində başlıca vurğu demokratiyaya keçilməsinə istiqamətləndi. Bu istiqaməti dünya siyasi inkişafının xarakterinin dəyişməsi və dünyada demokratikləşmənin yeni dalğasının başlığıcı şərtləndirdi. "Avtoritar idarəetmədən keçid. Demokratiyanın perspektivi" layihəsi çərçivəsində Cənubi Amerika və Latın Amerikası ölkələrində son 30 ildə demokratikləşmənin müxtəlif təcrübəsi tədqiq və müqayisə edildi. Nəticə etibarilə, **Q.O.Donnellanın, F.Şmitterin** və **L.Uayxtedin** "İnkişaf etmiş ölkələrdə demokratiya" adlı dördcildlik monoqrafiyası çap olundu. Demokratiyaya keçid dövrünə aid **S.Hantinqtonun** "Üçüncü dalğa. XX əsrin sonunda demokratikləşmə" adlı monoqrafiyası nəşr edildi.

Tranzitologiyanın inkişafında yeni mərhələ XX əsrin 90-cı illərini və XXI əsrin başlanğıcını əhatə edir. 1990-cı illərin əvvəlində tranzitoloqlar yeni konsepsiyalar işləyib

---

[1] Bustow D.A. Trancition to Democracu: Towards a Dinamic model // Comparative Politics, 1970, April

hazırlamaqdan daha çox, yeni faktların mənalandırılmasına cəhd etdilər. 1989-cu ilin sentyabrında Amerika siyasi elmlər assosiasiyasının o zamankı prezidenti **L.Pay** keçid və postavtoritar rejimlərin müqayisəli təhlili barədə universal konsepsiyanın işlənib hazırlanmasının zəruriliyi tezisini irəli sürdü. Bu məqsədlə o, assosiasiyanın qurultayına müraciət etdi və bir sıra palitoloqlar həmin tezisin tərəfdarı, bəziləri isə əleyhdarı kimi çıxış etdilər. Belə hesab olunur ki, 1990-cı illərdə tranzitologiyanın inkişafında yeni dövr başlanır. Bu dövrdə tədqiqatçıların diqqət mərkəzində hər şeydən əvvəl, yeni demokratiyanın möhkəmlənməsinə təsir göstərən postkeçid dövrünün problemləri və amilləri durur. Tranzitologiyanın yeni inkişaf mərhələsi sosial transformasiyanın təhlilində müxtəlif yanaşmaların təzahürü ilə səciyyələnir, tranzitoloji modellər çərçivəsində postkommunist ölkələrində dəyişikliklərin konseptuallaşdırılmasına cəhd edilir. Belə yanaşma çərçivəsində keçmiş sosialist ölkələrində baş verən dəyişikliklər demokratikləşmənin vahid qlobal prosesinin tərkib hissəsi kimi araşdırılır **(D.Di Palma, A.Pşevorski, S.Hantinqton, F.Smitter, Lints və b.)**. Sosial transformasiyanın təhlilinə müxtəlif mövqedən yanaşma demokratiyanın universal nəzəriyyəsinin yaradılmasında səmərəsiz cəhdlərə gətirib çıxarır.

2. Demokratik tranzitin nəzəri modeli

Demokratikləşmə sosial quruluşun dəyişməsinin ümumtarixi meylinə uyğun olan ümumdünya prosesidir. Lakin o hər bir xalqa özünəməxsus nüfuz edir. Demokratiyaya keçidin daha ümumi modeli aşağıdakı tərzdə nəzərə çarpır.

- **Xətti demokratikləşmə** – demokratiyanın tədricən, bir istiqamətdə genişlənməsi. Bu modelin fəaliyyətinin klassik nümunəsi Böyük Britaniyaya aid edilir. Burada monarxın hakimiyyətinin məhdudlaşması və müvafiq olaraq, nümayəndəli orqanların və cəmiyət üzvlərinin hüququnun genişlənməsi tədricən baş vermişdir. (əvvəl vətəndaş hüququ, sonra isə siyasi və sosial hüquqlar).

- **Dövri demokratiya** – demokratik və avtoritar siyasi rejimlərin bir-birini əvəz etməsi. Bu zaman həmin rejimlərin siyasi təsisatları bir-birilə yanaşı mövcud ola bilər (Latın Amerikası, Afrika, Asiya). Belə modeldə demokratiyaya keçid adətən, daxili zəminin kifayət qədər yetkin olmadığı şəraitdə başlanır, uzun müddət davam edir və müəyyən çətinliklərə məruz qalır.

- **Dialektik demokratikləşmə** – posttotalitar və ya avtoritar rejimlərin nisbətən tez süqutuna imkan yaradan kifayət qədər yetkin zəminin təsiri altında demokratiyaya keçid (İtaliya, Yunanıstan, İspaniya və b.). Aydındır ki, indiki şəraitdə demokratiyanın xətti modeli müasirləşdirilmiş dövlətlər tərəfindən reallaşa bilməz. Dövri və dialektik demokratikləşmənin seçimi və ondan istifadə dövlətlərdə və cəmiyyətdə mövcud olan demokratikləşmə zəminindən asılı olacaqdır[1]. Lakin demokratikləşmə modellərinin müxtəlif tipologiyasının mövcudluğuna baxmayaraq, onlar tranzit sistemlərinin əksəriyyətində təzahür edən bir sıra ümumi meyllərə və qanunauyğunluğa malikdir.

Demokratiyaya keçidin çoxsaylı analitik modelləri mövcuddur. Bu modellərdə demokratikləşmə prosesinə başlıca diqqət yetirilir. Bir sıra tədqiqatçılar qeyd edirlər ki, demokratiyanın genişlənməsi yalnız bəzi təcrübəni tələb etmir, ən başlıcası heç olmasa liberalizmin malik olduğu məhdud təcrübəyə nail olmaq lazımdır, hətta o, monarxiya və avtoritar formada olsa da. Liberal və demokratiya terminləri bəzən bir yerdə işlənsə də ("liberal demokratiya") bu iki söz birləşməsinin – liberal demokratiyanın prinsipləri demokratiyadan nəzərə çarpacaq dərəcədə fərqlənir.

Liberal-demokratik tip sosial, iqtisadi, mənəvi və siyasi sferada plüralizmin təzahürü ilə səciyyələnir. Plüralizm ictimai həyatın bütün sferalarında müxtəlif prinsiplərin qərarlaşmasını ifadə edir. O, sosial sferada ayrı-ayrı sinifləri, təbəqələri, mənafeləri uzlaşan qrupları; mədəni-mənəvi sfe-

[1] Bax: Мухаев Р.Т. Теория политики. С. 509-510

rada etnik, regional mədəniyyətləri, mədəniyyət tiplərini və cərəyanlarını, kütləvi informasiya vasitələrini, dini təriqətləri; siyasi sferada siyasi qüvvələri, partiyaları, təşkilatları, qruplaşmaları və digər bu kimi birlikləri nəzərdə tutur.

Liberal-demokratik modeldə eləcə də **hüquqi dövlət və vətəndaş cəmiyyəti** ideyası mərkəzi yer tutur. Həmin ideyada belə bir təsəvvür mühüm rol oynayır ki, azadlıq **nəinki dövlət hakimiyyətinin tarazlığını şərtləndirən çoxlu hakimiyyət mərkəzlərinin mövcudluğunu, eləcə də iqtisadi seçim azadlığını ifadə edir.** Əgər totalitar və avtoritar siyasi sistemlərdə dövlət cəmiyyət uzərində hökmranlıq edirsə, liberal-demokratik sistemində əksinə, cəmiyyət dövlətin və onun təsisatları üzərində hakimdir. Hərtərəfli inkişaf etmiş vətəndaş cəmiyyəti inkişaf etmiş siyasi demokratiyasız, hüquqi dövlətsiz mümkün deyildir.

Liberal-demokratik modeli səciyyələndirən ünsürlər sırasında **azadlıq, bərabərlik və ədalətin** nisbəti problemi əhəmiyyətli yer tutur. Lakin həmin problemə müxtəlif mövqedən yanaşma mövcuddur. Belə ki, açıq şəkildə bərabərlik ideyasına qarşı çıxan, sosial bərabərliyin zəruriliyini etiraf edən, azadlığı anarxist nöqteyi-nəzərdən qiymətləndirən, həyatın müxtəlif sferalarında dövlət tərəfindən fərdi azadlığın sərt şəkildə məhdudlaşdırılmasının məqsədəuyğunluğunu ifadə edən görüşlərə təsaduf olunur.

Ümumiyyətlə, rejimin və dövlətin vəziyyətindən, müxalifətin mövqeyindən, dövlətin apardığı islahatlardan və liberal-demokratik təsisatların yetkinliyindən asılı olaraq, tranzitoloji modellərin məcmuunu üç cür qruplaşdırmaq olar:

- **nikbinlər (D.Rastou, S.Hantinqton)** – demokratiyaya keçid nəzəriyyəçiləri;
- **bədbinlər – (Huan Lints) – demokratik rejimin** iflası nəzəriyyəçiləri;
- **mötədil-mülayim (Q.O.Donnell)** - nümayəndəli demokratiya nəzəriyyəçiləri.

Həmin modellərdən hər biri üçün siyasi inkişafda reji-

min vəziyyəti və rolunun təhlili başlıca şərtdir. Birinci qrupa aid model dövlətin öz mövqeyini möhkəmləndirməsindən çıxış edir (yenidənqurma dövrünün mürəkkəbliyinə baxmayaraq).

İkinci qrupa aid model dövlətin zəifləməsini əsas götürür (həll olunmayan problemləri həll edə bilməməsi ilə bağlı). Üçüncü qrupa aid olan model isə dövləti kifayət qədər güclü təsisat kimi nəzərdən keçirir (Lakin öz fəaliyyətini demokratik normalarla və qaydalarla kifayət qədər əlaqələndirməməyi nəzərə almaqla).

Demokratik tranzit müasir politoloji ədəbiyyatda müxtəlif aspektdə şərh edilir, lakin bütövlükdə demokratiya **"zamanın ruhu"** kimi mənalandırılır. Siyasi elmə dair ədəbiyyatda **"qlobal demokratik dalğa"** ifadəsinin geniş işlədilməsi heç də təsadufi deyildir. Bu ifadə dünyada baş verən yeni siyasi dəyişiklikləri, siyasi plüralizmi, müxtəlif ictimai-siyasi proseslərin transformasiyasını, dünyanın ayrı-ayrı ölkələrində təzahür edən bəzi siyasi prosesləri və eləcə də demokratik tranzit problemini səciyyələndirir. Harvard universitetinin strateji tədqiqatlar institutunun sabiq başçısı, çox görkəmli alim **Samuel Hantinqton** demokratik tranzitlə bağlı olan problemlərə aid ciddi tədqiqatların müəllifi hesab olunur. ABŞ politoloqu **S.Hantinqton** demokratikləşmənin üç mərhələni əhatə etdiyini göstərir: 1820-1920-ci illər; 1940-1960-cı illər; 1970-2000-ci illər. Bu mərhələlər başqa sözlə, "demokratik dalğanın" üç başlıca mərhələsi kimi əsaslandırılır (politoloqlar tərəfindən). Həmin politoloq birinci mərhələni Amerikanın sabiq prezidenti **V.Vilsonun** birinci dünya müharibəsindən sonra işlətdiyi məşhur **"dünyanı demokratiya üçün təhlükəsiz etməliyik"** tarixi ifadəsi ilə əlaqələndirir və bildirir ki, 1820-ci ildən birinci dünya müharibəsinədək olan dövrdə bəzi ölkələrdə demokratik prinsip və təsisatlar qərarlaşmışdır. **S.Hantinqtonun** fikrincə, birinci dünya müharibəsinin sona çatması ilə demokratikləşmə yenidən canlanmağa başlayır.

Demokratikləşmənin ikinci mərhələsi dünyanın bir-

birinə zidd olan iki ictimai sistemə – sosializm və kapitalizm düşərgələrinə parçalanması ilə səciyyələnir. Bu dövrdə dünyada liderlik edən iki başlıca dövlət (SSRİ və ABŞ) digər dövlətləri öz təsir dairəsində saxlamağa çalışırdılar. Sosialist ideyalarının təsir gücünün artması prosesi qərb dövlətlərində narahatlıq doğururdu. Bu ideyalardan ehtiyatlanan Qərb dövlətləri demokratiyanın nisbətən ləng prosesə məruz qalmasına meyilli idilər. Elə buna görə, 1940-1960-cı illər demokratiyanın tarixində ləngimə mərhələsi kimi səciyyələndirilir.

Demokratikləşmənin və ya "demokratik dalğanın" 1970-ci ildən başlanan üçüncü mərhələsində dünyanın müxtəlif qitələrində bir sıra dövlətlər demokratik inkişaf yoluna qədəm qoyurlar. Asiyada, Afrikada, Latın Amerikasında qeyri-demokratik rejimlərin demokratiyaya meylli olmasını və xüsusilə Avropanın Portuqaliya, İspaniya və Yunanıstan kimi diktatura rejimlərinin dağılmasını (70-ci illəri), **S.Hantinqton** demokratikləşmənin 3-cü dalğasının başlanması dövrü kimi qiymətləndirdi. XX əsrin 80-90-cı illərində qərb dövlətləri avtoritar sistemlərin demokratikləşməsi xəttinə təkidlə səy göstərmişlər. Siyasi azadlığın sonuncu dalğası demokratiya tərəfdarlarının ümidlərini daha da artırdı. Sosialist sisteminin, eləcə də SSRİ-nin dağılması demokratikləşmənin 3-cü dalğasının qlobal xarakter kəsb etməsinə gətirib çıxartdı. 3-cü dalğanın başlıca elementi azad və demokratik dövlət hesab olunur. Belə dövləti səciyyələndirən amillər politoloji ədəbiyyatda aşağıdakı kimi müəyyənləşdirilir:

- hakimiyyətə gəlməyin və onu idarə etməyin qərabət prinsiplərinə, açıq və demokratik siyasi mübarizəyə əsaslanması;
- dövlətin vətəndaşlarının başlıca hüquq və azadlıqlarının konstitusiya və qanunlarla tənzim olunması;
- hakimiyyət bölgüsü prinsiplərinin bərqərar olması;
- vətəndaşların dövlət həyatında, onun idarə olunmasında, daxili və xarici siyasətin formalaşmasında və həyata keçirilməsində iştirakı;

- hakimiyyətin tərkibinin formalaşmasında azad seçkilərin keçirilməsi;

- yüksək siyasi qanunverici orqanın xalq tərəfindən seçilməsi;

- həmin prinsiplərlə yanaşı, hakimiyyətin seçkili orqanlarının mövcudluğu;

- cəmiyyətlə (xalqla) onun seçdiyi orqanların hakimiyyəti qarşılıqlı əlaqə və mütənasiblik kəsb etməlidir;

- demokratik formalar və birgəyaşayış normaları təkmilləşdirilməlidir. **S.Hantinqton** üçüncü dalğa ölkələrinin demokratikləşməsinin üç variantını müəyyənləşdirir.

- **Transformasiya.** Hökumət güclü müxalifətə malik olmalıdır, istər-istəməz o, keçid prosesində başlıca rol oynamalıdır.

- **Əvəz edilmə.** Bu model keçmişlə əlaqənin tam kəsilməsini və əvvəlki hökumətin siyasi aləmdən tam getməsini səciyyələndirir. Belə halda hökumət, adətən, mühafizəkarlardan təşkil edilir və rəhbərin şəxsi diktaturası kimi mövcud olur.

- Keçid prosesinin özü üç fazadan ibarətdir: müxalifət, əvvəlki rejimin dağılması və rejimin dağılmasından sonrakı mübarizə.

Ümumiyyətlə, **S.Hantinqton** müasir demokratikləşmənin tarixi kontekstdə beş modelini fərqləndirir:[1]

- dövri-model – avtoritar və demokratik rejimlərin dövri dəyişməsi (Braziliya);

- "ikinci cəhd" modeli-avtoritar rejimin təşkili ilə demokratikləşməyə ilk cəhdin dayandırılmasından sonrakı ikinci demokratikləşmə (İspaniya);

- **"dayandırılan demokratiya"** modeli – demokratiyanın bərpası, avtoritar rejimin təşkili ilə əvvəlki sabitliyin mövcudluğu aradan qalxır (Çili);

- birbaşa keçid modeli – əvvəllər demokratik inkişaf

[1] Huntinqton S. The Third Wave: Democratization in the Lafe Twentieth Century. London, 1991, p. 124-163

səviyyəsinə malik olmayan dövlətlərdə demokratiyanın bərqərar olunması (Bolqarıstan, 1989-cu ildən sonra);

- **müstəmləkəsizləşdirmə modeli** – müstəqillik əldə etdikdən sonra, demokratiyanın qərarlaşması (Karib hövzəsi ölkələri).

Əlbəttə, demokratik tranzit dövrü və problemi ayrı-ayrı ölkələrdə özünəməxsusluq kəsb edir. Lakin politoloqlar bu məsələdə ümumi cəhətlərin təzahürünü nəzərə çatdırırlar. İspan tədqiqatçısı **F.Qonsales** dünyada ümumi qəbul edilmiş siyasi tranzit modelinin mövcudluğunu iddia edir. O, tranzit üçün səciyyəvi olan elementlər sırasında ilk öncə, tranzit istəyini, cəmiyyətin böyük dəyişikliklə bağlı iradəsini və cəmiyyət üzvlərinin razılaşma imkanlarını göstərir. **F.Qonsales** İspaniya təcrübəsinə əsaslanaraq belə qənaətə gəlmişdir ki, tranzit prosesləri gedişində mövcud mədəni-siyasi əsaslar cəmiyyəti təşkil edən qüvvələrin əksəriyyətinin imkanlarını təmin etmiş və demək olar ki, hər kəs üçün məqbul sayıla biləcək şəraitin formalaşmasını şərtləndirmişdir.[1]

Tranzitologiyanın banisi **D.Rastou** hesab edir ki, demokratiyaya hər cür keçid müxtəlif formalarda ifadə olunan (hərbi fəaliyyət, çoxcəhətli əlaqələr və s.) xarici təsir sayəsində başlanır və həyata keçirilir. Demokratiyaya keçid ölkələrin milli birlik və milli identiklik (eynilik) əldə etməsindən sonra başlamalıdır. Onun fikrincə, demokratiyaya keçid özündə üç fazanı əks etdirir.

- **"hazırlıq fazası"** – fərqləndirici cəhəti yeni elitanın təzahürü nəticəsində siyasi mənafelərin qütbləşməsidir, o, əvvəllər sıxışdırılan təbəqələri həlledici fəaliyyətə istiqamətləndirir.

- **"qərarların qəbulu fazası"** – qərar seçkini nəzərdə tutur. Bu prosesdə siyasi liderlərin məhdud dairəsi böyük rol oynayırlar. Demokratik qərarın qəbul edilməsinə şüurlu, açıq konsensus kimi baxılmalıdır.

- **"vərdiş fazası"** – bu fazada demokratiyanın, eləcə də

[1] Bu barədə ətraflı bax: Nazim İbadov. Müqayisəli politologiya. B., 2010, s. 67-74

siyasi prosedurların (qaydaların) və təsisatların möhkəmlənməsi baş verir[1]. **D.Rastou** tərəfindən təklif edilən "fazalar" modelində başlıca olaraq tranzitin İsveç və Türkiyə təcrübəsi öz əksini tapıb.

Polşa politoloqu **Adam Pşevorski** demokratiyaya keçidi "qeyri-müəyyənlik səltənəti" kimi səciyyələndirir. O, hesab edir ki, demokratiya partiyalar arasında sağlam rəqabətə əsaslanan siyasi mübarizə sistemidir, bu mübarizədə məğlubiyyət nə sosial rüsvayçılıqdır, nə də cinayət. **Pşevorski** qeyd edir ki, müasir demokratiyanın başlıca cəhəti onun möhkəmləndirilməsidir. O, demokratiyaya keçid prosesi dövrünü iki mərhələyə ayırır:

1. Liberallaşdırma – qeyri sabitliyi və daxili proseslərin müxtəlif yönümlü olması ilə səciyyələnir; o, mövcud avtoritar rejimin güclənməsi və ya sonrakı dövrün ilk mərhələsinə keçidlə nəticələnir; **2. Demokratikləşmə** – öz növbəsində avtoritar rejimdən azad olmaq mərhələsini və ya demokratik idarəçiliyin təşkili mərhələsini təcəssüm etdirir.

Beləliklə, **Pşevorski** demokratikləşmə prosesini **dövlətin demokratikləşməsinə** (siyasi təsisatlara aid olan proses) və **rejimin demokratikləşməsinə** (sosial münasibətlər sferasına aid olan proses) ayırır.

3. Tranzit cəmiyyətdə sabitliyin vacib şərtidir

Tranzit (keçid) prosesində sabitliyin saxlanması problemi praktiki əhəmiyyət kəsb edir. Sabitliyə xidmət edən bəzi islahatların həyata keçirilməsi siyasi tranzitin bilavasitə məzmununu təşkil edən məqsəddən asılıdır. Məqsəd özündə cəmiyyətin, siyasi sistemin, hakimiyyət rejiminin elə vəziyyətini ifadə edir ki, əslində onlar məqsədin əldə olunmasına istiqamət və vasitə seçimini bəxş edirlər. İstər-istəməz məqsəd dəqiq və aydın və ya qeyri-müəyyən, qeyri-dəqiq ola bilər, məqsədin əldə olunması vasitələri isə fərqlənir. Məq-

[1] Растоу Д.А. Переходы к демократии: попытка динамической модели. // Полис. 1996. № 5

sədin dəqiq müəyyənləşdirilməsi siyasi tranzitin çıxış nöqtəsidir. Aydın ifadə edilməyən məqsədin yoxluğu hər cür siyasi transformasiyanın uğurlarının qiymətləndirilməsi meyarını heçə endirir, məqsədin qeyri-müəyyənliyi isə onun vasitə və metodlarının qeyri-müəyyənliyinə gətirib çıxarır.

Adətən, demokratik tranzit yeni dövlət hakimiyyəti mexanizmlərinin təsisatlanması ilə möhkəmlənir. Bu, parlament və ya prezident demokratiyası təsisatlarının formalaşmasında, hakimiyyətin bölünməsinin ölkənin ali qanununda təsbit olunmasında, müxtəlif səviyyədə hakimiyyətin üç qoluna məxsus müvafiq strukturların yaradılmasında öz əksini tapır. Demokratik rejimin təşəkkülü dövlət aparatının yenidən formalaşmasından ayrılmazdır[1]. Beləliklə, **cəmiyyətdə sabitliyi şərtləndirən demokratik tranzit, eləcə də müvafiq vətəndaş cəmiyyəti və hüquqi cəmiyyət təsisatlarının təşəkkülünə təkan verir.** Vətəndaş cəmiyyəti ictimai həyatı təşkil edən və tənzimləyən qüdrətli sferaya, siyasi sabitlik mühitinə çevrilir.

Vətəndaş cəmiyyətində müxtəlif siyasi və sosial qüvvələrin həmrəyliyi baş verir, mövqelərin uzlaşması, mənafelərin inteqrasiyası üçün əlverişli şərait yaranır. Bütün bunlar cəmiyyətdə sabitliyin qərarlaşması üçün siyasi və iqtisadi xarakterli imkanların üzə çıxmasına xidmət edir. Tranzitin bütövlükdə sosial-mədəni dəyərləri də özünü məhz bunda təzəssüm etdirir.

Siyasi sabitlik müxtəlif siyasi subyektlər arasında əlaqə sistemi olmaqla, ona müəyyən bütövlük və funksiyaları qarşısında qoyulanları səmərəli surətdə reallaşdırmaq xasdır. Sabitliyin daxili-siyasi, regional və beynəlxalq-siyasi formaları fərqləndirilir. Dövlət və siyasi özəklər daxili siyasi sabitliyin başlıca subyekti kimi çıxış edirlər. Onlar təzahür etdirdiyi fəallıqdan asılı olaraq, nəinki subyekt rolunda, eləcə də siyasi prosesin obyekti kimi çıxış edə bilərlər. Daxili siyasi sabitlik bir sıra prinsipial xüsusiyyətləri ilə fərqlənir. Birinci-

[1] bax: Nazim İbadov. Müqayisəli politologiya. S. 72

si, burada yalnız iki baza xarakterli siyasi subyekt mövcuddur: dövlət və cəmiyyət. Sistemin idarə olunması funksiyalarını təmin etmək baxımdan bu siyasi subyektləri çox vaxt idarə edən (siyasi) siniflər və ya cəmiyyətin bir hissəsinin idarə edənləri adlandırırlar. Dövlət və cəmiyyət bir-birinə təsir göstərməyə bilməzlər. Keyfiyyətcə onların özünəməxsusluğu hər şeydən əvvəl, məhz həmin qarşılıqlı təsir nəticəsində formalaşır.

Sabitliyin təmin olunması üçün daxili siyasi sistem onun qarşısına qoyulmuş vəzifələri həll etmək vəziyyətində olmalıdır. Belə həll etmə şəraitdən asılı olaraq, xalqın iradəsi ilə, hakimiyyətin legitimliyi vasitəsilə və yaxud zorakılıq yolu ilə, üzə çıxan hakimiyyətin illegitimliyilə təmin olunur.

Demokratiya heç də həmişə dəyişikliklərin məqsədi kimi nəzərə çarpmasa da, siyasi tranzitin kəmiyyət istiqaməti elə dəyər kimi çıxış edir ki, cəmiyyəti birləşdirməyə qadir olur və onu demokratik dəyişikliklərə səfərbər edir. Bundan çıxış edərək siyasi tranzit konsepsiyalarının əksəriyyətində **"möhkəmləndirilən demokratiya"** anlayışı işlədilir. Bu anlayışın əsasını sosial qrupların əksəriyyətinin birləşməsi prosesi təşkil edir. Buna görə, cəmiyyətin demokratikləşməsi birləşdirici zəmin kimi çıxış edir. Yəqin ki, demokratikləşmənin səviyyəsi bununla bağlı xeyli əhəmiyyət kəsb edəcək, cəmiyyətin müxtəlif təbəqələrinin mənafe tarazlığına başqa cür nail olmaq mümkün deyildir. Yüksək demokratikləşmə səviyyəsində öz mənafelərini nəinki ayrıca sosial qruplar və eləcə də mövcud cəmiyyətin qruplarının əksəriyyəti həyata keçirə bilər. Bu cəhəti nəzərə alan **L.Daymond** qeyd edir ki, demokratiyanın vətəndaşlarda legitimləşməsi o qədər dərin və genişdir ki, demokratiyanın boşa çıxması ağlabatan deyildir.

Ardıcıl demokratikləşmə kursu vasitəsilə sabit və "möhkəmləndirilən demokratiyanı" təkraristehsal edən cəmiyyət siyasi tranzitin başlıca elementlərindən biridir, onun məqsədidir. Nəticə isə bunlardan asılıdır: 1. Demokratik proses necə və hansı şəraitdə sızacaq; 2. Bu prosesdə hansı

qüvvələrin təsiri və iştirakı təzahür edəcək; 3. Onlar hansı qabiliyyəti nümayiş etdirəcək. Bu amillərin rolu və əhəmiyyəti müxtəlifi konsepsiyalarda birmənalı şərh edilmir. Demokratiya idarəetmənin, cəmiyyətin siyasi və sosial təşkilinin, dövlətin və hakimiyyətin başlıca formalarından biridir. Buna görə, tranzit cəmiyyətdə sabitliyin, gərginliyin aradan qaldırılmasının, münaqişəli mənafelərin konsensusunun əhəmiyyətli şərti kimi çıxış edir.

Cəmiyyətin demokratik siyasi təşkilində dövlətin funksiyası, demokratiyanın qorunması və inkişafı zərurəti ilə müəyyən olunur. Bunun üçün hakimiyyət kifayət dərəcədə güclü olmalıdır. Lakin güclü hakimiyyət demokratik prosesin ayrı-ayrı mərhələlərində özünü müxtəlif tərzdə aparır və aparmalıdır da. Demokratiyanın möhkəmləndiyi şəraitdə, demokratik cəmiyyətin təşəkkülünün ilk mərhələsində güclü hakimiyyət asanlıqla diktaturaya (avtoritar və ya totalitar) çevrilir.

Demokratiya **bütöv ictimai hadisədir.** Müasir cəmiyyətdə demokratiya ümumi xarakter daşımırsa, əhalinin bir hissəsinə (siniflərə, təbəqələrə) xüsusilə, hakimiyyətin mövqeyini müdafiə edən müəyyən qüvvələrə şamil edilib, digərlərinə tətbiq edilmirsə, o, əsil demokratiya deyildir və cəmiyyətdə sabitliyin, milli birliyin bərqərar olmasına qadir ola bilməz. Eləcə də demokratiya seçkili formada cəmiyyət həyatının yalnız bir sferasında, bir məsələdə tətbiq edilib, digər sahələrə şamil olunmursa (məsələn, ictimai özünüidarəyə aid edilərək dövlət müəssisələrində həyata keçirilmirsə), dəyərli, qiymətli təsir göstərməyə qabil olmaz. Demokratiya şıltaqlıq, ictimai israfçılıq deyil, məhz labüd tarixi zərurətdir, cəmiyyətin yenidən təşkili, təkmilləşdirilməsidir. O, fəal, yaradıcı olmalıdır, pozitiv, əxlaqi, ideoloji, siyasi inam və hissləri təcəssüm etdirməlidir. Demokratiya ilk təzahür etdiyi andan indiyə qədər (tarix boyu) nə qədər təkmilləşdirilən fenomen olsa da, həmişə insanların təsəvvüründə idealdan başqa bir şey olmayıb. Bu cəhəti Çexiyanın dövlət xadimi, görkəmli siyasətçi **V.Qavelin** çox sərrast mənalandırıb:

"Demokratiya, sözün tam mənasında həmişə idealdan başqa bir şey olmayacaqdır. Kimsə ona tam yaxınlaşa bilər, kimin üçünsə həmişə üfiqdə parlayacaqdır, ona doğru aparan yollar yaxşı, yaxud pis olacaqdır, lakin ona tamamilə nail olmaq heç vaxt mümkün olmayacaqdır". XX əsrin görkəmli siyasətçilərindən biri sayılan **Uinston Çörçirll** demokratiyanı idarəetmə ilə əlaqələndirərək obrazlı şəkildə demişdir: "İdarəetmə formaları içərisində ən pisi demokratiyadır, ancaq nə edəsən ki, bəşəriyyət bundan yaxşısını əldə edə bilməyib". Əlbəttə, bu kimi dərin siyasi kəlamların hamısı demokratiyanın mahiyyətini, xüsusiyyətlərini düzgün başa düşməyə xidmət edir.

F.Şmitterin nəzəriyyəsində sabitlik problemi spesifikliyi ilə maraq doğurur. O, qeyd edir ki, demokratik möhkəmlənmə avtoritarizmdən keçid dövründə təsadüfi razılaşmanın, qeyri-müəyyən normanın və təsadüfi qərarın əməkdaşlıq və rəqabət münasibətlərinə transformasiyasıdır, demokratik idarəetmədə iştirak edən şəxslərin, kollektivlərin (başqa sözlə, siyasətçilərin və vətəndaşların) möhkəm mənimsədiyi, daim fəaliyyət göstərdiyi və könüllü qəbul etdiyi birləşmə prosesidir. Demokratik rejimin möhkəmlənməsi gedişində siyasi rolların və funksiyaların təsisatlaşması baş verir, onların qeyri-müəyyənliyi (natamamlığı) aradan qalxır.

Demokratikləşmə prosesində olan cəmiyyətin üzləşdiyi müəyyən gizli çətinlikləri ifadə etmək üçün, **F.Şmitter "dilemma"** terminindən istifadə edir. Yeri gəlmişkən qeyd edək ki, bu termindən **F.Şmitterdən** əvvəl, **Terri Karl** yazdığı məqalələrdən birində istifadə etmişdir. Əgər bütün yeni demokratik dövlətlər həyat qabiliyyətli təsisatların hamısını birləşdirməyə hazırlaşsalar, çətin seçim ilə üzləşəcəklər. Keçid dövrünün tələskənliyindən fərqli olaraq birləşmə ilə əlaqəli olan qərar seçimi xadimlər arasında, adətən, uzun müddətli danışıqları tələb edir. Konkret dilemmaların həlli yolu ilə, dövlət "öz" demokratiya tipini seçir. Bu, uğurlu olmadıqda tənəzzülə məruz qalmaq, hibridləşdirmə və ya birləşmədən

kənarlaşmaq cəhdi xeyli artır. Aydındır ki, hər bir yeni demokratik dövlət faydalı seçimə üstünlük kateqoriyasını fərqləndirir:[1]

- harada və nə zaman təzahüründən asılı olmayaraq, müasir demokratiyaya daxilən xas olan: rəhbərlikdə oliqarxiyalı meyl, vətəndaşların siyasi prosesdən kənarlaşması, öz səlahiyyətlərini nümayəndələrinə həvalə etmələri, siyasi özgələşmə, sabit olmayan çoxluğun mövcudluğu, qeyri-demokratik təsisatlardan asılılıq, güclü rəqabət mühitində onların rolunun artması, milli liderlərin fəaliyyətində müəyyən obyektiv məhdudluq və s.

- yeni demokratik qaydalarla mövcud sosial, mədəni və iqtisadi şərait praktiklərinin birləşə bilməsi şübhəsinə məruz qalan xarici dilemma.

Polşa tədqiqatçısı **Y.Vasilyevski** qeyd edir ki, demokratik möhkəmlənmə (və ya demokratik qüvvələrin birləşməsi) özündə iki ayrılmaz komponenti birləşdirir: **dəyərli** (siyasi qaydalar toplusunun nisbi konsensusunun əldə edilməsi) və **təsisatlı** (özündə rəqabət aparan müxtəlif siyasi qüvvələrin mənafelərini əks etdirən hakimiyyət strukturunun yaradılması). **Vasilyevskinin** fikrincə, sabit demokratik idarəetmə məhz elitanın müxtəlif hissələri arasında könüllü konsensusun mövcudluğu şəraitində mümkündür, başqa sözlə, siyasi davranışın ümumi normalarına riayət etməklə və "üzvi həmrəyliklə" şərtlənir. **A.Pşevorski** isə qeyd edir ki, demokratiyanın möhkəmlənməsi (sabitliyin qərarlaşması – M.Ə.) o zaman təmin edilir ki, demokratiya özü-özünü möhkəmləndirir. Əlbəttə, bu fikirdə həqiqət nəzərə çarpır. Axı, kim etiraz edə bilər ki, demokratiya özü-özü üçün deyildir.

Amerika politoloqları **E.Doff və D.Makkamant** cəmiyyətdə sabitlik və qeyri-sabitlik məsələsinə daha əhatəli münasibət bildirirlər. Onlar belə qənaətə gəlirlər ki, siyasi sabitlik və qeyri-sabitlik probleminin təhlili əhalinin siyasi

---

[1] Шмиттер Ф. Угрозы и дилеммы демократии. // Век XX и мир. 1994, № 7-8. С. 140

prosesə münasibəti və siyasi sistemin özünün daxili ehtiyatları haqqında göstəricilərdən istifadə olunmasını tələb edir. Onlar siyasi sabitliyin aşağıdakı meyarlarını göstərirlər:

- sosial yardımın sosial səfərbəretmədən üstünlüyü;
- iqtisadi inkişafın yüksək sürəti;
- gəlirin bərabər səviyyədə bölüşdürülməsi;
- siyasi imkanlar ehtiyatının mövcudluğu;
- vətəndaşların siyasi həyata cəlb olunmasını təmin edən təsisatlanmış çoxsaylı üzvlərə malik siyasi partiyaların genişlənməsi.

Öz növbəsində qeyri-sabit rejimlər üçün aşağıdakı göstəricilər səciyyəvidir:

- sosial səfərbərliyin sosial yardımdan üstünlüyü;
- iqtisadiyyatın zəif inkişaf səviyyəsi;
- maddi nemətlərin qeyri-bərabər bölüşdürülməsi;
- elitanın zəif siyasi imkanları;
- "məhdud" və şəxsləndirilmiş partiyaların aradan qaldırılması.

İsveç alimləri **S.Ereson və Y.Eleyn** cəmiyyətdə qeyri-sabitliyin göstəricilərinə aşağıdakıları aid edir: iqtisadi-işsizliyin və inflyasiyanın səviyyəsi, büdcənin qıtlığı, dövlət zayomlarının vəziyyəti; sosial – öz müəssisələrində müdiriyyətlə münaqişədə iştirak edən işçilərin faizi; qətllərin və intiharın səviyyəsi, nümayişlərin, üsyanların, siyasi tətillərin, sui-qəsdin sayı; siyasi-icraedici hakimiyyətin yeniləşməsi dərəcəsi, elitanın mümkün ola bilən dəyişikliklərə uyğunlaşması, seçki sisteminin tipi.[1]

Amerika politoloqu **D.Sanders** bu sahədə mövcud olan tədqiqatların təhlili və ümumiləşdirilməsi əsasında belə qənaətə gəlir ki, ümumi qeyri-sabitlik urbanizasiyanın yüksək səviyyəsi, əhalinin artması, sosial-siyasi nəzarət mexanizminin zəifləməsi, ticarət və maliyyə cəhətdən xarici mənbələrdən asılılış dərəcəsi kimi amillərlə bağlıdır. Ümumi

[1] Ereson S., Lane J., E. Political Stability in European Democracies // Eupean Journal of Political Research. 1983. Vol. II. P. 3

qeyri-sabitlik eləcə də rejimin legitimlik səviyyəsi, siyasi təsisatların inkişafı, sosial-iqtisadi səfərbərlik dairəsinin genişlənməsi, iqtisadi inkişafın sürəti, siyasi kommunikasiyalar şəbəkəsinin təkmilləşdirilməsi və digər amillərlə əlaqədardır.

XX əsr sivilizasiyası sosial və siyasi qaydaların statik sabitliyindən prinsipial surətdə fərqlənən yeni, dinamik sabitlik tipini şərtləndirdi. Statik sabitlik tipi ətalətli, irəliləyişdən məhrum olan sosial və siyasi strukturların, siyasi təsisatların və münasibətlərin yaradılmasına və saxlanılmasına əsaslanırdı. O, tarixi prosesin ləng gedişi, ideologiyanın ənənəvi və mühafizəkar formaları barədə təsəvvürlərlə bağlı idi. XX əsrin totalitarizmi məhz sabitliyin belə tipini təkmilləşdirməklə, repressiv sabitliyini yaratmış və onu dinamik xarici siyasətlə əlaqələndirməyə cəhd etmişdir. Belə əlaqələndirmə qeyri-sabitlik doğurmuş və qanunauyğun surətdə totalitar rejimin dağılmasına və açıq cəmiyyətə transformasiyaya gətirib çıxarmışdır. Sabitliyin dinamik tipi açıq cəmiyyətdə işlənib hazırlanmışdır. Demokratik prosesdə nəinki münaqişələri aradan qaldırmaq mexanizmi işlənib hazırlanır və eləcə də münaqişələrdən cəmiyyətin sabitliyini təkmilləşdirmək üçün istifadə olunur.

III FƏSİL
Modernləşmə konsepsiyası siyasi inkişafın nəzəri modeli kimi

1. Modernləşmə nəzəriyyəsi

Siyasi proses bütövlükdə siyasi sistemin hərəkətini, dinamikasını, təkamülünü, onun vəziyyətinin zaman və məkan etibarilə dəyişməsini açıqlayır. O, siyasətin ən müxtəlif subyektlərinin öz funksiyalarını hakimiyyət sferalarında həyata keçirmələrinə aid fəaliyyətinin məcmuunu ifadə edir. Bu fəaliyyət isə cəmiyyətin siyasi sisteminin dəyişməsinə və inkişafına (və ya tənəzzülünə) istiqamətlənir.

Tarixi təcrübə göstərir ki, cəmiyyətin inkişafı bir qayda olaraq sadə strukturlardan mürəkkəb strukturlara doğru gedir. Buna görə, siyasi proses dedikdə, cəmiyyətin siyasi sisteminin bir vəziyyətdən digərinə transformasiyası başa düşülür. Bu proses idarə edənlərlə (fəal azlıq-elita) idarə edilənlər (passiv çoxluq -- xalq) arasında qarşılıqlı fəaliyyət nəticəsində baş verir.

Cəmiyyətin ənənəvi (industrial cəmiyyətə qədərki) vəziyyətdən müasir industrial və postindustrial cəmiyyətə keçməsi və ya inkişafı prosesi siyasi elmdə (politologiyada) **"cəmiyyətin modernləşməsi"** adlandırılır. Ümumi modernləşmə anlayışı cəmiyyətin bütün sferalarındakı dəyişiklikləri əks etdirir. Məsələn, **iqtisadiyyatda** modernləşmənin ən mühüm amilləri əldə olunmuş kapitaldan, biliklərdən istifadə etməklə, industrial texnologiyaya keçid, təbii resursların geniş mənimsənilməsi, onların genişləndirilməsi və yenidən emalının dərinləşdirilməsi, əmtəə bazarının, kapitalın, əməyin və xidmətin inkişafı hesab olunur.

Sosial sferada – əvvəlki sosial modellərin zəifləməsi və yeni rasional məqsədli əlaqələr sferasının (peşə və bazar meyarlarına əsaslanan) genişlənməsi. Bu vəziyyət cəmiyyətin differensasiyasının inkişafı ilə müşahidə olunur.

Mədəniyyət sferasında – savadlanmanın yayılması, ictimai şüurun, milli mədəniyyətin formalaşması, kütləvi informasiya vasitələrinin və kommunikasiyanın inkişafı.

Siyasət sferasında – milli dövlətlərin yaradılması və bu çərçivədə yeni siyasi sistemin formalaşması (rolların və təsisatların yüksək səviyyədə ixtisaslaşması ilə), eləcə də siyasi partiyaların və hərəkatların siyasi həyatda iştirakının genişlənməsi, onların fəaliyyətinin müxtəlif sosial qrupların və təbəqələrin mənafelərinin müdafiə olunmasına istiqamətlənməsi ilə səciyyələnir. Alimlər müxtəlif ölkələrin və rejimlərin modernləşməsi şəraitini ümumiləşdirərək belə qənaətə gəlirlər ki, baş verən dəyişikliklərdə müəyyən ardıcıllığın gözlənilməsi vacibdir (onların həyata keçirilməsinin məlum qaydalarını nəzərə almaqla). Bəzi tədqiqatçılar hesab edirlər

ki, islahata cəmiyyətin industriallaşdırılması ilə, digərləri isə bildirirlər ki, kənd təsərrüfatında islahatla başlamaq lazımdır. Üçüncü qrup iddia edir ki, artıq modernləşmə mərhələsinə qədəm qoyan inkişaf etməkdə olan ölkələrə yardım göstərilmədən modernləşmə mümkün deyildir.

Siyasi modernləşmənin özü isə bir sıra xarici ölkə politoloqlarının fikrincə, aşağıdakıları ifadə edir:

- fərqli siyasi strukturların yaradılması;
- sosial qrupların və şəxsiyyətlərin siyasi həyata daim geniş cəlb edilməsi;
- rasional siyasi bürokratiyanın təşəkkülü və tez güclənməsi;
- ənənəvi elitanın zəifləməsi və müasir elita ilə əvəz olunması.

Avtoritarizmdən (totalitarizmdən) demokratiyaya (demokratik tranzitə) keçid modernləşmə prosesinin ən əhəmiyyətli komponenti kimi çıxış edir[1]. **A.Melvil** qeyri-demokratik rejimdən demokratik rejimə tranzit inteqral məntiqini üzə çıxarmağa cəhd edir və bildirir ki, demokratik tranzitin optimal və ideal olması üçün o, dörd başlıca mərhələdən keçməlidir[2].

Modrenləşmə nəzəriyyəsi siyasi elmdə XX əsrin 50-60-cı illərində formalaşmağa başlamışdır. Həmin nəzəriyyənin nəzəri mənbəyini xeyli dərəcədə **M.Veberin** əsərləri təşkil edir. Həmin əsərlərdə Avropada kapitalizmin inkişafının mənəvi amillərinin müqayisəli təhlili əsasında belə bir ideya irəli sürülmüşdür ki, Avropa sivilizasiyası ənənəvi cəmiyyətdən müasir cəmiyyətə doğru inkişaf edir. Bu ideya kapitalizmin inkişafı ilə müxtəlif cəmiyyətlərin dinamikasını müqayisə etməyə kifayət qədər əsas vermişdir. Siyasi modernləşmə nəzəriyyəsinin yaradıcıları, eləcə də **F.Tennisin** və **E.Dürkheymin** cəmiyyətin əmək bölgüsü əsasında **"mexaniki həmrəylikdən" "üzvi həmrəyliyə"** təkamülü konsepsiyasın-

---

[1] Bax: Мельвиль А.Ю. Демократические транзиты. М., 1999

[2] Ətraflı bax: Nazim İbadov. Müqayisəli politologiya. S. 70-71

dan bəhrələnmişlər. Modernləşmə nəzəriyyəsinin formalaşmasına həmçinin, **T.Parsonsun** struktur-funksional təhlilinin başlıca müddəaları xidmət etmişdir.

Modrenləşmə nəzəriyyəsinin inkişafı iki mərhələni əhatə edir: XX əsrin 50-60-cı və 70-80-ci illərini. Birinci mərhələdə "modernləşmə" termini həm ictimai dəyişikliklər mərhələsi və eləcə də müasir cəmiyyətə keçid prosesi kimi səciyyələnirdi, başqa sözlə, modrenləşmə **vesternizasiya**, yəni həyatın bütün sahələrində qərb nümunələrinin yamsılanması kimi başa düşülürdü və ölkənin sosial-iqtisadi və siyasi inkişafının qabaqcadan nəzərdə tutulan şərti kimi nəzərdən keçirilirdi. Qeyd edək ki, "vesternizasiya" "qərbləşmə" terminin sinonimi kimi işlədilir və bir-birini tamamlayır.

XX əsrin 50-60-cı illərində bütün ölkələrin və xalqların inkişafı modernləşmə nəzəriyyəsində **universallıq** kəsb edən hadisə kimi araşdırılırdı, başqa sözlə, bir istiqamətdə baş verən, bu və ya eyni mərhələni və qanunauyğunluğu əks etdirən inkişaf kimi nəzərdən keçirilirdi. Elmi ədəbiyyatda göstərildiyi kimi, modernləşmə sosiumun (cəmiyyətin) aşağıdakı parametrlərlə (kəmiyyət göstəriciləri ilə) transformasiyasını nəzərdə tutur:

- sosial yekcinsliyin yüksək dərəcəsindən sosial qeyri-yekcinsliyin yüksək dərəcəsinə;
- sadə sosial strukturdan mürəkkəbləşən sosial struktura;
- ictimai inteqrasiyanın qeyri-iqtisadi xarakterindən iqtisadi xarakterinə;
- etatizmdən bazar iqtisadiyyatına;
- təbiətin bir hissəsi olan insandan bacarıqlı, qabiliyyətli insana;
- şüurun vahid şəklə salınmış formasından plüralizmə;
- fenomenal (nadir) sabitlikdən daimi dəyişikliyə;
- totalitarizmdən və avtoritarizmdən demokratiyaya keçid kimi.

Göstərilən dəyişikliklər bir-biri ilə qarşılıqlı əlaqə kəsb edir. Bu əlaqə pozularsa, modernləşmənin nəticələri birtərəfli, məhdud olur. Modernləşmə nəzəriyyəsinin müəllifləri-

nin əksəriyyəti (50-60-cı illərə aid olan) **texnoloji determinizm** ideyasından çıxış edirdilər. Onlar bildirirdilər ki, ictimai inkişafın əsasını həyat səviyyəsinin yüksəlməsinə və sosial problemlərin həllinə aparan iqtisadi və texnoloji tərəqqi təşkil edir. Modernləşmə nəzəriyyəsinin nümayəndələri ABŞ-ı daha çox inkişaf etmiş müasir ölkə sayırdılar, bu fikri Avropa ölkələrinə də aid edirdilər. Qeyd edək ki, çox vaxt **vesternizasiya** adlandırılan modernləşmə nəzəriyyəsi və ya "qərbləşmə" ideası ənənəvi cəmiyyətin xarakteristikasını tənqid etməyi ön plana çəkir. Bununla yanaşı, inkişaf etməkdə olan (geri qalan) ölkələrin də müəyyən şəraitdə müasirlik səviyyəsi əldə edəcəyinə inanmaq lazımdır, başqa sözlə, onların da modernləşmə mərhələsinə qədəm qoyacağı labüddür. Təsadüfi deyil ki, tədqiqatçılar siyasi modernləşmənin məzmununu ümumi "müasirləşmə" prosesinin tərkib hissəsi hesab edirlər. Siyasi modernləşmə nəzəriyyəsinin birinci inkişaf mərhələsinə aşağıdakılar aid edilir:

- inkişaf etməkdə olan ölkələrin qərb nümunəsində demokratikləşməsi (milli dövlətlərin yaranması və güclənməsi, hakimiyyətin nümayəndəli orqanlarının yaradılması, hakimiyyətin bölünməsi, seçki təsisatlarının yaradılması);
- dəyərlər sisteminin dəyişməsi (fərdi dəyərlərin inkişafı) və hakimiyyətin legitimləşməsi üsulları (ənənəvi üsullar müasir qaydalarla sıxışdırılmalıdır).

Nəticə etibarilə, 70-80-ci illərdə modernləşmə və inkişaf arasındakı əlaqə yenidən nəzərdən keçirildi. Həmin illərin siyasi hadisələri modernləşmə nəzəriyyəsinin mükəmməl olmadığını (yarımçıqlığını) üzə çıxartdı və onun yenidən daha da təkmilləşdirilməsi zərurətini doğurdu. Hələ 1967-ci ildə **R.Bendiks** belə bir cəhətə diqqət yetirdi ki, Avropada (xüsusilə, İngiltərədə və Fransada) modernləşmənin özü cəmiyyətin müəyyən ənənələrinə əsaslanmışdır, bu isə ənənəviliklə müasirliyin birini digərinə qarşı qoymağın nəzakətsizlik olması barədə danışmağa imkan yaratdı. Bu hadisə tənqid dalğasına səbəb oldu. Nəhayət, belə qənaətə gəlindi ki, ölkələr üç yolla hərəkət edə bilərlər: birincisi, öz vəziyyətini

təkrar istehsal etməklə müasir dövrün məqsədlərinə doğru irəliləməmək; ikincisi, modernləşmə yolu ilə getmək və üçüncüsü, mövcud tipin dəyişdirilməsinə başlamaq və nəticə etibarilə, daha sərt siyasi rejimin təşkilini məhdudlaşdırmaq. Universal meyarların və gələcək inkişafın məqsədlərini saxlamaq şərtilə alimlər başlıca vurğunu onların reallaşmasının **milli** formasına istiqamətləndirdilər. Modernləşmənin variantlarının və yollarının ümumi formada seçilməsi probleminə dair nəzəri mübahisələr daha çox liberallarla mühafizəkarlar arasında baş verdi. Belə ki, **liberal** istiqamətin alimləri **(Q.Almond, L.Pay və b.)** hesab edirdilər ki, orta sinfin təzahürü və əhalinin təhsilinin inkişafı idarəetmənin təbiətində və təşkilində ciddi dəyişikliklərə gətirib çıxarır. Bütövlükdə isə modernləşmənin xarakteri və dinamikası azad elitanın açıq rəqabətindən və sıravi vətəndaşların siyasətə cəlb olunması dərəcəsindən asılıdır.

Mühafizəkarların nəzəriyyəçiləri isə modernləşmə prosesini digər mövqedən şərh edirdilər. Onların fikrincə, modernləşmənin başlıca mənbəyi əhalinin "səfərbərliyi" ilə (yaranan ziddiyyətlər nəticəsində siyasi həyata cəlb olunmaq) "təsisatlaşma" (vətəndaşların mənafeyinin artikulyasiyası və aqreqasiyası üçün nəzərdə tutulan strukturların və mexanizmlərin mövcudluğu) arasındakı münaqişələrdir.

XX əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərində modernləşmə nəzəriyyəsinin yenidən mənalandırılması iki yolla getmişdir: 1. Modernləşmə nəzəriyyəsinin özünün tənqidi; 2. Xüsusi modernləşdirmə konsepsiyalarının daxili məhdudluğunun aradan qaldırılması. Qeyri qərb ölkələrində modernləşmə prosesi müxtəlif ölkələrdə inkişaf yollarının universallığı haqqında təsəvvürlərə əsaslanan əvvəlki yetkin olmayan modernləşmə nəzəriyyələrinin yenidən mənalandırılmasına gətirib çıxartdı. Görkəmli Rusiya politolou **R.T.Muxayevin** fikrincə, təqlidçilik modelinin başlıca tənqidi müddəaları aşağıdakılardan ibarət olmuşdur:

- müxtəlif cəmiyyətlərin spesifikliyini və cəmiyyətdə təşəkkül tapan mənəvi dəyərlərin xarakterini adekvat başa

düşməyin yoxluğu;

- inkişafın ən mühüm şərti kimi sabitliyin və cəmiyyətin birliyinin qorunması əhəmiyyətinin lazımi qədər qiymətləndirilməməsi, modernləşmənin düzxətli təqlidçilik siyasəti istər-istəməz cəmiyyətdə hərc-mərcliyə, sosial sarsıntıya gətirib çıxarır;

- qərb nümunələrini təkrar istehsal edən tərəqqinin vahid xəttinin qərarlaşması naminə, mədəni və tarixi nailiyyətlərin rolunun azaldılması və lazımi qədər qiymətləndirilməməsi;

- inkişaf etmiş ölkələrin geridə qalan ölkələrə təsirinin bir sıra mühüm münasibətlərdə neqativ hala çevrilməsi faktının nəzərə alınmasının və izahının mümkün olmaması;

- "inkişaf etmiş" cəmiyyətdə sosial qeyri-bərabərliyin və kütlələrin vəziyyətinin pisləşməsinin güclənməsi ilə şərtlənən ağır sosial nəticələrin təhrif olunması[1].

2. Müasir modernləşmənin başlıca istiqamətləri

Modernləşmə nəzəriyyəsinin xeyli nümayəndələri başlıca diqqəti sosial-iqtisadi tərəqqi üçün zəmin olan siyasi inkişafın sabitliyinə yetirirdilər. Bütövlükdə sabitlik amillərinin fərqləndirilməsinə həsr edilən inkişaf nəzəriyyəsini şərti olaraq iki istiqamətə: liberal və müharfizəkar istiqamətlərə ayırmaq olar.

Liberal istiqamətin tərəfdarları (**Q.Almond, L.Pay** və b.) modernləşmənin məzmununun sosial mobilliyin intensivləşməsi və siyasi cəmiyyətdə əhalinin inteqrasiyası vasitəsilə **açıq** sosial və siyasi sistemin formalaşdırılmasından ibarət olduğunu iddia edirdilər. Onlar bildirirdilər ki, siyasi modernləşmənin başlıca meyarı əhalinin siyasi nümayəndəliyə **cəlb olunması dərəcəsidir**. Liberallar qeyd edirdilər ki, modernləşmənin uğurlu şərti elita ilə əhali arasında dialoqun köməyilə sabitliyin təmin olunmasından ibarətdir. On-

[1] Bax: Мухаев Р.Т. Теория политики. С. 466

ların fikrincə, modernləşmənin xarakteri və dinamikası suveren elita ilə sıravi vətəndaşların siyasətə cəlb olunması arasındakı uyğunluqla ölçülür.

Liberal istiqamətin tərəfdarları modernləşmədə hadisələrin inkişafında aşağıdakı variantları fərqləndirirlər[1].

- sıravi vətəndaşlar üzərində elitanın rəqabətinin üstünlüyü şəraitində cəmiyyətin ardıcıl demokratikləşməsi və islahatların həyata keçirilməsi üçün daha optimal zəmin formalaşır;

- əhalinin başlıca kütləsinin fəaliyyətinin aşağı olması və elitanın rəqabətinin xeyli güclənməsi şəraitində avtoritar rejimlərin təşkili və dəyişikliklərin dayanması üçün zəmin təşəkkül tapır;

- əhalinin siyasi iştirakçılığının elita ilə yarışı üzərində üstünlüyü oxlokratiyaya meylin artmasına imkan yaradır, bu isə rejimi təxribatlara təhrik edir və dəyişiklikləri ləngidir;

- eyni zamanda, elitanın yarışqanlığının və əhalinin siyasi iştirakçılığının minimuma enməsi hərc-mərcliyə, sosiumun və siyasi sistemin dezinteqrasiyasına (parçalanmasına) gətirib çıxarır, eləcə də diktaturanın təşkilinə imkan yaradır.

L.Pay qeyd edirdi ki, siyasi sistem nəinki yaranan iqtisadi və sosial problemlərin həllini reallaşdırmalıdır, həmçinin, insanlarda identiklik şüurunu və böyük cəmiyyətin böyük üzvü olmağı təmin etməlidir. Buna görə, siyasi modernləşmə qərarların qəbulunda real iştirak etmək hüququ olan insanların və qrupların artmasını nəzərdə tutur.

Amerika politoloqu **R.Dal** isə liberal yanaşma kontekstində **poliarxiya** nəzəriyyəsini irəli sürmüşdür. Bu nəzəriyyə demokratik xarakterdən əvvəlki siyasi qaydaların təşkilinin poliarxiya formasına nail olmasının zəruriliyini əsaslandırır. O, bir tərəfdən, demokratiyadan təşkilatların yaradılması

[1] Bax: Соловьев А.И. Политология. С. 299-2300; Мухаев Р.Т. Теория политики. С. 467

azadlığını müəyyən qədər məhdudlaşdırması ilə fərqlənir, düzgün və azad seçkilərə təminat vermir.

Digər tərəfdən, hakimiyyətin təşkilinin real modeli kimi və daha çox əldə edilmək imkanına malik olması ilə səciyyələnir.

R.Dal poliarxiyaya doğru hərəkət edən ölkələrə təsir edən yeddi şərti fərqləndirir:

Cəmiyyətdə sosial-iqtisadi dəyişikliklərin aparılması üçün güclü icraedici hakimiyyətin təşkili; siyasi islahatların həyata keçirilməsində ardıcıllıq; dövlətdə struktur dəyişikliklərini müəyyənləşdirməyə imkan yaradan sosial-iqtisadi inkişaf səviyyəsində müəyyən nailiyyətin əldə olunması; bərabərlik münasibətlərinin yaradılması (cəmiyyətdə güclü qütbləşməni aradan qaldıran); müxtəlif subkulturaların mövcudluğu; intensiv xarici yardım (beynəlxalq nəzarət); siyasi fəalların və liderlərin demokratik inamı. Beləliklə, **Dal** qeyd edir ki, poliarxiyaya keçid tədrici, təkamül yolu ilə baş verməlidir, imkan daxilində kəskin, sıçrayışlı hərəkatlardan qaçmaq və idarə edən elitanın konsensus texnologiyasına ardıcıl yiyələnməsi üçün zəmin yaradılmalıdır.

Müasir modernləşmənin mühafizəkar istiqamətini təmsil edən **alimlər (S.Hantinqton, C.Nelson, X.Lints və b.)** belə hesab edirlər ki, modernləşmənin başlıca problemi əhalinin səfərbər edilməsi, siyasi artikulyasiyası, aqreqasiyası arasındakı münaqişədən ibarətdir.

Həmin müddəanı ilk dəfə **mühafizəkarların** görkəmli nümayəndəsi sayılan **S.Hanqtinton** "Dəyişən dünyada siyasi qayda" adlı əsərində (1968-ci il) irəli sürmüşdür.

O, siyasi təsisatların modernləşməsini demokratiyanın səviyyəsi ilə deyil, məhz sabitlikdən və mütəşəkkillikdən asılılığı ilə əlaqələndirir. Yalnız qaydalara nəzarət edən sərt rejim bazara keçidi və milli birliyi təmin edə bilər.

S.Hantinqton qeyd edir ki, modernləşmə müəyyən amillərlə bağlıdır. O, həmin amillərdən sənayeləşməni, urbanizasiyanı, savadlılığın yüksək səviyyəsini, yüksək təhsili, rifahı, sosial qayğını daha çox dəyərləndirir. Ənənəvi cə-

miyyətlə (orta əsrlərin feodal-aqrar siyasi quruluşu) müasir cəmiyyəti fərqləndirməyə cəhd edən bu alim yazır: "Müasir cəmiyyətlər ənənəvi cəmiyyətlərə nisbətən iki səbəbə görə bənzərlik təzahür etdirirlər. Birincisi, müasir cəmiyyətlər arasında artmaqda olan qarşılıqlı təsir ümumi mədəniyyət yaratmaya bilər, lakin texnologiyaların ənənəvi dünyada mümkün olmayan yüksək sürəti bir cəmiyyətin digərinə keçirilməsini asanlaşdırır. İkincisi, ənənəvi cəmiyyət kənd təsərrüfatına əsaslanırdısa, müasir cəmiyyət sənətkarlıqdan klassik ağır sənayeyə, sonra isə elmi texnologiyaya və istehsala qədər təkamül edən sənaye əsasında təşkil olunmuşdur".[1] **S.Hantinqton** eləcə də belə bir müddəadan çıxış edir ki, demokratik ənənələrə əsaslanmayan iqtisadi və sosial dəyişikliklərlə şərtlənən modernləşmə "siyasi inkişafı deyil, siyasi tənəzzülü" doğurur.

S.Hantinqton qərb sivilizasiyasının bütün dünyaya təsirini modernləşmə kimi izah edərək göstərir ki, Qərbin təzyiqinə asanlıqla tabe olmayan dünya etiraz edir, əks reaksiya nümayiş etdirir. Modernləşmənin qarşısıalınmaz proses olduğunu, müasir dünyadakı sivilizasiyalar üçün dəyərini nəzərə alaraq **S.Hantinqton** qətiyyətlə qeyd edir ki, "modernləşmə bu mədəniyyətləri (sivilizasiyaları – M.Ə.) gücləndirir və Qərbin nisbi təsirini azaldır. Dünya fundamental səviyyədə daha çox müasir və daha az qərbsayağı olur".

Siyasətçilər üçün inkişafın başlıca göstəricisi sabitlik olduğuna görə, modernləşən dövlət üçün legitim siyasi partiyanın mövcudluğu ilə "möhkəm" siyasi rejim zəruridir. Belə rejim hakimiyyətin tarazlaşdırılması meylini saxlamağa qadir olmalıdır. Beləliklə, mühafizəkarlar cəmiyyətin mədəniyyət, təhsil, din, fəlsəfə və incəsənt əsasında inteqrasiyasının möhkəmlənməsi ideyasının əksinə olaraq (**K.Doyç**), avtoritar idarəetmə metodlarının mütəşəkkilliyi qaydalarını

[1] Hantinqton S.P. Political Development and Political Decay // World Politics. 1965. Vol. 17, № 3. P. 12

vurğulayırlar (**S.Hantinqton**). Onlar dəyişən şəraitdə səriştəli siyasi rəhbərliyi, güclü dövlət bürokratiyasını, islahatların mərhələlər üzrə strukturlaşmasını, dəyişikliklərin öz vaxtında başlanmasını modernləşmənin pozitiv nəticələrlə başa çatması üçün vacib amillər hesab edirlər.

Avtoritar rejimlərin tamamilə qeyri-yekcins olmasına baxmayaraq, mühafizəkarlar modernləşmənin eləcə də alternativ variantlarının mövcudluğunu göstərirlər. Məsələn, Amerika alimi **H.Lints** hesab edir ki, birincisi, avtoritar rejimlər natamam liberallaşmanı həyata keçirə bilər, ikincisi, avtoritar rejimlər idarə edən elita ilə bağlı geniş liberallaşmaya meyl edə bilər, üçüncüsü, idarə edən rejim "küt liberallaşma" yolunu seçə bilər.

Bütövlükdə 70-80-ci illərdə dəyişikliklər təcrübəsi modernləşmənin **universal** norma və tələblərinin mövcudluğunu nümayiş etdirdi ki, bu da inkişafda müəyyən tərəqqinin əldə olunmasına imkan yaratdı.

Modernləşmə prosesinin inkişafında üçüncü mərhələ XX əsrin 80-ci illərinin ikinci yarısı ilə bağlıdır. O zaman modernləşmə nəzəriyyəsi yad (qərb) nümunələri ilə bağlı olmayan sosial-mədəni ənənələrə əsaslanan siyasi inkişaf konsepsiyası ilə tamamlandı (**A.Əbdül-Malik, A.Turen, S.Hantinqton, Ş.Eyzenştadt və b.**). Bu konsepsiya çərçivəsində ictimai və siyasi inkişafın universallığı inkar edilmir. Bununla belə universallıq prinsipi partikulyarlıqla (xüsusilik kəsb edənlə) əlaqələndirilir, onların üzvi sintezi isə modernləşmə prosesinin uğurlu olmasının rəhni kimi nəzərdən keçirilir. Modernləşmə nəinki siyasi elitanın fəaliyyətindən, eləcə də ilk növbədə, obyektiv şəraitin təsirindən və sıravi cəmiyyət üzvlərinin davranışından asılı olan **özü-özünə inkişaf edən** proses kimi araşdırılır.

1992-ci ildə ABŞ-da **Osborn və Heblerin** birgə yazdıqları kitabın çapdan çıxması çox böyük maraq doğurdu, hət-

ta o, klassik kitab adlandırıldı.[1] Həmin müəlliflərin fikrincə, kitabda ifadə edilən 10 qayda idarəedici siyasi fəaliyyətin (eləcə də modernləşmənin – M.Ə.) uğurlu gedişi üçün təminat verir:

1. Dalğada üzmək yox, sükanda dayanmaq.
2. Vətəndaşlara yalnız xidmət etməklə məhdudlaşmamaq, məhz səlahiyyətlər vermək.
3. İnhisar yox, rəqabət yaratmaq.
4. Fəaliyyəti müəyyənləşdirmək qayda yox, sifariş olmalıdır.
5. Prosesə və ya ayrılan vəsaitə deyil, əldə olunmuş nəticələrə oriyentasiya etmək.
6. Bürokratiyanın yox, müştərinin tələbatını təmin etmək.
7. Dövlət aparatı ilə ictimaiyyətin əlaqəsinin köklü genişləndirilməsini həyata keçirmək, ehtiyacını ödəmək üçün o, əslində fəaliyyət göstərməli və işləməlidir.
8. Sahibkar kimi, başqa sözlə xərc barədə deyil, mənfəət haqqında düşünmək lazımdır.
9. Hadisələri qabaqcadan görmək və keçən problemlərin müalicəsinə yox, profilaktikaya maya qoymaq lazımdır.
10. Dövlət xidməti mədəniyyətinin yeni səviyyəsini formalaşdırmaq. Bu tezisi dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinin başlıca istiqaməti adlandırırlar.

XXI əsrin hüdudlarında modernləşmə nəzəriyyəsi özünün nüfuzlu yerini daha çox qərbin elmi və siyasi aləmində yeni paradiqmaya – neoliberalizmə verir. Neoliberalizm dövlətin iqtisadi, sosial həyatda tənzimləyici rolunun məhdudlaşdırılması, xüsusi sahibkarlığın hərtərəfli inkişafı və azad bazar uğrunda çıxış edir. Siyasi sferada isə şəxsiyyətin demokratik azadlığı və hüquqi özünüidarənin müxtəlif formalarına üstünlük verir[2]. Modernləşmə nəzəriyyəsindən

[1] Bax: Osborme D., Caebler T. Reiventinq Covernment. Univ. Of California press. 1992

[2] Ətraflı bax: Məcid Əfəndiyev. Siyasi və hüquqi təlimlər tarixi. B., 2009, 520-522

fərqli olaraq, müasir neoliberalizmin mərkəzi tezisi bundan ibarətdir ki, "demokratiya inkişafın nəticəsinin yox, inkişafın özünün qabaqcadan və ya paralel şərtidir".

3. Modernləşmənin modelləri

Siyasi elmə aid ədəbiyyatda modernləşmənin bir neçə modeli nəzərə çatdırılır. Onlardan biri **klassik nizamsız** modeldir. Qərbi Avropa ölkələrinə, ABŞ-a və Avstraliiyaya aid olan bu modernləşimə modelinin təkamülündə azad sahibkarlığın müstəmləkəçilik dövrü, protestantçılıq etikası, burjua inqilabları, dini müharibələr və s. iz buraxmışdır. Onu şəraitinin yetişməsi məhdudluğu baxımdan və modernləşmə amilləri (iqtisadi, sosial, hüquqi, siyasi və mədəni) nöqteyi-nəzərdən üzvi model kimi səciyyələndirmək olar. Ənənəvi cəmiyyətdə müxtəlif strukturların eyni vaxtda və ardıcıl modernləşməsi müasir cəmiyyətin başlıca strukturlarının yaranmasının məhdudluğunu təmin etdi.

Feodal münasibətlərinin **iqtisadi sferada** vaxtından əvvəl dağılması, texniki tərəqqi bazar münasibətlərinin və demokratiyanın sosial bazasının daha fəal subyekti kimi çıxış edən orta siniflərin tez təşəkkülünə imkan yaratdı. Malların istehsalı və mübadiləsinin mürəkkəb mexanizminə xidmət edən ticarət birjaları (bazarları) və səhmdar kampaniyaları yarandı. Klassik modeldə iqtisadi modernləşmənin ən əhəmiyyətli xüsusiyyətlərindən biri **xüsusi mülkiyyət təsisatının** ardıcıl inkişafı və hüquqi cəhətdən möhkəmləndirilməsidir. Roma hüququndan, xüsusilə onun xüsusi mülkiyyətə aid hissəsindən istifadə olunması, hüquqi cəmiyyətin təşəkkülünə istiqamətləndi və insan hüququnun üstünlüyü qanunvericiliklə təsdiqləndi. Öz növbəsində xüsusi mülkiyyət təsisatı vətəndaş cəmiyyətinin formalaşmasının əsası kimi çıxış etdi və dövlətin ictimai həyatın müxtəlif sferalarına və vətəndaşın şəxsi həyatına qarışmasını əhəmiyyətli dərəcədə məhdudlaşdırdı.

Xüsusi mülkiyyətin inkişafı siyasi sistemdə ifadə olu-

nan müxtəlif sosial mənafeləri şərtləndirdi. Hakimiyyətin bölünməsinə əsaslanan plüralist və nümayəndəli siyasi sistem formalaşdı. Əhalinin savadlılığının yüksək səviyyəsi şəxsiyyətin **muxtarlaşmasına** imkan yaratdı. Nəticədə modernləşmə prosesi beş əsr (XIV-XIX) davam etdi və özünün təkamül xarakterini və nisbi sabitliyini şərtləndirdi. İctimai həyatın bütün sferalarının sinxron dəyişikliyə məruz qalması **sabitləşdirici amillərin** mövcudluğunu tələb etdi.

Modernləşmənin modellərindən biri də **ləngiyən və qeyri-üzvi model** adlandırılır. Elmi ədəbiyyatda bu modeli Yaponiya, Braziliya, Argentina, Balkan ölkələri və İspaniyaya aid edirlər. Bu ölkələrin modernləşməyə keçməsi xeyli sonralar, təxminən XVIII-XIX əsrlərin hüdudunda başlandı. Modernləşmə prosesinin inkişafı isə bir sıra zəminin, xüsusilə inkişaf etmiş bazarın, vətəndaş cəmiyyətinin, hüquqi dövlətin olmaması ilə fərqlənirdi. Hakimiyyət isə avtoritar xaarkter daşıyırdı. Belə modernləşmə modelində dəyişikliklərin başlıca amili dövlətdir, onun liderləridir. Bu cür dövlət özündə bürokratlaşma təhlükəsini, islahatların həyata keçirilməsində qeyri-ardıcıllığı əks etdirir.

Cənubi Avropa ölkələrinin (İspaniya, Portuqaliya) ləngiyən modernləşməsinin müasir təcrübəsi onun bir sıra qanunauyğunluğunu üzə çıxarmağa imkan yaradır:

- müasir cəmiyyətə keçid fundamental siyasi məsələlərin həlli ilə: dövlət təsisatlarının formalaşması, konstitusiyanın işlənib hazırlanması, milli-dövlət quruculuğunun ümumi prinsiplərinin müəyyənləşdirilməsilə başlanır;
- iqtisadi modernləşmə müəyyən müddətə təxirə salındı və siyasi problemlərin tənzimlənməsindən sonra həll edildi;
- modernləşmənin ardıcıllığı və həyata keçirilməsi sürəti avtoritar siyasi rejimlərlə tənzimlənmişdir;
- resursların avtoritar rejimlərin əlində cəmləşdirilməsi müxtəlif tarixi mərhələlərdən qalan məsələlərin uğurla həllinə imkan yaratdı, məsələn, eyni zamanda informasiya texnologiyasına keçid və parlament demokratiyasının yaradılması, hüquqi dövlətin təşkili. XX əsrin ikinci yarısından eti-

barən, müxtəlif ölkələrin siyasi modernləşməsi (demokratiyaya keçidi) diqqəti daha çox cəlb etdi. Portuqaliyanın, İspaniyanın, Yunanıstanın və Çinin daha sonrakı mərhələdə isə Şərqi Avropa ölkələrinin və keçmiş SSRİ respublikalarının demokratikləşmə prosesinə qədəm qoyması bu ölkələrin qarşısında yeni perspektivlər açdı.

Ədəbiyyatda uzun müddət belə bir sualın cavablandırılması maraq doğurub ki, avtoritar rejim şəraitində cəmiyyətin modernləşməsi mümkündürmü. Əlbəttə, bu, ilk növbədə İspaniyanın təcrübəsində uğurla həll edilmişdir. **Frankonun** ölümündən sonra totalitarizmdən demokratiiyaya keçilməsi, keçid siyasi rejimini-avtoritarizmi tələb etdi və bu rejim ölkəni vətəndaş müharibəsindən müvəffəqiyyətlə kənarlaşdırdı. Dünya təcrübəsi göstərir ki, **avtoritarizm** iqtisadi inkişafa böyük imkan yaradır. Lakin İspaniyada inkişaf etmiş siyasi mədəniyyətin mövcud olmaması şəraitində həyata keçirilən sosial münasibətlərin liberallaşdırılması cəmiyyətdə situasiyanı kəskinləşdirdi.

Unutmaq olmaz ki, cəmiyyətin modernləşməsi müxtəlif və eləcə də bir-birilə qarşılıqlı sıx əlaqədə olan prosesləri nəzərdə tutur. Cəmiyyətin siyasi modernləşməsi (demokratiyaya keçid) ilə yanaşı, iqtisadi və mədəni-mənəvi həyat sferalarının da modernləşməsi prosesi gedir.

Modernləşmə prosesini dövlətçilik ənənələrinə malik olan dövlətlərin, ilk növbədə Yaponiyanın nümunəsində şərh etmək məqsədəuyğundur.

Yaponiya XVII əsrdə iqtisadi və texnoloji gerilik əlamətlərini özündə əks etdirən ənənəvi cəmiyyət olmaqla, Avropa feodalizmi ilə xeyli oxşar xüsusiyyətlərə malik idi. Burada bazar münasibətlərinin mənimsənilməsi, daha mürəkkəb həyat tərzi ənənəvi və fərdiyyətçi dəyərlərin məhdud sintezi vasitəsilə baş vermişdir. Belə bir faktı qeyd etmək vacibdir ki, Yaponiya cəmiyyəti tarixi inkişaf tiplərinin əvəz olunması zamanı dağılmaq, uçurum ənənəsinin təkrar istehsalından uzaqlaşa bilmişdir və liberal dəyərlər mədəni paradiqma (kollektivçilik, ailəyə münasibət, sitayiş) əsasında

mənimsənilmişdir. Yapon cəmiyyətinin iqtisadi, psixoloji və texnoloji xarakterli dəyişiklikləri, yüksək mobillik və uyğunlaşma (adaptasiya) dərəcəsi onun inkişaf etmiş ənənələrilə izah olunur.

Müasir modernləşməyə qədər bəzi ölkələrdən fərqli olaraq, Yaponiya müasirliyin bir sıra zəminində və xüsusiyyətlərinə malik idi. Belə ki, ilk öncə, Yaponiyada milli mənsubiyyət hissi xeyli inkişaf etmişdi və ən başlıcası bu ölkə digərləri ilə müqayisədə milli dirçəliş problemi ilə üzləşmədi. İkincisi isə Yaponiyada müasir cəmiyyətin çox əhəmiyyətli komponenti olan suveren siyasi elitanın zəmini mövcud idi. XIX əsrin ikinci yarısından etibarən, həmin ölkədə böyük miqyaslı modernləşmə prosesinə qədəm qoyulmuqşdu. Hakimiyyətə yiyələnən **Samuray elitası** qərblə yaxınlaşmağı nəzərdə tutan məqsədyönlü proqram hazırlamış və həmin proqram mövcud yapon elitasının fəaliyyəti sayəsində reallaşmışdır. Modernləşmənin bu modeli ilə bağlı, Yaponiyada ənənəvi cəmiyyətin bir sıra komponentləri saxlanılmış və xeyli gücləndirilmişdir. Ümumi liderə, başqa sözlə ölkə imperatoruna sədaqət ideyası yayılmış, imperator isə xalqın və dövlətin bütövlüyünün simvolu sayılmışdır. Əlbəttə, Yaponiyada modernləşmə prosesində elm, texnologiya və sosial siyasi təsisatlar sahəsində aparılan islahatlar başlıca olaraq Qərbin modernləşmə təcrübəsinə əsaslanmışdır.

Modernləşmənin digər modeli **gücləndirilmiş və ya sürətləndirilmiş** modeldir. Bu model Cənubi-Şərqi Asiya ölkələrinə (Cənubi Koreya, Sinqapur, Tayvan) aiddir. Həmin modern özünü kifayət qədər effektli göstərdi və o, məhdud müddətdə (30-35 il) totalitar və avtoritar rejimlərdə həyata keçirilən dəyişikliklərdə istifadə edildi. Siyasi rejimlər nəinki islahatların təşəbbüsçüsü olurlar və eləcə də sabitliyin, qaydaların, cəmiyyətin münaqişələrdən qorunmasını təmin etdilər. Belə modelin islahatları adətən, iqtisadiyyatın müxtəlif sahələrindən birində, məsələn, kənd təsərrüfatındakı dəyişikliklərdən başlanır və kapitalın sürətlə toplanması baş verir və bu kapital sonra sənayeyə qoyulur. İlk beş-yeddi il

iqtisadiyyat məxaricə istiqamətlənir, özü də ölkə daxili fərdi tələbatın xeyli məhdudlaşdırılması ilə. Lakin yüksək texnologiyaya keçid və yüksək ixtisaslı kadrların formalaşdırılması daxili bazarın həcmini kifayət qədər tez genişləndirməyə imkan yaradır. İqtisadi məxaric ölkəni öz məhsulunun keyfiyyətini, rəqabət qabiliyyətini yüksəlməyə məcbur edir. Nəzərə almaq vacibdir ki, haqqında mülahizələr yürütdüyümüz modelə aid olan Cənub-Şərqi Asiya ölkələri dünya bazarının elə sahələrində təmsil edilməyə nail olmuşlar ki, onlar qərb kampaniyaları tərəfindən inhisara alınmışdır (radio elektronika, gəmiqayırma, toxuculuq sənayesi və s.).

Bir sıra ölkələrdə (məsələn, Cənubi Koreya, Çili, Tayvan) avtoritar rejimlərin qərarlaşmasının məqsədəuyğunluğu təsdiqlənsə də, həmin ölkələrdə demokratikləşmənin inkarı elitanın özbaşınalığı üçün ciddi təhlükə yaratmışdır. Təcrübənin təsdiqlədiyi kimi, Tropik Afrikanın, Latın Amerikasının və Cənub-Şərqi Asiya ölkələrinin əksəriyyətində avtoritar idarəçilik geniş ictimai konsensus olmadan yaradılmışdır və keçid rejimlərinin açıq diktaturaya keçməsi üçün sosial zəmini saxlamışdır.

Bütövlükdə həmin ölkələrdə təşəkkül tapan dəyişikliklər təcrübəsi modernləşmənin **universal** norma və tələblərinin mövcudluğunu nümayiş etdirdi. Nəticə etibarilə, elə siyasi, iqtisadi və digər strukturlar yaratmaq imkanı mövcud oldu ki, bir qrup ölkələr öz inkişafında müəyyən tərəqqi əldə etmək imkanı əldə etdi. Belə məqsədlərə aiddir: bazar və satış-rul münasibətlərinin formalaşması, təhsilə qoyulan xərclərin çoxalması, iqtisadi münasibətlərin səmərəliləşdirilməsində elmin rolunun artması, əhalinin məhdudlaşdırılmayan mobilliyi ilə açıq sosial strukturun formalaşması, hakimiyyətin plüralist təşkili, insan hüquqlarına riayət olunması, siyasi kommunikasiyanın inkişafı, idarəetmə qərarlarının reallaşmasının konsensus texnologiyası və s. Lakin mövcud dəyişikliklərin həyata keçirilməsi vasitələri, sürəti və xarakteri daxili amillərdən, bu və ya digər dövlətin milli və tarixi qabiliyyətindən asılıdır. Bununla yanaşı, gücləndirilmiş mo-

del təcrübəsi də bir sıra problemləri büruzə verir.

Həmin problemlərdən biri bazar iqtisadiyyatı sistemi ilə totalitar və avtoritar rejimlər arasında daim yaranan ziddiyyətlərin aradan qaldırılmasının zəruriliyidir. Modernləşmənin müxtəlif mərhələlərində iqtisadi inkişafla siyasi sabitlik arasındakı nisbət dəyişir. Bu nisbət hər dəfə elə olmalıdır ki, bir tərəfdən, cəmiyyətdə qrup halında mənafelərin dinamik tarazlığını təmin etsin, digər tərəfdən islahatların dərinləşməsinə imkan yaratsın. İqtisadi inkişaf, siyasi inkişaf və cəmiyyət həyatının demokratikləşməsi üçün daha vacib amildir. Kifayət qədər iqtisadi zəmindən məhrum olan demokratikləşmə sosial-mədəni şəraitdə hərc-mərcliyə, sosial sistemin tənəzzülünün idarə edilə bilməyən prosesinə gətirib çıxarır. Qərb mütəxəssislərinin fikrincə, həyat keyfiyyəti və səviyyəsi adətən illik ümumi məhsulun adambaşına 9-10 min dollar həcmində xərclənməsi ilə ölçülür.

Gücləndirilmiş model çərçivəsində modernləşmənin ikinci problemi inkişaf etmiş mədəni ənənələrin mövcudluğundan ibarətdir. Bu problemin həlli modernləşmənin bəzi sivil zəminlərinin olmaması ilə bazar və rəqabət şəraitində daim baş verən dəyişiklikləri tarazlaşdırmağa qadirdir.

Bazar münasibətlərinin özünün təşəkkülü üçün hər şeydən əvvəl, modernləşmə prosesinə **mədəni-dini** mühitin təsiri zəruridir. Bu, onunla bağlıdır ki, bazarın qeyri-iqtisadi təşkili formasına keçid ənənəvi (kollektivçi-korporativ) dəyərlər sistemindən fərdi, sahibkarlıq dəyərlər sisteminə keçilməsini ifadə edir.

Bazar iqtisadiyyatı öz-özünü inkişaf etdirməsi ilə səciyyələnir, onun əsasını müstəqil və mülki məsuliyyət daşıyan təsərrüfatçılıq subyektlərinin müqavilə münasibətləri təşkil edir. Bu münasibətlər müxtəlif mədəni-dini sistemlərə spesifik iqtisadi tiplər bəxş edən etnik dəyərlər bazasında yaradılır.

Modernləşmənin ideal variantı **Skandinaviya modelidir**. Bu model iqtisadi və siyasi modernləşmənin paralel həyata keçirilməsi üçün sürətli dəyişikliklər zəmini yaratdı.

Başqa sözlə, məzmunu bazar münasibətlərinin təşəkkülündən ibarət olan nümayəndəli mənafelər sisteminin inkişafını formalaşdırdı. Konkret ölkədə modernləşmənin forma və mexanizmləri cəmiyyətin mədəni-tarixi və sosial-iqtisadi yetkinliyindən çıxış edərək müəyyənləşdirilməlidir. Şimali Avropa ölkələrində demokratiyaya doğru irəliləyiş bazar infrastrukturunun yaradılması ilə eyni vaxtda baş vermişdir. Şimali Avropa ölkələri kontenental Avropa ilə müqayisədə modernləşməyə daha gec vaxtda başlasa da, son 180 il ərzində müasir cəmiyyətə transformasiya olunmuşdur. Buna **protestant etikası** imkan yaratmışdır.

VI BÖLMƏ
Siyasi fəaliyyət texnoloji və empirik-tətbiqi siyasi biliklər kontekstində

I FƏSİL
Siyasi texnologiyalar

1. Siyasi texnologiya anlayışı: mahiyyəti, fərqləndirici cəhətləri, strukturu

Siyasi menecment siyasi hadisələri, prosesləri səmərəli idarə etmək nəzəriyyəsi və praktikası olmaqla, siyasi həyatın bu və ya digər iştirakçılarının müəyyən siyasi mənafelərinin reallaşmasına oriyentasiyadır.

Siyasi hakimiyyət politoloqların köməyilə siyasi həyata və proseslərə təsir etmək imkanlarını dərk etməyə və siyasi idarəetmə (menecment) metodlarını, üsullarını, vasitələrini işləyib hazırlamağa cəhd edir.

"**Menecment**" termini (ingilis dilində manaqement, manaqe sözlərindən götürülüb idarə etmək deməkdir) hər şeydən əvvəl, iri müəssisələrdə, istehsalda, konsernlərdə idarəetmə sistemini ifadə edən termin kimi tətbiq olunur. Qərb siyasi elmində tədricən "dövlət menecmenti" və "siyasi menecment" anlayışları qərarlaşdı. Bu terminlər indi postsovet məkanına aid olan ölkələrdə də siyasi söz ehtiyatına daxil edilmişdir.

Siyasi menecmentə elə texnoloji yarımsistem daxildir ki, bundan istifadə etməklə, müəyyən siyasi məqsədlərin əldə olunması üçün konkret texnologiyaların kombinasiyalarını seçib götürmək olar. Texnoloji nöqteyi-nəzərdən siyasi menecment prosedurların (qaydaların), vərdişlərin və üsulların məcmuudur. Hər bir texnologiya (texnologiya iki söz birləşməsindən əmələ gəlib: yunan dilində techne – ustalıq, bacarıq və logas – anlayış, təlim deməkdir) əməyin predmetinin maddi, energetik və informasiya strukturuna təsir üsullarının və metodlarının məcmuudur. Sosial texnologiya

sosial və siyasi məsələlərin hazırlanması və reallaşması gedişində tələb olunur. Texnologiya vərdişlərə və biliklərə yiyələnən müəyyən subyektlərin fəaliyyəti ilə bağlıdır. Belə subyektlərsiz texnologiya həyatilik kəsb etmir. Siyasi menecment texnologiyası özündə müəyyən idarəetmə prosesduralarını, eləcə də idarəetmənin müvafiq vərdişlər toplusunu və üsullarını əks etdirir. Texnologiya siyasi menecmentin başlıca məcmuudur. Siyasi menecmentin məqsədinin həyata keçirilməsinin hər bir mərhələsində texnologiyanın elementlərinin dəyərli (bəyənilən) əlaqələndirilməsi tətbiq olunur.

Siyasi texnologiyaların mahiyyətinin müəyyənləşdirilməsində müxtəlif mövqelər mövcuddur. Belə mövqelərdən birinə görə, siyasi texnologiya zəruri siyasi nəticələrin əldə olunmasına istiqamətlənən ardıcıl, aşkar nəzərə çarpan effektli fəaliyyətlərin məcmuudur (sistemidir)[1].

Siyasi ensiklopediyada (1999-cu ildə Moskvada çap edilən) başlıca diqqət belə bir cəhətə vurğulanır ki, siyasi texnologiya siyasi problemlərin həlli, siyasətin işlənib hazırlanması, onun reallaşması, praktiki siyasi fəaliyyətin həyata keçirilməsi metodudur, siyasət sferasında obyektin yenidən dəyişdirilməsinə (vəziyyətin dəyişilməsinə), nəzərdə tutulan nəticənin (məqsədin) əldə edilməsinə istiqamətlənən üsulların məcmuudur[2].

Digər nöqteyi-nəzərə görə, siyasi texnologiya müəyyən vaxtda və müəyyən zamanda konkret subyektin məqsəd və vəzifələrinin daha effektli reallaşmasına istiqamətlənən və ardıcıl tətbiq olunan proseduranın, yolların və fəaliyyət üsulunun məcmuudur[3].

Konkret problemin həlli insanın ona nail olmasının məqsəd və vasitəsini başa düşməsindən çox, praktikada təcəssümünün konkret üsullarını işləyib hazırlamasını ifadə edir, başqa sözlə, məsələnin həlli üçün müəyyən **texno-**

---

[1] Bax: Основы политологии. Курс лекций / Под ред. Р.Г. Яновского. М., 1991, с. 21

[2] Bax: Политическая энциклопедия: Б 2. М., 1999, т. 2. С. 497

[3] Bax: Соловьев А.И. Политология. С. 415

logiyanın tətbiqini nəzərdə tutur. Məhz buna görə, texnologiyanın köməyilə hakimiyyətin yeni mənası və mahiyyəti üzə çıxarılır. Texnologiya siyasi hadisələrin ölçüsü problemini yeni tərzdə təzahür etdirir, siyasi hadisələrin tənzimlənməsi (nəzarəti) məqsədilə ixtisaslaşmış fəaliyyətin əsasını möhkəmləndirir. Siyasi texnologiya insanların fəaliyyətini, sistemin təşkilini nizamlayır və buna görə də əlverişli siyasi məsələlərin həlli üçün çoxtərəfli istifadə oluna bilər. Siyasi texnologiyadan istifadə edilməsinin subyektləri siyasi elita, liderlər, partiyalar, ictimai təşkilatlar hesab olunur. Təsiretmə obyekti insanların sosial qruplarının siyasi şüuru və davranışıdır. **Siyasi texnologiyanın reallaşmasının başlıca vasitəsi** kütləvi informasiya vasitələri və politoloji (siyasi) tədqiqatların müxtəlif mərkəzləridir. Cəmiyyətin siyasi həyatının fəaliyyət şəraitinin təhlili göstərir ki, siyasi proseslərin texnologiyalaşmasının mahiyyəti siyasi sistemin potensialının üzə çıxarılması və istifadəsi prosesində açıqlana bilər. Bu isə siyasi təsir metodlarının, üsullarının məcmuunun köməyilə, siyasi sistemin optimal fəaliyyəti məqsədlərinə xidmət edir. Siyasi texnologiya cəmiyyətin həyat fəaliyyətinə əlverişli şərait yaratmaq məqsədilə aşağıdakıları özündə ifadə edir: Siyasi məkanın diaqnozunun məqsədini, məzmununu, vasitələrini, nəzarəti, tənzimlənməsini, meyarlarını, mərhələlərini, metodu və formasını, siyasi hadisələrin tənzimlənməsinin daha effektli üsullarını və s.

Siyasi texnologiyanın məzmun etibarilə, özündə əks etdirdiyinə aiddir:

- siyasi reklam və marketinq;
- reklam xidməti bazarı, bunun başlıca sferaları, televiziya, mətbuat, radio, xarici reklam, poliqrafiya məhsulları;
- siyasi məsləhət (məsləhətləşmə).

Siyasi texnologiyanın tətbiqinin başlıca ruhu müxtəlif subyektlərin öz vəzifə və borclarının yerinə yetirilməsini optimallaşdırmaqdan ibarətdir. Funksional baxımdan texnologiya subyektin mənafeyinə, funksiyasına və məqsədinə müvafiq olaraq, məqsədlərin əldə olunmasına istiqamətlə-

nir. Siyasi texnologiya məqsədyönlü fəaliyyətin üsul və prosedurlarının məcmuu olmaq etibarilə, yalnız məqsədin əldə edilməsi vasitəsini qaydaya salmır və eləcə də fəaliyyətin ardıcıllığını, **subyektin davranışının müvafiq** alqoritminin işlənib hazırlanmasını möhkəmləndirir. Məhz alqoritmlər bu və ya digər məsələnin daha optimal və effektli həlli üsuluna, möhkəm mənimsənilən təcrübənin verilməsi və yayılmasına imkan yaradır. Mahiyyət etibarilə, alqoritmlər subyektlərin tətbiq etdikləri üsul və prosedurların səmərəliləşdirilməsini, sadələşdirilməsini və standartlaşdırılmasını səciyyələndirir. Beləliklə, texnologiyanı **ayrıca** mexanizmlə, texnika və qarşılıqlı fəaliyyət üsulu ilə qarışdırmaq olmaz. Texnologiya real surətdə fəaliyyət göstərən subyektin konkret məqsədinin əldə olunmasına istiqamətlənən texnikanın tətbiqi prosesidir və bu fəaliyyətin nəticəsidir.

Siyasi texnologiyanın xarakteri və xüsusiyyətləri texnologiyalaşmanın öz obyektinin daxili təbiəti ilə şərtlənir. Texnologiyalaşma prosesi aşağıdakılarla səciyyələnir:

- siyasi hadisələrin həddinin müəyyənləşdirilməsi, mərhələlərə, fazalara ayrılması;
- proqnozlaşdırılan nəticələrin əldə olunmasına istiqamətlənən fəaliyyətin əlaqələndirilməsi və mərhələli olması;
- prosedur və əməliyyatların yerinə yetirilməsinin birmənalılığı.

Siyasi texnologiyanın işlənib hazırlanması sistemi özündə üç mərhələni əks etdirir:

- nəzəri;
- metodik;
- proseduralı.

Siyasi texnologiya bu gün yeni və siyasi həyatın bütün sferalarında məqsədə çatmaq üçün hələ tamamilə öyrənilməyən üsuldur.

Siyasi texnologiyanın cəmiyyətə tətbiqi hər bir yeni proses üçün səciyyəvi olan problemlərlə toqquşur. Siyasi texnologiyanın effektliyi üçün aşağıdakılar hökmən zəruridir:

- onun elmi tutumunun fasiləsiz artması;

- cəmiyyətdə və iqtisadiyyatda böhran şəraitinin aradan qaldırılması;

- siyasi hadisələrin idarə olunmasında real iştirak edən mütəxəssislərin – siyasi texnoloqların mövcudluğu;

- cəmiyyətin intellektual fəaliyyətə malik olanlara münasibətinin dəyişməsi, antiintellektuallığın aradan qaldırılması.

Bütün hallarda texnologiyanın tətbiqinin effektivliyinin yüksək meyarı nəzərdə tutulan nəticənin real əldə olunmasıdır. Lakin texnologiyanın effektivliyinin qiymətləndirilməsi son dərəcə cəsarət tələb edir, çünki o, hakimiyyətin real mexanizmi və idarəetmə haqqında düzgün informasiyanın alınmasına istiqamətlənir. Siyasi hakimiyyət sferasında çox mühüm və xeyli resursların yenidən bölüşdürülməsini nəzərə alaraq, bu prosesə cəlb edilən adamlar (struktur, təsisat) qəbul olunan müvafiq qərarlar və tətbiq edilən texnologiyalar haqqında zəruri informasiyanı gizli saxlamalıdırlar. Buna görə, həmin informasiya son dərəcə qiymətlidir.

Siyasi texnologiya siyasi hakimiyyətin və dövlət idarəçiliyinin əhatə etdiyi bütün sahələrdə yayılır. Texnologiya tətbiq edildiyi yerə və zamana görə, məhdud xarakterə malikdir. Texnikanın, fəaliyyətin üsul və vasitələrinin (qaydalarının) konkret əlaqələndirilməsinin "daxili vaxtı" mövcuddur. Lakin situasiyanın məkan-zaman parametrinə əsaslanmasına baxmayaraq, texnologiya həmin asılılığı aradan qaldırmaq mexanizminə malikdir. Başqa sözlə, texnologiyada həmişə subyektin yaradıcılığına, improvizasiyasına, standart olmayan fəaliyyətinə yer vardır.

Siyasi texnologiyalarda ənənəvi və yaradıcı fəaliyyətin vəhdəti öz əksini tapır. Onlar müəyyən sinfin (tipin) vəzifələrini (məsələlərini) həll etmək üçün yaradılır və fəaliyyətin müəyyən növünü, məcmuunu və keyfiyyətini nəzərdə tutur. Bir sözlə, siyasi texnologiya praktiki siyasi problemlərin həlli, konkret nəticələrin əldə edilməsi ilə bilavasitə bağlı olan xüsusi fəaliyyət formasıdır. Onların spesifikliyi aşağıdakıların mövcudluğunda təzahür edir:

- sosial-siyasi layihənin əsaslandırılması;
- verilmiş alqoritmin məsələlərin həlli prosesində və nəticələrin əldə olunmasında ardıcıl fəaliyyəti;
- əldə olunmuş təcrübənin həyata keçirilməsi bazasında fəaliyyət standartı, göstərilən fəaliyyət prosedurları;
- siyasi texnologiyaların sabit struktur komponentləri (əsaslandırılmış layihə, onun həyata keçirilməsi alqoritmi, praktiki siyasi məsələlərin həlli gedişinin, prosesinin və nəticələrinin qiymətləndirilməsi).

Siyasi texnologiya sözün müəyyən mənasında praktiki siyasi məsələlərin həlli üçün mükəmməd fəaliyyət sistemidir, eyni zamanda o, inkişaf etməkdə olan sistemdir, başqa sözlə, real təcəssümü prosesində yeni əməliyyatlarla zənginləşir, çünki siyasi həyatda fasiləsiz dəyişikliklər baş verir.

Siyasi texnologiya bir tərəfdən, nəzəriyyə ilə metodologiya arasında, digər tərəfdən nəzəriyyə ilə praktika arasında əlaqələndirici həlqədir. Siyasi məkanın konkret səviyyəsinin texnologiyalaşması modeli özündə bunları birləşdirir: mühiti (siyasi fəaliyyəti), şəxsiyyətin özünü realizasiyası, siyasi şəraitin effektliyinə, keyfiyyətinə imkan yaradan amillər və şərait. Siyasi proseslərin texnologiyalaşması bəşəriyyətin informasiya cəmiyyətinə doğru irəliləyişi gedişində daha da artacaq. Onun başlıca vəzifələrindən biri elmin qabaqlayıcı inkişafından, cəmiyyətin mənəvi-əxlaqi potensialının saxlanması yolunun nəzəri cəhətdən əsaslandırılmasından, insanlar, millətlər, dövlətlər arasındakı münasibətləri humanist prinsiplər əsasında qorumaqdan ibarətdir.

Siyasi texnologiya nəinki siyasi həyatı dərk etməyə, eləcə də ona məqsədyönlü təsir göstərməyə imkan verir. XXI əsr yalnız cəmiyyətin vəziyyətini diaqnozlaşdıran yeni idraki xarakterli konseptual metodların işlənib hazırlanması zərurətini deyil, həmçinin, ictimai inkişafı proqnozlar əsasında görən əməli dəyişdirici funksiyaların müəyyənləşdirilməsini ön plana çəkir.

Siyasi texnologiyaların mahiyyəti və məzmununun dolğun, əhatəli açıqlanması, həm də onun **strukturunun**

müəyyənləşdirilməsi ilə şərtlənir. Siyasi txnologiyaların strukturuna bir qayda olaraq, üç daha əhəmiyyətli komponent daxildir: spesifik **biliklər**; konkret **üsullar**, proseduralar və fəaliyyət metodikası; **texniki resurslar**. Bu komponentlərdən əlavə, siyasi texnologiyanın strukturu daha üç elementlə səciyyələnir: verilmiş alqoritm, fəaliyyət standartı, əməliyyatların ardıcıllığı.

Siyasi texnologiyanın strukturunda **biliklər** prinsipial rol oynayır. Bu onunla şərtlənir ki, siyasi texnologiya öz mahiyyəti etibarilə, gerçəkliyin xüsusi formada əks etdirilməsinin təcəssümüdür və hakimiyyət sferasında və dövlət idarəçiliyində yaranan problemin praktiki həllinin vasitə və üsullarının tapılmasına istiqamətlənir. Bu mənada gerçəkliyin dərk olunmasının texnoloji səviyyəsi nəinki **elmi-tətbiqi** biliklər forması kimi səciyyələnir və eyni zamanda, siyasi problemlərin qiymətləndirilməsini ifadə edir (subyektlərin onların həllində maraqlı olması nöqteyi-nəzərdən).

Beləliklə, texnoloji biliklər idraki-layihələşdirici, idealdəyişdirici mahiyyət daşımaqla, özündə gerçəkliyin nəinki adi, eləcə də elmi səviyyədə dərk olunmasını əks etdirir. Bu, texnoloji biliyə hadisələri məntiqi əks etdirməyə və aydınlaşdırmağa imkan verir, qeyd edək ki, bu cəhət nə elmi əks etdirmə formasına, nə də ayrılıqda adi səviyyədə (adi şüur səviyyəsində) yanaşmağa xas deyildir.

Elmi şüur hadisəni ideallaşdırdığı halda, texniki biliklər məntiqi obyekti konkretləşdirir. Əgər elmi şüur praktikaya-universuma müraciət edirsə, texnoloji əks etdirmə gerçəkliyin ayrıca fraqmentinə (hissəsinə) üz tutur.

Texnoloji bilik hər bir hadisəyə gerçəkliyin nə isə bir hissəsi (fəaliyyətin xüsusi məntiqinə yiyələnən), inkişafın mənbəyi kimi diqqət yetirir. Beləliklə, texnoloji biliyin məzmunu (texnoloji struktur) hadisəni əks etdirənin (texnoloq, analitik), mövcud situasiya ilə bağlı olan problemin həllinin konkret məqsədini müəyyənləşdirənin **(sifarişçinin)**, eləcə də məsələnin həlli mərhələsində fəaliyyət göstərənin **(icraçı)** mövqeyi əsasında formalaşır.

Situasiyanın texnoloji qiymətləndirilməsi, həm də xüsusi işarə (semantik) strukturu formalaşdırır. Texnoloji bilik semantik strukturun daha azad qaydada təşəkkülünə əsaslanır və daha oynaq dilə, işarə strukturlarına əsaslanması ilə səciyyələnir.

Texnologiyalaşmanın struktur modeli belə təzahür edir:

- siyasi texnologiya həll edilən məsələlərin xarakterinə görə ayrı və universal ola bilər;
- siyasi texnologiya assosiasiya yaratmaq dərəcəsinə görə, bütövlükdə cəmiyyətdə millətlər, milli-etnik qruplar, partiyalar, asssosiasiyalar və birliklərlə fərqlənir;
- idarəetmə iyerarxiyası nöqteyi-nəzərdən qlobal dünya, kontinental, dövlət, regional texnologiya fərqləndirilir;
- siyasi obyektlərin və subyektlərin yetkinliyinin yüksək, orta və aşağı dərəcəsi siyasi məkanın texnologiyalaşmasına spesifik yanaşmağı tələb edir.

Nəzərə çatdırılan modeldən göründüyü kimi, belə texnologiyanı təşkil edən elementlər toplusu çox böyükdür və buna görə yeniliklər əsasında daimi korreksiyanı (bir-birindən asılılığı) tələb edir.

2. Siyasi texnologiyalar: tipləri, istifadə olunması xüsusiyyətləri, formalaşması

Politoloji ədəbiyyatda qeyd olunan belə bir ədalətli fikrə haqq qazandırmaq olar ki, sosial-siyasi proseslərin müasir analitiki onları dərk etməyə cəhd edərkən çox vaxt siyasi texnologiyalar sahəsində etibarlı metodoloji vasitələrə malik olmur. Sosial idrakın vahid bazis-üstqurum determinizminə əsaslanan əvvəlki nəzəri və metodoloji bilikləri artıq müasir cəmiyyətdə öz əhəmiyyətini itirib. Bununla belə, müasir siyasi həyat müxtəlif determinatların mövcudluğu ilə diqqəti cəlb edir. Dünyada hələlik, iqtisadiyyatın üstünlüyü ilə bağlı olan siyasət tipləri qalmaqdadır.

Siyasi texnologiya nəinki universal və eləcə də tipik

xüsusiyyətlərə malikdir. Onun ən geniş yayılan tipi **funksional** tipdir. Bu tip idarəetmənin və hakimiyyətin müxtəlif subyektlərinin rol oynamaq işinin (məsələn, qərarların qəbulu, mənafelərin uyğunlaşdırılması, danışıqlar aparılması, ictimaiyyətlə əlaqə və s.) rasionallaşdırılmasını və alqoritmləşdirilməsini nəzərdə tutur. **İnstrumental** siyasi texnologiya tipi konkret fəaliyyətin rasionallaşdırılmasına istiqamətlənməklə, texnikanın tətbiqini təqlid edir, lakin tamamilə digər məqsədlər güdür və onları ört-basdır edir. Məqsədə nail olmaq üçün, bu və ya digər üsulun tətbiq edildiyi sahə nöqteyi-nəzərdən **predmet** texnologiyaları da mövcuddur (məsələn, elektoral, kompüter və informasiya texnologiyaları, diplomatik və hərbi sferalarda istifadə olunan danışıqlar, üsullar və proseduralar). Aydındır ki, texnologiyanın spesifik xüsusiyyətlərinin qiymətləndirilməsinə belə yanaşma yalnız hakimiyyət səlahiyyətlərinin qarşılıqlı fəaliyyət sahəsini müəyyənləşdirməyə imkan vermir, düzdür, texnologiyalaşma (xüsusilə, hakimiyyət orqanlarına seçkilər) daha çox və ya daha az dərəcədə həmin sahə ilə bağlıdır. Bu mənada, hətta elə qarşılıqlı siyasi fəaliyyətin mövcudluğunu müəyyən etmək olar ki, o, prinsip etibarilə, hər hansı texnologiyalaşmağa məruz qalmır. Məsələn, dövlət səviyyəsində qərarların işlənib hazırlanması prosesində mənafelərin qeyri-formal uyğunlaşdırılması buna misal ola bilər. Bu yanaşma siyasətin və dövlət idarəçiliyinin bu və ya digər sahələrində qərarların həlli zamanı müxtəlif texniki üsulların qovuşması zonasını görməyə kömək edir.

Haqqında mülahizələr yürütdüyümüz texnologiya tiplərilə **çoxsəviyyəli** texnologiya sıx bağlıdır. O, perdmetli sahələrin sosial təşkili dərəcəsini əks etdirir. Çoxsəviyyəli texnologiyaya aid etmək olar: **qlobal səviyyə**, ümumdünya problemləri ilə (təbiətin mühafizəsi, beynəlxalq təhlükəsizliyin qorunması və s.) bağlı olan, kontinental-regional, dövlətlərin, eləcə də Yaxın Şərq, Avropa və ya hər hansı digər regionun problemlərinin həlli ilə əlaqədar beynəlxalq təşkilatların və təsisatların fəaliyyətinin spesifikliyini açıqlayan, **milli-**

dövlət, bir ölkə çərçivəsində hakimiyyətin və dövlət idarəçiliyinin həyata keçirilməsi prosesini səciyyələndirən, **korporativ**, ayrıca təşkilat çərçivəsində hakimiyyət-idarəetmə münasibətlərinin əks etdirilməsi, **lokal**, siyasi məkanın məhdudlaşdırılmış nöqtəsində subyektlərin fəaliyyət münasibətlərinin spesifikliyini müəyyən edən, eləcə də şəxsiyyətlərarası[1].

Müəyyən fəaliyyət üsullarından istifadə olunmasının ardıcıllığı xarakterindən çıxış edərək, eləcə də aşağıdakı texnologiyalar fərqləndirilir: **strateji**, aktorun fəaliyyətinin nəticələrindən uzaqlara yönələn; **taktiki**, qısamüddətli məqsədlərin reallaşmasını nəzərdə tutan, **təsadüfi**, birdəfəlik tətbiq edilən və **dövri**, subyektin fəaliyyət strukturunda daim təkrar istehsal edilən.

Unikal texnologiyalar da maraq doğurur. O, fəaliyyət siyahısı kimi səciyyələnməklə, yalnız müəyyən, sərt müəyyənləşdirilən şəraitdə tətbiq olunur. Unikal texnologiya bu və ya digər məqsədlərin məhz bir dəfə təmin olunması üçün tətbiq edilir. Qeyd edək ki, ayrıca "diplomatik" texnologiyadan dövlətlərarası danışıqların aparılması prosesində dəfələrlə istifadə edilə bilər, lakin seçki kampaniyasının daha əhəmiyyətli üsul və texnikası heç bir məhdudiyyət qoyulmadan müxtəlif səviyyəli seçkilərdə tətbiq olunur (hansı ölkə olmasından asılı olmayaraq). Millətlərarası ziddiyyətlərin tənzimlənməsi üçün son dərəcə özünəməxsus etibarlı üsul və vasitələrdən istifadə edilməlidir. Çünki milli münasibətlər sosiumun ən mürəkkəb və spesifik kompanentidir. **Sərt və mülayim** texnologiyalar da mövcuddur. Onlar çox vaxt hakimiyyət idarələrilə təsisatları arasında mənafelərin uyğunlaşdırılmasının hüquqi və prosedur qaydalarını təmin edir.

Müasir şəraitdə **siyasi texnologiyalarla** bağlı diqqəti cəlb edən vacib məsələlərdən digəri isə onlardan **istifadə olunması xüsusiyyətləridir**.

Bu gün siyasi texnologiyalar **səmərəli fəaliyyətin effektli vasitələridir**. Onlar cəmiyyət həyatının bütün siyasi sfera-

[1] Ətraflı bax: Соловьев А.И. Политология. С. 424

sını əhatə etməklə, siyasi fəaliyyətdə xeyli geniş tətbiq edilir. Texnologiyanın özü isə aşağıdakılara istiqamətlənir:

- dövlətçilik sahəsində və idarəetmədə islahatlar aparılması;
- effektli siyasi hakimiyətin formalaşmasına və fəaliyyəti (dövlət hakimiyyətinin vertikal və horizontal xətt üzrə möhkəmləndirilməsi texnologiyası);
- KİV vasitəsilə kütləvi şüurun manipulyasiyası (müxtəlif üsullarla təsirə məruz qalması);
- seçki kampaniyalarının idarə edilməsi;
- siyasi xadimlərin, ictimai-siyasi təşkilatların və digərlərinin imicinin formalaşması. Bu məsələdə texnologiya həm yaradıcı və eləcə də dağıdıcı rol oynaya bilər.

Məlum olduğu kimi, siyasi tədqiqatlarda **müxtəlif siyasi texnologiyalardan istifadə edilir**: qərarların qəbul olunması, münaqişələrin idarə edilməsi texnologiyaları, seçki kampaniyalarının siyasi texnologiyası, informasiya texnologiyası. Siyasi prosesin texnologiyalılığı siyasi biliklərin, elmi metodların tətbiqindən, metodikanın işlənib hazırlanmasından asılıdır. Siyasi texnologiyalardan geniş istifadə edilən metodikalar işlənib hazırlanmışdır: mətn informasiyasının tətbiqi təhlili, ekspertin qiymətləndirilməsi, riyazi metodlar, situasiyanın təhlili, seçki kampaniyasının planlaşdırılması, imicin formalaşması metodikası, marketinq metodikası, oyun texnikası metodikası və s. Siyasi texnologiyalarda müxtəlif resurslar tətbiq olunur: elektoral və qeyri-elektoral, təşkilati, hüquqi, inzibati, informasiya, fəal. Buna müvafiq olaraq, siyasi texnologiyaların təsnifatını belə müəyyənləşdirmək olar: elektoral, qeyri-elektoral, təşkilati, hüquqi, inzibati, səfərbəredici, inteqrativ və s.

D.İ.Vıdrinin sözləri ilə desək, antitexnologiyanı da bilmək zəruridir. Məsələ ondadır ki, politoloqların və siyasi texnoloqların əksəriyyəti antitexnologiyadan hər cür istifadə edirlər (xüsusilə, seçki kampaniyalarında). Onların bəzi tədbirlərdə tətbiqi labüddür. Hər bir siyasi texnoloq manipulyasiyanı, uydurmanı, mifdən, anlayışın məntiqi dəyişdi-

rilməsindən istifadə edilməsini bu və ya başqa cür tətbiq edə bilər.

Antitexnologiyanı, onların tətbiqi həddini bilmək politoloqlar üçün zəruridir. Belə halda onlar situasiyaya daha yaxşı oriyentasiya edə bilərlər, lazım gəldikdə "çirkin" texnologiyaya qarşı çıxmaqla, opponentlərin neqativ informasiya hücumlarını dəf etməyə qadir olarlar.

Siyasi proseslərdə psixoloji müharibə antitexnologiyası - seçicilərə, opponentlərə, əleyhidara qarşı inforasiya və psixoloji təzyiq tədbirləri və üsulları sistemi tətbiq edilir. Xüsusilə, "neqativ informasiya dalğası", təzyiq hərəkətləri nümayiş etdirilir (konkret şəxslərə və ya təşkilatlara qarşı sanksiya tətbiq etmək təhlükəsi yaradılır). Bütün belə texnologiyalar opponentlərin əxlaqi ruhunun zəiflədilməsinə, onların nüfuzdan düşməsinə, fəaliyyətlərini hörmətdən salmağa, seçiciləri və bu və ya digər real namizədin tərəfdarlarını çaşdırmağa istiqamətlənir.

Siyasi texnologiya adətən, müəyyən siyasi strategiyalar çərçivəsində qaydaya salınır. Məsələn, seçkilərdə xeyli seçki texnologiyası müəyyən namizədin və ya siyasi partiyanın mövqeyini əks etdirən strategiya ətrafında birləşirlər. Belə mövqe texnologiyanın müəyyən eksklüziv "siyasi sahəyə" tətbiqini nəzərdə tutur. Bu cür halda namizəd (partiya) və müvafiq komanda daha rahat və effektli fəaliyyət göstərə bilər. Mövqeləşmə ona görə zəruridir ki, namizədin bütün üstünlükləri ilə birlikdə pozitiv obrazının təsdiqlənməsi mümkün olsun.

Bu obraz siyasi texnoloqun fəaliyyətinin özünəməxsus "məhsuludur", çünki digər namizədin rəqabətli mövqeyinin aradan qaldırılmasına istiqamətlənir. Seçicilərin öz səsini üstün mövqeyə malik olan namizədə verməsi üçün, onun haqqında ideyalar məcmuunun və informasiya "paketinin" (bağlı məktubun) yaradılması və irəli sürülməsi tətbiq olunur. Həmin ideyaları və informasiya toplusunu seçicilərin (elektoral "bazarın seqmenti") konkret təbəqəsi və ya qrupu əldə edə bilər (çünki texnologiyadır). İnformasiya maksi-

mum sadə və mənalı olmalıdır, eləcə də əldə olunmuş mövqe ardıcıllıqla ifadə edilməlidir (müəyyən müddət ərzində).

Son nəticədə siyasi texnologiya bir neçə səviyyədən ibarət olan sistem yaradır: hakimiyyətin fəaliyyətində strateji, operativ-taktiki, əməliyyat xarakterli; hakimiyyətin fəaliyyəti üzərində xalqın nəzarəti; dövlət hakimiyyəti orqanlarına demokratik seçkilərin keçirilməsi, eləcə də yerli özünüidarə orqanlarında konkret seçki kampaniyası texnologiyasının tətbiqi. Texnologiya sistemi uzun müddətli, qısa müddətli taktika və strategiyanın hesaba alınmasını nəzərdə tutur. Siyasi texnologiyaların effektliyi sistemi bu gün başlıca meyara-dövlət idarəçiliyində əldə edilən müvafiq məqsədlərə, ictimai inkişafın tələbatına cavab verməlidir. Buna görə, dövlət hakimiyyəti ilə cəmiyyətin mənafelərinin tarazlığının əldə edilməsində siyasi texnologiyalardan istifadə olunması xeyli əhəmiyyətə malikdir. Bir sözlə, siyasi texnologiyaların köməyilə siyasi hakimiyyətin özü daha sivil sima kəsb edir.

Siyasi texnologiyanın işlənib hazırlanması və tətbiqinin mahiyyəti subyektlərin müəyyən vəzifələri yerinə yetirmələri çərçivəsində, onların məqsədyönlü fəaliyyətinin daimi rasionallaşdırılması və optimallaşdırılmasından ibarətdir. Son nəticədə onlar siyasi dəyişikliklərin bu və ya digər sahələrində həmin subyektlərin nəzarəti və idarəçilik imkanlarını genişləndirir. Siyasi texnologiyanın formalaşması və fəaliyyəti prosesini **struktur, məkan-zaman və prosessual** nöqteyi-nəzərdən açıqlamaq olar. **Struktur yanaşma** problem haqqında biliklərin üzə çıxarılmasını, onun həllinin optimal texnikasının axtarışını və texniki təminatını nəzərdə tutur. **Məkan-zaman** baxımından yanaşma tətbiq olunan vasitələrin problemin həll olunduğu yer və vaxtla uyğunlaşdırılmasının zəruridiyini ifadə edir. **Prosessual yanaşma (metod)** isə məqsədə nail olmağın ayrı-ayrı parametrlərinin formalaşmasının əhəmiyyətini və şəraitini açıqlayır.

Texnologiya bütövlükdə məhdud sayda situasiyaya (obyektlər dərəcəsinə) tətbiq edilə bilməsi baxımdan işlənib

hazırlana bilər, özü də hər şeydən əvvəl, unikal və daha çox yayılmış situasiyaya. Lakin texnologiya idarə edən strukturlar tərəfindən də təklif oluna bilər, eləcə də subyektin təcrübəsinin ümumiləşdirilməsi və rasionallaşdırılması nəticəsində də formalaşa bilər.

Politoloji ədəbiyyatda texnologiyanın formalaşmasının iki başlıca üsulu nəzərə çatdırılır: **subyektiv və analitik**. Birinci üsul əsasən, **subyektiv** (volyuntarist) metod və sağlam fikrin optimal ardıcıl fəaliyyəti standartının, subyektin təcrübəsinin və intuisiyasının, rəğbətinin, mədəni stereotiplərinin və vərdişlərinin və dünyagörüşünün digər fərdi xüsusiyyətlərinin birliyinə əsaslanır. Belə komponentlərsiz praktiki olaraq məqsədlər heç vaxt qiymətləndirilmir, onların əldə olunması resurslarının formalaşması yolları müəyyənləşdirilmir. Siyasi texnologiyanın formalaşmasının ikinci, **analitik** üsulu məqsədə nail olmağın başlıca parametrlərini və şəraitini müəyyənləşdirən xüsusi **analitik** metod və proseduralardan istifadə edilməsi ilə bağlıdır.

Texnologiyanın analitik tipinin formalaşması məzmun nöqteyi-nəzərindən aşağıdakıların qiymətləndirilməsini və xarakteristikasını nəzərdə tutur:

- konkret aktorlar;
- onların funksional – rol və şəxsiyyətlərarası qarşılıqlı münasibətlərinin xarakteri;
- fəaliyyətdə olan norma və reqlamentlər;
- siyasi qüvvələrin yerləşdirilməsi (aktorları müxtəlif siyasi məsələləri başa düşməsindən və həllindən asılı olaraq ideoloji mövqelərə və ya bloklara ayırmaq);
- daxili və xarici amillərin təsiri kontekstində konkret aksiyalar və interaksiyalar;
- fəaliyyətin məkan parametrləri (siyasi hadisələrin dərin və eninə başa çatdırılması) və müvəqqəti xarakteri;
- ətraf mühitin spesifikliyi;
- fəaliyyət göstərən şəxslərin resursları və potensialı.

Bir sözlə, siyasi texnologiyanın formalaşmasının situasiyalı – analitik üsulu bir sıra meyarların və ölçü sisteminin

ardıcıl tətbiqini nəzərdə tutur və bunların məcmuu situasiyanın strukturu və inkişaf meylləri barədə daha adekvat təsəvvür yaradır, bununla yanaşı, subyektin öz məqsədlərinə nail olması üçün fəaliyyətinin optimallaşmasına imkan yaradır.

3. Siyasi idarəetmə texnologiyası

Siyasi həyatda nəinki nəzəri yanaşmaları, konsepsiyaları, eləcə də siyasətin "hansı metodlarla, üsullarla", "hansı texnologiyaların köməyilə reallaşmasını" bilmək vacibdir.

Bu suallara konkret siyasi hadisələrin tədqiqi və proqnozlaşdırılması ilə məşğul olan tətbiqi və ya praktiki politologiya cavab verir. O, texnologiyanın köməyilə siyasi fəaliyyətin subyektinə nəzərdə tutduğu məqsədləri əldə etməyə imkan yaradır.

Tətbiqi politologiyanın üç səviyyəsini fərqləndirmək olar – tədqiqatın nəzəri və ya konseptual mövqeyinin formalaşdırılmasını nəzərdə tutan **metodoloji** səviyyə; ilk infomrasiyanın toplanmasını və işlənməsini müəyyənləşdirən **metodiki** səviyyə; siyasi həyatda bilavasitə iştirak etməklə bağlı olan **texnoloji** səviyyə.

"Siyasi texnologiya" və **"siyasətdə texnologiya"** kateqoriyalarını fərqləndirmək lazımdır. Sonuncu kateqoriyaya fəaliyyətin nəinki əsasən siyasi komponentlərini, həmçinin, təşkilati, diplomatik, hərbi, maliyyə, informasiya, psixoloji, kompüter və digər forma və metodlarını daxil etmək olar. Bunlar qarşıya qoyulan siyasi məqsədlərə nail olmağa istiqamətlənir. "Siyasi texnologiya" və "siyasətdə texnologiya" terminləri arasında praktikada dəqiq həddqoymaq bəzən tamamilə mürəkkəblik kəsb edir. Onlar bir-birinə nüfuz etməklə və biri digərini tamamlamaqla kompleks halda, eyni zamanda reallaşırlar. "Siyasi texnologiya" anlayışı barədə birinci yarımfəsildə geniş mülahizələr yürütdüyümüz üçün, onun haqqında fikrimizi davam etdirməyi məqsədəuyğun hesab etmirik. Siyasi texnologiya anlayışından çıxış edərək, siyasi idarəetmə texnologiyasının mahiyyətinin və xüsu-

siyyətlərinin şərhinə keçirik.

Qərb mütəxəssisləri – politoloqları "siyasi idarəetmə" terminino uzun müddət ehtiyatlı yanaşmışlar. Lakin son zamanlar bu terminə münasibət dəyişdi – "siyasi idarəetmə" (ingilis dilində "siyasi menecment" kimi səslənir) tədricən siyasi elmdə vətəndaşlıq hüququ əldə etdi. Bu terminin məzmunu da dəyişir. XX əsrin son onillikləri siyasi sferada bir sıra yeni meyllər doğurdu. Avtoritar cəmiyyətlərdə açıq şəkildə onların demokratikləşməsi nəzərə çarpır, sabit demokratiya cəmiyyətində inkişaf partisipar (iştirakçılıq) istiqamətdə konkret problemlərin həllində iştirakçılıq yönümündə baş verir.

Siyasi idarəetmə hər şeydən əvvəl, vətəndaşların idarəetmə prosesində, hakimiyyət-idarəetmə qərarlarının, siyasi kursun işlənib hazırlanması və reallaşması prosesində iştirakı, onların idarə edənlərin özlərinin bu prosesdə birbaşa və (və ya) dolayısı ilə seçilməsində iştirak etmələri kimi araşdırılır. Siyasi idarəetmədə, eləcə də sosial, etno-konfessional ərazi qrupları və birliklərinin, onların təşkilatlarının cəlb olunması, hakimiyyət strukturlarının fəaliyyətinə nəzarətin həyata keçirilməsi nəzərdən keçirilir.

Buna uyğun olaraq müəyyən idarəetmə proseduraları, idarəetmənin müvafiq vərdişləri və üsullarının cəmi formalaşır ki, bunların da məcmuu **siyasi idarəetmə** texnologiyasını təşkil edir. Siyasi idarəetmə texnologiyasını həm siyasi idarəetmə sənəti və eləcə də siyasi elmin sahələrindən (istiqamətlərindən) biri kimi səciyyələndirmək olar. Siyasi idarəetmə texnologiyası siyasi elmin istiqaməti kimi aşağıdakı konseptual yanaşmalardan birinə əsaslanır:

Birincisi – mürəkkəb təşkilatlar nəzəriyyəsi. Bu çərçivədə politoloqlar siyasi-dövlət təşkilatlarının strukturunun xüsusiyətlərini və idarəetmə qərarlarının, siyasi kursun işlənib hazırlanmasına təsirini üzə çıxarmağa cəhd edirlər.

İkincisi – qərarların və ya siyasi kursun (xəttin) reallaşmasının uğursuzluğu səbəblərinin üzə çıxarılması ilə bağlıdır.

Üçüncüsü – elmlərarası təsisatlı istiqamət. Bu, xüsusilə təşkilatlara aid sosioloji nəzəriyyələrdə səmərəli istifadə olunur. Həmin istiqamətin nümayəndələri idarəetmə təşkilatlarının müxtəlif səviyyələri və vahidləri arasında əlaqələndirmənin həyata keçirilməsini, idarəetmənin optimal mərkəzləşdirilməsi və decentralizasiyası (yerli idarəçilik) dərəcəsini, effektli idarəetmənin təşkilati şəraitini öyrənirlər.

Dördüncüsü – siyasi-iqtisadi istiqamət. Buraya marksist nəzəriyyə, siyasi inkişaf nəzəriyyəsi, korporativlik, resursların bölüşdürülməsi və digərləri aiddir. Onların hamısı dövlətin, cəmiyyətin və iqtisadiyyatın qarşılıqlı fəaliyyətinin müəyyən başa düşülməsindən çıxış edərək, bu və ya digər ictimai sahənin siyasi kursunu, ümumi idarə olunmasını tədqiq edirlər.

Beşincisi – bürokratiyanın və bürokratların siyasətinin öyrənilməsinə əsaslanır ("idarə edən" termini veberçilik mənasında istifadə olunur). Bu istiqamətin nümayəndələri yalnız bürokratların qərarları necə və nə üçün qəbul etdiklərini (eləcə də rasional seçki konsepsiyasından istifadə etməklə) deyil, həmçinin, bürokratlarla siyasətçilərin qarşılıqlı münasibətlərini (başqa sözlə, seçkili vəzifəli şəxsləri) öyrənirlər. Bundan əlavə, bütün siyasi qüvvələr şəbəkəsində bürokratların yerini üzə çıxarırlar.

Müasir cəmiyyətdə idarəetməni siyasətdən ayırmaq mümkün deyildir. Bununla belə, həmin əlaqə heç də birmənalı deyil. Onun məzmununu açıqlamaq üçün siyasi idarəetmənin daha spesifiklik kəsb etdiyini üzə çıxarmaq zəruridir.

Siyasi idarəetmə müxtəlif əks mövqelərə və hətta münaqişəli mənafelərə malik siyasi subyektlərin mövcudluğu ilə bağlıdır. Siyasi idarəetmədə belə bir reallıq dərk edilir ki, bu və ya digər qərarın və ya daxili və xarici siyasət kursunun qəbul olunması uğrunda mübarizə qərabətə gətirib çıxarır. Başqa sözlə, təşəkkül tapan siyasi – hakimiyyət münasibətləri, situasiyasının iştirakçıları bir qayda olaraq uyğun gəlməyən mənafelərə, məqsədlərə və resurslara malikdirlər.

Prosessual nöqteyi-nəzərdən siyasi-hakimiyyət (siyasi-

inzibati) idarəçiliyi oyun qaydalarının işlənib hazırlanması, idarəetmə qərarlarının və siyasət kursunun qəbul olunması, reallaşması, onların yerinə yetirilməsinə nəzarət yolu ilə baş verir.

Siyasi idarəetmə texnologiyasının daha çox inkişafı demokratik sistem şəraitində mümkündür. Burada vətəndaşlar idarəetmədə birbaşa və dolayı yol ilə iştirak edirlər. Birbaşa iştirakın ən kütləvi və ən eefktli forması seçkilər və referendumdur. Demokratiya şəraitində siyasi idarəetmə prosesinə ictimai rəy (sorğu vasitəsi ilə ifadə olunan), kütləvi informasiya vasitələri və siyasi iştirakçılığın (mitinqlər, nümayişlər, məktub göndərilməsi və s.) müxtəlif formaları birbaşa təsir göstərir.

Xalqın seçdiyi nümayəndələr, hər şeydən əvvəl isə deputatlar vətəndaşlarla idarəetmə strukturları arasında vasitəçi kimi çıxış edirlər. Həmin əlaqənin yaranmasında, həmçinin siyasi partiyalar, digər ictimai təşkilatlar və hərəkatlar az rol oynamırlar. Çünki onlar bütün başlıca təbəqə və qrupların mənafelərini təmsil edirlər.

Siyasi-inzibati idarəetmə texnologiyasını üç aspektdə təhlil etmək olar:

- **normativ** aspekt, başqa sözlə, siyasi – hakimiyyət münasibətləri subyektlərinin qarşılıqlı fəaliyyətinin sabit qaydalarının məcmuu kimi. Məsələn, seçkilərdə iştirak üçün mütləq bilmək lazımdır ki, təklif olunmuş seçki prosedurası vətəndaşların öz iradəsini həqiqətən ifadə etməsinə, hakimiyyətin nümayəndəli orqanlarının effektli fəaliyyətinin formalaşmasına nə dərəcədə imkan yaradır;

- resurs aspekti – subyektlərin özünün siyasi-hakimiyyət münasibətlərini reallaşdırması, imkanlar və resurslar nöqteyi-nəzərdən;

- dinamik aspekt – siyasi texnologiya statik deyil, inkişafda, bu və ya digər konkret siyasi-hakimiyyət qərarlarının (məsələn, mülkiyyətin özəlləşdirilməsi baxımından) işlənib hazırlanması, qəbulu, reallaşması və ona nəzarət prosesində öyrənilir.

Siyasi idarəetmə mexanizminin təşəkkülündə vətəndaş cəmiyyəti strukturunun kifayət qədər inkişafı, hər şeydən əvvəl isə kütləvi informasiya vasitələri, partiyalar xüsusi rol oynayırlar. Yeri gəlmişkən qeyd edək ki, postsovet rusiyasında mövcud qanunvericiliyə görə, deputatların yarısı partiya siyahısı üzrə seçilir. Totalitarizmin ilk vətəni olan (XX əsr) Rusiyada belə seçki mexanizminin mövcudluğu bu ölkədə demokratik tranzitin vacib əlaməti kimi dəyərləndirilə bilər. Bu cür demokratik seçim təəssüf ki, postsovet məkanındakı ölkələrin əksəriyyətində nəzərə çarpmır.

Cəmiyyətin sabitliyinin normal fəaliyyətinin təmin edilməsi üçün siyasi texnologiyalar, onların siyasi fəaliyyətin bütün subyektləri tərəfindən effektli tətbiqi çox vacibdir.

Siyasi idarəetmədə siyasi qərarların hazırlanması, qəbulu və reallaşması texnologiyası xüsusi əhəmiyyət kəsb edir. Qərar insanların fəaliyyətinin növü, siyasi idarəetmə prosesinin elementlərindən biri və siyasi prosesin ən əhəmiyyətli hissəsi kimi səciyyələnir. Onun öyrənilməsinə kompleks və sistemli yanaşmada bütün bu komponentləri nəzərə almaq olduqca vacibdir.

Politologiyada qərarın işlənib hazırlanması prosesinin başa düşülməsini ifadə edən iki başlıca yanaşma təşəkkül tapmışdır:

- **Normativ nəzəriyyə.** O, siyasi qərarı məqsədlərin işlənib hazırlanması, onun rasionallaşdırılması, sənədlərin işlənib hazırlanması və qəbulu üçün model kimi şərh edir.

- **Davranış nəzəriyyəsi.** Bu nəzəriyyə isə qərarların qəbulu prosesini insanların spesifik qarşılıqlı fəaliyyəti prosesi kimi izah edir və onu konkret situasiyada qərarların qəbul olunmasına təsir göstərən amillərdən istifadə olunmasına istiqamətlənən fəaliyyət növü kimi dəyərləndirir.

Qərarın formalaşması prosesinin texnologiyası aşağıdakı mərhələləri özündə əks etdirir:

- problemin öyrənilməsi;
- ilk informasiyanın təhlili;
- alternativin qiymətləndirilməsi və optimal variantın

seçilməsi;

- qərarın qəbul olunması;
- nəzərdə tutulan icranın reallaşması;
- icraya nəzarət;
- nəticənin qiymətləndirilməsi.

Müxtəlif təşkilatlarda qərarın qəbul edilməsi və reallaşması prosesinin öyrənilməsi bu prosesin modelinin işlənib hazırlanmasının əsasını təşkil edir. Model hər mərhələ üzrə işin həyata keçirilməsi göstərişini ifadə etməklə, həmin mərhələlərin qarşılıqlı əlaqəsini təmin edir. Texnologiyaya əməl etmək qərarın qəbul olunması prosesini rasionallaşdırmağa imkan yaradır.

Müasir politoloji elmdə siyasi sistemin funksiyası və ona müvafiq texnologiya müxtəlif zəmində fərqləndirilir və onların müxtəlif təsnifatına cəhd edilir. Buradan çıxış edərək, siyasi sistemin funksiyalarının ümumi sistemini və onların reallaşması texnologiyasını müxtəlif təhlil səviyyəsində fərqləndirmək mümkündür. İlk başlıca səviyyə sistemin imkanlarıdır, başqa sözlə, onun öz mühitinin (belə halda cəmiyyətin) elementi kimi fəaliyyətidir. Siyasi texnologiya siyasi prosesin effektivliyinin yüksəlməsinə və siyasət sferasında arzu edilən nəticələrə nail olmağa istiqamətlənən siyasi sistemin funksiyalarını reallaşdıran daha məqsədyönlü yolların, üsulların, prosedurların məcmuudur[1]. Bu və ya digər siyasi texnologiyadan istifadə edilməsi **siyasi idarəetmənin effektivliyini**, siyasi proseslərin tənzimlənməsini, **siyasi sistemin və siyasi məkanın sabitliyini** müəyyən edir. Siyasi texnologiya xeyli dərəcədə ictimai inkişafın tipi (təkamül və ya inqilab) və rejimin (demokratik, totalitar, avtoritar) xarakteri ilə müəyyənləşir.

---

[1] Bax: Политология. Под ред. М.Н.Марченко. М., 1999, с. 324

II FƏSİL
Siyasi tədqiqatlar və siyasi təhlil

1. Siyasi tədqiqatların mahiyyəti və metodologiyası

Siyasətin təbiətinə, onun öyrənilməsi yollarına və cəmiyyətin siyasi həyatı haqqında yeni biliklərin əldə edilməsinə aid müxtəlif görüşlər mövcuddur. Siyasi tədqiqatlar sferasında başlıca öyrənmə obyektinə, vasitələrinə görə fərqlənən müxtəlif elmi məktəblər təşəkkül tapmışdır. Üçüncü minilliyin başlanğıcında politologiyada xeyli çox və ya az orijinal elmi axtarışlar üsullarının nəzərə çarpdığını qeyd etmək olar.

Müasir siyasi elmin konseptual əsası kimi, adətən pozitivizm, neopozitivizm, praqmatizm fərqləndirilir və bununla bağlı göstərilir ki, siyasətə ənənəvi normativ dəyərli və sosioloji yanaşma ilə yanaşı, cəmiyyətin siyasi həyatı barədə təsəvvürlər məcmuunu xeyli müəyyənləşdirən yeni metodlar formalaşmışdır. Yeni konseptual ölçü siyasi elmə siyasi proseslərin öyrənilməsində sistemli yanaşma metodunu bəxş etmişdir. **Psixologiyanın, sosiologiyanın, bihevior çuluğun**, iqtisadi nəzəriyyənin, riyaziyyatın və kibernetikanın müddəalarından istifadə olunması **siyasi tədqiqatların çərçivəsini və metodoloji prosedurlarının spektrini** əhəmiyyətli dərəcədə genişləndirdi. Lakin politologiyanın məzmunu təbiət elmlərinin məzmunundan xeyli fərqlənir, sonuncu ətraf aləm haqqında obyektiv biliklərin etalonu kimi çıxış edir.

Siyasətdə (həm daxili və eləcə də xarici) fizikanın qanunlarına bənzəyən universal qanunauyğunluqlar müəyyən edilməmişdir. İctimai həyatda və siyasi münasibətlərdə daim situasiyanın çoxvariantlı inkişaf imkanları mövcuddur. Lakin bu o demək deyildir ki, siyasət haqqında biliklər elmi olmaya bilər. Əgər bilik doğrudursa, sistemləşdirilibsə və daxili ziddiyyətlərə malik deyilsə, belə halda onların real prosesə adekvatlığının (tam uyğunluğunun) zəmini kimi səciyyələnir, siyasi situasiyanın obyektiv əks etdirilməsinə xidmət edir.

Əlbəttə, bir fəsildə və ya yarımfəsildə siyasi tədqiqatla-

rın bütün vasitə və metodlarını, eləcə də metodologiyasını əhatəli, dolğun araşdırmaq mümkün deyildir. Politoloji ədəbiyyatda siyasi tədqiqatların metodologiyasına aid kifayət qədər elmi işlər mövcuddur. Bu baxımdan, Amerikada çap olunmuş siyasi dərslik xüsusi əhəmiyyətə malikdir. "Siyasi tədqiqatın metodları: əsası və texnikası" adlanan bu dərslikdə siyasi elmin metodologiyasının dörd inkişaf mərhələsindən ibarət olduğu göstərilir:

- Klassik dövr (XIX əsrə qədər). Bu dövrdə siyasi elmin metodologiyası əsasən deduktiv, məntiqi-fəlsəfi və əxlaqi-aksioloji mövqedən araşdırılır.

- Təsisatlı dövr (dövlətlə, siyasi partiyalarla, ictimai təşkilatlarla əlaqələndirmə). Həmin dövrdə tarixi müqayisəli və normativ-təsisatlandırma metodu ön plana çəkilir (XIX əsr – XX əsrin əvvəli).

- Bihevioryçu dövr (XX əsrin 20-70-ci illəri). Bu dövrdə kəmiyyət metodları daha fəal tətbiq olunur.

- Bihevioryçuluqdan sonrakı dövr (XX əsrin son rübü). Həmin dövr "ənənəvi" və "yeni" metodların əlaqələndirilməsi ilə səciyyələnir.

Ümumiyyətlə, bütün siyasi tədqiqatların obyektivliyi, tamlığı və dəqiqliyi o halda təmin oluna bilər ki, kompleks metodlara əsaslansın.

Siyasi tədqiqatlar iki səviyyədə – nəzəri və tətbiqi səviyyələrdə aparılır. Bu məqsədlə tədqiqat metodunun geniş dairəsindən, ilk materialların sistemləşdirilməsindən və təhlilindən istifadə olunur. Tədqiq edilən materiallara xüsusi mövqedən yanaşılmadıqda qarşıya qoyulan məqsədə çatmağın səmərəliliyi azalır. Məqsədyönlü və düzgün tədqiqat üsulu seçildikdə, öyrənilən problemin səmərəli həlli təmin edilir, tədqiqatçının idraki fəaliyyəti istənilən nəticəyə gətirib çıxarır, ən başlıcası isə əldə olunmuş rəqəm və faktların sistemləşdirilməsi və düzgün qiymətdəndirilməsi üçün imkan yaranır.

Siyasi proseslərin öyrənilməsində tətbiq edilən başlıca metodlar bunlardır: **Müqayisəli-tarixi, empirik, sistemli, bi-**

heviorçu və siyasi modelləşdirmə[1].

Yeri gəlmişkən qeyd edək ki, siyasi proseslərin modelləşdirilməsi hələ XX əsrin ilk rübündən həyata keçirilir. Siyasi modelləşdirmə metodunun tətbiqinə ilk cəhd edən **L.Riçardson** olmuşdur. O, 1919-cu ildə yazdığı "Müharibənin riyazi psixologiyası" adlı kitabında iki milli dövlət arasında sürətlə silahlanma modelini işləyib hazırlamışdır. Siyasi tədqiqatlarda riyazi modelin fəal və ardıcıl tətbiqi XX əsrin 50-60-cı illərində "biheviorçu inqilabla", başqa sözlə biheviorçu cərəyanın yüksəlişi ilə başlanır. Hazırda EHM-in və proqramlaşdırma vasitələrinin təkmilləşdirilməsilə bağlı, makro və mikro proseslərin modelləşdirilməsi siyasi tədqiqatların metodologiyasının inkişafında perspektivli istiqamətə çevrilir.

Siyasi elm bir neçə politoloji elm sahələrini öyrənir. Onların hər biri öyrəndiyi predmetin spesifikliyi ilə fərqlənirlər və müəyyənləşirlər. Belə elmi sferalar (komponentlər) müxtəlif üsullarla fərqləndirilsə də, onlardan üçü başlıca elmi sahə hesab olunur: Siyasi nəzəriyyə, müqayisəli politologiya, dünya siyasəti.

Siyasi nəzəriyyə fundamental siyasi məsələlərə, hər şeydən əvvəl isə idarə edənlərlə idarə olunanlar, dövlət və şəxsiyyət arasındakı münasibətlərə diqqət yetirir. Onun fəaliyyəti çərçivəsində keçmiş mütəfəkkirlərin əsərlərinin xarakteristikasına və şərhinə böyük diqqət yetirilir. Siyasi nəzəriyyə siyasət haqqında xeyli normativ mülahizələrin mənbəyidir.

Müqayisəli politologiya siyasi prosesin və siyasi strukturların oxşarlığını və fərqlərini öyrənir. Müqayisə dövlətlər arasında (məsələn, Pakistanla Nigeriyanın siyasi sistemlərinin müqayisəsində) və ya eyni ölkənin aktorlarına münasibət baxımından aparıla bilər (parlament seçkilərində iştirak edən partiyaların siyasi proqramlarının müqayisəli təhlilində).

---

[1] Ətraflı bax: Məcid Əfəndiyev. Siyasi elm. S. 48-58

Müqayisəli politologiya siyasi elmin xeyli sahəsini formalaşdırır və çoxlu istiqamətlərə malikdir, xüsusilə: dövlət idarəçiliyi, siyasi sistem, modernləşmə, siyasi davranış, ümumi siyasət və s.

Dünya siyasəti dünya aləmində müasir əlaqələr və qarşılıqlı fəaliyyət kompleksini öyrənir. Həmin əlaqə və qarşılıqlı fəaliyyət bir tərəfdən, ənənəvi aktorlar (dövlətlər) arasında siyasi və iqtisadi münasibətlər əsasında, digər tərəfdən isə onlarda yeni aktorların (transmilli korporasiyalar, beynəlxalq təşkilatlar və b.) iştirakı zəminində təşəkkül tapır. Dünya siyasətinin elmi maraq obyektini beynəlxalq rejimlər və təsisatlar, beynəlxalq münaqişələr və onların həlli, inteqrativ birliklər, beynəlxalq siyasi iqtisad, beynəlxalq münasibətlərdə yeni texnologiyanın rolu və s. təşkil edir.

Mübaliğəsiz demək olar ki, siyasi fəlsəfə, müqayisəli politologiya və dünya siyasəti sahəsində çalışan müasir mütəxəssislərin əksəriyyəti bu və ya başqa cür belə bir sualı cavablandırmağa cəhd edirlər: ictimai inkişafın alternativ seçimi necə baş verir? Bunun üçün onlar müxtəlif situasiyaların və proseslərin siyasi təhlilinə yanaşmada ən müxtəlif metodlardan istifadə edirlər. Onları iki böyük qrupa ayırmaq olar: normativ və empirik.

Normativ metod dəyərlərlə bağlıdır və cəmiyyət haqqında etik və ya əxlaqi mülahizələrin yürüdülməsini tələb edir. Bu yanaşma çərçivəsində aktorların real imkanlarını nəzərə almaqla, sosiumun optimal vəziyyətinə nail olmaq üçün fəaliyyətin variantları haqqında fikir ifadə olunur.

Empirik metod siyasət haqqında toplanan və ümumiləşdirilən böyük həcmli informasiya faktlarına dair hər hansı konkret mülahizəni qabaqcadan xəbər verir. O, bir tərəfdən qəbul edilən qərarın tənqidi qiymətləndirilməsinə, digər tərəfdən isə aktorun davranış strategiyasının alternativ spektrlərini genişləndirməyə istiqamətlənir.

Normativ və eləcə də empirik yanaşma cəmiyyət haqqında elmi biliyin inkişafında mühüm rol oynamışdır. Hazırda bu və ya digər dərəcədə elmi göstəricilərə əsaslanan

ictimai seçim konkret situasiyanın təhlilində normativ və empirik yanaşmanın elementlərini özündə əks etdirir.

Siyasi tədqiqatların konseptual kontekstini nəzərdən keçirərkən dünyanın inkişafının beynəlxalq aspektinin ümumi xarakteristikasının öyrənilməsinə diqqət yetirilməsi məqsədəuyğundur. Beynəlxalq münasibətlərin və dünya siyasətinin öyrənilməsi ilə bağlı elmlər də daxil olmaqla, elmi biliklərin predmeti sahələrinin əksəriyyətində **iki başlıca mübahisəli problem** mövcuddur.

Onlardan biri öyrənilən hadisənin əsasında duran faktın xarakteristikası ilə bağlı **mahiyyətli** məsələlər haqqında mübahisələri özündə əks etdirir. Daxili siyasi problemlərə dair tədqiqatlarda mahiyyətli məsələlərə aid ola bilər: əhali arasında millətçi əhval-ruhiyyənin artmasını və çəmiyyətdə sosial gərginliyin güclənməsini şərtləndirən səbəblər. Beynəlxalq problemlər kontekstində bu, İkinci dünya müharibəsinin başlıca səbəbləri və ya "soyuq müharibənin" başlanması səbəbi haqqında məsələ ola bilər. Eləcə də belə bir məsələdən çıxış etmək olar ki, demokratik dövlətlər münaqişələrin dinc yolla həllinə həqiqətən üstünlük verirlərmi, həmçinin, qloballaşma "dünya Cənubunu" inkişafdan təcrid edir, yoxsa onu stimullaşdırır. Cəmiyyətdə münaqişələrin və əməkdaşlığın, konsensusun və mübarizənin mövcudluğuna, hətta hakimiyyət təsisatlarının özü müxtəlif səviyyədə və dərəcədə təsir göstərir. **S.Lipset** düzgün qeyd edir ki, demokratiyanın siyasi təsisatları yalnız konsensus əldə olunması amili kimi deyil, həmçinin gərginliyin artması və münaqişələrin çoxalması vasitəsi kimi istifadə edilə bilər.

Mübahisəli problemlərin ikinci qrupu **hadisələrin özünün mahiyyətinin öyrənilməsinə metodoloji yanaşma haqqında** akademik mübahisələrin (müzakirələrin) spektrini əks etdirir, başqa sözlə, tədqiqatların aparılması və yeni biliklərin əldə olunması üsullarının konseptual və fəlsəfi məsələlərini ifadə edir. Beynəlxalq problemlər çərçivəsində müasir metodoloji mübahisələrə misal kimi bunları aid etmək olar: **realistlərin** beynəlxalq münasibətləri rəqabət mübarizəsi ki-

mi qəbul etmələrini məqbul saymaq olarmı və ya əksinə, liberalların müasir beynəlxalq münasibətlər, əsasən, əməkdaşlıq münasibətləridir iddiaları ilə razılaşmaq mümkündürmü.

Belə bir cəhəti qeyd etmək vacibdir ki, adətən, **mahiyyətli və metodoloji** məsələlər elmi mübahisələri təcrid olunmuş halda deyil, məhz sıx vəhdət halında özündə əks etdirir.

Müasir dövrdə politologiyanın və onun elmi sferalarının inkişafı, eləcə də siyasi tədqiqatların dərinləşməsi bir tərəfdən, siyasi praktikanın elmi, həcminin sürətlə yüksəlişi, digər tərəfdən isə ictimai münasibətlərin geniş demokratikləşməsi ilə stimullaşır. Siyasi qərarların qəbul olunması daha çox korporativ mənafelər sindromunun (əlamətlərinin) aradan qaldırılmasına və ictimai xərclərin səviyyəsinin aşağı düşməsinə istiqamətlənir.

Ümumiyyətlə, dövlətdaxili sferada və dünya siyasətində baş verən xeyli pozitiv dəyişikliklər məhz siyasi tədqiqatların sayının artması və effektivliyinin yüksəlməsi sayəsində mümkün olmuşdur.

2. Siyasi tədqiqatların metodologiyası elmi layihənin əsasıdır

Siyasət haqqında elmi təsəvvürlər bu gün real proseslərin fundamental (və ya nəzəri) və tətbiqi öyrənilməsi sferasında təşəkkül tapır. Müasir elmin digər sahələrində olduğu kimi, siyasətin tətbiqi və fundamental tədqiqi də başlıca olaraq, qarşısına qoyduğu vəzifə ilə fərqlənir: universal konseptual və ya konkret praktiki məsələlər həll edilə bilərmi. Bundan əlavə, onların fərqi informasiyanın toplanması və işlənib hazırlanması, tədqiqatın aparılması xarakteri və eləcə də son nəticələrin nəzərə çatdırılması ilə bağlıdır. Buna görə, qeyd etmək zəruridir ki, siyasi tədqiqatların inkişafı "ikitərəfli" prosesdir.

Fundamental bilik öz ardıcıllığı, mədəni təcrübəni zənginləşdirməsi baxımından dəyərlidir. O, köhnəlmiş təsəv-

vürlərdən azad olunmalıdır. Fundamental bilikləri mütləqləşdirmək mühafizəkarlığın əsasını təşkil edir, onun rolunu həddən artıq şişirtmək nihilizm doğurur. Fundamental və tətbiqi biliklər bir-birinə müsbət təsir göstərir. Bu cəhət **siyasi təhlil** üçün olduqca vacib amillərdəndir.

Tədqiqatçılar siyasi münasiğətləri öyrənərkən və siyasi təhlili ümumiləşdirərkən bir sıra ümumi qaydalardan çıxış edirlər. Birincisi, situasiyanın və proseslərin təhlilinə səy göstərirlər, ikincisi analitik nəticənin çıxarılmasına cəhd edirlər, üçüncüsü, əvvəllər formalaşdırılan nəticələri yenidən nəzərdən keçirirlər. Bu qaydaların gözlənilməsi nəinki konkret problemlərə həsr edilən xeyli ayrıca tədqiqatların nəticələrinin yoxlanılması imkanlarını təmin edir, eləcə də müxtəlif sahələrdə biliklərin müqayisə olunmasını reallaşdırır. Onların məzmunu hər bir fundamental və tətbiqi layihənin (siyasi təhlil məhz elmi biliklərin tətbiqi sahəsinə aiddir) metodoloji təminatını şərtləndirir, bu çərçivədə bir neçə səviyyə fərqlənir: konseptual, metodoloji və metodiki.

Tədqiqatçılar siyasəti öyrənərkən müxtəlif nəzəriyyələrdən istifadə edir və ayrı-ayrı metodları tətbiq edirlər. Nəzəriyyə (yunan dilində **theorie** sözündən götürülüb, müşahidə, tədqiqat deməkdir) təfəkkür vasitəsidir, reallığı ("dünyanın mənzərəsin") miqyasına görə universal öyrənmək baxımdan, müəyyən məntiqi qaydaların təşkili üçün istifadə olunur. O, həmçinin bəzi hadisələrin izahı və haqqında qabaqcadan xəbər vermək vasitəsidir. Düzdür, müxtəlif müəlliflər bu və ya digər nəzəri konsepsiyadan (konsepsiya latın dilində **konseptio** sözündən götürülüb, başa düşmək, sistem deməkdir) istifadə etməyin müxtəlif variantlarını məsləhət bilirlər, lakin ümumi qəbul edilən belə bir fikir təkzib olunmazdır ki, nəzəriyyə tədqiqatçılıq prosesində əhəmiyyətli yer tutur. Nəzəriyyəyə dəqiq əsaslanmayan hər bir elmi tədqiqat probleminin nəticəsi çox məhdud olar.

Elmi təfəkkür mədəniyyəti məhz tədqiqatçılıq fəaliyyətinin anlayışlar aparatı haqqında dəqiq təsəvvürlərdən başlanır. Nəzəriyyə bir fenomenin digərinə təsir xarakteri haq-

qında müddəadır. Bu fenomenlər bir-birindən asılı və ya qeyri-asılı ola bilər, bununla belə dəyişkən qeyri-asılı olana təsir göstərir. Nəzəriyyə özündə, həm də hipoteza mənzərəsini əks etdirir, yəni ehtimal edir ki, asılı olanla dəyişkən qeyri-asılı olan arasında müəyyən münasibət tipi necə yaranır. Elmi nəzəriyyənin mahiyyətini (o cümlədən, humanitar elmlər sferasında) müəyyənləşdirmək üçün iki müxtəlif üsul mövcuddur.

- prosessual oriyentasiyalı müəyyənləşdirmə, başqa sözlə nəzəriyyənin elmi işdə hansı növ funksiyanı yerinə yetirdiyini müəyyənləşdirmək;

- ayrıca dürüst müəyənləşdirmə, bunun vasitəsilə nəzəriyyə elmi fəaliyyət məhsulunun xüsusi növü kimi araşdırılır.

Prosessual oriyentasiyalı müəyyənləşdirmədə nəzəriyyə gerçəkliyin öyrənilməsində sabit qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsinin başlıca prinsipi kimi çıxış edir. O, ayrı-ayrı müşahidələri birləşdirir, onları kateqoriyalara ayırır, qabaqcadan formalaşdırılan meyarlara müvafiq olaraq nəticələri şərh edir. Bunlardan əlavə, nəzəriyyə müşahidə prosesində yaranan xeyli xüsusi məsələlərə aydınlıq gətirir.

Ayrıca dürüst müəyyənləşdirmə isə elmi fikrin digər növlərindən ayrılmasına oriyentasiyadır (istiqamətlənmədir). Elm tarixində belə ayrılma **demarkasiya prinsipinə** (hədd qoyulmasına) yaxındır və elmi, elmi olmayandan təcrid edir, ayırır. Bu fikir görkəmli filosof **K.Popper** tərəfindən irəli sürülmüşdür. Ayrıca müəyyənləşdirməyə görə, elmi nəzəriyyə reallıqla təsdiqlənən ümumi müddəadır. Belə təsdiqlənmə nəzəriyyənin hipotezalar və testlərlə yoxlanması nəticəsində əldə edilir[1]. Nəzəriyyə dünyanın hipotetik (fərziyyəyə əsaslanan) mənzərəsini yaradır və öz müddəalarını induktiv (ümumidən xüsusiyə doğru) və deduktiv (xüsusidən ümumiyə doğru) mühakimələr seriyası vasitəsilə sübut edir. Siyasətin öyrənilməsi sferasında müxtəlif nəzəriyyələrlə bağlı başlıca fikir ayrılığı siyasi aləmin təbiətinə (ontolog-

[1] Bax: Теория и методы в социальных науках / Под ред. С.Ларсена. М., 2003

iya) və bu aləm haqqında biliklərin xarakteristikasına (epistemologiya) aiddir. Ontologiya sahəsinə aid başlıca məsələlər bunlardır: siyasi reallıq xüsusi mahiyyətə malikdirmi və ya o subyektiv mahiyyət daşıyır (insanlar tərəfindən yaradılmaqla). Bu yanaşmanın daha radikal tərəfdarları siyasəti mütləq obyektivlik kəsb edən və sosial varlıq sferasında insanların təsəvvüründən asılı olmayan fenomen kimi şərh edirlər.

Epistemologiya insanın öz biliklərini əldə etməsi üsuluna aid olan məsələləri araşdırır. Bu problemə aid qəti nöqteyi-nəzərlərdən biri bundan ibarətdir ki, siyasətin dərin elmi izahına nail olmaq cəhdi, empirik cəhətdən yoxlanılan mühakimələr əsasında universal sosial nəzəriyyənin yaradılması yolu ilə mümkündür. Digər nöqteyi-nəzərin tərəfdarları öz vəzifəsini öyrənilən predmetə xidmət edən başlıca məsələləri başa düşməkdə və şərh etməkdə görürlər. Onlar hesab edirlər ki, siyasi aləmin tarixi, hüquqi və ya əxlaqi problemlərini elmin terminlərinə çevirmək olmaz.

Hazırda hər bir istiqamət çərçivəsində həm **"bir-birilə toqquşan"** və eləcə də **"kooperativ"** görüşlər mövcuddur. Bununla belə, tədqiqatçıların əksəriyyəti metodoloji mübahisələrdən uzaqlaşmağa cəhd edir.

Tədqiqatın metodoloji təminatı problemi hər bir elmin daha vacib problemlərindəndir. Təəssüf ki, respublikamızda siyasi münasibətlərin təhlilinin metodologiyasına həsr edilən ədəbiyyat yox dərəcəsindədir. Siyasi tədqiqatların metodiki problemlərinə xüsusi diqqət yetirilməsi böyük aktuallıq kəsb edir. Unutmaq olmaz ki, müasir tədqiqatların əksəriyyəti siyasi praktikanın tələbatına istiqamətlənir.

Fundamental siyasi tədqiqatlarla yanaşı, tətbiqi siyasi tədqiqatların da əhəmiyyəti daim artır və elmi statusu möhkəmlənir. Siyasət haqqında tətbiqi elmi biliyə, real siyasi effektə nail olmağa istiqamətlənən nəzəri modellərin, tədqiqatın metodoloji prinsiplərinin və prosedurlarının məcmuu kimi diqqət yetirilməlidir. Buna görə unutmaq olmaz ki, fundamental tədqiqata nisbətən tətbiqi tədqiqatlar "konkret sifarişçinin" mənafeyi naminə daha tez-tez aparılır və onla-

rın nəticələrinə iz buraxmağa qadirdir.

Eyni zamanda, mütəxəssislər **tətbiqi layihə** üzərində işləyərkən, əslində, fundamental tədqiqatların müəlliflərinin verdikləri suallardan çıxış edirlər. Məsələn, qonşu dövlət nə üçün hərbi hərəkətlərə başladı? Niyə bəzi vətəndaşlar siyasətə fəal yanaşırlar? Mənafe qrupları ölkənin daxili və xarici siyasətinə necə təsir göstərirlər? Dünyanın inkişafı hansı yolla gedir? və s. Bu suallara tətbiqi layihələr çərçivəsində cavab verərkən onlar, eləcə də yeni biliklərin əldə edilməsinin ümumi elmi qaydalarından çıxış edirlər. Tətbiqi tədqiqatların siyasi sahədə, həmçinin, beynəlxalq münasibətlərlə bağlı aparılması sistemli analitik proses kimi təşkil edilir, informasiya ilə qabaqcadan tanışlıqlan başlanır, bu informasiya tədqiqat probleminə aiddir, həmin tanışlıq ümumi analitik nəticələrin təqdim olunması ilə başa çatır. **Tətbiqi layihənin** uğurla həyata keçirilməsi nöqteyi-nəzərdən bu prosesin aşağıdakı məqamları xüsusi əhəmiyyət kəsb edir:

- **Mövzunun qısa dürüst ifadəsi.** Tədqiqatın həddinin məzmun və üslub etibarilə dəqiq müəyyənləşdirilməsi icraçının ixtisas, intuisiya və sifarişçi ilə işgüzar əlaqə yaratmaq keyfiyyətlərinin səfərbər edilməsini tələb edir.

- Göstəricilərin və dəlillərin təqdim edilməsi (göstərilməsi). Analitik nəticələrin məzmun və formasının üzvi surətdə əlaqələndirildiyi yekun ölçüsü, sifarişçinin tədqiqatın nəticələrini və təbii olaraq onun praktiki verilməsi potensialını qiymətləndirməsində çox mühüm rol oynayır.

- Peşə etikasını gözləmək. Adətən etik düşüncə aşağıdakı suallara cavab verməklə bağlı formalaşır:

- Göstərişi (sərəncamı), proqnozu və ya situasiyanın izahını saxlamaq üçün yekun fikir olacaqmı;

- Nəzərdə tutulan göstəriş (proqnoz) yalnız bir korporativ qrupun mənafeyinə, yoxsa bütün cəmiyyətin mənafeyinə xidmət edəcək;

- Müəlliflər yekun nəticəni yalnız müəyyən perspektivlərə cəmləşdirəcək və yaxud əksinə hadisələrin inkişaf variantının geniş spektrini əhatə edəcək;

- Yekun nəticədə qiymətlərin qorunmasına və ya qiymətlərin aşağı salınmasına üstünlük verən qərar olacaqmı;

- qəbul olunan və artıq reallaşan siyasətlə bağlı, konkret adamları cəsarətli addımlar atmağa sövq etmək məqsədəuyğundurmu.

Təəssüf ki, tarixi təcrübə və müasir siyasi praktika peşə etikası sferasında müəlliflərin tətbiqi layihələrlə bağlı universal **"xəlvəti danışmalarını"** məsləhət bilmir.

Siyasət haqqında elmi biliklər sferasında, eləcə də siyasi praktikada tətbiqi siyasi tədqiqatların əhəmiyyətinin artması tədqiqatçıların elə vasitələrə əl atmasını, empirik informasiya toplamağa istiqamətlənmələrini və çoxlu metodlardan istifadə etmələrini şərtləndirdi ki, bunlar proqnozlar formasında analitik nəticələrin hazırlanmasına imkan yaradır.

Siyasi tədqiqatların metodoloji təminatının başlıca problemləri üzrə mübahisələr traditsionalistlər (ənənəçilik tərəfdarları), biheviorçular və postbiheviorçular arasında (əsasən, Amerikanın akademik dairələrində) baş verir. Davam etməkdə olan mübahisələrin mərkəzində aşağıdakı məsələlər durur:

- Siyasi münasibətlərin elmi tədqiqinin mahiyyəti nədən ibarətdir?

- Siyasi elmin etik və ya dini fikirdən fərqi mövcuddurmu?

- Siyasi fenomenlər kompleksini xüsusi spesifik vasitələrin köməyilə öyrənmək imkanları hansılardır?

- Siyasəti elmi cəhətdən öyrənməyin metodu nə deməkdir?

- Elm dəyərlərdən azad olmalıdırmı?

- Siyasi elm əsasında əldə olunan biliklər nə qədər relevantdır?

- Elmi dəlillərlə yanaşı, siyasət haqqında hansı bilik mənbəyi mövcuddur.

Səciyyəvi haldır ki, bu problemə aid yuxarıda qeyd etdiyimiz elmi fikir cərəyanları nümayəndələrinin heç birinin baxışlarında yaxınlıq nəzərə çarpmır.

3. Siyasi təhlil: mahiyyəti, xüsusiyyətləri, strukturu

Ən ümumi planda siyasi təsəvvürlərin forma və növləri "texnoloji cəhətdən" nəzəriyyənin yaradılmasına və biliklərin istehsalına istiqamətlənmir, məhz siyasi məkanda praktiki və tamamilə konkret məsələlərin həllində **tətbiqi baxımdan** istifadə edilməsinə yönəlir. Ciddi desək, tətbiqi bilik sferaları öz nəticələrini yalnız hər hansı geniş nəzəri ümumiləşdirmələr əsasında deyil, eləcə də təşəkkül tapan praktiki təcrubə bazasında çıxara bilər.

Siyasi hadisələrin tədqiqinin üsul və metodlarının tətbiqi bilik sferalarına tətbiqi **siyasi elmin xüsusi sahəsini** formalaşdırır. Bu elmi sahə real siyasi proseslərin, müxtəlif subyektlərin davranışının, onların fəaliyyətinin və qarşılıqlı münasibətlərinin öyrənilməsinə istiqamətlənir.

Siyasətin tətbiqi tədqiqi onun bütün məkanına deyil, məhz onun elə sahələrinə toxunur ki, dövlət hakimiyyətinin fəaliyyətinin bütün prosesi üçün ən mühüm praktiki əhəmiyyət kəsb edir. Hazırkı şəraitlə belə sahələrə münaqişələrin tənzimlənməsi və həlli prosesi, qərarların qəbulu, danışıqlar aparılması, seçki və informasiya kampaniyalarının təşkili və digərləri aiddir. Bir sıra belə sferalar ətrafında formalaşan elmi bilik sahələrindən biri, konkret siyasi problemlərin tədqiqinin üsul və proseduralarını təsvir edən siyasi təhlil (policy analisys) hesab olunur.

Siyasi təhlil malik olduğu predmet dairəsi və digər xüsusiyyətləri ilə xüsusi tətbiqi elm sahəsi kimi səciyyələnir. Bununla belə o, həm də bütün tətbiqi bilik sahələrinin vahid tədqiqat əsası kimi çıxış edir. Beləliklə, siyasi təhlil sözün geniş mənasında siyasətə aid bütün elmi tədqiqatları ifadə etmək üçün istifadə oluna bilər, dar mənada isə xüsusi əhəmiyyət daşıyan tətbiqi elm sahəsidir. **O, konkret problemlərin öyrənilməsi tələbələrinə başlıca manea olan subyektivliyi və özbaşınalığı aradan qaldırmağa, onun daha məqbul həlli üçün fəaliyyətin müəyyən zəruri texnoloji vasitə və üsullarının axtarışını ifadə edir.** Tətbiqi elmi biliklər sahəsi olan siyasi təhlilin işlənib hazırlanması ilə xüsusi mütəxəssislər qru-

qrupu məşğul olur: texnoloqlar, analitiklər, ekspertlər, məsləhətçilər, partiya aparatı işçiləri, açıq siyasətçilərin köməkçiləri, dövlət idarəçiliyi orqanları və digərləri. Bu şəxslər qrupunun fəaliyyətinin nəticələrinə müxtəlif məsləhətlər, tövsiyələr, dövlət və partiya orqanlarının fəaliyyəti ilə bağlı olan proqnozlar, planlar və proqramlar, idarəetmə orqanlarının fəaliyyətini təkmilləşdirmək üçün analitik arayışlar və digər materiallar aiddir. Bütün bunlar konkret siyasi problemlərin həllinin optimallaşmasına istiqamətlənir.

Siyasi təhlilin xüsusiyyətləri siyasi hadisələrin tədqiqinin spesifik səviyyəsi olmaqla, bir sıra səbəblərlə və cəhətlərlə müəyyən olunur. O, tətbiqi biliklərin növü olmaq etibarilə, hər şeydən əvvəl, subyekt qarşısında duran konkret problemlərin öyrənilməsinə istiqamətlənir.

Nəzəri politologiya siyasi məkanın digər sahələrindən və yekcins hadisələr qrupundan məntiqi ayrılığı nəzərdə tutan predmet əlamətlərinə görə formalaşır. Öz qarşısında duran vəzifələri həll etməklə o, özünə məxsus olan biliklər məcmuunu yaradır, onların məntiqi qarşılıqlı əlaqəsini təmin edir. Bunun əksinə olaraq, siyasi təhlil konkret problemlərin tədqiqini mərkəzləşdirir, başqa sözlə, gerçəkliyin elə elementlərini birləşdirir ki, onlar siyasi məkanın müxtəlif sahələrinə toxunur və ciddi müəyyən, birtipli mənbələrə, əlaqələrə və digər oxşar parametrlərə malik deyildir. Siyasi təhlil ictimai münasibətlərin tədqiq olunan sahələrinin qarşılıqlı əlaqəsini və qarşılıqlı asılılığını axtaran elmlərdən fərqli olaraq, obyektin rasional-sadə başa düşülməsini işləyib hazırlayır və buna görə subyektin konkret məqsədinin reallaşması üçün minimum kifayətləndirici məlumatı tələb edir. Əgər fundamental elm obyektin başa düşülməsinə, onun sirlərinə dərindən və sistemləşdirilmiş nüfuz etməyə istiqamətlənirsə, tətbiqi siyasi təhlil öz təsəvvürlərünü (məlumatını) subyektin ehtiyacı əsasında formalaşdırır. Başqa sözlə, **elm obyektin məntiqi surətini formaşdırır, siyasi təhlil isə onu praktiki baxımdan şərtləndirir**.

Eyni zamanda, hər cür problemi siyasi təhlilə aid et-

mək olmaz. Məsələn, hakimiyyət sferasında insanların həyata keçirdikləri rol və funksiyalara təsir göstərən hər cür münaqişə və ziddiyyətlər deyil, məhz cəmiyyət üçün əhəmiyyətli olan, əhalinin geniş təbəqələrinin mənafeyinə toxunan münaqişə və ziddiyyətlər müəyyən əhəmiyyət dərəcəsi kəsb edir.

Belə problemlərə oriyentasiya həmçinin, tətbiqi siyasi təhlilin struktur xüsusiyyətlərini qabaqcadan müəyyənləşdirir. Konkret situasiya yalnız analitik və ya ekspert tərəfindən deyil, həm də elə şəxs tərəfindən qiymətləndirilir ki, münaqişə siyasi prosesdəki yerinə və roluna görə, məhz onun tərəfindən həll olunmalıdır. Yalnız o, status, mövqe və gerçəkliyə münasibətin digər cəhətləri nöqteyi-nəzərdən öz mənafeyindən çıxış edərək, baş verən hadisələri qiymətləndirir, şərh edir və problemli situasiya yaradır. Bu mənada həmin şəxs mövcud situasiyada özünü büruzə verən problemi həll edən "sifarişçi" kimi çıxış edir.

Siyasi təhlilin strukturu və məzmunu əvvəl, yalnız hər hansı hadisənin subyekti-tədqiqitçısının analitik təsviri nəticəsində deyil, eləcə də aşkar və ya qeyri-aşkar iştirak edən "sifarişçinin", başqa sözlə, mövcud situasiyanın həlli məqsədini müəyyənləşdirən subyektin təsiri altında formalaşır. "Sifarişçinin" marağı analitikin fəaliyyət strategiyası prosesinin formalaşmasını şərtləndirir.

Buna görə, texnoloq-analitik ayrıca şəxsin və ya şəxslər qrupunun mənafeyini əks etdirən tövsiyəni formalaşdıran və situasiyanı (hadisəni) şərh edən mütəxəssis kimi çıxış edir. Texnoloji biliklərin sosial sifarişdən bu güclü asılılığı xüsusilə, təkliflərin (tövsiyələrin) diaqnozlaşdırılması və dürüst ifadəsi mərhələlərində təzahür edir. Beləliklə, **bu və ya digər** siyasi situasiyanın təhlili müxtəlif problemlər üzə çıxara bilər. Bununla bağlı, analitik situasiyanı müxtəlif mövqedən nəzərdən keçirə bilər, eləcə də birmənalı olmayan məsələlər irəli sürə bilər və buna görə də bu və ya digər məsələnin müxtəlif həllini məsləhət görə bilər. Siyasi təhlil çərçivəsində situasiyanın özü (hadisə) öz xüsusi məntiqinə, hərəkət mən-

bəyinə, inkişaf həddinə və digər göstəricilərə malik olan bütövlük kimi nəzərdən keçirilir. Siyasi təhlil fundamental (nəzəri) elmdən fərqli olaraq unikal, tək-tək hadisə və situasiyanın əks etdirilməsinə istiqamətlənir.

Siyasi təhlilin tətbiqi istiqaməti situasiyanın tədqiqində bir neçə universal məsələnin həllini nəzərdə tutur: situasiyanın məkan-zaman parametrlərinin üzə çıxarılması; mövcud şəraitdə fəaliyyət göstərən bütün subyektlərin sadalanması, bu subyektlərin qüvvələr nisbətinin qiymətləndirilməsi; subyektlərin davranışına təsir göstərən konkret zəmin, səbəb və amillər; baş verən hadisələrin nəticələri və digərləri. Buna görə, situasiyanın tətbiqi tədqiqi konkret məsələlər dairəsini formalaşdıran **sistemli analitikanın** tətbiqi əsasında həyata keçirilir. Bu mənada siyasi təhlilin başlıca çətinliyi situasiyanın tədqiqinin müxtəlif üsullarını və texnikasını qarşılıqlı əlaqələndirmək bacarığıdır. Eləcə də problemin şərhi meyarlarından uzaqlaşmamaq zəruridir.

Konkret situasiyanın adekvat qiymətləndirilməsi imkanı hər şeydən əvvəl, müvafiq problemilərin dərk edilməsinin vasitə və üsullarının analitik tərəfindən düzgün seçilməsi ilə müəyyən olunur. Bunu etmək ona görə vacibdir ki, siyasi təhlilin məzmunu tədqiqat metodunun üç başlıca səviyyəsinə malikdir.

Birinci səviyyə başlıca nəzəri mexanizmin mövcudluğunu əks etdirir ki, bunun da bazasında tədqiqat fərziyyəsi ifadə olunur, başqa sözlə, konkret vəzifə və məqsədlərin qoyulmasının daha geniş çərçivəsi müəyyən edilir, bunun üçün zəruri vasitə, metod və resursların müəyyənləşdirilməsində prinsipial məhdudlaşdırma üzə çıxarılır. Belə metod (yanaşma) situasiyanın daha ümumi parametrini üzə çıxarmağa, konkret siyasi hadisələrin təbii və sosial mühitlə əlaqəsini başa düşməyə imkan yaradır, analitiki əhatə edən dünyanın mənzərəsində əhəmiyyətli siyasi problemlər haqqında təsəvvür yaratmağa istiqamətlənir.

Belə makronəzəri yanaşma hadisələrin ideal tipinin dürüst ifadəsi prinsiplərinə, siyasi inkişafın sabit meylinə və

qanunauyğunluğuna, başlıcı rasional seçki nəzəriyyəsi ideyalarına və s. əsaslana bilər.

Şəraiti görməyin konseptual əsası ardıcıl surətdə **ikinci** səviyyənin meyarı ilə tamamlanır. Bu səviyyə hakimiyyət (idarəetmə) münasibətlərinin elə səviyyəsini və tipini müəyyən edir ki, məhz mövcud situasiya həmin çərçivədə formalaşır. Məsələn, o, millətlərarası və sosial münaqişələr sferasına aid edilə bilər. Bu konteksdə eləcə də situasiyanın digər göstəriciləri və xüsusiyyətləri qiymətləndirilir: o, sabitdir, yoxsa qeyri-sabit, subyektin orta və ya uzunmüddətli planına daxil edilir və s.

Təhlilin həmin mərhələsində bütövlükdə söhbət sanki siyasi prosesin müəyyən sahəsinin spesifikliyini müəyyənləşdirməkdən gedir (müvafiq texnologiyanın işlənib hazırlanmasını nəzərdə tutan). Siyasi prosesin bu göstərici səviyyəsinin nəzərə alınması dəyişikliyin müəyyən sferada spesifikliyini yaxşı başa düşmək imkanı yaradır.

Belə nəzəri əsasda isə **mikrotətbiqi situasiyanın** təhlili və ya üçüncü səviyyə həyata keçirilir. Bu səviyyə situasiyanın "tilsimini açmağın" başlıca vasitəsidir. Məhz o, tədqiqat əməliyyatlarının həyata keçirilməsində ən yüksək xüsusi çəkiyə malik olması ilə fərqlənir. Mikroanalitik tədqiqat situasiyanı qəti şəkildə məhdudlaşdırır və bununla da onun qiymətləndirilməsini bütövlükdə siyasi prosesi görməyə uyğunlaşdırır. Mikrotəhlil səviyyəsində texnologiyanın formalaşmasının ən çətin məsələlərindən biri – ümumnəzəri konstruksiyadan onların əməliyyatlaşdırılmasına və praktiki tövsiyələrin ifadəsinə keçid təmin edilir.

Siyasi təhlilin üçüncü mikrotətbiqi səviyyəsi konkret situasiya çərçivəsində təşəkkül tapan reallığın bilavasitə əks etdirilməsi ilə bağlıdır.

Siyasi təhlili spesifik tədqiqat prosesi kimi nəzərdən keçirərkən, onu daxili məntiqi mərhələlərə ayırmaq olar ki, bunlar da idraki-tətbiqi fəaliyyətin müvəffəqiyyətlərini qabaqcadan müəyyənləşdirir. Amerka alimləri **C.B.Manheym** və **R.K.Riçin** nöqteyi-nəzərincə, bu analitik prosesin başlıca

mərhələlərinə aşağıdakıları aid etmək olar[1]: problemin konseptuallaşdırılması mərhələsi, onun modelləşdirilməsi mərhələsi, konkret problemin tədqiqi proqramının tərtib edilməsi, onun tədqiqi metodlarının seçilməsi mərhələsi.

Siyasi təhlilin başlanğıc mərhələsinin mənası **problemin konseptuallaşdırılmasından** ibarətdir. Bu, konkret situasiyanı onun ən əhəmiyyətli siyasi subyektlərin mənafeyinin reallaşmasına, dövlət idarəçiliyi orqanlarının fəaliyyətinə təsiri nöqteyi-nəzərdən araşdırılmasını nəzərdə tutur. Belə problemin üzə çıxarılması informasiyanın diqqətlə toplanmasını, problemin onun daha fərqləndirici cəhətlərinin və struktur komponentlərinin xarakteristikası ilə dürüst ifadəsini nəzərə almağı tələb edir[2].

Siyasi təhlilin ikinci mərhələsində problemin **modelləşdirilməsi** həyata keçirilir, başqa sözlə, onun daha əhəmiyyətli elementlərinin, strukturunun, xarici və daxili formalarının bütövlükdə dərk olunması nəzərdə tutulur. Bir qayda olaraq, belə model müəyyən tədqiqat fərziyyəsi (ehtimalı) əsasında yaradılır və onun çərçivəsində problemin ən əhəmiyyətli parametrləri üzə çıxarılır və dəqiqləşdirilir. Problemin xarakteristikasının dəqiqləşdirilməsi ardıcıl əməliyyatlaşdırma hesabına həyata keçirilir.

Siyasi təhlilin üçüncü mərhələsi **tədqiqatın proqramının** tərtibindən, konkret problemin tədqiqinin məntiqi əsaslandırılmasından ibarətdir. Bu mərhələ çərçivəsində tədqiqatın konkret məqsədi dürüst ifadə edilir, qarşıya qoyulan məsələnin həllinin müxtəlif alternativi çərçivəsində dəyişən göstəricilərin əhəmiyyəti dəqiqləşdirilir, müşahidənin təşkili və aparılması təfərrüatına qədər təsvir olunur. Beləliklə, bu mərhələdə daha əhəmiyyətli struktur amillərin təsir formaları, problemin həllinə onların pozitiv və neqativ təsirinin nəticələri əks etdirilir, situasiyanın müxtəlif alternativi, təxmini dinamikasının nisbi proqnozu dürüst ifadə edilir və s.

---

[1] Bax: Мангейм М.Б., Рич Р.К. Политология. Методы исследования. М., 1997

[2] Bax: yenə orada

Belə proqramın vəzifəsi empirik göstəriciləri qaydaya salmaqdan ibarətdir. Lakin onun həlli nəticəsində işin mahiyyətinə görə, çox səviyyəli tədqiqat konstruksiyası formalaşır ki, bu da bütün mövcud olan və əldə edilən bilikləri birlikdə əlaqələndirir və tədqiqatın konkret praktiki vəzifələrin həlli istiqamətində tədricən genişləndirilməsini nəzərdə tutur. Siyasi təhlilin müxtəlif proqramlarını formalaşdırmaq olar: gələcək hipotetik (fərziyyəyə əsaslanan) tədqiqata istiqamətlənən **proqnozlaşdırma**; hazırki situasiyanın təhlili ilə bağlı olan **aktual**, baş vermiş hadisələrin öyrənilməsinə yeni yanaşmanın axtarışına istiqamətlənən **retrospektiv** (keçmişə aid olan).

Siyasi təhlilin dördüncü mərhələsi də prinsipial əhəmiyyətə malikdir. Bu mərhələ problemin tədqiqi və konkret məsələnin **həlli metodunun seçilməsindən** ibarətdir. Həmin mərhələdə tətbiq edilən metodika elmi sferalararası xarakter daşıyır. Bununla belə, hər hansı konkret məsələnin həlli həmişə tədqiqat zamanı üstünlük təşkil edən vasitə və üsulların seçilməsini nəzərdə tutur, bu seçim analitiklərin hazırladığı problemin öz xarakteri və siyasi təhlilin həyata keçirildiyi şəraitlə müəyyən olunur. Bütün variantlarda belə seçim keyfiyyət və kəmiyyət, nəzəri və empirik yanaşmaların hökmən əlaqələndirilməsini tələb edir. Tətbiq edilən metodlar eləcə də öz formasına görə fərqlənə bilər ("beyin həmləsi", fərdi və ya qrup halında ekspertiza və s.).

Siyasi təhlil üçün, daxil olan informasiyanın toplanması və daim dəqiqləşdirilməsi prinsipial əhəmiyyət daşıyır. Peşəkar məsləhətin işlənib hazırlanması, məsələnin həlli üçün müvafiq texnologiyanın seçilməsi, informasiya bu tələblərə cavab verməlidir: **zərurət** (hər şeydən əvvəl, onun həll edilən problemin xarakterinə müvafiqliyi nəyi ifadə edir), problemin mükəmməl nəzərdən keçirilməsi üçün **minimal kafilik** (çatışma), **etibarlılıq** (doğru olmalıdır) və **vaxtlı-vaxtında olmaq** başqa sözlə, lazımi vaxtda və lazımi yerdə irəli sürülməlidir.

4. Siyasi təhlilə yanaşma və siyasi məsləhətləşmə

Siyasi təhlilin metodoloji müxtəlifliyi iki amillə bağlıdır. Birincisi, onun tətbiqi elm sahəsi olmasından irəli gəlir, ikincisi isə siyasi təhlilin predmeti olan siyasi problemlərin spesifikliyi ilə şərtlənir. Siyasi təhlildə situasiyanın əks etdirilməsi üçün tətbiq olunan bu və ya digər üsulların uğurlu olması xeyli dərəcədə çevikliyin və yeniliklərin saxlanmasından, nisbətən sadə fəaliyyəti nəzərdə tutmaqdan, qeyri-formal keyfiyyətli dəlillərin üstünlüyünü rəsmi kəmiyyət dəyərləri ilə əlaqələndirməkdən aşılıdır.

Bütövlükdə siyasi təhlilə yanaşmanın (onun metodlarının) iki qrupunu fərqləndirmək olar: ümumi və xüsusi. Ümumi yanaşma siyasi təhlilin bütün mərhələlərinin istiqamətini və metodoloji təminatını müəyyənləşdirir. Ona ivent-təhlili (ingilis dilində ivent hadisə deməkdir), situasiyanın təhlilini və digərlərini aid etmək olar.

Siyasi təhlilə xüsusi yanaşma (xüsusi metod) özündə bunları əks etdirir: statistikadan, sosiologiyadan, iqtisadi nəzəriyyədən və digər elm sahələrindən götürülən standart metodları; seçmə metodlar, ekspertin dəyərləndirdiyi metod; kontekt-təhlil, riyazi modelləşdirmə və s.

Ümumi yanaşma qrupunda **invent-təhlil** xüsusi əhəmiyyət kəsb edir. O, situasiyanın şərhində ən əhəmiyyətli fikir və üsulların formalaşmasına kömək edir və bu çərçivədə siyasi proses hadisələr sırası kimi səciyyələnir: məsələn, siyasi liderlər, kütləvi nümayişlər, seçkilər, normativ aktların qəbulu və s. nümunəsində. Həmin hadisələrdən hər biri bütövlükdə situasiyaya bu və ya digər səviyyədə təsir göstərir və onlardan hər birinin arxasında öz mənafeləri naminə fəaliyyət göstərən konkret şəxslər dayanır. Bununla belə, siyasi təhlilə xüsusi yanaşma siyasi hadisələr axınını qaydaya salmağa imkan yaradır.

Siyasi təhlilin bu metodunun nümunəvi sxemi hər şeydən əvvəl, aşağıdakıları nəzərdə tutur:

- siyasi prosesin iştirakçılarını və qeyri-siyasi subyektləri üzə çıxarmaq, bunlar hər bir iştirakçının arxalandığı və

ya bütövlükdə prosesə təsir göstərən qüvvə kimi çıxış edirlər;

- siyasi təsir səviyyəsini və hadisələrin hər bir iştirakçısının və onu müdafiə edən qüvvənin qiymətləndirilməsi;
- siyasi prosesin iştirakçılarının strateji məqsədlərinin və taktiki vəzifələrinin müəyyənləşdirilməsi;
- mümkün olan strateji sazişin və taktiki koalisiyanın aydınlaşdırılması, hadisələrin inkişaf ssenarisinin formalaşması və siyasi prosesin iştirakçısının və subyektinin siyasi situasiyanın inkişafının bu və ya digər ssenarisinin xarakterini qiymətləndirməyə reaksiyası;
- alternativ fəaliyyətin dürüst ifadəsi və onun uğurlarının mümkünlüyünü dəyərləndirmək;
- siyasi situasiyanın inkişaf proqnozunu, eləcə də onların reallaşması üçün vasitə və resursları nəzərə almaqla, fəaliyyətin optimal variantı əsasında bütöv strategiyanın formalaşması[1].

Yürüdülən mülahizələrdən belə qənaətə gəlmək olar ki, ivent-təhlil aşağıdakı sxemdə ardıcıl ifadəsini əks etdirir: siyasi situasiya – hadisə-mühit-iştirakçılar (onların resursları, mənafeləri, qarşılıqlı əlaqəsi) – fəaliyyətin məhdudlaşdırılması – məqsəd və vəzifələr (uğurların və qeyri-uğurların meyarı) – alternativ qərar – ssenari və proqnoz – fəaliyyətin strategiyası[2].

Siyasi təhlilin xüsusi metodlarının və ya ona xüsusi yanaşmanın spesifikliyi onların siyasi təhlil prosesinin strukturuna uyğunluğu, eləcə də analitik və tətbiqi imkanları ilə təzahür edir.

Problemin dürüst mənalandırılması və konseptuallaşdırılması tədqiqatın seçim metodlarının, kontent-təhlilin, müsahibənin, testləşdirmənin, eksperimental metodların tətbiqini nəzərdə tutur və siyasi təhlilin informasiya bazasının genişlənməsinə imkan yaradır. Bununla belə, digər təs-

---

[1] Bax: Яковлев И.Г. Информационно-аналитические технологии и политическое консультирование // Полис. 1998, № 2, с. 131

[2] Bax: Соловьев А.И. Политология. С. 442

vir və keyfiyyət metodlarından da istifadə edilir: tarixi-müqayisəli, normativ, struktur-funksional, sistemli, təsisatlı və başqaları.

Siyasi təhlilə xüsusi yanaşma, başqa sözlə onun xüsusi qrup metodları bütövlükdə siyasi elmin xüsusi elmi metodları olduğu üçün, onların daha spesifik əhəmiyyətə malik olanlarının şərhi vacibdir.

Xüsusi elmi yanaşma sferasına siyasətin özündə işlənib hazırlanmış üsul və qaydalar daxildir. Məsələn, nəzəri oyunun elementlərindən istifadə etməklə, siyasi şəraitin təqlid olunmuş modelləşdirilməsi, siyasi liderin reytinqinin (nüfuzunun) ekspert tərəfindən qiymətləndirilməsi, kompüter texnikasından istifadə etməklə, dövlətin və partiyanın müqayisəli, statistik təhlili və sair xüsusi elmi yanaşmanı səciyyələndirən üsullardır. Təbiət və texnika elmlərinin istifadə etdikləri eksperimenti sosial elmlərdə nəzəri modelləşdirmə əvəz edir. Praktiki məntiqdən kənarda elmi biliklər sferası yoxdur. **F.Hegelin** dəqiq ifadə etdiyi kimi "hər cür elm tətbiqi məntiqdir". Bu dəyərli fikir birmənalı olaraq, xüsusi tətbiqi elm olan siyasi təhlilə də aiddir.

Xüsusi siyasi təhlil metodları sırasında **müqayisəli-tarixi** metod çox əhəmiyyətli yer tutur. Bu metoda (yanaşma üsuluna) konkret təhlil, müqayisəli dövrləşdirmə (siyasi təhlilin mərhələləri baxımdan), xronoloji, retrospektiv, proqramlaşdırma və digər xarakterli tədqiqat üsulları aiddir. Müqayisəli-tarixi yanaşma siyasi situasiyanı və faktları onların təzahür etdiyi şəraitlə sıx əlaqədə öyrənməyə imkan yaradır, digər tərəfdən isə siyasi reallıqların müxtəlif inkişaf mərhələlərində məruz qaldıqları keyfiyyət dəyişikliklərinin dərk olunmasına kömək edir. Həmin metod tarixi inkişaf prosesində dəfələrlə təkrarlanan hadisələrin təhlili üçün olduqca vacib və əhəmiyyətlidir. Siyasi situasiyanın və hadisələrin, siyasi prosesin müqayisəli təhlili metodu oxşar və fərqli prinsiplərə, siyasi təsisatların deduktiv nəzəri modelinə və onların dürüstləşdirilməsinin induktiv metoduna (diaxron-tarixi və sinxron empirik üsulların köməyilə) əsaslanır.

Siyasi prosesləri fərqləndirmək baxımından məqsədyönlü yanaşma olmaq etibarilə, müqayisəli-tarixi metod tədqiqatçını tarixi prosesləri vulqarlaşdırmaqdan və hər cür təhrifçi düşüncə tərzindən uzaqlaşdırır, müasir və tarixi təcrübəni ümumiləşdirməkdə ona kömək edir. Siyasi proseslərin ayrı-ayrı mərhələlərinin və dövrlərinin müqayisəsi həmin prosesin inkişafının obyektiv qanunauyğunluqlarını üzə çıxarmağa yardım göstərir. Müqayisəli-tarixi metod eləcə də siyasi hadisələri xronoloji ardıcıllıqla öyrənməyə imkan yaradır. Bu metoda aid olan retrospektiv üsul siyasi elmin proqnozlaşdırma funksiyasının inkişafına təsir göstərir.

Siyasi təhlilin xüsusi metodu kimi səciyyələnən **eksperimental üsul** oyun şəkilində modelləşdirmənin spesifik forması kimi həyata keçirilir. Tədqiq edilən proses və ya hadisə tədqiqatçı politoloq tərəfindən oyun şəraiti yaradılması vasitəsilə dərk olunur. Belə ki, bu və ya digər siyasi hadisənin inkişafını tədqiq etməklə (münaqişəni, danışıqları, parlamentin iclasını və s.) tədqiqatçı ya real prosesin inkişafını qabaqcadan dərk etmək imkanı əldə edir və ya həmin prosesin daxili mexanizmini açmağa nail olur.

Siyasi təhlil prosesində statistik materialların təhlili də vacibdir. O, politologiyanın qarşısında yeni imkanlar açır. Müvafiq texniki vasitəyə malik olan tədqiqatçı əldə olunmuş məlumatdan texniki təhlil zamanı ən zərurisini qəbul edir, qanunauyğunluqları izləyir, meylləri üzə çıxarır. Statistik materialların təhlili metodunun əhəmiyyəti bundan ibarətdir ki, o, vaxt və məkan məhdudluğundan uzaqlaşmağa imkan yaradır.

Siyasi təhlil üçün **sistemli yanaşma** xüsusi əhəmiyyət kəsb edir. Məhz bu metod vasitəsilə siyasəti kompleks hadisə və proses kimi öyrənmək, bu və ya digər siyasi hadisənin ümumi inkişafı zəminində onun daha dəyərli ünsürlərini üzə çıxarmaq, həmin ünsürlərin qarşılıqlı asılılığını və bir-birini şərtləndirdiyini müəyyənləşdirmək mümkündür.

Müasir siyasi elmin (politologiyanın) səciyyəvi cəhətlərindən biri ondan ibarətdir ki, siyasi bilik sferasında sistemli

ideyalar və təsəvvürlər geniş yayılır, mexaniki, bəsit görüşlər isə sıxışdırılıb aradan çıxarılır. Sistemli metodun təşəkkülü və inkişafı klassik elmi biliklərin struktur formalarının və metodoloji əsaslarının yenidən mənalandırılması ilə bağlıdır. Bu isə tədqiqat obyektinə kompleks yanaşma zərurətindən irəli gəlir.

Sistemli yanaşmanın fərqləndirici xüsusiyyətlərindən digəri situasiyanın, siyasi hadisələrin siyasi təhlilində tədqiqatın strategiyasının xüsusi formada işlənib hazırlanmasına tələbatdır. Həmin metodun digər səciyyəvi cəhəti tədqiqat işinin başlanğıc mərhələsində obyektin vahid konseptual modelinin yaradılmasıdır. Bu isə öz növbəsində tədqiqat probleminin dəqiq qaydaya salınmasını tələb edir. Tədqiqatın bütün komponentləri qarşıya qoyulan yeganə məqsədə tabe edilməlidir. Əks halda, Amerika tədqiqatçısı **E.Kveydin** qeyd etdiyi kimi, "qarşıya qoyulan problemin həll edilməməsi imkanı yaranır"[1].

Sistemli yanaşma çərçivəsində formal analitik aspektin işlənib hazırlanmasına əhəmiyyətli diqqət yetirilir. Müxtəlif elmlərin nümayəndələri ümumi sistem nəzəriyyəsinin (banisi **Bertalanfi** hesab edilir) müxtəlif formal variantlarını və ixtisaslaşdırılmış sistem konsepsiyalarını irəli sürürlər. Bu meyl siyasi elm və təbii ki, siyasi təhlil çərçivəsində də təzahür edir. Bununla əlaqədar olaraq tədqiqat işində istifadə olunan anlayışların əməliyatlaşdırılması problemi meydana çıxır ki, bunsuz nə irəli sürülən fərziyyənin, ehtimalların empirik yoxlanılması, nə də bunların nəzəri səviyyədə ciddi müzakirəsi mümkün deyildir. Məsələn, əhalinin siyasi fəallığının əməliyyatlaşma səviyyəsinə yaxınlaşmaq üçün o, özündə iki cəhəti birləşdirməlidir: birincisi, siyasi fəallığın konkret təzahür kanallarını (seçkilərdə, siyasi yığıncaqlarda iştirak etmək, mətbuatda çıxış etmək və s.) və ikincisi, siyasi həyatda iştirakın cəmiyyətin bütün siyasi sferasını tam əhatə

[1] Bax: Квейд Е. Методы системного анализа. – В. кн. Новое в теории и практике управления производством в США. М., 1971, с. 85

etmə dərəcəsini. Sistemli siyasi tədqiqatın ən əhəmiyyətli prinsiplərindən biri obyektin xarici mühitlə qarşılıqlı fəaliyyətinə diqqət yetirməsidir. Ümumiyyətlə, sistemli yanaşmanın bütün komponentləri və prinsipləri siyasi proseslərin tədqiqində özünə məxsus rol oynayırlar.

Siyasi təhlillə bağlı diqqət yetirilməsi vacib olan məsələlərdən digəri **siyasi məsləhətləşmədir**. Siyasi məsləhətləşmə texnoloji həlqənin tərkib hissəsi olmaqla, bir sıra siyasi prosesləri təmin edən mexanizm statusunu yaxın vaxtlarda əldə etmişdir. XX əsr ərzində məsləhətləşmə təsisatı, tədricən siyasi həyatın müxtəlif sahələrində idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi mexanizmi kimi qərarlaşdı. Hazırda məsləhətləşmə sosial və siyasi proseslərin ixtisaslaşdırılmış təhlil təsisatına çevrilmişdir. Bir sözlə, siyasi məsləhətləşmə siyasi təşkilatların rəhbərlərinə və ümumi heyətinə işgüzar fəaliyyətləri əsasında ixtisaslaşmış məsələləri həll etməkdə yardım göstərilməsidir.

Siyasi sferada məsləhətləşmənin vəzifələri aşağıdakılardan ibarətdir:

- Ölkə və beynəlxalq aləmdəki müasir təcrübəni nəzərə alaraq, situasiyanı obyektiv və qərəzsiz qiymətləndirmək əsasında təşkilat rəhbərliyinə onu maraqlandıran məsələlərdə düzgün məsləhət vermək;
- Mövcud məsləhəti lazımi şəxsə müvafiq formada, onun üçün vacib olan vaxtda və əlverişli yerdə təklif etmək;
- sifarişçinin idarəetmə fəaliyyətində rəsmi işgüzarlığı azaltmaq, qəbul edilən qərarların etibarlılığını artırmaq;
- effektli idarəetmə metodlarına yiyələnməkdə təşkilat rəhbərliyinə və ümumi heyətə kömək etmək.

İdarəetmə situasiyasının, şəraitinin və sifarişçinin tələbinin çoxluğuna baxmayaraq, siyasi məsləhətləşmə bir qayda olaraq iki formada həyata keçirilir: reflektiv (qeyri-ixtiyari) və oyun məsləhətləşməsi formasında.

Reflektiv məsləhətləşmə bu və ya digər tövsiyənin məsləhətçinin özü tərəfindən dürüst müəyyənləşdirilməsini nəzərdə tutur. Belə halda məsləhətçi nəinki rəhbərin fəaliyyə-

tini gizlincə istiqamətləndirən rol oynayır və eləcə də öz məsləhəti ilə onu müxtəlif peşəkar fəaliyyətinin aspektləri haqqında xüsusi düşünməyə sövq edir.

Buna görə, məsləhətçi öz biliklərini nümayiş etdirməklə, sifarişçiyə məqsədyönlü təsir göstərir və eyni zamanda onun biliyinə hörmət, məxvi ünsiyyət çərçivəsində öz şəxsi keyfiyyətlərindən istifadə edərək, rəhbəri işinin taleyi üçün həyəcan siqnalı ilə silahlandırır. Məsləhətləşmənin həyata keçirilməsinin **ikinci – oyun üsulundan** o zaman istifadə olunur ki, məsləhətçi ya öz tövsiyəsindən işdə istifadə ediləcəyinə şübhə edir və ya o özü sona qədər dəqiq və aydın tövsiyə formalaşdırmağa qadir olmur və əlavə informasiya əldə etməyə ehtiyac duyur. Belə halda məsləhətçi iki oyun formasından istifadə edir: ya zahirən təşkilatdakı (ölkə, region üzrə) situasiyaya oxşar mücərrəd situasiyanı təqlid edən "məşq" xarakterli və ya məhz mövcud təşkilatda yeri olan və problemli xarakterə malik şəraiti modelləşdirən "praktiki" oyun üsulundan. Oyun forması situasiyanın tədqiqinin daha mürəkkəb, **canlı** metodologiyası kimi səciyyələnir (hadisələrin inkişafının qiymətləndirilməsi və dəqiqləşdirilməsi üçün istifadə edilir). Bir qayda olaraq, onların hamısı özündə üç başlıca mərhələni əks etdlirir: situasiyanın diaqnozu, qərarın işlənib hazırlanması və qarşıya qoyulan məqsədlərin reallaşması.

Məsləhətçinin tipologiyası daha çox onun ixtisas biliklərinin səviyyəsinə görə yayılmışdır. Bu kontekstdə xüsusilə fərqləndirilən bunlardır: "alim", "tədqiqatçı", "ekspert". Məsləhətçi – "alim" ya geniş sferada və ya daha məhdud predmet sahəsində elmi görüşlərin daşıyıcısının vəzifələrini yerinə yetirir.

Məsləhətçi – "tədqiqatçı" da elmi axtarışlarla məşğul olur. Lakin o, sifarişçinin tələb etdiyi məhdud problemləri öyrənən mütəxəssisdir.

Məsləhətçinin üçüncü tipi hesab edilən məsləhətçi "ekspert" əsasən məhdud siyasi münasibətlər sahəsinə aid olan mütəxəssis – praktik kimi səciyyələnir: kütləvi informasiya

vasitələrinin seçki qərargahının işi üzrə, seçki strukturlarında mənafelərin uyğunlaşdırılması ilə bağlı, siyasi proqnozlaşdırma ilə əlaqədar və s. Öz-özlüyündə **ekspertiza**, qərarların qəbulunda istifadə etmək üçün qabaqcadan təyin edilmiş obyektin məzmun, keyfiyyət və kəmiyyət etibarilə, qiymətləndirilməsinə aid yüksək ixtisaslı mütəxəssis-peşəkarların mülahizələridir. Siyasi analitikin peşə statusu, qərarı qəbul edən şəxsin-sifarişçinin marağına uyğun olan bütün problemlər sahəsində fundamental, xüsusi biliklərə yiyələnməyi nəzərdə tutmur.

Ekspertiza ekspertlər arasında **informasiya mübadiləsi** formasında və həmin mübadiləsiz, gizli və açıq formada **fərdi və kollektiv** birturlu və çoxturlu olur. Ekspertin rəyinin müxtəlif sahələrə tətbiqi siyasi təhlil aparatı praktikasında ondan kifayət qədər çoxcəhətli istifadə olunmasına istiqamətlənir.

Məsləhətçinin tipologiyasına aid digər mülahizələr də mövcuddur. Bəzi mütəxəssislər, xüsusilə **M.Kubr** məsləhətçini bu cür fərqləndirir: **"resurslara görə məsləhətçi" və "proseslə bağlı olan məsləhətçi"**.

Ümumiyyətlə, sifarişçi və məsləhətçi məsləhətləşmə prosesini zəruri qarşılıqlı fəaliyyət kimi dərk etməlidir. Peşəkar informasiyanın mütəxəssisi və daşıyıcısı olmaq etibarilə, onlar problemi müxtəlif cür nəzərdən keçirə bilərlər, lakin onun xarakterinin müəyyənləşdirilməsinə və həlli yollarını işləyib hazırlamağa birlikdə diqqət yetirməlidirlər. Ən başlıcası ondan ibarətdir ki, məsləhətçi öz "sifarişçisinin" ona müraciətinin əsil səbəbini aydınlaşdırmalıdır. Belə bir hal daha geniş yayılmışdır ki, məsləhətçi yalnız bir problemin həlli üçün dəvət edilir (məsələn, dövlət qulluqçularının əməyinin effektinin azalması ilə bağlı), lakin əslində, təşkilatda digər problem də mövcuddur (təşkilatın ümumi heyəti ilə rəhbərlik arasında münasibətlərin pisləşməsi). Buna görə belə problemlər dairəsini aydınlaşdırmaq məqsədilə, məsləhətçi problemli şəraitin izahına istiqamətlənən məsələnin **ilk diaqnozunu** verməlidir, onu dəvət edən strukturların fəa-

liyyətində nəzərə çarpan güclü və zəif tərəfləri müəyyənləşdirməlidir. Məsləhətləşmənin bu cür diaqnozlu nəticələri "Diaqnoz haqqında hesabat" kimi "sifarişçiyə" təqdim edilir və beləliklə, gələcəkdə əməkdaşlığın planı müəyyənləşdirilir.

III FƏSİL
Siyasi qərarların qəbulu

1. Siyasi qərarın mahiyyəti və hazırlanması texnologiyası

Qərarın qəbulu sosial proseslərin idarə edilməsində siyasi hakimiyyətin texnoloji cəhətdən dəyişdirilməsidir. Qərarların qəbulunun reallaşması effektliyi ilərəetmə rejiminin müdafiəsi dərəcəsinə və nüfuzuna bilavasitə təsir göstərir. Siyasi sistemin fəaliyyəti, onun təsisatları və cəmiyyətdə hakimiyyətin həyata keçirilməsi xeyli dərəcədə qərarların qəbulu üsulundan və onların həyata keçirilməsi effektliyindən asılıdır.

İnsan fəaliyyətinin növü olmaq etibarilə, siyasi qərarın qəbulu elmi ədəbiyyatda üç başlıca aspektdə təhlil edilir: siyasi fəaliyyətin ən mühüm tərəfi nöqteyi-nəzərdən, cəmiyyətin idarə olunmasının mərkəzi elementi kimi və bütövlükdə siyasi prosesin əhəmiyyətli tərkib hissəsi baxımından, **ən ümumi formada siyasi qərar subyektin müəyyən nəticələrin əldə olunmasına istiqamətlənən fəaliyyət siyasəti sistemini seçməsidir.**

O, həmçinin siyasi fəaliyyətin iki (və ya bir neçə) mümkün variantlarından birinin müəyyənləşdirilməsi ola bilər. Siyasi qərar özündə həm məqsədin müəyyənləşdirilməsini və eləcə də reallaşmasının üsulunu (vasitəsini) əks etdirməklə, idarəetmə sferasında fəaliyyətin mərkəzi elementi kimi çıxış edir.

Hazırda siyasi elmdə qərarın qəbulu prosesinin başa düşülməsinə aid iki başlıca yanaşma mövcuddur: normativ və davranış. **Normativ** nəzəriyyə (**R.Abelson, A.Levi** və b.)

qərarın qəbulunu siyasi məqsədlərin mürəkkəb situasiyada rasional seçimi kimi şərh edir, eləcə də sənədlərin hazırlanması və qəbulu üçün standart sxemlərdən və modellərdən istifadə olunmasını əks etdirir. **Davranış** nəzəriyyə **(O.Saymon, Q.Heyl** və b.) isə bu prosesi (qərarın qəbulunu) qərarın konkret situasiyada qəbuluna təsir göstərən-müxtəlif amillərin təsvirinə istiqamətlənən insanların spesifik qarşılıqlı fəaliyyəti kimi nəzərdən keçirir. "Qərarın qəbulu" termini ilk dəfə XX əsrin 30-cu illərində Amerika alimləri **C.Bernard, E.Stin** və başqalarının əsərlərində sosial və təşkilati desentralizasiyanın səciyyələndirilməsi üçün istifadə olunmuşdur. Bu nəzəriyyənin əsil intibahı həmin yüzilliyin 60-cı illərində başladı. Hazırki şəraitdə onun bir sıra elm sahələri – iqtisadi nəzəriyyə, sosiallogiya, politologiya və eləcə də sosial proseslərin modelləşdirilməsi ilə qovuşuğunda intensiv surətdə yeni istiqamətlərinin işlənib hazırlanması müşahidə olunur. Qərarın qəbul olunması hər dəfə yenidən təşəkkül tapan şəraitdə öz hərəkətlərinin bütöv proqramını formalaşdıran konkret subyektlərin qarşılıqlı fəaliyyətinin unikal üsulu kimi səciyyələnir. Buna görə **L.Plankett və Q.Neyl** hesab edirlər ki, qərarın qəbulu situasiyalı prosesdir, bu prosesdə onun məqsədləri, metodları və digər komponentləri konkret problemin mövcudluğunun bütün kompleksinin dəyişməsindən asılı olaraq daim dəyişikliyə məruz qalır[1].

Siyasi qərarın təhlilinin çətinliyi onun çoxmənalılığı ilə bağlıdır. Belə ki, siyasi qərar problemin yaranması, onun aktuallaşması və həllindən irəli gəlir. Eyni zamanda məqsədin əldə edilməsi üsulu və siyasi toqquşmaların həlli vasitəsi kimi səciyyələnir. Unutmaq olmaz ki, qərar psixoloji qaydada hadisə, başqa sözlə, onu qəbul edənin iradi gücü kimi başa düşülə bilər. Nəhayət, siyasi qərar müəyyən çoxluqdan seçim variantı fəaliyyətidir. Deyilənlərə bunu da əlavə et-

[1] Bax: Планкетт Л., Нейл Г. Выработка и припятие управленческих решений. М., 1984

mək lazımdır ki, hər cür siyasi qərar müəyyən zəminlərdə yaranan konkret siyasi problemin həlli üçün şəxs və ya kollektiv (hakimiyyət və idarəetmə orqanı) tərəfindən qəbul edilir. Buna görə, onun həlli obyektiv və subyektiv amillərin təhlili ilə bağlıdır.

Politoloji ədəbiyyatda **siyasi qərarların qəbulunun** müxtəlif modelləri araşdırılır və təhlil olunur. **A.Bodnar** tərəfindən işlənib hazırlanan model buna misal ola bilər. O, bu istiqamətdə dörd mərhələni fərqləndirir: mənafelərin ifadəsi, problemin dürüst ifadəsi və təhlili, qərarın qəbulu,qərarın icrası.

Həmin modelə görə, hər bir qərarın qəbulu prosesi ilk öncə, mənafelərin **təmsil olunması (ifadəçi)** ilə bağlıdır. İctimai tələbatların ödənilməməsi haqqında xəbərdarlıq ictimai kanallar sistemi vasitəsilə qərarı qəbul etmək hüququna malik olan strukturlara və ya mərkəzə çatdırılır. Həmin ictimai kanallar sisteminə nümayəndəli orqanlar, siyasi partnyorlar, ictimai təşkilatlar və ya təzyiq qrupları, kütləvi informasiya vasitələri, müdiriyyət və s. aiddir. Mənafelərin təmsil olunması prosesində müəyyən sosiotexnika vasitəsilə ictimai rəyin formalaşması prosesi gedir. Bu sosiotexnikanı nüfuzlu şəxslərin iştirakı ilə müxtəlif ictimai komitələrin fəaliyyəti, tələb və təkliflərin kütləvi informasiya vasitələrində çap olunması, həlli tələb olunan problemə aid elmi işlərin (konsepsiyaların) yayılması və başqaları təşkil edir.

Problemin **dürüst ifadəsi və təhlili mərhələsi** özündə başlıca informasiya əsasında və siyasi qərarın alternativ imkanlarının müəyyənləşdirilməsi zəminində siyasi situasiyanın öyrənilməsini əks etlirir. Qərarın qəbulunun bu mərhələsində fəaliyyətin mümkün variantlarının əsaslandırılması zəminində diskussiyaların təşkili mühüm əhəmiyyət kəsb edir. Bunun üçün daxil olan informasiyanın xarakteri, həcmi və dəqiqliyi xüsusi rol oynayır.

Qərarın seçimi (qəbulu) mərhələsi iki başlıca üsulla həyata keçirilir: konsensusun (həmrəylik əsasında) və ya kompromisin əldə olunması və eləcə də səsvermə yolu ilə.

Qərarın icrası hər şeydən əvvəl, dövlət inzibati orqanlarının, qulluqçularının idarəetmə fəaliyyəti ilə əlaqədarlır, onlar zəruri peşə biliklərinə və vərdişlərinə yiyələnməlidirlər. Qəbul olunmuş qərarın həyata keçirilməsi prosesində müvafiq vasitə və metodların seçimi xüsusi əhəmiyyətə malikdir. Belə səciyyəli model müəyyən məhdudluq kəsb edir və sabit inkişaf edən plüralist cəmiyyət şəraitində tətbiq olunur.

Ümumiyyətlə, siyasi qərar kateqoriyası politoloji ədəbiyyatda müxtəlif cür müəyyənləşdirilir:

Qərar həmişə seçki aktıdır. O, şəxslər və ya insan qruplarının fəaliyyətinin başlanğıcında qəbul edilir.

Qərar alternativin müəyyənləşdirilməsidir. Qərarın qəbulu hər bir idarəetmə funksiyasının tərkib hissəsidir, bu hər cür təşkilatın idarəetməsinin inteqral cəhətidir.

Siyasi qərar müxtəlif qrupların siyasi tələblərinin dəyişməsinin mərkəzi elementidir. O, siyasət sferasında müəyyən nəticələrin əldə olunması məqsədilə, siyasi tədbirlərin həyata keçirilməsini nəzərdə tutan qətnamədir. Siyasi qərar mümkün olan iki siyasi fəaliyyətdən birinin (ən azı) seçilməsidir.

Qərarın formalaşması prosesinin texnologiyası aşağıdakı mərhələlərdən ibarətdir:

- problemin öyənilməsi;
- başlıca informasiyanın təhlili;
- alternativ qərarın qiymətləndirilməsi və optimal variantın seçilməsi;
- qərarın qəbulu;
- nəzərdə tutulan icranın reallaşması;
- icraya nəzarət;
- nəticənin qiymətləndirilməsi.

Müxtəlif təşkilatlarda qərarın qəbulu və reallaşması prosesinin öyrənilməsi bu prosesin modelinin işlənib hazırlanmasının əsasını təşkil edir. Model hər bir mərhələnin qarşılıqlı əlaqəsini təmin etməklə, onun həyata keçirilməsinə aid göstərişi özündə əks etdirir. Texnologiyaya əməl edilməsi qərarın qəbulu prosesinin rasionallaşdırılmasına imkan

yaradır.

Siyasi qərarın tipologiyasını müxtəlif sistem əmələ gətirən əlamətlər üzrə həyata keçirmək olar:

Qərarı qəbul edən subyektə görə:

- qanunvericilik qərarı, bunun təhlili parlamentarizm prosesinin öyrənilməsi üçün vacibdir;
- normativ akt formasında dövlət orqanlarının qəbul etdiyi qərar, o, perspektiv və çevik idarəetmə üçün xüsusi əhəmiyyət kəsb edir;
- siyasi partiyaların qəbul etdiyi qərar – elektorata istiqamətlənən, qrup halında ictimai rəyi ifadə edən vasitə kimi səciyyələnir;
- ümumdövlət və regional mənafelərin əlaqələndirilməsi vasitəsi olan yerli hakimiyyət sistemində qəbul edilən qərar.

Sosial mənafelərin inteqrasiyası səviyyəsinə görə:

- ictimai həyatın ayrıca sferalarının inkişaf proqramları haqqında;
- seçki kampaniyasının keçirilməsi barədə;
- əhalinin bu və ya digər kateqoriyalarının müdafiə edilməsi haqqında;
- milli-ərazi quruluşu barədə.

Digər əlamətlər üzrə təsnifat:

- böyük sosial qrupların vəziyyətinə və ya ictimai həyatın sferalarına toxunan fundamental qərar, eləcə də mövcud siyasi sistemdə qərarın qəbulu modeli;
- qanunvericilik aktları sisteminə aid olan, cəmiyyətin xeyli üzvlərinin statusuna və hüququna toxunan qərar. Bu, qərarın qəbulu üçün yeni üsulları və qaydaları müəyyən edir;
- azsaylı şəxslərə aid olan qərar. Belə qərarlar faktiki olaraq, inzibati və ya hüquqi xarakter daşıyır.

Təsnifatın digər bir sxemi:

- təşkilati qərar – bu, rəhbər tərəfindən edilən seçimdir, o, tutduğu vəzifə ilə şərtlənən borcunu yerinə yetirməlidir. Təşkilati qərarın məqsədi təşkilatın vəzifələrinin reallaşması

yolu ilə hərəkəti təmin etməkdən ibarətdir. Təşkilati qərarlarda aşağıdakı iki cəhət fərqləndirilir:

- proqramlaşdırılmış qərar – müəyyən ardıcıllıqla atılan addımların və fəaliyyətin reallaşdırılmasının nəticələri;
- proqramlaşdırılmamış qərar. Belə qərarlar müəyyən yenilik kəsb edən, daxilən strukturlaşmayan və ya məlum olmayan amillərlə birləşən situasiyalarda tələb olunurlar.

Praktikada idarəetmə qərarlarının az hissəsi təmiz şəkildə proqramlaşdırılmış və ya proqramlaşdırılmamış formada tətbiq edilir.

Dövlət siyasətinin formalaşmasının həyata keçirilməsi texnologiyası predmetin seçilməsindən və dövlət idarəçiliyinin xarakterindən, dövlətin maliyyə imkanlarından və bir sıra digər amillərdən (məsələn, digər dövlətlər qarşısında qəbul etdiyi öhdəlikdən) asılıdır. Eyni zamanda, qərarın qəbulunda mənafelərin uyğunlaşdırılmasına istiqamətlənən məqsəd və vəzifələri əlaqələndirən universal texnoloji həlqələr **proqnozlaşdırma, planlaşdırma və proqramlaşdırmadır**.

Sosial proqnozlaşdırma ideyası XX əsrin 20-30-cu illərində reallaşmışdır. Həmin əsrdə 50-ci illərin sonu və 60-cı illərdə proqnozlaşdırmanın metodoloji və metodiki məsələlərinin intensiv şəkildə işlənib hazırlanması həyata keçirildi. Siyasi proqnozlaşdırma siyasi proqnozların işlənib hazırlanmasıdır. O, siyasi hadisə və proseslərin kəmiyyətcə inkişaf perspektivinin elmi tədqiqidir. Bu inkişaf əsasən kəmiyyət etibarilə qiymətləndirilir, özü də hadisə və proseslərin dəyişikliyə məruz qalmasını çox və ya az müddətdə müəyyənləşdirmək şərtilə. Siyasi proqnozlaşdırma bu və ya digər prosesin inkişaf meylini və perspektivini onların keçmiş və indiki vəziyyətinə dair göstəricilərin təhlili əsasında müəyyənləşdirilməsidir. Dövlət idarəçiliyi obyektinin bütövlükdə nəzərdən keçirilməsi, proqnozun strukturunda **retrospektiv və perspektivli** hadisələrin qiymətləndirilməsini görməyə imkan yaradır. Buna görə, hər bir komponent sosial dinamikanın ölçülməsinin vahid prinsipinə əsaslanır. Daxili komponentlərin nisbəti **axtarılan və ya normativ** proqnoz-

laşdırmanın xarakterindən asılı olaraq dəyişir. Axtarış proqnozlaşdırması inkişafın daha mümkün ola bilən meylinin müəyyənləşdirilməsinə istiqamətlənir. Normativ proqnozlaşdırma isə şüurlu surətdə qarşıya qoyulan məqsədlərin əldə edilməsinə doğru aparan konkret fəaliyyətin ifadəsi ilə bağlıdır. Ümumiyyətlə, proqnozlaşdırma resurslardan, vaxtdan, siyasi qüvvələrdən çıxış edərək, inkişaf variantını müəyyənləşdirmək və daha münasib, optimal olanı seçməkdir, onların reallaşmasını təmin etməkdən ibarətdir.

Planlaşdırma bir qayda olaraq siyasi inkişaf məqsədlərinin elmi cəhətdən müəyyənləşdirilməsi və müəyyən aralıq müddətində (qısa və uzunmüddətli) onların reallaşdırılması vasitəsi kimi çıxış edir. Planlaşdırma sosial-siyasi amillərin və ehtiyatların planlı tənzimlənməsinə tabe olmağa istiqamətlənir. Planlaşdırmanın müasir xüsusiyyətlərindən biri ondan iğarətdir ki, onun elmi səviyyəsi getdikcə yüksəlir. Bu, öz konkret ifadəsini onda tapır ki, planlaşdırmanın işlənib hazırlanmasından əvvəl, proqnozlaşdırma göstəricilərindən daha sürətlə istifadə edilir.

Planlaşdırmanın texnologiyasının məzmunu və üsulu **strateji və taktiki** xarakterdən asılı olaraq konkretləşir. Strateji planlaşdırma üçün xeyli dərəcədə uzunmüddətli fəaliyyət üsullarına istiqamətlənmək səciyyəvidir, onları qiymətləndirmək baxımdan çoxlu amillər və ziddiyyətli meyarlar mövcuddur. Bu belə bir suala aydınlıq gətirir ki, dövlət miqyasında nə üçün məhz ortamüddətli və qısamüddətli planlaşdırma daha effektlidir. Dövlət siyasətinin formalaşmasının texnoloji üsulunun daha bir tipi **proqnozlaşdırmadır**. Proqramlaşdırma ümumi mənada hər hansı fəaliyyət üçün proqram hazırlamaq və tərtib etmək prosesi olmaqla, yerinə yetirilməsi müəyyən məqsədlərin əldə olunmasına gətirib çıxarır[1]. Latın dilində sərəncam, plan mənasını ifadə edən **proqram** fəaliyyətin məzmunu və planıdır, eləcə də siyasi subyektlərin, təşkilatların və digər təsisatların başlıca vəzifə

[1] Bax: Məcid Əfəndiyev. Sosiologiya. S. 416

məqsədlərinin ifadəsidir. Proqram konkret problemlərin həllinə istiqamətlənən tədbirlər məcmuudur.

Tətbiq edilən proqramlaşdırılmış texnologiyanın xarakterini müəyyən edən başlıca problem, dövlət orqanlarının funksional-struktur dağınıqlığını aradan qaldırmağa qadir olan **vahid** metodoloji əsasın yaradılmasından ibarətdir. Son nəticədə proqramlaşdırma faktiki olaraq, əldə edilən nəticələrin üzə çıxarılmasına və ölçülməsinə istiqamətlənir.

2. Qərarın qəbulu metodları və reallaşması

Siyasi prosesin mövcud mərhələsində qərarın qəbulu metodları idarəetmənin strukturunda təşəkkül tapan, həll edilməli olan məsələlərin spesifikliyindən və ənənələrdən asılıdır. Adətən, qərarın qəbuluna yanaşma üç cür nəzərə çarpır: intuitiv qərar, mülahizələrə əsaslanan qərar və rasional qərar.

İntuitiv qərarlar çox vaxt onun düzgünlüyünün yalnız dərk edilməyə əsaslanması ilə səciyyələnir. İdarəetmə üzrə mütəxəssis **P.Şodorbek** göstərir ki, problem haqqında informasiyanın sayının artması orta pillə rəhbərlərinin qəbul etdiyi qərara gözə çarpan dərəcədə kömək edə bilər, hakimiyyətin yüksək səviyyəsində hələlik intuitiv mülahizələrə əsaslanmaq olar.

Mülahizələrə əsaslanan qərarlar. Nə qədər ki, belə qərarların məntiqi, ehtimal olunan deyil, onlar sanki intuitivdir. Mülahizələrə əsaslanan qərarlar biliklərlə və toplanmış təcrübə ilə şərtlənən seçimdir.

Rasional qərarlar. Rasional və mülahizələrə əsaslanan qərarlar arasında başlıca fərq ondan ibarətdir ki, birinci keçmiş təcrübədən asılı deyildir. Rasional qərar obyektiv analitik proseslərin köməyi ilə əsaslandırılır. Problemin həlli üçün tək-tək qərar deyil, məhz alternativ seçimlərin məcmuu tələb olunur.

Müasir ədəbiyyatda qərarların qəbuluna aid müxtəlif metodlar təklif edilir. Lakin bütövlükdə görkəmli politoloq

P.Şaranın işləyib hazırladığı metodlar daha məqbul hesab olunur. O, **Ç.Lindblomun, A.Ettisionun** tədqiqat işlərinə əsaslanaraq, siyasi qərarların işlənib hazırlanması üçün üç başlıca metodu fərqləndirir: rasional – hər şeyi qavrayan (və ya "köklü metod"), ardıcıl məhdudlaşdırıcı müqayisələr ("şaxələnən metod") və qarışıq metod.

Köklü metod siyasi qüvvələrin əməkdaşlığı üçün əlverişli şəraitin mövcud olduğu, məcburetmə və münaqişələr təzahür etmədiyi zaman istifadə edilir, o, konkret problemlərin fərqləndirilməsinə, ayrılıqda nəzərdən keçirilməsinə, sistemli daxil olan informasiya əsasında rasional təhlilinə imkan yaradır. Belə halda qərarın qəbul olunduğu mərkəz zəruri resursları, obyektiv informasiyanı tələb edir. Bu metod sanki məsələnin həllinin ideal planıdır, hərtərəfli informasiyanın toplanmasını nəzərdə iuian "düzgün təfəkkürün" nəticəsidir.

Eyni zamanda aydındır ki, siyasətçilər praktikada optimal fəaliyyətdən daha çox, fəaliyyətin mümkün olan tərzindən çıxış edirlər. Beləliklə, praktikada "köklü metod" daha çox tətbiq oluna bilər.

Köklü metod aşağıdakı şərtlərə əsaslanır:

- konkret problem digər problemlərdən təcrid edilə bilər və ya öz əhəmiyyətinə görə onların arasında fərqləndirilə bilər;
- məqsədlər və dəyərlər seçilir və onların əhəmiyyətinə görə yerbəyer edilir;
- məqsədlərə və ya dəyərlərə nail olan bütün məlum yanaşmalar;
- bu və ya digər qərarın həyata keçirilməsinin nəticələri və xərcləri qabaqcadan nəzərdə tutulmalı və müqayisə edilməlidir;
- son nəticədə qarşıya qoyulan məqsədlərə daha çox dərəcədə uyğun gələn seçimə cəhd edilir.

"Rasional – hər şeyi qavrayan" metod əsasında qərar qəbul olunması mürəkkəb məsələdir, çünki ətraf şəraitə aid informasiya toplamaq üçün xeyli resursların mövcudluğunu nəzərdə tutur.

"Şaxələnən metod "kifayət qədər ağıllı", son dərəcə praqmatik xarakter daşıyan qərarların qəbuluna istiqamətlənən bir sıra tədbirləri səciyyələndirir. Belə metod konkret situasiyaya müvafiq olaraq, ardıcıl addımların artmasına yol verir, fəaliyyətin maksimum effekti variantına yox, məhz daha məqbul sayılanına istiqamətlənir. Bu, məhdud imkanlarla çevik qərarların qəbulu zərurəti, uyğun gəlməyən mövqelərin yaxınlaşdırılması və bu kimi digər mürəkkəb məsələlərlə bağlıdır. Belə şəraitdə köklü qərarların qəbulu az effektli olur.

"Şaxələnmiş metodla" qəbul edilən qərar aşağıdakı səciyyəvi əlamətlərlə fərqlənir:

- kiçik konkret addımlar həmişə müəyyən məqsədlərin əldə edilməsinə istiqamətlənir;
- resurslar məhduddur, strategiyanın mövcud anı üçün mümkün olan bütün spektri və qəbul olunan qərarların tam həcmini nəzərdən keçirmək mümkün deyildir;
- qərarı qəbul edərkən nəzərə almaq lazımdır ki, siyasət heç vaxt "birdəfəlik və həmişəlik" müəyyən olunmur, o sonsuz və yaxın variantlar arasında müqayisə vasitəsilə "edilir" və "düzəldilir";
- "şaxələnmiş metod" praktikada maksimum effektə deyil, müəyyən kafiliyə (kifayətlənməyə) istiqamətlənir. Ağıllı siyasətçi başa düşür ki, strategiya adətən qarşıya qoyulan məqsədin məhz bir hissəsinə nail olur;
- siyasi təsir uğrunda rəqabət aparan xeyli mənafe qruplarının mövcudluğunu nəzərə alaraq, siyasi qərarların qəbulunda **"plüralist"** konsepsiyaya əsaslanmaq lazımdır.

Bu metod siyasətdə tədricən, təkamül yolu ilə dəyişikliklər aparılmasına imkan yaradır.

Qarışıq metod özündə qərarın qəbulunun yuxarıda qeyd etdiyimiz variantlarının elementlərini birləşdirir. Rasional yanaşmağa əsaslanan miqyaslı, köklü qərarlar yaranan problemlərlə dəqiq əlaqələndirilərək nəzərdən keçirilməlidir. Bunun nəticəsində köklü qərarın tez dəyişən şəraitə uyğunlaşması effekti əldə edilir. Qarışıq metod siyasi qərar-

ların qəbulunun miqyaslı, köklü problemlərini, eləcə də bu qərarların qəbul olunmasından sonra onların daha da işlənib hazırlanmasını (müşahidə olunmasını) təmin edir. Bu, rasional təhlilin problemin ayrıca elementləri ilə qarışığı və digər problemlərin tədricən, təfərrüatına qədər təhlili yolu ilə əldə edilir.

Qərarın qəbul olunmasının bu və ya digər metodunun müsbət və mənfi cəhətlərini nəzərə alaraq, bir sıra alimlər və xüsusilə **A.Ettision** qarışıq metodun böyük məhsuldarlıq kəsb etdiyini təkidlə qeyd edir. Onun fikrincə, bu metod bir tərəfdən, cəmiyyətin siyasi problemlərinə geniş rasional görüşləri və onların ümumi, tipik xüsusiyyətlərini nəzərdə tutur, digər tərəfdən isə konkret şəraitdə yaranan hər hzansı bir problemin işlənib hazırlanması üçün ziddiyyətlərin dərin əsasını açıqlayan təsəvvürlərdən istifadə olunmasını ifadə edir. Konkret məsələlərin tənzimlənməsi üçün ümumnəzəri, rasional bilikləri ardıcıl tətbiq etməklə, effektli siyasi idarəetməyə nail olmaq mümkündür. Dövlət idarəçiliyi sferası spesifikliyi, özünəməxsus xüsusiyyətləri ilə səciyyələnir. Siyasi qüvvələrin nisbəti, siniflərin və millətlərin mənafeləri öz ifadəsini müxtəlif hakimiyyət orqanlarının konkret qərarlarında və digər şəxslərin və strukturların predmetli fəaliyyətində tapır. Bu isə təsadüfi deyil, çünki dövlət ən müxtəlif məsələləri həll edir: siyasi kursu işləyib hazırlamaqdan xüsusi şəxslərin müraciətinə reaksiya verməyə qədər (məsələn, icarə ilə böyük imarətlərin tikilməsi, xüsusi istirahət yerlərinin təşkili və s.). Qərarların qəbulu prosesinin spesifikliyinə hər şeydən əvvəl, dövlət idarəçiliyinin **leqallığı** təsir göstərir. Buna görə, dövlətin məqsədyönlü səylərinin başlıca obyekti bütövlükdə cəmiyyətdir.

Eyni zamanda, cəmiyyət idarəetməyə miqyaslı və mürəkkəb xarakter təlqin edir, lakin eləcə də qərarların qəbulu prosesində status imkanlarına malik olur. Başqa sözlə, ümumi kollektiv məqsədlərin işlənib hazırlanmasında nəinki nəzərdə tutulan səlahiyyətli peşəkarlar, eləcə də müəyyən hüquq və imtiyazlara malik olan müxtəlif kütləvi və qrup

halında olan birliklərin nümayəndələri iştirak edirlər. Buna görə, dövlətin qəbul etdiyi qərar **peşəkarlarla ictimaiyyətin** fasiləsiz dialoqu ilə müşahidə olunur və həmin proses idarə edənlərlə idarə olunanların birgə iştirakı forması kəsb edir. Beləliklə, ən ümumi formada eyniləşmək prosesi (dövlət adından "qərar qəbul edən şəxsin" müəyyən edilməsi, başqa sözlə, məsələnin məzmununu real müəyyənləşdirən və layihələşdirilmiş fəaliyyət üçün məsuliyyəti öz üzərinə götürən) dövlət idarəçiliyinin **inzibati strukturunun**, siyasi elitanın müxtəlif qruplaşmalarının (idarə edən və müxalifətçi), **ictimaiyyəti təmsil edən orqanların** (partiyalar, təzyiq qrupları, KİV və b.) **nümayəndələrinin** daimi qarşılıqlı fəaliyyətidir.

Qərarı qəbul edən şəxsin eyniləşməsi (identivliyi) prosesinin kəskinliyi nəinki mənafelərin rəqabətini və eləcə də şəxsi ambisiyaları, hissləri, əhval-ruhiyyəni, yanlışlığı və s. ifadə edir. Bu prosesin son dərəcə mürəkkəbliyini nəzərə alan Amerika alimləri **B.Hoqvid və L.Qann** hesab edirlər ki, həmin prosesdə xeyli fərdi və qrup halında iştirak etmək prinsip etibarilə, sosial problemlərin qiymətləndirilməsinə rasional yanaşmağı və onun həllini şübhə altında qoyur[1].

Dövlət qərarlarının işlənib hazırlanmasına çoxsaylı təzyiq qrupları (lobbi və s.) daha fəal təsir göstərirlər. Onlar iqtisadi, maliyyə, informasiya və digər ictimai resurslara real surətdə nəzarət etməklə, insanların mənafelərini təmsil edirlər. Təzyiq qrupları özlərinin maraq sferalarını əsasən təsərrüfat problemləri ilə məhdudlaşdırırlar.

3. Qərarın qəbulu mərhələləri

Məntiqi nöqteyi-nəzərdən hər bir qərarın qəbulu müəyyən mərhələlərlə bağlıdır. Bir qayda olaraq, qərarın qəbulu prosesi nəzəriyyədə müxtəlif nöqteyi-nəzərdən fərqləndirilir.

Bütövlükdə siyasi qərarın qəbulunun üç başlıca mərhələsi müəyyənləşdirilir: **hazırlıq, məqsədlərin qoyuluşu və onla-**

[1] Hoqwood B. W. Cunn L. Policy Analysis for the Real World. Oxford. 1984

rın reallaşması mərhələləri.

Hazırlıq mərhələsində ümumi sosial kontekstdə elə tələblər və münaqişələr seçilir ki, onlar siyasi xarakter daşıyır. Beləliklə, siyasi vasitələrlə və tənzimləmə metodları ilə həlli zəruri sayılan gündəlik məsələ, başqa sözlə problemlər məcmuu formalaşır.

Hakim rejimin siyasi hadisələri qabaqcadan duyması, böhranın yarana bilməsinə mane olması ən mühüm problemlərin müəyyənləşdirilməsit bacarığından asılıdır. Bir qayda olaraq, bu mərhələdə müxtəlif qruplar belə bir məsələnin başa düşülməsini müdafiə edirlər ki, vacib ictimai problemlər hansı ardıcıllıqla müəyyən ediləcəkdir. Bu və ya digər sosial məsələlərin aktuallığına seçim münasibəti müxtəlif ola bilər. Belə seçim ideoloji tələblərlə, hakim dairələrin nümayəndələrinin istəyi ilə, şəxsi rəğbətlə, keçmiş təcrübə ilə və digər səbəblərlə şərtlənir. Vacib sosial problemlərə qeyri-diqqətli münasibət səfərbəredici meyllə müəyyənləşə bilər **(A.Baxrax)**, başqa sözlə, əhalinin bu və ya digər ehtiyaclarını hakimiyyətin lazımınca dərk etməməsi və ya ona əhəmiyyət verməməsi ilə şərtlənir. Bu prosesdə müxtəlif formal (parlament komitələri və komissiyaları, lobbi qrupları) və qeyri-formal (siyasətçilərin şəxsiyyətlərarası birlikləri, ekspertlər və s.) strukturlar fəal rol oynayırlar.

Hazırlıq mərhələsində istifadə edilən texnologiya aşağıdakı fəaliyyət çərçivəsində tətbiq edilir: situasiyanın təhlilində problem axtarışı; problemin mövcudluğunu qəbul edərkən dövlət üç alternativ arasındakıları seçir: 1. Ona öz neytral münasibətini bildirmək və ya bu və digər mövqeyi dürüst ifadə etmək; 2. Onun reallaşması üçün fəaliyyətə başlamağı qəsdən ləngitmək; 3. Onun həlli üçün fəal işə başlamaq. Sonuncu halda dövlət də bəzi fəaliyyət variantlarına malik olur və lazım gəldikdə onu tətbiq edir. Bir qayda olaraq, dövlət problemləri müxtəlif konseptual və nəzəri yanaşmalar çərçivəsində nəzərdən keçirir. Bu, mürəkkəb və miqyaslı məsələlərin məzmununu dəqiqləşdirməyə imkan yaradır.

"Gündəlik məsələnin" işlənib hazırlanması üçün baş-

lıca şərt informasiyanın alınmasıdır. O, idarə edənlər üçün xüsusi problemli situasiya yaradır: bu və ya digər məsələyə necə münasibət bəsləmək. Buna görə, qərarın qəbulu sahəsində görkəmli mütəxəssis sayılan **E.Kveydin** qeyd etdiyi kimi, informasiya elə prinsipial məqamlar haqqında əldə edilməlidir ki, qərarın qəbulu zamanı nəzərə alınsın. Belə zərurət sosial proseslər haqqında düzgün məlumatın toplanması və onların yenidən işlənməsi üçün qərarı qəbul edən orqanların imkanlarının mövcudluğunu nəzərdə tutur. Hazırlıq mərhələsində yaranan bir sıra problemlər və ziddiyyətlər qərarın qəbulunun digər mərhələlərində həll edilə bilər. Buraya qərarın qəbulu subyektinin identivliyini (eyniləşməsini), hakim və müxalifət elitalarını, idarəetmə aparatının liderləri ilə texniki heyəti arasındakı ziddiyyəti və b. aid etmək olar.

Son nəticədə hazırlıq mərhələsinin nəticələri bunlardır: problemli situasiyanın dərk edilməsi, onu təşkil edən məsələlərin iyerarxiyasını müəyyənləşdirmək (başqa sözlə, onların vacibliyini və ümumdövlət mənafeləri nöqteyi-nəzərdən təxirəsalınmazlığını başa düşmək), eləcə də mövcud problemləri dəqiq ifadə etmək. Qısaca desək, bu mərhələ problemin başa düşülməsini onun həlli yolları və vasitələri haqqında təsəvvürdən ayırır. Məsələnin nəzərdə tutulan mürəkkəb həlli onun mahiyyətinin başa düşülməsinin təhrif olunmasına gətirib çıxarmamalıdır. Bu mənada dövlət xadimi müəyyən arxayınlığa yol verməməlidir. Qərarın seçilməsinin həyata keçirildiyi **ikinci mərhələ** (məqsədin qarşıya qoyulması mərhələsi) fəaliyyətin konkret məqsədinin işlənib hazırlanması prosesi ətrafında mərkəzləşir.

Dövlət bu və ya digər problemə aid qərar qəbul edilməsinə maraq göstərərkən, müxtəlif variantları işləyib hazırlamalı və nəzərdən keçirməlidir. Buna görə, idarəetmə orqanları dövlət siyasətinin məqsədini formalaşdırarkən problemin həllinin müxtəlif alternativlərini təhlil və müqayisə edirlər. Ən azı üç alternativ nəzərdən keçirilir: **maksimal, təhlükəsiz** (bitərəf) və **minimal** (ən azı). Onların hər biri öz

"yüksək" (dövlətin fəaliyyətinin resurslardan, informasiyadan, fəaliyyət vaxtından və s. asılılığını ifadə edən) və "aşağı" (problemin özünün varlığına imkan yaradan amillərin mövcudluğu ilə şərtlənən) həddinə malikdir və bu mərhələdə başlıca analitik məsələ hesab olunur (**Q.Sterlinq**).

Dövlət idarəçiliyi sferasında aydın şəkildə problemli situasiyaların **üç tipi** və onlara müvafiq olaraq, üç məsələ öyrənilir. Həmin məsələlərə aiddir: 1. **Yaxşı strukturlaşdırılan** (standart) – müəyyən şəraitin təzahürü ilə əlaqədar dövlət orqanlarının vaxtaşırı həll etdiyi məsələ, 2. Zəif strukturlaşdırılan – bu məsələnin həlli zamanı proqnozlar tam inandırıcı nəticələr vermir, 3. Nəhayət, üçüncü mərhələyə aid olan – strukturlaşmayan məsələ. Onun qiymətləndirilməsi zamanı yaxşı olanın obyektiv meyarı bilinmir, nə məqsədlər, nə vasitələr nöqteyi-nəzərdən başa düşülmür. Qarşıya qoyulan məqsədlər mərhələsində son nəticədə gələcək fəaliyyətin daha üstün modelinin seçilməsi zəruridir, əlbəttə, onun başlıca parametrlərinin digər modellərin parametrləri ilə müqayisəsi şərtilə.

Qərarın qəbulunun üçüncü (sonuncu) mərhələsi **məqsədlərin reallaşması** adlanır. Bu mərhələdə hakimiyyət mərkəzləri qəbul etdikləri qərarı həyata keçirirlər. İdarəetmə qərarlarının reallaşmasının sonuncu mərhələsi münaqişələrin artması ilə səciyyələnir, çünki qərar heç də siyasətin bütün subyektlərini qane etmir, buna baxmayaraq bu və ya digər dərəcədə onların istifadə etməsi üçün qəbul olunmalıdır. Buna görə, hakimiyyətə qarşı yalnız müxalifət deyil, eləcə də çox vaxt hakimiyyətin aşağı orqanları çıxış edəcəklər (qəbul edilmiş qərarın öz ehtiyac və mənafelərinə uyğunlaşdırılması üçün). Qərarın reallaşması icraedici orqanların rolunu kəskin şəkildə artırır, bu isə onların süni surətdə öz səlahiyyətlərini artırmasına və hətta qanunu pozmalarına gətirib çıxara bilər. Qərarın qəbulu məhz məqsədə uğurlu nail olmaq imkanıdır, buna görə, məqsədin seçilməsi üçüncü mərhələnin mövcudluğunun zəminidir, həmin mərhələnin mahiyyəti müvafiq qərarların dövlət tərəfindən reallaşdırılmasından ibarətdir. Bu mərhələnin başlıca xüsusiyyəti idarə

edilənlərin cəlb olunması hesabına idarəetmə silsiləsi iştirakçılarının sayının genişləndirilməsindən ibarətdir. Çünki dövlət bir qayda olaraq qərarın yerinə yetirilməsini yalnız və bir o qədər də qərarın qəbulunda iştirak edənlər vasitəsilə həyata keçirmir, digər tərəfdən bu qərar əvvəldən geniş strukturlar dairəsinə və vətəndaşlara, eləcə də qərarın əleyhidarlarına hesablanır.

Siyasi praktikada bu və ya digər qərarın seçiminin həyata keçirilməsi üçün iki metoddan istifadə edilir:

- kompromis (konsensus) yolu;
- səsvermə yolu.

Politoloji ədəbiyyatda qərarların reallaşmasının bir neçə başlıca tipləri fərqləndirilir: populizm, elitarlıq, mühafizəkarlıq, demokratiklik və radikallıq. Siyasi kursun həyata keçirilməsində bu tiplərdən hər birinə hakimiyyətin tənzimlənməsinin müəyyən metodları, hakimiyyət və əhalinin qarşılıqlı münasibətinin xarakteri, hökmranlığın informasiya rejimi uyğun gəlir.

Populizm hakimiyyətin məqsədlərinin əldə edilməsinin başlıca vasitəsi kimi ictimai rəyə birbaşa apellyasiyanı (güvənməyi), bilavasitə kütləvi əhval-ruhiyyəyə arxalanmağı nəzərdə tutur. İdarəetmənin növlərindən biri olmaq etibarilə, populizm siyasi situasiyanın sadələşməsinə, bəzi hallarda isə cəmiyyət üçün nəzərdə tutulan məqsədlərin vulqarlaşdırılmasına (bayağılaşdırılmasına) istiqamətlənir. İdarə edən elita əhaliyə səslənən hər hansı şüarın, çağırışın işlənib hazırlanmasına cəhd edir, guya bunların reallaşması bütün ziddiyyətlərin aradan qaldırılmasını, tezliklə uğurlar qazanılmasını təmin edir. **Populizm harizmalı idarəetmədə daha aydın təzahür edir**.

Elitarlıq vətəndaşların nəinki qərarların işlənib hazırlanmasında, həmçinin onlara düzəliş edilməsində iştirakının qarşısını almağa istiqamətlənir. O, elə bir xətdir ki, siyasi qərarların bütün mərhələlərdə qəbulu qapalı xarakter daşıyır. Hakimiyyətin gizli aparat mexanizmlərinin fəaliyyəti geniş yayılır.

Mühafizəkarlıq hər cür ictimai dəyişikliklər zamanı, hakimiyyətin özünün bu və ya digər təsisatlarının, strukturlarının və ya münasibətlərinin saxlanmasına imkan yaradan qərarların qəbuluna qətiyyətli cəhdini səciyyələndirir: idarəetmənin belə metodu sabit siyasi rejimlərdə təzahür edir. Bu, vətənpərvərlik əhval-ruhiyyəsini gücləndirir, ictimai və siyasi orqanizmin bütövlüyünün saxlanmasına xidmət edir.

Demokratiklik vətəndaşların real tələbatına və ehtiyaclarına, onların ayrılmaz hüquq və azadlıqlarının təcəssümünə istiqamətlənir. Demokratik siyasət insanların hakimiyyətlə əməkdaşlıq arzusuna inam bəxş edir. Seçki üsullarına əməl etmək, hakimiyyətin bölünməsi prinsipi, müxalifətə sivil münasibət bir qayda olaraq, siyasi idarəetmə mexanizmindən sərt sosial məcburetmə vasitəsini kənarlaşdırır.

Radikallıq siyasi idarəetməyə birbaşa zidd olan nəticələr doğurur. O, cəmiyyətdə təsadüfi hallarda vətəndaş sülhünü və əhalinin həyatının yaxşılaşmasını təmin edir[1].

Son nəticədə qarşıya qoyulan məqsədə və cəmiyyətin vəziyyətinə uyğun gələn əsaslandırılmış qərar, onun inkişafının başlıca səbəblərindən biridir. Qərarın qəbulu nəzəriyyəsinin başlıca tələblərindən istifadə etmək bacarığı siyasi sistemlərin intensiv dəyişməsi, onların transformasiyası və modernləşməsində xüsusi əhəmiyyət kəsb edir.

Siyasi qərarların reallaşması siyasi tənzimlənmənin düşünülmüş və dəqiq **müvafiq vasitə və metodlarının seçilməsini** tələb edir. Bu seçim xeyli dərəcədə siyasi rejimin xarakterindən, hakimiyyət elitasının xüsusiyyətlərindən, konkret-siyasi situasiyadan (siyasi qüvvələrin nisbəti, ictimai sabitliyin səviyyəsi, beynəlxalq şərait və s.) asılıdır. Məsələn, totalitar və avtoritar rejimlərdə bir qayda olaraq, qərarların qəbulunda inzibati-amirlik metoduna üstünlük verilir. Bu metod xeyli miqyasda məcburetmədən, ümumi tədbirlərdən, kütlələrə ideoloji təsir vasitəsindən istifadə elilməsini nəzərə tutur, buna baxmayaraq praqmatik məqsədlərə tabe olan rasional

[1] Bax: Основы политической науки. Ч. II. Общество "Знание" России, 1993, с. 156-157

fəaliyyətdən də imtina etmir.

Demokratik oriyentasiyalı cəmiyyətdə lüzumsuz ideoloji məqamlardan azad olan siyasi qərarların reallaşmasının rasional üsullarına üstünlük verilir. Bununla belə, demokratik şəraitdə də ictimai şüuru çaşdırmağa köklənən, hakim rəylə bağlı olan texnologiyadan, eləcə də inzibati – güc təsiri metodundan da geniş istifadə olunur. Siyasi fəaliyyət prosesində hakimiyyətin və idarəetmənin aşağı strukturlarının siyasi qərarı zəiflətməsi və təhrif etməsi imkanlarını nəzərə almaq lazımdır, çünki onlar çox vaxt bu və ya digər göstərişi öz səlahiyyətlərinə və mənafelərinə uyğunlaşdırmağa cəhd edirlər. Buna görə, qərarın reallaşması gedişində etiraz etmək imkanlarının məhdudlaşdırılması tələbini gözləmək zəruridir. Əgər problemin təhlili və qərarın qəbulu mərhələsində alternativ variantın irəli sürülməsi və müdafiəsi siyasi fəaliyyətin effektivliyinə xidmət edirsə, belə halda onun reallaşması prosesində rəqibin etirafı qərarın qəbulunun çətinləşməsinə gətirib çıxarır. Eləcə də bütün idarəetmə vertikalının (şaquli xəttinin) hüquqi səlahiyyətinin qayğısına qalmaq, onun bütün həlqələrinin qərarın qəbulu mərkəzinin tələblərinə durmadan tabe olması vacibdir. Qərarın reallaşması gedişində informasiya ilə təmin olunmaq xüsusi əhəmiyyət kəsb edir. Nəinki idarəetmə strukturlarının fəaliyyəti, eləcə də vətəndaşların siyasi davranışının səbəbi, onların ümumi məsələlərin həllində iştirakının dərəcəsi və xarakteri ictimaiyyətin hakimiyyət təsisatlarına təsirindən və aktual problemlərin həllində siyasi qüvvələrin əməkdaşlığının səviyyəsindən, həcmindən və düzgünlüyündən asılıdır. O hakimiyyət güclüdür ki, düşünülmüş və dəqiq siyasi qərarlar qəbul edir və onların ardıcıl surətdə yerinə yetirilməsinə nail olur.

Dövlətin qarşısında duran məsələlərin çoxcəhətli olması qərarın qəbulunun reallaşmasını şərtləndirən iki yarımmərhələnin (üçüncü mərhələyə daxilən aid olan) fərqləndirilməsini zərurətə çevirir və həmin yarımmərhələlərdən hər birinin spesifik texnologiyadan istifadə etməsini nəzərdə tutur:

1. **Məqsədlərin reallaşmasına hazırlıq** yarımmərhələsi

özündə fəaliyyət planının təhlilini, məsələlərin və bir sıra digər tədbirlərin reallaşması üçün resursların axtarışı və tapılmasını əks etdirir;

2. Məqsədlərin reallaşmasının çevik idarə olunması yarımmərhələsi subyektlərin dəlillərini, "ikinci qərarların" qəbulunu (başqa sözlə, situasiyanın inkişafı ilə əlaqədar qərarların dəqiqləşdirilməsi), mövcud prosesin qaydaya salınmasını, resurslardan istifadə edilməsinə və məmurların davranışına nəzarəti nəzərdə tutur.

Hər bir siyasətçi siyasi qərarın qəbulunda öz üsulundan istifadə edir. Bu fərdi metodlar rəhbərin şəxsi xüsusiyyətləri, onun mentaliteti və iradəsi ilə şərtlənir. Qərarın qəbulu üsuluna eləcə də aşağıdakılar təsir göstərir:

- informasiyaya münasibət;
- öz nöqteyi-nəzəri ilə üst-üstə düşən informasiyanı dərk etməyə meyllilik;
- məsələnin bütün tərəfləri haqqında maksimal informasiya almağa cəhd etmək;
- problem haqqında hər cür, həm pozitiv və eləcə də neqativ informasiya almaq, lakin qısa, sxemli şəkildə;
- informasiya axınının istiqamətlənməsi;
- müəyyən böyük cəsarətli cəhdə üstünlük verilməsi;

İnformasiyaya seçimli münasibət təhlükəli və səmərəsizdir. O, çox vaxt hakimiyyəti bir neçə on il əldə saxlamağa çalışan siyasi liderlərdə və totalitar rejimin rəhbərlərində müşahidə edilir.

Maksimal informasiyaya malik olmaq cəhdi səmərəlidir. O, lideri reallığa yaxınlaşdırır. Obyektiv, lakin həddinə qədər ixtisar edilən informasiya çox yayılmışdır, bununla belə, onun qərarın qəbulunda kifayət qədər səmərəli olduğunu düşünmək olmaz.

Siyasi qərarın qəbulu üsulu bu cür ola bilər:

- çevik şəkildə – çox cəsarətli cəhdə meylli olmaq;
- çevik şəkildə – çox cəsarətli cəhdə ehtiyatlı meyl etmək;
- sərt şəkildə – çox cəsarətli cəhdə meylli olmaq;
- sərt şəkildə – ehtiyatlı olmağa meyl etmək.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. **Abdullayev Ə., Azarov A., Hüfner K., Röyter V.** İnsan hüquqları. Beynəlxalq və milli müdafiə mexanizmləri. B., 2008
2. Azərbaycan Respublikasının Konstitusiyası. B., 1995
3. **Əliyev H.Ə.** Müstəqillik yolu. Seçilmiş fikirlər. B., 1997
4. İlham Əliyevin Prezidentliyinin 365 günü və vətəndaş cəmiyyəti. Sosioloji tədqiqat (sentyabr-dekabr) və milli ideologiya: problemlər və onların şərhi. B., 2000
5. **Əliyev B.H., R.V.Cabbarov.** Təhsildə şəxsiyyət problemi. B., 2008
6. **Əfəndiyev M.** Siyasi və hüquqi təlimlər tarixi. B., 2006
7. **Əfəndiyev M. Səadət Məcid qızı.** Şəxsiyyət-mədəniyyət sistemi. Sosial-fəlsəfi təhlil. B., 2008
8. **Əfəndiyev M.** Sosiologiya. B., 2009
9. **Əfəndiyev M.** Siyasi elm. B., 2010
10. **Əsədov A.** Təfəkkürün fəlsəfəsi. B., 2005
11. **Ələkbərova N.İ.** Siyasi elmin tarixi və metodologiyası. B., 2005
12. **Hacıyev Z.** Fəlsəfə. Dərslik. B., 2001
13. **İmanov H.R.** Fəlsəfənin əsasları. B., 2007
14. **Məmmədzadə İ.** Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. B., 2009
15. **Tağıyev Ə., Şükürov M.** Etnopolitologiya. B., 2000.
16. **Yadigar T.** Politologiya. B., 2008
17. **İbadov N.** Müqayisəli politologiya. B., 2010
18. **Mustafayev A.** Fəlsəfədə ziddiyyətlər və münaqişələr problemi. B., 2000
19. **Mehdiyev R.** Azərbaycan: tarixi müstəqillik fəlsəfəsi. B., 2001
20. **Nəbiyev F.** Siyasi təfəkkür. B., 2003
21. **Məmmədov Ə.B., İsmayılov V.İ., Məmmədov F.Ə.** Rasionallıq və qeyri-rasionallıq. B., 2010
22. **Səttarov M.** İnsan və cəmiyyət haqqında düşüncələr. B., 2000
23. **Şirəliyev H., Əhmədov Ə.** Politologiya. B., 1997
24. **Piriyev A., Əfəndiyeva X.** Sosiologiya və politologiya fənnindən mühafizə mətnləri. B., 2009

Rus dilində

25. **Алексеева Т.А.** Современные политические теории. М., 2000
26. **Алмонд Г., Пауэлл Д.Ж., Стром К., Далтон Р.** Сравнитель-

ная политология сегодня. М., 2002
27. **Амелин В.Н.** Социология политики. М., 1992
28. Антология мировой политической мысли. В. 5. м. М., 1999
29. **Аристотель.** Политика. М., 2006
30. **Арон Р.** Демократия и тоталитаризм. М., 1993
31. **Атаман Г.В.** Теория государственного управления: Курс лекций. М., 2009
32. **Баталов Э.** Политическая культура современного американского общества. М., 1992
33. **Бродель Ф.** Политическая наука. Политология вчера и сегодня.
34. **Васильева Н.А.** Политическая наука: проблемы теории и практики. СПб. 1994
35. **Василенко И.А.** Политические процессы на рубежой культур. М., 1998
36. **Василенко И.А.** Политическая глобалистика. М., 2000
37. Введение в социологию международных отношений. Под ред. П.А.Цыганкова. М., 1992
38. **Вебер М.** Политика как призвание профессия. // Избранные произведения. М., 1990
39. **Вятр Е.** Типология политических режимов. Таллин. 1991. Т. 1
40. **Гаврилов Г.А.** Некоторые особенности выборов многомандатным избирательным округам. // Полис. 2006, № 4
41. **Гаджиев К.С.** Политическая наука. М., 1995, 2006. № 4
42. **Гаджиев К.С.** Политология. М., 2009
43. **Талкин А.** Модель партии XX в. // Свободная мысль – XXI. 2000. № 6
44. **Генри М.Р.** Правила парламентской процедур. Вашингтон, 1992
45. Гражданское общество. М., 1994
46. **Грачев М.Н.** Политическая система общества. М., 1997
47. **Грацианский П.С.** Политическая наука во Франции: Критические очерки. М., 1975
48. Демократия и гражданское общество. // Политические исследования. М., 1992. № 4
49. Демократия, ограниченная фальсификациями. М., 1995
50. **Дегтярев А.А.** Политический анализ как прикладная дисциплина. // Полис. 2004, № 1
51. **Дмитриев А.В.** Конфликтология. М., 2000
52. **Дугин А.Т.** Философия политики. М., 2000

53. **Зеркин Д.П.** Основы политологии. Ростов-на-Дону, 1997
54. **Иванов В.Н.** Политическая психология. М., 1990
55. **Ильин В.В., Панарин А.С., Бадовский Д.В.** Политическая антропология. М., 1995
56. **Исаев Б.А.** Теория партий и партийных систем. М., 2008
57. **Истон Д.** Категория системного анализа политики // Антология мировой политической мысли. М., 1997, т.2
58. История политических и правовых учений. / Под ред. О.Э.Леуста.
59. История политических и правовых учений. Древний мир. М., 1985
60. **Квеид Е.** Методы системного анализа. – В кн. Новое в теории и практике управления производством в США. М., 1971
61. **Керимов А.Д.** Современное государство. Вопросы теории. М., 2000
62. **Клюев А.В.** Человек в политическом измерении. СПб. 2000
63. **Козырев Г.И.** Политическая конфликтология. М., 2008
64. **Кибанов А.Я., Ворожейкин И.Е., Захаров Д.К., Коновалова В.Г.** Конфликтология. М., 2008
65. **Кимар К.** Гражданское общество. // Гражданское общество. М., 1994
66. **Лебедева М.М.** Мировая политика в XXI веке. Акторы, процессы, проблемы. М., 2009
67. **Леунхарт А.** Демократии в многосоставных обществах. Сравнительное исследование. М., 1997
68. **Лиман Н.** Власть. М., 2001
69. **Макеев А.В.** Политология. М., 2000
70. **Макиавелли.** Государь М., 1990
71. **Мангей С.Б., Руч Р.К.** Политология. Методы исследования. М., 1997
72. **Мангейм К.** Идеология и утопия. М., 1991
73. **Матвеев Р.Ф.** Теоретическая и практическая политология. М., 1994
74. **Марков Б.В.** Понятие политического. М., 2007
75. **Масловский М.** Политическая социология бюрократии. М., 1997
76. **Матвеев Р.Ф.** Общая теория политических систем. М., 1997
77. **Мелвиль А.Ю.** Демократический транзиты. М., 1999
78. **Мерриам Ч.Э.** Новые аспекты политики. // Антология миро-

вой политической мысли: в. 5. М. 2. М., 1997
79. **Мухаев Р.Т.** Теория политики. М., 2005
80. **Мухаев Р.Т.** Политология. М., 2009
81. Общая и прикладная политология. / Под ред. В.И.Жукова, Б.И.Краснова. М., 2003
82. **Ольшанский Д.В.** Массовые настроения в политике. М., 1995
83. Основы политической науки. Ч. II. Общество "Знание" России, 1993
84. Основы политологии. Курс лекций / Под ред. Р.Т.Яновского. М., 1991
85. **Острогорский М.Я.** Демократия и политические партии. М., 1997
86. **Панарин А.С.** Философия политики. М., 1996.
87. **Парсонс Т.** Система современных обществ. М., 1998
88. **Пивоваров Ю.С.** Политическая культура методологический очерк. М., 1996
89. **Пименов Р.Н.** Происхождение современной власти. М., 1996
90. **Планкетт Л., Неул Г.** Выработка и принятие управленческих решений. М., 1984
91. Политология. Под ред. Марченко. М., 1999
92. Политология. Под общ. ред. В.К.Мокщина, М., 2010
93. Политология: энциклопедический словарь. М., 1993
94. Политология. Под ред. Б.И.Кремова. М., 2002
95. Политическая энциклопедия: В.2. М., 1992, т. 2
96. Политическая наука в Западной Европе / Под ред. Х.Д.Клингемана. М., 2009
97. Политическая теория в XX веке: сб. статей. / Под ред. А.Павлова. М., 2008
98. Политическая энциклопедия: в 2. М. М., 2001
99. Политическая наука. Новые направления. / Под ред. Р.Гудина, х.-Д.Клингемана, Е.Б.Шестопол. М., 1999
100. Политическая социология. / Под ред. Ж.Т.Тощенко. М., 2002
101. Политическая коммуникация. / Под ред. А.И.Соловьева. М., 2005
102. **Пугачев В.П., Соловьев А.И.** Введение в политологию. М., 2003
103. **Пушкарева.** Партии и партийные системы: концепция М.Дюверже. "Сосиально-политической журнал", 1993, № 9-10
104. **Растау Д.А.** Международный отношения. М., 1996

105. **Резник Ю.М.** Гражданское общество как феномен цивилизации. М., 1993
106. **Рзаев А.** История политических и правовых учений в Азербайджане. Б., 2000
107. **Роггоу А.А., Лассуелл Г.Д.** Власть, коррупция и честность. М., 2005
108. **Романовский Н.Б.** Политические партии и партийные системы. М., 1990
109. **Саидов А.Х.** Национальные парламенты. М., 2005
110. **Сапестебан Л.С.** Основы политической науки. М., 1992
111. **Сапестебан Л.** Государство и общество. / Диалог. 1993, № 5-6
112. **Сартори Дж.** Искажение концептов в сравнительной политологии // Полис. 2003, № 3
113. **Сморгнов Л.В.** Изучение "третьев волны", демократизации в сравнительной политологии // Космополис. М., 1999
114. **Соловьев А.И.** Политология. М., 2006
115. **Сорокин П.А.** Человек, цивилизация, общество. М., 1992
116. Социологический энциклопедический словарь. М., 1998
117. **Спиркин А.Г.** Основы философии. М., 1988
118. **Спиркин А.Г.** Философия. М., 2001
119. **Стаут Дж.** Демократия и традиция. М., 2007
120. **Таранов П.** Философия сорока пяти поколений. М., 1999
121. **Токвиль А.** Демократия в Америке. Пер. с фр. М., 1992
122. **Тойнби А.** Постижение истории. М., 2008
123. **Тойнби А.** Цивилизации перед судом истории. М., 1995
124. **Тощенко Ж.Т.** Кланы? Касты? Клики? Как назвать тех, кто правит нами? // Социологические исследования. 1999. № 11
125. **Тошенко Ж.Т., Харченко С.В.** Социальное настроение. М., 1996
126. **Фергюсон А.** Опыт истории гражданского общества: Пер. с. англ., 2000
127. **Франк С.Л.** Духовные основы общества. М., 1992
128. **Хабермас Ю.** Демократия. Разум. Нравственность. М., 1992
129. **Хаузек Ф.** Дорога к рабству. М., 1992
130. **Халипов В.Ф.** Кратология как система наук о власти. М., 1999
131. **Цыганков П.А.** Международные отношения. М., 1996
132. **Цыганков П.А.** Современные политические режимы: структура, типология, динамика. М., 1995
133. **Челлен Р.** Государство как форма жизни. М., 2008

134. **Шмитт К.** Политическая теология. М., 2000
135. **Шмиттер Ф.** Угрозы и дилеммы демократии. // Век XX и мир. 1994, № 7-8
136. **Эндреин Ч.** Сравнительный анализ политических систем. М., 2000
137. Элементы теории политики. Ростов-на-Дону, 1990
138. **Ясперс К.** Смысл и назначение истории. М., 1991


İngilis dilində

139. **Duverjer M.** Reqimes de la science politique. Paris, 1973
140. Politische sozioolоqie. Heidelberq, 1980
141. **Bohman J., Renq W.** Deliberative Democracy. Essays on Reason and Politics. Cambridqe. L., 1997
142. **Huntinqton** S. The Third Wave: Democratization in the Lafe Twentieth Century. London: Norman, 1991.
143. **Schmitter Ph.C.** Democratization. Waves of // Encyclopedia of Democracy. V. 2. New York, 1995.
144. **Zakaria F.** The Rise of Liberal Democracy // Foreiqn Affairs, Nowemberq/ December, 1997. vol. 76. №6.
145. **Heed D.** Democracy and Qlobal Order Cambridqe, 1995.
146. **Rozenbaum W.A.** Politikal cultur: Baris Consept in politikal Science. N.Y. Praeqer publ. 1975.
147. **Morgenthom H.** Politics amonq Nations: The Struqqle for Power and Peacl N.Y. 1978
148. The American Enterprise Institute for Pullic Policy Research, September/October.
149. **Fukuyama F.** The End of History and Last Man. The Free Press. 1992.
150. **Bustow D.A.** Trancition to Democracu: Towards a Dinamic model // Comparative Politics, 1970.
151. **Ereson S., Lane J.-E.** Political stabilit in European Demoracies // European Journal of Political Research. 1983. vol. II.
152. **Osborrne D., Gaebler T.** Reiventinq Government. Univ. of California press. 1992.
153. **Hoqwood B.W., Ginn L.** Policy Analysis for the Real World. Oxford. 1984.

MƏCİD ƏFƏNDİYEV

POLİTOLOGİYA

(Ali məktəblər üçün dərslik)



Mətbəə müdiri:	*Əvəz İdrisoğlu*
Dizayner:	*Vəfa Nağıyeva*
Texniki redaktorlar:	*Ramin Abbasov*
Operator:	*Şahin Abbasov*

Çapa imzalanıb 20.06.2013-cü il
Sayı 500. Həcmi 30,75 ç.v.
Formatı 60x84 $^{1}/_{16}$. Əla növ kağız.

AzTU-nun mətbəəsi. H.Cavid pr.25.
Tel: (+012) 539-14-52
E.mail: aztumetbee@yahoo.com